QURAN MƏLUMATI

Bu Quran insanlar üçün bir bildirişdir.
Qoy onunla həm qorxsunlar, həm
Allahın Tək İlah olduğunu bilsinlər,
həm də ağıl sahibləri düşünüb
ibrət alsınlar.
(İbrahim surəsi, 52)

HARUN YƏHYA
(ADNAN OKTAR)

الله
رسول
محمد

HARUN YƏHYA (ADNAN OKTAR)

QURAN MƏLUMATI

Quranın mövzularına görə ayələri: Allah, Quran-i Kərim, möminlər, münafiqlər, iman etməyənlər, dünya həyatı, Allahın əmr və tövsİyələri və Quran və elm — ayələrin işığında həyatı yenidən qurmaq üçün ən dolğun mənbə.

"Bu Quran insanlar üçün bir bildirişdir. Qoy onunla həm qorxsunlar, həm Allahın Tək İlah olduğunu bilsinlər, həm də ağıl sahibləri düşünüb ibrət alsınlar." (İbrahim surəsi, 52)

— 13 fəsil —

Mündəricat

1 Oxucuya 4

2 Yazıçı və əsərləri haqqında 6

3 Ön söz 10

4 Allah 12

5 Quran-i Kərim 116

6 Möminlər 144

7 Münafiqlər 313

8 İman etməyənlər 361

9 Mövzularına görə ayələr 443

10 Quranda intizam anlayışı 456

11 Dünya həyatı 513

12 Allahın əmr və tövsİyələri 786


13 Quran və elm 961

FƏSİL

Oxucuya

Bu kitabda və digər işlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhdarı olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısilə, Allahın varlığını inkar edən darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu gözlər önünə gətirmək əhəmiyyətli imani bir vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Bu səbəblə, hər kitabımızda bu mövzuya xülasə də olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd edilməsi lazım olan başqa bir xüsus da bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.



Quran — bütün insanlıq üçün hidayət nurudur

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəsə oxunan kitablar" ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan

istifadə etmək istəyən bir qrup oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salıcı yön son dərəcə güclüdür. Bu səbəblə, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin bir qaynağın mövcudluğuna şahid olacaq.

Bu əsərlərdə digər bəzilərində görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, müqəddəsata qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.



Bu Quran insanlar üçün bir bildirişdir

FƏSİL

Yazıçı və əsərləri haqqında

YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 60 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (səv) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-kərimin Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (səv) xatəmül-ənbiya olduğunun rəmzidir. Yazıçı bütün yayımlarında Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu surətlə, inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.



Yazıçının əsərləri 73 dilə tərcümə olunmuşdur

Yazıçının bütün işlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya-herseqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, İndoneziya, Malay, benqal, serb, bolqar, Çin, Danimarka və İsveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqində olar. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın görüş və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq romantik inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan götürülmüşdür. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirliliyindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə

vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı bir maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə gətirildikdə insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.



İmani mövzularda yazılmış 300-dən çox əsər

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aparmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarışıqlıqların, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və qarışıqlıq mühiti diqqətə alındığında bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir

edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaq.

FƏSİL

Ön söz


> *Mən cinləri və insanları ancaq Mənə ibadət etmək üçün yaratdım.*
>
> **(Zəriyət surəsi, 56)**



Quran — sonsuz hikmət sahibi Allahın kəlamı

Allah bütün insanları bu dünya həyatında ONA qulluq etsinlər deyə yaratmışdır. Qulluq etmək istəyənlər üçün də bir rəhbər olaraq Quranı endirmişdir:

> *Bu mübarək Kitabı, insanların onun ayələrini düşünüb anlaması və ağıl sahiblərinin də ondan ibrət götürməsi üçün sənə nazil etdik.*
>
> **(Sad surəsi, 29)**



Quranı anlamaq ağıl və vicdanla mümkündür

Quran yalnız haramları və halalları əhatə edən kitab deyil. İçində gözəl əxlaqı, müxtəlif insan xarakterlərini, meydana gələ biləcək bütün hadisə və vəziyyətləri, dünya həyatı və axirət həyatı ilə əlaqədar məlumatları, Allah qorxusu və sevgisini, Allah rizasının necə qazanılacağını, qısacası Yaradan Rəbbimizin yaratdığına göndərdiyi, lazım olan bütün məlumatı izah edən və qiyamətə qədər etibarlı kitabdır.

Quranı tanımayanlar və ön mühakiməylə baxanlar onun yalnız keçmiş dövrlər üçün etibarlı olduğunu və praktikada heç bir etibarlılığı

olmadığını zənn edərlər. Halbuki Quran bəzilərinin sandığı kimi yalnız 1400 il əvvəlki hadisələrdən bəhs edən kitab deyil, hər dövrdə qarşılaşılan hadisələri və bunun yanında dünya həyatını sona çatdıran qiyamət gününü, axirəti öyrədən bir bələdçidir.

Quranın, insanın həyatındakı əhəmiyyətini və lazımlı olmasının fərqinə varan müsəlmanın Allaha gərəyi kimi qulluq etməsi və bütün həyatını Qurana görə yaşaması üçün, çox yaxşı Quran biliyinə sahib olması lazımdır. Əlinizdəki bu kitab, Allahı tanımanı, qulluq vəzifəsini əskiksiz yerinə yetirməyi, bütün həyatını Qurana görə tənzimləməni, Allahın razılığını, rəhmətini və cənnətini qazanmağı məqsəd edənləri, Quran məlumatlarını gücləndirmək məqsədiylə hazırlanmışdır.

FƏSİL

Allah

O, Özündən başqa heç bir məbud olmayan, qeybi və aşkarı Bilən Allahdır. O Mərhəmətlidir, Rəhmlidir.

O, Özündən başqa heç bir məbud olmayan, Hökmran, Müqəddəs, Pak, haqqı təsdiq edən, hər şeyi müşahidə edən, Qüdrətli, Qadir, Məğrur Allahdır. Allah onların Ona şərik qoşduqlarından ucadır.

> *O, Xaliq, yoxdan Yaradan, Surətverən Allahdır. Ən gözəl adlar yalnız Ona məxsusdur. Göylərdə və yerdə olanların hamısı Onun şəninə tərifləri deyir. O, Qüdrətlidir, Müdrikdir.*
>
> **(Həşr surəsi, 22-24)**

Ondan başqa ilah yoxdur

> *Allah Özündən başqa ibadətə layiq olan məbudun olmadığına şahidlik etdi, mələklər və elm sahibləri də şahidlik etdilər. Allah əbədi olaraq ədalətli olmaqdadır. Ondan başqa ibadətə layiq olan məbud yoxdur, Qüdrətlidir, Müdrikdir.*
>
> **(Ali İmran surəsi, 18)**

Allah: "İki məbuda sitayiş etməyin! O, yalnız Tək bir İlahdır. Yalnız Məndən qorxun!" – dedi.

(Nəhl surəsi, 51)

De: "O Allah Təkdir!

(İxlas surəsi, 1)

O, Allahdır. Ondan başqa ibadətə layiq olan məbud yoxdur. Dünyada da, Axirətdə də həmd Ona məxsusdur. Hökm Onundur və siz Ona qaytarılacaqsınız.

(Qəsas surəsi, 70)

Sizin məbudunuz Tək olan İlahdır. Ondan başqa məbud yoxdur, Mərhəmətlidir, Rəhmlidir.

(Bəqərə surəsi, 163)

Qəlblər Onun idarəsindədir

Amma Allah istəməyincə, siz istəyə bilməzsiniz! Həqiqətən, Allah Biləndir, Müdrikdir!

(İnsan surəsi, 30)

‘Yoxsa onlar sənin barəndə: “O, Allaha qarşı yalan uydurdu” – deyirlər? Əgər Allah istəsə, sənin qəlbinə möhür vurar. Allah batili silib yox edər və haqqı Öz sözləri ilə bərqərar edər. Şübhəsiz ki, O, göylərdə olanları Biləndir.

(Şura surəsi, 24)

Quranı anlamasınlar deyə, Biz onların qəlbinə örtüklər çəkdik, qulaqlarına da tıxac vurduq. Sən Quranda Rəbbinin Tək Allah olduğunu yada saldığın zaman onlar bu dəvətə nifrət edərək arxalarını çevirib gedərlər.

(İsra surəsi, 46)

Bunlar o kəslərdir ki, Allah onların qəlbinə, qulaqlarına və gözlərinə möhür vurmuşdur. Onlar əsl qafildirlər.

(Nəhl surəsi, 108)

Onlar bağladıqları əhd-peymanı pozduqlarına, Allahın ayələrini inkar etdiklərinə, peyğəmbərləri haqsız yerə öldürdüklərinə və: “Qəlblərimiz qapalıdır!” – demələrinə görə lənətə düçar edildilər. Xeyr, küfrləri üzündən Allah onların qəlblərini möhürləmişdir. Onlar olduqca az inanırlar (yaxud onların yalnız az bir hissəsi iman gətirir).

(Nisa surəsi, 155)

Allah onların qəlblərini və qulaqlarını möhürləmiş, gözlərinə də pərdə çəkmişdir. Onlar üçün böyük bir əzab vardır.

(Bəqərə surəsi, 7)

Nəfsinin istəyini ilahiləşdirən şəxsi gördünmü? Allah əzəli elmi sayəsində onu azğınlığa saldı, qulağını və qəlbini möhürlədi, gözünə də pərdə çəkdi. Allahdan başqa kim onu doğru yola yönəldə bilər? Məgər düşünüb anlamırsınız?

(Casiyə surəsi, 23)

İstədiyi hər şeyi edəndir

Gördüyünüz göyləri dirəksiz yüksəldən, sonra da Ərşə ucalan, müəyyən vaxta qədər göydə hərəkət edən günəşi və ayı əmrinə tabe edən Allahdır. O, işləri yoluna qoyur və ayələrini belə izah edir ki, bəlkə Rəbbinizlə qarşılaşacağınıza yəqinliklə inanasınız.

(Rad surəsi, 2)

O, göydən yerə qədər olan bütün işləri idarə edir. Sonra da bu işlər sizin saydığınız illərdən min ilə bərabər olan bir gündə Ona doğru yüksəlir.

(Səcdə surəsi, 5)

Hər şeyi yaradandır

Axı sizi də, sizin düzəltdiklərinizi də Allah yaratmışdır".

(Saffat surəsi, 96)

O, göyləri və yeri icad edəndir. Onun zövcəsi olmadığı halda övladı necə ola bilər? Hər şeyi O xəlq etmişdir. O, hər şeyi bilir.

(Ənam surəsi, 101)

Göylərin və yerin səltənəti Ona məxsusdur. O, Özünə oğul götürməmişdir və səltənətində də şəriki olan yoxdur. O, bütün şeyləri xəlq etmiş və onlara münasib bir biçim vermişdir.

(Furqan surəsi, 2)

Sizi xəlq etdik, sonra sizə surət verdik, sonra da mələklərə: "Adəmə səcdə edin!" – dedik. İblisdən başqa hamısı səcdə etdi. O, səcdə edənlərdən olmadı.

(Əraf surəsi, 11)

Məgər onlar görmürlər ki, göyləri və yeri yaradan Allah onlar kimisini də yaratmağa qadirdir? Allah onlar üçün elə bir əcəl müəyyən etmişdir ki, ona heç bir şəkk-şübhə yoxdur. Zalımlar isə küfrdən başqa bir şey qəbul etmədilər.

(İsra surəsi, 99)

Sözünüzü gizli saxlasanız da, onu açıq desəniz də, fərqi yoxdur, Allah köksələrdə olanları bilir.

(Mülk surəsi, 13)

Yaradan Allah Lətif və hər şeydən Xəbərdar olduğu halda, ola bilərmi ki, O, gizlində və aşkarda olanları bilməsin?

(Mülk surəsi, 14)

Məgər kafirlər göylərlə yer bir olduğu zaman Bizim onları bir-birindən araladığımızı, hər bir canlını sudan yaratdığımızı görmürlərmi? Yenədəmi inanmırlar?

(Ənbiya surəsi, 30)

Ondan başqa qüvvət yoxdur

Məgər onlar yer üzündə gəzib-dolaşıb özlərindən əvvəlkilərin aqibətinin necə olduğunu görmürlərmi? Onlar ki bunlardan daha qüvvətli idilər. Göylərdə və yerdə Allahdan qaçıb xilas ola biləcək heç bir şey yoxdur. Həqiqətən, O, Biləndir və hər şeyə Qadirdir.

(Fatir surəsi, 44)

Ad xalqına gəlincə, onlar yer üzündə haqsızcasına təkəbbür göstərib: "Bizdən daha qüvvətli kim ola bilər?" – dedilər. Məgər onları yaradan Allahın onlardan daha qüvvətli olduğunu görmürdülərmi? Onlar ayələrimizi, sadəcə, inkar edirdilər.

(Fussilət surəsi, 15)

Onların sözləri səni kədərləndirməsin. Çünki qüdrət bütünlüklə Allaha məxsusdur. O, Eşidəndir, Biləndir.

(Yunis surəsi, 65)

İnsanlardan elələri də vardır ki, Allahdan qeyrilərini Ona tay tutur, onları da Allahı sevdikləri kimi sevirlər. İman gətirənlərin isə Allaha olan sevgisi daha güclüdür. Kaş zülm edənlər əzabı gördükləri zaman bütün qüdrət və qüvvətin Allaha məxsus olduğunu və Allahın şiddətli əzab verdiyini görəydilər.

(Bəqərə surəsi, 165)

Allah əzəldən belə yazmışdır: "Mən və elçilərim hökmən qalib gələcəyik!" Həqiqətən, Allah Qüvvətlidir, Qüdrətlidir.

(Mücadilə surəsi, 21)

Biz elçilərimizi aydın dəlillərlə göndərdik və onlarla birlikdə Kitab və tərəzi nazil etdik ki, insanlar ədalətli olsunlar. Biz özündə çox böyük qüvvə və insanlar üçün mənfəətlər olan dəmiri də endirdik ki, Allah, Onu görmədən Ona və elçilərinə kömək göstərənləri üzə çıxartsın. Həqiqətən, Allah Qüvvətlidir, Qüdrətlidir.

(Hədid surəsi, 25)

Bu ona görə idi ki, elçiləri onlara açıq-aydın dəlillər gətirdikləri halda, onlar inkar edirdilər. Buna görə də Allah onları əzabla yaxaladı. Həqiqətən, O, Qüvvətlidir, cəzası da şiddətlidir.

(Mümin surəsi, 22)

Bütün varlıqlar Ona boyun əymişdir

Yoxsa onlar Allahın dinindən başqa bir din axtarırlar? Halbuki göylərdə və yerdə olan hər bir məxluq istər-istəməz Ona təslim olmuş və Ona da qaytarılacaqdır.

(Ali İmran surəsi, 83)

Mən, Rəbbim və Rəbbiniz olan Allaha təvəkkül etdim. Elə bir canlı yoxdur ki, Allah onun kəkilindən tutmuş olmasın. Həqiqətən, Rəbbim ədalətlidir.

(Hud surəsi, 56)

onların belinə, yaxud göyərtəsinə qalxıb yerləşdiyiniz zaman Rəbbinizin nemətini yada salıb deyəsiniz: "Bunu bizə ram edən Allah pakdır, müqəddəsdir. Yoxsa bizim ona gücümüz çatmazdı.

(Zuxruf surəsi, 13)

Biz dağları ona ram etmişdik. Onlar axşam çağı və səhər onunla birlikdə Allahın şəninə təriflər deyirdilər.

(Sad surəsi, 18)

Rəbbinin dəvətini qəbul edənlər üçün ən gözəl nemət (Cənnət) hazırlanmışdır. Onun dəvətini qəbul etməyənlərə gəlincə, yer üzündə olan var-dövlətin hamısı, üstəlik bir o qədəri də onların olsaydı, əzabdan qurtarmaq üçün onu mütləq fidyə verərdilər. Onlarla dəhşətli bir haqq-hesab çəkiləcəkdir. Onların sığınacaqları yer Cəhənnəmdir. Ora nə pis yataqdır!

(Rad surəsi, 18)

Gəmilərin Onun əmri ilə dənizdə üzməsi və sizin də Onun lütfündən axtarmanız üçün dənizi sizin xidmətinizə verən Allahdır. Bəlkə, şükür edəsiniz.

(Casiyə surəsi, 12)

Hər şeyi əhatə edəndir

O dedi: "Ey qövmüm! Məgər mənim qəbiləm sizin üçün Allahdan da əzizdir? Siz Onu saymayıb unutdunuz. Şübhəsiz ki, Rəbbim sizin nə etdiklərinizi əhatə edir.

(Hud surəsi, 92)

Doğrudan da, onlar öz Rəbbi ilə qarşılaşacaqlarına şübhə edirlər. Həqiqətən, O, hər şeyi əhatə edir.

(Fussilət surəsi, 54)

Bir zaman Biz sənə: "Rəbbin insanları əhatə etmişdir" – demişdik. Meracda sənə göstərdiyimiz mənzərəni və Quranda lənətlənmiş ağacı insanlar üçün yalnız bir imtahan etdik. Biz onları qorxuduruq, bu isə onlarda ancaq böyük bir azğınlığı daha da artırır.

(İsra surəsi, 60)

Yeddi göyü və yerdən də bir o qədərini yaradan Allahdır. Vəhy onların arasında ona görə nazil olur ki, Allahın hər şeyə qadir olduğunu və Allahın hər şeyi elmi ilə əhatə etdiyini biləsiniz.

(Talaq surəsi, 12)


Bax belə! Biz onun başına gələnlərin hamısından xəbərdarıq.

(Kəhf surəsi, 91)

Sizin məbudunuz yalnız Ondan başqa heç bir məbud olmayan Allahdır. O, elm ilə hər şeyi əhatə edir".

(Taha surəsi, 98)

> *Onlar öz günahlarını insanlardan gizlədir, Allahdan isə gizlətmirlər (Ondan çəkinmirlər). Halbuki onlar Allahın razı qalmadığı sözləri gecələr xəlvətdə söylədikləri vaxt belə, O, onların yanında olur. Allah onların nə etdiklərini əhatə edir.*
>
> **(Nisa surəsi, 108)**



Göylərdə və yerdə nə varsa, Allaha məxsusdur

> *Göylərdə və yerdə nə varsa, Allaha məxsusdur. Allah hər şeyi əhatə edir.*
>
> **(Nisa surəsi, 126)**

> *Məşriq də, məğrib də Allahındır! Hansı səmtə yönəlsəniz, Allahın Üzü orada olar. Həqiqətən, Allah hər şeyi Əhatəedəndir, Biləndir.*
>
> **(Bəqərə surəsi, 115)**

Qədəri təyin edəndir

Yer üzündə baş verən və sizin başınıza gələn elə bir müsibət yoxdur ki, Biz onu yaratmamışdan əvvəl o, Yazıda müəyyən edilmiş olmasın. Şübhəsiz ki, bu, Allah üçün çox asandır.

(Hədid surəsi, 22)

Biz, həqiqətən də, hər şeyi qədərincə yaratdıq.

(Qamər surəsi, 49)

Bütün işlər sonunda Ona dönür

O gün qayıdış ancaq sənin Rəbbinə olacaqdır.

(Qiyamət surəsi, 12)

Yoxsa onlar ancaq onu gözləyirlər ki, Allah bulud kölgəsində mələklərlə birlikdə gəlsin və iş bitmiş olsun? Bütün işlər Allaha qaytarılacaqdır.

(Bəqərə surəsi, 210)

Yaxşı əməl sahibi olub özünü Allaha təslim edən şəxs ən möhkəm dəstəkdən yapışmış olar. Bütün işlərin sonu Allaha qayıdır.

(Loğman surəsi, 22)

Sonra onlar özlərinin həqiqi Himayədarı olan Allaha qaytarılacaqlar. Hökm yalnız Ona məxsusdur və O, ən tez haqq-hesab çəkəndir.

(Ənam surəsi, 62)

Göylərin və yerin qeybi Allaha məxsusdur. Bütün işlər də Ona qayıdacaqdır. Elə isə yalnız Ona ibadət et və yalnız Ona təvəkkül et. Rəbbin nə etdiklərinizdən xəbərsiz deyildir.

(Hud surəsi, 123)

Göylərdə və yerdə nə varsa, Allaha məxsusdur və axırda bütün işlər Allaha qaytarılacaqdır.

(Ali İmran surəsi, 109)

İstədiyini edəndir

Əgər Allah sizi azdırmaq istəyirsə, mən sizə nəsihət vermək istəsəm belə nəsihətim sizə fayda verməz. O sizin Rəbbinizdir və Ona da qaytarılacaqsınız".

(Hud surəsi, 34)

Rəbbinin istədiyi istisna olmaqla, göylər və yer durduqca onlar orada əbədi qalacaqlar. Həqiqətən, Rəbbin istədiyini edəndir.

(Hud surəsi, 107)

İstəyən onu xatırlayar.

(Müddəssir surəsi, 55)

Bilin ki, Allah istəmədikcə onlar xatırlaya bilməzlər. Mütləq qüdrətindən qorxub çəkinməyə layiq olan da, bağışlamağa qadir olan da Odur!

(Müddəssir surəsi, 56)

Ayələrimizi yalan sayanlar qaranlıqlar içində qalmış karlar və lallardır. Allah istədiyini azdırar, istədiyini isə düz yola yönəldər.

(Ənam surəsi, 39)

Məgər bilmirsən ki, göylərin və yerin hökmranlığı Allaha məxsusdur? O, istədiyinə əzab verər, istədiyini də bağışlayar. Allah hər şeyə qadirdir.

(Maidə surəsi, 40)

> *Rəbbiniz sizi çox yaxşı tanıyır. İstəsə, sizə rəhm edər, istəsə, sizə əzab verər. Biz səni onlara qoruyan göndərməmişik.*
>
> **(İsra surəsi, 54)**

> *Allah iman gətirib yaxşı işlər görənləri ağacları altından çaylar axan Cənnət bağlarına daxil edəcək. Şübhəsiz ki, Allah istədiyini edər.*
>
> **(Həcc surəsi, 14)**

> *Özlərini öyənləri görmürsənmi? Xeyr! Allah istədiyini tərifləyər və onlara xurma çərdəyindəki lif qədər haqsızlıq edilməz.*
>
> **(Nisa surəsi, 49)**

Hər şeyə gücü çatandır

> *Göylərin və yerin qeybi Allaha aiddir. O Saatın gəlməsi bir göz qırpımı kimidir və ya daha tezdir. Həqiqətən, Allah hər şeyə qadirdir.*
>
> **(Nəhl surəsi, 77)**

Şimşək az qalır ki, onların gözlərini çıxartsın. Şimşək hər dəfə onların yolunu işıqlandırdıqda onunla gedirlər, zülmət onları bürüdükdə isə dayanıb dururlar. Əgər Allah istəsəydi, onları eşitməkdən və görməkdən məhrum edərdi. Şübhəsiz ki, Allah hər şeyə qadirdir.

(Bəqərə surəsi, 20)

Hər kəsin üz tutduğu bir qibləsi vardır. Yaxşı işlər görməkdə bir-birinizlə yarışın. Harada olursunuz olun Allah sizin hamınızı bir yerə toplayacaqdır. Şübhəsiz ki, Allah hər şeyə qadirdir.

(Bəqərə surəsi, 148)

Göylərdə və yerdə nə varsa, Allahındır. Siz içərinizdə olanı üzə çıxarsanız da, gizlətsəniz də Allah buna görə sizi hesaba çəkəcək. O, istədiyini bağışlayar, istədiyinə də əzab verər. Allah hər şeyə qadirdir.

(Bəqərə surəsi, 284)

Allah, Ondan başqa ibadətə layiq olan məbud yoxdur, əbədi Yaşayandır, bütün yaratdıqlarının Qəyyumudur. Onu nə mürgü, nə də yuxu tutar. Göylərdə və yerdə nə varsa, Ona məxsusdur. Onun izni olmadan Onun yanında kim havadarlıq edə bilər? O, məxluqatın gələcəyini və keçmişini bilir. Onlar Onun elmindən, Onun istədiyindən başqa heç bir şey qavraya bilməzlər. Onun Kürsüsü göyləri və yeri əhatə edir. Bunları qoruyub saxlamaq Ona ağır gəlmir. O, Ucadır, Uludur.

(Bəqərə surəsi, 255)

Əgər yer üzündəki bütün ağaclar qələm olsaydı, dəniz də mürəkkəb olub ardından ona yeddi dəniz də qatılsaydı, yenə də Allahın Sözləri qurtarmazdı. Həqiqətən, Allah Qüdrətlidir, Müdrikdir.

(Loğman surəsi, 27)

Göyləri, yeri və onlarda yaydığı canlıları yaratması Onun dəlillərindəndir. Allah istədiyi vaxt yaratdıqlarını bir yerə toplamağa qadirdir.

(Şura surəsi, 29)

Siz onların başına ikiqat müsibət gətirmiş olduğunuz halda, başınıza bir müsibət gəldiyi zaman: "Bu, haradan gəldi?" – söylədiniz. De ki: "Bu, sizin özünüzdəndir!" Həqiqətən, Allah hər şeyə qadirdir.

(Ali İmran surəsi, 165)

İmtahan üçün dünya həyatını yaradandır

İnsanlar elə güman edirlər ki, təkcə: "İman gətirdik!" – demələri ilə onlardan əl çəkiləcək və onlar imtahan edilməyəcəklər?

(Ənkəbut surəsi, 2)

Biz onlardan öncəkiləri də sınaqdan keçirmişdik. Sözsüz ki, Allah doğru danışanları da, yalançıları da aşkara çıxardacaqdır.

(Ənkəbut surəsi, 3)

Biz yer üzündə olan bütün şeyləri ona bəzək etdik ki, insanlardan hansının əməlcə daha gözəl olduğunu sınaqdan keçirək.

(Kəhf surəsi, 7)

Biz aranızdakı mücahidləri və səbir edənləri ayırd edib üzə çıxarmaq üçün sizi mütləq sınayacaq və barənizdəki xəbərləri də yoxlayacağıq.

(Məhəmməd surəsi, 31)

İnsanı qarışdırılmış nütfədən yaradaraq onu sınaqdan keçirmək məqsədilə eşidən və görən etdik.

(İnsan surəsi, 2)

Şübhəsiz ki, Biz ona yol göstərdik! Fərqi yoxdur, ya şükür etsin, ya da naşükür olsun.

(İnsan surəsi, 3)

Xeyiri də, şəri də yaradandır

Əgər Allah sənə bir zərər toxundursa, bunu Ondan başqa heç kəs aradan qaldıra bilməz. Əgər sənə bir xeyir diləsə, heç kəs Onun lütfünün qarşısını ala bilməz. O, bunu Öz qullarından istədiyinə nəsib edər. O, Bağışlayandır, Rəhmlidir.

(Yunis surəsi, 107)

Allahın izni olmadan heç kəsə bir müsibət üz verməz. Hər kəs Allaha iman gətirsə, Allah onun qəlbini haqqa yönəldər. Allah hər şeyi bilir.

(Təğabun surəsi, 11)

Hər kəs ölümü dadacaqdır. Biz sizi sınamaq üçün şər və xeyirlə imtahana çəkirik. Siz ancaq Bizə qaytarılacaqsınız!

(Ənbiya surəsi, 35)

Hər şeyə şahid olandır

Sən hansı bir işdə olsan, Qurandan nə oxusan, siz nə iş görsəniz, başınız ona qarışarkən Biz sizə şahid olarıq. Nə yerdə, nə də göydə zərrə qədər bir şey Rəbbindən gizli qalmaz. Bundan daha kiçiyi və daha böyüyü yoxdur ki, açıq-aydın Yazıda (Lövhi-Məhfuzda) olmasın.

(Yunis surəsi, 61)

De: "Mənimlə sizin aranızda Allahın şahid olması yetər. Həqiqətən, O, qullarından Xəbərdardır, nə etdiklərini Görəndir".

(İsra surəsi, 96)

Kafirlər deyirlər: "Sən göndərilmiş elçi deyilsən!" De: "Mənimlə sizin aranızda Allahın və Kitabı bilən kimsələrin şahid olması yetər".

(Rad surəsi, 43)

Quranın haqq olduğu onlara aydın olana qədər, Biz dəlillərimizi onlara həm kainatda, həm də onların özlərində mütləq göstərəcəyik. Məgər Rəbbinin hər şeyə şahid olması kifayət deyil?

(Fussilət surəsi, 53)

Hər şeyi eşidən və görəndir

De: "Allahı qoyub sizə nə bir zərər, nə də bir fayda verə bilməyən şeylərəmi ibadət edirsiniz?" Allah Eşidəndir, Biləndir.

(Maidə surəsi, 76)

Peyğəmbər dedi: "Rəbbim göydə və yerdə deyilən sözləri bilir. O, Eşidəndir, Biləndir!"

(Ənbiya surəsi, 4)

Allah yolunda vuruşun və bilin ki, Allah Eşidəndir, Biləndir!

(Bəqərə surəsi, 244)

Həqiqətən, Allah sizə əmanətləri sahiblərinə qaytarmanızı və insanlar arasında hökm verərkən ədalətlə hökm vermənizi əmr edir. Allahın sizə verdiyi bu öyüd-nəsihət necə də gözəldir! Şübhəsiz ki, Allah Eşidəndir, Görəndir.

(Nisa surəsi, 58)

De: "Onların nə qədər qaldıqlarını Allah daha yaxşı bilir. Göylərin və yerin qeybi ancaq Ona məxsusdur. O, necə gözəl görür, necə də yaxşı eşidir! Onların Ondan başqa heç bir himayədarı yoxdur. O, Öz mülkünə heç kəsi şərik etməz!"

(Kəhf surəsi, 26)

Budur sizin Rəbbiniz olan Allah. Ondan başqa ibadətə layiq olan məbud yoxdur. Hər şeyin Yaradıcısı Allahdır! Elə isə Ona ibadət edin! O, hər şeyi Qoruyandır.

(Ənam surəsi, 102)

Gözlər Onu dərk etmir. O isə gözləri dərk edir. O, Lətifdir, hər şeydən Xəbərdardır.

(Ənam surəsi, 103)

Hər şeyin üzərində qoruyucudur

O dedi: "Daha öncə qardaşını sizə etibar etdiyim kimi, heç onu sizə etibar edə bilərəmmi? Allah daha yaxşı qoruyur. O, rəhmlilərin ən rəhmlisidir".

(Yusif surəsi, 64)

> *O dedi: "Məni sudan qoruyacaq bir dağa sığınacağam!" Nuh dedi: "Bu gün, Allahın rəhm etdiklərindən başqa heç kəs Onun əmrindən qoruna bilməz!" Sonda dalğa onları bir-birindən ayırdı və o, suda boğulanlardan oldu.*
>
> **(Hud surəsi, 43)**

> *Halbuki o, bu insanlar üzərində ixtiyar sahibi deyildi. Biz ancaq axirətə inananla ona şəkk gətirən kimsələri ayırd etmək üçün şeytana belə bir fürsət verdik. Sənin Rəbbin hər şeyi mühafizə edəndir.*
>
> **(Səba surəsi, 21)**

> *Kim yaxşı bir işə vasitəçilik etsə, ona bunun savabından bir pay düşər, kim də pis bir işə vasitəçilik etsə, ona da onun günahdan bir pay düşər. Allah hər şeyi Qoruyandır.*
>
> **(Nisa surəsi, 85)**

Hər şeydən xəbəri olandır

> *Əlif. Ləm. Ra. Bu, Müdrik, hər şeydən Xəbərdar olan Allah tərəfindən, ayələri mükəmməlləşdirilmiş, sonra da ətraflı izah edilmiş bir Kitabdır.*
>
> **(Hud surəsi, 1)**

Allahın sizə göstərdiyi lütfkarlığını və siz: "Eşidirik və itaət edirik!" – dediyiniz zaman sizinlə bağladığı əhdi xatırlayın. Allahdan qorxun! Şübhəsiz ki, O, köksələrdə olanları bilir.

(Maidə surəsi, 7)

O, göylərdə və yerdə olanları bilir. Sizin gizlində və aşkarda nə etdiyinizi də bilir. Allah köksələrdə olanlardan agahdır.

(Təğabun surəsi, 4)

Sən hansı bir işdə olsan, Qurandan nə oxusan, siz nə iş görsəniz, başınız ona qarışarkən Biz sizə şahid olarıq. Nə yerdə, nə də göydə zərrə qədər bir şey Rəbbindən gizli qalmaz. Bundan daha kiçiyi və daha böyüyü yoxdur ki, açıq-aydın Yazıda (Lövhi-Məhfuzda) olmasın.

(Yunis surəsi, 61)

Allahın elçisinin vəzifəsi ancaq təbliğ etməkdir. Allah sizin aşkara çıxardığınızı da, gizlində saxladığınızı da bilir.

(Maidə surəsi, 99)

Söz yoxdur ki, Allah açıq deyilən sözü də, sizin gizlədib saxladıqlarınızı da bilir.

(Ənbiya surəsi, 110)

Baxın, onlar ürəklərini qısırlar (küfrü ört-basdır edirlər) ki, Allahdan gizlənsinlər. Doğrusu, onlar libaslarına büründükdə belə, Allah onların gizli saxladıqlarını da, aşkara çıxartdıqlarını da bilir. Həqiqətən də, O, göklərdə olanları bilir.

(Hud surəsi, 5)

Sən ucadan danışsan da, danışmasan da, fərqi yoxdur. Çünki Allah sirri də, bundan daha gizli olanı da bilir.

(Taha surəsi, 7)

Məgər Allahın göylərdə və yerdə olan hər şeyi bildiyini görmürsən? Üç nəfərin arasında gedən elə bir xəlvəti söhbət yoxdur ki, onların dördüncüsü, beş nəfərin də altıncısı O olmasın. İstər bundan az, istərsə də çox olsunlar – harada olursa olsunlar, Allah onların yanındadır. Sonra Qiyamət günü onlara nə etdiklərini xəbər verəcəkdir. Allah hər şeyi bilir.

(Mücadilə surəsi, 7)

Ey Rəbbimiz! Sən bizim nəyi gizli saxladığımızı və nəyi aşkara çıxartdığımızı bilirsən. Nə yerdə, nə də göydə heç bir şey Allahdan gizli qalmaz.

(İbrahim surəsi, 38)

Hər şeyi bənzərsiz yaradandır

O, göyləri və yeri icad edəndir. Onun zövcəsi olmadığı halda övladı necə ola bilər? Hər şeyi O xəlq etmişdir. O, hər şeyi bilir.

(Ənam surəsi, 101)

Qeybi biləndir

Qeybin açarları Onun yanındadır, Onları yalnız O bilir. O, quruda və dənizdə nələr olduğunu bilir. Onun xəbəri olmadan yerə düşən bir yarpaq belə yoxdur. Yerin qaranlıqlarında elə bir toxum, elə bir yaş və elə bir quru şey yoxdur ki, açıq-aydın Yazıda (Lövhi-Məhfuzda) olmasın.

(Ənam surəsi, 59)

De: "Allahdan başqa göylərdə və yerdə olanların heç biri qeybi bilməz. Onlar nə zaman diriləcəklərini belə bilmirlər.

(Nəml surəsi, 65)

Həqiqətən, o Saat haqqında elm yalnız Allahdadır. Yağışı O yağdırır və bətnlərdə olanı O bilir. Heç kəs sabah nə qazanacağını bilə bilməz; heç kəs harada öləcəyini də bilməz. Allah isə, şübhəsiz ki, Biləndir, Xəbərdardır.

(Loğman surəsi, 34)

Allah deyəcəkdir: "Ey Məryəm oğlu İsa! Sənmi insanlara: "Allahı qoyub məni və anamı iki məbud qəbul edin!" – demişdin?" İsa deyəcək: "Sən pak və müqəddəssən! Haqqım olmayan bir şeyi demək mənə yaraşmaz. Əgər bunu demiş olsaydım, əlbəttə, Sən onu bilərdin. Sən mənim qəlbimdə olanları bilirsən, mən isə Sənin Özündə olanları bilmirəm. Şübhəsiz ki, qeybləri bilən Sənsən!

(Maidə surəsi, 116)

Səndən o Saat barəsində soruşurlar ki, nə vaxt qopacaq? De: "Bu haqda bilgi ancaq Rəbbimə aiddir. Qopacağı vaxtı yalnız O, aşkara çıxara bilər. Bu bilgi göylərə və yerə də ağır gəlir. O sizə qəflətən gələcəkdir". Sanki onu bilirmişsən kimi səndən soruşurlar. De: "Bu haqda bilgi ancaq Allaha aiddir. Lakin insanların çoxu bunu bilmir".

(Əraf surəsi, 187)

Yoxdan var edəndir

Ona belə vəhy olundu: "Ey Zəkəriyya! Səni Yəhya adlı bir oğulla müjdələyirik. Biz bu adı ondan öncə kimsəyə qoymamışıq!"

(Məryəm surəsi, 7)

> *O dedi: "Ey Rəbbim! Zövcəm sonsuz bir qadın ikən, özüm də qocalığın son həddində olduğum halda necə mənim övladım ola bilər?"*
>
> **(Məryəm surəsi, 8)**

> *Mələk dedi: «Bu, belədir, lakin Rəbbin buyurdu: "Bu Mənim üçün asandır. Axı əvvəlcə sənin özünü də sən heç bir şey deyilkən xəlq etmişdim!"»*
>
> **(Məryəm surəsi, 9)**

> *Biz bir şeyi yaratmaq istədikdə, ona ancaq: "Ol!" – deyirik, o da olur.*
>
> **(Nəhl surəsi, 40)**

> *Göyləri və yeri haqq olaraq xəlq edən Odur. O: "Ol!" – dediyi gün hər şey olar. Onun Sözü haqdır. Sur üfürüləcəyi gün hökm yalnız Ona məxsus olacaqdır. Qeybi və aşkarı Bilən də Odur. O, Müdrikdir, hər şeydən Xəbərdardır.*
>
> **(Ənam surəsi, 73)**

> *Göyləri və yeri icad edən Odur. O, bir işi yaratmaq istədikdə ona ancaq: "Ol!" – deyər, o da olar.*
>
> **(Bəqərə surəsi, 117)**

Heç bir şeyə ehtiyacı olmayandır

Kitabdan xəbəri olan bir başqa kimsə isə belə dedi: "Mən onu sənə bir göz qırpımında gətirərəm!" Süleyman taxtı yanında hazır durmuş görən kimi dedi: "Bu, Rəbbimin lütfündəndir ki, məni sınağa çəksin, görək şükür edəcəyəm, yoxsa nankor olacağam! Kim şükür etsə, ancaq öz xeyrinə şükür etmiş olar, kim də nankor olsa, bilsin ki, həqiqətən, Rəbbim onun şükrünə möhtac deyildir, Səxavətlidir!"

(Nəml surəsi, 40)

Cihad edən məhz öz xeyri naminə cihad edər. Allahın aləmlərə qətiyyən ehtiyacı yoxdur.

(Ənkəbut surəsi, 6)

Ey insanlar! Siz Allaha möhtacsınız. Allah isə Zəngindir, Tərifəlayiqdir.

(Fatir surəsi, 15)

Xoş söz demək və xətaları bağışlamaq, minnətlə verilən sədəqədən daha yaxşıdır. Allah Zəngindir, Həlimdir.

(Bəqərə surəsi, 263)

> *Budur, siz Allah yolunda malınızdan xərcləməyə dəvət edilirsiniz. Aranızda isə simiclik edənlər də tapılır. Kim simiclik etsə, ancaq öz əleyhinə etmiş olar. Allah Zəngin, siz isə kasıbsınız. Əgər üz çevirsəniz, yerinizə sizin tayınız olmayan başqa insanlar gətirər.*
>
> **(Məhəmməd surəsi, 38)**

> *Musa dedi: "Əgər siz və yer üzündə olanların hamısı kafir olsanız, Allaha heç bir zərər yetirə bilməzsiniz. Çünki Allah, həqiqətən də, Zəngindir, Tərifəlayiqdir".*
>
> **(İbrahim surəsi, 8)**

Hər varlığın möhtac olduğudur

> *Ey insanlar! Siz Allaha möhtacsınız. Allah isə Zəngindir, Tərifəlayiqdir.*
>
> **(Fatir surəsi, 15)**

> *Allah Möhtac deyildir.*
>
> **(İxlas surəsi, 2)**

Bütün əksikliklərdən uzaqdır

Sizi yaradan, sonra sizə ruzi verən, sonra sizi öldürən, sonra da sizi dirildəcək məhz Allahdır. Şəriklərinizin içərisində bunlardan, heç olmazsa, birini edə bilən varmı? O, pakdır və müşriklərin Ona şərik qoşduqlarından ucadır.


(Rum surəsi, 40)

Məgər onlar göyləri və yeri yaradan, onları yaratmaqla yorulmayan Allahın ölüləri də diriltməyə qadir olduğunu görmürlərmi? Sözsüz ki, O, hər şeyə qadirdir.

(Əhqaf surəsi, 33)

De: "Özünə heç bir övlad götürməyən, mülkündə heç bir şərikі olmayan, aciz qalmamaqdan ötrü Özünə kömək edəcək heç bir dosta möhtac olmayan Allaha həmd olsun!" Onu tərifləyərək uca tut.

(İsra surəsi, 111)



O, Xaliq, yoxdan Yaradandır

> *Məgər onlar yer üzündə gəzib-dolaşıb özlərindən əvvəlkilərin aqibətinin necə olduğunu görmürlərmi? Onlar ki bunlardan daha qüvvətli idilər. Göylərdə və yerdə Allahdan qaçıb xilas ola biləcək heç bir şey yoxdur. Həqiqətən, O, Biləndir və hər şeyə Qadirdir.*
>
> **(Fatir surəsi, 44)**

> *O mömin kişi dedi: "Ey qövmüm! Mənim ardımca gəlin, sizi doğru yola çıxardım.*
>
> **(Mümin surəsi, 38)**

Doğmamış və doğulmamışdır

> *O, nə doğub, nə doğulub,*
>
> **(İxlas surəsi, 3)**

> *Onlar: "Allah Özünə övlad götürmüşdü!" – dedilər. O, pakdır, müqəddəsdir! O, heç nəyə möhtac deyildir. Göylərdə və yerdə nə varsa, Onundur. Buna aid sizdə heç bir dəlil yoxdur. Niyə Allaha qarşı bilmədiklərinizi söyləyirsiniz?*
>
> **(Yunis surəsi, 68)**

Allaha övlad götürmək yaraşmaz. O, pak və müqəddəsdir! O, bir işin olmasını istədikdə ona ancaq "Ol!" – deyər, o da dərhal olar.

(Məryəm surəsi, 35)

Mülkün tək sahibidir

Bilmirsənmi ki, göylərdə və yerdə hökmranlıq təkçə Allaha məxsusdur? Sizin Allahdan başqa nə bir himayəçiniz, nə də bir köməkçiniz vardır.

(Bəqərə surəsi, 107)

Göylərin və yerin açarları Ona məxsusdur. O, istədiyinin ruzisini bol edər, istədiyininkini də azaldar. O, hər şeyi Biləndir.

(Şura surəsi, 12)

Elə bir şey yoxdur ki, onun xəzinələri Bizdə olmasın. Biz onu ancaq müəyyən ölçüdə endiririk.

(Hicr surəsi, 21)

Göylərdə, yerdə, onların arasında və torpağın altında nə varsa, Ona məxsusdur.

(Taha surəsi, 6)

O Allahın ki, göylərdə və yerdə nə varsa, Onundur. Giriftar olacaqları şiddətli əzabdan dolayı vay kafirlərin halına!

(İbrahim surəsi, 2)

Göylərin, yerin və onların arasında olanların hökmranlığı Allaha məxsusdur və O, hər şeyə qadirdir.

(Maidə surəsi, 120)

Hər şeyin varisidir

Şübhəsiz ki, Biz həm dirildir, həm də öldürürük və hər şeyə varis olan da Bizik.

(Hicr surəsi, 23)

Şübhəsiz ki, yerə və onun üstündə qalanlara təkcə biz sahib çıxacağıq. Onların qayıdışı Bizə olacaqdır.

(Məryəm surəsi, 40)

Biz xoş güzəranı ilə qürrələnən neçə-neçə şəhəri məhv etdik. Budur onların yurdları. Özlərindən sonra bəzilərindən başqa orada heç kəs sakin olmadı. Onlara Biz varis olduq.

(Qəsas surəsi, 58)

Göylərin, yerin ve ikisi arasındakıların sahibidir

> *O, həm göylərin, yerin və onların arasındakıların Rəbbi, həm də məşriqlərin Rəbbidir.*
>
> **(Saffat surəsi, 5)**

> *Bilin ki, göylərdə və yerdə olanların hamısı Allahındır. Allahı qoyub başqa şəriklərə yalvaranlar nəyin ardınca gedirlər? Onlar yalnız zənnə uyur və ancaq yalan uydururlar.*
>
> **(Yunis surəsi, 66)**

> *O, göylərin, yerin və onların arasında olanların Rəbbidir! Elə isə yalnız Ona ibadət et və Ona ibadətdə səbirli ol! Heç Ona oxşarını tanıyırsanmı?!*
>
> **(Məryəm surəsi, 65)**

Hər şeyi ölçüylə yaradandır

> *Allah göyü ucaltdı və tərəzini qoydu ki,*
>
> **(Rəhman surəsi, 7)**

nər kəs onların, Rəbbinin göndərdiklərini necə təbliğ etdiyini bilsin. Allah onların nə etdiklərini nəzarəti altında saxlayır və hər şeyi ayrı-ayrılıqda hesaba alır".

(Cin surəsi, 28)

Kitabı və tərəzini gerçək həqiqət kimi nazil edən Allahdır. Nə bilirsən, bəlkə də o Saat yaxındır.

(Şura surəsi, 17)

Biz hər bir şeyi hesablayıb yazmışıq.

(Nəbə surəsi, 29)

Allah onları hesablamış və bir-bir saymışdır.

(Məryəm surəsi, 94)

Hər bir dişinin bətnində nə daşıdığını, bətnlərin nəyi əskildib, nəyi artıracağını (uşağın doqquz aydan tez yaxud gec doğulacağını) Allah bilir. Onun yanında hər şeyin müəyyən ölçüsü vardır.

(Rad surəsi, 8)

> *Əgər Allah Öz qullarına bolluca ruzi versəydi, onlar yer üzündə həddi aşardılar. Lakin O, istədiyi şeyi qədərincə göndərir. Həqiqətən, O Öz qullarından Xəbərdardır, Görəndir.*
>
> **(Şura surəsi, 27)**

> *və ona təsəvvürünə gətirmədiyi bir yerdən ruzi bəxş edər. Kim Allaha təvəkkül etsə, Allah ona kifayət edər. Allah Öz əmrini yerinə yetirəndir. Allah hər şey üçün bir ölçü qoymuşdur.*
>
> **(Talaq surəsi, 3)**

Ulu, Uca ve Büyük olandır

> *Onun qarşısında, izin verdiyi kəslərdən başqa, heç kimin şəfaəti fayda verməz. Nəhayət, mələklərin qəlbindən qorxu keçib getdikdə onlar: "Rəbbiniz nə buyurdu?" – deyə soruşar, digərləri isə: "Haqqı buyurdu! O, Ucadır, Böyükdür!" – deyə cavab verərlər.*
>
> **(Səba surəsi, 23)**

> *Göylərdə və yerdə nə varsa, Ona məxsusdur. O, Ucadır, Uludur.*
>
> **(Şura surəsi, 4)**

Sanki göylərin bir-birinin üstündən çatlayıb yarılmasına az qalır. Mələklər də Rəbbinə həmd ilə təriflər deyir və yerdəkilər üçün bağışlanma diləyirlər. Həqiqətən, Allah Bağışlayandır, Rəhmlidir.

(Şura surəsi, 5)

Daima diri olandır

Allah, Ondan başqa ibadətə layiq olan məbud yoxdur, əbədi Yaşayandır, bütün yaratdıqlarının Qəyyumudur. Onu nə mürgü, nə də yuxu tutar. Göylərdə və yerdə nə varsa, Ona məxsusdur. Onun izni olmadan Onun yanında kim havadarlıq edə bilər? O, məxluqatın gələcəyini və keçmişini bilir. Onlar Onun elmindən, Onun istədiyindən başqa heç bir şey qavraya bilməzlər. Onun Kürsüsü göyləri və yeri əhatə edir. Bunları qoruyub saxlamaq Ona ağır gəlmir. O, Ucadır, Uludur.

(Bəqərə surəsi, 255)

O, əbədi Yaşayandır, Ondan başqa məbud yoxdur. Allaha, dini yalnız Ona məxsus edərək, dua edin. Aləmlərin Rəbbi olan Allaha həmd olsun!

(Mümin surəsi, 65)

Ölməz, əbədi Yaşayana təvəkkül et və Onu həmd-səna ilə tərifl ə. Onun Öz qullarının günahlarından agah olması kifayətdir.

(Furqan surəsi, 58)

Səhv etməyən və unutmayandır

> *Mələklər dedi: "Biz dünyaya ancaq sənin Rəbbinin əmri ilə enirik. Önümüzdə, arxamızda və onların arasında nə varsa, Ona məxsusdur. Rəbbin unudan deyildir".*
>
> **(Məryəm surəsi, 64)**

> *Musa dedi: "Onlar haqqındakı bilgi Rəbbimin yanında olan bir Kitabdadır. Rəbbim nə xəta edir, nə də unudur!"*
>
> **(Taha surəsi, 52)**

> *Onların etdiyi hər şey əməllərinin yazıldığı kitablarındadır.*
>
> **(Qamər surəsi, 52)**

> *Hər bir kiçik və böyük əməl yazılmışdır.*
>
> **(Qamər surəsi, 53)**

Səcdə ediləndir

Məgər onlar Allahın xəlq etdiyi hər hansı bir şeyi müşahidə etməyiblərmi? Onların kölgələri müti surətdə Allaha səcdə edərək sağa-sola əyilir.

(Nəhl surəsi, 48)

Göylərdə və yerdə olanların hamısı, heyvanlar da, mələklər də təkəbbür göstərmədən Allaha səcdə qılırlar.

(Nəhl surəsi, 49)

Gecənin bir hissəsində Ona səcdə et və gecədə uzun müddət Onun şəninə təriflər de!

(İnsan surəsi, 26)

Məgər göylərdə və yerdə olanların, günəşin, ayın, ulduzların, dağların, ağacların, heyvanların və insanların xeyli hissəsinin Allaha səcdə etdiyini görmürsənmi? Onların əksəriyyəti isə əzab çəkməyə layiq olanlardır. Allahın alçaltdığı kimsəyə heç kəs hörmət qoymaz. Həqiqətən, Allah istədiyini edər.

(Həcc surəsi, 18)

Təsbeh ediləndir

Biz dağları ona ram etmişdik. Onlar axşam çağı və səhər onunla birlikdə Allahın şəninə təriflər deyirdilər.

(Sad surəsi, 18)

Biz quşları da toplum halda ona ram etmişdik. Hamısı daima Allaha üz tutardı.

(Sad surəsi, 19)

Məgər göylərdə və yerdə olanların, həm də qanad açıb uçan quşların Allaha təriflər dediklərini görmürsənmi? Hər biri öz duasını və həmd-sənasını bilir. Allah onların nə etdiklərini bilir.

(Nur surəsi, 41)

Göylərdə və yerdə kimlər varsa, hamısı Onundur. Onun yanında olanlar Ona ibadət etməyə təşəxxüs göstərmir və bundan yorulmurlar.

(Ənbiya surəsi, 19)

Onlar gecə-gündüz, usanmadan Onun şəninə təriflər deyirlər.

(Ənbiya surəsi, 20)

> *Göylərdə və yerdə olanların hamısı Allahın şəninə tərifl ər deyir. O, Qüdrətlidir, Müdrikdir.*
>
> **(Hədid surəsi, 1)**

> *Yeddi göy, yer və onlarda olanlar Ona tərifl ər deyir. Elə bir şey yoxdur ki, həmd ilə Ona tərif deməsin, lakin siz onların tərifini anlamazsınız. Həqiqətən, O, Həlimdir, Bağışlayandır.*
>
> **(İsra surəsi, 44)**

> *Göy gurultusu həmd edərək Ona tərifl ər deyir. Mələklər də Onun qorxusundan tərifl ər deyirlər. Allah ildırımlar göndərib istədiyini vurur. Onlar Allah barəsində mübahisə edirlər. Halbuki O, şiddətli cəza verəndir.*
>
> **(Rad surəsi, 13)**

Həmd ediləndir

> *Göylərdəkilərin və yerdəkilərin hamısının sahibi olan Allaha həmd olsun! Axirətdə də həmd Ona məxsusdur. O, Müdrikdir, Xəbərdardır.*
>
> **(Səba surəsi, 1)**

Göyləri və yeri yaradan, zülmətləri və nuru var edən Allaha həmd olsun! Bu dəlillərdən sonra kafir olanlar hələ də bütləri öz Rəbbinə tay tuturlar.

(Ənam surəsi, 1)

Sən mələklərin, Ərşi əhatə edərək Rəbbinə həmd ilə təriflər dediklərini görəcəksən. Onların arasında ədalətlə hökm veriləcək və: "Aləmlərin Rəbbi olan Allaha həmd olsun!" – deyiləcəkdir.

(Zumər surəsi, 75)

Tərifləmeyə layiq olandır

Elm verilmiş insanlar Rəbbindən sənə nazil edilənin haqq olduğunu, onun Qüdrətli, Tərifəlayiq Allahın yolunu göstərdiyini görürlər.

(Səba surəsi, 6)

Göylərdə və yerdə nə varsa, Onundur. Həqiqətən, Allah Zəngindir, Tərifəlayiqdir.

(Həcc surəsi, 64)

İzzət və şərəfin sahibidir

> *Kim qüdrət sahibi olmaq istəsə, bilsin ki, qüdrət bütünlüklə ancaq Allaha məxsusdur. Gözəl söz Ona tərəf yüksəlir və onu ucaldan yaxşı əməldir. Pis əməllər işlədib hiyləgərlik edənləri şiddətli bir əzab gözləyir. Onların qurduqları hiylələr də boşa çıxacaqdır.*
>
> **(Fatir surəsi, 10)**

> *Möminləri qoyub kafirləri özlərinə dost tutanlar gücü və əzəməti onlardamı axtarırlar? Halbuki qüvvət və əzəmət tamamilə Allaha məxsusdur.*
>
> **(Nisa surəsi, 139)**

> *Onlar: "Əgər biz Mədinəyə qayıtsaq, ən qüdrətlilər (münafiqlər) ən alçaqları (müsəlmanları) mütləq oradan çıxardacaqlar!" – deyirlər. Halbuki qüdrət yalnız Allaha, Onun Elçisinə və möminlərə məxsusdur, lakin bunu münafiqlər bilmirlər.*
>
> **(Münafiqun surəsi, 8)**

Daimi olandır

> *Yer üzündə olan hər kəs ölümə məhkumdur.*
>
> **(Rəhman surəsi, 26)**

Ancaq Rəbbinin əzəmətli və kəramətli Üzü əbədidir.

(Rəhman surəsi, 27)

Daima üstün və qalib olandır

Allah kafirləri qəzəbli olduqları halda geri qaytardı və onlar heç bir xeyrə nail olmadılar. Döyüşdə Allah möminlərə kifayət etdi. Allah Qüvvətlidir, Qüdrətlidir.

(Əhzab surəsi, 25)

Allah əzəldən belə yazmışdır: "Mən və elçilərim hökmən qalib gələcəyik!" Həqiqətən, Allah Qüvvətlidir, Qüdrətlidir.

(Mücadilə surəsi, 21)

Ən gözəl adların sahibidir

O, Xaliq, yoxdan Yaradan, Surətverən Allahdır. Ən gözəl adlar yalnız Ona məxsusdur. Göylərdə və yerdə olanların hamısı Onun şəninə təriflər deyir. O, Qüdrətlidir, Müdrikdir.

(Həşr surəsi, 24)

Ən gözəl adlar Allahındır. Ona bu adlar vasitəsi ilə dua edin və Onun adları barəsində haqdan sapanları tərk edin. Onlar etdikləri əməllərin cəzasını alacaqlar.

(Əraf surəsi, 180)

De: "İstər Allah deyib çağırın, istərsə də Mərhəmətli deyib çağırın. Necə çağırsanız da, hər halda ən gözəl adlar Ona məxsusdur". Namazını nə uca səslə, nə də pıçıltı ilə qıl. Bunların arasında orta bir yol tut.

(İsra surəsi, 110)

Allah! Ondan başqa ibadətə layiq olan məbud yoxdur. Ən gözəl adlar təkcə Ona xasdır!

(Taha surəsi, 8)

Ən gözəl vəkildir

Allah hər şeyin Xaliqidir. O, hər şeyi Qoruyandır.

(Zumər surəsi, 62)

Əslində, Mənim ixlaslı qullarım üzərində sənin hökmranlığın olmayacaqdır. Qoruyan olaraq Rəbbin yetər".

(İsra surəsi, 65)

Həqiqi dost və yardımçıdır

Siz nə yerdə, nə də göydə Ondan gizlənib yaxa qurtara bilməyəcəksiniz. Allahdan başqa sizin nə bir himayədarınız, nə də bir yardımçınız olacaq".

(Ənkəbut surəsi, 22)

Çünki onlar səni heç bir vəchlə Allahdan qurtara bilməzlər. Şübhəsiz ki, zalımlar bir-birinin himayədarıdırlar, Allah isə müttəqilərin Himayədarıdır.

(Casiyə surəsi, 19)

Həqiqətən, göylərin və yerin mülkü Allaha məxsusdur. O həm dirildir, həm də öldürür. Sizin Allahdan başqa nə bir himayədarınız, nə də bir köməkçiniz vardır.

(Tövbə surəsi, 116)

Allah sizin düşmənlərinizi daha yaxşı tanıyır. Himayəçi olaraq Allah kifayət edər! Yardımçı olaraq Allah yetər!

(Nisa surəsi, 45)

> *Göyləri, yeri və onların arasındakıları altı gündə yaradan, sonra da Ərşə ucalan Allahdır. Sizin Ondan başqa nə bir haminiz, nə də bir şəfaətçiniz vardır. Məgər düşünərək ibrət götürməyəcəksiniz?*
>
> **(Səcdə surəsi, 4)**

Bütün aləmlərin sahibidir

> *De: "Şübhəsiz ki, mənim namazım da, qurbanım da, həyatım da, ölümüm də aləmlərin Rəbbi Allah üçündür!*
>
> **(Ənam surəsi, 162)**

> *Sən mələklərin, Ərşi əhatə edərək Rəbbinə həmd ilə təriflər dediklərini görəcəksən. Onların arasında ədalətlə hökm veriləcək və: "Aləmlərin Rəbbi olan Allaha həmd olsun!" – deyiləcəkdir.*
>
> **(Zumər surəsi, 75)**

> *Sən məni öldürmək üçün mənə əl qaldırsan da, mən səni öldürmək üçün sənə əl qaldıran deyiləm. Həqiqətən, mən aləmlərin Rəbbi Allahdan qorxuram.*
>
> **(Maidə surəsi, 28)**

Çox ədalətli olandır

Baş verəcəyinə şübhə edilməyən bir gündə onları topladığımız və hər kəsə qazandığının əvəzi ödəniləcəyi, özlərinə də heç bir haqsızlıq edilməyəcəyi zaman onların halı necə olacaq?

(Ali İmran surəsi, 25)

Hamınızın dönüşü Onadır. Bu, Allahın haqq olan vədidir. O, məxluqu ilk dəfə yaradır, sonra onu Qiyamət günü yenidən dirildir ki, saleh əməllər edənləri ədalətlə mükafatlandırsın. Kafirlərə gəlincə, küfr etdiklərinə görə onlar üçün qaynar içki və ağrılı-acılı bir əzab hazırlanmışdır.


(Yunis surəsi, 4)

Düşmənlərə qarşı bacardığınız qədər qüvvə və döyüş atları hazırlayın ki, bununla Allahın düşmənini, öz düşmənlərinizi və onlardan başqa sizin bilmədiyiniz, lakin Allahın bildiyi kimsələri qorxudasınız. Allah yolunda nə xərcləsəniz, əvəzi sizə tam ödənilər və sizə zülm edilməz.

(Ənfal surəsi, 60)

Həm kişilərdən, həm də qadınlardan mömin olaraq yaxşı işlər görənlər Cənnətə girərlər və onlara xurma çərdəyinin qırıntısı qədər haqsızlıq edilməz.

(Nisa surəsi, 124)



Qeybin açarları Onun yanındadır

Əlbəttə, onun can atdığı əməl ona nəsib olacaqdır.

(Nəcm surəsi, 40)

Sonra da ona bunun əvəzi tam veriləcəkdir!"

(Nəcm surəsi, 41)

Özlərini öyənləri görmürsənmi? Xeyr! Allah istədiyini tərifləyər və onlara xurma çərdəyindəki lif qədər haqsızlıq edilməz.

(Nisa surəsi, 49)

> *O gün bütün insanları öz başçıları ilə birlikdə çağıracağıq. O zaman kitabı sağ əlinə verilən kimsələr öz kitablarını sevinclə oxuyacaq və onlara xurma çəyirdəyindəki lif qədər zülm edilməyəcəkdir.*
>
> **(İsra surəsi, 71)**

> *Şübhəsiz ki, Rəbbin onların hər birinə əməllərinin əvəzini tam verəcəkdir. Şübhəsiz ki, Allah onların nə etdiklərindən xəbərdardır.*
>
> **(Hud surəsi, 111)**

> *Loğman dedi: "Oğlum! Gördüyün iş bir xardal dənəsi ağırlığında olsa da, bir qayanın içində, yaxud göylərdə və ya yerin dibində olsa da, Allah onu aşkar edər. Həqiqətən, Allah Lətifdir, Xəbərdardır.*
>
> **(Loğman surəsi, 16)**

Çox bağışlayıcı olandır

Musa Bizim təyin etdiyimiz vaxt üçün tayfasından yetmiş kişi seçdi. Onları zəlzələ yaxaladıqda o dedi: "Ey Rəbbim! Əgər istəsəydin, bundan əvvəl onları da, məni də məhv edərdin. Özümüzdən olan səfehlərin etdiklərinə görə bizi həlakmı edəcəksən? Bu, yalnız Sənin sınağındır. Sən onunla istədiyini azğınlığa aparır, istədiyini də doğru yola yönəldirsən. Sən bizim Himayəçimizsən! Bizi bağışla və bizə rəhm et! Axı Sən bağışlayanların ən yaxşısısan.

(Əraf surəsi, 155)

Kim pis bir iş görərsə və ya özü özünə zülm edərsə, sonra da Allahdan bağışlanma diləyərsə, Allahın Bağışlayan, Rəhmli olduğunu görər.

(Nisa surəsi, 110)

Bu, Onun tərəfindən möminlərə nəsib olan dərəcələr, bağışlanma və mərhəmətdir. Allah Bağışlayandır, Rəhmlidir.

(Nisa surəsi, 96)

Müşriklər səni yaxşılıqdan öncə pisliyə (əzabın gəlməsinə) tələsdirirlər. Halbuki onlardan əvvəl neçə-neçə ibrətamiz cəzalar olub keçmişdir. Həqiqətən, Rəbbin insanların zalımlığına baxmayaraq onları (tövbə edənləri) bağışlayır. Sözsüz ki, Rəbbinin cəzası şiddətlidir.

(Rad surəsi, 6)

Sən ancaq Zikrə tabe olub Mərhəmətli Allahı görmədən Ondan çəkinən şəxsi qorxuda bilərsən. Beləsini bağışlanma və çox gözəl bir mükafatla müjdələ.

(Yasin surəsi, 11)

Ancaq kim haqsızlıq edib sonra da pisliyin əvəzinə yaxşılıq edərsə, bilsin ki, Mən Bağışlayanam, Rəhmliyəm!

(Nəml surəsi, 11)

Rəbbiniz ürəklərinizdə olanları çox yaxşı bilir. Əgər əməlisaleh olsanız, bilin ki, həqiqətən də, O, tövbə edənləri Bağışlayandır.

(İsra surəsi, 25)

İnsanların elə‌si də var ki, Allahın razılığını qazanmaq üçün canını da verər. Allah Öz qullarına qarşı Şəfqətlidir.

(Bəqərə surəsi, 207)

Allah onlara mükafatlarını tam olaraq versin, üstəlik də onlara Öz lütfünü artırsın. Həqiqətən, O, Bağışlayandır, şükürün əvəzini verəndir.

(Fatir surəsi, 30)

Mərhəmətlilərin ən mərhəmətlisidir

Əyyubu da yada sal! Bir zaman o, Rəbbinə yalvarıb demişdi: "Mənə, həqiqətən də, bəla düçar olubdur. Sən rəhmlilərin ən rəhmlisisən!"

(Ənbiya surəsi, 83)

Yusif dedi: "Bu gün siz qınanılmayacaqsınız. Allah sizi bağışlasın! O, rəhm edənlərin ən rəhmlisidir.

(Yusif surəsi, 92)

Hökm və hikmət sahibidir

Allah bunu sizə ancaq bir müjdə və qəlbiniz bununla sakit olsun deyə etdi. Kömək ancaq Qüdrətli və Müdrik Allahdandır.

(Ali İmran surəsi, 126)

“Ey Rəbbimiz! Onların içərisindən özlərinə elə bir elçi göndər ki, Sənin ayələrini onlara oxusun, Kitabı və hikməti onlara öyrətsin və onları günahlardan təmizləsin! Həqiqətən, Sən Qüdrətlisən, Müdriksən!”

(Bəqərə surəsi, 129)

Sizə açıq-aydın dəlillər gəldikdən sonra haqq yoldan çıxsanız, bilin ki, Allah Qüdrətlidir, Müdrikdir.

(Bəqərə surəsi, 209)

Həqiqətən, bu, gerçək bir hekayətdir. Allahdan başqa ibadətə layiq olan məbud yoxdur. Şübhəsiz ki, Allah Qüdrətlidir, Müdrikdir.

(Ali İmran surəsi, 62)

Kim günah qazanarsa, onu ancaq özünün əleyhinə qazanmış olar. Allah Biləndir, Müdrikdir.

(Nisa surəsi, 111)

O Öz qulları üzərində mütləq hakimiyyət sahibidir. O, Müdrikdir, hər şeydən Xəbərdardır.

(Ənam surəsi, 18)

Məgər kafirlər Bizim, yer üzünə gəlib onu bəzi tərəflərindən azaltdığımızı (müsəlmanların ixtiyarına verdiyimizi) görmürlərmi? Allah istədiyi kimi hökm verir. Onun hökmünü ləğv edən olmaz. O, tez haqq-hesab çəkəndir.

(Rad surəsi, 41)

Hökmün tək sahibidir

Haqq Hökmdar olan Allah ucadır! Onun ayələrinin vəhyi sənə tamamlanmayınca Quranı oxumağa tələsmə və: "Ey Rəbbim! Elmimi artır!" – de.

(Taha surəsi, 114)

De: "Mən Rəbbimdən nazil olan açıq-aydın bir dəlilə əsaslanıram. Siz isə onu təkzib etdiniz. Sizin səbirsizliklə can atdığınız əzab məndə deyildir. Hökm yalnız Allaha məxsusdur. Allah haqqı söyləyir və O, ayırd edənlərin ən yaxşısıdır".

(Ənam surəsi, 57)

Ey iman gətirənlər! Əhdlərinizi yerinə yetirin. Haram edildiyi sizə bildiriləcək heyvanlar və ihramda olarkən ovladığınız ov istisna olmaqla digər heyvanlar sizə halal edildi. Həqiqətən, Allah istədiyi hökmü verir.

(Maidə surəsi, 1)

> *Onlar cahiliyyə dövrünün hökmünümü istəyirlər? Qəti inanan bir camaat üçün Allahdan daha yaxşı hökm verən kim ola bilər?*
>
> **(Maidə surəsi, 50)**

> *Nuh Rəbbini çağırıb dedi: "Ey Rəbbim! Axı oğlum da mənim ailəmdəndir. Sənin vədin, şübhəsiz ki, haqdır. Sən hakimlərin ən hikmətlisisən!"*
>
> **(Hud surəsi, 45)**

> *De: "Allah bu Kitabı sizə təfərrüatı ilə nazil etdiyi halda, mən Ondan başqasınımı hakim qəbul etməliyəm?" Kitab verdiklərimiz bilirlər ki, o, həqiqətən, sənin Rəbbin tərəfindən nazil edilmişdir. Odur ki, şübhə edənlərdən olma.*
>
> **(Ənam surəsi, 114)**

Lütf sahibi olandır

> *Elçiləri onlara dedilər: "Biz də sizin kimi bir insanıq. Lakin Allah Öz qullarından istədiyinə lütfkarlıq edir. Allahın izni olmadan biz sizə heç bir dəlil gətirə bilmərik. Qoy möminlər ancaq Allaha təvəkkül etsinlər.*
>
> **(İbrahim surəsi, 11)**

O sizə istədiyiniz hər şeydən vermişdir. Əgər Allahın nemətlərini sayacaq olsanız, onları sayıb qurtara bilməzsiniz. Həqiqətən, insan çox zalım, çox nankordur.

(İbrahim surəsi, 34)

Allah Öz qullarına qarşı Lütfkardır. O, istədiyinə ruzi verir. O, Qüvvətlidir, Qüdrətlidir.

(Şura surəsi, 19)

Tövbələri qəbul edəndir

Yaramaz işlər görüb sonra bunun ardından tövbə edib iman gətirənlərə gəlincə, şübhəsiz ki, Rəbbin bundan sonra Bağışlayandır, Rəhmlidir.

(Əraf surəsi, 153)

Bu ona görədir ki, Allah doğru danışanları doğruluqlarına görə mükafatlandırsın, münafiqlərə də ya istəsə əzab versin, ya da onların tövbələrini qəbul etsin. Həqiqətən, Allah Bağışlayandır, Rəhmlidir.

(Əhzab surəsi, 24)

Məgər onlar bilmirlər ki, Allah qullarından tövbəni qəbul edir, sədəqələri götürür və Allah tövbələri qəbul Edəndir, Rəhmlidir?

(Tövbə surəsi, 104)

Ey Rəbbimiz! İkimizi də Sənə təslim olacaq, nəslimizdən də Sənə təslim olan bir ümmət et. Bizə ibadət qaydalarını göstər və bizim tövbələrimizi qəbul et! Həqiqətən, Sən tövbələri qəbul edənsən, Rəhmlisən!

(Bəqərə surəsi, 128)

Şübhəsiz ki, Rəbbin, avamlıqları üzündən pis iş görən, ondan sonra tövbə edib özlərini islah edənləri, bütün bunlardan sonra, əlbəttə ki, Rəbbin bağışlayacaq və rəhm edəcək.

(Nəhl surəsi, 119)

Ancaq tövbə edib iman gətirən və saleh əməllər edənlərdən başqa. Allah onların pis əməllərini yaxşı əməllərlə əvəz edər. Allah Bağışlayandır, Rəhmlidir!

(Furqan surəsi, 70)

Kim tövbə edib yaxşı iş görərsə, o, doğrudan da Allaha tərəf qayıtmış olar.

(Furqan surəsi, 71)

Səmimi duaya qarşılıq verəndir

Qullarım səndən Mənim barəmdə soruşsalar, Mən onlara yaxınam, Mənə yalvaranın duasını yalvardığı vaxt qəbul edərəm. Qoy onlar da Mənim çağırışımı qəbul edib Mənə iman gətirsinlər ki, doğru yola yönələ bilsinlər.

(Bəqərə surəsi, 186)

Nuh Bizə yalvarıb yaxardı. Biz çağırışa necə də gözəl cavab verənik!

(Saffat surəsi, 75)

Darda qalan kimsə yalvardığı zaman ona cavab verən, şəri sovuşduran və sizi yer üzünün varisləri edən kimdir? Heç Allahla yanaşı başqa bir məbudmu var? Siz necə də az düşünürsünüz?

(Nəml surəsi, 62)

Rəbbiniz dedi: "Mənə dua edin, Mən də sizə cavab verim. Həqiqətən, Mənə ibadət etməyə təkəbbür göstərənlər Cəhənnəmə zəlil olaraq girəcəklər".

(Mümin surəsi, 60)

Qoca vaxtımda mənə İsmaili və İshaqı bəxş edən Allaha həmd olsun! Həqiqətən, Rəbbim duaları eşidəndir.

(İbrahim surəsi, 39)

Yaxşılığın əvəzini artıqlaması ilə verəndir

Həqiqətən, Allah zərrə qədər də olsa zülm etməz. Əgər qulun gördüyü iş yaxşı əməl olarsa, Allah bunu artırar və Öz tərəfindən böyük mükafat verər.

(Nisa surəsi, 40)

Sizdə olan nemətlər tükənəcək, Allah yanında olan nemətlər isə daim qalacaqdır. Səbirli olanlara etdikləri yaxşı əməllərə görə mükafatlarını verəcəyik.

(Nəhl surəsi, 96)

Mömin olaraq yaxşı iş görən kişi və qadınlara, əlbəttə, gözəl həyat bəxş edəcək və etdikləri ən yaxşı əməllərə görə onları mütləq mükafatlandıracağıq.

(Nəhl surəsi, 97)

Bu ona görədir ki, Allah onları, etdikləri əməllərin ən gözəli ilə mükafatlandırsın, onlara olan lütfünü artırsın. Allah istədiyinə hesabsız ruzi verir.

(Nur surəsi, 38)

Kimdir o şəxs ki, Allaha gözəl bir borc versin (Allah yolunda malını yaxşı işlərə sərf etsin), O da onun üçün bunu qat-qat artırsın? Onun üçün çox dəyərli bir mükafat da vardır.

(Hədid surəsi, 11)

Yaxşı iş görənlər üçün ən yaxşısı (Cənnət) və bundan da üstünü (Allahı görmək) vardır. Onların üzünü nə bir qubar, nə də bir zillət bürüyər. Onlar Cənnət sakinləridirlər və orada əbədi qalacaqlar.

(Yunis surəsi, 26)

İman gətirib yaxşı işlər görən qullarına Allahın müjdə verdiyi nemət budur. De: "Mən sizdən bunun əvəzində qohumluq sevgisindən başqa bir şey istəmirəm". Kim bir yaxşılıq etsə, onun savabını artıraraq. Həqiqətən, Allah Bağışlayandır, şükrün əvəzini verəndir.

(Şura surəsi, 23)

Şükrün qarşılığını verəndir

O zaman Rəbbiniz bildirmişdi: "Əgər şükür etsəniz, sizə olan nemətimi artıraram, yox əgər nankorluq etsəniz, bilin ki, Mənim əzabım şiddətlidir".

(İbrahim surəsi, 7)

Küfr etsəniz, bilin ki, Allah sizə möhtac deyildir. O, qullarının kafirlik etməsinə razı olmaz. Əgər şükür etsəniz, buna görə sizdən razı qalar. Heç bir günahkar başqasının günah yükünü daşımaz. Sonra Rəbbinizin yanına qayıdacaqsınız. O sizə nə etdiklərinizi bildirəcəkdir. Həqiqətən, O, köksələrdə olanları bilir.

(Zumər surəsi, 7)

Şükür etsəniz və iman gətirsəniz, sizə əzab vermək Allahın nəyinə gərəkdir? Allah itaətkar qullarına təşəkkür edəndir, Biləndir.

(Nisa surəsi, 147)

İnsana hər şeyi öyrədəndir

Əgər nədənsə qorxsanız, namazınızı ayaq üstə və ya minik üzərində qılın. Təhlükə sovuşduqda isə Allahı, sizə bilmədiklərinizi necə öyrədibsə, o cür yad edin!

(Bəqərə surəsi, 239)

Allah Adəmə bütün şeylərin adlarını öyrətdi. Sonra onları mələklərə göstərib dedi: "Doğru danışanlarsınızsa, bunların adlarını Mənə deyin!"

(Bəqərə surəsi, 31)

Onlar dedilər: "Sən pak və müqəddəssən! Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur! Həqiqətən, Sən Bilənsən, Müdrikşən!"

(Bəqərə surəsi, 32)

Əgər sənə Allahın lütfü və rəhmi olmasaydı, əlbəttə, onların bir qismi səni doğru yoldan azdırmaq niyyətində olacaqdı. Amma onlar özlərindən başqa heç kəsi azdıra bilməz və sənə də heç bir şeylə zərər vura bilməzlər. Allah sənə Kitabı və hikməti (Quranı və Sünnəni) nazil etdi və bilmədiyin şeyləri sənə öyrətdi. Allahın sənə olan lütfü böyükdür.

(Nisa surəsi, 113)

Şəfa verəndir

Biz Quranda möminlər üçün şəfa və mərhəmət olan ayələr nazil edirik. Bu ayələr zalımların ancaq ziyanını artırır.

(İsra surəsi, 82)

O Rəbb ki, xəstələndiyim zaman mənə şəfa verir;

(Şuəra surəsi, 80)

Ey insanlar! Rəbbinizdən sizə bir öyüd-nəsihət, köksələrdə olana bir şəfa, möminlərə doğru yol göstəricisi və mərhəmət gəlmişdir.

(Yunis surəsi, 57)

Ruzi verəndir

O Rəbb ki, məni yedirdir və içirdir;

(Şuəra surəsi, 79)

Yer üzündə elə bir canlı yoxdur ki, onun ruzisini Allah verməsin. Allah onların qərar tutduqları yeri də, qorunub saxlanıldıqları yeri də bilir. Bunların hamısı açıq-aydın Yazıdadır (Lövhi-məhfuzdadır).

(Hud surəsi, 6)

Bu ona görədir ki, Allah onları, etdikləri əməllərin ən gözəli ilə mükafatlandırsın, onlara olan lütfünü artırsın. Allah istədiyinə hesabsız ruzi verir.

(Nur surəsi, 38)

Əgər Allah Öz qullarına bolluca ruzi versəydi, onlar yer üzündə həddi aşardılar. Lakin O, istədiyi şeyi qədərincə göndərir. Həqiqətən, O Öz qullarından Xəbərdardır, Görəndir.

(Şura surəsi, 27)

Allah istədiyinin ruzisini bol edər, istədiyininkini də azaldar. Onlar dünya həyatı ilə sevinirlər. Halbuki dünya həyatı axirətlə müqayisədə keçici bir zövqdür.

(Rad surəsi, 26)

Güldürən və ağladandır

Güldürən də, ağladan da Odur!

(Nəcm surəsi, 43)

Can verən və alandır

Biz dedik: "İnəyin bir parçasını ona (ölüyə) vurun!" Allah ölüləri bu cür dirildir və Öz ayələrini sizə göstərir ki, bəlkə anlayasınız.

(Bəqərə surəsi, 73)

Gecələr sizi yatızdıran, gündüzlər isə nələr etdiyinizi bilən Odur. Sonra O, sizi səhərlər oyadır ki, müəyyən olunmuş əcəliniz gəlib çatsın. Sonra isə dönüşünüz Ona olacaq. O, nə etdiklərinizi barədə sizə xəbər verəcəkdir.

(Ənam surəsi, 60)

Allahı necə inkar edirsiniz ki, siz ölü idiniz, O sizi diriltdi? Sonra O sizi öldürəcək və yenə dirildəcək, daha sonra isə siz Ona qaytarılacaqsınız.

(Bəqərə surəsi, 28)

Ölüləri dirildəndir

Sur ikinci dəfə üfürülən kimi onlar dərhal qəbirlərdən çıxıb Rəbbinə tərəf axışacaqlar.

(Yasin surəsi, 51)

> *Bəlkə insan özbaşına qoyulacağını güman edir?*
>
> **(Qiyamət surəsi, 36)**

> *Məgər o, kişi toxumundan axıdılan bir damla nütfə deyildimi?*
>
> **(Qiyamət surəsi, 37)**

> *Sonra laxtalanmış qan oldu. Allah onu yaradıb kamil bir görkəmə saldı.*
>
> **(Qiyamət surəsi, 38)**

> *Ondan da bir cüt kişi və qadın yaratdı.*
>
> **(Qiyamət surəsi, 39)**

> *Məgər O, ölüləri diriltməyə qadir deyil?*
>
> **(Qiyamət surəsi, 40)**

> *Həmin Saat gələcəkdir, ona heç bir şəkk-şübhə yoxdur və Allah qəbirlərdə olanları dirildəcəkdir.*
>
> **(Həcc surəsi, 7)**

> *onlar zəlil baxışlarla gözlərini aşağı dikmiş halda ətrafa yayılan çəyirtkələr kimi qəbirlərindən çıxacaqlar.*
>
> **(Qamər surəsi, 7)**

> *Kafirlər carçıya tərəf tələsərək: "Bu nə çətin bir gündür!" – deyəcəklər.*
>
> **(Qamər surəsi, 8)**


Hesab gününü yaradandır

> *Vaqiə qopacağı zaman*
>
> **(Vaqiə surəsi, 1)**

> *onun qopduğunu heç kəs dana bilməz.*
>
> **(Vaqiə surəsi, 2)**

> *O: "Qiyamət günü nə vaxt olacaq!" – deyə rişxəndlə soruşur.*
>
> **(Qiyamət surəsi, 6)**

> *Gözlər bərələ qalacağı,*
>
> **(Qiyamət surəsi, 7)**



O, quruda və dənizdə olanları bilir

ay tutulacağı

(Qiyamət surəsi, 8)

və günəşlə ayın qovuşacağı zaman –

(Qiyamət surəsi, 9)

o gün insan deyəcəkdir: "Hara qaçaq?"

(Qiyamət surəsi, 10)

Xeyr, o gün pənah aparılacaq yer tapılmayacaq.

(Qiyamət surəsi, 11)

O gün qayıdış ancaq sənin Rəbbinə olacaqdır.

(Qiyamət surəsi, 12)

O gün insana əvvəllər etdiyi və sonraya saxladığı əməlləri barədə xəbər veriləcəkdir.

(Qiyamət surəsi, 13)

Hesabı tez görəndir

Kafirlərin əməlləri səhradakı ilğıma bənzəyir ki, susamış kimsə onu su hesab edər. Ona yaxınlaşdıqda isə onun heç nə olduğunu görər. O öz yanında Allahı tapar. O da onun cəzasını verər. Allah tez haqq-hesab çəkəndir.

(Nur surəsi, 39)

Məgər kafirlər Bizim, yer üzünə gəlib onu bəzi tərəflərindən azaltdığımızı (müsəlmanların ixtiyarına verdiyimizi) görmürlərmi? Allah istədiyi kimi hökm verir. Onun hökmünü ləğv edən olmaz. O, tez haqq-hesab çəkəndir.

(Rad surəsi, 41)

Sonra onlar özlərinin həqiqi Himayədarı olan Allaha qaytarılacaqlar. Hökm yalnız Ona məxsusdur və O, ən tez haqq-hesab çəkəndir.

(Ənam surəsi, 62)

Həqiqətən, Allah yanında qəbul olunan din, İslamdır! Kitab verilənlər ancaq özlərinə elm gəldikdən sonra aralarındakı zülm və həsəd üzündən ixtilafa düşdülər. Kim Allahın ayələrini inkar edərsə, bilsin ki, Allah tez haqq-hesab çəkəndir.

(Ali İmran surəsi, 19)

Vədi haqq olandır

Onlar səndən əzabın tez gəlməsini istəyirlər. Allah Öz vədinə əsla xilaf çıxmaz. Rəbbinin yanında olan bir gün sizin saydığınızın min ili kimidir!

(Həcc surəsi, 47)

Doğrudan da, Allah möminlərdən, Cənnət müqabilində onların canlarını və mallarını satın almışdır. Çünki onlar Allah yolunda vuruşub öldürür və öldürülürlər. Bu, Allahın Tövratda, İncildə və Quranda Öz öhdəsinə götürdüyü bir vəddir. Allahdan daha yaxşı əhdini yerinə yetirən kimdir? Elə isə sövdələşdiyiniz alış-verişə görə sevinin. Məhz bu, böyük uğurdur.

(Tövbə surəsi, 111)

Onlar orada əbədi qalacaqlar. Allahın vədi haqdır. O, Qüdrətlidir, Müdrikdir.

(Loğman surəsi, 9)

> *Bu Cənnət Mərhəmətli Allahın Öz qullarına vəd etdiyi və onların görmədikləri Ədn bağlarıdır. Onun vədi mütləq yerinə yetəcəkdir.*
>
> **(Məryəm surəsi, 61)**

> *Əgər oxunan bir kitabla dağlar hərəkətə gətirilsəydi və ya onunla yer parçalansaydı və yaxud da onun sayəsində ölülər danışsaydılar o kitab yenə bu Quran olardı. Lakin bütün işlər Allaha məxsusdur. İman gətirənlər hələ bilmirlərmi ki, əgər Allah istəsəydi, bütün insanları doğru yola yönəldərdi? Allahın vədi gəlincəyə qədər etdikləri əməllərə görə kafir olanlara müsibət üz verməkdə davam edəcək və ya onların yurdunun yaxınlığında dayanacaqdır. Şübhəsiz ki, Allah vədinə xilaf çıxmaz.*
>
> **(Rad surəsi, 31)**

Xəbərdarlıq edib qorxudandır

> *Bu Quran insanlar üçün bir bildirişdir. Qoy onunla həm qorxsunlar, həm Allahın Tək İlah olduğunu bilsinlər, həm də ağıl sahibləri düşünüb ibrət alsınlar.*
>
> **(İbrahim surəsi, 52)**

> *And olsun bu aydın Kitaba!*
>
> **(Duxan surəsi, 2)**

Biz onu mübarək bir gecədə nazil etdik. Həqiqətən, Biz qorxuduruq.

(Duxan surəsi, 3)

Allah, Öz tərəfindən gələcək şiddətli bir əzabla günahkarları qorxutmaq, yaxşı işlər görən möminləri gözəl mükafata nail olacaqları ilə müjdələmək üçün bu Kitabı dopdoğru şəkildə nazil etdi.

(Kəhf surəsi, 2)

Beləliklə, Biz onu ərəbcə Quran olaraq nazil etdik. Biz orada təhdidləri dönə-dönə açıqladıq ki, bəlkə, onlar pis əməllərindən çəkinsinlər və ya ibrət alsınlar.

(Taha surəsi, 113)

Hidayətdə olanı və doğru yoldan azanı ən yaxşı biləndir

Allah iman gətirənləri də, münafiqləri də aşkar edəcəkdir.

(Ənkəbut surəsi, 11)

De: "Hər kəs öz xasiyyətinə görə iş görər. Rəbbiniz isə kimin doğru yolda olduğunu daha yaxşı bilir".

(İsra surəsi, 84)

> *Onların bilik səviyyəsi budur. Şübhəsiz ki, sənin Rəbbin Onun yolundan azanı da, doğru yolla gedəni də yaxşı tanıyır.*
>
> **(Nəcm surəsi, 30)**

İnkarçılara tələ qurandır

> *Bir zaman kafirlər səni həbs etmək, öldürmək və ya yurdundan qovmaq üçün sənə qarşı hiylə qururdular. Onlar hiylə işlətdilər, Allah da hiylə işlətdi. Allah hiylə işlədənlərin ən yaxşısıdır.*
>
> **(Ənfal surəsi, 30)**

> *Onlar hiylə qurdular, Allah da hiylə qurdu. Allah hiylə quranların ən yaxşısıdır.*
>
> **(Ali İmran surəsi, 54)**

> *Zalımlar öz hiylələrini qururdular. Halbuki onların hiyləsi Allaha bəlli idi. Onların hiyləsi ilə dağlar yerindən tərpənən deyildir.*
>
> **(İbrahim surəsi, 46)**

> *Onlar hiylə qurdular, Biz də hiylə qurduq. Lakin onlar bunu hiss etmədilər.*
>
> **(Nəml surəsi, 50)**

İnsanlara üz verən bəladan sonra onlara bir mərhəmət daddırdığımız zaman ayələrimizə qarşı hiyləgərlik etməyə çalışarlar. De: "Allah daha tez hiylə qurar". Şübhəsiz ki, elçilərimiz (mələklər) qurduğunuz hiylələri yazırlar.

(Yunis surəsi, 21)

İnkarçıların tələlərini boşa çıxarandır

Onlardan öncəkilər də hiylə qurmuşdular. Sonra Allah onların tikililərini özülündən dağıtdı, tavanları başlarına uçdu və əzab onlara gözləmədikləri yerdən gəldi.

(Nəhl surəsi, 26)

Musa onlara Bizim dərgahımızdan həqiqəti bəyan etdikdə onlar dedilər: "Onunla birlikdə iman gətirənlərin oğullarını öldürün, qadınlarını isə sağ buraxın!" Amma bilin ki, kafirlərin hiyləsi boşa çıxar.

(Mümin surəsi, 25)

Rəbbinin fil sahiblərinə nələr etdiyini görmədinmi?

(Fil surəsi, 1)

Məgər Rəbbin onların hiyləsini dolaşığa salmadımı?

(Fil surəsi, 2)

Bax belə! Həqiqətən də, Allah kafirlərin hiyləsini zəiflədər.

(Ənfal surəsi, 18)

Onlardan əvvəlkilər də hiylə qurdular. Halbuki bütün hiylələr Allaha aiddir. O, hər kəsin nə qazandığını bilir. Kafirlər Axirət yurdunun kimin olacağını biləcəklər.

(Rad surəsi, 42)

İnkarçılara günahlarının artması üçün zaman verəndir

Kafirlər elə güman etməsinlər ki, Bizim onlara möhlət verməyimiz xeyirlərinədir. Biz onlara ona görə möhlət veririk ki, günahlarını daha da artırsınlar. Onlar üçün alçaldıcı bir əzab hazırlanmışdır.

(Ali İmran surəsi, 178)

Mən onlara möhlət verəcəyəm. Şübhəsiz ki, Mənim hiyləm sarsılmazdır.

(Əraf surəsi, 183)

Allah da onlara istehza edər və azğınlıqlarını o qədər artırar ki, sərgərdan gəzərlər.

(Bəqərə surəsi, 15)

Neçə-neçə şəhərlərə, əhalisi zülm edərkən möhlət verdim, sonra onları əzabla yaxaladım. Dönüş də ancaq Mənədir!

(Həcc surəsi, 48)

Əgər Allah insanları hər etdikləri zülmə görə cəzalandırsaydı, yer üzündə heç bir canlını sağ qoymazdı. Lakin Allah onlara müəyyən vaxta qədər möhlət verir. Onların əcəlinin çatdığı an bircə saat belə nə yubanar, nə də tezləşə bilər.

(Nəhl surəsi, 61)

Zalımların etdikləri əməllərdən Allahın xəbərsiz olduğunu sanma. Allah sadəcə onları cəzalandırmağı gözlərin bərələ qalacağı günə saxlayır.

(İbrahim surəsi, 42)

De: "Qoy Mərhəmətli Allah azğınlıqda olan hər kəsə uzun müddət möhlət versin! Nəhayət, özlərinə vəd olunan ya əzabı, ya da o Saatı gördükləri zaman onlar kimin məqamının daha pis, kimin ordusunun daha zəif olduğunu biləcəklər".

(Məryəm surəsi, 75)

İnkarçılara çətinlik və sıxıntı verəndir

Allah kimi doğru yola yönəltmək istəsə, onun köksünü İslam üçün açar, kimi azdırmaq istəsə, onun köksünü, sanki o, göyə çıxırmış kimi daraldar və sıxıntılı edər. Allah iman gətirməyənləri beləcə cəzalandırar.

(Ənam surəsi, 125)

İnkarçıları azdırandır

Pis əməli özünə gözəl göstərilib onu yaxşı hesab edənlə, doğru yolla gedən kimsə eyni ola bilərmi? Həqiqətən, Allah istədiyini zəlalətə salır, istədiyini də doğru yola yönəldir. Sən onlara görə özünü üzüb əldən salma. Şübhəsiz ki, Allah onların nə törətdiklərini bilir.

(Fatir surəsi, 8)

Onlara Allahdan başqa kömək edəcək dostlar olmayacaqdır. Allah kimi azğınlığa salsa, onun üçün heç bir qurtuluş yolu olmaz.

(Şura surəsi, 46)

İnkarçıları öldürücü olandır

Sən Allah yolunda vuruş! Sən ancaq özünə cavabdehsən. Möminləri də döyüşə təşviq et! Ola bilsin ki, Allah kafirlərin qüvvəsinin qarşısını alsın. Allahın qüvvəsi daha çox, cəzası daha şiddətlidir.

(Nisa surəsi, 84)

İnkarçılardan intiqam alandır

Biz onu ayələrimizi yalan hesab edən adamlardan müdafiə etdik. Doğrudan da onlar pis adamlar idilər. Odur ki, Biz onların hamısını suya batırdıq.

(Ənbiya surəsi, 77)

Rəbbinin ayələri yadına salındıqdan sonra onlardan üz döndərən kəsdən daha zalım kim ola bilər? Şübhəsiz ki, Biz günahkarlardan intiqam alacağıq.

(Səcdə surəsi, 22)

Biz də onlardan intiqam aldıq. Bir gör haqqı yalan sayanların aqibəti necə oldu.

(Zuxruf surəsi, 25)

İnkarçıları əzablandırandır

Kafir olub insanları Allah yolundan sapdıranlara törətdikləri fitnə-fəsada görə əzab üstündən əzab artıracağıq.

(Nəhl surəsi, 88)

Qəlbi imanla sabit qaldığı halda haqqı danmağa məcbur edilən kəslər istisna olmaqla, kim iman gətirdikdən sonra Allahı inkar etsə və qəlbini küfrə açsa, Allahın qəzəbinə düçar olar. Onlar üçün böyük bir əzab vardır.

(Nəhl surəsi, 106)

Bizə vəhy olundu ki, əzab, haqqı yalan sayıb üz döndərənlərə veriləcəkdir!"

(Taha surəsi, 48)

Allahın ayələrinə inanmayanları, əlbəttə ki, Allah doğru yola yönəltməz və onlar üçün ağrılı-acılı bir əzab vardır.

(Nəhl surəsi, 104)

İnkarçılar üçün cəhənnəmi yaradandır

Hər kəs doğru yol ona bəlli olduqdan sonra Peyğəmbərə qarşı çıxsa və möminlərin yolundan başqa bir yolla getsə, onu üz tutduğu yola yönəldər və Cəhənnəmdə yandırarıq. Ora nə pis dönüş yeridir.

(Nisa surəsi, 115)

Münafiqlərin qəlblərindəki xəstəliyi ortaya çıxarandır

Uhudda iki qoşunun üz-üzə gəldiyi gün sizə üz vermiş müsibət Allahın izni ilə oldu ki, möminləri aşkara çıxartsın

(Ali İmran surəsi, 166)

və münafiqləri bəlli etsin. Onlara: "Gəlin, Allah yolunda döyüşün, yaxud heç olmasa müdafiədə durun!" – deyildi. Onlar: "Döyüş olacağını bilsəydik sizin ardınızca gedərdik" – dedilər. Onlar o gün imandan çox küfrə yaxın idilər. Onlar qəlblərində olmayanı ağızları ilə deyirlər. Halbuki Allah onların nəyi gizlətdiklərini çox yaxşı bilir.

(Ali İmran surəsi, 167)

Münafiqləri rüsvay edəndir

Onlarla vuruşun ki, Allah sizin əllərinizlə onlara əzab versin, onları rüsvay etsin, sizə onların üzərində qələbə çaldırsın, mömin camaatın qəlbini sevindirsin

(Tövbə surəsi, 14)

Münafiqləri əzablandırandır

Allah münafiq kişilərə, münafiq qadınlara və kafirlərə içərisində əbədi qalacaqları Cəhənnəm odu vəd etmişdir. Bu onlara kifayət edər! Allah onlara lənət etmişdir. Onlar üçün daimi bir əzab vardır.

(Tövbə surəsi, 68)

Möminləri doğru yola yönəldəndir

Əgər oxunan bir kitabla dağlar hərəkətə gətirilsəydi və ya onunla yer parçalansaydı və yaxud da onun sayəsində ölülər danışsaydılar o kitab yenə bu Quran olardı. Lakin bütün işlər Allaha məxsusdur. İman gətirənlər hələ bilmirlərmi ki, əgər Allah istəsəydi, bütün insanları doğru yola yönəldərdi? Allahın vədi gəlincəyə qədər etdikləri əməllərə görə kafir olanlara müsibət üz verməkdə davam edəcək və ya onların yurdunun yaxınlığında dayanacaqdır. Şübhəsiz ki, Allah vədinə xilaf çıxmaz.

(Rad surəsi, 31)

Doğru yolla gedənlərə gəldikdə isə, Allah onlara hidayətini artırar və onları təqvalı olmağa müvəffəq edər.

(Məhəmməd surəsi, 17)

Səni çaşqın olduğun halda doğru yola yönəltmədimi?

(Duha surəsi, 7)

Kafir olanlar deyirlər: "Niyə ona Rəbbindən bir möcüzə endirilməyib?" De: "Şübhəsiz ki, Allah istədiyini sapdırır. Tövbə edib Ona üz tutan kimsəni isə doğru yola yönəldir".

(Rad surəsi, 27)

Biz dedik: "Hamınız oradan yerə enin! Mənim tərəfimdən sizə doğru yol göstəricisi gəldikdə Mənim yol göstəricimin ardınca gedənlərə heç bir qorxu yoxdur və onlar kədərlənməyəcəklər".

(Bəqərə surəsi, 38)

Doğru yol göstərmək Allaha aiddir. Əyri yollar da vardır. Əgər O istəsəydi, sizin hamınızı doğru yola yönəldərdi.

(Nəhl surəsi, 9)

Allah, Onun rizasını arayan şəxsləri bu Kitabla əmin-amanlıq yollarına yönəldir, onları Öz izni ilə zülmətlərdən nura çıxarır və düz yola yönəldir.

(Maidə surəsi, 16)

Bu, Allahın hidayətidir. Bununla O, qullarından istədiyi şəxsi doğru yola yönəldir. Əgər Ona şərik qoşsaydılar, əlbəttə, etdikləri əməllər puç olardı.

(Ənam surəsi, 88)

Musa dedi: "Rəbbimiz hər şeyə öz xilqətini verən, sonra da ona doğru yolu göstərəndir!"

(Taha surəsi, 50)

Biz sənə Öz əmrimizdən olan ruhu (Quranı) vəhy etdik. Sən kitab nədir, iman nədir bilmirdin. Lakin Biz onu, qullarımızdan istədiyimizi doğru yola yönəltmək üçün, bir nur etdik. Həqiqətən, sən onları doğru yola yönəldirsən –

(Şura surəsi, 52)

Möminləri bir araya gətirəndir

Hər kəsin üz tutduğu bir qibləsi vardır. Yaxşı işlər görməkdə bir-birinizlə yarışın. Harada olursunuz olun Allah sizin hamınızı bir yerə toplayacaqdır. Şübhəsiz ki, Allah hər şeyə qadirdir.

(Bəqərə surəsi, 148)

Möminlərin qəlblərini birləşdirəndir

Allah onların qəlblərini birləşdirdi. Əgər sən yer üzündə olanların hamısını sərf etsəydin belə, onların qəlblərini birləşdirə bilməzdin. Lakin Allah onları birləşdirdi. Həqiqətən, O, Qüdrətlidir, Müdrikdir.

(Ənfal surəsi, 63)

Əgər onlar səni aldatmaq istəsələr, bil ki, sənə Allah yetər. O, səni həm Öz köməyi ilə, həm də möminlərlə qüvvətləndirdi.

(Ənfal surəsi, 62)

Allah onların qəlblərini birləşdirdi. Əgər sən yer üzündə olanların hamısını sərf etsəydin belə, onların qəlblərini birləşdirə bilməzdin. Lakin Allah onları birləşdirdi. Həqiqətən, O, Qüdrətlidir, Müdrikdir.

(Ənfal surəsi, 63)

Ey Peyğəmbər! Sənə və sənin ardınca gedən möminlərə Allah kifayət edər.

(Ənfal surəsi, 64)

Hamınız Allahın ipindən möhkəm yapışın və parçalanmayın! Allahın sizə olan nemətini xatırlayın ki, siz bir-birinizə düşmən idiniz, O, sizin qəlblərinizi birləşdirdi və Onun neməti sayəsində bir-birinizlə qardaş oldunuz. Siz odlu bir uçurumun lap kənarında idiniz. O, sizi ondan xilas etdi. Allah Öz ayələrini sizə beləcə bəyan edir ki, bəlkə doğru yola gələsiniz.

(Ali İmran surəsi, 103)

Möminlərə imanı sevdirib, küfrü çirkin göstərəndir


Bilin ki, Allahın Elçisi aranızdadır. Əgər o, bir çox işlərdə sizə güzəştə getsəydi, çətinliyə düşərdiniz. Lakin Allah sizə imanı sevdirmiş, onu qəlbinizə gözəl göstərmiş, sizdə küfrə, günaha və asi olmağa qarşı nifrət oyatmışdır. Doğru yolda olanlar da bunlardır.

(Hucurat surəsi, 7)

Möminlərin işlərini asanlaşdırandır

Allah sizin üçün şəriət hökmlərini yüngülləşdirmək istəyir, çünki insan zəif yaradılmışdır.

(Nisa surəsi, 28)



Allah göylərin və yerin nurudur

Heyzdən kəsilmiş yaşlı qadınlarınızın iddəsi barəsində şübhəniz varsa, onların, eləcə də hələ heyz görməmiş qızların gözləmə müddəti üç aydır. Hamilə qadınların gözləmə müddəti isə onlar hamiləlikdən azad olana qədərdir. Kim Allahdan qorxarsa, Allah onun işini asanlaşdırar.

(Talaq surəsi, 4)

> *Biz hər kəsi yalnız qüvvəsi çatdığı qədər yükləyirik. Yanımızda haqqı deyən bir Kitab vardır. Onlara zülm olunmaz.*
>
> **(Muminun surəsi, 62)**

> *İman gətirib yaxşı əməl edənlər isə Cənnət sakinləridir. Onlar orada əbədi qalacaqlar. Biz hər kəsi yalnız onun qüvvəsi çatdığı qədər yükləyirik.*
>
> **(Əraf surəsi, 42)**

> *Kim haqqını verir və Allahdan qorxursa,*
>
> **(Leyl surəsi, 5)**

> *və ən gözəl olanı (lə ilahə illəllahı) təsdiq edirsə,*
>
> **(Leyl surəsi, 6)**

> *Biz onu ən asan olana nail edəcəyik.*
>
> **(Leyl surəsi, 7)**

> *Səni ən asan olana müvəffəq edərik.*
>
> **(Əla surəsi, 8)**

Biz onu (Quranı) sənin dilinlə asanlaşdırdıq ki, onunla müttəqilərə müjdə verəsən və inadkarlara xəbərdarlıq edəsən.

(Məryəm surəsi, 97)

İnsanlara doğru yolu göstərən, bu yolun və haqqı batildən ayırd edənin açıq-aydın dəlilləri olan Quran ramazan ayında nazil edilmişdir. Sizlərdən bu aya çatan şəxslər həmin ayı oruc tutmalıdırlar. Xəstə və ya səfərdə olanlar isə başqa günlərdə eyni sayda oruc tutmalıdırlar. Allah sizin üçün çətinlik deyil, asanlıq istəyir. O, istəyir ki, siz müddəti (buraxdığınız günlərin orucunu) tamamlayasınız və sizi doğru yola yönəltdiyinə görə Onu uca tutasınız. Bəlkə şükür edəsiniz.

(Bəqərə surəsi, 185)

Məgər Biz sənin üçün köksünü açmadıqmı?

(İnşirah surəsi, 1)

Yükünü səndən götürmədikmi?

(İnşirah surəsi, 2)

Onlar belini bükürdü.

(İnşirah surəsi, 3)

Biz adını sənə görə ucaltmadıqmı?

(İnşirah surəsi, 4)

Sözsüz ki, hər çətinliyin ardınca asanlıq gəlir.

(İnşirah surəsi, 5)

Əlbəttə ki, hər çətinliyin ardınca asanlıq gəlir.

(İnşirah surəsi, 6)

Möminləri sevəndir

Ey iman gətirənlər! Sizlərdən hər kim dinindən dönsə, Allah onun əvəzinə Özünün sevdiyi və Onu sevən, möminlərə qarşı mülayim, kafirlərə qarşı isə sərt olan, Allah yolunda cihad edən və tənə edənin tənəsindən qorxmayan bir camaat gətirər. Bu, Allahın lütfüdür, onu istədiyinə verər. Allah hər şeyi Əhatə edəndir, Biləndir.

(Maidə surəsi, 54)

Heç vaxt orada namaz qılma. İlk gündən təqva üzərində qurulmuş məscid, əlbəttə, içində namaz qılmağın üçün daha layiqdir. Orada təmizlənməyi sevən kişilər vardır. Allah da təmizlənənləri sevir.

(Tövbə surəsi, 108)

Möminlərə güvən duyğusu və hüzur verəndir

Əgər siz Peyğəmbərə kömək etməsəniz, bilin ki, Allah ona artıq kömək göstərmişdir. O vaxt kafirlər onu iki nəfərdən ikincisi olaraq Məkkədən çıxartdılar. O iki nəfər mağarada olarkən onlardan biri öz yoldaşına (Əbu Bəkrə) dedi: "Qəm yemə, Allah bizimlədir!" Bundan sonra Allah ona arxayınlıq nazil etdi, sizin görmədiyiniz döyüşçülərlə ona yardım göstərdi və kafirlərin sözünü alçaltdı. Ancaq Allahın Sözü ucadır. Allah Qüdrətlidir, Müdrikdir.

(Tövbə surəsi, 40)

Sonra Allah Öz Elçisinə və möminlərə əminlik nazil etdi, görə bilmədiyiniz döyüşçülər göndərdi və kafirlərə əzab verdi. Budur kafirlərin cəzası.

(Tövbə surəsi, 26)

O zaman Allah Öz tərəfindən bir təskinlik olsun deyə, sizə yüngül bir mürgü göndərmiş, göydən sizin üzərinizə yağmur endirmişdi ki, onunla sizi təmizləsin, şeytanın vəsvəsəsini sizdən uzaq etsin, qəlbinizi möhkəmləndirsin və onunla qədəmlərinizi sabit etsin.

(Ənfal surəsi, 11)

Möminlərin imanı üstünə iman artırmaq üçün onların qəlbinə rahatlıq göndərən Odur. Göylərin və yerin orduları Allahındır. Allah Biləndir, Müdrikdir.

(Fəth surəsi, 4)

Möminlər Hüdeybiyyədə ağac altında sənə beyət edərkən Allah onlardan razı qaldı. Allah onların qəlbində olanı bildi, onlara mənəvi rahatlıq nazil etdi və onları yaxın bir zəfərlə mükafatlandırdı.

(Fəth surəsi, 18)

Möminlərin pisliklərini örtəndir

İman gətirərək yaxşı əməl işlədənlərin, əlbəttə ki, təqsirlərindən keçərik və onları etdikləri əməllərdən daha üstün olanı ilə mükafatlandırarıq.

(Ənkəbut surəsi, 7)

Beləcə, Allah onların etdikləri ən pis əməlləri bağışlayacaq və etdikləri ən yaxşı əməllərə görə mükafatlarını verəcəkdir.

(Zumər surəsi, 35)

> *O gün Allah sizi Toplanma gününə cəm edəcək. Həmin gün qarşılıqlı aldanma günüdür. Hər kəs Allaha iman gətirib yaxşı işlər görsə, Allah onun günahlarını bağışlayar və onu ağacları altından çaylar axan Cənnət bağlarına daxil edər. Onlar orada əbədi qalacaqlar. Bu, böyük müvəffəqiyyətdir.*
>
> **(Təğabun surəsi, 9)**

> *Ey iman gətirənlər! Əgər Allahdan qorxsanız, O sizə haqla nahaqqı ayırd etmə bacarığı verər, günahlarınızdan keçər və sizi bağışlayar. Allah böyük lütf sahibidir.*
>
> **(Ənfal surəsi, 29)**

Möminlər üçün cənnəti yaradandır

> *Onlara deyiləcəkdir: "Həqiqətən, bu sizə bir hədiyyədir və səyiniz təşəkkürə layiqdir".*
>
> **(İnsan surəsi, 22)**

> *Biz o Axirət yurdunu yer üzündə təkəbbürlük etmək və fitnə-fəsad törətmək istəməyənlərə nəsib edirik. Gözəl aqibət müttəqilərindir.*
>
> **(Qəsas surəsi, 83)**

> *Bunun əvəzində Allah da onları həmin günün şərindən qoruyar və onlara gözəllik və sevinc nəsib edər;*
>
> **(İnsan surəsi, 11)**

> *onlara səbir etdiklərinə görə Cənnəti bəxş edər və orada geyəcəkləri ipəklə mükafatlandırar.*
>
> **(İnsan surəsi, 12)**

> *İman gətirib hicrət edən və Allah yolunda öz malı və canı ilə cihad edənlərin Allah yanında ən yüksək dərəcələri vardır. Məhz onlar nicat tapanlardır.*
>
> **(Tövbə surəsi, 20)**

> *Rəbbi Öz tərəfindən onları bir mərhəmət, razılıq və içərisində onlar üçün tükənməz nemətlər olan Cənnət bağları ilə müjdələyir.*
>
> **(Tövbə surəsi, 21)**

> *İman gətirib yaxşı işlər görənlər üçün Nəim bağları hazırlanmışdır.*
>
> **(Loğman surəsi, 8)**

Dinə yardım edənlərə dünyada və axirətdə yardım

edəndir

> *Ey iman gətirənlər! Əgər siz Allaha (Onun dininə) kömək göstərsəniz, O da sizə kömək göstərər və ayaqlarınızı möhkəmlədər.*
>
> **(Məhəmməd surəsi, 7)**

> *Onlar ancaq "Rəbbimiz Allahdır" – dediklərinə görə haqsız yerə yurdlarından çıxarıldılar. Əgər Allah insanların bəzilərini, digərləri ilə dəf etməsəydi, içərisində Allahın adı çox zikr olunan hücrələr, kilsələr, sinaqoqlar və məscidlər dağılıb gedərdi. Allah Ona yardım edənlərə, mütləq yardım edər. Şübhəsiz ki, Allah Qüvvətlidir, Qüdrətlidir.*
>
> **(Həcc surəsi, 40)**

> *Şübhəsiz ki, Biz Öz elçilərimizə və möminlərə həm dünya həyatında, həm də şahidlərin şəhadət verəcəyi gün yardım edəcəyik.*
>
> **(Mümin surəsi, 51)**

ALLAH (c.c.)

> *Ən gözəl adlar Allahındır…*
>
> **(Əraf surəsi, 180)**

A LLAH: Bütün gözəl sifətləri özündə ehtiva edən

AXIR: Hər şey yox olduqdan sonra da var olan

ALİYY: Çox uca olan

ALİM: Hər şeyi çox yaxşı bilən

ASİM: Qoruyan

BAİS: Göndərən (peyğəmbər)

BAQİ: Davam edən, fani olmayan

BARİ: Yaradan, qüsursuzca var edən

BASİR: Yaxşı görən

BATİN: Gizli

BASİT: Açan, genişlədən, bollaşdıran

BƏDİ: Nümunəsiz olaraq yaradan

BƏRR: Qullarına qarşı yaxşılığı çox olan

CABBAR: Dilədiyini zorla etdirən

CAMİ: İstədiyi yerdə yığan

DAİ: Çağıran, dəvət edən

DAFİQ: Bəlaları dəf edən, uzaqlaşdıran

DARR: Zərər verən şeylər yaradan

ƏDL: Adil olan, ədaləti əmr edən

ƏFÜVV: Əfvi çox olan

ƏHKAM-ÜL HAKİMİN: Hökm verənlərin hakimi

ƏZM: Çox əzəmətli, böyük olan

ƏZİZ: Üstün, qüvvətli

ƏR-HAMUR-RAHİMİN: Mərhəmətlilərin ən mərhəmətlisi

ƏVVƏL: İlk

FALİQ: Yaran

FASIL: Ayıran, açıqlayan

FATIR: Yaradan, icad edən

FƏTTAH: Çox yaxşı hökm verən, hökm edən

HADİ: Hidayət lütf edən

HAFİD: Alçaldan

HAFİZ: Qoruyan, mühafizə edən

HAKİM: Hökm edən, haqqı yerinə yetirən

HASİB: Haqq-hesab çəkən

HAYY: Diri

HAQQ: Varlığı heç dəyişmədən dayanan

HƏLİM: Şəfqətli, mərhəmətli, həlim olan

HƏMİD: Ancaq Özünə şükr edilən

XALİQ: Yoxdan var edən

XƏBİR: Xəbərdar olan

KABID: Sıxan, daraldan

KABİL: Qəbul edən, bağışlayan

KADİ: Hökmünü yerinə yetirən

KARİB: Yaxın olan

KASİM: Paylaşdıran

KAVİ: Çox güclü olan

KAFİ: Kifayət edən

KƏBİR: Çox böyük

KƏRİM: Kərəmi bol olan

QAFFAR: Bağışlaması çox olan

QANİYY: Çok zəngin

QADİR: Gücü çatan

QAHHAR: Qəhr edən

QƏDİM: Əvvəldən xəbərdar edən

QƏYYUM: İdarə edib qüvvədə saxlayan

QUDDÜS: Əskiklikdən çox uzaq

LƏTİF: Lütf sahibi, lütf edən

MAKİR: Tələ quran

MALİK-İ YƏVMİD-DİN: Din gününün sahibi

MALİK-ÜL MÜLK: Mülkün əbədi sahibi

MƏCİD: Şanı böyük və yüksək

MƏLCA: Özünə Sığınılan

MƏLİK: Bütün kainatın sahibi

MƏTİN: Çox qüdrətli olan

MÖVLA: Möminlərin dostu olan

MÖMİN: Əminlik yaradan

MUAXXİR / MUQƏDDİM: İstədiyini yubadan, tezləşdirən



Hər şeyi əhatə edəndir

MUAZZİB: Əzablandıran

MUHİT: Əhatə edən

MUBKİ / MUDHİK : Ağladan / güldürən

MUCİB: Razılıq edən

MUĞNİ: İstədiyini zəngin edən

MUHSİ: Hər şeyin sayını bilən

MUHSİN: Lütfkar

MUHYİ: Sağlamlıq verən, dirildən, yaşadan

MUKALLİB: Çevirən (ürəkləri)

MÜKMİL: Kamilləşdirən

MÜSƏVVİR: Şəkil və surət verən

MÜSƏVVA: Şəkilləndirən, surət verən

MUTAHHİR: Mənəvi çirklərdən təmizləyən

MÜVƏFFİ: Əhdini yerinə yetirən

MÜDRİK: Hikmət sahibi

MÜQTƏDİR: Qüvvət və qüdrət sahibi

MÜNTƏQİM: İntiqam alan

MÜBƏŞŞİR: Müjdələyən

MÜBƏYYİN: Açıqlayan

MÜDƏBBİR: İdarə edən

MÜHƏYMİN: Nəzarət edən və qoruyan

MÜSTƏAN: Özünə ehtiyac olunan

MÜTƏALİ: Çox Uca

MÜTƏKƏBBİR: Böyüklüyünü göstərən

MÜYƏSSİR: Asanlaşdıran, dində asanlıq verən

MÜZƏKKİ: Qullarını təmizə çıxaran

MÜZƏYYİN: Bəzəyən

MÜZİL: Zillətə salan

NASİR: Kömək edən

NUR: Aləmləri nurlandıran

RAFİ: Yüksəldən

RAQİB: Bütün işləri idarə edən

RAUF: Çox əsirgəyən, çox şəfqətli

RƏBBİL-ALƏMİN: Aləmlərin Rəbbi

RƏHMAN/RƏHİM: Mərhəmətli

RƏZZAQ: Ruzi verən

SAMƏD: Heç kəsə möhtac olmayan

SADİQ: Vədinə sadiq

SAİQ: Cəhənnəmə atan

SANİ: Sənətçi,

SALAM: Salamatlığa çıxaran

SƏMİ: Eşidən

ŞAFİ: Şəfa verən

ŞARİH: Açan

ŞAHİD: Şahid olan

ŞƏFİ: Şəfaətçi

ŞƏKUR: Qarşılıq verən

TƏVVAB: Tövbələri qəbul edən

VAHİD: Tək olan

VARİS: Sərvətlərin həqiqi sahibi

VASİ: Hər şeyi əhatə edən

VƏDUD: Yaxşı qullarını sevən

VƏHHAB: Hədiyyəsi çox olan

VƏKİL: Təvəkkül edənlərin işini düzəldən

VƏLİ: İman gətirənlərin dostu

ZAHİR: Aşkar olan

ZÜLCƏLAL-İ VƏL İKRAM: Böyük, həm kərəm və ikram sahibi

FƏSİL

Quran-i Kərim

QURAN-İ KƏRİM

Əlif. Ləm. Ra. Bu, insanları öz Rəbbinin izni ilə qaranlıqdan nura – Qüdrətli, Tərifəlayiq Allahın yoluna çıxartmaq üçün sənə nazil etdiyimiz bir Kitabdır.

(İbrahim surəsi, 1)

Allah tərəfindən endirilmişdir

De: "Əgər insanlar və cinlər bu Qurana bənzər bir şey gətirmək üçün bir yerə toplaşıb, bir-birinə kömək etsələr belə ona bənzərini gətirə bilməzlər".

(İsra surəsi, 88)

Qoy elm verilən kəslər, bu Kitabın Rəbbin tərəfindən göndərilmiş həqiqət olduğunu bilsinlər ki, ona inansınlar və qəlbləri ona bağlansın. Şübhəsiz ki, Allah iman gətirənləri doğru yola yönəldər.

(Həcc surəsi, 54)

Şübhə yoxdur ki, bu Kitabı aləmlərin Rəbbi olan Allah nazil etmişdir.

(Səcdə surəsi, 2)

Yoxsa onlar: "Bunu özündən uydurmuşdur!" – deyirlər. Xeyr, o, Rəbbindən nazil olan bir haqdır ki, səndən öncə xəbərdar edən peyğəmbər gəlməmiş hər hansı bir xalqı xəbərdar edəsən. Bəlkə də, onlar doğru yola yönələlər.

(Səcdə surəsi, 3)

O, şair sözü deyildir! Necə də az inanırsınız!

(Haqqə surəsi, 41)

O, kahin sözü də deyildir! Necə də az düşünürsünüz!

(Haqqə surəsi, 42)

O, aləmlərin Rəbbi tərəfindən vəhy edilmişdir!

(Haqqə surəsi, 43)

Bu Quran Allahdandır, Ondan başqası tərəfindən uydurula bilməz. Lakin o, özündən əvvəlkiləri təsdiqləyən və aləmlərin Rəbbi tərəfindən nazil edilmiş, içində də heç bir şəkk-şübhə olmayan kitabları müfəssəl izah edəndir.

(Yunis surəsi, 37)

Yoxsa: "Məhəmməd onu özündən uydurdu!" – deyirlər. De: "Əgər doğru danışırsınızsa, ona bənzər bir surə də siz gətirin və Allahdan başqa, kimi bacarırsınızsa, köməyə çağırın!"

(Yunis surəsi, 38)

Şübhəsiz ki, bu, aləmlərin Rəbbindən nazil edilmişdir.

(Şuəra surəsi, 192)

Əlif. Ləm. Ra. Bu, insanları öz Rəbbinin izni ilə qaranlıqdan nura – Qüdrətli, Tərifəlayiq Allahın yoluna çıxartmaq üçün sənə nazil etdiyimiz bir Kitabdır.

(İbrahim surəsi, 1)

Nə önündən, nə də arxasından batil ona girişə bilməz. O, Müdrik, Tərifəlayiq Allah tərəfindən nazil edilmişdir.


(Fussilət surəsi, 42)

> *Bu Kitab Qüdrətli və Müdrik Allahdan nazil edilmişdir.*
>
> **(Zumər surəsi, 1)**

Cəbrayıl vasitəsilə vəhy olunmuşdur

> *Bu, ona tələqin edilən bir vəhydir.*
>
> **(Nəcm surəsi, 4)**

> *Bunu ona çox qüvvətli olan öyrətdi –*
>
> **(Nəcm surəsi, 5)**



Quran — Allahın qorunacaq sözü

> *Sonra Allah Öz quluna nazil edəcəyini vəhy etdi.*
>
> **(Nəcm surəsi, 10)**

> *Şübhəsiz ki, bu, aləmlərin Rəbbindən nazil edilmişdir.*
>
> **(Şuəra surəsi, 192)**

> *Onu sadiq Ruh (Cəbrail) endirdi –*
>
> **(Şuəra surəsi, 193)**

> *sənin qəlbinə ki, xəbərdar edənlərdən olasan.*
>
> **(Şuəra surəsi, 194)**

Ərəbcə olaraq endirilmişdir

> *ayələri Quran olaraq ərəbcə müfəssəl izah edilmiş, anlaya bilən camaat üçün nəzərdə tutulmuş bir Kitabdır.*
>
> **(Fussilət surəsi, 3)**

> *Beləliklə biz onu (Quranı) ərəbcə bir qanun olaraq nazil etdik. Əgər sənə gələn bu elmdən sonra onların istəklərinə tabe olsan, səni Allahdan nə bir himayə edən, nə də bir qoruyan olar.*
>
> **(Rad surəsi, 37)**

> *Həqiqətən, Biz onu ərəbcə Quran olaraq nazil etdik ki, başa düşə biləsiniz.*
>
> **(Yusif surəsi, 2)**

Göndərilməsinin bir çox hikməti vardır

De: "Kimin şahidliyi daha böyükdür?" De: "Allah mənimlə sizin aranızda Şahiddir. Bu Quran mənə vəhy olundu ki, onunla sizi və onun çatacağı hər kəsi xəbərdar edim. Məgər siz Allahla yanaşı ibadətə layiq olan başqa məbudların olduğuna şahidlik edirsiniz?" De: "Mən şahidlik etmirəm!" De: "O, Tək olan İlahdır. Mən sizin şərik qoşduqlarınızdan uzağam".

(Ənam surəsi, 19)

Bu Quran insanlar üçün bir bildirişdir. Qoy onunla həm qorxsunlar, həm Allahın Tək İlah olduğunu bilsinlər, həm də ağıl sahibləri düşünüb ibrət alsınlar.

(İbrahim surəsi, 52)

Əlif. Ləm. Ra. Bu, insanları öz Rəbbinin izni ilə qaranlıqdan nura – Qüdrətli, Tərifəlayiq Allahın yoluna çıxartmaq üçün sənə nazil etdiyimiz bir Kitabdır.

(İbrahim surəsi, 1)

Biz Quranı sənə ona görə nazil etmədik ki, əziyyətə düşəsən.

(Taha surəsi, 2)

Onu Allahdan qorxanlar üçün ancaq nəsihət kimi göndərdik.

(Taha surəsi, 3)

Biz onları aydın dəlillər və kitablarla göndərdik. Sənə də Zikri nazil etdik ki, insanlara, onlara nazil olanı izah edəsən və bəlkə onlar fikirləşələr.

(Nəhl surəsi, 44)

Bu, hikmətli Kitabın ayələridir.

(Loğman surəsi, 2)

Xeyirxah əməl sahiblərinə doğru yol göstəricisi və rəhmətdir.

(Loğman surəsi, 3)

O gün hər ümmətə özlərindən bir şahid göndərəcəyik, səni də onlara şahid gətirəcəyik. Biz Kitabı sənə hər şey üçün bir izah, müsəlmanlara da doğru yol göstəricisi, mərhəmət və müjdə olaraq nazil etdik.

(Nəhl surəsi, 89)

Allah, Ö tərəfindən gələcək şiddətli bir əzabla günahkarları qorxutmaq, yaxşı işlər görən möminləri gözəl mükafata nail olacaqları ilə müjdələmək üçün bu Kitabı dopdoğru şəkildə nazil etdi.

(Kəhf surəsi, 2)

De: "Müqəddəs Ruh (Cəbrail) onu sənin Rəbbindən iman gətirənləri sabitqədəm etmək üçün, həm də müsəlmanlara doğru yol göstəricisi və müjdə olsun deyə gerçək olaraq nazil etmişdir".

(Nəhl surəsi, 102)

Biz Kitabı sənə yalnız ona görə nazil etdik ki, onlara ixtilafda olduqları şeyləri bəyan edəsən və bu, mömin adamlar üçün doğru yol göstəricisi və mərhəmət olsun.

(Nəhl surəsi, 64)

Biz onu (Quranı) sənin dilinlə asanlaşdırdıq ki, onunla müttəqilərə müjdə verəsən və inadkarlara xəbərdarlıq edəsən.

(Məryəm surəsi, 97)

diri olanları qorxutsun və kafirlər barəsindəki söz gerçəkləşsin.

(Yasin surəsi, 70)

İnsanlara bir öyüd və xəbərdarlıqdır

Bu Quran insanlar üçün bir bildirişdir. Qoy onunla həm qorxsunlar, həm Allahın Tək İlah olduğunu bilsinlər, həm də ağıl sahibləri düşünüb ibrət alsınlar.

(İbrahim surəsi, 52)

Bu, şəhərlər anası Məkkəni və onun ətrafındakıları qorxutmaq üçün nazil etdiyimiz, özündən əvvəlkiləri təsdiq edən mübarək bir Kitabdır. Axirətə inananlar ona da inanırlar. Onlar namazlarını doğru-düzgün qılırlar.

(Ənam surəsi, 92)

Xeyr! Bu Quran bir nəsihətdir.

(Müddəssir surəsi, 54)

İstəyən onu xatırlayar.

(Müddəssir surəsi, 55)

Biz sizə açıq-aydın ayələr, sizdən əvvəl gəlib-gedənlər barəsində məsəllər və müttəqilər üçün öyüd-nəsihət nazil etdik.

(Nur surəsi, 34)

Biz bu Quranda dinin ehkamlarını izah etdik ki, onlar düşünüb ibrət alsınlar. Lakin bu onların yalnız nifrətini artırır.

(İsra surəsi, 41)

Bu, insanlar üçün bir açıqlama, doğru yolu göstəricisi və öyüd-nəsihətdir.

(Ali İmran surəsi, 138)

Həqiqətən, bu Quran müttəqilər üçün bir nəsihətdir.

(Haqqə surəsi, 48)

De: "Kimin şahidliyi daha böyükdür?" De: "Allah mənimlə sizin aranızda Şahiddir. Bu Quran mənə vəhy olundu ki, onunla sizi və onun çatacağı hər kəsi xəbərdar edim. Məgər siz Allahla yanaşı ibadətə layiq olan başqa məbudların olduğuna şahidlik edirsiniz?" De: "Mən şahidlik etmirəm!" De: "O, Tək olan İlahdır. Mən sizin şərik qoşduqlarınızdan uzağam".

(Ənam surəsi, 19)

Onu Allahdan qorxanlar üçün ancaq nəsihət kimi göndərdik.

(Taha surəsi, 3)

> *Bu mübarək Kitabı, insanların onun ayələrini düşünüb anlaması və ağıl sahiblərinin də ondan ibrət götürməsi üçün sənə nazil etdik.*
>
> **(Sad surəsi, 29)**



Ən gözəl söz Allahın kəlamıdır

Bənzəri qəti olaraq yazılamaz

> *Yoxsa: "Məhəmməd onu özündən uydurdu!" – deyirlər. De: "Əgər doğru danışırsınızsa, ona bənzər bir surə də siz gətirin və Allahdan başqa, kimi bacarırsınızsa, köməyə çağırın!"*
>
> **(Yunis surəsi, 38)**

> *De: "Əgər insanlar və cinlər bu Qurana bənzər bir şey gətirmək üçün bir yerə toplaşıb, bir-birinə kömək etsələr belə ona bənzərini gətirə bilməzlər".*
>
> **(İsra surəsi, 88)**

Daha öncəki kitablarda bəhsi keçir

Şübhəsiz ki, o, keçmiş ümmətlərin kitablarında da xatırlanır.

(Şuəra surəsi, 196)

Allahın qoruması altındadır

Rəbbinin kəlamı həm doğruluq, həm də ədalət baxımından tamamlanmışdır. Heç kəs Onun kəlmələrini dəyişə bilməz. O, Eşidəndir, Görəndir.

(Ənam surəsi, 115)

Şübhəsiz ki, Zikri Biz nazil etdik, əlbəttə, Biz də onu qoruyacağıq.

(Hicr surəsi, 9)

qorunub saxlanılan Yazıdadır (Lövhi-məhfuzdadır).

(Vaqiə surəsi, 78)

Nə önündən, nə də arxasından batil ona girişə bilməz. O, Müdrik, Tərifəlayiq Allah tərəfindən nazil edilmişdir.

(Fussilət surəsi, 42)

Əsas müraciət mənbəyidir

> *Onlar cahiliyyə dövrünün hökmünümü istəyirlər? Qəti inanan bir camaat üçün Allahdan daha yaxşı hökm verən kim ola bilər?*
>
> **(Maidə surəsi, 50)**

> *Həqiqətən, Biz sənə Kitabı haqq olaraq nazil etdik ki, insanlar arasında Allahın sənə vəhy etdiyi ilə hökm verəsən. Odur ki, xainləri müdafiə edənlərdən olma.*
>
> **(Nisa surəsi, 105)**

> *Biz sənə, özündən əvvəlki kitabları təsdiqləyən və onları mühafizə edən Kitabı haqq olaraq nazil etdik. Elə isə onların arasında Allahın sənə nazil etdiyi Kitabla hökm ver. Sənə gələn haqdan ayrılıb onların istəklərinə tabe olma. Sizlərdən hər biriniz üçün bir şəriət və bir yol təyin etdik. Əgər Allah istəsəydi, sizi tək bir ümmət edərdi. Lakin başqa-başqa olmanız sizə verdikləri ilə sizi imtahan etməsi üçündür. Yaxşı işlər görməkdə bir-birinizlə yarışın. Hamınızın qayıdışı Allaha olacaq və O, ziddiyyətə düşəcəyiniz şeylər barəsində sizə xəbər verəcəkdir.*
>
> **(Maidə surəsi, 48)**

Onların aralarında Allahın sənə nazil etdiyi Kitabla hökm ver və onların istəklərinə tabe olma. Onlardan ehtiyat et ki, Allahın sənə nazil etdiyi hökmlərin bəzisindən səni sapdırmasınlar. Əgər onlar üz döndərsələr, bil ki, Allah onları bəzi günahlarına görə müsibətə düçar etmək istəyir. Həqiqətən, insanların çoxu fasiqlərdir.

(Maidə surəsi, 49)

Açıq və aydındır

Biz onu (Quranı) sənin dilinlə asanlaşdırdıq ki, onunla müttəqilərə müjdə verəsən və inadkarlara xəbərdarlıq edəsən.

(Məryəm surəsi, 97)

Beləcə, Biz Quranı açıq-aydın ayələr kimi nazil etdik. Allah istədiyi kəsi doğru yola yönəldir.

(Həcc surəsi, 16)

Allah Öz ayələrini sizə belə izah edir. Allah Biləndir, Müdrikdir.

(Nur surəsi, 18)

> *De: "Allah bu Kitabı sizə təfərrüatı ilə nazil etdiyi halda, mən Ondan başqasınımı hakim qəbul etməliyəm?" Kitab verdiklərimiz bilirlər ki, o, həqiqətən, sənin Rəbbin tərəfindən nazil edilmişdir. Odur ki, şübhə edənlərdən olma.*
>
> **(Ənam surəsi, 114)**

Müfəssəl açıqlanmışdır

> *Əlif. Ləm. Ra. Bu, Müdrik, hər şeydən Xəbərdar olan Allah tərəfindən, ayələri mükəmməlləşdirilmiş, sonra da ətraflı izah edilmiş bir Kitabdır.*
>
> **(Hud surəsi, 1)**

> *Günahkarların tutduğu yolun aydınlaşdırılması üçün Biz ayələrimizi beləcə bir-bir izah edirik.*
>
> **(Ənam surəsi, 55)**

> *Qurunun və dənizin qaranlıqlarında yolu tapa biləsiniz deyə sizin üçün ulduzları yaradan Odur. Artıq Biz ayələri bilən bir qövmə izah etdik.*
>
> **(Ənam surəsi, 97)**

> *De: "Allah başınızın üstündən və ya ayaqlarınızın altından sizə əzab göndərməyə, ya da sizi qarışıqlığa salıb dəstə-dəstə etməyə və birinizə digərinin gücünü daddırmağa qadirdir". Gör ayələrimizi necə izah edirik ki, bəlkə başa düşsünlər.*
>
> **(Ənam surəsi, 65)**


> *Rəbbinin doğru yolu budur. Artıq Biz ayələri düşünən bir qövmə izah etdik.*
>
> **(Ənam surəsi, 126)**

Səhifələr halında endirilmişdir

> *Biz Quranı sənə hissə-hissə aramla nazil etdik.*
>
> **(İnsan surəsi, 23)**

Allahın nurudur

> *Elə isə Allaha, Onun Elçisinə və nazil etdiyimiz Nura (Qurana) iman gətirin! Allah nə etdiklərinizdən xəbərdardır.*
>
> **(Təğabun surəsi, 8)**



Quran oxunan evlər nurarla doludur

Biz sənə Öz əmrimizdən olan ruhu (Quranı) vəhy etdik. Sən kitab nədir, iman nədir bilmirdin. Lakin Biz onu, qullarımızdan istədiyimizi doğru yola yönəltmək üçün, bir nur etdik. Həqiqətən, sən onları doğru yola yönəldirsən –

(Şura surəsi, 52)

Ey Kitab əhli! Artıq sizə Kitabdan gizlətdiyiniz şeylərin bir çoxunu bəyan edən və bir çoxunun da üstündən keçən Elçimiz gəlmişdir. Artıq sizə Allahdan bir nur (Məhəmməd) və açıq-aydın bir Kitab gəldi.

(Maidə surəsi, 15)

Onlar Allahın nurunu öz ağızlarından çıxanlarla söndürmək istəyirlər. Halbuki kafirlərin xoşuna gəlməsə də, Allah Öz nurunu tamamlayacaqdır.

(Saff surəsi, 8)

> *Ey insanlar! Sizə Rəbbinizdən bir dəlil gəldi və Biz sizə parlaq bir nur (Quran) nazil etdik.*
>
> **(Nisa surəsi, 174)**

İman edənlər üçün şəfa, hidayət və rəhmətdir

> *Xeyirxah əməl sahiblərinə doğru yol göstəricisi və rəhmətdir.*
>
> **(Loğman surəsi, 3)**

> *Ey insanlar! Rəbbinizdən sizə bir öyüd-nəsihət, köksələrdə olana bir şəfa, möminlərə doğru yol göstəricisi və mərhəmət gəlmişdir.*
>
> **(Yunis surəsi, 57)**

> *Biz Kitabı sənə yalnız ona görə nazil etdik ki, onlara ixtilafda olduqları şeyləri bəyan edəsən və bu, mömin adamlar üçün doğru yol göstəricisi və mərhəmət olsun.*
>
> **(Nəhl surəsi, 64)**

> *Biz Quranda möminlər üçün şəfa və mərhəmət olan ayələr nazil edirik. Bu ayələr zalımların ancaq ziyanını artırır.*
>
> **(İsra surəsi, 82)**

Həqiqətən, o, möminlərə doğru yol göstəricisi və bir mərhəmətdir.

(Nəml surəsi, 77)

Sən onlara möcüzə gətirmədiyin zaman: "Nə olardı ki, onu da özündən uyduraydın?" – deyərlər. De: "Mən yalnız Rəbbimdən mənə vəhy olunanlara tabe oluram. Bunlar Rəbbinizdən gələn aşkar dəlillər, iman gətirən bir qövm üçün doğru yolu göstərən rəhbər və mərhəmətdir".

(Əraf surəsi, 203)

Bu Quran insanlar üçün açıq-aydın bir dəlil, qəti inananlar üçün isə doğru yol göstəricisi və mərhəmətdir.

(Casiyə surəsi, 20)

Sən bu Kitabın sənə nazil olacağına ümid etmirdin. Bu ancaq Rəbbindən bir mərhəmətdir. Odur ki, heç vaxt kafirlərə arxa olma!

(Qəsas surəsi, 86)

O gün hər ümmətə özlərindən bir şahid göndərəcəyik, səni də onlara şahid gətirəcəyik. Biz Kitabı sənə hər şey üçün bir izah, müsəlmanlara da doğru yol göstəricisi, mərhəmət və müjdə olaraq nazil etdik.

(Nəhl surəsi, 89)

Sözlərin ən gözəlidir

Allah Sözün ən gözəlini – ayələri bir-birinə bənzəyən və təkrarlanan Kitab kimi nazil etdi. Rəbbindən qorxanların ondan dəriləri ürpəşər. Sonra isə Allahı yad etməklə dəriləri və qəlbləri yumşalır. Bu, Allahın hidayətidir. Onunla istədiyini doğru yola yönəldir. Allahın zəlalətə saldığı şəxsə isə yol göstərən olmaz.

(Zumər surəsi, 23)

Onlar gözəl kəlamlar öyrənməyə nail olmuş və Tərifəlayiq Allahın yoluna yönəldilmişlər.

(Həcc surəsi, 24)

Doğrunu yanlışdan ayırır

daha əvvəllər insanlara doğru yolu göstərən rəhbər olmaq üçün. Furqanı da O nazil etdi. Şübhəsiz ki, Allahın ayələrini inkar edənlər üçün şiddətli bir əzab vardır. Allah Qüdrətlidir, intiqam almağa qadirdir.

(Ali İmran surəsi, 4)

Aləmləri xəbərdar etməsindən ötrü Öz quluna Furqanı (Quranı) nazil edən Allah necə də xeyirxahdır!

(Furqan surəsi, 1)

Doğruya aparır, yol göstərir

Sən onların dininə tabe olmayınca, nə yəhudilər, nə də xaçpərəstlər səndən razı qalmayacaqlar. De: "Yalnız Allahın haqq yolu doğru yoldur!" Əgər sənə gələn elmdən sonra onların istəklərinə uysan, səni Allahdan nə bir qoruyan, nə də bir xilas edən olar.

(Bəqərə surəsi, 120)

İnsanlara doğru yolu göstərən, bu yolun və haqqı batildən ayırd edənin açıq-aydın dəlilləri olan Quran ramazan ayında nazil edilmişdir. Sizlərdən bu aya çatan şəxslər həmin ayı oruc tutmalıdırlar. Xəstə və ya səfərdə olanlar isə başqa günlərdə eyni sayda oruc tutmalıdırlar. Allah sizin üçün çətinlik deyil, asanlıq istəyir. O, istəyir ki, siz müddəti (buraxdığınız günlərin orucunu) tamamlayasınız və sizi doğru yola yönəltdiyinə görə Onu uca tutasınız. Bəlkə şükür edəsiniz.

(Bəqərə surəsi, 185)

Möminlərə fərz qılınmışdır

Quranı sənə nazil edib vacib buyuran Allah qayıdacağın yerə (Məkkəyə, yaxud Axirət yurduna) səni mütləq qaytaracaqdır. De: "Rəbbim kimin hidayət gətirdiyini və kimin açıq-aydın azğınlıq içində olduğunu yaxşı bilir".

(Qəsas surəsi, 85)

Ədalətlə hökm etməyi əmr edər

Dolanışığınız üçün Allahın sizə vasitə etdiyi mallarınızı ağılsızlara verməyin. Onlara o maldan yedirdib geyindirin və onlara yaxşı nəsihətlər verin.

(Nisa surəsi, 5)

Allah ruzi baxımından birinizi digərindən üstün etmişdir. Üstünlük verilənlər kölələrinə öz ruzilərindən vermirlər ki, bu yöndən bərabər olsunlar. Belə olduğu təqdirdə onlar Allahın nemətini inkarmı edirlər?

(Nəhl surəsi, 71)

Səndən Allah yolunda nə verəcəklərini soruşurlar. De: "Verəcəyiniz hər bir xeyir valideynlərə, qohum-əqrəbaya, yetimlərə, kasıblara və müsafirlərə aiddir. Siz nə yaxşılıq edirsinizsə, şübhəsiz ki, Allah onu bilir".

(Bəqərə surəsi, 215)

Ey iman gətirənlər! Qazandığınız və sizin üçün torpaqdan yetişdirdiyimiz şeylərin yaxşısından Allah yolunda xərcləyin. Özünüzə verildiyi təqdirdə ancaq göz yumub alacağınız pis şeylərdən xərcləməyə çalışmayın. Bilin ki, Allah Zəngindir, Tərifəlayiqdir.

(Bəqərə surəsi, 267)

Sədəqə Allah yolunda cihad edən və yer üzündə hərəkət edə bilməyən yoxsullar üçündür. Bu adamlar həya edib dilənmədiklərinə görə tanımayan adam onları varlı hesab edir. Sən onları üzlərindən tanıyırsan. Onlar insanlardan israrla bir şey istəməzlər. Şübhəsiz ki, Allah malınızdan nə sərf etdiyinizi bilir.

(Bəqərə surəsi, 273)

Əgər borclu olan adam ağır şərait içindədirsə, onun vəziyyəti düzələnə qədər ona möhlət verin. Bilin ki, borcu bağışlamaq sizin üçün daha xeyirlidir.

(Bəqərə surəsi, 280)



Quran-İ Kərim — 1400 ildir dəyişməz qalan kitab

O sizə özünüzdən bir məsəl çəkdi; sahib olduğunuz kölələr içərisində sizə verdiyimiz nemətlərdə sizinlə bərabər eyni hüquqa malik olan, özünüzdən çəkindiyiniz kimi, onlardan da çəkindiyiniz şəriklərinizvarmı? Biz ayələri düşünüb daşınan insanlar üçün belə müfəssəl izah edirik.

(Rum surəsi, 28)

> *Yetimlərin mallarını özlərinə verin və yaxşını pis ilə dəyişməyin. Onların mallarını öz mallarınızla birlikdə yeməyin. Şübhəsiz ki, bu, böyük günahdır.*
>
> **(Nisa surəsi, 2)**

> *Onlar özlərinin istədikləri şeylərdən kasıba, yetimə və əsirə də verərlər*
>
> **(İnsan surəsi, 8)**

> *Həqiqətən, Allah sizə əmanətləri sahiblərinə qaytarmanızı və insanlar arasında hökm verərkən ədalətlə hökm vermənizi əmr edir. Allahın sizə verdiyi bu öyüd-nəsihət necə də gözəldir! Şübhəsiz ki, Allah Eşidəndir, Görəndir.*
>
> **(Nisa surəsi, 58)**

> *Sədəqələri aşkarda verirsinizsə, bu çox gözəl. Əgər onu yoxsullara gizlində versəniz, bu sizin üçün daha yaxşı olar. Allah sizin bəzi günahlarınızdan keçər. Allah nə etdiklərinizdən xəbərdardır.*
>
> **(Bəqərə surəsi, 271)**

Ey iman gətirənlər! Şahidliyiniz özünüzün və ya valideynlərin, ya da yaxın qohumların əleyhinə olsa belə, Allah şahidləri olub ədaləti qoruyun. Əleyhinə şahidlik edəcəyiniz şəxslərin varlı və ya kasıb olmasından asılı olmayaraq Allah onların hər ikisinə daha yaxındır. Arzularınıza uyaraq haqdan uzaqlaşmayın! Əgər siz yalan danışsanız və ya həqiqəti deməkdən boyun qaçırsanız, bilin ki, Allah nə etdiklərinizdən xəbərdardır.

(Nisa surəsi, 135)

Onlar yalana həvəslə qulaq asanlar və daima haram yeyənlərdir. Əgər onlar sənin yanına gəlsələr, aralarında hökm ver və ya onlardan üz çevir. Əgər onlardan üz çevirsən, sənə heç bir şeylə zərər verə bilməzlər. Əgər onların arasında hökm verməli olsan, ədalətlə hökm ver. Şübhəsiz ki, Allah ədalətli olanları sevir.

(Maidə surəsi, 42)

Möminlərdən könüllü surətdə sədəqə verənlərə və çətinliklə tapdıqlarını verənlərə eyib tutanları, onları məsxərəyə qoyanları, Allah məsxərəyə qoyacaqdır. Onları ağrılı-acılı bir əzab gözləyir.

(Tövbə surəsi, 79)

Zəkatlar Allah tərəfindən bir fərz olaraq yalnız yoxsullara, kasıblara, onu yığıb paylayanlara, qəlbləri İslam dininə isinişdiriləcək kimsələrə, kölələrin azad olunmasına, borclulara, Allah yolunda cihad edənlərə və müsafirlərə məxsusdur. Allah Biləndir, Müdrikdir.

(Tövbə surəsi, 60)

Yetim həddi-büluğa çatana qədər, – xeyirxahlıq (qoruyub saxlamaq və artırmaq məqsədilə istifadə etmək) istisna olmaqla, – onun malına yaxınlaşmayın! Əhdə vəfa edin. Çünki hər kəs əhd barəsində sorğu-sual olunacaqdır.

(İsra surəsi, 34)

Yetim həddi-buluğa çatana qədər, – xeyirxahlıq (qoruyub saxlamaq və artırmaq məqsədilə istifadə etmək) istisna olmaqla, – onun malına yaxınlaşmayın! Ölçüyə və çəkiyə ədalətlə tam riayət edin. Biz hər kəsi yalnız onun qüvvəsi çatdığı qədər yükləyərik. Söz söylədiyiniz zaman, qohumunuz olsa belə, ədalətli olun. Allah qarşısındakı əhdə sadiq qalın. Allah bunları sizə tövsiyə etmişdir ki, bəlkə, düşünüb ibrət alasınız.

(Ənam surəsi, 152)

Allahın Öz Peyğəmbərinə kəndlərin əhalisindən verdiyi qənimətlər Allaha, Peyğəmbərə, qohum-əqrəbaya, yetimlərə, yoxsullara və müsafirlərə məxsus edilmişdir ki, o, aranızdakı zənginlərin var-dövləti olub qalmasın. Peyğəmbər sizə nə verirsə, onu götürün, nəyi də qadağan edirsə, ondan çəkinin. Allahdan qorxun. Həqiqətən, Allah şiddətli cəza verəndir.

(Həşr surəsi, 7)

Qoy aranızda olan fəzilət və sərvət sahibləri qohumlara, miskinlərə və Allah yolunda hicrət edənlərə heç bir şey verməyəcəklərinə and içməsinlər. Qoy əfv edib bağışlasınlar. Məgər siz Allahın sizi bağışlamasını istəmirsinizmi? Allah Bağışlayandır, Rəhmlidir.

(Nur surəsi, 22)

Allaha ibadət edin və heç bir şeyi Ona şərik qoşmayın! Valideynlərə, qohum-əqrəbaya, yetimlərə, kasıblara, yaxın və uzaq qonum-qonşuya, yol yoldaşına, müsafirə və sahib olduğunuz kölə və kənizlərə yaxşılıq edin! Həqiqətən, Allah lovğalıq edənləri və özünü öyənləri sevmir.

(Nisa surəsi, 36)

Qohum-əqrəbaya da, yoxsula da, müsafirə də haqqını ver. Lakin malını lazım olmayan yerə sərf etmə.

(İsra surəsi, 26)

> *İnsanların var-dövləti sayəsində artırmaq məqsədilə sələmlə verdiyiniz mal Allah yanında artmaz. Allahın Üzünü diləyərək verdiyiniz zəkata gəlincə, bilin ki, bunu edənlər mallarının bərəkətini qat-qat artıranlardır.*
>
> **(Rum surəsi, 39)**

İman etməyənləri tələyə salar

> *Biz Quranda möminlər üçün şəfa və mərhəmət olan ayələr nazil edirik. Bu ayələr zalımların ancaq ziyanını artırır.*
>
> **(İsra surəsi, 82)**

> *Biz Cəhənnəm gözətçilərini yalnız mələklərdən etdik və onların sayını on doqquz etdik ki, bu, kafirlər üçün ancaq bir sınaq olsun, özlərinə Kitab verilənlər yəqinlik hasil etsinlər, iman gətirənlərin imanı artsın, Kitab verilənlər və möminlər haqqa şübhə etməsinlər və qəlblərində xəstəlik olanlar və kafirlər: "Allah bu məsəllə nə demək istəyir?" – desinlər. Allah istədiyi kimsəni belə azdırır, istədiyini də doğru yola yönəldir. Sənin Rəbbinin qoşunları barədə yalnız Özü bilir. Bu, bəşəriyyət üçün ancaq bir xatırlatmadır.*
>
> **(Müddəssir surəsi, 31)**

FƏSİL

Möminlər

MÖMİNLƏR

Möminlər ancaq Allaha və Onun Elçisinə iman gətirən, sonra heç bir şəkk-şübhəyə düşməyən, Allah yolunda malları və canları ilə cihad edənlərdir! İmanlarında sadiq olanlar da məhz onlardır.

(Hucurat surəsi, 15)

Yalnızca Allahdan qorxub çəkinərlər

Möminlər ancaq o kəslərdir ki, Allah anıldığı zaman onların qəlbi qorxuya düşər, Onun ayələri onlara oxunduqda imanları artar, yalnız öz Rəbbinə təvəkkül edər,

(Ənfal surəsi, 2)

Nə qədər bacarırsınızsa Allahdan qorxun. Peyğəmbərə qulaq asıb itaət edin və malınızdan öz xeyriniz üçün xərcləyin. Nəfsinin tamahından qorunanlar nicat tapanlardır.

(Təğabun surəsi, 16)

> *O kəslər ki, Rəbbinin əzabından qorxurlar.*
>
> **(Məaric surəsi, 27)**

> *Allah onların keçmişini və gələcəyini bilir. Onlar yalnız Onun razı qaldığı şəxslərdən ötrü şəfaət diləyir və Onun qorxusundan tir-tir əsirlər.*
>
> **(Ənbiya surəsi, 28)**

> *Ey iman gətirənlər! Allahdan Ona layiq olan tərzdə qorxun və ancaq müsəlman olduğunuz halda ölün!*
>
> **(Ali İmran surəsi, 102)**

> *Ey iman gətirənlər! Əgər Allahdan qorxsanız, O sizə haqla nahaqqı ayırd etmə bacarığı verər, günahlarınızdan keçər və sizi bağışlayar. Allah böyük lütf sahibidir.*
>
> **(Ənfal surəsi, 29)**

> *Sən ancaq Zikrə tabe olub Mərhəmətli Allahı görmədən Ondan çəkinən şəxsi qorxuda bilərsən. Beləsini bağışlanma və çox gözəl bir mükafatla müjdələ.*
>
> **(Yasin surəsi, 11)**

Yalnızca Allaha ibadət edərlər

Biz Kitabı sənə bir həqiqət kimi nazil etmişik. Sən də, dinin yalnız Allaha məxsus olduğuna iman gətirərək, Ona ibadət et!

(Zumər surəsi, 2)

Doğrusu, əsl din ancaq Allaha məxsusdur. Allahı qoyub başqalarını özlərinə dost tutanlar: "Biz, onlara ancaq bizi Allaha daha çox yaxınlaşdırsınlar deyə ibadət edirik" – deyirlər. Əlbəttə ki, Allah ziddiyyətə düşdükləri şeylər barəsində onların arasında Öz hökmünü verəcəkdir. Şübhəsiz ki, Allah yalançı və kafirləri doğru yola yönəltməz.

(Zumər surəsi, 3)

De: "Ey insanlar! Dinimə şəkk edirsinizsə, bilin ki, mən Allahdan başqa tapındıqlarınıza deyil, canınızı alacaq Allaha ibadət edirəm. Mənə möminlərdən olmaq əmr edilmişdir".

(Yunis surəsi, 104)

Ey mömin qullarım! Şübhəsiz ki, Mənim bu yerim genişdir. Elə isə yalnız Mənə ibadət edin.

(Ənkəbut surəsi, 56)

Allahı hər şeyin üzərində tutarlar

Biz onun duasını qəbul etdik, ona Yəhyanı bəxş etdik və zövcəsini ona uşaq doğmağa qadir etdik. Həqiqətən, onlar yaxşı işlər görməyə tələsər, ümid və qorxu ilə Bizə yalvarardılar. Onlar Bizə müti qullar idilər.

(Ənbiya surəsi, 90)

Bəzi adamlar onlara: "Camaat sizə qarşı ordu toplayıbdır, onlardan qorxun!" – dedilər. Bu, onların imanını daha da artırdı və onlar: "Allah bizə yetər. O nə gözəl Qoruyandır!" – dedilər.

(Ali İmran surəsi, 173)

O kişilər ki, nə ticarət, nə də alış-veriş onları Allahı zikr etməkdən, namaz qılmaqdan və zəkat verməkdən yayındırmır. Onlar qəlblərin və gözlərin çevriləcəyi bir gündən qorxurlar.

(Nur surəsi, 37)

Ey iman gətirənlər! Sizlərdən hər kim dinindən dönsə, Allah onun əvəzinə Özünün sevdiyi və Onu sevən, möminlərə qarşı mülayim, kafirlərə qarşı isə sərt olan, Allah yolunda cihad edən və tənə edənin tənəsindən qorxmayan bir camaat gətirər. Bu, Allahın lütfüdür, onu istədiyinə verər. Allah hər şeyi Əhatə edəndir, Biləndir.

(Maidə surəsi, 54)

İnsanlardan elələri də vardır ki, Allahdan qeyrilərini Ona tay tutur, onları da Allahı sevdikləri kimi sevirlər. İman gətirənlərin isə Allaha olan sevgisi daha güclüdür. Kaş zülm edənlər əzabı gördükləri zaman bütün qüdrət və qüvvətin Allaha məxsus olduğunu və Allahın şiddətli əzab verdiyini görəydilər.

(Bəqərə surəsi, 165)

Allahdan başqa ilah axtarmazlar

De: "Kimin şahidliyi daha böyükdür?" De: "Allah mənimlə sizin aranızda Şahiddir. Bu Quran mənə vəhy olundu ki, onunla sizi və onun çatacağı hər kəsi xəbərdar edim. Məgər siz Allahla yanaşı ibadətə layiq olan başqa məbudların olduğuna şahidlik edirsiniz?" De: "Mən şahidlik etmirəm!" De: "O, Tək olan İlahdır. Mən sizin şərik qoşduqlarınızdan uzağam".

(Ənam surəsi, 19)

O şeytan sadəcə sizi öz dostları ilə qorxudur. Möminsinizsə, onlardan qorxmayın, Məndən qorxun!

(Ali İmran surəsi, 175)

Sənə və səndən əvvəlkilərə belə vəhy olunmuşdur: "Əgər şərik qoşsan, əməlin puç olacaq və mütləq ziyana uğrayanlardan olacaqsan.

(Zumər surəsi, 65)

Sən yalnız Allaha ibadət et və şükür edənlərdən ol!"

(Zumər surəsi, 66)

Onlar Allahı layiqincə qiymətləndirmədilər. Halbuki Qiyamət günü yer bütünlüklə Onun Ovcunda olacaq, göylər isə Onun Əli ilə bükülәcəkdir. O, pakdır, müqəddəsdir və onların Ona qoşduqları şəriklərdən ucadır.

(Zumər surəsi, 67)

De: "Ey Kitab əhli! Bizim və sizin aranızda olan eyni bir kəlməyə gəlin ki, Allahdan başqasına ibadət etməyək, Ona heç bir şeyi şərik qoşmayaq və Allahı qoyub bir-birimizi ilahiləşdirməyək". Əgər onlar üz döndərsələr, deyin: "Şahid olun ki, biz müsəlmanlarıq!"

(Ali İmran surəsi, 64)

Onlar Allahın risalətini təbliğ edir, Ondan qorxur və Allahdan başqa heç kəsdən qorxmurdular. Allah Özü haqq-hesab çəkməyə kifayətdir.

(Əhzab surəsi, 39)

> *Şübhəsiz ki, Allah Özünə şərik qoşulmasını bağışlamaz, bundan başqa daha kiçik günahları isə istədiyi kimsəyə bağışlayar. Allaha şərik qoşan kəs iftira atmaqla böyük bir günah etmiş olur.*
>
> **(Nisa surəsi, 48)**

> *Allahla yanaşı başqa bir məbuda yalvarma! Ondan başqa ibadətə layiq olan heç bir məbud yoxdur. Onun Üzündən başqa hər şey məhv olacaqdır. Hökm Onundur və siz Ona qaytarılacaqsınız.*
>
> **(Qəsas surəsi, 88)**

Allaha heç bir şeyi ortaq qoşmazlar

> *Allah sizlərdən iman gətirib yaxşı işlər görənlərə vəd etmişdir ki, özlərindən əvvəlkiləri varislər etdiyi kimi onları da yer üzünün varisləri edəcək, möminlər üçün onların Özünün bəyəndiyi dinini möhkəmləndirəcək və onların qorxusunu sonra arxayınçılıqla əvəz edəcəkdir. Onlar Mənə ibadət edir və heç nəyi Mənə şərik qoşmurlar. Bundan sonra küfr edənlər – məhz onlar fasiqlərdir.*
>
> **(Nur surəsi, 55)**

Şübhəsiz ki, Allah Məryəm oğlu Məsihdir" – deyənlər artıq kafir oldular. Məsih isə demişdir: "Ey İsrail oğulları! Rəbbim və Rəbbiniz olan Allaha ibadət edin! Həqiqətən də, Allaha şərik qoşan kimsəyə, Allah Cənnəti haram etmiş və onun sığınacağı yer Oddur. Zalımlara kömək edən olmayacaqdır".

(Maidə surəsi, 72)

Tövbə edənlər, əməllərini islah edənlər, Allahdan möhkəm yapışanlar və öz dinlərini Allaha məxsus edənlər istisnadır. Bunlar möminlərlə birgə olacaqlar. Möminlərə isə Allah böyük mükafat verəcəkdir.

(Nisa surəsi, 146)

Sən bir hənif kimi üzünü dinə tərəf çevir! Allahın insanlara – xəlq etdiyi şüurlu məxluq kimi verdiyi fitrət budur. Allahın yaratdığını heç cür dəyişdirmək olmaz. Doğru din budur, lakin insanların çoxu bunu bilmir.

(Rum surəsi, 30)

De: "Mən də sizin kimi bir insanam. Mənə vəhy olunur ki, sizin məbudunuz Tək olan İlahdır. Kim Rəbbi ilə qarşılaşacağına ümid bəsləyirsə, yaxşı işlər görsün və icra etdiyi ibadətlərində Rəbbinə heç kəsi şərik qoşmasın!"

(Kəhf surəsi, 110)

Atalarına kor-koranə tabe olmazlar

Onlara: "Allahın nazil etdiyinə və göndərdiyi Elçiyə tərəf gəlin" – deyildikdə: "Atalarımızın tutduğu yol bizə bəsdir" – deyirlər. Əgər ataları bir şey bilməyib, doğru yola yönəlməyiblərsə onda necə olsun?

(Maidə surəsi, 104)

Onların nəyə ibadət etdiklərinə şübhə etmə. Onlar da atalarının əvvəllər ibadət etdiyi kimi ibadət edirlər. Şübhəsiz ki, Biz onların cəzasını əskiltmədən tam verəcəyik.

(Hud surəsi, 109)

Onlara: "Allahın nazil etdiyinə itaət edin!" – deyildikdə, onlar: "Yox! Biz əcdadımızın getdiyi yolu tutub gedəcəyik!" – deyərlər. Əgər şeytan onları Cəhənnəm odunun əzabına doğru sürükləyirsə, onda necə olsun?

(Loğman surəsi, 21)

Biz səndən əvvəl hansı bir şəhərə xəbərdarlıq edən bir peyğəmbər göndərdiksə, onun cah-calal içində yaşayan sakinləri: "Biz atalarımızı bu yolda gördük və biz də onların yolunu tutub gedəcəyik!" – dedilər.

(Zuxruf surəsi, 23)

Heç bir şübhəyə düşmədən iman edərlər

Möminlər ancaq Allaha və Onun Elçisinə iman gətirən, sonra heç bir şəkk-şübhəyə düşməyən, Allah yolunda malları və canları ilə cihad edənlərdir! İmanlarında sadiq olanlar da məhz onlardır.

(Hucurat surəsi, 15)

İxtilafa düşdüyünüz şeylər barəsində hökm vermək ancaq Allaha aiddir. Bu mənim Rəbbim olan Allahdır. Mən yalnız Ona təvəkkül edir və yalnız Ona üz tuturam.

(Şura surəsi, 10)

Allahın elçisinə nazil ediləni dinlədikləri zaman haqqı bildiklərinə görə onların gözlərinin yaşla dolduğunu görərsən. Onlar deyərlər: "Ey Rəbbimiz! Biz iman gətirdik, bizi də şahidlərlə bir yerə yaz!

(Maidə surəsi, 83)

Qeybə iman edərlər

Sən ancaq Zikrə tabe olub Mərhəmətli Allahı görmədən Ondan çəkinən şəxsi qorxuda bilərsən. Beləsini bağışlanma və çox gözəl bir mükafatla müjdələ.

(Yasin surəsi, 11)

Ü müttəqilər ki, öz Rəbbindən Onu görmədikləri halda qorxur və gələcək o Saatdan lərzəyə gəlirlər.

(Ənbiya surəsi, 49)

Həqiqətən, öz Rəbbindən Onu görmədikləri halda qorxanlar üçün bağışlanma və böyük bir mükafat vardır.

(Mülk surəsi, 12)

O kəslər ki, qeybə iman gətirir, namaz qılır və Bizim onlara verdiyimiz ruzidən Allah yolunda xərcləyirlər;

(Bəqərə surəsi, 3)

Hər şeyin Allahdan olduğunu bilirlər

Allahın izni olmadan heç kəsə bir müsibət üz verməz. Hər kəs Allaha iman gətirsə, Allah onun qəlbini haqqa yönəldər. Allah hər şeyi bilir.

(Təğabun surəsi, 11)

De: "Allahın bizim üçün yazdığından başqa bizim başımıza heç nə gəlməz. O bizim Himayədarımızdır. Qoy möminlər yalnız Allaha təvəkkül etsinlər!"

(Tövbə surəsi, 51)

De: “Allahın istədiyindən başqa, mən özümə nə bir zərər, nə də bir xeyir verməyə qadirəm. Hər ümmətin bir əcəli vardır. Onların əcəli gəldiyi zaman bircə saat belə nə yubanar, nə də qabağa keçə bilərlər”.

(Yunis surəsi, 49)

Heç bir şey barəsində: “Mən onu sabah edəcəyəm!” – demə!

(Kəhf surəsi, 23)

Ancaq: “Əgər Allah istəsə!” (“inşallah” – de!) Unutduğun zaman Rəbbini yada salıb: “Ola bilsin ki, Rəbbim məni haqqa bundan daha yaxın olan bir yola yönəltsin” – de.

(Kəhf surəsi, 24)

Onları siz öldürmədiniz, Allah onları öldürdü. (Düşmənlərin gözünə bir ovuc torpaq) atdığın zaman sən atmadın, Allah atdı ki, möminləri Öz tərəfindən yaxşı bir sınaqdan keçirtsin. Həqiqətən, Allah Eşidəndir, Biləndir.

(Ənfal surəsi, 17)

Yer üzündə baş verən və sizin başınıza gələn elə bir müsibət yoxdur ki, Biz onu yaratmamışdan əvvəl o, Yazıda müəyyən edilmiş olmasın. Şübhəsiz ki, bu, Allah üçün çox asandır.

(Hədid surəsi, 22)

Aləmlərin Rəbbi Allah istəməyincə, siz istəyə bilməzsiniz!

(Təkvir surəsi, 29)

Əsl hədəfləri Allahın rizasıdır

O bunu ancaq Ən Uca Rəbbinin Üzünü dilədiyindən edər.

(Leyl surəsi, 20)

O, mütləq razı qalacaqdır!

(Leyl surəsi, 21)

De: "Sizə bunlardan daha yaxşısı barədə xəbər verimmi? Allahdan qorxanlar üçün Rəbbi yanında ağacları altından çaylar axan, içində əbədi qalacaqları Cənnət bağları, pak zövcələr və Allahın rizası vardır". Allah qullarını görür.

(Ali İmran surəsi, 15)

Mallarını Allahın razılığını qazanmaq və nəfslərini möhkəmləndirmək üçün xərcləyənlərin məsəli təpə üzərindəki bağın məsəlinə bənzəyir ki, ona şiddətli yağış düşdükdən sonra o öz bəhrəsini iki qat verər. Hərgah ona şiddətli yağış düşməzsə, narın yağış da bəs edər. Allah sizin nə etdiklərinizi görür.

(Bəqərə surəsi, 265)

Rəbbinin Üzünü diləyərək səhər və axşam çağı Ona dua edənləri yanından qovma. Nə sən onların verəcəkləri hesabata azca da olsa cavabdehsən, nə də onlar sənin verəcəyin hesabatında azca da olsa cavabdehdirlər. Onları qovsan zalımlardan olarsan.

(Ənam surəsi, 52)

O kəslər ki, Rəbbinin Üzünü diləyərək səbir edir, namaz qılır, onlara verdiyimiz ruzidən gizli və aşkar xərcləyir və pisliyi yaxşılıqla dəf edirlər. Onlar üçün Axirət yurdu –

(Rad surəsi, 22)

Onların gizli söhbətlərinin çoxunda xeyir yoxdur. Sədəqə verməyi və ya yaxşılıq etməyi yaxud da insanlar arasında sülh yaratmağı əmr edən şəxsin pıçıldaması isə istisnadır. Kim bunu Allahın razılığını qazanmaq üçün edərsə, Biz ona böyük mükafat verərik.

(Nisa surəsi, 114)

Səhər və axşam çağı Rəbbinin Üzünü diləyərək Ona dua edənlərlə birlikdə özünü səbirli apar. Dünyanın bərbəzəyini istəyərək nəzərlərini yoxsullardan çevirmə. Qəlbini Bizi anmaqdan xəbərsiz etdiyimiz, nəfsinin istəklərinə uyan və işləri səmərəsiz olan bir kimsəyə itaət etmə!

(Kəhf surəsi, 28)

İnsanların elə də var ki, Allahın razılığını qazanmaq üçün canını da verər. Allah Öz qullarına qarşı Şəfqətlidir.

(Bəqərə surəsi, 207)

Allah, Onun rizasını arayan şəxsləri bu Kitabla əmin-amanlıq yollarına yönəldir, onları Öz izni ilə zülmətlərdən nura çıxarır və düz yola yönəldir.

(Maidə surəsi, 16)

Onların doğru yola gəlməsi sənə aid deyildir. Yalnız Allah istədiyi şəxsi doğru yola yönəldir. Xərclədiyiniz hər bir sədəqə özünüz üçündür. Siz onu ancaq Allahın Üzünü dilədiyinizə görə sərf edirsiniz. Malınızdan Allah yolunda nə xərcləsəniz, əvəzi sizə tam verilər və sizə zülm edilməz.

(Bəqərə surəsi, 272)

Binasını Allah qorxusu və Onun rizası üzərində quran kəs daha yaxşıdır, yoxsa binasını dağılmaqda olan uçurumun lap kənarında quran və onunla birlikdə Cəhənnəm oduna yuvarlanan kəs? Allah zalım qövmü doğru yola yönəltməz.

(Tövbə surəsi, 109)

Qohum-əqrəbaya, yoxsula və müsafirə onlara çatacaq haqqını ver! Allahın Üzünü diləyənlər üçün bu daha xeyirlidir. Uğur qazananlar da elə məhz onlardır.

(Rum surəsi, 38)

və deyərlər: "Biz sizi yalnız Allahın Üzü xatirinə yedirdirik və sizdən nə əvəzini, nə də minnətdarlıq gözləyirik!

(İnsan surəsi, 9)

Onlar özlərinə heç bir pislik toxunmadan, Allahın neməti və mərhəməti sayəsində geri döndülər və Allahın razılığına tabe oldular. Allah böyük lütf sahibidir.

(Ali İmran surəsi, 174)

Məgər Allahın razılığını qazanmaq üçün gedən kimsə, Allahın qəzəbinə gələn və sığınacaq yeri Cəhənnəm olan bir kimsə ilə bərabər tutula bilərmi? Ora nə pis qayıdış yeridir!

(Ali İmran surəsi, 162)


Ey iman gətirənlər! Allahın nişanələrinə, haram aylara, qurbanlıq heyvana, boynuna nişan taxılmış qurbanlıq heyvanlara, Rəbbinin lütfünü və razılığını diləyərək Beytulharama gələnlərə qarşı hörmətsizlik etməyi halal saymayın. İhramdan çıxdığınız zaman ov edə bilərsiniz. Sizi Məscidulharama daxil olmağa qoymayan camaata qarşı olan kin-küdurət sizi təcavüz etməyə sövq etməsin. Yaxşılıq etməkdə və Allahdan qorxmaqda bir-birinizə yardım edin. Günah işlər görməkdə və düşmənçilikdə bir-birinizə köməkçi olmayın. Allahdan qorxun. Həqiqətən, Allah şiddətli cəza verəndir.

(Maidə surəsi, 2)

Bütün həyatlarını Allahın rizası üçün yaşayarlar

De: "Şübhəsiz ki, mənim namazım da, qurbanım da, həyatım da, ölümüm də aləmlərin Rəbbi Allah üçündür!

(Ənam surəsi, 162)



Möminlər uca Rəbbindən qorxub titrəyənlərdir

Səhər və axşam çağı Rəbbinin Üzünü diləyərək Ona dua edənlərlə birlikdə özünü səbirli apar. Dünyanın bərbəzəyini istəyərək nəzərlərini yoxsullardan çevirmə. Qəlbini Bizi anmaqdan xəbərsiz etdiyimiz, nəfsinin istəklərinə uyan və işləri səmərəsiz olan bir kimsəyə itaət etmə!

(Kəhf surəsi, 28)

Allahın sərhədlərini qoruyarlar

Boşanma iki dəfə olar. Bundan sonra qadını şəriətə müvafiq qayda üzrə saxlamaq, yaxud xoşluqla buraxmaq gərəkdir. Onlara verdiklərinizdən bir şey götürmək sizə halal olmaz. Yalnız hər ikisinin Allahın hədlərini yerinə yetirməyəcəklərindən qorxması istisnadır. Əgər siz onların Allahın hədlərini yerinə yetirməyəcəklərindən qorxsanız, qadının boşanmaq üçün bir şey əvəz verməsində ikisinə də heç bir günah yoxdur. Bunlar Allahın hüdudlarıdır, onları aşmayın! Allahın hüdudlarını aşanlar – məhz onlar zalımlardır.

(Bəqərə surəsi, 229)

> *Ey iman gətirənlər! Allahın sizə halal buyurduğu təmiz ruziləri haram etməyin və həddi aşmayın. Həqiqətən, Allah həddi aşanları sevmir.*
>
> **(Maidə surəsi, 87)**

> *Rəbbinizə acizanə, həm də gizlicə dua edin! Şübhəsiz ki, O, həddi aşanları sevmir.*
>
> **(Əraf surəsi, 55)**

> *Bax belə! Hər kim Allahın ayinlərinə hörmət etsə, bilsin ki, bu, qəlblərin təqvasındandır.*
>
> **(Həcc surəsi, 32)**

> *Tövbə edən, ibadət edən, həmd edən, oruc tutan, rüku və səcdə edən, yaxşı işlər görməyi buyurub pis əməlləri qadağan edən və Allahın qoyduğu hüdudlarını qoruyan o möminləri müjdələ.*
>
> **(Tövbə surəsi, 112)**

Allah qarşısında acizliklərini bilirlər

Allah hər kəsi yalnız onun qüvvəsi çatdığı qədər mükəlləf edər. Hər kəsin qazandığı xeyir yalnız onun özünə, qazandığı şər də yalnız öz əleyhinədir. "Ey Rəbbimiz, unutsaq və ya xəta etsək bizi cəzalandırma! Ey Rəbbimiz, bizdən əvvəlkilərə yüklədiyin kimi, bizə də ağır yük yükləmə! Ey Rəbbimiz, gücümüz çatmayan şeyi daşımağa bizi vadar etmə! Bizi əfv et, bizi bağışla və bizə rəhm et! Sən bizim Himayədarımızsan! Kafirləri məğlub etməkdə bizə yardım et!"

(Bəqərə surəsi, 286)

Hər ikisi: "Ey Rəbbimiz! Biz özümüzə zülm etdik. Əgər bizi bağışlamasan və bizə rəhm etməsən, əlbəttə, ziyana uğrayanlardan olarıq" – dedilər.

(Əraf surəsi, 23)

De: "Həqiqətən, məni Allahdan kimsə xilas edə bilməz və mən Ondan başqa bir pənah yeri tapa bilmərəm!

(Cin surəsi, 22)

> *De: "Mən Allahın istədiyindən başqa özümə nə bir fayda, nə də bir zərər yetirməyə qadir deyiləm. Əgər qeybi bilsəydim, əlbəttə, özüm üçün xeyir artırardım və mənə pislik toxunmazdı. Mən sadəcə, iman gətirən bir qövm üçün qorxudan və müjdələyənəm".*
>
> **(Əraf surəsi, 188)**

Allahın ayələrinə könüldən boyun əyərlər

> *Həqiqətən, İbrahim həlim, Allaha çox yalvaran və Ona üz tutan bir şəxs idi.*
>
> **(Hud surəsi, 75)**

> *Yaxşı işlər görərək Allaha təslim olan və hənif olaraq İbrahim dininin ardınca gedən şəxsdən din baxımından daha gözəl kim ola bilər? Allah İbrahimi sevimli dost tutmuşdur.*
>
> **(Nisa surəsi, 125)**

> *Sözsüz ki, iman gətirib saleh əməllər edənlər və Rəbbinə boyun əyənlər Cənnət sakinləridir. Onlar orada əbədi qalacaqlar.*
>
> **(Hud surəsi, 23)**

Xeyr! Kim yaxşı işlər görüb Allaha təslim olarsa, Rəbbi yanında onun mükafatı olar. Onlara heç bir qorxu yoxdur və onlar kədərlənməyəcəklər.

(Bəqərə surəsi, 112)

Yaxşı əməl sahibi olub özünü Allaha təslim edən şəxs ən möhkəm dəstəkdən yapışmış olar. Bütün işlərin sonu Allaha qayıdır.

(Loğman surəsi, 22)

Həqiqətən, Kitab əhlindən elələri də var ki, Allaha müti olaraq həm Allaha, həm sizə nazil edilənə, həm də özlərinə nazil edilənə iman gətirir, Allahın ayələrini ucuz qiymətə satmırlar. Onların öz Rəbbi yanında mükafatları vardır. Şübhəsiz ki, Allah tez haqq-hesab çəkəndir.

(Ali İmran surəsi, 199)

o kəslərə ki, Allah anıldığı zaman qəlbi qorxuya düşər, başına gələnə səbir edər, namaz qılar və onlara verdiyimiz ruzidən Allah yolunda xərcləyərlər.

(Həcc surəsi, 35)

onlar səbir edən, doğru danışan, müti olan, malından Allah yolunda xərcləyən və sübh çağına yaxın bağışlanma diləyən kimsələrdir.

(Ali İmran surəsi, 17)

Tövbə edərək Ona üz tutun, Ondan qorxun, namaz qılın və şərik qoşanlardan olmayın!

(Rum surəsi, 31)

Allaha güvənib təvəkkül edərlər

Kafirlərə və münafiqlərə itaət etmə. Onların əziyyətlərinə fikir vermə və Allaha təvəkkül et. Allahın Qoruyan olması kifayətdir.

(Əhzab surəsi, 48)

Onlar: "İtaət edirik!" – deyirlər. Sənin yanından çıxıb getdikdə isə onların bir qismi gecələr bir yerə yığışıb sənin dediyinin əksinə tədbir görürlər. Allah onların gecələr nə tədbir gördüklərini yazır. Onlardan üz döndər və Allaha təvəkkül et! Qoruyan olaraq Allah yetər.

(Nisa surəsi, 81)

Sən yalnız Allaha təvəkkül et! Çünki sən açıq-aydın haqq yoldasan.

(Nəml surəsi, 79)

Musa dedi: "Ey qövmüm! Əgər Allaha iman gətirmişsinizsə və müsəlman olmuşsunuzsa, Ona təvəkkül edin!"

(Yunis surəsi, 84)

Əgər onlar üz döndərsələr, de: "Mənə Allah yetər. Ondan başqa ibadətə layiq olan məbud yoxdur. Mən Ona təvəkkül etdim. O, böyük Ərşin Rəbbidir!"

(Tövbə surəsi, 129)

Əgər Allah sizə kömək edərsə, heç kəs sizə qalib gələ bilməz. Əgər O, sizi zəlil edərsə, Ondan sonra kim sizə yardım edə bilər? Qoy möminlər Allaha təvəkkül etsinlər!

(Ali İmran surəsi, 160)

Ey iman gətirənlər! Allahın sizə olan nemətini xatırlayın. Bir zaman bir tayfa sizə əl qaldırmaq fikrinə düşdükdə Allah onları sizdən əl çəkməyə məcbur etmişdi. Allahdan qorxun! Qoy möminlər Allaha təvəkkül etsinlər!

(Maidə surəsi, 11)

O kəslər ki, səbirli olmuş və yalnız öz Rəbbinə təvəkkül etmişlər.

(Ənkəbut surəsi, 59)

Ey Peyğəmbər! Sənə və sənin ardınca gedən möminlərə Allah kifayət edər.

(Ənfal surəsi, 64)

Ölməz, əbədi Yaşayana təvəkkül et və Onu həmd-səna ilə təriflə. Onun öz qullarının günahlarından agah olması kifayətdir.

(Furqan surəsi, 58)

Allah bizə yollarımızı göstərdiyi halda, biz nə üçün Allaha təvəkkül etməyək? Sizin bizə verdiyiniz əziyyətlərə dözəcəyik. Qoy təvəkkül edənlər ancaq Allaha təvəkkül etsinlər".

(İbrahim surəsi, 12)

Onlar səbirli olanlar və ancaq Rəbbinə təvəkkül edənlərdir.

(Nəhl surəsi, 42)

Bəzi adamlar onlara: "Camaat sizə qarşı ordu toplayıbdır, onlardan qorxun!" – dedilər. Bu, onların imanını daha da artırdı və onlar: "Allah bizə yetər. O nə gözəl Qoruyandır!" – dedilər.

(Ali İmran surəsi, 173)

> *O dedi: "Ey oğullarım! Şəhərə bir qapıdan girməyin, ayrı-ayrı qapılardan girin. Allahın iradəsinə qarşı isə heç bir şeylə sizə fayda verə bilmərəm. Hökm yalnız Allahındır. Mən ancaq Ona təvəkkül edirəm. Qoy təvəkkül edənlər də ancaq Ona təvəkkül etsinlər".*

(Yusif surəsi, 67)

> *Əgər şeytandan sənə bir vəsvəsə gəlsə, Allaha sığın. Şübhəsiz ki, O, Eşidəndir, Biləndir.*

(Əraf surəsi, 200)

Yardımın ancaq Allahdan olduğunu bilirlər

> *Mərhəmətli və Rəhmli Allahın adı ilə!*

(Fatihə surəsi, 1)

> *Həmd olsun aləmlərin Rəbbi Allaha,*

(Fatihə surəsi, 2)

> *Mərhəmətli və Rəhmliyə,*

(Fatihə surəsi, 3)

Haqq-hesab gününün Hökmdarına!

(Fatihə surəsi, 4)

Qardaşları onun köynəyinə saxta qan ləkəsi sürtüb gətirdilər. Yaqub dedi: "Xeyr, sizi öz nəfsiniz bu işə vadar etmişdir. Mənə gözəl səbir gərəkdir. Söylədiklərinizin müqabilində Allahdan kömək diləmək lazımdır".

(Yusif surəsi, 18)

Musa öz qövmünə dedi: "Allahdan kömək diləyin və səbir edin. Şübhəsiz ki, yer üzü Allahındır. O, qullarından istədiyini onun varisləri təyin edir. Gözəl aqibət müttəqilərindir".

(Əraf surəsi, 128)

Qarşı-qarşıya gələn iki dəstədə sizin üçün bir ibrət var idi. Dəstələrdən biri Allah yolunda vuruşurdu, digəri isə kafirlər idi. Onlar kafirlərin sayca iki qat artıq olduqlarını öz gözləri ilə görürdülər. Allah istədiyi kəsi Öz köməyi ilə qüvvətləndirir. Həqiqətən, bunda bəsirət sahibləri üçün bir ibrət vardır.

(Ali İmran surəsi, 13)

> *De: "Ey Rəbbim! Məni daxil olacağım yerə yaxşılıqla daxil et; məni çıxacağım yerdən də yaxşılıqla çıxart. Öz tərəfindən mənə yardım edən bir dəlil ver".*
>
> **(İsra surəsi, 80)**

> *O zaman sizlərdən iki dəstə ruhdan düşməyə hazır idilər. Allah isə onların yardımçısı oldu. Qoy möminlər Allaha təvəkkül etsinlər.*
>
> **(Ali İmran surəsi, 122)**

> *Allah hər kəsi yalnız onun qüvvəsi çatdığı qədər mükəlləf edər. Hər kəsin qazandığı xeyir yalnız onun özünə, qazandığı şər də yalnız öz əleyhinədir. "Ey Rəbbimiz, unutsaq və ya xəta etsək bizi cəzalandırma! Ey Rəbbimiz, bizdən əvvəlkilərə yüklədiyin kimi, bizə də ağır yük yükləmə! Ey Rəbbimiz, gücümüz çatmayan şeyi daşımağa bizi vadar etmə! Bizi əfv et, bizi bağışla və bizə rəhm et! Sən bizim Himayədarımızsan! Kafirləri məğlub etməkdə bizə yardım et!"*
>
> **(Bəqərə surəsi, 286)**

Daima Allahı xatırlayarlar

Kitabdan sənə vəhy olunanları oxuyub namaz qıl. Həqiqətən, namaz çirkin və yaramaz işlərdən çəkindirir. Allahı yada salmaq isə ibadətlərin ən əzəmətlisidir. Allah nə etdiklərinizi bilir.

(Ənkəbut surəsi, 45)

O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı yad edir, göylərin və yerin yaradılması haqqında düşünür və deyirlər: "Ey Rəbbimiz! Sən bunları əbəs yerə xəlq etməmisən. Sən pak və müqəddəssən. Bizi Odun əzabından qoru!

(Ali İmran surəsi, 191)

Bunlar, iman gətirənlər və qəlbləri Allahı zikr etməklə rahatlıq tapanlardır. Bilin ki, qəlblər ancaq Allahı zikr etməklə rahatlıq tapır.

(Rad surəsi, 28)

Ey iman gətirənlər! Kafir bir dəstə ilə üz-üzə gəldikdə möhkəm durun və Allahı çox yad edin ki, bəlkə nicat tapasınız.

(Ənfal surəsi, 45)

> *Ü kişilər ki, nə ticarət, nə də alış-veriş onları Allahı zikr etməkdən, namaz qılmaqdan və zəkat verməkdən yayındırmır. Onlar qəlblərin və gözlərin çevriləcəyi bir gündən qorxurlar.*
>
> **(Nur surəsi, 37)**

> *Allahın Elçisi sizlərə – Allaha və Axirət gününə ümidini bağlayanlara və Allahı çox zikr edənlərə gözəl nümunədir.*
>
> **(Əhzab surəsi, 21)**

> *Səhər-axşam ürəyində yalvararaq və qorxaraq, səsini qaldırmadan Rəbbini yad et və qafillərdən olma.*
>
> **(Əraf surəsi, 205)**

Güc və imkanlarına deyil sadəcə Allaha güvənirlər

Talut qoşunla birlikdə döyüşə yola düşdükdə əsgərlərinə dedi: "Allah sizi bir çayla imtahan edəcək. Kim ondan içsə, məndən deyildir. Bir ovuc götürən istisna olmaqla, kim ondan dadmasa, o, məndəndir". Onların az bir qismi istisna olmaqla hamısı ondan su içdilər. Talut onunla olan möminlərlə birlikdə çayı keçdikdən sonra bəziləri dedilər: "Bu gün bizim Caluta və onun qoşununa gücümüz çatmayacaq". Allahla qarşılaşacaqlarını yəqin bilənlər isə dedilər: "Neçə-neçə az saylı dəstələr Allahın izni ilə çox saylı dəstələrə qalib gəlmişdir!" Allah səbir edənlərlədir.

(Bəqərə surəsi, 249)

Həqiqətən, Allah əksər döyüşlərdə, habelə Huneyn günündə də sizə kömək etmişdi. O zaman çoxluğunuza aludə oldunuz, amma bu sizin karınıza gəlmədi. Yer üzü, genişliyinə baxmayaraq, sizə dar gəldi, sonra geriyə çevrilib qaçdınız.

(Tövbə surəsi, 25)

Sonra Allah Öz Elçisinə və möminlərə əminlik nazil etdi, görə bilmədiyiniz döyüşçülər göndərdi və kafirlərə əzab verdi. Budur kafirlərin cəzası.

(Tövbə surəsi, 26)

Qurana qüvvəylə bağlanmışdırlar

Bu, şəhərlər anası Məkkəni və onun ətrafındakıları qorxutmaq üçün nazil etdiyimiz, özündən əvvəlkiləri təsdiq edən mübarək bir Kitabdır. Axirətə inananlar ona da inanırlar. Onlar namazlarını doğru-düzgün qılırlar.

(Ənam surəsi, 92)

Evlərinizdə oxunan Allahın ayələrini və hikməti yada salın. Həqiqətən, Allah Lütfkardır, hər şeydən Xəbərdardır.

(Əhzab surəsi, 34)

Onlara Rəbbinin ayələri xatırlandığı zaman o ayələrə qarşı kar və kor kimi davranmazlar.

(Furqan surəsi, 73)

Onlara oxunan Kitabı sənə nazil etməyimiz onlar üçün kifayət deyilmi? Həqiqətən, bunda iman gətirən adamlar üçün mərhəmət və ibrət vardır.

(Ənkəbut surəsi, 51)

Onların aralarında Allahın sənə nazil etdiyi Kitabla hökm ver və onların istəklərinə tabe olma. Onlardan ehtiyat et ki, Allahın sənə nazil etdiyi hökmlərin bəzisindən səni sapdırmasınlar. Əgər onlar üz döndərsələr, bil ki, Allah onları bəzi günahlarına görə müsibətə düçar etmək istəyir. Həqiqətən, insanların çoxu fasiqlərdir.

(Maidə surəsi, 49)

Dinlərini oyun və əyləncə sayanları və dünya həyatının aldatdığı şəxsləri tərk et. Bununla xatırlat ki, heç kəs qazandıqlarına görə özünü məhvə məhkum etməsin. Allahdan başqa onun nə bir hamisi, nə də bir havadarı olacaqdır. O nə cür fidyə versə də, ondan qəbul olunmayacaq. Onlar qazandıqları günahlara görə məhvə məhkum olanlardır. Kafir olduqlarına görə onlar üçün qaynar içki və ağrılı-acılı bir əzab hazırlanmışdır.

(Ənam surəsi, 70)

Həqiqətən, Biz sənə Kitabı haqq olaraq nazil etdik ki, insanlar arasında Allahın sənə vəhy etdiyi ilə hökm verəsən. Odur ki, xainləri müdafiə edənlərdən olma.

(Nisa surəsi, 105)

Kitabdan möhkəm yapışanlara və namaz qılanlara gəlincə, Biz yaxşı işlər görənlərin mükafatını puç etmərik.

(Əraf surəsi, 170)

Kitab verdiyimiz kəslər onu layiqincə oxuyurlar. Onlar ona iman gətirənlərdir. Onu inkar edənlər isə ziyana uğrayanlardır.

(Bəqərə surəsi, 121)

Belə olduqda sən kafirlərə baş əymə və onlara qarşı bununla (bu Quranla) böyük bir cihad et!

(Furqan surəsi, 52)

Heç kimə yaraşmaz ki, Allah ona Kitab, hikmət və peyğəmbərlik verdikdən sonra insanlara: "Allaha yox, mənə qul olun!" – desin. Əksinə, o deyər: "Öyrətdiyiniz Kitabın və ondan öyrəndiyiniz şeyin sayəsində din xadimləri olun!"

(Ali İmran surəsi, 79)

Quran ayələri Allah qorxularını və imanlarını artırır

> *Allah Sözün ən gözəlini – ayələri bir-birinə bənzəyən və təkrarlanan Kitab kimi nazil etdi. Rəbbindən qorxanların ondan dəriləri ürpəşər. Sonra isə Allahı yad etməklə dəriləri və qəlbləri yumşalır. Bu, Allahın hidayətidir. Onunla istədiyini doğru yola yönəldir. Allahın zəlalətə saldığı şəxsə isə yol göstərən olmaz.*
>
> **(Zumər surəsi, 23)**

> *De: "İstər ona inanın, istərsə də inanmayın. Doğrudan da, ondan əvvəl özlərinə elm verilmiş kimsələrə, ayələr oxunduğu zaman üzüstə səcdəyə qapanır*
>
> **(İsra surəsi, 107)**

> *və: "Rəbbimiz pak və müqəddəsdir! Rəbbimizin vədi mütləq yerinə yetəcəkdir!" – deyirlər.*
>
> **(İsra surəsi, 108)**

> *Onlar üzüqoylu düşüb ağlayır və bu ayələr onların itaətini artırır.*
>
> **(İsra surəsi, 109)**

o kəslərə ki, Allah anıldığı zaman qəlbi qorxuya düşər, başına gələnə səbir edər, namaz qılar və onlara verdiyimiz ruzidən Allah yolunda xərcləyərlər.

(Həcc surəsi, 35)

Onlar Allahın nemət bəxş etdiyi peyğəmbərlərdən, Adəmin və Nuhla birlikdə gəmidə daşıdığımız kimsələrin nəslindən, İbrahimin və İsrailin nəslindən seçib haqq yola yönəltdiyimiz kimsələrdəndir. Onlar özlərinə Mərhəmətli Allahın ayələri oxunduğu zaman səcdəyə qapanıb ağlayanlardır.

(Məryəm surəsi, 58)

Möminlər ancaq o kəslərdir ki, Allah anıldığı zaman onların qəlbi qorxuya düşər, Onun ayələri onlara oxunduqda imanları artar, yalnız öz Rəbbinə təvəkkül edər,

(Ənfal surəsi, 2)

Allaha əsla nankorluq etməzlər

Kitabdan xəbəri olan bir başqa kimsə isə belə dedi: "Mən onu sənə bir göz qırpımında gətirərəm!" Süleyman taxtı yanında hazır durmuş görən kimi dedi: "Bu, Rəbbimin lütfündəndir ki, məni sınağa çəksin, görək şükür edəcəyəm, yoxsa nankor olacağam! Kim şükür etsə, ancaq öz xeyrinə şükür etmiş olar, kim də nankor olsa, bilsin ki, həqiqətən, Rəbbim onun şükrünə möhtac deyildir, Səxavətlidir!"

(Nəml surəsi, 40)

Qiyamət gününə qəti olaraq inanırlar

O müttəqilər ki, öz Rəbbindən Onu görmədikləri halda qorxur və gələcək o Saatdan lərzəyə gəlirlər.

(Ənbiya surəsi, 49)

Beləliklə, Biz sənə ərəbcə Quran vəhy etdik ki, şəhərlər anası (Məkkə) əhlini və onun ətrafındakıları xəbərdar edəsən və barəsində heç bir şübhə doğurmayan məhşər gününü yadlarına salasan. İnsanların bir qismi Cənnətdə, digər qismi isə Odda olacaqdır.

(Şura surəsi, 7)

Qiyamət günündən qorxarlar

> *O kişilər ki, nə ticarət, nə də alış-veriş onları Allahı zikr etməkdən, namaz qılmaqdan və zəkat verməkdən yayındırmır. Onlar qəlblərin və gözlərin çevriləcəyi bir gündən qorxurlar.*
>
> **(Nur surəsi, 37)**

> *Onlar özlərinin istədikləri şeylərdən kasıba, yetimə və əsirə də verərlər*
>
> **(İnsan surəsi, 8)**

> *və deyərlər: "Biz sizi yalnız Allahın Üzü xatirinə yedirdirik və sizdən nə əvəzini, nə də minnətdarlıq gözləyirik!*
>
> **(İnsan surəsi, 9)**

> *Əslində, biz, Rəbbimizdən gələ bilən çox kəskin və ağır bir gündən ehtiyat edirik!"*
>
> **(İnsan surəsi, 10)**

Axirətin varlığına qəti olaraq inanırlar

O kəslər ki, sənə nazil olana və səndən əvvəl nazil olanlara iman gətirir, axirətə də yəqinliklə inanırlar.

(Bəqərə surəsi, 4)

O kəslər ki, Haqq-hesab gününü təsdiq edirlər.

(Məaric surəsi, 26)

Şübhəsiz ki, biz Rəbbimizə qayıdacağıq".

(Zuxruf surəsi, 14)

O kəslərə ki, namaz qılır, zəkat verir və axirətə qətiyyətlə inanırlar.

(Nəml surəsi, 3)

Allahın sənə verdiyi ilə Axirət yurduna can at. Dünyadakı nəsibini də unutma. Allah sənə yaxşılıq etdiyi kimi, sən də başqalarına yaxşılıq et. Yer üzündə fitnə-fəsad törətməyə çalışma. Şübhəsiz ki, Allah fitnə-fəsad törədənləri sevmir".

(Qəsas surəsi, 77)

Biz onları Axirət yurdunu sadiq ürəklə andıqlarına görə seçdik.

(Sad surəsi, 46)

Qoy dünya həyatını atıb axirəti satın alanlar Allah yolunda vuruşsunlar. Kim Allah yolunda vuruşub öldürülərsə və ya qalib gələrsə, Biz ona böyük bir mükafat verəcəyik.

(Nisa surəsi, 74)

O kəslərə ki, namaz qılır, zəkat verir və axirətə qətiyyətlə inanırlar.

(Loğman surəsi, 4)

Doğrudan da, Allah möminlərdən, Cənnət müqabilində onların canlarını və mallarını satın almışdır. Çünki onlar Allah yolunda vuruşub öldürür və öldürülürlər. Bu, Allahın Tövratda, İncildə və Quranda Öz öhdəsinə götürdüyü bir vəddir. Allahdan daha yaxşı əhdini yerinə yetirən kimdir? Elə isə sövdələşdiyiniz alış-verişə görə sevinin. Məhz bu, böyük uğurdur.

(Tövbə surəsi, 111)

Dünya həyatına bağlanmazlar

Onların nə malları, nə də övladları səni təəccübləndirməsin. Allah bunlarla, bu dünyada onlara əzab vermək və onların kafir olaraq canlarının çıxmasını istəyir.

(Tövbə surəsi, 85)

Səhər və axşam çağı Rəbbinin Üzünü diləyərək Ona dua edənlərlə birlikdə özünü səbirli apar. Dünyanın bərbəzəyini istəyərək nəzərlərini yoxsullardan çevirmə. Qəlbini Bizi anmaqdan xəbərsiz etdiyimiz, nəfsinin istəklərinə uyan və işləri səmərəsiz olan bir kimsəyə itaət etmə!

(Kəhf surəsi, 28)

Onların nə malları, nə də övladları səni heyrətləndirməsin. Allah bunlarla, dünya həyatında onlara əzab vermək və onların canlarının kafir kimi çıxmasını istəyir.

(Tövbə surəsi, 55)

Kafirlərdən bəzisini sınamaq üçün onlara dünya həyatının bərbəzəyi kimi verdiyimiz şeylərə gözünü dikmə. Rəbbinin ruzisi daha xeyirli və daha davamlıdır.

(Taha surəsi, 131)

Pis əməli özünə gözəl göstərilib onu yaxşı hesab edənlə, doğru yolla gedən kimsə eyni ola bilərmi? Həqiqətən, Allah istədiyini zəlalətə salır, istədiyini də doğru yola yönəldir. Sən onlara görə özünü üzüb əldən salma. Şübhəsiz ki, Allah onların nə törətdiklərini bilir.

(Fatir surəsi, 8)

Ey iman gətirənlər! Nə mallarınız, nə də övladlarınız sizi Allahın zikrindən yayındırmasın! Bunu edənlər ziyana uğrayanlardır.

(Münafiqun surəsi, 9)

Onların bəzi təbəqələrinə verdiyimiz fani dünya malına gözünü dikmə, onlara görə kədərlənmə, möminlərlə yumşaq davran

(Hicr surəsi, 88)

Axirətə yönəlmişdirlər

Rəbbiniz tərəfindən bağışlanmağa və müttəqilər üçün hazırlanmış, genişliyi göylər və yer qədər olan Cənnətə tələsin.

(Ali İmran surəsi, 133)

Allahın Elçisi sizlərə – Allaha və Axirət gününə ümidini bağlayanlara və Allahı çox zikr edənlərə gözəl nümunədir.

(Əhzab surəsi, 21)

Qoy dünya həyatını atıb axirəti satın alanlar Allah yolunda vuruşsunlar. Kim Allah yolunda vuruşub öldürülərsə və ya qalib gələrsə, Biz ona böyük bir mükafat verəcəyik.

(Nisa surəsi, 74)

Biz onları Axirət yurdunu sadiq ürəklə andıqlarına görə seçdik.

(Sad surəsi, 46)

Doğrudan da, Allah möminlərdən, Cənnət müqabilində onların canlarını və mallarını satın almışdır. Çünki onlar Allah yolunda vuruşub öldürür və öldürülürlər. Bu, Allahın Tövratda, İncildə və Quranda Öz öhdəsinə götürdüyü bir vəddir. Allahdan daha yaxşı əhdini yerinə yetirən kimdir? Elə isə sövdələşdiyiniz alış-verişə görə sevinin. Məhz bu, böyük uğurdur.

(Tövbə surəsi, 111)

Gələcək narahatlığı yaşamazlar

Onlara Nuhun əhvalatını oxu. Bir zaman o, öz qövmünə demişdi: "Ey qövmüm! Əgər aranızda qalmağım və Allahın ayələrini xatırlatmağım sizə ağır gəlirsə, mən Allaha təvəkkül edirəm. Allaha qoşduğunuz şəriklərlə birləşib sözü bir yerə qoyun, sonra da işinizi aşkarda görün. Bundan sonra mənə qarşı bacardığınızı edin və mənə möhlət verməyin.

(Yunis surəsi, 71)

Əgər üz çevirsəniz, bilin ki, mən sizdən heç bir mükafat istəmirəm. Mənim mükafatım ancaq Allahdadır. Mənə müsəlmanlardan olmaq əmr edilmişdir".

(Yunis surəsi, 72)

Şeytan sizi yoxsulluqla qorxudur və yaramaz işlər görməyi əmr edir. Allah isə sizə Öz tərəfindən bağışlanma və mərhəmət olunacağını vəd edir. Allah hər şeyi Əhatəedəndir, Biləndir.

(Bəqərə surəsi, 268)

Qədərə tam iman edərlər

De: "Allahın bizim üçün yazdığından başqa bizim başımıza heç nə gəlməz. O bizim Himayədarımızdır. Qoy möminlər yalnız Allaha təvəkkül etsinlər!"

(Tövbə surəsi, 51)

Yer üzündə baş verən və sizin başınıza gələn elə bir müsibət yoxdur ki, Biz onu yaratmamışdan əvvəl o, Yazıda müəyyən edilmiş olmasın. Şübhəsiz ki, bu, Allah üçün çox asandır.

(Hədid surəsi, 22)

Allah bunu əlinizdən çıxana kədərlənməyəsiniz və Onun sizə verdiyinə həddindən artıq sevinməyəsiniz deyə belə izah edir. Allah heç bir özündən razını, özünü öyəni sevmir.

(Hədid surəsi, 23)

Bütün xüsusiyyətlərini Allah borclu olduqlarını bilirlər

Ey Rəbbim! Sən mənə hakimiyyət verdin və mənə yuxuları yozmağı öyrətdin. Ey göyləri və yeri yaradan! Sən dünyada da, axirətdə də mənim Himayədarımsan. Mənim canımı müsəlman kimi al və məni əməlisalehlərə qovuşdur".

(Yusif surəsi, 101)

Allah Adəmə bütün şeylərin adlarını öyrətdi. Sonra onları mələklərə göstərib dedi: "Doğru danışanlarsınızsa, bunların adlarını Mənə deyin!"

(Bəqərə surəsi, 31)

Onlar dedilər: "Sən pak və müqəddəssən! Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur! Həqiqətən, Sən Bilənsən, Müdriksən!"

(Bəqərə surəsi, 32)

O dedi: "Sizə veriləcək yemək gəlməmişdən əvvəl mən bunun yozumunu sizə bildirərəm. Bu, Rəbbimin mənə öyrətdiklərindəndir. Mən Allaha iman gətirməyən, özləri də axirəti inkar edən adamların dinindən uzaqlaşmışam.

(Yusif surəsi, 37)

Başlarına gələn hər şeyi xeyir gözüylə dəyərləndirirlər

De: "Allahın bizim üçün yazdığından başqa bizim başımıza heç nə gəlməz. O bizim Himayədarımızdır. Qoy möminlər yalnız Allaha təvəkkül etsinlər!"

(Tövbə surəsi, 51)

Allaha, hökmlərinə və elçilərinə könüldən itaət edərlər

Allah və Onun Elçisi bir işə hökm verdiyi zaman heç bir mömin kişi və mömin qadın öz işlərində istədikləri qərarı verə bilməzlər. Allaha və Onun Elçisinə asi olan kəs, əlbəttə ki, açıq-aydın azğınlığa düşmüşdür.

(Əhzab surəsi, 36)

Sizlərdən hər kim Allaha və Onun Elçisinə itaət edib yaxşı işlər görsə, ona mükafatını ikiqat verərik. Biz onun üçün bol ruzi hazırlamışıq.

(Əhzab surəsi, 31)

Allaha itaət edin, Onun Elçisinə itaət edin və asi olmaqdan çəkinin! Əgər üz çevirsəniz, bilin ki, Elçimizin öhdəsinə düşən ancaq açıq-aydın təbliğ etməkdir.

(Maidə surəsi, 92)

De: "Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın. Allah Bağışlayandır, Rəhmlidir".

(Ali İmran surəsi, 31)

Peyğəmbərlərin və elçilərin yolundadırlar

Allahın Elçisi sizlərə – Allaha və Axirət gününə ümidini bağlayanlara və Allahı çox zikr edənlərə gözəl nümunədir.

(Əhzab surəsi, 21)

Yoxsa siz Yaquba ölüm gəldikdə onun yanında idiniz? O zaman o, öz oğullarına dedi: "Məndən sonra nəyə ibadət edəcəksiniz?" Onlar dedilər: "Sənin İlahına, atalarının – İbrahimin, İsmailin və İshaqın İlahı olan Tək İlaha ibadət edəcəyik. Biz yalnız Ona təslim olanlarıq!"

(Bəqərə surəsi, 133)

Deyin: "Biz Allaha, bizə nazil olana, İbrahimə, İsmailə, İshaqa, Yaquba və onun nəslinə nazil olana, Musa və İsaya verilənlərə, özlərinin Rəbbi tərəfindən peyğəmbərlərə verilənlərə iman gətirdik. Biz onların arasında fərq qoymuruq. Biz yalnız Ona təslim olanlarıq!"

(Bəqərə surəsi, 136)

Mən atalarım İbrahim, İshaq və Yaqubun dininə tabe oldum. Hər hansı bir şeyi Allaha şərik qoşmaq bizə yaraşmaz. Bu, Allahın bizə və bütün insanlara olan lütfüdür, lakin insanların çoxu şükür etmir.

(Yusif surəsi, 38)

Peyğəmbərin sünnətinə uyarlar

O kəslər ki, yanlarındakı Tövrat və İncildə haqqında yazılmış olduğunu gördükləri elçinin – yazıb-oxumaq bilməyən peyğəmbərin, ardınca gedərlər. O peyğəmbər onlara yaxşı işlər görməyi buyurar, pis əməlləri isə qadağan edər, onlara pak şeyləri halal, murdar şeyləri isə haram edər. Onların ağır yüklərini yüngülləşdirər və onları buxovlardan xilas edər. Ona iman gətirən, onu dəstəkləyən, ona kömək edən və onunla göndərilmiş nurun (Quranın) ardınca gedənlər isə nicat tapanlardır".

(Əraf surəsi, 157)

Şeytanın təsirinə düşməzlər

Quran oxuduqda qovulmuş şeytandan Allaha sığın!

(Nəhl surəsi, 98)

Şübhəsiz ki, şeytanın, iman gətirib yalnız öz Rəbbinə təvəkkül edənlər üzərində heç bir hökmranlığı yoxdur.

(Nəhl surəsi, 99)

Əgər şeytandan sənə bir vəsvəsə gəlsə, Allaha sığın. Şübhəsiz ki, O, Eşidəndir, Biləndir.

(Əraf surəsi, 200)

Allahdan qorxanlara şeytandan bir vəsvəsə toxunduğu zaman Allahı xatırlayar və dərhal gerçəyi görərlər.

(Əraf surəsi, 201)

İblis dedi: "Ey Rəbbim! Sən məni yoldan çıxartdığına görə, mən də yer üzündə onlara pis işləri gözəl göstərib onların hamısını azdıracağam.

(Hicr surəsi, 39)

Yalnız Sənin seçilmiş, ixlaslı qullarından başqa".

(Hicr surəsi, 40)

Allah dedi: "Bu, Mənə tərəf gətirib çıxaran düz yoldur.

(Hicr surəsi, 41)

Şübhəsiz ki, qullarım üzərində sənin heç bir hökmün yoxdur. Yalnız sənə uyan azğınlardan başqa".

(Hicr surəsi, 42)

Şeytanı və yoldaşlarını düşmən edərlər

Şübhəsiz ki, şeytan sizin düşmənizdir, siz də onu düşmən sayın. O öz tərəfdarlarını Od sakini olmağa çağırır.


(Fatir surəsi, 6)

Şeytan sizi doğru yoldan döndərməsin. Şübhəsiz ki, o sizin açıq-aydın düşmənizdir.

(Zuxruf surəsi, 62)

Ey Adəm oğulları! Şeytan, əcdadınızın ayıb yerlərini özlərinə göstərmək məqsədilə aldadaraq libaslarını soyundurub Cənnətdən çıxartdığı kimi, sizi də aldatmasın. Şübhəsiz ki, o və onun nəsli sizləri sizin onları görə bilmədiyiniz yerlərdən görürlər. Həqiqətən, Biz, şeytanları iman gətirməyənlərin dostları etdik.

(Əraf surəsi, 27)



Onlar iman gətirənlərin dostlarıdır

Yəhudiləri və müşrikləri iman gətirənlərə qarşı düşmənçilik edən insanların ən pisi olduğunu görəcəksən. "Biz xaçpərəstik!" – deyənləri isə dostluq baxımından iman gətirənlərə ən yaxın olduğunu görəcəksən. Çünki onların arasında keşişlər və rahiblər vardır və onlar təkəbbürlük göstərmirlər.

(Maidə surəsi, 82)

Ey iman gətirənlər! Mənim düşmənimi də, öz düşmənlərinizi də özünüzə dost tutmayın! Onlar sizə gələn həqiqəti inkar etdikləri halda, siz onlara mehribanlıq göstərib sirrinizi açıb deyirsiniz. Rəbbiniz olan Allaha iman gətirdiyiniz üçün onlar Peyğəmbəri və sizi yurdunuzdan qovub çıxardırlar. Əgər siz Mənim yolumda və Mənim razılığımı qazanmaq uğrunda cihada çıxmısınızsa, onlara gizlində mehribanlıq göstərirsiniz. Mən sizin gizli saxladığınızı da, aşkar etdiyinizi də bilirəm. Sizlərdən kim bunu etsə, doğru yoldan sapmış olar.

(Mumtəhənə surəsi, 1)

Sadəcə Allahı və inananları dost edərlər

Allaha və Axirət gününə iman gətirən elə bir camaat tapa bilməzsən ki, onlar Allaha və Onun Elçisinə düşmən olanlarla – öz ataları, oğulları, qardaşları, qohum-əqrəbaları olsalar belə – dostluq etsinlər. Allah onların qəlbinə iman salmış və onları Öz tərəfindən bir ruhla dəstəkləmişdir. Allah onları ağacları altından çaylar axan Cənnət bağlarına daxil edəcəkdir. Onlar orada əbədi qalacaqlar. Allah onlardan razıdır, onlar da Allahdan razıdırlar. Onlar Allahın firqəsidirlər. Həqiqətən, məhz Allahın firqəsi nicat tapanlardır.

(Mücadilə surəsi, 22)

Ey iman gətirənlər! Möminləri qoyub kafirləri özünüzə dost tutmayın. Yoxsa Allaha öz əleyhinizə açıq-aydın bir dəlil verməkmi istəyirsiniz?

(Nisa surəsi, 144)

Kafirlər də bir-birinə dostdurlar. Əgər siz bunu etməsəniz (bir-birinizə yardımçı olmasanız), yer üzündə fitnə və böyük bir fəsad baş verər.

(Ənfal surəsi, 73)

Allah sizə ancaq sizinlə din uğrunda vuruşan, sizi diyarınızdan qovub çıxardan və çıxarılmanıza kömək edən kimsələrlə dostluq etmənizi qadağan edir. Onlarla dostluq edənlər zalımlardır.

(Mumtəhənə surəsi, 9)

Ey iman gətirənlər! Mənim düşmənimi də, öz düşmənlərinizi də özünüzə dost tutmayın! Onlar sizə gələn həqiqəti inkar etdikləri halda, siz onlara mehribanlıq göstərib sirrinizi açıb deyirsiniz. Rəbbiniz olan Allaha iman gətirdiyiniz üçün onlar Peyğəmbəri və sizi yurdunuzdan qovub çıxardırlar. Əgər siz Mənim yolumda və Mənim razılığımı qazanmaq uğrunda cihada çıxmısınızsa, onlara gizlində mehribanlıq göstərirsiniz. Mən sizin gizli saxladığınızı da, aşkar etdiyinizi də bilirəm. Sizlərdən kim bunu etsə, doğru yoldan sapmış olar.

(Mumtəhənə surəsi, 1)

Ey iman gətirənlər! Əgər atalarınız və qardaşlarınız küfrü imandan üstün sayırlarsa, onları dost tutmayın. Sizlərdən onları dost tutanlar zalımlardır.

(Tövbə surəsi, 23)

Ey iman gətirənlər! Sizlərdən olmayanı özünüzə sirdaş tutmayın. Onlar sizə qarşı fəsad törətməkdən əl çəkməzlər, sizin sıxıntıya düşməyinizi istəyərlər. Düşmənçilikləri onların ağızlarından çıxan sözlərdən bəllidir. Kökslərində gizlətdikləri düşmənçilik isə daha böyükdür. Əgər anlayırsınızsa, Biz ayələri artıq sizə bəyan etdik.

(Ali İmran surəsi, 118)

Sizin himayədarınız yalnız Allah, Onun Elçisi və iman gətirənlərdir. Onlar Allaha boyun əyərək namaz qılır və zəkat verirlər.

(Maidə surəsi, 55)

Kim Allahı, Onun Elçisini və iman gətirənləri özünə dost tutarsa, bilsin ki, qələbə çalanlar da məhz Allahın firqəsidir.

(Maidə surəsi, 56)

Yoxsa elə hesab edirsiniz ki, Allah sizlərdən cihad edənləri, Allahdan, Onun Elçisindən və möminlərdən başqasını özlərinə sirdaş tutmayanları sınamadan siz sərbəst buraxılacaqsınız? Allah nə etdiklərinizdən xəbərdardır.

(Tövbə surəsi, 16)

Digər möminlərlə bir yerdədirlər

Səhər və axşam çağı Rəbbinin Üzünü diləyərək Ona dua edənlərlə birlikdə özünü səbirli apar. Dünyanın bərbəzəyini istəyərək nəzərlərini yoxsullardan çevirmə. Qəlbini Bizi anmaqdan xəbərsiz etdiyimiz, nəfsinin istəklərinə uyan və işləri səmərəsiz olan bir kimsəyə itaət etmə!

(Kəhf surəsi, 28)

Ey iman gətirənlər! Allahdan qorxun və düz danışanlarla birlikdə olun.

(Tövbə surəsi, 119)

Əgər onlar bilmədiyin bir şeyi Mənə şərik qoşmağın üçün səni məcbur etməyə cəhd göstərsələr, onlara güzəştə getmə! Dünyada onlarla gözəl davran. Mənə üz tutanların yolu ilə get! Sonra isə dönüşünüz Mənə olacaq, Mən də nə etdiklərin barədə sizə xəbər verəcəyəm.

(Loğman surəsi, 15)

Ey iman gətirənlər! Sizlərdən olmayanı özünüzə sirdaş tutmayın. Onlar sizə qarşı fəsad törətməkdən əl çəkməzlər, sizin sıxıntıya düşməyinizi istəyərlər. Düşmənçilikləri onların ağızlarından çıxan sözlərdən bəllidir. Kökslərində gizlətdikləri düşmənçilik isə daha böyükdür. Əgər anlayırsınızsa, Biz ayələri artıq sizə bəyan etdik.

(Ali İmran surəsi, 118)

Namaza diqqət edərlər

namaz qılar və Bizim onlara verdiyimiz ruzidən Allah yolunda xərcləyərlər.

(Ənfal surəsi, 3)

Namaz qılanlar istisnadır.

(Məaric surəsi, 22)

O kəslər ki, namazlarını həmişə qılırlar.

(Məaric surəsi, 23)

> *O kişilər ki, nə ticarət, nə də alış-veriş onları Allahı zikr etməkdən, namaz qılmaqdan və zəkat verməkdən yayındırmır. Onlar qəlblərin və gözlərin çevriləcəyi bir gündən qorxurlar.*
>
> **(Nur surəsi, 37)**

> *Möminlər, həqiqətən də, nicat tapmışlar;*
>
> **(Muminun surəsi, 1)**

> *o kəslər ki, namazlarında mütidirlər,*
>
> **(Muminun surəsi, 2)**

> *Namazları və (günortadan sonrakı) orta namazı qoruyun və Allah qarşısında mütiliklə durun.*
>
> **(Bəqərə surəsi, 238)**

> *O kəslər ki, namazlarını öz vaxtlarında qılırlar.*
>
> **(Muminun surəsi, 9)**

Gecələri də ibadət edərlər

Onlar gecələr ibadət edib az yatırdılar.

(Zəriyət surəsi, 17)

Sübh çağı isə bağışlanma diləyirdilər.

(Zəriyət surəsi, 18)

Allahdan bağışlanma diləyərlər

Sübh çağı isə bağışlanma diləyirdilər.

(Zəriyət surəsi, 18)

Ey Rəbbimiz! Həqiqətən, biz: "Rəbbinizə iman gətirin!" – deyə imana çağıran bir kimsənin çağırışını eşidib iman gətirdik. Ey Rəbbimiz! Günahlarımızı bizə bağışla, təqsirlərimizdən keç və canımızı itaətkarlarla bir yerdə al!

(Ali İmran surəsi, 193)

Allah hər kəsi yalnız onun qüvvəsi çatdığı qədər mükəlləf edər. Hər kəsin qazandığı xeyir yalnız onun özünə, qazandığı şər də yalnız öz əleyhinədir. "Ey Rəbbimiz, unutsaq və ya xəta etsək bizi cəzalandırma! Ey Rəbbimiz, bizdən əvvəlkilərə yüklədiyin kimi, bizə də ağır yük yükləmə! Ey Rəbbimiz, gücümüz çatmayan şeyi daşımağa bizi vadar etmə! Bizi əfv et, bizi bağışla və bizə rəhm et! Sən bizim Himayədarımızsan! Kafirləri məğlub etməkdə bizə yardım et!"

(Bəqərə surəsi, 286)

Ey Rəbbim! Məni, valideynlərimi, evimə mömin kimi daxil olanları və bütün mömin kişi və qadınları bağışla! Zülmkarların isə ancaq həlakını artır".

(Nuh surəsi, 28)

O kəslər ki, bir pis iş gördükdə, yaxud özlərinə zülm etdikdə Allahı xatırlayıb günahlarının bağışlanmasını diləyərlər, – günahları Allahdan başqa kim bağışlaya bilər? – onlar bilə-bilə etdiklərinə görə israr etməzlər.

(Ali İmran surəsi, 135)

O kəslər ki: "Ey Rəbbimiz! Həqiqətən, biz iman gətirdik, bizim günahlarımızı bağışla və bizi Od əzabından qoru!" – deyirlər;

(Ali İmran surəsi, 16)

onlar səbir edən, doğru danışan, müti olan, malından Allah yolunda xərcləyən və sübh çağına yaxın bağışlanma diləyən kimsələrdir.

(Ali İmran surəsi, 17)

Onların dedikləri ancaq: "Ey Rəbbimiz! Günahlarımızı və əməllərimizdə həddi aşmağımızı bizə bağışla; qədəmlərimizi sabit et və kafir qövmə qələbə çalmaqda bizə yardım et!" – olmuşdur.

(Ali İmran surəsi, 147)

Səhabələrdən sonra gələnlər deyirlər: "Ey Rəbbimiz! Bizi və bizdən əvvəl iman gətirmiş qardaşlarımızı bağışla. Bizim qəlbimizdə iman gətirənlərə qarşı nifrət və həsədə yer vermə. Ey Rəbbimiz! Həqiqətən də, Sən Şəfqətlisən, Rəhmlisən!"

(Həşr surəsi, 10)

Həm öz günahları, həm də digər möminlərin günahları üçün bağışlanma diləyərlər

Bil ki, Allahdan başqa ibadətə layiq olan heç bir məbud yoxdur. Sən həm öz günahlarının, həm də mömin kişilərlə mömin qadınların bağışlanmasını dilə. Allah gəzib-dolaşdığınız yeri də, gecələyəcəyiniz məskəni də bilir.

(Məhəmməd surəsi, 19)

Səhabələrdən sonra gələnlər deyirlər: "Ey Rəbbimiz! Bizi və bizdən əvvəl iman gətirmiş qardaşlarımızı bağışla. Bizim qəlbimizdə iman gətirənlərə qarşı nifrət və həsədə yer vermə. Ey Rəbbimiz! Həqiqətən də, Sən Şəfqətlisən, Rəhmlisən!"

(Həşr surəsi, 10)

Allaha yaxınlaşmaq üçün cəhd edərlər

Səbir etdiklərinə və ayələrimizə yəqinliklə inandıqlarına görə Biz əmrimizlə onlardan doğru yolu göstərən rəhbərlər təyin etmişdik.

(Səcdə surəsi, 24)

Ey iman gətirənlər! Allahdan qorxun, Ona yaxınlaşmaq üçün vasitə axtarın və Onun yolunda cihad edin ki, bəlkə nicat tapasınız.

(Maidə surəsi, 35)

Onlar deyərlər: "Ey Rəbbimiz! Bizə gözümüzün aydınlığı olan zövcələr və övladlar bəxş et və bizi müttəqilərə imam et!"

(Furqan surəsi, 74)

Məhz onlar yaxşı işlər görməyə tələsər və bu işlərdə öndə gedərlər.

(Muminun surəsi, 61)

> *Sonra, Kitabı qullarımız içərisindən seçdiklərimizə miras etdik. Onlardan kimisi özünə zülm edər, kimisi orta yol tutar, kimisi də Allahın izni ilə yaxşı işlərdə öndə gedər. Böyük lütf də budur.*
>
> **(Fatir surəsi, 32)**

> *Xeyirxah işlərdə öndə gedənlər, Cənnətdə də öndədirlər!*
>
> **(Vaqiə surəsi, 10)**

> *Onlar Allaha yaxın olanlar,*
>
> **(Vaqiə surəsi, 11)**

Allaha şükr edərlər

> *Şükür etsəniz və iman gətirsəniz, sizə əzab vermək Allahın nəyinə gərəkdir? Allah itaətkar qullarına təşəkkür edəndir, Biləndir.*
>
> **(Nisa surəsi, 147)**

> *Biz Loğmana hikmət verdik: "Allaha şükür et! Kim şükür etsə, özü üçün şükür etmiş olar. Kim nankor olsa, bilsin ki, Allah onun şükrünə möhtac deyildir, Tərifəlayiqdir".*
>
> **(Loğman surəsi, 12)**

Cinlər onun üçün istədiyi qəsrlər, heykəllər, hovuzlara bənzər çanaqlar və yerindən tərpənməyən nəhəng qazanlar düzəldirdilər. Ey Davud nəsli! Bu nemətlərə şükür edin! Qullarımdan şükür edən azdır.

(Səba surəsi, 13)

O zaman Rəbbiniz bildirmişdi: "Əgər şükür etsəniz, sizə olan nemətimi artıraram, yox əgər nankorluq etsəniz, bilin ki, Mənim əzabım şiddətlidir".

(İbrahim surəsi, 7)

Ey Nuhla birlikdə gəmidə daşıdıqlarımızın nəsli! Nuh doğrudan da, Bizə minnətdar olan bir qul idi.

(İsra surəsi, 3)

Ey iman gətirənlər! Sizə ruzi kimi verdiyimiz pak şeylərdən yeyin və əgər Allaha ibadət edirsinizsə, Ona şükür edin!

(Bəqərə surəsi, 172)

> *İki dəniz eyni deyildir. Birinin suyu dadlı, şirin və içməyə rahat, digərininki isə həddindən artıq duzlu və acıdır. Onların hər birindən təzə balıq yeyir, taxdığınız zinət əşyalarını çıxarırsınız. Sən gəmilərin onu yara-yara üzdüyünü görürsən. Bütün bunlar Allahın lütfünü axtarıb tapmağınız və şükür etməyiniz üçündür.*
>
> **(Fatir surəsi, 12)**

> *Allah sizi analarınızın bətnindən heç nə anlamadığınız bir halda çıxartdı, sizə qulaq, göz və ürək verdi ki, bəlkə şükür edəsiniz.*
>
> **(Nəhl surəsi, 78)**

Bütün güclərilə Allah yolunda mübarizə apararlar

> *Allah yolunda lazımınca cihad edin. O, sizi seçdi və atanız İbrahimin dinində olduğu kimi, bu dində də sizin üçün heç bir çətinlik yaratmadı. Peyğəmbər sizə, siz də insanlara şahid olasınız deyə, Allah həm əvvəl nazil etdiyi kitablarda, həm də bu Kitabda sizi müsəlman adlandırdı. Elə isə namaz qılın, zəkat verin və Allaha möhkəm sarılın. O sizin Himayədarınızdır. O nə gözəl Himayədar, nə gözəl Yardımçıdır!*
>
> **(Həcc surəsi, 78)**

Möminlər ancaq Allaha və Onun Elçisinə iman gətirən, sonra heç bir şəkk-şübhəyə düşməyən, Allah yolunda malları və canları ilə cihad edənlərdir! İmanlarında sadiq olanlar da məhz onlardır.

(Hucurat surəsi, 15)

Lakin Allahın Elçisi və onunla birgə iman gətirənlər malları və canları ilə cihad etdilər. Onlar üçün nemətlər hazırlanmışdır. Məhz onlar uğur qazananlardır.

(Tövbə surəsi, 88)

Cihad edən məhz öz xeyri naminə cihad edər. Allahın aləmlərə qətiyyən ehtiyacı yoxdur.

(Ənkəbut surəsi, 6)

Ey iman gətirənlər! Sizi ağrılı-acılı əzabdan xilas edəcək bir ticarəti sizə bildirimmi?

(Saff surəsi, 10)

Allaha və Onun Elçisinə iman gətirin, Allah yolunda malınız və canınızla cihad edin. Bilsəniz, bu sizin üçün nə qədər xeyirlidir.

(Saff surəsi, 11)

Onlarla vuruşun ki, Allah sizin əllərinizlə onlara əzab versin, onları rüsvay etsin, sizə onların üzərində qələbə çaldırsın, mömin camaatın qəlbini sevindirsin

(Tövbə surəsi, 14)

İman gətirib hicrət edən və Allah yolunda öz malı və canı ilə cihad edənlərin Allah yanında ən yüksək dərəcələri vardır. Məhz onlar nicat tapanlardır.

(Tövbə surəsi, 20)

Sizə nə olub ki, Allah yolunda və: "Ey Rəbbimiz! Bizi əhalisi zalım olan bu şəhərdən çıxart, bizə Öz tərəfindən bir himayəçi təyin et, bizə Öz tərəfindən bir yardımçı təyin et!" – deyən zəif kişilər, qadınlar və uşaqlar uğrunda vuruşmursunuz?

(Nisa surəsi, 75)

Sizə yüngül gəlsə də, ağır gəlsə də, döyüşə çıxın, malınız və canınızla Allah yolunda cihad edin! Biləsiniz ki, bu sizin üçün daha xeyirlidir.

(Tövbə surəsi, 41)

Çətinliklər imanlarını döndürə bilməz

Onlar yaralandıqdan sonra da Allahın və Peyğəmbərinin dəvətini qəbul etdilər. İçərilərindən yaxşı işlər görənlər və Allahdan qorxanlar üçün böyük bir mükafat vardır.

(Ali İmran surəsi, 172)

Bəzi adamlar onlara: "Camaat sizə qarşı ordu toplayıbdır, onlardan qorxun!" – dedilər. Bu, onların imanını daha da artırdı və onlar: "Allah bizə yetər. O nə gözəl Qoruyandır!" – dedilər.

(Ali İmran surəsi, 173)

Yaxşı əməl üzünüzü məşriqə və məğribə tərəf çevirməyiniz deyildir. Lakin yaxşı əməl sahibləri Allaha, Axirət gününə, mələklərə, kitablara, peyğəmbərlərə iman gətirən, sevdiyi malı qohum-əqrəbaya, yetimlərə, kasıblara, müsafirlərə, dilənənlərə və kölələrin azad edilməsinə sərf edən, namaz qılıb zəkat verən, əhd bağladıqda əhdlərini yerinə yetirən, sıxıntı və xəstəlik üz verdikdə, habelə döyüşdə səbir edən şəxslərdir. Onlar imanlarında doğru olanlardır. Müttəqi olanlar da elə məhz onlardır.

(Bəqərə surəsi, 177)

Allahın dinini təbliğ edərlər

O vaxt qardaşları Nuh onlara dedi: "Məgər qorxmursunuz?

(Şuəra surəsi, 106)

Həqiqətən, mən sizin üçün etibar edilməli bir elçiyəm.

(Şuəra surəsi, 107)

Allahdan qorxun və mənə itaət edin.

(Şuəra surəsi, 108)

Mən bunun əvəzinə sizdən heç bir mükafat istəmirəm. Mənim mükafatım ancaq aləmlərin Rəbbinə aiddir.

(Şuəra surəsi, 109)

Allahdan qorxun və mənə itaət edin!"

(Şuəra surəsi, 110)

O dedi: "Ey Rəbbim, mən xalqımı gecə də, gündüz də dəvət etdim.

(Nuh surəsi, 5)

Amma dəvətim onların haqdan qaçmalarını daha da artırdı.

(Nuh surəsi, 6)

Sən onları bağışlayasan deyə mən hər dəfə onları imana dəvət etdikdə, onlar barmaqlarını qulaqlarına tıxayır, paltarlarına bürünür, küfrlərində israr edir və ötkəm-ötkəm təkəbbürlənirdilər.

(Nuh surəsi, 7)

Sonra mən onları aşkarcasına dəvət etdim.

(Nuh surəsi, 8)

Sonra mən onlara həm uca səslə, həm də gizlicə bildirib

(Nuh surəsi, 9)

O vaxt qardaşları Hud onlara dedi: "Məgər qorxmursunuz?

(Şuəra surəsi, 124)

Həqiqətən, mən sizin üçün etibar etməli olduğunuz bir elçiyəm.

(Şuəra surəsi, 125)

Allahdan qorxun və mənə itaət edin!

(Şuəra surəsi, 126)

Mən bunun əvəzinə sizdən heç bir mükafat istəmirəm. Mənim mükafatım ancaq aləmlərin Rəbbinə aiddir.

(Şuəra surəsi, 127)

Mənim əlimdən gələn ancaq Allahı və Onun göndərdiklərini təbliğ etməkdir. Kim Allaha və Onun Elçisinə asi olarsa, onun üçün içərisində əbədi qalacaqları Cəhənnəm odu hazırlanmışdır".

(Cin surəsi, 23)

Allah yolunda mübarizədə zəiflik göstərməzlər

Acizlik göstərməyin və kədərlənməyin. Möminsinizsə, üstün olacaqsınız.

(Ali İmran surəsi, 139)

Kafir qövmü təqib etməkdə zəiflik göstərməyin. Əgər siz döyüşdə əziyyət çəkirsinizsə, onlar da siz əziyyət çəkdiyiniz kimi əziyyət çəkirlər. Lakin siz onların ummadıqlarını Allahdan umursunuz. Allah Biləndir, Müdrikdir.

(Nisa surəsi, 104)

Neçə-neçə peyğəmbər olmuşdur ki, bir çox dindarlarla birlikdə vuruşmuşlar. Onlar Allah yolunda başlarına gələnlərə görə nə ruhdan düşmüş, nə zəifləmiş, nə də düşmənə boyun əymişlər. Allah səbir edənləri sevir.

(Ali İmran surəsi, 146)

Sən səbirli ol! Həqiqətən də, Allahın vədi haqdır. Qoy axirətə yəqinliklə inanmayanlar səni qeyri-ciddi olmağa (dindən dönməyə) sövq etməsinlər.

(Rum surəsi, 60)

Allah yolunda mübarizə üçün hazırlıq edərlər

Əgər onlar döyüşə çıxmaq istəsəydilər, mütləq ona hazırlıq görərdilər. Lakin Allah onların döyüşə getməsini istəmədi və onları saxladı. Onlara: "Evdə oturanlarla bərabər, siz də oturun!" – deyildi.

(Tövbə surəsi, 46)

Sizə yüngül gəlsə də, ağır gəlsə də, döyüşə çıxın, malınız və canınızla Allah yolunda cihad edin! Biləsiniz ki, bu sizin üçün daha xeyirlidir.

(Tövbə surəsi, 41)

Düşmənlərə qarşı bacardığınız qədər qüvvə və döyüş atları hazırlayın ki, bununla Allahın düşmənini, öz düşmənlərinizi və onlardan başqa sizin bilmədiyiniz, lakin Allahın bildiyi kimsələri qorxudasınız. Allah yolunda nə xərcləsəniz, əvəzi sizə tam ödənilər və sizə zülm edilməz.

(Ənfal surəsi, 60)

Ey iman gətirənlər! Allah yolunda döyüşə çıxdığınız zaman kiminlə vuruşacağınızı yəqin edin və sizə salam verən şəxsə, dünya həyatının fani mənfəətinə can ataraq: "Sən mömin deyilsən!" – deməyin. Allah yanında çox qənimətlər vardır. Əvvəllər siz də belə idiniz, Allah sizə mərhəmət göstərdi. Odur ki, kiminlə vuruşacağınızı yəqin edin! Şübhəsiz ki, Allah nə etdiklərinizdən xəbərdardır.

(Nisa surəsi, 94)

Bir-birlərini mübarizə üçün dəstəkləyərlər

Ey Peyğəmbər! Möminləri döyüşə ruhlandır. Əgər aranızda iyirmi səbirli kişi olsa, kafirlərdən iki yüzünə qalib gələr; əgər aranızda yüz səbirli kişi olsa, kafirlərdən mininə qalib gələr. Çünki onlar anlamayan adamlardır.

(Ənfal surəsi, 65)

Sən Allah yolunda vuruş! Sən ancaq özünə cavabdehsən. Möminləri də döyüşə təşviq et! Ola bilsin ki, Allah kafirlərin qüvvəsinin qarşısını alsın. Allahın qüvvəsi daha çox, cəzası daha şiddətlidir.

(Nisa surəsi, 84)

Mübarizəni zamanında edərlər

Sizə nə olub ki, malınızdan Allah yolunda xərcləmirsiniz? Halbuki göylərin və yerin mirası Allahındır. Sizlərdən Məkkənin fəthindən əvvəl xərcləyib döyüşənlər başqaları ilə eyni deyillər. Onların dərəcəsi mallarını fəthdən sonra xərcləyib döyüşənlərdən daha üstündür. Amma Allah onların hamısına ən gözəl olanı vəd etmişdir. Allah sizin nə etdiklərinizdən xəbərdardır.

(Hədid surəsi, 10)

Lazım olarsa mübarizədə imanlarını gizlədə bilirlər

Firon ailəsindən olub imanını gizlədən mömin bir kişi dedi: "Siz bir adamı: "Rəbbim Allahdır!" – dediyinə görə öldürəcəksinizmi? Halbuki o, Rəbbinizdən sizə açıq-aydın dəlillər gətirdi. Əgər o, yalan danışırsa, onun yalanı ancaq öz əleyhinədir. Yox, əgər doğru danışırsa, onun vəd etdiyinin bəzisi sizə toxunar. Həqiqətən, Allah həddi aşanı, yalançını doğru yola yönəltməz.

(Mümin surəsi, 28)

İnkar edənlərin öndə gələnləriylə mübarizə edərlər

Beləcə onları oyatdıq ki, nə baş verdiyini bir-birindən soruşub öyrənsinlər. Onlardan biri: "Burada nə qədər qaldınız?" – dedi. Bəziləri: "Bir gün yaxud günün bir hissəsi qədər qaldıq" – dedilər. Digərləri də dedilər: "Qaldığınız müddəti Rəbbiniz daha yaxşı bilir. Birinizi bu gümüş pulunuzla şəhərə göndərin. Qoy baxsın ən təmiz yemək hansıdırsa, ondan sizə azuqə gətirsin. Amma ehtiyatlı olsun və sizin barənizdə heç kəsi duyuq salmasın!

(Kəhf surəsi, 19)

Çünki onlar sizi tapsalar ya sizi daşqalaq edər, ya da öz dinlərinə döndərərlər. Onda siz heç vaxt nicat tapa bilməzsiniz!"

(Kəhf surəsi, 20)

Fitnə aradan qalxana qədər və din tamamilə yalnız Allaha həsr edilənədək onlarla vuruşun! Əgər şirkə son qoysalar, bilsinlər ki, Allah onların etdiklərini görür.

(Ənfal surəsi, 39)

Ey iman gətirənlər! Yaxınlığınızdakı kafirlərlə vuruşun. Qoy onlar sizdə sərtlik görsünlər. Bilin ki, Allah müttəqilərlədir.

(Tövbə surəsi, 123)

Əgər kafir başçılar əhd bağladıqdan sonra andlarını pozub dininizə böhtan atsalar, onlarla vuruşun, çünki onlar anda əhəmiyyət verməzlər. Bəlkə, küfrdən əl çəkələr.

(Tövbə surəsi, 12)

İnkar edənlərə qarşı sərt və qürurludurlar

Ey iman gətirənlər! Sizlərdən hər kim dinindən dönsə, Allah onun əvəzinə Özünün sevdiyi və Onu sevən, möminlərə qarşı mülayim, kafirlərə qarşı isə sərt olan, Allah yolunda cihad edən və tənə edənin tənəsindən qorxmayan bir camaat gətirər. Bu, Allahın lütfüdür, onu istədiyinə verər. Allah hər şeyi Əhatə edəndir, Biləndir.

(Maidə surəsi, 54)

Şübhəsiz ki, Allah yanında canlıların ən pisi kafir olanlardır. Onlar iman gətirməzlər.

(Ənfal surəsi, 55)

Onlar əhd bağladığın kimsələrdir ki, sonra hər dəfə öz əhdlərini pozur və heç nədən çəkinmirlər.

(Ənfal surəsi, 56)

Əgər döyüşdə onları yaxalasan, onları cəzalandırmaqla arxalarında olan kimsələri də dağıt ki, bəlkə ibrət alsınlar.

(Ənfal surəsi, 57)

Ey Peyğəmbər! Kafirlərə və münafiqlərə qarşı vuruş! Onlarla sərt davran! Onların sığınacağı yer Cəhənnəmdir. Ora necə də pis dönüş yeridir!

(Təhrim surəsi, 9)

İnkar edənlərə qarşı tədbirlidirlər

Beləcə onları oyatdıq ki, nə baş verdiyini bir-birindən soruşub öyrənsinlər. Onlardan biri: "Burada nə qədər qaldınız?" – dedi. Bəziləri: "Bir gün yaxud günün bir hissəsi qədər qaldıq" – dedilər. Digərləri də dedilər: "Qaldığınız müddəti Rəbbiniz daha yaxşı bilir. Birinizi bu gümüş pulunuzla şəhərə göndərin. Qoy baxsın ən təmiz yemək hansıdırsa, ondan sizə azuqə gətirsin. Amma ehtiyatlı olsun və sizin barənizdə heç kəsi duyuq salmasın!

(Kəhf surəsi, 19)

Sən səhabələrinin arasında olub onlara namaz qıldırdığın zaman onların bir dəstəsi sənin lə birlikdə namaza dursun, silahlarını da özləri ilə götürsünlər. Bunlar səcdə etdikləri zaman (birinci rükəti tamamlayanadək o biri dəstə) arxanızda olsun. Sonra namazını qılmamış digər dəstə gəlib sənin lə birlikdə namaz qılsın, ehtiyatlarını tutsunlar və silahlarını da özləri ilə götürsünlər. Kafirlər istərdilər ki, siz silahlarınızdan və əşyalarınızdan xəbərsiz olasınız və onlar da sizin üzərinizə bircə dəfə hücum etsinlər (bir həmlədə sizi məğlub etsinlər). Əgər siz yağışdan əziyyət çəksəniz və ya xəstə olsanız silahlarınızı yerə qoymaq sizə günah deyildir, lakin ehtiyatınızı əldən verməyin. Şübhəsiz ki, Allah kafirlər üçün alçaldıcı bir əzab hazırlamışdır.

(Nisa surəsi, 102)

> *O dedi: "Ey oğullarım! Şəhərə bir qapıdan girməyin, ayrı-ayrı qapılardan girin. Allahın iradəsinə qarşı isə heç bir şeylə sizə fayda verə bilmərəm. Hökm yalnız Allahındır. Mən ancaq Ona təvəkkül edirəm. Qoy təvəkkül edənlər də ancaq Ona təvəkkül etsinlər".*
>
> **(Yusif surəsi, 67)**

> *Ey iman gətirənlər! Ehtiyatınızı əldən verməyin, düşmənə qarşı ya bölüklərlə, ya da hamınız birgə çıxın.*
>
> **(Nisa surəsi, 71)**

İnkarçılara tələ qurarlar

> *Onlar dedilər: "Məbudlarımızı sənmi bu kökə saldın, ey İbrahim?"*
>
> **(Ənbiya surəsi, 62)**

> *İbrahim dedi: "Xeyr, bunu onların bu böyüyü etmiş olar. Əgər danışa bilirlərsə, özlərindən soruşun".*
>
> **(Ənbiya surəsi, 63)**

> *Onlar öz-özlərinə müraciətlə: "Həqiqətən də, siz zalımlarsınız" – dedilər.*
>
> **(Ənbiya surəsi, 64)**

Sonra yenə öz bildikləri batil əqidələrinə qayıdıb dedilər: "Axı sən bilirsən ki, bunlar danışmırlar".

(Ənbiya surəsi, 65)

İbrahim dedi: "Elə isə Allahı qoyub sizə heç bir fayda və zərər verə bilməyən bütlərəmi tapınırsınız?

(Ənbiya surəsi, 66)

Tfu sizə də, Allahdan başqa tapındıqlarınıza da! Doğurdandamı, siz dərk etmirsiniz?"

(Ənbiya surəsi, 67)

O zaman sən Uhuddakı döyüşdən ötrü möminləri mövqelərə yerləşdirmək üçün səhər tezdən ailəndən ayrılıb getdin. Allah, Eşidəndir, Biləndir!

(Ali İmran surəsi, 121)

Yusif onları azuqə ilə təmin edərkən qardaşının yükünün içinə bir piyalə qoydu. Sonra bir carçı qışqırıb dedi: "Ey karvan əhli! Siz oğrusunuz!"

(Yusif surəsi, 70)

Qardaşlar onlara tərəf dönüb: "Nə itirmisiniz?" – dedilər.

(Yusif surəsi, 71)

Onlar dedilər: "Padşahın piyaləsini itirmişik. Onu gətirənə bir dəvə yükü ərzaq veriləcək". Carçı: "Mən buna zaminəm!" – dedi.

(Yusif surəsi, 72)

Onlar dedilər: "Allaha and olsun! Siz bilirsiniz ki, biz bu yerlərə fitnə-fəsad törətmək üçün gəlməmişik və biz oğru da deyilik".

(Yusif surəsi, 73)

Onlar dedilər: "Əgər yalançısınızsa, onda onun cəzası nədir?"

(Yusif surəsi, 74)

Qardaşlar dedilər: "Onun cəzası – itmiş piyalə yükündə tapılan kimsənin özünün köləedilərək cəzalandırılmasıdır. Biz zalımları belə cəzalandırırıq".

(Yusif surəsi, 75)

O, qardaşının yükündən əvvəl onların yüklərini axtarmağa başladı, sonra da piyaləni qardaşının yükündən çıxartdı. Biz Yusifə belə bir tədbir öyrətdik. Allahın istəyi olmasaydı, padşahın qanunlarına görə, o, qardaşını tutub öz yanında saxlaya bilməzdi. Biz istədiyimiz kəsi dərəcə-dərəcə yüksəldirik. Hər bilik sahibindən də üstün bir bilən vardır.

(Yusif surəsi, 76)

İnkarçıların möminlərə qurduğu tələlər boşa çıxar

Onlar dedilər: "Bundan ötrü bir bina tikin və onu orada odlayın!"

(Saffat surəsi, 97)

Onlar İbrahimə hiylə qurmaq istədilər, Biz də onları rüsvay etdik.

(Saffat surəsi, 98)

Rəbbinin fil sahiblərinə nələr etdiyini görmədinmi?

(Fil surəsi, 1)

Məgər Rəbbin onların hiyləsini dolaşığa salmadımı?

(Fil surəsi, 2)

Rəbbi onun duasını qəbul etdi və onların hiyləsini ondan uzaq etdi. Həqiqətən, O, Eşidəndir, Biləndir.

(Yusif surəsi, 34)

Musa onlara Bizim dərgahımızdan həqiqəti bəyan etdikdə onlar dedilər: "Onunla birlikdə iman gətirənlərin oğullarını öldürün, qadınlarını isə sağ buraxın!" Amma bilin ki, kafirlərin hiyləsi boşa çıxar.

(Mümin surəsi, 25)

Bu etiraf ona görədir ki, ərim yanımda olmadıqda ona xəyanət etmədiyimi və Allahın xainlərin hiylələrinə yol vermədiyini bilsin.

(Yusif surəsi, 52)

Bir zaman kafirlər səni həbs etmək, öldürmək və ya yurdundan qovmaq üçün sənə qarşı hiylə qururdular. Onlar hiylə işlətdilər, Allah da hiylə işlətdi. Allah hiylə işlədənlərin ən yaxşısıdır.

(Ənfal surəsi, 30)

Şübhəsiz ki, Allah iman gətirənləri mühafizə edir. Həqiqətən, Allah heç bir nankor xaini sevmir.

(Həcc surəsi, 38)

Zalımlar öz hiylələrini qururdular. Halbuki onların hiyləsi Allaha bəlli idi. Onların hiyləsi ilə dağlar yerindən tərpənən deyildir.

(İbrahim surəsi, 46)

Sizə bir uğur nəsib olsa, bu onları kədərləndirər. Sizə bir fəlakət üz verdikdə isə, buna fərəhlənərlər. Əgər səbir etsəniz və Allahdan qorxsanız, onların qurduğu hiylə sizi ziyana sala bilməz. Həqiqətən, Allah onların nə etdiklərini əhatə edir.

(Ali İmran surəsi, 120)

Onlardan öncəkilər də hiylə qurmuşdular. Sonra Allah onların tikililərini özülündən dağıtdı, tavanları başlarına uçdu və əzab onlara gözləmədikləri yerdən gəldi.

(Nəhl surəsi, 26)

İnkarçılara qarşı maneədirlər


Ey Peyğəmbər! Kafirlərə və münafiqlərə qarşı vuruş! Onlarla sərt davran! Onların sığınacağı yer Cəhənnəmdir. Ora necə də pis dönüş yeridir!

(Təhrim surəsi, 9)

> *Şübhəsiz ki, Allah yanında canlıların ən pisi kafir olanlardır. Onlar iman gətirməzlər.*
>
> **(Ənfal surəsi, 55)**

> *Onlar əhd bağladığın kimsələrdir ki, sonra hər dəfə öz əhdlərini pozur və heç nədən çəkinmirlər.*
>
> **(Ənfal surəsi, 56)**

> *Əgər döyüşdə onları yaxalasan, onları cəzalandırmaqla arxalarında olan kimsələri də dağıt ki, bəlkə ibrət alsınlar.*
>
> **(Ənfal surəsi, 57)**



Möminlər Quranı oxuyub ona tabe olurlar

İnkarçılardan üz çevirirlər

> *Onlar bunu bir-birinə vəsiyyətmi etmişlər? Xeyr, onlar həddi aşan adamlardır.*
>
> **(Zəriyət surəsi, 53)**

Artıq onlardan üz döndər! Sən buna görə qınanmazsan.

(Zəriyət surəsi, 54)

İnkarçıların zülmlərinə əngəl olurlar

Allahın Öz Elçisinə onlardan verdiyi qənimətlərə tərəf siz nə at, nə də dəvə sürdünüz. Lakin Allah Öz elçilərini istədiyi kəslər üzərində hakim edir. Allah hər şeyə qadirdir.

(Həşr surəsi, 6)

Onlarla vuruşun ki, Allah sizin əllərinizlə onlara əzab versin, onları rüsvay etsin, sizə onların üzərində qələbə çaldırsın, mömin camaatın qəlbini sevindirsin

(Tövbə surəsi, 14)

və möminlərin qəlbindən qəzəbi silib aparsın. Allah istədiyi kəsin tövbəsini qəbul edər. Allah Biləndir, Müdrikdir.

(Tövbə surəsi, 15)

Əgər ikiüzlülər, qəlbi xəstə olanlar və şəhərdə qarayaxma şayiələr yayanlar öz yaramaz əməllərinə son qoymasalar, səni onlara qarşı çıxmağa çağırarıq. Sonra onlar orada artıq səninlə ancaq qısa bir müddət ərzində qonşuluq edər və

(Əhzab surəsi, 60)

lənətlənmiş halda qalarlar. Harada ələ keçsələr, yaxalanıb amansızcasına öldürülərlər.

(Əhzab surəsi, 61)

Əvvəllər olub-gedənlər barəsində də Allahın hökmü belə idi. Sən Allahın qanunlarında heç bir dəyişiklik tapa bilməzsən.

(Əhzab surəsi, 62)

De: "Doğrudanmı siz bizlərə iki uğurdan (qələbədən və ya şəhidlikdən) birinin yetişməsini gözləyirsiniz? Biz isə ya Allahın Özü tərəfindən və yaxud da bizim əllərimizlə sizi əzaba düçar etməsini gözləyirik. Siz gözləyin; şübhəsiz ki, biz də sizinlə birlikdə gözləyirik".

(Tövbə surəsi, 52)

Münafiqlərlə mübarizə edərlər

> *Ey Peyğəmbər! Kafirlərlə və münafiqlərlə vuruş. Onlarla sərt davran. Onların sığınacaqları yer Cəhənnəmdir. Ora nə pis dönüş yeridir!*
>
> **(Tövbə surəsi, 73)**

> *Ey iman gətirənlər! Yaxınlığınızdakı kafirlərlə vuruşun. Qoy onlar sizdə sərtlik görsünlər. Bilin ki, Allah müttəqilərlədir.*
>
> **(Tövbə surəsi, 123)**

Münafiq xarakterliləri aralarında saxlamazlar

> *Əgər Allah səni onlardan bir zümrənin yanına göndərsə və onlar döyüşə çıxmaq üçün səndən izin istəsələr, de: "Siz bir daha mənimlə döyüşə çıxmayacaq və mənimlə birlikdə heç bir düşmənlə vuruşmayacaqsınız. Çünki siz birinci dəfə evdə oturmağa razı oldunuz. Elə isə arxada qalanlarla bərabər, siz də evdə oturun!"*
>
> **(Tövbə surəsi, 83)**

Siz qənimətləri götürməyə getdiyiniz zaman səfərdən geri qalanlar: "Qoyun biz də sizin arxanızca gələk!" – deyəcəklər. Onlar Allahın sözünü dəyişdirmək istəyirlər. De: "Siz heç vaxt bizim arxamızca gəlməyəcəksiniz. Allah əvvəldən sizin üçün belə demişdir". Onlar: "Xeyr, siz bizə həsəd aparırsınız" – deyəcəklər. Əksinə, onlar çox az anlayanlardır.

(Fəth surəsi, 15)

Yanlarına qayıtdığınız zaman onlardan əl çəkəsiniz deyə qarşınızda Allaha and içəcəklər. Siz onlardan üz döndərin. Çünki onlar murdardırlar. Qazandıqları günahların cəzası olaraq sığınacaqları yer Cəhənnəm olacaqdır.

(Tövbə surəsi, 95)

Münafiqləri cəzalandırırlar

Üzrxahlıq etməyin! İman gətirdikdən sonra artıq kafir oldunuz". Sizlərdən bir qismini bağışlasaq da, digərlərinə günahkar olduqlarına görə əzab verərik.

(Tövbə surəsi, 66)

Musa dedi: "Məqsədin nə idi, ey Samiri?"

(Taha surəsi, 95)

U dedi: "Mən onların görmədiklərini gördüm. Mən o elçinin ləpirindən (Cəbrailin atının ayağı dəydiyi yerdən) bir ovuc torpaq götürdüm və onu bəzək əşyalarının üstünə atdım. Nəfsim məni buna sövq etdi".

(Taha surəsi, 96)

Musa dedi: "Çıx get! Sən həyatın boyu: "Mənə toxunmayın, mən də sizə toxunmayım!" – deməli olacaqsan. Səni həm də qurtula bilməyəcəyin əzab günü gözləyir. Sən sitayiş etdiyin məbuduna bax. Biz onu yandıracaq, sonra da dənizə sovuracağıq.

(Taha surəsi, 97)

İnfaq edərlər

Sizə nə olub ki, malınızdan Allah yolunda xərcləmirsiniz? Halbuki göylərin və yerin mirası Allahındır. Sizlərdən Məkkənin fəthindən əvvəl xərcləyib döyüşənlər başqaları ilə eyni deyillər. Onların dərəcəsi mallarını fəthdən sonra xərcləyib döyüşənlərdən daha üstündür. Amma Allah onların hamısına ən gözəl olanı vəd etmişdir. Allah sizin nə etdiklərinizdən xəbərdardır.

(Hədid surəsi, 10)

Allaha və Onun Elçisinə iman gətirin! Sizin ixtiyarınıza verdiyi maldan xeyirxah işlərə sərf edin! Sizdən iman gətirib mallarından xərcləyənləri böyük bir mükafat gözləyir.

(Hədid surəsi, 7)

Allah onları, etdikləri əməllərin ən gözəli ilə mükafatlandırsın deyə xərclədikləri elə bir kiçik və ya böyük məsrəf, keçdikləri elə bir vadi yoxdur ki, buna görə onlara savab yazılmasın.

(Tövbə surəsi, 121)

O müttəqilər ki, bolluq zamanı da, qıtlıq zamanı da mallarından Allah yolunda xərcləyir, qəzəblərini boğur və insanları bağışlayırlar. Allah yaxşı iş görənləri sevir.

(Ali İmran surəsi, 134)

Mallarını Allah yolunda xərcləyənlərin və xərclədiklərinin ardından minnət qoymayan və əziyyət verməyənlərin, Rəbbi yanında mükafatları vardır. Onlara heç bir qorxu yoxdur və onlar kədərlənməyəcəklər.

(Bəqərə surəsi, 262)

Sevdiyiniz şeylərdən Allah yolunda xərcləməyincə xeyrə nail olmayacaqsınız. Sizin nə xərclədiyinizi, şübhəsiz ki, Allah bilir.

(Ali İmran surəsi, 92)

Sizlərdən birinə ölüm gəlib: "Ey Rəbbim! Mənə bir az möhlət ver ki, sədəqə verib əməlisalehlərdən olum!" – deməmişdən əvvəl sizə verdiyim ruzidən xərcləyin.

(Münafiqun surəsi, 10)

Mallarını Allahın razılığını qazanmaq və nəfslərini möhkəmləndirmək üçün xərcləyənlərin məsəli təpə üzərindəki bağın məsəlinə bənzəyir ki, ona şiddətli yağış düşdükdən sonra o öz bəhrəsini iki qat verər. Hərgah ona şiddətli yağış düşməzsə, narın yağış da bəs edər. Allah sizin nə etdiklərinizi görür.

(Bəqərə surəsi, 265)

Nə qədər bacarırsınızsa Allahdan qorxun. Peyğəmbərə qulaq asıb itaət edin və malınızdan öz xeyriniz üçün xərcləyin. Nəfsinin tamahından qorunanlar nicat tapanlardır.

(Təğabun surəsi, 16)

Gizli ya da açıq infaq edərlər

O kəslər ki, Rəbbinin Üzünü diləyərək səbir edir, namaz qılır, onlara verdiyimiz ruzidən gizli və aşkar xərcləyir və pisliyi yaxşılıqla dəf edirlər. Onlar üçün Axirət yurdu –

(Rad surəsi, 22)

Zəkatı gərəyi kimi verirlər

o kəslər ki, zəkat verirlər,

(Muminun surəsi, 4)

Bizim üçün bu dünyada da yaxşılıq yaz, axirətdə də. Həqiqətən, biz, Sənə üz tutduq!" Allah dedi: "İstədiyimi əzabıma düçar edirəm. Mərhəmətim isə hər şeyi əhatə edir. Mən onu Allahdan qorxan, zəkat verən və ayələrimizə iman gətirənlər üçün yazacağam.

(Əraf surəsi, 156)

Namaz qılın, zəkat verin! Qabaqcadan özünüz üçün nə xeyir hazırlasanız onun əvəzini Allahın yanında tapacaqsanız. Şübhəsiz ki, Allah nə etdiklərinizi görür.

(Bəqərə surəsi, 110)

Lazım olarsa toplu olaraq yer dəyişdirirlər

> *Zülmə uğradıldıqdan sonra Allah yolunda hicrət edənləri dünyada gözəl bir məskəndə sakin edəcəyik. Axirət mükafatı isə daha böyükdür. Kaş biləydilər!*
>
> **(Nəhl surəsi, 41)**

> *Kim Allah üçün hicrət edərsə, yer üzündə çoxlu sığınacaq və bolluq tapar. Kim Allaha və Onun Elçisinə tərəf hicrət edərək evindən çıxdıqdan sonra da ölüm onu haqlayarsa, onun mükafatını Allah verər. Allah Bağışlayandır, Rəhmlidir.*
>
> **(Nisa surəsi, 100)**

> *Mələklər özlərinə zülm edənlərin canlarını alarkən onlara: "Siz nə halda idiniz?" – deyəcəklər. Onlar: "Biz yer üzündə zəif insanlar idik!" – deyəcəklər. Mələklər də onlara: "Məgər Allahın torpağı o qədər geniş deyildimi ki, siz orada hicrət edəydiniz?" – deyəcəklər. Onların sığınacaqları yer Cəhənnəmdir. Ora nə pis dönüş yeridir.*
>
> **(Nisa surəsi, 97)**

Allah yolunda hicrət edənlərə, sonra öldürülənlərə və yaxud ölənlərə Allah hökmən gözəl ruzi verəcəkdir. Həqiqətən, Allah ruzi verənlərin ən yaxşısıdır!

(Həcc surəsi, 58)

Allah onları razı qalacaqları yerə daxil edəcəkdir. Həqiqətən, Allah Biləndir, Həlimdir!

(Həcc surəsi, 59)

Sınağa çəkildikdən sonra hicrət edənləri, daha sonra cihad edib çətinliklərə dözənləri, bunlardan sonra əlbəttə, Rəbbin Bağışlayandır, Rəhmlidir.

(Nəhl surəsi, 110)

Həqiqətən, iman gətirən, hicrət edən və Allah yolunda öz malı və canı ilə cihad edən mühacirlər və sığınacaq verib köməklik göstərən ənsarlar – məhz onlar bir-birinin dostlarıdır. İman gətirən, lakin hicrət etməyənlərə gəldikdə isə, onlar hicrət etməyincə siz onları himayə etməyə borclu deyilsiniz. Əgər onlar din uğrunda sizdən kömək istəsələr, sizinlə aralarında müqavilə olan bir qövm əleyhinə yardım istisna olmaqla, kömək etməyiniz gərəkdir. Allah sizin nə etdiklərinizi görür.

(Ənfal surəsi, 72)

Əmanətə riayət edərlər

Zülmə uğradıldıqdan sonra Allah yolunda hicrət edənləri dünyada gözəl bir məskəndə sakin edəcəyik. Axirət mükafatı isə daha böyükdür. Kaş biləydilər!

(Nəhl surəsi, 41)

Kim Allah üçün hicrət edərsə, yer üzündə çoxlu sığınacaq və bolluq tapar. Kim Allaha və Onun Elçisinə tərəf hicrət edərək evindən çıxdıqdan sonra da ölüm onu haqlayarsa, onun mükafatını Allah verər. Allah Bağışlayandır, Rəhmlidir.

(Nisa surəsi, 100)

Mələklər özlərinə zülm edənlərin canlarını alarkən onlara: "Siz nə halda idiniz?" – deyəcəklər. Onlar: "Biz yer üzündə zəif insanlar idik!" – deyəcəklər. Mələklər də onlara: "Məgər Allahın torpağı o qədər geniş deyildimi ki, siz orada hicrət edəydiniz?" – deyəcəklər. Onların sığınacaqları yer Cəhənnəmdir. Ora nə pis dönüş yeridir.

(Nisa surəsi, 97)

Allah yolunda hicrət edənlərə, sonra öldürülənlərə və yaxud ölənlərə Allah hökmən gözəl ruzi verəcəkdir. Həqiqətən, Allah ruzi verənlərin ən yaxşısıdır!

(Həcc surəsi, 58)

Allah onları razı qalacaqları yerə daxil edəcəkdir. Həqiqətən, Allah Biləndir, Həlimdir!

(Həcc surəsi, 59)

Sınağa çəkildikdən sonra hicrət edənləri, daha sonra cihad edib çətinliklərə dözənləri, bunlardan sonra əlbəttə, Rəbbin Bağışlayandır, Rəhmlidir.

(Nəhl surəsi, 110)

Həqiqətən, iman gətirən, hicrət edən və Allah yolunda öz malı və canı ilə cihad edən mühacirlər və sığınacaq verib köməklik göstərən ənsarlar – məhz onlar bir-birinin dostlarıdır. İman gətirən, lakin hicrət etməyənlərə gəldikdə isə, onlar hicrət etməyincə siz onları himayə etməyə borclu deyilsiniz. Əgər onlar din uğrunda sizdən kömək istəsələr, sizinlə aralarında müqavilə olan bir qövm əleyhinə yardım istisna olmaqla, kömək etməyiniz gərəkdir. Allah sizin nə etdiklərinizi görür.

(Ənfal surəsi, 72)

Etibarlı insanlardır

O dedi: "Ey qövmüm! Mən heç də səfeh deyiləm. Lakin mən aləmlərin Rəbbi tərəfindən göndərilmiş bir elçiyəm.

(Əraf surəsi, 67)

Mən Rəbbimin vəhy etdiyi hökmlərini sizə təbliğ edirəm. Mən sizin etibarlı nəsihətçinizəm.

(Əraf surəsi, 68)

Bir qədər sonra qızlardan biri utana-utana onun yanına gəlib dedi: "Atam bizim yerimizə qoyunları sulamağının haqqını ödəməkdən ötrü səni çağırır". Musa onun yanına gəlib başına gələn əhvalatı ona danışdıqda o dedi: "Qorxma! Sən zalım adamların əlindən xilas olmusan!"

(Qəsas surəsi, 25)

Qızlardan biri dedi: "Atacan! Onu muzdla işə götür, çünki o, muzdla işə götürdüklərinin ən yaxşısı, güclü və etibarlı olanıdır".

(Qəsas surəsi, 26)

Biz onlardan əvvəl Fironun xalqını da sınadıq. Onlara möhtərəm bir elçi gəldi.

(Duxan surəsi, 17)

O dedi: "Allahın qullarını mənə qaytarın. Həqiqətən, mən sizin üçün etibarlı bir elçiyəm.

(Duxan surəsi, 18)

Padşah dedi: "Onu yanıma gətirin! Onu özümə yaxın adam edəcəyəm". Onunla söhbət etdikdə: "Sən bu gün yanımızda yüksək məqam sahibi, etibarlı bir adamsan" – dedi.

(Yusif surəsi, 54)

Şübhəsiz ki, mən sizin üçün etibar etməli olduğunuz bir elçiyəm.

(Şuəra surəsi, 178)

Həqiqətən, bu, möhtərəm Elçimizin sözüdür.

(Təkvir surəsi, 19)

O elçi ki, qüvvətlidir, Ərşin sahibi yanında böyük hörmət sahibidir,

(Təkvir surəsi, 20)

orada itaət ediləndir, etibarlıdır.

(Təkvir surəsi, 21)

Güclü şəxsiyyətləri olur

Kitabda Məryəmi də yada sal. O zaman o, ailəsindən ayrılıb şərq tərəfdə olan bir yerə çəkilmiş

(Məryəm surəsi, 16)

Həqiqətən, İbrahim Allaha müti, hənif bir rəhbər idi. O, müşriklərdən deyildi.

(Nəhl surəsi, 120)

Cəsur və qərarlıdırlar

Allah bizi sizin dininizdən xilas etdikdən sonra biz yenə də ona qayıtsaq, Allaha qarşı yalan uydurmuş olarıq. Rəbbimiz Allah istəməyincə bizim ona dönməyimiz olacaq bir şey deyildir. Rəbbimiz elmi ilə hər şeyi əhatə etmişdir. Biz Allaha təvəkkül etmişik. Ey Rəbbimiz! Bizimlə qövmümüz arasında ədalətlə hökm ver. Axı Sən hökm verənlərin ən yaxşısısan.

(Əraf surəsi, 89)

Onlara Nuhun əhvalatını oxu. Bir zaman o, öz qövmünə demişdi: "Ey qövmüm! Əgər aranızda qalmağım və Allahın ayələrini xatırlatmağım sizə ağır gəlirsə, mən Allaha təvəkkül edirəm. Allaha qoşduğunuz şəriklərlə birləşib sözü bir yerə qoyun, sonra da işinizi aşkarda görün. Bundan sonra mənə qarşı bacardığınızı edin və mənə möhlət verməyin.

(Yunis surəsi, 71)

De: "Doğrudanmı siz bizlərə iki uğurdan (qələbədən və ya şəhidlikdən) birinin yetişməsini gözləyirsiniz? Biz isə ya Allahın Özü tərəfindən və yaxud da bizim əllərimizlə sizi əzaba düçar etməsini gözləyirik. Siz gözləyin; şübhəsiz ki, biz də sizinlə birlikdə gözləyirik".

(Tövbə surəsi, 52)

İman gətirməyənlərə de: "Əlinizdən gələni edin, biz də edəcəyik.

(Hud surəsi, 121)

Sənə bilik gəldikdən sonra kim sənınlə İsanın barəsində mübahisə edərsə, de: "Gəlin oğullarımızı və oğullarınızı, qadınlarımızı və qadınlarınızı, özümüzü və özünüzü çağıraq, sonra isə dua edib yalançılara Allahın lənət etməsini diləyək".

(Ali İmran surəsi, 61)

Məgər onların ayaqlarımı var, onunla yerisinlər? Yoxsa onların əllərimi var, onunla tutsunlar? Yoxsa onların gözlərimi var, onunla görsünlər? Yoxsa onların qulaqlarımı var, onunla eşitsinlər? De: "Çağırın şəriklərinizi! Sonra mənə qarşı hiylə qurun və mənə heç möhlət də verməyin!

(Əraf surəsi, 195)

De: "Hamı gözləyir, siz də gözləyin. Yaxında siz kimin doğru yol sahibi olduğunu və kimin haqq yola yönəldiyini biləcəksiniz!"

(Taha surəsi, 135)

Mən sizin məni daşa basmanızdan həm mənim Rəbbim, həm də sizin Rəbbiniz olan Allaha sığınıram.

(Duxan surəsi, 20)

Əgər mənə inanmırsınızsa, onda məndən uzaq olun!"

(Duxan surəsi, 21)

Pisliyə ən gözəl şəkildə qarşılıq verirlər

Sən onların həyata bütün insanlardan, hətta müşriklərdən də daha həris olduqlarını görəcəksən. Onlardan hər biri min il ömür sürməsini istər. Halbuki uzun ömür belə onu əzabdan uzaqlaşdıra bilməz. Allah onların nə etdiklərini görür.

(Bəqərə surəsi, 96)

Səbir etdiklərinə görə onlara mükafatları ikiqat veriləcəkdir. Onlar pisliyi yaxşılıqla dəf edir və özlərinə verdiyimiz ruzidən Allah yolunda xərcləyirlər.

(Qəsas surəsi, 54)

Yaxşılıqla pislik eyni ola bilməz. Sən pisliyi yaxşılıqla dəf et! O zaman sənlə ədavət aparan kimsə sanki yaxın bir dost olar.

(Fussilət surəsi, 34)

Yaxşılığı əmr edər, pislikdən çəkindirərlər

Bələləri Allaha, Axirət gününə iman gətirir, yaxşı işlər görməyi buyurur, pis əməlləri qadağan edir və xeyirxah işlər görməyə tələsirlər. Məhz onlar əməlisalehlərdəndirlər.

(Ali İmran surəsi, 114)

Mömin kişilərlə mömin qadınlar bir-birinin dostlarıdır. Onlar insanlara yaxşı işlər görməyi buyurur, pis əməllərə qadağa qoyur, namaz qılır, zəkat verir, Allaha və Onun Elçisinə itaət edirlər. Allah onlara rəhm edəcəkdir. Həqiqətən, Allah Qüdrətlidir, Müdrikdir.

(Tövbə surəsi, 71)

Qoy sizin içərinizdən xeyrə çağıran, yaxşı işlər görməyi buyuran və pis əməlləri qadağan edən bir camaat çıxsın. Məhz onlar nicata qovuşanlardır.

(Ali İmran surəsi, 104)

Siz insanlar arasında üzə çıxarılmış ən xeyirli ümmətsiniz. Siz yaxşı işlər görməyi əmr edir, pis əməlləri qadağan edir və Allaha iman gətirirsiniz. Kitab əhli də iman gətirsəydi, əlbəttə, onlar üçün yaxşı olardı. Onların arasında iman gətirənlər də vardır. Əksəriyyəti isə haqq yolunu azmış fasiqlərdir.

(Ali İmran surəsi, 110)

Əgər onlara yer üzündə hökmranlıq versək, onlar namaz qılar, zəkat verər, yaxşı işlər görməyi əmr edib, pis işlər görməyi qadağan edərlər. Bütün işlərin aqibəti Allaha aiddir.

(Həcc surəsi, 41)

> *Oğlum! Namaz qıl, yaxşı işlər görməyi əmr et, pis işləri qadağan elə. Başına gələn çətinliklərə səbir et. Həqiqətən, bu, əzm tələb edən əməllərdəndir.*
>
> **(Loğman surəsi, 17)**

> *Tövbə edən, ibadət edən, həmd edən, oruc tutan, rüku və səcdə edən, yaxşı işlər görməyi buyurub pis əməlləri qadağan edən və Allahın qoyduğu hüdudlarını qoruyan o möminləri müjdələ.*
>
> **(Tövbə surəsi, 112)**

Daima yaxşı və gözəl davranışlarda olurlar

> *O kəslər ki, sözə qulaq asıb onun ən yaxşısına tabe olurlar, onlar Allahın doğru yola yönəltdiyi şəxslərdir. Ağıl sahibləri də məhz onlardır.*
>
> **(Zumər surəsi, 18)**

> *Şübhəsiz ki, müttəqilər Cənnət bağlarında və bulaqlar başında olacaqlar,*
>
> **(Zəriyət surəsi, 15)**

oz Rəbbinin onlara verdiyini alacaqlar. Həqiqətən, onlar bundan əvvəl yaxşı iş görən adamlar olmuşdular.

(Zəriyət surəsi, 16)

Həm kişilərdən, həm də qadınlardan mömin olaraq yaxşı işlər görənlər Cənnətə girərlər və onlara xurma çərdəyinin qırıntısı qədər haqsızlıq edilməz.

(Nisa surəsi, 124)

Bundan sonra tövbə edib öz əməllərini islah edənlər isə istisnadır. Şübhəsiz ki, Allah Bağışlayandır, Rəhmlidir.

(Ali İmran surəsi, 89)

Həqiqətən, iman gətirib saleh əməllər edən, namaz qılan və zəkat verənləri Rəbbinin yanında mükafatlar gözləyir. Onlara heç bir qorxu yoxdur və onlar kədərlənməyəcəklər.

(Bəqərə surəsi, 277)

Biz göyləri, yeri və onların arasında olanları yalnız haqq olaraq yaratdıq. O Saat mütləq gələcəkdir. Odur ki, Sən onları gözəl tərzdə bağışla.

(Hicr surəsi, 85)

İnsanları Allaha tərəf çağıran, yaxşı iş görən və: "Həqiqətən, mən müsəlmanlardanam!" – deyən kəsdən daha gözəl söz deyən kim ola bilər?

(Fussilət surəsi, 33)

Sizi bizə yaxınlaşdıra biləcək nə var-dövlətiniz, nə də oğul-uşağınızdır. Ancaq iman gətirib yaxşı işlər görənlər istisnadır. Məhz onların mükafatları etdikləri əməllərə görə qat-qat artırılacaq və onlar Cənnətdəki mənzillərində asudə yaşayacaqlar.

(Səba surəsi, 37)

Ey iman gətirənlər! Allahın nişanələrinə, haram aylara, qurbanlıq heyvana, boynuna nişan taxılmış qurbanlıq heyvanlara, Rəbbinin lütfünü və razılığını diləyərək Beytulharama gələnlərə qarşı hörmətsizlik etməyi halal saymayın. İhramdan çıxdığınız zaman ov edə bilərsiniz. Sizi Məscidulharama daxil olmağa qoymayan camaata qarşı olan kin-küdurət sizi təcavüz etməyə sövq etməsin. Yaxşılıq etməkdə və Allahdan qorxmaqda bir-birinizə yardım edin. Günah işlər görməkdə və düşmənçilikdə bir-birinizə köməkçi olmayın. Allahdan qorxun. Həqiqətən, Allah şiddətli cəza verəndir.

(Maidə surəsi, 2)

> *Xoş söz demək və xətaları bağışlamaq, minnətlə verilən sədəqədən daha yaxşıdır. Allah Zəngindir, Həlimdir.*
>
> **(Bəqərə surəsi, 263)**

> *İman gətirib yaxşı əməl edənlər isə Cənnət sakinləridir. Onlar orada əbədi qalacaqlar. Biz hər kəsi yalnız onun qüvvəsi çatdığı qədər yükləyirik.*
>
> **(Əraf surəsi, 42)**

> *Kim qüdrət sahibi olmaq istəsə, bilsin ki, qüdrət bütünlüklə ancaq Allaha məxsusdur. Gözəl söz Ona tərəf yüksəlir və onu ucaldan yaxşı əməldir. Pis əməllər işlədib hiyləgərlik edənləri şiddətli bir əzab gözləyir. Onların qurduqları hiylələr də boşa çıxacaqdır.*
>
> **(Fatir surəsi, 10)**

> *Həqiqətən də, sən böyük əxlaq sahibisən!*
>
> **(Qələm surəsi, 4)**

Xeyirlərdə yarışırlar

Ey insanlar! Biz sizi kişi və qadından yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Şübhəsiz ki, Allah yanında ən hörmətli olanınız Ondan ən çox qorxanınızdır. Həqiqətən, Allah Biləndir, Xəbərdardır.

(Hucurat surəsi, 13)

Biz onun duasını qəbul etdik, ona Yəhyanı bəxş etdik və zövcəsini ona uşaq doğmağa qadir etdik. Həqiqətən, onlar yaxşı işlər görməyə tələsər, ümid və qorxu ilə Bizə yalvarardılar. Onlar Bizə müti qullar idilər.

(Ənbiya surəsi, 90)

Məhz onlar yaxşı işlər görməyə tələsər və bu işlərdə öndə gedərlər.

(Muminun surəsi, 61)

Sonra, Kitabı qullarımız içərisindən seçdiklərimizə miras etdik. Onlardan kimisi özünə zülm edər, kimisi orta yol tutar, kimisi də Allahın izni ilə yaxşı işlərdə öndə gedər. Böyük lütf də budur.

(Fatir surəsi, 32)

Bələləri Allaha, Axirət gününə iman gətirir, yaxşı işlər görməyi buyurur, pis əməlləri qadağan edir və xeyirxah işlər görməyə tələsirlər. Məhz onlar əməlisalehlərdəndirlər.

(Ali İmran surəsi, 114)

Xoşniyyətli və bağışlayıcıdırlar

Pisliyin cəzası özü kimi pislikdir. Amma kim bağışlasa və barışsa, onun mükafatı Allaha aid olar. Həqiqətən, O, zalımları sevmir.

(Şura surəsi, 40)

Haqsızlığa uğradıqdan sonra qisas alanlara heç bir məzəmmət olunmaz.

(Şura surəsi, 41)

Məzəmmət olunmağa ancaq insanlara zülm edənlər və yer üzündə haqsız yerə azğınlıq edənlər layiqdirlər. Məhz onlar üçün ağrılı-acılı əzab vardır.

(Şura surəsi, 42)

Hər kim səbir edib bağışlasa, şübhəsiz ki, bu məqsədə uyğun işlərdəndir.

(Şura surəsi, 43)

Biz göyləri, yeri və onların arasında olanları yalnız haqq olaraq yaratdıq. O Saat mütləq gələcəkdir. Odur ki, Sən onları gözəl tərzdə bağışla.

(Hicr surəsi, 85)

Sən bağışlama yolunu tut, yaxşı iş görməyi əmr et və cahillərdən üz döndər.

(Əraf surəsi, 199)

Xoş söz demək və xətaları bağışlamaq, minnətlə verilən sədəqədən daha yaxşıdır. Allah Zəngindir, Həlimdir.

(Bəqərə surəsi, 263)

Əgər bir xeyri aşkara çıxarsanız, yaxud onu gizlətsəniz və ya bir pisliyi bağışlasanız, bilin ki, Allah əfv edəndir, hər şeyə Qadirdir.

(Nisa surəsi, 149)

Ədalətlidirlər

Ey iman gətirənlər! Şahidliyiniz özünüzün və ya valideynlərin, ya da yaxın qohumların əleyhinə olsa belə, Allah şahidləri olub ədaləti qoruyun. Əleyhinə şahidlik edəcəyiniz şəxslərin varlı və ya kasıb olmasından asılı olmayaraq Allah onların hər ikisinə daha yaxındır. Arzularınıza uyaraq haqdan uzaqlaşmayın! Əgər siz yalan danışsanız və ya həqiqəti deməkdən boyun qaçırsanız, bilin ki, Allah nə etdiklərinizdən xəbərdardır.

(Nisa surəsi, 135)

Allah din uğrunda sizinlə vuruşmayan və sizi öz diyarınızdan qovub çıxartmayan kimsələrə yaxşılıq etmənizi və onlarla insafla davranmanızı sizə qadağan etmir. Şübhəsiz ki, Allah insaflı olanları sevir.

(Mumtəhənə surəsi, 8)

Əgər möminlərdən iki dəstə bir-biri ilə vuruşsa, onları barışdırın. Əgər onlardan biri digərinə qarşı təcavüz etsə, təcavüzkar dəstə ilə, o, Allahın əmrini yerinə yetirməyə qayıdanadək, vuruşun. Əgər o qayıtsa, hər iki dəstəni ədalətlə barışdırın və insaflı olun. Sözsüz ki, Allah insaflıları sevir.

(Hucurat surəsi, 9)

Siz namaza çağırdığınız zaman onlar onu məsxərəyə qoyub oyun-oyuncaq sayarlar. Bu ona görədir ki, onlar düşüncəsiz bir camaatdır.

(Maidə surəsi, 58)

Ey iman gətirənlər! Allah xatirinə ədaləti qoruyan şahidlər olun. Hər hansı bir camaata qarşı olan kin-küdurət sizi ədalətsizliyə sövq etməsin. Ədalətli olun! Bu, təqvaya daha yaxındır. Allahdan qorxun! Şübhəsiz ki, Allah nə etdiklərinizdən xəbərdardır.

(Maidə surəsi, 8)

Həqiqətən, Allah sizə əmanətləri sahiblərinə qaytarmanızı və insanlar arasında hökm verərkən ədalətlə hökm vermənizi əmr edir. Allahın sizə verdiyi bu öyüd-nəsihət necə də gözəldir! Şübhəsiz ki, Allah Eşidəndir, Görəndir.

(Nisa surəsi, 58)

Ey iman gətirənlər! Allahın nişanələrinə, haram aylara, qurbanlıq heyvana, boynuna nişan taxılmış qurbanlıq heyvanlara, Rəbbinin lütfünü və razılığını diləyərək Beytulharama gələnlərə qarşı hörmətsizlik etməyi halal saymayın. İhramdan çıxdığınız zaman ov edə bilərsiniz. Sizi Məscidulharama daxil olmağa qoymayan camaata qarşı olan kin-küdurət sizi təcavüz etməyə sövq etməsin. Yaxşılıq etməkdə və Allahdan qorxmaqda bir-birinizə yardım edin. Günah işlər görməkdə və düşmənçilikdə bir-birinizə köməkçi olmayın. Allahdan qorxun. Həqiqətən, Allah şiddətli cəza verəndir.

(Maidə surəsi, 2)

Təvazökardırlar

Mərhəmətli Allahın qulları o kəslərdir ki, onlar yer üzündə təvazökarlıqla gəzər, cahillər onlara xoşagəlməz bir söz dedikdə: "Salam!" – deyərlər.

(Furqan surəsi, 63)

Biz hər bir ümmət üçün qurbangah müəyyən etdik ki, Allahın onlara ruzi olaraq verdiyi heyvanları qurban kəsərkən Allahın adını çəksinlər. Sizin məbudunuz Tək olan İlahdır. Yalnız Ona itaət edin. Sən müti olanlara müjdə ver;

(Həcc surəsi, 34)

İnsanlardan təkəbbürlə üz çevirmə, yer üzündə özünü darta-darta gəzib dolanma. Həqiqətən, Allah heç bir özündən razını, özünü öyəni sevmir.

(Loğman surəsi, 18)

Mərhəmətli və mülayim xasiyyətlidirlər

Allahın mərhəməti sayəsində sən onlarla mülayim rəftar etdin. Əgər sən kobud və daş qəlbli olsaydın, onlar hökmən sənin ətrafından dağılışardılar. Sən onların günahından keç, Allahdan onların bağışlanmalarını dilə və görəcəyin işlər barədə onlarla məsləhətləş. Qəti qərara gəldikdə isə Allaha təvəkkül et! Həqiqətən, Allah təvəkkül edənləri sevir.

(Ali İmran surəsi, 159)

Həqiqətən, İbrahim həlim, Allaha çox yalvaran və Ona üz tutan bir şəxs idi.

(Hud surəsi, 75)

Sizə özünüzdən elə bir Elçi gəldi ki, sizin əziyyətə düşməyiniz ona ağır gəlir. O sizə qarşı qayğıkeş, möminlərə şəfqətli, rəhmlidir.

(Tövbə surəsi, 128)

Üstəlik Öz tərəfimizdən bir şəfqət və paklıq da bəxş etdik. O, müttəqi idi.

(Məryəm surəsi, 13)

Müsəlman olması üçün kimsəni məcbur etməz, məcburiyyət tətbiq etməzlər

İnsanları Rəbbinin yoluna hikmətlə, gözəl öyüd-nəsihətlə dəvət et və onlarla ən gözəl tərzdə mübahisə et. Şübhəsiz ki, Rəbbin azğınlığa düşənləri də, doğru yolda olanları da yaxşı tanıyır.

(Nəhl surəsi, 125)

Əgər üz çevirsələr, bil ki, sənin vəzifən ancaq aşkar təbliğat aparmaqdır.

(Nəhl surəsi, 82)

Əgər Rəbbin istəsəydi, yer üzündə olanların hamısı iman gətirərdi. İnsanları mömin olmağa sənmi məcbur edəcəksən?

(Yunis surəsi, 99)

Allah Musanı onların qurduğu hiylələrin şərindən qorudu. Firon nəslini isə dəhşətli əzab bürüdü.

(Mümin surəsi, 45)

Onlar lağlağı eşitdikləri zaman ondan üz çevirib: "Bizim əməllərimiz bizə, sizin əməlləriniz də sizə aiddir. Sizə salam olsun! Biz cahillərə qoşulmaq istəmirik!" – deyirlər.

(Qəsas surəsi, 55)

De: "Ey insanlar! Rəbbinizdən sizə haqq gəlmişdir. Kim doğru yolla getsə, xeyri onun özünə dəyər, kim azğınlığa düşsə, ziyanı da onun öz əleyhinə olar. Mən sizi qoruyan deyiləm".

(Yunis surəsi, 108)

Əgər müşriklərdən biri səndən aman diləsə, ona aman ver ki, Allahın sözünü eşitsin. Sonra onu özünün xatircəm olduğu yerə çatdır. Çünki onlar haqqı bilməyən bir qövmdür.

(Tövbə surəsi, 6)

Dində məcburiyyət yoxdur. Artıq doğru yol azğınlıqdan aydın fərqlənir. Hər kəs tağutu inkar edib Allaha iman gətirərsə, heç vaxt qırılmayan ən möhkəm dəstəkdən yapışmış olar. Allah Eşidəndir, Biləndir.

(Bəqərə surəsi, 256)

Onlara nəsihət ver! Sən yalnız nəsihətçisən.

(Ğaşiyə surəsi, 21)

> *Sən onların üstündə hökmdar deyilsən.*
>
> **(Ğaşiyə surəsi, 22)**


Qəzəblərinə qapılmazlar

> *O kəslər üçün ki, böyük günahlardan və çirkin əməllərdən çəkinir, qəzəbləndikləri zaman xətanı bağışlayırlar,*
>
> **(Şura surəsi, 37)**

> *O müttəqilər ki, bolluq zamanı da, qıtlıq zamanı da mallarından Allah yolunda xərcləyir, qəzəblərini boğur və insanları bağışlayırlar. Allah yaxşı iş görənləri sevir.*
>
> **(Ali İmran surəsi, 134)**

Haqqı söyləməkdən çəkinməzlər

> *Ey iman gətirənlər! Sizlərdən hər kim dinindən dönsə, Allah onun əvəzinə Özünün sevdiyi və Onu sevən, möminlərə qarşı mülayim, kafirlərə qarşı isə sərt olan, Allah yolunda cihad edən və tənə edənin tənəsindən qorxmayan bir camaat gətirər. Bu, Allahın lütfüdür, onu istədiyinə verər. Allah hər şeyi Əhatə edəndir, Biləndir.*
>
> **(Maidə surəsi, 54)**



Gecələri Rəbbinə səcdə edib dururlar

Bu, insanları qorxutmaq və möminlərə öyüd-nəsihət vermək üçün sənə nazil edilən Kitabdır. Ona görə qəlbin heç narahat olmasın.

(Əraf surəsi, 2)

Ey Elçi! Rəbbindən sənə nazil ediləni təbliğ et! Əgər belə etməsən, Onun göstərişini (sənə tapşırdığı elçilik vəzifəsini) yerinə yetirmiş olmazsan. Allah səni insanlardan qoruyar. Şübhəsiz ki, Allah kafir tayfanı doğru yola yönəltməz.

(Maidə surəsi, 67)

Təbliğ qarşılığında mənfəət gözləməzlər

Allahdan qorxun və mənə itaət edin!

(Şuəra surəsi, 179)

Mən bunun əvəzinə sizdən heç bir mükafat istəmirəm. Mənim mükafatım ancaq aləmlərin Rəbbinə aiddir.

(Şuəra surəsi, 180)

> *Əgər üz çevirsəniz, bilin ki, mən sizdən heç bir mükafat istəmirəm. Mənim mükafatım ancaq Allahdadır. Mənə müsəlmanlardan olmaq əmr edilmişdir".*
>
> **(Yunis surəsi, 72)**

> *Bunlar Allahın doğru yola yönəltdiyi kəslərdir. Sən də onların haqq yoluna yönəl. De: "Mən bunun əvəzinə sizdən heç bir mükafat istəmirəm. Bu Kitab aləmlər üçün yalnız bir xatırlatmadır".*
>
> **(Ənam surəsi, 90)**

Bir-birlərinə danışaraq hərəkət edərlər

> *O kəslər üçün ki, Rəbbinin dəvətini qəbul edir, namaz qılır, işləri barədə öz aralarında məsləhətləşir, onlara verdiyimiz ruzidən Allah yolunda xərcləyirlər.*
>
> **(Şura surəsi, 38)**

Bilənlərə danışırlar

Ey iman gətirənlər! Allaha və Elçisinə itaət edin, həm də özünüzdən olan rəhbərlərə şəriətə uyğun şəkildə itaət edin. Əgər bir şey haqqında mübahisə etsəniz, Allaha və Axirət gününə inanırsınızsa, Allaha və Onun Elçisinə müraciət edin. Bu, sizin üçün daha xeyirli və nəticə etibarilə daha yaxşıdır.

(Nisa surəsi, 59)

Onlara əmin-amanlıq və ya qorxu xəbəri gəldikdə, onu yayarlar. Halbuki bunu Peyğəmbərə və özlərindən olan nüfuz sahiblərinə çatdırsaydılar, içərilərindən onun mahiyyətinə varan kəslər o xəbəri bilərdilər. Əgər sizə Allahın lütfü və rəhmi olmasaydı, əlbəttə, az bir qisminiz istisna olmaqla, hamınız şeytana uyardınız.

(Nisa surəsi, 83)

Nəfslərinə görə hərəkət etməzlər

Mən özümə bəraət qazandırmıram. Çünki, Rəbbimin rəhm etdiyi kəs istisna olmaqla, nəfs adama pis işləri əmr edər. Həqiqətən, Rəbbim Bağışlayandır, Rəhmlidir".

(Yusif surəsi, 53)

Nəfsinin istəyini ilahiləşdirən kimsəni gördünmü? Sən ona vəkillikmi edəcəksən?

(Furqan surəsi, 43)

Təmkinlidirlər

Var-dövlət və övladlar dünya həyatının bərbəzəyidir. Əbədi qalan yaxşı əməllər isə Rəbbinin yanında savab və ümid baxımından daha əfzəldir.

(Kəhf surəsi, 46)

İnsanlardan təkəbbürlə üz çevirmə, yer üzündə özünü darta-darta gəzib dolanma. Həqiqətən, Allah heç bir özündən razını, özünü öyəni sevmir.

(Loğman surəsi, 18)

Yerişində həddi gözlə, danışanda səsini alçalt. Çünki ən çirkin səs uzunqulaq səsidir".

(Loğman surəsi, 19)

Səbirlidirlər

Onlar səbir etdiklərinə görə Cənnətdə olan yüksək məqamla mükafatlandırılacaq, orada xeyir-dua ilə, salamla qarşılanacaqlar.

(Furqan surəsi, 75)

Onlar səbirli olanlar və ancaq Rəbbinə təvəkkül edənlərdir.

(Nəhl surəsi, 42)

Ey iman gətirənlər! Səbir edin, dözümlü olun, sərhəd boyu növbə ilə keşik çəkin və Allahdan qorxun ki, bəlkə nicat tapasınız!

(Ali İmran surəsi, 200)

Səbir et! Həqiqətən, Allah yaxşı iş görənlərin mükafatını puç etməz.

(Hud surəsi, 115)

Sən səbirli ol! Həqiqətən də, Allahın vədi haqdır. Qoy axirətə yəqinliklə inanmayanlar səni qeyri-ciddi olmağa (dindən dönməyə) sövq etməsinlər.

(Rum surəsi, 60)

Rəbbin üçün səbir et!

(Müddəssir surəsi, 7)

Biz sizi bir az qorxu, bir az aclıq, bir az da mal-dövlət, insan və məhsul itkisi ilə sınayarıq. Səbir edənlərə müjdə ver.

(Bəqərə surəsi, 155)

Onlar Calutun və onun qoşununun qarşısına çıxdıqda dedilər: "Ey Rəbbimiz! Bizə səbir ver, qədəmlərimizi möhkəmlət və kafir qövmə qələbə çalmaqda bizə yardım et!"

(Bəqərə surəsi, 250)

Sizdə olan nemətlər tükənəcək, Allah yanında olan nemətlər isə daim qalacaqdır. Səbirli olanlara etdikləri yaxşı əməllərə görə mükafatlarını verəcəyik.

(Nəhl surəsi, 96)

Duyğularıyla deyil ağıl ilə hərəkət edərlər

Küfrə can atanlar səni kədərləndirməsin. Çünki onlar Allaha heç bir zərər yetirə bilməzlər. Allah istəyir ki, onlara axirətdə heç bir şey nəsib etməsin. Onlar üçün böyük bir əzab vardır.

(Ali İmran surəsi, 176)

Onlara görə kədərlənmə və qurduqları hiylələrdən ötrü də ürəyini sıxma.

(Nəml surəsi, 70)

Biz insana valideynləri ilə gözəl davranmağı buyurduq. Əgər onlar bilmədiyin bir şeyi Mənə şərik qoşmağın üçün səni məcbur etsələr, onlara güzəştə getmə. Dönüşünüz Mənə olacaq, Mən də bütün etdiklərinizbarədə sizə xəbər verəcəyəm.

(Ənkəbut surəsi, 8)

Əgər onların haqdan üz döndərməsi sənə ağır gəlirsə, onda bacarırsansa yerin içinə enə biləcəyin bir lağım və göyə çıxa biləcəyin bir nərdivan tap ki, onlara bir möcüzə gətirəsən. Əgər Allah istəsəydi onları toplayıb doğru yola yönəldərdi. Elə isə cahillərdən olma!

(Ənam surəsi, 35)

> *İbrahimin öz atası üçün bağışlanma diləməsi isə sadəcə ona verdiyi vədə görə idi. Atasının Allaha düşmən olduğu ona bəlli olduqdan sonra isə ondan uzaqlaşdı. Həqiqətən, İbrahim Allaha çox yalvaran həlim bir kimsə idi.*
>
> **(Tövbə surəsi, 114)**

Səhvlərində müqavimət göstərməzlər

> *Yalnız tövbə edənlər, əməllərini islah edənlər və haqqı bəyan edənlər istisnadır. Mən onların tövbəsini qəbul edərəm. Mən tövbələri qəbul edənəm, Rəhmliyəm!*
>
> **(Bəqərə surəsi, 160)**

> *And olsun nəfsə və onu yaradıb kamilləşdirənə,*
>
> **(Şəms surəsi, 7)**

> *ona günahları və Allahdan qorxmağı təlqin edənə!*
>
> **(Şəms surəsi, 8)**

> *Nəfsini günahdan təmizləyən uğur qazanmışdır.*
>
> **(Şəms surəsi, 9)**

Onu günaha batıran isə ziyana uğramışdır.

(Şəms surəsi, 10)

Heç vaxt orada namaz qılma. İlk gündən təqva üzərində qurulmuş məscid, əlbəttə, içində namaz qılmağın üçün daha layiqdir. Orada təmizlənməyi sevən kişilər vardır. Allah da təmizlənənləri sevir.

(Tövbə surəsi, 108)

Mühacirlərdən əvvəl Mədinədə yurd salmış, sonra da iman gətirmiş kimsələr öz yanlarına hicrət edənləri sevir, onlara verdiklərinə görə qəlblərində peşmançılıq hissi duymurlar. Hətta özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tuturlar. Nəfsinin tamahından qorunan kimsələr nicat tapanlardır.

(Həşr surəsi, 9)

Hər kim haqsızlıq etdikdən sonra tövbə edib əməllərini islah etsə, şübhəsiz ki, Allah onun tövbəsini qəbul edər. Həqiqətən, Allah Bağışlayandır, Rəhmlidir.

(Maidə surəsi, 39)

Heç bir günahkar başqasının günah yükünü daşımaz. Yükü ağır olan kimsə öz yükünü daşımaq üçün başqasını köməyə çağırsa və çağırdığı kimsə yaxın qohumu olsa belə, o yükdən heç nə daşınmaz. Sən ancaq Rəbbindən Onu görmədikləri halda qorxanları və namaz qılanları xəbərdar edirsən. Kim günahlardan təmizlənirsə, öz xeyrinə təmizlənmiş olur. Qayıdış də ancaq Allahadır.

(Fatir surəsi, 18)

Həqiqətən, İbrahim onun ardıcıllarından idi.

(Saffat surəsi, 83)

Bir zaman o, öz Rəbbinin yanına pak bir qəlblə gəldi.

(Saffat surəsi, 84)

O kəslər ki, bir pis iş gördükdə, yaxud özlərinə zülm etdikdə Allahı xatırlayıb günahlarının bağışlanmasını diləyərlər, – günahları Allahdan başqa kim bağışlaya bilər? – onlar bilə-bilə etdiklərinə görə israr etməzlər.

(Ali İmran surəsi, 135)

Günahlardan təmizlənən kimsə isə uğur qazanmışdır.

(Əla surəsi, 14)

Təkəbbürlü deyildirlər

Yer üzündə təkəbbürlə gəzmə. Çünki sən nə yeri yara bilər, nə də yüksələrək dağlara çata bilərsən.

(İsra surəsi, 37)

Allah bunu əlinizdən çıxana kədərlənməyəsiniz və Onun sizə verdiyinə həddindən artıq sevinməyəsiniz deyə belə izah edir. Allah heç bir özündən razını, özünü öyəni sevmir.

(Hədid surəsi, 23)

Biz o Axirət yurdunu yer üzündə təkəbbürlük etmək və fitnə-fəsad törətmək istəməyənlərə nəsib edirik. Gözəl aqibət müttəqilərindir.

(Qəsas surəsi, 83)

Ayələrimizə ancaq o kəslər iman gətirirlər ki, ayələrimiz onlara xatırlanarkən təkəbbür göstərmədən səcdəyə qapanır, Rəbbinə həmd-səna ilə tərifl ər deyirlər.

(Səcdə surəsi, 15)

Allaha ibadət edin və heç bir şeyi Ona şərik qoşmayın! Valideynlərə, qohum-əqrəbaya, yetimlərə, kasıblara, yaxın və uzaq qonum-qonşuya, yol yoldaşına, müsafirə və sahib olduğunuz kölə və kənizlərə yaxşılıq edin! Həqiqətən, Allah lovğalıq edənləri və özünü öyənləri sevmir.

(Nisa surəsi, 36)

Mərhəmətli Allahın qulları o kəslərdir ki, onlar yer üzündə təvazökarlıqla gəzər, cahillər onlara xoşagəlməz bir söz dedikdə: "Salam!" – deyərlər.

(Furqan surəsi, 63)

Biz hər bir ümmət üçün qurbangah müəyyən etdik ki, Allahın onlara ruzi olaraq verdiyi heyvanları qurban kəsərkən Allahın adını çəksinlər. Sizin məbudunuz Tək olan İlahdır. Yalnız Ona itaət edin. Sən müti olanlara müjdə ver;

(Həcc surəsi, 34)

İnsanlardan təkəbbürlə üz çevirmə, yer üzündə özünü darta-darta gəzib dolanma. Həqiqətən, Allah heç bir özündən razını, özünü öyəni sevmir.

(Loğman surəsi, 18)

Lağ etməzlər

Ey iman gətirənlər! Bir camaat digərini məsxərəyə qoymasın. Ola bilər ki, bunlar onlardan daha yaxşı olsunlar. Qadınlar da qadınları lağa qoymasınlar. Ola bilər ki, bunlar onlardan daha yaxşı olsunlar. Bir-birinizə tənə vurmayın və bir-birinizi pis ləqəblərlə çağırmayın. İman gətirdikdən sonra fasiq adlanmaq necə də pisdir. Məhz tövbə etməyənlər zalımlardır.

(Hucurat surəsi, 11)

Çoxluğa deyil haqqa uyarlar

Əgər sən yer üzündə olanların əksəriyyətinə itaət etsən, onlar səni Allah yolundan azdırarlar. Onlar ancaq zənnə qapılır və ancaq yalan uydururlar.

(Ənam surəsi, 116)

Allahın dəstəyi daima yanlarındadır

Həqiqətən, mənim himayədarım Kitabı nazil edən Allahdır. O, əməlisalehlərə himayəçilik edir.

(Əraf surəsi, 196)

Allah əzəldən belə yazmışdır: "Mən və elçilərim hökmən qalib gələcəyik!" Həqiqətən, Allah Qüvvətlidir, Qüdrətlidir.

(Mücadilə surəsi, 21)

"Həqiqətən, onlara kömək göstəriləcəkdir.

(Saffat surəsi, 172)

Bizim əsgərlərimizin mütləq qələbəsi labüddür".

(Saffat surəsi, 173)

Əgər siz Peyğəmbərə kömək etməsəniz, bilin ki, Allah ona artıq kömək göstərmişdir. O vaxt kafirlər onu iki nəfərdən ikincisi olaraq Məkkədən çıxartdılar. O iki nəfər mağarada olarkən onlardan biri öz yoldaşına (Əbu Bəkrə) dedi: "Qəm yemə, Allah bizimlədir!" Bundan sonra Allah ona arxayınlıq nazil etdi, sizin görmədiyiniz döyüşçülərlə ona yardım göstərdi və kafirlərin sözünü alçaltdı. Ancaq Allahın Sözü ucadır. Allah Qüdrətlidir, Müdrikdir.

(Tövbə surəsi, 40)

Onlara kömək göstərdik və qalib gəldilər.

(Saffat surəsi, 116)

> *Acizlik göstərməyin və kədərlənməyin. Möminsinizsə, üstün olacaqsınız.*
>
> **(Ali İmran surəsi, 139)**

> *Əgər onlar səni aldatmaq istəsələr, bil ki, sənə Allah yetər. O, səni həm Öz köməyi ilə, həm də möminlərlə qüvvətləndirdi.*
>
> **(Ənfal surəsi, 62)**

Etməyəcəkləri şeyleri söyləməzlər

> *Ey iman gətirənlər! Nə üçün siz etməyəcəyiniz şeyləri danışırsınız?*
>
> **(Saff surəsi, 2)**

> *Etməyəcəyiniz şeylərdən danışmağınız Allah tərəfindən böyük nifrətlə qarşılanır.*
>
> **(Saff surəsi, 3)**

Digər möminlərin məmnuniyyətlərini öz nəfslərindən öndə tutarlar

> *Mühacirlərdən əvvəl Mədinədə yurd salmış, sonra da iman gətirmiş kimsələr öz yanlarına hicrət edənləri sevir, onlara verdiklərinə görə qəlblərində peşmançılıq hissi duymurlar. Hətta özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tuturlar. Nəfsinin tamahından qorunan kimsələr nicat tapanlardır.*
>
> **(Həşr surəsi, 9)**

Sözlərinə sadiqdirlər

> *O kəslər ki, Allaha verdikləri sözü yerinə yetirir və əhdi pozmurlar.*
>
> **(Rad surəsi, 20)**

> *Xeyr! Kim əhdini yerinə yetirsə və Allahdan qorxsa, şübhəsiz ki, Allah müttəqiləri sevər.*
>
> **(Ali İmran surəsi, 76)**

> *Allahla bağladığınız əhdə sadiq olun; möhkəm and içdikdən sonra andlarınızı pozmayın. Çünki siz Allahı özünüzə zamin etmisiniz. Şübhəsiz ki, Allah sizin nələr etdiyinizi bilir.*
>
> **(Nəhl surəsi, 91)**

> *O mömin kəslər ki, əmanətlərini və vədlərini qoruyurlar.*
>
> **(Muminun surəsi, 8)**

> *Onlar vəd etdikləri nəziri verər və dəhşəti hər yeri sarsıdacaq gündən qorxarlar.*
>
> **(İnsan surəsi, 7)**

Bir-birlərinə düşkündürlər

> *Mömin kişilərlə mömin qadınlar bir-birinin dostlarıdır. Onlar insanlara yaxşı işlər görməyi buyurur, pis əməllərə qadağa qoyur, namaz qılır, zəkat verir, Allaha və Onun Elçisinə itaət edirlər. Allah onlara rəhm edəcəkdir. Həqiqətən, Allah Qüdrətlidir, Müdrikdir.*
>
> **(Tövbə surəsi, 71)**

> *Səhabələrdən sonra gələnlər deyirlər: "Ey Rəbbimiz! Bizi və bizdən əvvəl iman gətirmiş qardaşlarımızı bağışla. Bizim qəlbimizdə iman gətirənlərə qarşı nifrət və həsədə yer vermə. Ey Rəbbimiz! Həqiqətən də, Sən Şəfqətlisən, Rəhmlisən!"*
>
> **(Həşr surəsi, 10)**

Ey Rəbbim! Məni, valideynlərimi, evimə mömin kimi daxil olanları və bütün mömin kişi və qadınları bağışla! Zülmkarların isə ancaq həlakını artır".

(Nuh surəsi, 28)

Ey iman gətirənlər! Sizlərdən hər kim dinindən dönsə, Allah onun əvəzinə Özünün sevdiyi və Onu sevən, möminlərə qarşı mülayim, kafirlərə qarşı isə sərt olan, Allah yolunda cihad edən və tənə edənin tənəsindən qorxmayan bir camaat gətirər. Bu, Allahın lütfüdür, onu istədiyinə verər. Allah hər şeyi Əhatə edəndir, Biləndir.

(Maidə surəsi, 54)

Bir-birlərinə qarşı təmkinli və hörmətlidirlər

Ey iman gətirənlər! Özgə evlərə icazə almadan və onların sakinlərinə salam vermədən girməyin. Bu sizin üçün daha yaxşıdır. Bəlkə, düşünüb ibrət alasınız.

(Nur surəsi, 27)

Əgər orada heç kəsi tapmasanız, sizə izin verilməyincə oraya girməyin. Sizə: "Qayıdın!" – deyilsə, qayıdın. Bu sizin üçün daha təmizdir. Allah nə etdiklərinizi bilir.

(Nur surəsi, 28)

Biri sizinlə salamlaşdığı zaman siz onun salamını daha böyük ehtiramla alın və ya verilən salamı olduğu kimi qaytarın! Həqiqətən, Allah hər şeyin haqq-hesabını çəkəndir.

(Nisa surəsi, 86)

Kora, çolağa, bir də xəstəyə günah gəlməz. Sizin özünüzə də öz evlərinizdə, yaxud atalarınızın evlərində, yaxud analarınızın evlərində, yaxud qardaşlarınızın evlərində, yaxud bacılarınızın evlərində, yaxud əmilərinizin evlərində, yaxud bibilərinizin evlərində, yaxud dayılarınızın evlərində, yaxud xalalarınızın evlərində, yaxud açarları əllərinizdə olan evlərdə, yaxud dostlarınızın evlərində yemək yeməkdə heç bir günah gəlməz. Bir yerdə, yaxud ayrı-ayrılıqda yemək yeməyinizdə də sizə heç bir günah gəlməz. Evlərə daxil olduğunuz zaman özünüzü Allah tərəfindən mübarək və çox xoş bir salamla salamlayın. Allah ayələrini sizə belə izah edir ki, başa düşəsiniz.

(Nur surəsi, 61)

Ayrılığa və ixtilafa düşməkdən ciddi çəkinirlər

Ey iman gətirənlər! Allaha və Elçisinə itaət edin, həm də özünüzdən olan rəhbərlərə şəriətə uyğun şəkildə itaət edin. Əgər bir şey haqqında mübahisə etsəniz, Allaha və Axirət gününə inanırsınızsa, Allaha və Onun Elçisinə müraciət edin. Bu, sizin üçün daha xeyirli və nəticə etibarilə daha yaxşıdır.

(Nisa surəsi, 59)

Kafirlər də bir-birinə dostdurlar. Əgər siz bunu etməsəniz (bir-birinizə yardımçı olmasanız), yer üzündə fitnə və böyük bir fəsad baş verər.

(Ənfal surəsi, 73)

İsraf etməzlər

Onlar mallarını xərclədikdə nə israfçılıq, nə də xəsislik edər, bunların arasında orta bir yol tutarlar.

(Furqan surəsi, 67)

Əlini nə qoynunda gizlət, nə də onu büsbütün aç (nə xəsis ol, nə də israfçı). Yoxsa qınanmış və peşman vəziyyətdə qalarsan.

(İsra surəsi, 29)

Qohum-əqrəbaya da, yoxsula da, müsafirə də haqqını ver. Lakin malını lazım olmayan yerə sərf etmə.

(İsra surəsi, 26)

Həqiqətən, israfçılar şeytanların qardaşlarıdır. Şeytan isə Rəbbinə qarşı nankordur.

(İsra surəsi, 27)

Talvar üzərində olan və talvarsız öz gövdəsi üzərində duran bağları, dadları müxtəlif olan xurma və dənli bitkiləri, bir-birinə bənzəyən və bənzəməyən zeytunu və narı yaradan Odur. Bar verdiyi zaman onların meyvəsindən yeyin, yığım günü zəkatını verin, lakin israf etməyin. Şübhəsiz ki, Allah israf edənləri sevmir.

(Ənam surəsi, 141)

Ey Adəm oğulları! Məscidlərə gedərkən gözəl geyimlərinizi geyin. Yeyin-için, lakin israf etməyin. Şübhəsiz ki, Allah israf edənləri sevmir.

(Əraf surəsi, 31)

Yoxsulları qoruyurlar

O kəslər ki, onların mallarında məlum bir haqq vardır-

(Məaric surəsi, 24)

dilənən və həya edib dilənməyən miskinlər üçün.

(Məaric surəsi, 25)

Onlar özlərinin istədikləri şeylərdən kasıba, yetimə və əsirə də verərlər

(İnsan surəsi, 8)

Evlilikləri Qurana görədir

Bu gün pak nemətlər sizə halal edildi. Kitab verilənlərin yeməkləri sizə halal, sizin yeməkləriniz də onlara halaldır. İsmətli mömin qadınlar da, sizdən əvvəl Kitab verilənlərin ismətli qadınları da, namuslu olub zinakarlıq etməmək və aşna saxlamamaq şərti ilə mehrlərini verdiyiniz təqdirdə sizə halaldır. İmanı inkar edənin əməlləri boşa çıxar və o, Axirətdə ziyana uğrayanlardan olar.

(Maidə surəsi, 5)

Ey iman gətirənlər! Mömin qadınlar hicrət edib sizin yanınıza gəldikləri zaman onları imtahana çəkin. Allah onların imanını daha yaxşı bilir. Əgər bunların mömin olduqlarını bilsəniz, onları kafirlərə qaytarmayın. Nə bunlar onlara halaldır, nə də onlar bunlara halaldırlar. Kafirlərin bu qadınlara sərf etdikləri mehri özlərinə qaytarın. Həmin qadınların mehrlərini özlərinə verdiyiniz halda onlarla evlənməyinizdə sizə heç bir günah yoxdur. Kafir qadınlarınızı kəbin altında saxlamayın, sərf etdiyiniz mehri tələb edin. Qoy onlar da mömin qadınlara sərf etdikləri mehri sizdən tələb etsinlər. Allahın hökmü budur. O sizin aranızda hökm verir. Allah Biləndir, Müdrikdir.

(Mumtəhənə surəsi, 10)

Ünsiyyətdə rahatlıq tapasınız deyə, sizin üçün özünüzdən zövcələr yaratması, aranıza məhəbbət və mərhəmət salması da Onun dəlillərindəndir. Həqiqətən, bunda düşünənlər üçün ibrətamiz dəlillər vardır.

(Rum surəsi, 21)

Murdar qadınlar murdar kişilərə, murdar kişilər isə murdar qadınlara, eləcə də təmiz qadınlar təmiz kişilərə, təmiz kişilər də təmiz qadınlara layiqdirlər. Bunlar iftiraçıların söylədiklərindən uzaqdırlar. Onları bağışlanma və bolluca ruzi gözləyir.

(Nur surəsi, 26)

Zinakar kişi ancaq zinakar və ya müşrik bir qadınla evlənə bilər. Zinakar qadın da yalnız zinakar və ya müşrik bir kişiyə ərə gedə bilər. Möminlərə isə bu, haram edilmişdir.

(Nur surəsi, 3)

Müşrik qadınlar iman gətirməyincə onlarla evlənməyin. Əlbəttə, iman gətirmiş bir kəniz, sizi heyran edən müşrik bir qadından daha xeyirlidir. Müşrik kişilər iman gətirməyincə mömin qadınları onlara ərə verməyin. Əlbəttə, iman gətirmiş bir köləsizi heyran edən müşrik bir kişidən daha xeyirlidir. Onlar Oda çağırırlar. Allah isə Öz izni ilə Cənnətə və bağışlanmağa dəvət edir. O, Öz ayələrini insanlara bəyan edir ki, bəlkə, düşünüb ibrət alsınlar.

(Bəqərə surəsi, 221)

Aranızda olan subay kişiləri və ərsiz qadınları, əməlisaleh köləvə kənizlərinizi evləndirin. Əgər onlar kasıbdırlarsa, Allah öz lütfü ilə onları varlı edər. Allah lütfü ilə Genişdir, Biləndir!

(Nur surəsi, 32)

Şahidliklərini doğru edərlər

Gözləmə vaxtı bitdikdə onları şəriətə müvafiq olaraq saxlayın və yaxud onlardan müvafiq qaydada ayrılın. Aranızdan iki ədalətli şahid çağırın və Allah üçün şahidlik edin. Allaha və Axirət gününə iman gətirənlərə verilən nəsihət budur. Allahdan qorxana, Allah çıxış yolu göstərər

(Talaq surəsi, 2)

Onlar yalandan şahidlik etməz, lağlağı məclisinə rast gəldikdə oradan ləyaqətlə ötüb keçərlər.

(Furqan surəsi, 72)

Ey iman gətirənlər! Allah xatirinə ədaləti qoruyan şahidlər olun. Hər hansı bir camaata qarşı olan kin-küdurət sizi ədalətsizliyə sövq etməsin. Ədalətli olun! Bu, təqvaya daha yaxındır. Allahdan qorxun! Şübhəsiz ki, Allah nə etdiklərinizdən xəbərdardır.

(Maidə surəsi, 8)

O kəslər ki, şahidliklərində mətindirlər.

(Məaric surəsi, 33)

Boş və faydasız şeylərdən üz çevirirlər

> *Onlar lağlağı eşitdikləri zaman ondan üz çevirib: "Bizim əməllərimiz bizə, sizin əməlləriniz də sizə aiddir. Sizə salam olsun! Biz cahillərə qoşulmaq istəmirik!" – deyirlər.*
>
> **(Qəsas surəsi, 55)**

> *Onlar yalandan şahidlik etməz, lağlağı məclisinə rast gəldikdə oradan ləyaqətlə ötüb keçərlər.*
>
> **(Furqan surəsi, 72)**

> *o kəslər ki, sözbazlıqdan qaçırlar,*
>
> **(Muminun surəsi, 3)**

Dində ifrata getməzlər

> *Ey iman gətirənlər! Allahın sizə halal buyurduğu təmiz ruziləri haram etməyin və həddi aşmayın. Həqiqətən, Allah həddi aşanları sevmir.*
>
> **(Maidə surəsi, 87)**

Əgər onlar Tövrata, İncilə və Rəbbindən özlərinə nazil edilənə düzgün əməl etsəydilər, onlar başları üstündə və ayaqları altında olan nemətlərdən yeyərdilər. Onların arasında haqqı etiraf edən bir camaat vardır. Lakin onların çoxunun etdiyi əməllər necə də pisdir.

(Maidə surəsi, 66)

De: "Ey Kitab əhli! Dininizdə haqsız yerə ifrata varmayın. Öncə azmış, bir çoxlarını da azdırmış və doğru yoldan çıxmış bir dəstənin istəklərinə tabe olmayın".

(Maidə surəsi, 77)

Ey Kitab əhli! Dininizdə ifrata varmayın və Allah barəsində yalnız həqiqəti deyin. Məryəm oğlu İsa Məsih ancaq Allahın elçisi, Onun Məryəmə göndərdiyi "Ol!" kəlməsi və Onun tərəfindən göndərilən bir ruhdur. Allaha və Onun elçilərinə iman gətirin və: "Tanrı üçdür!" deməyin. Batil əqidənizə son qoyun! Bu sizin üçün xeyirli olar. Həqiqətən, Allah Tək İlahdır! O, pakdır, müqəddəsdir, övladı olmaqdan uzaqdır. Göylərdə və yerdə nə varsa, Ona məxsusdur. Qoruyan olaraq Allah yetər.

(Nisa surəsi, 171)

Namusludurlar

> *o kəslər ki, öz cinsi orqanlarını həmişə qoruyurlar,*
>
> **(Muminun surəsi, 5)**

> *zövcələri və sahib olduqları cariyələr istisnadır. Onlar buna görə heç qınanmazlar.*
>
> **(Muminun surəsi, 6)**

> *Evlərinizdə qərar tutun! İlk cahiliyyə dövründə olduğu kimi açıq-saçıq gəzməyin. Namaz qılın, zəkat verin, Allaha və Onun Elçisinə itaət edin. Ey ev əhli! Allah sizdən günahınızı silib aparmaq və sizi tərtəmiz etmək istəyir.*
>
> **(Əhzab surəsi, 33)**

> *Həmçinin ismətini qoruyan İmran qızı Məryəmi də misal çəkdi. Biz ona paltarının yaxasından Öz ruhumuzdan üfürdük. O, Rəbbinin Sözlərini və Onun Kitablarını təsdiq etdi və itaət edənlərdən oldu.*
>
> **(Təhrim surəsi, 12)**

> *O kəslər ki, tənasül üzvlərini zinadan qoruyurlar –*
>
> **(Məaric surəsi, 29)**

Mömin kişilərə de ki, harama baxmayıb gözlərini aşağı diksinlər və cinsiyyət üzvlərini zinadan qorusunlar. Bu onlar üçün daha təmiz olar. Şübhəsiz ki, Allah onların nə etdiklərindən xəbərdardır.

(Nur surəsi, 30)

Mömin qadınlara da de ki, harama baxmayıb gözlərini aşağı diksinlər və cinsiyyət üzvlərini zinadan qorusunlar. Qoy onlar – görünənlər istisna olmaqla, zinətlərini naməhrəmə göstərməsinlər; örtüklərini yaxalarının üstünə salsınlar; zinətlərini ərlərindən, yaxud atalarından, yaxud ərlərinin atalarından, yaxud öz oğullarından, yaxud ərlərinin oğullarından, yaxud qardaşlarından, yaxud qardaşlarının oğullarından, yaxud bacılarının oğullarından, yaxud öz müsəlman qadınlarından, yaxud sahib olduqları kölələrdən, yaxud ehtirasını itirən kişi xidmətçilərdən, yaxud qadınların çılpaqlığını hələ anlamayan uşaqlardan başqasına göstərməsinlər; gizlətdikləri zinət əşyaları bilinsin deyə ayaqlarını yerə vura-vura yeriməsinlər. Ey iman gətirənlər! Hamınız Allaha tövbə edin ki, bəlkə nicat tapasınız.

(Nur surəsi, 31)

Kimsənin haqqını yeməzlər

İnsanların əşyalarını əksik verməyin və yer üzündə fəsad yayaraq pis işlər görməyin.

(Şuəra surəsi, 183)

Mallarınızı öz aranızda haqsızlıqla yeməyin və camaatın malının bir qismini bilə-bilə günah yolu ilə yeyəsiniz deyə hakimləri ələ almağa çalışmayın.

(Bəqərə surəsi, 188)

Yetimlərin mallarını özlərinə verin və yaxşını pis ilə dəyişməyin. Onların mallarını öz mallarınızla birlikdə yeməyin. Şübhəsiz ki, bu, böyük günahdır.

(Nisa surəsi, 2)

Davud dedi: "O sənin qoyununu öz qoyunlarına qatmaq istəməklə, sənə qarşı haqsızlıq etmişdir. Həqiqətən, şəriklərin çoxu bir-birinin haqqını tapdalayar. Yalnız iman gətirib yaxşı işlər görənlərdən başqa. Onlar isə çox azdırlar!" Bunları dedikdən sonra, Davud Bizim onu sınağa çəkdiyimizi yəqinləşdirərək, Rəbbindən özünün bağışlanmasını dilədi və səcdəyə qapanıb tövbə etdi.

(Sad surəsi, 24)

Ey qövmüm! Ölçüyə və çəkiyə ədalətlə tam riayət edin, insanların mallarını əksik verməyin və yer üzündə fəsad yaymaqla pis işlər görməyin!

(Hud surəsi, 85)

> *Əşyaları tərəzidə insafla çəkin və çəkini əskiltməyin.*
>
> **(Rəhman surəsi, 9)**

Fədakardırlar

> *Miniklə təmin edəsən deyə sənin yanına gəldikdə: "Sizin üçün minik tapa bilmirəm" – dediyin zaman cihad üçün xərcləməyə bir şey tapa bilmədiklərindən ötrü kədərlənib gözləri dolmuş halda geri dönənlərin də heç bir günahı yoxdur.*
>
> **(Tövbə surəsi, 92)**

> *O müttəqilər ki, bolluq zamanı da, qıtlıq zamanı da mallarından Allah yolunda xərcləyir, qəzəblərini boğur və insanları bağışlayırlar. Allah yaxşı iş görənləri sevir.*
>
> **(Ali İmran surəsi, 134)**

> *Mühacirlərdən əvvəl Mədinədə yurd salmış, sonra da iman gətirmiş kimsələr öz yanlarına hicrət edənləri sevir, onlara verdiklərinə görə qəlblərində peşmançılıq hissi duymurlar. Hətta özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tuturlar. Nəfsinin tamahından qorunan kimsələr nicat tapanlardır.*
>
> **(Həşr surəsi, 9)**

> *Onlar özlərinin istədikləri şeylərdən kasıba, yetimə və əsirə də verərlər*
>
> **(İnsan surəsi, 8)**

> *Sevdiyiniz şeylərdən Allah yolunda xərcləməyincə xeyrə nail olmayacaqsınız. Sizin nə xərclədiyinizi, şübhəsiz ki, Allah bilir.*
>
> **(Ali İmran surəsi, 92)**

Qısqanclıq və eqoizmdən çəkinirlər

> *Əgər bir qadın öz ərinin kobud rəftarından, yaxud ondan üz döndərməsindən qorxarsa, ər-arvadın öz aralarında barışığa gəlməsi onlara günah sayılmaz. Axı barışmaq daha xeyirlidir. Doğrusu, nəfslər xəsislik etməyə hazırdır. Əgər qadınlarla yaxşı davranıb Allahdan qorxsanız, bilin ki, Allah nə etdiklərinizdən xəbərdardır.*
>
> **(Nisa surəsi, 128)**



Onlar yoxsula və yetimə yemək verirlər

Əsla ümidsizliyə düşməzlər

> *Ey oğullarım! Yusifdən və qardaşından xəbər tutmaq üçün yola düşün, Allahın mərhəmətindən ümidinizi üzməyin. Çünki Allahın mərhəmətindən ancaq kafir adamlar ümidlərini kəsər".*
>
> **(Yusif surəsi, 87)**

> *Qullarıma mənim bu sözümü de: "Ey Mənim özlərinə qarşı həddi aşmış qullarım! Allahın rəhmindən ümidinizi üzməyin. Şübhəsiz ki, Allah bütün günahları bağışlayır. O, həqiqətən, Bağışlayandır, Rəhmlidir!"*
>
> **(Zumər surəsi, 53)**

> *Onlar dedilər: "Biz sənə həqiqətlə müjdə veririk. Sən ümidini üzənlərdən olma!"*
>
> **(Hicr surəsi, 55)**

Günahkarlara arxa çıxmazlar

Ey iman gətirənlər! Mənim düşmənimi də, öz düşmənlərinizi də özünüzə dost tutmayın! Onlar sizə gələn həqiqəti inkar etdikləri halda, siz onlara mehribanlıq göstərib sirrinizi açıb deyirsiniz. Rəbbiniz olan Allaha iman gətirdiyiniz üçün onlar Peyğəmbəri və sizi yurdunuzdan qovub çıxardırlar. Əgər siz Mənim yolumda və Mənim razılığımı qazanmaq uğrunda cihada çıxmısınızsa, onlara gizlində mehribanlıq göstərirsiniz. Mən sizin gizli saxladığınızı da, aşkar etdiyinizi də bilirəm. Sizlərdən kim bunu etsə, doğru yoldan sapmış olar.

(Mumtəhənə surəsi, 1)

Allaha və Axirət gününə iman gətirən elə bir camaat tapa bilməzsən ki, onlar Allaha və Onun Elçisinə düşmən olanlarla – öz ataları, oğulları, qardaşları, qohum-əqrəbaları olsalar belə – dostluq etsinlər. Allah onların qəlbinə iman salmış və onları Öz tərəfindən bir ruhla dəstəkləmişdir. Allah onları ağacları altından çaylar axan Cənnət bağlarına daxil edəcəkdir. Onlar orada əbədi qalacaqlar. Allah onlardan razıdır, onlar da Allahdan razıdırlar. Onlar Allahın firqəsidirlər. Həqiqətən, məhz Allahın firqəsi nicat tapanlardır.

(Mücadilə surəsi, 22)

Barışdırıcı və razılaşdırıcıdırlar

Andlarınıza görə Allahın adını, yaxşılıq etmənizə, Allahdan qorxmanıza və insanlar arasında sülh yaratmanıza dair bir maneəyə çevirməyin. Allah Eşidəndir, Biləndir!

(Bəqərə surəsi, 224)

Onların gizli söhbətlərinin çoxunda xeyir yoxdur. Sədəqə verməyi və ya yaxşılıq etməyi yaxud da insanlar arasında sülh yaratmağı əmr edən şəxsin pıçıldaması isə istisnadır. Kim bunu Allahın razılığını qazanmaq üçün edərsə, Biz ona böyük mükafat verərik.

(Nisa surəsi, 114)

Kim də vəsiyyət edənin haqsızlıq etməsindən və ya günah işlətməsindən ehtiyat edib tərəflərin arasını düzəldərsə, ona heç bir günah olmaz. Şübhəsiz ki, Allah Bağışlayandır, Rəhmlidir!

(Bəqərə surəsi, 182)

Möminlər, həqiqətən də qardaşdırlar. Elə isə qardaşlarınızı barışdırın və Allahdan qorxun ki, sizə rəhm edilsin.

(Hucurat surəsi, 10)

> *Əgər ər-arvad arasında ixtilaf olacağından qorxsanız, onda kişinin ailəsindən bir hakim və qadının ailəsindən bir hakim göndərin. Əgər bunlar islah etmək istəsələr, Allah da onları barışdırar. Həqiqətən, Allah Biləndir, hər şeydən Xəbərdardır.*
>
> **(Nisa surəsi, 35)**

Estetika və sənətə əhəmiyyət verirlər

> *Cinlər onun üçün istədiyi qəsrlər, heykəllər, hovuzlara bənzər çanaqlar və yerindən tərpənməyən nəhəng qazanlar düzəldirdilər. Ey Davud nəsli! Bu nemətlərə şükür edin! Qullarımdan şükür edən azdır.*
>
> **(Səba surəsi, 13)**

> *Qadına: "Saraya daxil ol!" – deyildi. O, sarayı gördükdə onu dərin bir gölməçə hesab etdi və baldırlarını açdı. Süleyman dedi: "Bu, büllurdan hamarlanıb düzəldilmiş bir saraydır!" Qadın dedi: "Ey Rəbbim! Mən özümə zülm etmişdim. İndi isə Süleymana tabe olub aləmlərin Rəbbi olan Allaha təslim oldum!"*
>
> **(Nəml surəsi, 44)**

Arxadan danışmaz və qüsur axtarmazlar

> *Ey iman gətirənlər! Bir camaat digərini məsxərəyə qoymasın. Ola bilər ki, bunlar onlardan daha yaxşı olsunlar. Qadınlar da qadınları lağa qoymasınlar. Ola bilər ki, bunlar onlardan daha yaxşı olsunlar. Bir-birinizə tənə vurmayın və bir-birinizi pis ləqəblərlə çağırmayın. İman gətirdikdən sonra fasiq adlanmaq necə də pisdir. Məhz tövbə etməyənlər zalımlardır.*
>
> **(Hucurat surəsi, 11)**

> *Ey iman gətirənlər! Zənnə çox qapılmayın. Çünki zənn edilənlərin bir qismi günahdır. Bir-birinizi güdməyin, bir-birinizin qeybətini qırmayın. Sizdən biriniz ölmüş qardaşının ətini yemək istəyərmi? Siz ki, bundan iyrənirsiniz. Allahdan qorxun! Həqiqətən, Allah tövbələri qəbul edəndir, Rəhmlidir.*
>
> **(Hucurat surəsi, 12)**

Sağlamlıqlarını qoruyur, bədənlərinə əziyyət etməzlər

> *Yuxunuzu da sizin üçün rahatlıq etdik.*
>
> **(Nəbə surəsi, 9)**

Gecəni rahatlanmanız üçün yaradan, gündüzü ruzi qazanmanız üçün işıqlı edən Allahdır. Allah insanlara qarşı lütfkardır, lakin insanların çoxu şükür etmir.

(Mümin surəsi, 61)

Ana-ataya yaxşı davranırlar

Biz insana valideynləri ilə gözəl davranmağı buyurduq. Əgər onlar bilmədiyin bir şeyi Mənə şərik qoşmağın üçün səni məcbur etsələr, onlara güzəştə getmə. Dönüşünüz Mənə olacaq, Mən də bütün etdiklərin barədə sizə xəbər verəcəyəm.

(Ənkəbut surəsi, 8)

Rəbbin yalnız Ona ibadət etməyi və ata-ana ilə yaxşı davranmağı buyurmuşdur. Əgər onların biri və ya hər ikisi sənin yanında qocalıq yaşına dolarsa, onlara: "Uf!" belə demə, üstlərinə qışqırma və onlara xoş söz söylə!

(İsra surəsi, 23)

Biz insana ata-anasının qayğısına qalmağı əmr etdik. Anası onu bətnində gündən-günə zəiflədiyinə baxmayaraq daşımışdır. Onun süddən kəsilməsi isə iki il ərzində olur. Mənə və valideynlərinə şükür et! Axır dönüş Mənədir.

(Loğman surəsi, 14)

Çətinliklərdən qorxmazlar

Biz aranızdakı mücahidləri və səbir edənləri ayırd edib üzə çıxarmaq üçün sizi mütləq sınayacaq və barənizdəki xəbərləri də yoxlayacağıq.

(Məhəmməd surəsi, 31)

Yoxsa siz elə güman edirdiniz ki, sizdən əvvəlkilərin başına gələnlər sizin başınıza gəlmədən Cənnətə daxil olacaqsınız? Onlara elə kasıblıq və xəstəlik üz vermiş, elə sarsılmışdılar ki, hətta Peyğəmbər və onunla birlikdə olan möminlər də: "Allahın köməyi nə vaxt gələcək?" – dedilər. Həqiqətən, Allahın köməyi yaxındır.

(Bəqərə surəsi, 214)

O kəslər ki, onlara bir müsibət üz verdikdə: "Biz, Allaha məxsusuq və Ona da qayıdacağıq!" – deyirlər.

(Bəqərə surəsi, 156)

Rəbbi onlara belə cavab verdi: "Mən, sizlərdən yaxşı işlər görən – istər kişi, istərsə də qadın olsun, – heç bir kəsin əməyini puç etmərəm. Siz bir-birinizdənsiniz. Hicrət edənlərin, öz yurdlarından çıxarılanların, Mənim yolumda əziyyətə düçar olanların, vuruşanların və öldürülənlərin, əlbəttə, təqsirlərindən keçəcək və onları ağacları altından çaylar axan Cənnət bağlarına daxil edəcəyəm. Bu, Allah tərəfindən bir mükafatdır. Gözəl mükafat məhz Allah yanındadır".

(Ali İmran surəsi, 195)

Kafirlərə və münafiqlərə itaət etmə. Onların əziyyətlərinə fikir vermə və Allaha təvəkkül et. Allahın Qoruyan olması kifayətdir.

(Əhzab surəsi, 48)

Onlar yaralandıqdan sonra da Allahın və Peyğəmbərinin dəvətini qəbul etdilər. İçərilərindən yaxşı işlər görənlər və Allahdan qorxanlar üçün böyük bir mükafat vardır.

(Ali İmran surəsi, 172)

Səndən əvvəlki elçiləri də yalançı saymışdılar. Lakin Bizim köməyimiz onlara gələnədək yalançı sayılmalarına və onlara əziyyət verilməsinə səbir etdilər. Heç kəs Allahın kəlmələrini dəyişə bilməz. Artıq peyğəmbərlərə aid bəzi xəbərlər sənə gəlib çatdı.

(Ənam surəsi, 34)

Neçə-neçə peyğəmbər olmuşdur ki, bir çox dindarlarla birlikdə vuruşmuşlar. Onlar Allah yolunda başlarına gələnlərə görə nə ruhdan düşmüş, nə zəifləmiş, nə də düşmənə boyun əymişlər. Allah səbir edənləri sevir.

(Ali İmran surəsi, 146)

Yoxsa elə güman edirdiniz ki, Allah içərinizdən cihada çıxanları və səbir edənləri bəlli etmədən siz Cənnətə daxil olacaqsınız?

(Ali İmran surəsi, 142)

Ölməkdən və ya öldürülməkdən qətiyyən qorxmazlar

Bəzi adamlar onlara: "Camaat sizə qarşı ordu toplayıbdır, onlardan qorxun!" – dedilər. Bu, onların imanını daha da artırdı və onlar: "Allah bizə yetər. O nə gözəl Qoruyandır!" – dedilər.

(Ali İmran surəsi, 173)

Allah yolunda öldürülənləri əsla ölmüş sanma. Əksinə, onlar diridirlər; özlərinin Rəbbi yanında onlara ruzi verilir.

(Ali İmran surəsi, 169)

> *Onlar Allahın Öz lütfündən onlara verdiyi nemətlərə sevinir, arxalarınca gəlib hələ onlara çatmamış kəslərin heç bir qorxu ilə qarşılaşmayacaqlarına və onların kədərlənməyəcəklərinə fərəhlənirlər.*
>
> **(Ali İmran surəsi, 170)**

> *Ey iman gətirənlər! Səfərə çıxmış və ya müharibəyə getmiş qardaşları barəsində: "Əgər onlar bizim yanımızda olsaydılar, nə ölər, nə də öldürülərdilər" – deyən kafirlər kimi olmayın! Allah bunu onların qəlblərində qəm-qüssə olsun deyə belə etdi. Dirildən də, öldürən də Allahdır. Allah nə etdiklərinizi görür.*
>
> **(Ali İmran surəsi, 156)**

> *Əgər siz Allah yolunda öldürülər və ya ölərsinizsə, bilin ki, Allahın günahınızdan keçməsi və sizə mərhəmət göstərməsi kafirlərin yığdıqları şeylərdən daha xeyirlidir.*
>
> **(Ali İmran surəsi, 157)**

> *Əsəniz də, öldürülsəniz də, mütləq Allahın hüzuruna gətirilib cəm olunacaqsınız.*
>
> **(Ali İmran surəsi, 158)**

Göylərdə və yerdə səltənət Allahındır. O, istədiyini yaradır; kimə qız uşaqları, kimə də oğlan uşaqları bəxş edir.

(Şura surəsi, 49)

Yaxud hər ikisindən – oğlan və qız uşaqları verir, istədiyini də sonsuz edir. Həqiqətən, O, Biləndir, Qadirdir.

(Şura surəsi, 50)

Doğrudan da, Allah möminlərdən, Cənnət müqabilində onların canlarını və mallarını satın almışdır. Çünki onlar Allah yolunda vuruşub öldürür və öldürülürlər. Bu, Allahın Tövratda, İncildə və Quranda Öz öhdəsinə götürdüyü bir vəddir. Allahdan daha yaxşı əhdini yerinə yetirən kimdir? Elə isə sövdələşdiyiniz alış-verişə görə sevinin. Məhz bu, böyük uğurdur.

(Tövbə surəsi, 111)

Qoy dünya həyatını atıb axirəti satın alanlar Allah yolunda vuruşsunlar. Kim Allah yolunda vuruşub öldürülərsə və ya qalib gələrsə, Biz ona böyük bir mükafat verəcəyik.

(Nisa surəsi, 74)

Sərvət və mövqedən təsirlənməzlər

> *Əgər onlara yer üzündə hökmranlıq versək, onlar namaz qılar, zəkat verər, yaxşı işlər görməyi əmr edib, pis işlər görməyi qadağan edərlər. Bütün işlərin aqibəti Allaha aiddir.*
>
> **(Həcc surəsi, 41)**

> *Qarun öz zinəti içində xalqının qarşısına çıxdı. Dünya həyatını arzulayanlar dedilər: "Kaş ki, Qaruna verilənin bənzəri bizə də veriləydi! Həqiqətən, o, böyük qismət sahibidir".*
>
> **(Qəsas surəsi, 79)**

> *Elm verilmiş kəslər isə dedilər: "Vay halınıza! İman gətirib yaxşı əməl işlədən kimsə üçün Allahın mükafatı daha xeyirlidir. Buna isə yalnız səbir edənlər nail olarlar".*
>
> **(Qəsas surəsi, 80)**

Qadınları himayə edib qoruyurlar

> *Murdar əməldən xəbəri olmayan ismətli mömin qadınları zinada günahlandıranlar dünyada və axirətdə lənətə düçar olarlar. Onları böyük bir əzab gözləyir –*
>
> **(Nur surəsi, 23)**

Ey iman gətirənlər! Qadınlara zorla varis çıxmaq sizə halal deyildir. Qadınlar açıq-aşkar yaramaz bir iş görməyincə, onlara verdiklərinizin bir hissəsini geri almaq üçün onları sıxışdırmayın. Onlarla xoş rəftar edin. Əgər onlar xoşunuza gəlmirsə, ola bilsin ki, xoşlamadığınız bir şeydə Allah sizə çoxlu xeyir nəsib etmiş olsun.

(Nisa surəsi, 19)

İsmətli qadınları zinada günahlandırıb, sonra dörd şahid gətirməyən kəslərə səkkən çubuq vurun və onların şahidliyini heç vaxt qəbul etməyin. Onlar əsl fasiqlərdir.

(Nur surəsi, 4)

Boşanmış qadınlara şəriətə müvafiq qayda üzrə yaxşılıq etmək lazımdır. Bu, müttəqilər üçün bir borcdur.

(Bəqərə surəsi, 241)

Boşanma iki dəfə olar. Bundan sonra qadını şəriətə müvafiq qayda üzrə saxlamaq, yaxud xoşluqla buraxmaq gərəkdir. Onlara verdiklərinizdən bir şey götürmək sizə halal olmaz. Yalnız hər ikisinin Allahın hədlərini yerinə yetirməyəcəklərindən qorxması istisnadır. Əgər siz onların Allahın hədlərini yerinə yetirməyəcəklərindən qorxsanız, qadının boşanmaq üçün bir şey əvəz verməsində ikisinə də heç bir günah yoxdur. Bunlar Allahın hüdudlarıdır, onları aşmayın! Allahın hüdudlarını aşanlar – məhz onlar zalımlardır.

(Bəqərə surəsi, 229)

Onlara gözləmə müddətləri başa çatanadək imkanınız daxilində öz yaşadığınız yerdə qalmağa yer verin. Sıxışdırmaq məqsədilə onlara zərər yetirməyin. Əgər onlar hamilədirlərsə, hamiləlikdən azad olana qədər onlara malınızdan xərcləyin. Sizin üçün uşaq əmizdirirlərsə, onların haqqını verin. Öz aranızda xoşluqla razılığa gəlin. Bir-birinizi çətinliyə salsanız, uşağı əmizdirməyi başqa bir qadına həvalə edin.

(Talaq surəsi, 6)

Qadınlarınızı boşadığınız və onların gözləmə müddəti sona yetişdiyi zaman onları ya şəriətə müvafiq qayda üzrə saxlayın, ya da müvafiq qayda üzrə buraxın. Zərər vurmaq və təcavüz etmək məqsədilə onları saxlamayın. Kim bunu etsə, ancaq özünə zülm etmiş olar. Allahın ayələrini ələ salmayın. Allahın sizə olan nemətlərini, öyüd-nəsihət vermək üçün nazil etdiyi Kitab və hikməti yadınıza salın. Allahdan qorxun və bilin ki, Allah hər şeyi bilir.

(Bəqərə surəsi, 231)

Təmizliyə böyük əhəmiyyət verirlər

Ey insanlar! Yerdə olan halal və təmiz ruzilərdən yeyin, şeytanın addım izləri ilə getməyin! O, sizin açıq-aşkar düşmənizdir.

(Bəqərə surəsi, 168)

Biz evi (Kəbəni) insanlar üçün ziyarət və əmin-amanlıq yeri etdik. "İbrahimin dayandığı yeri namazgah edin!" Biz İbrahimə və İsmailə: "Evimi təvaf edənlər, etikafa girənlər, rüku və səcdə edənlər üçün təmizləyin!" – dedik.

(Bəqərə surəsi, 125)

Geyimini təmiz saxla!

(Müddəssir surəsi, 4)

Pis şeyləri tərk et!

(Müddəssir surəsi, 5)

Mömin olduqları üzlərindən bəlli olur

Məhəmməd Allahın Elçisidir. Onunla birlikdə olanlar kafirlərə qarşı sərt, öz aralarında isə mərhəmətlidirlər. Sən onları rüku edən, səcdəyə qapanan, Allahdan lütf və razılıq diləyən görərsən. Əlamətləri isə üzlərində olan səcdə izidir. Bu onların Tövratdakı vəsfidir. İncildə isə onlar elə bir əkin kimi vəsf olunurlar ki, bu əkin cücərtisini üzə çıxarıb onu qüvvətləndirmiş, o da getdikcə qalınlaşıb gövdəsi üstündə şax duraraq əkinçiləri heyran etmişdir. Allah möminlərin sayını artırır, özlərini də qüvvətləndirir ki, kafirləri qəzəbləndirsin. Allah onlardan iman gətirib yaxşı işlər görənlərə bağışlanma və böyük bir mükafat vəd etmişdir.

(Fəth surəsi, 29)

Allahın qoruması altındadırlar

Siz insanlar arasında üzə çıxarılmış ən xeyirli ümmətsiniz. Siz yaxşı işlər görməyi əmr edir, pis əməlləri qadağan edir və Allaha iman gətirirsiniz. Kitab əhli də iman gətirsəydi, əlbəttə, onlar üçün yaxşı olardı. Onların arasında iman gətirənlər də vardır. Əksəriyyəti isə haqq yolunu azmış fasiqlərdir.

(Ali İmran surəsi, 110)

Onlar sizə əziyyətdən başqa bir zərər yetirə bilməzlər. Əgər sizinlə vuruşmalı olsalar, arxa çevirib qaçarlar. Sonra isə onlara kömək də edilməz.

(Ali İmran surəsi, 111)

Ey iman gətirənlər! Öz qeydinizə qalın! Siz doğru yolda olsanız, haqq yoldan azmışlar sizə zərər yetirə bilməzlər. Hamınızın dönüşü Allaha olacaq və O, etdiyiniz əməllər barədə sizə xəbər verəcəkdir.

(Maidə surəsi, 105)

> *Onlar sizə göz qoyurlar (gözləyirlər ki sizə bir bəla gəlsin). Əgər Allahdan sizə bir qələbə gəlsə: "Məgər biz də sizinlə deyildikmi?" – deyərlər. Əgər kafirlərə bir qələbə nəsib olsa: "Məgər biz möminlərlə birlikdə sizə qalib gələ bilməzdikmi, sizi möminlərdən qorumadıqmı?" – söyləyərlər. Qiyamət günü Allah sizin aranızda hökm verəcəkdir. Allah kafirlərə möminləri məğlub etməyə yol verməyəcəkdir.*
>
> **(Nisa surəsi, 141)**

> *Onlar yalana həvəslə qulaq asanlar və daima haram yeyənlərdir. Əgər onlar sənin yanına gəlsələr, aralarında hökm ver və ya onlardan üz çevir. Əgər onlardan üz çevirsən, sənə heç bir şeylə zərər verə bilməzlər. Əgər onların arasında hökm verməli olsan, ədalətlə hökm ver. Şübhəsiz ki, Allah ədalətli olanları sevir.*
>
> **(Maidə surəsi, 42)**

Sözün ən gözəlini söyləyərlər

> *İnsanları Allaha tərəf çağıran, yaxşı iş görən və: "Həqiqətən, mən müsəlmanlardanam!" – deyən kəsdən daha gözəl söz deyən kim ola bilər?*
>
> **(Fussilət surəsi, 33)**

Allahın necə məsəl çəkdiyini görmürsənmi? Gözəl söz (lə ilahə illəllah) kökü yerdə möhkəm olan, budaqları isə göyə yüksələn gözəl bir ağac kimidir.

(İbrahim surəsi, 24)

O ağac Rəbbinin izni ilə öz bəhrəsini hər zaman verir. Allah insanlar üçün misallar çəkir ki, bəlkə, düşünüb ibrət alsınlar.

(İbrahim surəsi, 25)

FƏSİL

Münafiqlər

MÜNAFİQLƏR

İnsanlar arasında elələri də vardır ki, mömin olmadıqları halda: "Allaha və Axirət gününə inanırıq" – deyirlər.

Onlar Allahı və iman gətirənləri aldatmağa çalışırlar. Halbuki yalnız özlərini aldadır və bunu anlamırlar.

> *Onların qəlblərində xəstəlik vardır və Allah da onların xəstəliyini artırmışdır. Yalan söylədiklərinə görə də ağrılı-acılı bir əzab çəkəcəklər.*
>
> **(Bəqərə surəsi, 8-10)**

Mömin topluluğunun içindən çıxarlar

> *O, göylərdə və yerdə olanları bilir. Sizin gizlində və aşkarda nə etdiyinizi də bilir. Allah köksələrdə olanlardan agahdır.*
>
> **(Təğabun surəsi, 4)**

Şübhəsiz ki, Aişə barəsində yalan xəbər gətirənlər özünüzdən olan bir dəstədir. Onu özünüz üçün pis bir şey hesab etməyin. Əksinə, bu sizin üçün xeyirlidir. O dəstədən olan hər bir şəxsin qazandığı günahın cəzası vardır. İçərilərindən günahın böyüyünü öz üstünə götürəni isə böyük bir əzab gözləyir.

(Nur surəsi, 11)

Allaha iman etməzlər

İnsanlar arasında elələri də vardır ki, mömin olmadıqları halda: "Allaha və Axirət gününə inanırıq" – deyirlər.

(Bəqərə surəsi, 8)

Bir surə nazil edildiyi zaman onlardan istehza ilə: "Bu, hansınızın imanını artırdı?" – deyənlər də var. İman gətirənlərə gəldikdə isə, o surə onların imanını artırır və onlar bir-birlərini müjdələyirlər.

(Tövbə surəsi, 124)

Onlar möminlərlə rastlaşdıqda: "Biz iman gətirdik!" – deyirlər, öz şeytanları (azmış dostları) ilə təklikdə qaldıqda isə: "Biz sizinləyik. Biz möminlərə ancaq istehza edirik!" – deyirlər.

(Bəqərə surəsi, 14)

Quranı anlamazlar

Bir surə nazil edildiyi zaman onlar: "Sizi kimsə görürmü?" – deyə bir-birlərinə baxır, sonra da üz çevirib gedirlər. Anlamayan adamlar olduqlarına görə Allah onların qəlbini imandan məhrum etmişdir.

(Tövbə surəsi, 127)

Bu ona görədir ki, onlar iman gətirdikdən sonra kafir oldular. Sonra da onların qəlbinə möhür vuruldu. Artıq onlar anlamırlar.

(Münafiqun surəsi, 3)

Onlar dedilər: "Ey Şueyb! Dediklərinin çoxunu anlamırıq. Biz səni aramızda zəif görürük. Əgər qəbilən olmasaydı, səni daşqalaq edərdik. Sən bizim üçün heç də böyük bir adam deyilsən".

(Hud surəsi, 91)

Axirət haqqında şübhə içindədirlər

Doğrudan da, onlar öz Rəbbi ilə qarşılaşacaqlarına şübhə edirlər. Həqiqətən, O, hər şeyi əhatə edir.

(Fussilət surəsi, 54)

Quranı yanlış şərh edərlər

Kitabı sənə nazil edən Odur. O Kitabın bir qismi mənası aydın ayələrdir ki, bunlar da Kitabın anasıdır. Digərləri isə mənası aydın olmayan ayələrdir. Qəlblərində əyrilik olanlar fitnə-fəsad törətmək və istədikləri kimi yozmaq məqsədilə mənası aydın olmayanın ardınca düşərlər. Onun yozumunu isə Allahdan başqa heç kəs bilməz. Elmdə qüvvətli olanlar isə deyərlər: "Biz onlara iman gətirdik, hamısı bizim Rəbbimizdəndir". Bunu isə ancaq ağıl sahibləri dərk edərlər.

(Ali İmran surəsi, 7)

Bəziləri imandan sonra küfrə düşmüşdürlər

Qəlbi imanla sabit qaldığı halda haqqı danmağa məcbur edilən kəslər istisna olmaqla, kim iman gətirdikdən sonra Allahı inkar etsə və qəlbini küfrə açsa, Allahın qəzəbinə düçar olar. Onlar üçün böyük bir əzab vardır.

(Nəhl surəsi, 106)

Onlardan nə üçün istehza etdiklərini soruşsan, deyərlər: "Biz sadəcə boş-boş danışıb zarafatlaşırdıq!" De: "Allaha, Onun ayələrinə və Onun Elçisinə istehzamı edirsiniz?

(Tövbə surəsi, 65)

Üzrxahlıq etməyin! İman gətirdikdən sonra artıq kafir oldunuz". Sizlərdən bir qismini bağışlasaq da, digərlərinə günahkar olduqlarına görə əzab verərik.

(Tövbə surəsi, 66)

Bu ona görədir ki, onlar iman gətirdikdən sonra kafir oldular. Sonra da onların qəlbinə möhür vuruldu. Artıq onlar anlamırlar.

(Münafiqun surəsi, 3)

Allaha and içirlər ki, nalayiq sözlər deməyiblər. Onlar küfr sözünü demiş, İslamı qəbul etdikdən sonra kafir olmuş və bacara bilmədikləri bir işə can atmışlar. Onların intiqam almağı yalnız Allahın və Onun Elçisinin onları Öz lütfündən varlandırdığına görədir. Əgər tövbə etsələr, onlar üçün xeyirli olar. Əgər üz döndərsələr, Allah onları dünyada da, axirətdə də acılı-ağrılı bir əzaba düçar edər. Yer üzündə onların nə bir dostu, nə də bir köməkçisi vardır.

(Tövbə surəsi, 74)

İman etmədikləri halda mömin olduqları təəssüratını yaratmaq istəyərlər

> *İnsanlar arasında elələri də vardır ki, mömin olmadıqları halda: "Allaha və Axirət gününə inanırıq" – deyirlər.*
>
> **(Bəqərə surəsi, 8)**

> *Münafiqlər sənin yanına gəldikləri zaman: "Biz şəhadət veririk ki, sən Allahın Elçisisən!" – deyirlər. Allah da bilir ki, sən Onun Elçisisən. Allah şahiddir ki, münafiqlər əsl yalançıdırlar.*
>
> **(Münafiqun surəsi, 1)**

> *Onlar möminlərlə rastlaşdıqda: "Biz iman gətirdik!" – deyirlər, öz şeytanları (azmış dostları) ilə təklikdə qaldıqda isə: "Biz sizinləyik. Biz möminlərə ancaq istehza edirik!" – deyirlər.*
>
> **(Bəqərə surəsi, 14)**

Allahı və möminləri aldatmağa çalışırlar

> *Onlar Allahı və iman gətirənləri aldatmağa çalışırlar. Halbuki yalnız özlərini aldadır və bunu anlamırlar.*
>
> **(Bəqərə surəsi, 9)**

> *Onlar sizinlə həmrəy olduqlarına and içirlər. Halbuki onlar sizdən deyildirlər. Əslində, onlar qorxaq adamlardır.*
>
> **(Tövbə surəsi, 56)**

Qəlblərində olmayanı söyləyərlər

> *Uhudda iki qoşunun üz-üzə gəldiyi gün sizə üz vermiş müsibət Allahın izni ilə oldu ki, möminləri aşkara çıxartsın*
>
> **(Ali İmran surəsi, 166)**

> *və münafiqləri bəlli etsin. Onlara: "Gəlin, Allah yolunda döyüşün, yaxud heç olmasa müdafiədə durun!" – deyildi. Onlar: "Döyüş olacağını bilsəydik sizin ardınızca gedərdik" – dedilər. Onlar o gün imandan çox küfrə yaxın idilər. Onlar qəlblərində olmayanı ağızları ilə deyirlər. Halbuki Allah onların nəyi gizlətdiklərini çox yaxşı bilir.*
>
> **(Ali İmran surəsi, 167)**

Möminlərin düşmənidirlər

> *Ey Peyğəmbər! Kafirlərə və münafiqlərə qarşı vuruş! Onlarla sərt davran! Onların sığınacağı yer Cəhənnəmdir. Ora necə də pis dönüş yeridir!*
>
> **(Təhrim surəsi, 9)**

İnkar edənləri dost və sirdaş edirlər

> *Sən onların bir çoxunun kafirlərlə dostluq etdiyini görürsən. Nəfslərinin onlar üçün hazırladığı şey necə də pisdir! Buna görə də Allah onlara qəzəblənmişdir və onlar əzab içində əbədi qalacaqlar.*
>
> **(Maidə surəsi, 80)**

> *Möminləri qoyub kafirləri özlərinə dost tutanlar gücü və əzəməti onlardamı axtarırlar? Halbuki qüvvət və əzəmət tamamilə Allaha məxsusdur.*
>
> **(Nisa surəsi, 139)**

> *Münafiqlərin, Kitab əhlindən kafir olan qardaşlarına: "Əgər siz yurdunuzdan qovulsanız, biz də sizinlə birlikdə çıxıb gedəcək və sizə qarşı heç vaxt heç kəsə tabe olmayacağıq. Əgər müsəlmanlar sizə qarşı vuruşsalar, mütləq sizə kömək edəcəyik!" – dediklərini görmədinmi? Allah onların yalançı olduğuna şahiddir.*
>
> **(Həşr surəsi, 11)**



Münafiqlərin misalı çırağı söndürən kimidir

İnkar edənlərlə möminlərə qarşı əməkdaşlıq edirlər

Ey Elçi! Qəlbləri iman gətirmədiyi halda ağızları ilə: "İman gətirdik!" – deyən kimsələrdən küfrə can atanlar qoy səni kədərləndirməsin. Həm yəhudilərdən yalana həvəslə qulaq asanlar, həm də sənin yanına gəlməyən başqa bir camaata həvəslə qulaq asanlar vardır. Onlar haqqı dərk etdikdən sonra kəlmələrin yerlərini dəyişdirib deyirlər: "Əgər sizə bu dəyişdirilən hökm verilsə, onu götürün. Yox əgər o verilməsə, çəkinin!" Allah kimi fitnəyə salmaq istərsə, sən ondan ötrü heç bir şeylə Allaha mane ola bilməzsən. Onlar o kəslərdir ki, Allah onların qəlbini təmizləmək istəməmişdir. Onlar dünyada rüsvay, axirətdə isə böyük bir əzaba düçar olacaqlar.

(Maidə surəsi, 41)

Bu ona görədir ki, onlar Allahın nazil etdiyinə nifrət edənlərə: "Biz bəzi işlərdə sizə itaət edəcəyik!" – dedilər. Allah onların sirlərini bilir.

(Məhəmməd surəsi, 26)

Şeytanın təsiri altındadırlar

Şeytan onları üstələmiş və Allahı zikr etməyi onlara unutdurmuşdur. Onlar şeytanın firqəsindəndirlər. Şübhə yoxdur ki, şeytanın firqəsindəkilər ziyana uğrayanlardır.

(Mücadilə surəsi, 19)

Şeytanın dostudurlar

Möminlər Allah yolunda, kafirlər isə tağut yolunda vuruşurlar. Elə isə şeytanın dostları ilə vuruşun! Şübhəsiz ki, şeytanın hiyləsi zəifdir.

(Nisa surəsi, 76)

Şeytan onları üstələmiş və Allahı zikr etməyi onlara unutdurmuşdur. Onlar şeytanın firqəsindəndirlər. Şübhə yoxdur ki, şeytanın firqəsindəkilər ziyana uğrayanlardır.

(Mücadilə surəsi, 19)

Allahı, etdikləri pisliklərdən xəbərsiz güman edərlər

Gizli söhbət qadağan ediləndən sonra yenə də qadağan olunmuş əmələ qayıdıb günah, düşmənçilik və Peyğəmbərə qarşı çıxmaq barədə öz aralarında xısın-xısın danışanları görmədinmi? Onlar sənin yanına gəldikdə səni Allahın salamladığı kimi salamlamır və öz-özlərinə: "Bəs niyə Allah bizi dediklərimizə görə cəzalandırmır?" – deyirlər. Cəhənnəm onlara yetər. Onlar orada yanacaqlar. Ora necə də pis dönüş yeridir.

(Mücadilə surəsi, 8)

Allahdan deyil insanlardan qorxarlar

> *Doğrusu, onlar ürəklərində Allahdan çox sizdən qorxurlar. Çünki onlar anlamayan adamlardır.*
>
> **(Həşr surəsi, 13)**

> *Məgər sən, özlərinə: "Müharibədən əl çəkin, namaz qılın və zəkat verin!" – deyilən kəsləri görmədinmi? Onlara vuruşmaq vacib edildikdə, içərilərindən bir dəstəsi Allahdan qorxduqları kimi və ya daha artıq qorxu ilə insanlardan qorxdular və: "Ey Rəbbimiz! Vuruşmağı nə üçün bizə vacib etdin? Nə olardı ki, bizə yaxın vaxtadək möhlət verəydin!" – dedilər. De: "Dünyanın ləzzəti azdır. Müttəqilər üçün isə axirət daha xeyirlidir. Sizə xurma çərdəyindəki lif qədər belə haqsızlıq edilməz".*
>
> **(Nisa surəsi, 77)**

Allahın deyil, insanların rizasını gözləyərlər

> *Qarşınızda and içəcəklər ki, onlardan razı qalasınız. Siz onlardan razı olsanız da, Allah fasiq qövmdən razı qalmaz.*
>
> **(Tövbə surəsi, 96)**

Sizi razı salmaq üçün yanınızda Allaha and içirlər. Əgər mömindirlərsə, bilsinlər ki, Allahı və Onun Elçisini razı salmaları daha yaxşıdır.

(Tövbə surəsi, 62)

Allah yolunda mübarizə etməkdən bəhanələr edərək uzaq dayanarlar

Baxmayaraq ki, onlar bundan əvvəl cihaddan boyun qaçırmayacaqlarına dair Allaha söz vermişdilər. Onlar Allaha verdikləri sözə görə sorğu-sual olunacaqlar.

(Əhzab surəsi, 15)

Əgər Biz onlara: "Özünüzü (aranızdakı günahkarları) öldürün və yaxud yurdlarınızdan çıxın!" – deyə buyurmuş olsaydıq, içərilərindən çox azı bunu yerinə yetirərdi. Əgər onlar özlərinə verilən öyüd-nəsihətlərə əməl etsəydilər, əlbəttə, bu, onlar üçün daha xeyirli və daha mükəmməl olardı.

(Nisa surəsi, 66)

Döyüşə getməyib arxada qalanlar Allahın Elçisinin əleyhinə çıxaraq evdə qalmalarına sevindilər. Onlar Allah yolunda öz malları və canları ilə cihad etmək istəmədilər və: "Bu istidə döyüşə çıxmayın!" – dedilər. De: "Cəhənnəm odu bundan da hərarətlidir!" Kaş anlayaydılar.

(Tövbə surəsi, 81)

Yalnız varlı olduqları halda evdə qalmaq üçün səndən icazə almağa gələnlər danlanmalıdırlar. Onlar arxada qalanlarla birgə daldalanmağa razılaşdılar. Allah onların qəlbini möhürləmişdir. Məhz bu səbəbdən onlar özlərinin aqibətini bilməzlər.

(Tövbə surəsi, 93)

və münafiqləri bəlli etsin. Onlara: "Gəlin, Allah yolunda döyüşün, yaxud heç olmasa müdafiədə durun!" – deyildi. Onlar: "Döyüş olacağını bilsəydik sizin ardınızca gedərdik" – dedilər. Onlar o gün imandan çox küfrə yaxın idilər. Onlar qəlblərində olmayanı ağızları ilə deyirlər. Halbuki Allah onların nəyi gizlətdiklərini çox yaxşı bilir.

(Ali İmran surəsi, 167)

Onlardan bir dəstə demişdi: "Ey Yəsrib əhli! Siz müqavimət göstərə bilməyəcəksiniz. Geri qayıdın!" İçərilərindən bir qismi isə: "Evlərimiz nəzarətsiz qalıb" – deyərək Peyğəmbərdən izin istəyirdi. Halbuki evləri nəzarətsiz deyildi. Onlar sadəcə olaraq qaçmaq istəyirdilər.

(Əhzab surəsi, 13)

Bədəvilərdən üzrlü olduqlarını iddia edənlər evdə qalmaq üçün onlara icazə verilsin deyə gəldilər. Allaha və Onun Elçisinə yalan danışanlar isə evdə oturdular. Onlardan kafir olanlara ağrılı-acılı bir əzab üz verəcəkdir.

(Tövbə surəsi, 90)

Geri qalan bədəvilər sənə: "Var-dövlətimiz və ailələrimiz bizi döyüşə getməkdən yayındırdı. Allahdan bizim üçün bağışlanma dilə!" – deyəcəklər. Onlar qəlblərində olmayanları dilləri ilə deyirlər. De: "Əgər Allah sizə bir zərər yetirmək və ya bir xeyir vermək istəsə, Onun edəcəyi işin qarşısını kim ala bilər?" Xeyr, Allah sizin nə etdiyinizdən xəbərdardır.

(Fəth surəsi, 11)

Allah aranızdan camaatı cihaddan çəkindirənləri və öz qardaşlarına: "Bizə qoşulun!" – deyənləri tanıyır. Onlar nadir hallarda döyüşə qatılırlar.

(Əhzab surəsi, 18)

Mübarizədən geri qalmaqdan sevinc duyarlar

Döyüşə getməyib arxada qalanlar Allahın Elçisinin əleyhinə çıxaraq evdə qalmalarına sevindilər. Onlar Allah yolunda öz malları və canları ilə cihad etmək istəmədilər və: "Bu istidə döyüşə çıxmayın!" – dedilər. De: "Cəhənnəm odu bundan da hərarətlidir!" Kaş anlayaydılar.

(Tövbə surəsi, 81)

Allahı çox az xatırlayarlar

Münafiqlər, həqiqətən də, Allahı aldatmağa çalışırlar. Halbuki Allah onları aldadır. Onlar namaza durarkən könülsüz qalxar, özlərini camaata göstərər və Allahı olduqca az yad edərlər.

(Nisa surəsi, 142)

Şeytan onları üstələmiş və Allahı zikr etməyi onlara unutdurmuşdur. Onlar şeytanın firqəsindəndirlər. Şübhə yoxdur ki, şeytanın firqəsindəkilər ziyana uğrayanlardır.

(Mücadilə surəsi, 19)

Allahın xatırlanmasından narahat olarlar

Kafirlərə açıq-aydın ayələrimiz oxunduqda sən onların üzündə nifrət görərsən. Onlar az qalırlar ki, ayələrimizi onlara oxuyanların üstünə cumsunlar. De: "Sizə bundan daha pisini xəbər verimmi? Bu, Cəhənnəmdir! Allah onu kafirlərə vəd etmişdir. Ora nə pis qayıdış yeridir!"

(Həcc surəsi, 72)

Allahın bəyəndiklərini çirkin görərlər

Biz sizə haqqı təqdim etdik, lakin çoxunuz haqqı xoşlamırdı.

(Zuxruf surəsi, 78)

Bu ona görədir ki, onlar Allahın qəzəbinə səbəb olan şeyə uydular və Onun razı qaldığı şeyə nifrət etdilər. Buna görə də Allah onların əməllərini boşa çıxartdı.

(Məhəmməd surəsi, 28)

Döyüşə getməyib arxada qalanlar Allahın Elçisinin əleyhinə çıxaraq evdə qalmalarına sevindilər. Onlar Allah yolunda öz malları və canları ilə cihad etmək istəmədilər və: "Bu istidə döyüşə çıxmayın!" – dedilər. De: "Cəhənnəm odu bundan da hərarətlidir!" Kaş anlayaydılar.

(Tövbə surəsi, 81)

Könülsüz ibadət edərlər

Onların sərf etdiklərinin qəbul olunmasına yalnız o mane olur ki, onlar Allaha və Onun Elçisinə küfr edir, namaza tənbəlliklə qalxır və mallarını könülsüz xərcləyirlər.

(Tövbə surəsi, 54)

Münafiqlər, həqiqətən də, Allahı aldatmağa çalışırlar. Halbuki Allah onları aldadır. Onlar namaza durarkən könülsüz qalxar, özlərini camaata göstərər və Allahı olduqca az yad edərlər.

(Nisa surəsi, 142)

Göstəriş üçün ibadət edərlər

> *Və o kəsləri ki, öz mallarını insanlara göstərmək məqsədilə xərcləyir, Allaha və Axirət gününə inanmırlar. Kimin yoldaşı şeytandırsa, necə də pis yoldaşdır o!*
>
> **(Nisa surəsi, 38)**

İnfaq edən möminləri məsxərəyə qoyurlar

> *Möminlərdən könüllü surətdə sədəqə verənlərə və çətinliklə tapdıqlarını verənlərə eyib tutanları, onları məsxərəyə qoyanları, Allah məsxərəyə qoyacaqdır. Onları ağrılı-acılı bir əzab gözləyir.*
>
> **(Tövbə surəsi, 79)**

Çətin işlərdən qaçarlar, asan işləri qəbul edərlər

> *Doğrudanmı siz hacılara su verməyi və Məscidulharamı abadlaşdırmağı Allaha və Axirət gününə iman gətirib Allah yolunda cihad edənlərlə eyni tutursunuz? Bilin ki, onlar Allahın yanında bərabər sayılmırlar. Allah zalım qövmü doğru yola yönəltməz.*
>
> **(Tövbə surəsi, 19)**

Möminlərdən bacardıqca uzaq durmağa çalışarlar

Onlara: "Allahın nazil etdiyinə və Elçisinə tərəf gəlin!" – deyildikdə, münafiqlərin səndən nifrətlə üz çevirdiklərini görürsən.

(Nisa surəsi, 61)

Möminlərə əziyyət verməyə çalışarlar

Kafirlərə və münafiqlərə itaət etmə. Onların əziyyətlərinə fikir vermə və Allaha təvəkkül et. Allahın Qoruyan olması kifayətdir.

(Əhzab surəsi, 48)

Möminlərə qarşı nifrət bəsləyərlər

Bax, siz o kəslərsiniz ki, onlara məhəbbət bəsləyir, onlar isə sizi sevmirlər. Siz nazil olan kitabların hamısına inanırsınız. Onlar sizinlə rastlaşanda: "Biz iman gətirdik!" – deyirlər, təklikdə qalanda isə sizə qarşı qəzəbdən barmaqlarının ucunu gəmirirlər. De: "Qəzəbinizdən ölün!" Şübhəsiz ki, Allah göyslərdə olanları bilir.

(Ali İmran surəsi, 119)

Ey iman gətirənlər! Sizlərdən olmayanı özünüzə sirdaş tutmayın. Onlar sizə qarşı fəsad törətməkdən əl çəkməzlər, sizin sıxıntıya düşməyinizi istəyərlər. Düşmənçilikləri onların ağızlarından çıxan sözlərdən bəllidir. Kökslərində gizlətdikləri düşmənçilik isə daha böyükdür. Əgər anlayırsınızsa, Biz ayələri artıq sizə bəyan etdik.

(Ali İmran surəsi, 118)

Xüsusilə peyğəmbərlərə kin və qəzəb bəsləyərlər

Məgər siz andlarını pozan, Peyğəmbəri öz yurdundan qovmaq fikrində olan, özləri də sizinlə döyüşü birinci başlayan bir camaatla vuruşmayacaqsınız? Məgər onlardan qorxursunuz? Əgər möminsinizsə, daha çox Allahdan qorxmalısınız.

(Tövbə surəsi, 13)

Qənimət həmçinin yurdlarından qovulmuş və mallarından məhrum olunmuş yoxsul mühacirlərə məxsusdur. Onlar Allahın mərhəmətini və razılığını qazanmağa can atır, Allaha və Onun Elçisinə kömək edirlər. Doğru olanlar da məhz onlardır.

(Həşr surəsi, 8)

> *Əgər sənlə mübahisə etsələr, de: "Allah sizin nə etdiyinizi daha yaxşı bilir.*
>
> **(Həcc surəsi, 68)**

> *Əgər onlar sənlə mübahisə edərlərsə, de: "Mən özümü ardımca gələnlərlə birlikdə Allaha təslim etmişəm!" Kitab verilənlərə və savadsızlara isə de: "Siz də təslim oldunuzmu?" Əgər təslim olsalar, doğru yola yönəlmiş olarlar. Üz döndərsələr, bil ki, sənin öhdənə düşən ancaq haqqı təbliğ etməkdir. Allah qullarını görür.*
>
> **(Ali İmran surəsi, 20)**

İtaət onlara çox ağır gələr

> *Onlar haqlı olsaydılar, itaət edib onun yanına gələrdilər.*
>
> **(Nur surəsi, 49)**

Mömin birliyinin dağılmasını istəyərlər

> *Məhz onlar: "Allahın Elçisi yanında olanlara bir şey verməyin ki, dağılıb getsinlər!" – deyirlər. Halbuki göylərin və yerin xəzinələri Allahındır, lakin münafiqlər anlamırlar.*
>
> **(Münafiqun surəsi, 7)**

Möminlərin arasında olarkən yalan xəbər yaymağa çalışarlar

> *Şübhəsiz ki, Aişə barəsində yalan xəbər gətirənlər özünüzdən olan bir dəstədir. Onu özünüz üçün pis bir şey hesab etməyin. Əksinə, bu sizin üçün xeyirlidir. O dəstədən olan hər bir şəxsin qazandığı günahın cəzası vardır. İçərilərindən günahın böyüyünü öz üstünə götürəni isə böyük bir əzab gözləyir.*
>
> **(Nur surəsi, 11)**

> *Nə üçün siz bunu eşitdiyiniz zaman mömin kişilər və qadınlar bir-biriləri haqda yaxşı fikirdə olub: "Bu, açıq-aydın bir böhtandır!" – demədilər?*
>
> **(Nur surəsi, 12)**

Möminlərin çətin vəziyyətə düşmələrini istəyərlər

> *Sizə bir uğur nəsib olsa, bu onları kədərləndirər. Sizə bir fəlakət üz verdikdə isə, buna fərəhlənərlər. Əgər səbir etsəniz və Allahdan qorxsanız, onların qurduğu hiylə sizi ziyana sala bilməz. Həqiqətən, Allah onların nə etdiklərini əhatə edir.*
>
> **(Ali İmran surəsi, 120)**

Möminlərin zəngin olmalarını istəməzlər

Məhz onlar: "Allahın Elçisi yanında olanlara bir şey verməyin ki, dağılıb getsinlər!" – deyirlər. Halbuki göylərin və yerin xəzinələri Allahındır, lakin münafiqlər anlamırlar.

(Münafiqun surəsi, 7)

Möminlərə zərər vermək üçün məskən seçərlər

Müsəlmanlara zərər vurmaq, küfr etmək, möminlərin arasına təfriqə salmaq məqsədilə, əvvəlcədən Allaha və Onun Elçisinə qarşı müharibə edən kimsəni gözləmək üçün məscid tikənlər, əlbəttə: "Biz yaxşılıqdan başqa bir şey istəmədik" – deyə and içəcəklər. Allah şahiddir ki, onlar yalançıdırlar.

(Tövbə surəsi, 107)

Heç vaxt orada namaz qılma. İlk gündən təqva üzərində qurulmuş məscid, əlbəttə, içində namaz qılmağın üçün daha layiqdir. Orada təmizlənməyi sevən kişilər vardır. Allah da təmizlənənləri sevir.

(Tövbə surəsi, 108)

Möminlərə yaxşılıq üz verdikdə kədərlənərlər

Sənə bir uğur nəsib olsa, bu onları kədərləndirər. Sənə bir müsibət üz versə: "Biz ehtiyat tədbirimizi əvvəlcədən görmüşük!" – deyər və sevinə-sevinə çıxıb gedərlər.

(Tövbə surəsi, 50)


Gizli toplaşıb möminlərə qarşı üsyan və düşmənçilik planları qurarlar

Gizli söhbət qadağan ediləndən sonra yenə də qadağan olunmuş əmələ qayıdıb günah, düşmənçilik və Peyğəmbərə qarşı çıxmaq barədə öz aralarında xısın-xısın danışanları görmədinmi? Onlar sənin yanına gəldikdə səni Allahın salamladığı kimi salamlamır və öz-özlərinə: "Bəs niyə Allah bizi dediklərimizə görə cəzalandırmır?" – deyirlər. Cəhənnəm onlara yetər. Onlar orada yanacaqlar. Ora necə də pis dönüş yeridir.

(Mücadilə surəsi, 8)

Onlar öz günahlarını insanlardan gizlədir, Allahdan isə gizlətmirlər (Ondan çəkinmirlər). Halbuki onlar Allahın razı qalmadığı sözləri gecələr xəlvətdə söylədikləri vaxt belə, O, onların yanında olur. Allah onların nə etdiklərini əhatə edir.

(Nisa surəsi, 108)



Onlar şübhə içində sarsılırlar

Möminlərin yanında olarkən onları məmnun etməyə çalışarlar

Münafiqlər sənin yanına gəldikləri zaman: "Biz şəhadət veririk ki, sən Allahın Elçisisən!" – deyirlər. Allah da bilir ki, sən Onun Elçisisən. Allah şahiddir ki, münafiqlər əsl yalançıdırlar.

(Münafiqun surəsi, 1)

Döyüşdən qayıtdığınız zaman sizdən üzr diləyəcəklər. De: "Üzr diləməyin. Sizə əsla inanmayacağıq. Allah sizin işlərinizdən bizi agah etmişdir. Sonrakı əməllərinizi Allah da görəcək, Onun Elçisi də". Sonra isə qeybi və aşkarı Bilənin hüzuruna qaytarılacaqsınız, O da sizə nə etdiklərinizi xəbər verəcəkdir.

(Tövbə surəsi, 94)

> *Yanlarına qayıtdığınız zaman onlardan əl çəkəsiniz deyə qarşınızda Allaha and içəcəklər. Siz onlardan üz döndərin. Çünki onlar murdardırlar. Qazandıqları günahların cəzası olaraq sığınacaqları yer Cəhənnəm olacaqdır.*
>
> **(Tövbə surəsi, 95)**

> *Qarşınızda and içəcəklər ki, onlardan razı qalasınız. Siz onlardan razı olsanız da, Allah fasiq qövmdən razı qalmaz.*
>
> **(Tövbə surəsi, 96)**

> *Sizi razı salmaq üçün yanınızda Allaha and içirlər. Əgər mömindirlərsə, bilsinlər ki, Allahı və Onun Elçisini razı salmaları daha yaxşıdır.*
>
> **(Tövbə surəsi, 62)**

Möminləri ləkələməyə çalışarlar

> *Əgər onlar sizi ələ keçirsələr, sizə düşmən kəsilər, əlləri və dilləri ilə sizə pislik edər və sizin kafir olmanızı istəyərlər.*
>
> **(Mumtəhənə surəsi, 2)**

Möminlərin arxasınca onları məsxərəyə qoyarlar

> *O, ayələrimizdən bir şey öyrəndiyi zaman ona lağ edir. Məhz belələri üçün alçaldıcı bir əzab vardır.*
>
> **(Casiyə surəsi, 9)**

> *Onlardan nə üçün istehza etdiklərini soruşsan, deyərlər: "Biz sadəcə boş-boş danışıb zarafatlaşırdıq!" De: "Allaha, Onun ayələrinə və Onun Elçisinə istehzamı edirsiniz?*
>
> **(Tövbə surəsi, 65)**

> *Onlar möminlərlə rastlaşdıqda: "Biz iman gətirdik!" – deyirlər, öz şeytanları (azmış dostları) ilə təklikdə qaldıqda isə: "Biz sizinləyik. Biz möminlərə ancaq istehza edirik!" – deyirlər.*
>
> **(Bəqərə surəsi, 14)**

> *Möminlərdən könüllü surətdə sədəqə verənlərə və çətinliklə tapdıqlarını verənlərə eyib tutanları, onları məsxərəyə qoyanları, Allah məsxərəyə qoyacaqdır. Onları ağrılı-acılı bir əzab gözləyir.*
>
> **(Tövbə surəsi, 79)**

Siz namaza çağırdığınız zaman onlar onu məsxərəyə qoyub oyun-oyuncaq sayarlar. Bu ona görədir ki, onlar düşüncəsiz bir camaatdır.

(Maidə surəsi, 58)

Möminlərin yanılma içində olduqları qənaətindədirlər

Onlara: "Bu insanlar iman gətirdiyi kimi siz də iman gətirin!" – deyildiyi zaman: "Biz də səfehlərin iman gətirdikləri kimi iman gətirək?" – deyirlər. Doğrusu, onlar özləri səfehdirlər, lakin bunu bilmirlər.

(Bəqərə surəsi, 13)

O zaman münafiqlər və qəlbində xəstəlik olanlar dedilər: "Bunları öz dinləri aldatdı!" Kim Allaha təvəkkül etsə, bilsin ki, Allah Qüdrətlidir, Müdrikdir!

(Ənfal surəsi, 49)

Kaş sən kafirləri mələklər onların canını alarkən görəydin. Mələklər onların üzünə və yanlarına vura-vura deyirdilər: "Dadın yandırıcı odun əzabını!

(Ənfal surəsi, 50)

Bu, öz əllərinizlə etdiyiniz əməllərə görədir. Yoxsa Allah qullarına zülm edən deyildir".

(Ənfal surəsi, 51)

Möminləri də Allah yolunda mübarizədən saxlamaq istəyərlər

Onlardan bir dəstə demişdi: "Ey Yəsrib əhli! Siz müqavimət göstərə bilməyəcəksiniz. Geri qayıdın!" İçərilərindən bir qismi isə: "Evlərimiz nəzarətsiz qalıb" – deyərək Peyğəmbərdən izin istəyirdi. Halbuki evləri nəzarətsiz deyildi. Onlar sadəcə olaraq qaçmaq istəyirdilər.

(Əhzab surəsi, 13)

Allah aranızdan camaatı cihaddan çəkindirənləri və öz qardaşlarına: "Bizə qoşulun!" – deyənləri tanıyır. Onlar nadir hallarda döyüşə qatılırlar.

(Əhzab surəsi, 18)

Əgər onlar sizi ələ keçirsələr, sizə düşmən kəsilər, əlləri və dilləri ilə sizə pislik edər və sizin kafir olmanızı istəyərlər.

(Mumtəhənə surəsi, 2)

Döyüşə getməyib arxada qalanlar Allahın Elçisinin əleyhinə çıxaraq evdə qalmalarına sevindilər. Onlar Allah yolunda öz malları və canları ilə cihad etmək istəmədilər və: "Bu istidə döyüşə çıxmayın!" – dedilər. De: "Cəhənnəm odu bundan da hərarətlidir!" Kaş anlayaydılar.

(Tövbə surəsi, 81)

Fitnəkardırlar

O kəslər ki, Allahla əhd-peyman bağladıqdan sonra onu pozur, Allahın qovuşdurulmasını əmr etdiyi şeyləri (qohumluq əlaqələrini) kəsir və yer üzündə fitnə-fəsad törədirlər. Məhz onlar ziyana uğrayanlardır!

(Bəqərə surəsi, 27)

Əgər onlar sizinlə birgə döyüşə çıxsaydılar, ancaq işinizdə qarışıqlığı artırar və sizi fitnəyə məruz qoymaq üçün tez aranıza girərdilər. İçinizdə onlara qulaq asanlar da var. Allah zalımları tanıyır.

(Tövbə surəsi, 47)

Əgər Mədinənin hər tərəfindən üstlərinə hücum edilsəydi, sonra da onlardan fitnə törətmək (imandan dönmək) tələb olunsaydı, onu mütləq edər və cüzi şey istisna olmaqla bunda ləngiməzdilər.

(Əhzab surəsi, 14)

Onlar əvvəllər də fitnəkarlıq etməyə çalışmış və sənin əleyhinə hiylələr qurmuşdular. Axır ki, haqq yerini tapdı və onlar istəmədikləri halda Allahın hökmü qələbə çaldı.

(Tövbə surəsi, 48)

Düzəltmək adı altında fitnə-fəsad törədərlər

Onlara: "Yer üzündə fəsad törətməyin!" – deyildiyi zaman: "Biz ki, ancaq xeyirxahlıq edənlərik!" – deyirlər.

(Bəqərə surəsi, 11)

Sözsüz ki, onlar fəsad törədənlərdir, amma bunu başa düşmürlər.

(Bəqərə surəsi, 12)

Andlarını sipər edib möminləri aldatmağa çalışarlar

Onlar andlarını sipər edib insanları Allah yolundan döndərdilər. Həqiqətən, onların törətdikləri əməllər necə də pisdir!

(Münafiqun surəsi, 2)

> *Bu ona görədir ki, onlar iman gətirdikdən sonra kafir oldular. Sonra da onların qəlbinə möhür vuruldu. Artıq onlar anlamırlar.*
>
> **(Münafiqun surəsi, 3)**

Davamlı qarışıqlıq çıxarmaq üçün çalışarlar

> *Çevrənizdəki bədəvilərdən və Mədinə əhalisi arasında münafiqlər var. Onlar ikiüzlülükdə inadkarlıq göstərir, sən isə onları tanımırsan. Biz ki onları tanıyırıq. Biz onlara iki dəfə işgəncə verəcəyik. Sonra isə böyük bir əzaba qaytarılacaqlar.*
>
> **(Tövbə surəsi, 101)**

> *Onlara əmin-amanlıq və ya qorxu xəbəri gəldikdə, onu yayarlar. Halbuki bunu Peyğəmbərə və özlərindən olan nüfuz sahiblərinə çatdırsaydılar, içərilərindən onun mahiyyətinə varan kəslər o xəbəri bilərdilər. Əgər sizə Allahın lütfü və rəhmi olmasaydı, əlbəttə, az bir qisminiz istisna olmaqla, hamınız şeytana uyardınız.*
>
> **(Nisa surəsi, 83)**

Əgər ikiüzlülər, qəlbi xəstə olanlar və şəhərdə qarayaxma şayiələr yayanlar öz yaramaz əməllərinə son qoymasalar, səni onlara qarşı çıxmağa çağırarıq. Sonra onlar orada artıq səninlə ancaq qısa bir müddət ərzində qonşuluq edər və

(Əhzab surəsi, 60)

Əgər Mədinənin hər tərəfindən üstlərinə hücum edilsəydi, sonra da onlardan fitnə törətmək (imandan dönmək) tələb olunsaydı, onu mütləq edər və cüzi şey istisna olmaqla bunda ləngiməzdilər.

(Əhzab surəsi, 14)

Siz bir başqalarına da rast gələcəksiniz ki, onlar həm sizdən, həm də öz camaatından arxayın olmaq istəyərlər. Onlar hər dəfə fitnəyə qaytarıldıqda gözüyumulu ona qoşularlar. Əgər onlar sizdən aralanıb geri çəkilməsələr, sizə sülh təklif etməsələr və sizdən əl çəkməsələr, onlara harada rast gəlsəniz, tutub öldürün. Biz onlara qarşı sizə açıq-aydın dəlil verdik.

(Nisa surəsi, 91)

İnsanların eləsi də var ki, onun bu dünya həyatında danışdığı sözlər səni heyran edər. O, qəlbində olana Allahı şahid göstərər. Əslində o, ən qatı mübahisəçidir.

(Bəqərə surəsi, 204)

> *O, dönüb getdikdə yer üzündə fitnə-fəsad törətməyə, əkinləri və nəsilləri məhv etməyə çalışar. Allah isə fitnə-fəsadı sevmir.*
>
> **(Bəqərə surəsi, 205)**

Mənfəətləri üçün möminlərin arasında mömin kimi davranmağı davam etdirərlər

> *İçərinizdə elələri də var ki, cihada çıxdıqda özlərini yubandırar və sizə bir müsibət üz vermiş olduqda: "Allah mənə mərhəmət göstərdi ki, mən onlarla birlikdə bəlaya düçar olmadım" – deyər.*
>
> **(Nisa surəsi, 72)**

> *Əgər Allahdan sizə bir lütf yetişərsə, onda guya sizinlə onun arasında heç vaxt bağlılıq olmamış kimi: "Kaş mən də onlarla birlikdə olub böyük bir uğur qazanaydım!" – deyər.*
>
> **(Nisa surəsi, 73)**

Mənfəətlərini qarşılaya bilmədiyi zaman möminlərdən ayrılarlar

Məgər sən, özlərinə: "Müharibədən əl çəkin, namaz qılın və zəkat verin!" – deyilən kəsləri görmədinmi? Onlara vuruşmaq vacib edildikdə, içərilərindən bir dəstəsi Allahdan qorxduqları kimi və ya daha artıq qorxu ilə insanlardan qorxdular və: "Ey Rəbbimiz! Vuruşmağı nə üçün bizə vacib etdin? Nə olardı ki, bizə yaxın vaxtadək möhlət verəydin!" – dedilər. De: "Dünyanın ləzzəti azdır. Müttəqilər üçün isə axirət daha xeyirlidir. Sizə xurma çərdəyindəki lif qədər belə haqsızlıq edilməz".

(Nisa surəsi, 77)

Əgər səfəriniz gəlir gətirən və yüngül bir yürüş olsaydı, onlar mütləq sənin ardınca gedərdilər. Lakin əziyyətli yol onlara çətin gəldi. Onlar: "Əgər taqətimiz olsaydı, biz də sizinlə bərabər çıxardıq!" – deyə Allaha and içəcəklər. Onlar özlərini həlak edirlər. Çünki Allah onların yalançı olduqlarını bilir.

(Tövbə surəsi, 42)

Onlar dedilər: "Ey Musa! Nə qədər ki onlar oradadırlar, biz ora heç vaxt girməyəcəyik. Odur ki, sən və sənin Rəbbin gedin, onlarla vuruşun. Biz isə burada oturacağıq".

(Maidə surəsi, 24)

Möminlərə zərər vermək üçün möminlərin qarşılaşacaqları çətin anları gözləyərlər

Əgər onlar sizinlə birgə döyüşə çıxsaydılar, ancaq işinizdə qarışıqlığı artırar və sizi fitnəyə məruz qoymaq üçün tez aranıza girərdilər. İçinizdə onlara qulaq asanlar da var. Allah zalımları tanıyır.

(Tövbə surəsi, 47)

Çətinlik zamanında həqiqi üzləri ortaya çıxar

Geri qalan bədəvilərə de: "Siz çox qüvvətli bir tayfaya qarşı döyüşməyə çağırılacaqsınız. Siz ya onlarla döyüşəcəksiniz, ya da onlar müsəlman olacaqlar. Əgər itaət etsəniz, Allah sizə gözəl bir mükafat verər. Yox, əgər daha əvvəl üz döndərdiyiniz kimi üz döndərsəniz, O sizə ağrılı-acılı bir əzab verər".

(Fəth surəsi, 16)

Möminlərin düşmənlərinin özlərinə də zərər verməsindən çox qorxarlar

Sən qəlbində xəstəlik olanların: "Qorxuruq ki, başımıza bir fəlakət gələ" – deyərək onların Kitab əhli arasında vurnuxduqlarını görürsən. Ola bilsin ki, Allah qələbə bəxş etsin və ya Öz tərəfindən bir əmr versin və onlar ürəklərində gizlətdiklərindən peşman olsunlar.

(Maidə surəsi, 52)

Xüsusilə çətinlik zamanında fitnə çıxararlar

Münafiqlər müttəfiqlərin çıxıb getmədiklərini güman edirlər. Əgər müttəfiqlər bir də gəlmiş olsaydı, onlar bədəvilər arasında köçəri həyat sürüb barənizdəki xəbərləri soruşub öyrənmək istəyərdilər. Hərgah aranızda olsaydılar, ancaq azacıq döyüşərdilər.

(Əhzab surəsi, 20)

Çətinlik zamanında sədaqətsizlik edərlər

Onlar dedilər: "Ey Musa! Nə qədər ki onlar oradadırlar, biz ora heç vaxt girməyəcəyik. Odur ki, sən və sənin Rəbbin gedin, onlarla vuruşun. Biz isə burada oturacağıq".

(Maidə surəsi, 24)

> *O dedi: "Ey Rəbbim! Mən yalnız özümə və qardaşıma hökm edə bilərəm. Odur ki, Sən bizi bu günahkar tayfadan ayır!"*
>
> **(Maidə surəsi, 25)**

> *Allah dedi: "Artıq o müqəddəs yer onlara qırx il müddətinə haram edildi. Onlar yer üzündə sərgərdan gəzəcəklər. Sən isə günahkar tayfa üçün heyfsilənmə".*
>
> **(Maidə surəsi, 26)**

> *itaət etsinlər və xoş söz söyləsinlər. Cihada qəti əmr verildiyi zaman Allaha sadiq qalsaydılar, əlbəttə ki, onlar üçün daha yaxşı olardı.*
>
> **(Məhəmməd surəsi, 21)**

Çətinliklərlə qarşılaşmamışdan öncə mömin kimi danışarlar

> *Möminlər: "Kaş cihada dair bir surə nazil olaydı!"- deyirlər. Hökmü bəlli bir surə nazil olub orada döyüş yada salınan kimi qəlbində xəstəlik olanların sənə ölüm ayağında bayılan kimsənin baxışı ilə baxdıqlarını görərsən. Onlara daha yaxşı olardı ki,*
>
> **(Məhəmməd surəsi, 20)**

Siz ölümlə qarşılaşmamışdan öncə onu arzulayırdınız. İndi isə siz onu öz gözlərinizlə gördünüz.

(Ali İmran surəsi, 143)

Təkəbbürlüdürlər

Onlara: "Gəlin Allahın Elçisi sizin üçün bağışlanma diləsin!" – deyildiyi zaman başlarını yelləyir və sən onların özlərini dartaraq üz döndərdiklərini görürsən.

(Münafiqun surəsi, 5)

Mənfəətlərinə uyğun olduqda möminlərdən olarlar

İçərinizdə elələri də var ki, cihada çıxdıqda özlərini yubandırar və sizə bir müsibət üz vermiş olduqda: "Allah mənə mərhəmət göstərdi ki, mən onlarla birlikdə bəlaya düçar olmadım" – deyər.

(Nisa surəsi, 72)

Əgər Allahdan sizə bir lütf yetişərsə, onda guya sizinlə onun arasında heç vaxt bağlılıq olmamış kimi: "Kaş mən də onlarla birlikdə olub böyük bir uğur qazanaydım!" – deyər.

(Nisa surəsi, 73)

Üzlərindən, qüsurlu baxış və söhbətlərindən tanınarlar

Əgər Biz istəsəydik, onları sənə göstərərdik, sən də onları üzlərindəki əlamətlərdən tanıyardın. Sən onları danışıq tərzlərindən mütləq tanıyacaqsan. Allah sizin əməllərinizi bilir.

(Məhəmməd surəsi, 30)

Nankordurlar

Onların bağışlanması üçün dua etsən də, etməsən də, hətta onlar üçün yetmiş dəfə bağışlanma diləsən belə, Allah onları əsla bağışlamayacaqdır. Çünki onlar Allahı və Onun Elçisini inkar etdilər. Allah günahkar insanları doğru yola yönəltməz.

(Tövbə surəsi, 80)

Xarici görünüşləri və söhbətləri göstərişli ola bilər

Sən onlara baxdıqda bədən quruluşları xoşuna gəlir, danışanda onların dediklərinə qulaq asırsan. Halbuki, onlar divara söykədilmiş dirəklər kimidirlər. Onlar hər bir səs-küyün özlərinə qarşı olduğunu sanırlar. Onlar düşməndirlər. Sən onlardan çəkin! Allah onları məhv etsin, necə də haqdan döndərilirlər!

(Münafiqun surəsi, 4)

Ağılsızdırlar

Bir surə nazil edildiyi zaman onlar: "Sizi kimsə görürmü?" – deyə bir-birlərinə baxır, sonra da üz çevirib gedirlər. Anlamayan adamlar olduqlarına görə Allah onların qəlbini imandan məhrum etmişdir.

(Tövbə surəsi, 127)



Münafiqlər cəhənnəm odunun ən aşağı yerindədirlər

Siz namaza çağırdığınız zaman onlar onu məsxərəyə qoyub oyun-oyuncaq sayarlar. Bu ona görədir ki, onlar düşüncəsiz bir camaatdır.

(Maidə surəsi, 58)

Onlara: "Bu insanlar iman gətirdiyi kimi siz də iman gətirin!" – deyildiyi zaman: "Biz də səfehlərin iman gətirdikləri kimi iman gətirək?" – deyirlər. Doğrusu, onlar özləri səfehdirlər, lakin bunu bilmirlər.

(Bəqərə surəsi, 13)

> *Onlardan səni dinləyənlər də vardır. Məgər karlara – əgər anlamırlarsa – sənmi eşitdirəcəksən?*
>
> **(Yunis surəsi, 42)**

Özlərini möminlərdən daha ağıllı zənn edərlər

> *Evlərində oturub öz qardaşları barəsində: "Əgər onlar bizə qulaq asmış olsaydılar, öldürülməzdilər" – söyləyənlərə de: "Əgər doğru danışırsınızsa, onda ölümü özünüzdən uzaqlaşdırın!"*
>
> **(Ali İmran surəsi, 168)**

Davamlı çətinlik, narahatlıq və qorxu içindədirlər

> *Sən onlara baxdıqda bədən quruluşları xoşuna gəlir, danışanda onların dediklərinə qulaq asırsan. Halbuki, onlar divara söykədilmiş dirəklər kimidirlər. Onlar hər bir səs-küyün özlərinə qarşı olduğunu sanırlar. Onlar düşməndirlər. Sən onlardan çəkin! Allah onları məhv etsin, necə də haqdan döndərilirlər!*
>
> **(Münafiqun surəsi, 4)**

> *Onlar sizinlə həmrəy olduqlarına and içirlər. Halbuki onlar sizdən deyildirlər. Əslində, onlar qorxaq adamlardır.*
>
> **(Tövbə surəsi, 56)**

Başlarına gələnlərdən ibrət almağı bilməzlər

Onlar ildə bir və ya iki dəfə fəlakətə uğradıqlarını görmürlərmi? Yenə də tövbə etmir, ibrət almırlar.

(Tövbə surəsi, 126)

Davamlı özlərini tərifləyər, təmizə çıxarmağa çalışarlar

Özlərini öyənləri görmürsənmi? Xeyr! Allah istədiyini tərifləyər və onlara xurma çərdəyindəki lif qədər haqsızlıq edilməz.

(Nisa surəsi, 49)

Davamlı zənnlərə aldanar, şübhəyə düşərlər

Münafiqlər onları haraylayıb deyəcəklər: "Məgər biz sizinlə birlikdə deyildikmi?" Möminlər deyəcəklər: "Bəli, lakin siz öz-özünüzü aldadırdınız, möminlərə bəla üz verməsini gözləyirdiniz, haqqa şübhə edirdiniz və Allahın əmri gələnədək xülyalar sizi yoldan çıxartdı. Tovlayan şeytan Allah barəsində sizi yaman aldatdı.

(Hədid surəsi, 14)

Öz aralarında da anlaşılmazlıq içindədirlər

Onlar hamılıqla sizə qarşı ancaq möhkəmləndirilmiş şəhərlərdə və ya divar arxasından vuruşarlar. Onların öz aralarındakı düşmənçilik isə çox kəskindir. Sən onların həmrəy olduğunu güman edirsən, halbuki onların qəlbləri dağınıqdır. Bu ona görədir ki, onlar ağlı kəsməyən adamlardır.

(Həşr surəsi, 14)

Allahın möminlərə olan dəstəyinin fərqində deyildirlər

Məhz onlar: "Allahın Elçisi yanında olanlara bir şey verməyin ki, dağılıb getsinlər!" – deyirlər. Halbuki göylərin və yerin xəzinələri Allahındır, lakin münafiqlər anlamırlar.

(Münafiqun surəsi, 7)

Onlar: "Əgər biz Mədinəyə qayıtsaq, ən qüdrətlilər (münafiqlər) ən alçaqları (müsəlmanları) mütləq oradan çıxardacaqlar!" – deyirlər. Halbuki qüdrət yalnız Allaha, Onun Elçisinə və möminlərə məxsusdur, lakin bunu münafiqlər bilmirlər.

(Münafiqun surəsi, 8)

Allah yolunda xərcləməzlər

Onlardan: "Əgər Allah Öz lütfündən bizə bəxş etsə, əlbəttə, biz sədəqə verər və əməlisalehlərdən olarıq!" – deyə Allaha əhd edənləri də vardır.

(Tövbə surəsi, 75)

Allah Öz lütfündən onlara verdikdə isə simiclik edərək üz çevirib getdilər.

(Tövbə surəsi, 76)

Allaha verdikləri vədə xilaf çıxdıqlarına və yalan söylədiklərinə görə Allah da onların qəlblərinə Onunla qarşılaşacaqları günədək nifaq saldı.

(Tövbə surəsi, 77)

Küfrə xəbər apararlar

Əgər onlar sizinlə birgə döyüşə çıxsaydılar, ancaq işinizdə qarışıqlığı artırar və sizi fitnəyə məruz qoymaq üçün tez aranıza girərdilər. İçinizdə onlara qulaq asanlar da var. Allah zalımları tanıyır.

(Tövbə surəsi, 47)

Qarşılıqsız heç bir şey etməzlər

Sonra O, bu qəm-qüssənin ardınca sizə bir təskinlik – bir qisminizi bürüyən mürgü nazil etdi. O biri qisminiz isə öz canlarının hayına qaldı. Onlar: "Bu işdə bizim üçün bir xeyir varmı?" – deyə Allah barəsində haqsız olaraq, cahiliyyə dövründəkinə bənzər düşüncələrə qapıldılar. De: "Bütün işlər Allaha aiddir!" Onlar sənə bildirmədiklərini öz içərilərində gizlədir: "Əgər bu işdə bizim üçün bir xeyir olsaydı, elə buradaca öldürülməzdik" – deyirlər. De: "Əgər siz evlərinizdə olsaydınız belə, öldürülməsi qabaqcadan müəyyən edilmiş kimsələr yenə çıxıb öləcəkləri yerlərə gedərdilər. Allah sizin köksünüzdə olanları sınamaq, qəlblərinizdə olanları təmizləmək üçün belə etdi. Allah köksünüzdə olanları bilir".

(Ali İmran surəsi, 154)

Məqsədlərinin heç birinə çata bilməzlər

Onlar əvvəllər də fitnəkarlıq etməyə çalışmış və sənin əleyhinə hiylələr qurmuşdular. Axır ki, haqq yerini tapdı və onlar istəmədikləri halda Allahın hökmü qələbə çaldı.

(Tövbə surəsi, 48)

Allah onların vəziyyətlərini mütləq ortaya çıxarar

Yoxsa qəlblərində xəstəlik olanlar elə hesab edirdilər ki, Allah onların kin-küdurətini üzə çıxarmayacaq?

(Məhəmməd surəsi, 29)

Uhudda iki qoşunun üz-üzə gəldiyi gün sizə üz vermiş müsibət Allahın izni ilə oldu ki, möminləri aşkara çıxartsın

(Ali İmran surəsi, 166)

və münafiqləri bəlli etsin. Onlara: "Gəlin, Allah yolunda döyüşün, yaxud heç olmasa müdafiədə durun!" – deyildi. Onlar: "Döyüş olacağını bilsəydik sizin ardınızca gedərdik" – dedilər. Onlar o gün imandan çox küfrə yaxın idilər. Onlar qəlblərində olmayanı ağızları ilə deyirlər. Halbuki Allah onların nəyi gizlətdiklərini çox yaxşı bilir.

(Ali İmran surəsi, 167)

Allah onları dünyada rüsvay edər

Onlarla vuruşun ki, Allah sizin əllərinizlə onlara əzab versin, onları rüsvay etsin, sizə onların üzərində qələbə çaldırsın, mömin camaatın qəlbini sevindirsin

(Tövbə surəsi, 14)

Cəhənnəmin ən aşağı təbəqəsinə atılacaqlar

> *Həqiqətən, münafiqlər Odun ən aşağı təbəqəsində olacaqlar; və sən onlara heç bir köməkçi tapa bilməzsən.*
>
> **(Nisa surəsi, 145)**

> *Münafiqlərə müjdə ver ki, onlar üçün ağrılı-acılı bir əzab vardır.*
>
> **(Nisa surəsi, 138)**

FƏSİL

İman etməyənlər

> *Biz Cəhənnəm üçün bir çox cinlər və insanlar yaratdıq. Onların qəlbləri var, onunla anlamazlar; gözləri var, onunla görməzlər; qulaqları var, onunla eşitməzlər. Onlar heyvan kimidirlər, hətta daha çox azğınlıqdadırlar. Qafil olanlar da məhz onlardır.*
>
> **(Əraf surəsi, 179)**

Allaha iman etməzlər

> *Çünki o, Böyük Allaha iman gətirmirdi,*
>
> **(Haqqə surəsi, 33)**

> *Kitab verilənlərdən Allaha və Axirət gününə iman gətirməyən, Allahın və Onun Elçisinin haram buyurduğunu haram saymayan və həqiqi din olan İslama etiqad etməyənlərlə, zəlil günə qalıb öz əlləri ilə cizyə verməyə məcbur oluncaya qədər vuruşun.*
>
> **(Tövbə surəsi, 29)**

Allahdan qorxmazlar

De: "Sizə göydən və yerdən ruzi verən kimdir? Qulaqlara və gözlərə hakim olan kimdir? Ölüdən diri çıxaran, diridən də ölü çıxaran kimdir? İşləri yoluna qoyan kimdir?" Onlar deyəcəklər: "Allah!" De: "Bəs belə olduğu halda Allahdan qorxmursunuz?"

(Yunis surəsi, 31)

Onlara öz Rəbbindən istənilən bir yeni xəbərdarlıq gəldikdə, ona istehza edərək, qulaq asmazlar –

(Ənbiya surəsi, 2)

Allaha şərik qoşarlar

Olmaya, kafirlər Məni qoyub qullarımı özlərinə dost tutacaqlarını güman edirdilər? Həqiqətən, Biz Cəhənnəmi kafirlər üçün mənzil hazırlamışıq.

(Kəhf surəsi, 102)

Bir çarə tapmaları üçün müşriklər Allahdan başqa məbudlar qəbul etdilər.

(Yasin surəsi, 74)

Allaha qarşı hörmətsizdirlər

Çünki onlara: "Allahdan başqa ibadətə layiq olan məbud yoxdur!" – deyildikdə təkəbbür göstərir

(Saffat surəsi, 35)

Onlar özlərinə verdiyimiz ruzidən heç nə dərk etmək qabiliyyətində olmayanlara pay ayırırlar. Allaha and olsun ki, atdığınız iftiralara görə mütləq sorğu-sual olunacaqsınız.

(Nəhl surəsi, 56)

Onlar qızları Allaha aid edirlər. O, pak və müqəddəsdir. Özlərinə isə istədiklərini məxsus edirlər.

(Nəhl surəsi, 57)

Allahın xatırlanmasına dözə bilməzlər

Onlar ağızları ilə Allahın nurunu söndürmək istəyirlər. Allah isə buna yol verməz, kafirlərin xoşuna gəlməsə də, O, Öz nurunu tamamlayar.

(Tövbə surəsi, 32)

Kafirlər: "Bu Qurana qulaq asmayın, oxunarkən hay-küy salın. Bəlkə, qalib gələsiniz" – dedilər.

(Fussilət surəsi, 26)

Kafirlərə açıq-aydın ayələrimiz oxunduqda sən onların üzündə nifrət görərsən. Onlar az qalırlar ki, ayələrimizi onlara oxuyanların üstünə cumsunlar. De: "Sizə bundan daha pisini xəbər verimmi? Bu, Cəhənnəmdir! Allah onu kafirlərə vəd etmişdir. Ora nə pis qayıdış yeridir!"

(Həcc surəsi, 72)

Quranı anlamasınlar deyə, Biz onların qəlbinə örtüklər çəkdik, qulaqlarına da tıxac vurduq. Sən Quranda Rəbbinin Tək Allah olduğunu yada saldığın zaman onlar bu dəvətə nifrət edərək arxalarını çevirib gedərlər.

(İsra surəsi, 46)

Allah tək olaraq xatırlandığı zaman Axirətə inanmayanların qəlbini nifrət bürüyür. Ondan qeyriləri yad edildiyi zaman isə onlar sevinirlər.

(Zumər surəsi, 45)

> *O kəslərə ki, gözlərinə Məni anmamaq üçün pərdə çəkmişdilər, özləri də eşidə bilmirdilər.*
>
> **(Kəhf surəsi, 101)**

> *Həqiqətən, kafirlər Zikri (Quranı) eşitdikləri zaman öz baxışları ilə az qala səni gözə gətirələr. Onlar çarəsizlikdən: "O, dəlidir!" – deyirlər.*
>
> **(Qələm surəsi, 51)**

Allahı özlərinin etdiklərindən xəbərsiz zənn edərlər

> *Yoxsa onlar elə hesab edirlər ki, Biz onların sirlərini və gizli danışıqlarını eşitmirik? Xeyr! Yanlarında əməllərini yazan elçilərimiz vardır.*
>
> **(Zuxruf surəsi, 80)**

> *Məgər anlamırdılar ki, Allah onların sirlərindən də, xəlvəti danışıqlarından da agahdır və Allah qeybləri biləndir?*
>
> **(Tövbə surəsi, 78)**

Siz qulaqlarınızın, gözlərinizin və dərilərinizin əleyhinizə şahid olmasından çəkinib gizlənmirdiniz. Əksinə, elə zənn edirsiniz ki, Allah sizin etdiyiniz əməllərin çoxunu bilmir.

(Fussilət surəsi, 22)

Məgər onlar bilmirlər ki, Allah onların gizli saxladıqlarını və aşkara çıxartdıqlarını bilir?

(Bəqərə surəsi, 77)

Qiyamətin varlığına inanmazlar

Doğrusu, onlar haqq-hesab çəkiləcəklərinə ümid etmirdilər.

(Nəbə surəsi, 27)

İnsanların hesaba çəkiləcəkləri gün yaxınlaşdı. Amma onlar hələ də qəflət içində imandan üz çevirirlər.

(Ənbiya surəsi, 1)

Lakin onlar Qiyamət Saatını da yalan saydılar. Biz də onu yalan sayanlardan ötrü yandırıb-yaxan bir od hazırladıq.

(Furqan surəsi, 11)

Sizə: "Allahın vədi haqdır və o Saata heç bir şəkk-şübhə yoxdur!" – deyildiyi zaman: "Biz o Saatın nə olduğunu bilmirik! Onun ancaq bir zənn olduğunu güman edirik. Biz buna əmin deyilik!" – deyirdiniz".

(Casiyə surəsi, 32)

Qiyamətə inanmayanlar onun tez gəlib çatmasını istəyirlər. Möminlər isə ondan qorxur və onun həqiqət olduğunu bilirlər. Şübhəsiz ki, o Saat barəsində mübahisə edənlər dərin bir azğınlıq içindədirlər.

(Şura surəsi, 18)

Axirətin varlığına inanmazlar

Xeyr! Əksinə, onlar Axirətdən qorxmurlar.

(Müddəssir surəsi, 53)

Doğrusu, onlar haqq-hesab çəkiləcəklərinə ümid etmirdilər.

(Nəbə surəsi, 27)

Məgər onlar özlüyündə fikirləşmirlər ki, Allah göyləri, yeri və onların arasındakıları ancaq bir gerçəklik kimi və müəyyən müddətə qədər yaratmışdır? Lakin, insanların çoxu Rəbbi ilə qarşılaşacağını inkar edir.

(Rum surəsi, 8)

Axirətə inanmayanlar isə doğru yoldan çıxırlar.

(Muminun surəsi, 74)

Allahın özlərini öldükdən sonra dirildəcəyinə inanmazlar

Onlar Rəbbinin ayələrini və Onunla qarşılaşacaqlarını inkar edən, buna görə də bütün əməlləri boşa çıxan kimsələrdir. Odur ki, Qiyamət günü Biz onlara əhəmiyyət verməyəcəyik".

(Kəhf surəsi, 105)

Kafir olduqlarına, ayələrimi və elçilərimi lağlağıya qoyduqlarına görə onların cəzası Cəhənnəmdir.

(Kəhf surəsi, 106)

Əgər siz özünüz kimi adi bir insana itaət etsəniz, mütləq ziyana uğrayarsınız.

(Muminun surəsi, 34)

O sizə ölüb torpağa və sür-sümüyə çevrildikdən sonra dirildilib yenidən çıxarılacağınızımı vəd edir?

(Muminun surəsi, 35)

Sizə vəd olunan şey həqiqətdən çox uzaqdır, çox uzaq!

(Muminun surəsi, 36)

Dünya həyatımızdan başqa heç bir həyat yoxdur; ölüb dirilirik (birimiz ölür, digərimiz anadan olur) və biz dirilməyəcəyik.

(Muminun surəsi, 37)

Bu, ancaq Allaha iftira yaxan bir adamdır. Biz ona inanan deyilik".

(Muminun surəsi, 38)

Bu, ayələrimizi inkar etdiklərinə və: "Məgər biz sür-sümük və ovuntu olduğumuz halda yeni bir məxluq olaraq dirildiləcəyik?" – dediklərinə görə onların cəzasıdır.

(İsra surəsi, 98)

Onlar deyirlər: "Biz torpağın içində yox olandan sonra yenidənmi yaradılacağıq?" Doğrusu, onlar öz Rəbbi ilə qarşılaşacaqlarını inkar edirlər.

(Səcdə surəsi, 10)

Həm də onların elmi axirəti qavrayıb dərk edə bilməz. Üstəlik də onun barəsində şəkk-şübhə içindədirlər, hətta ona qarşı kor kimi baxarlar".

(Nəml surəsi, 66)

Kafirlər dedilər: "Məgər biz və atalarımız torpağa qarışdıqdan sonra qəbirlərdən çıxardılacağıq?

(Nəml surəsi, 67)

Allaha, dinə və iman gətirənlərə qarşı kin və nifrət bəsləyərlər

Allah insanı nütfədən yaratdı. O isə açıq-aşkar mübahisəçiyə çevrildi.

(Nəhl surəsi, 4)

Müşriklərin xoşuna gəlməsə də, İslamı bütün dinlərdən üstün etmək üçün Öz Elçisini doğru yol göstəricisi və haqq din ilə göndərən Odur.

(Tövbə surəsi, 33)

Allah tək olaraq xatırlandığı zaman Axirətə inanmayanların qəlbini nifrət bürüyür. Ondan qeyriləri yad edildiyi zaman isə onlar sevinirlər.

(Zumər surəsi, 45)

Ayələrimiz onlara oxunduğu zaman sanki onları eşitmirmiş, qulaqlarında tıxac varmış kimi təkəbbürlə üz çevirər. Sən belələrini ağrılı-acılı bir əzabla müjdələ.

(Loğman surəsi, 7)

Biz sizə haqqı təqdim etdik, lakin çoxunuz haqqı xoşlamırdı.

(Zuxruf surəsi, 78)

Onlara: "Mərhəmətli Allaha səcdə edin!" – deyildikdə: "Mərhəmətli Allah nədir? Məgər bizə əmr etdiyin şeyə səcdə etməliyik?" – deyərlər. Bu da onların nifrətini artırar.

(Furqan surəsi, 60)

Ey iman gətirənlər! Sizlərdən olmayanı özünüzə sirdaş tutmayın. Onlar sizə qarşı fəsad törətməkdən əl çəkməzlər, sizin sıxıntıya düşməyinizi istəyərlər. Düşmənçilikləri onların ağızlarından çıxan sözlərdən bəllidir. Köksələrində gizlətdikləri düşmənçilik isə daha böyükdür. Əgər anlayırsınızsa, Biz ayələri artıq sizə bəyan etdik.

(Ali İmran surəsi, 118)

Bax, siz o kəslərsiniz ki, onlara məhəbbət bəsləyir, onlar isə sizi sevmirlər. Siz nazil olan kitabların hamısına inanırsınız. Onlar sizinlə rastlaşanda: "Biz iman gətirdik!" – deyirlər, təklikdə qalanda isə sizə qarşı qəzəbdən barmaqlarının ucunu gəmirirlər. De: "Qəzəbinizdən ölün!" Şübhəsiz ki, Allah kökslərdə olanları bilir.

(Ali İmran surəsi, 119)

Allahın göndərdiyi elçiləri yalanlayarlar

Onlardan əvvəl Nuhun xalqı və sonrakı əlbir dəstələr də elçiləri yalançı saydılar. Hər ümmət öz elçilərini yaxalamağa qəsd edirdi. Onlar həqiqətin yalan olduğunu sübuta yetirmək üçün batil sözlərlə mübahisə aparırdılar. Mən də onları yaxaladım. Bir görəydin Mənim cəzam necə oldu!

(Mümin surəsi, 5)

Quran haqqında şübhə içindədirlər

Kafir olanlar isə, o Saat qəflətən onların başlarının üstünü alanadək, yaxud səmərəsiz bir günün əzabı onlara gəlib yetişənədək, Quran barəsində şəkk-şübhə içində qalarlar.

(Həcc surəsi, 55)


Öyüd almazlar

> *Onlara öz Rəbbinin ayələrindən elə bir ayə gəlmir ki, ondan üz döndərməsinlər.*
>
> **(Yasin surəsi, 46)**

> *Onlara xatırlatdıqda düşünüb ibrət almırlar.*
>
> **(Saffat surəsi, 13)**

> *Onlara nə olub ki, nəsihətdən üz döndərirlər?*
>
> **(Müddəssir surəsi, 49)**

> *Sanki ürküdülmüş vəhşi uzunqulaqlardır ki,*
>
> **(Müddəssir surəsi, 50)**



İman gətirməyənlər dünyanı özlərinə tanrı etdilər

ovçulardan (yaxud aslandan) qaçırlar.

(Müddəssir surəsi, 51)

Zülm edərək iman edənlərə qarşı qalib gəlməyə çalışarlar

Firon dedi: "Mən sizə izin verməmişdən əvvəl siz ona imanmı gətirdiniz? Şübhəsiz ki, o sizə sehr öyrədən böyüyünüzdür. Tezliklə biləcəksiniz! Mən sizin əllərinizi və ayaqlarınızı çarpaz kəsdirib hamınızı çarmıxa çəkdirəcəyəm".

(Şuəra surəsi, 49)

Kafir olanlar öz elçilərinə dedilər: "Sizi ya öz torpağımızdan qovacağıq, ya da mütləq dinimizə qayıdacaqsınız!" Rəbbi də onlara belə vəhy etdi: "Biz zalımları mütləq məhv edəcək

(İbrahim surəsi, 13)

Firon dedi: "Əgər məndən başqasına sitayiş etsən, səni məhbusların yanına ataram!"

(Şuəra surəsi, 29)

Firon dedi: "Mən sizə izin verməmişdən əvvəl siz ona iman gətirdiniz? Şübhəsiz ki, o sizə sehr öyrədən böyüyünüzdür. Mən sizin əllərinizi və ayaqlarınızı çarpaz kəsdirib xurma ağaclarının gövdələrində çarmıxa çəkəcəyəm. Onda hansımızın əzabının daha şiddətli və daha sürəkli olduğunu biləcəksiniz!"

(Taha surəsi, 71)

Onlar dedilər: "Ey Lut! Əgər təbliğatına son qoymasan, mütləq qovulanlardan olacaqsan!"

(Şuəra surəsi, 167)

Qövmünün cavabı isə ancaq: "Ya onu öldürün, ya da yandırın!" – demələri oldu. Lakin Allah onu oddan qorudu. Doğrudan da, bunda mömin adamlar üçün mənimsəməli bir ibrət vardır.

(Ənkəbut surəsi, 24)

Onlardan əvvəl Nuh qövmü elçiləri yalançı hesab etmişdi. Onlar qulumuzu yalançı sayıb: "O, dəlidir!" – dedilər və ona hədə-qorxu gəldilər.

(Qamər surəsi, 9)

Onun qövmünün cavabı: "Onları yurdunuzdan çıxarın. Axı onlar təmizliyə can atan adamlardır" – deməkdən başqa bir şey olmamışdı.

(Əraf surəsi, 82)

Onun qövmünün təkəbbürlü zadəganları dedilər: "Ey Şueyb! Ya biz hökmən səni də, sənin lə birlikdə iman gətirənləri də yurdumuzdan çıxaracaq, ya da siz bizim dinimizə dönəcəksiniz". Şueyb dedi: "Hətta nifrət etmiş olsaq belə?"

(Əraf surəsi, 88)

Onlar dedilər: "Ey Şueyb! Dediklərinin çoxunu anlamırıq. Biz səni aramızda zəif görürük. Əgər qəbilən olmasaydı, səni daşqalaq edərdik. Sən bizim üçün heç də böyük bir adam deyilsən".

(Hud surəsi, 91)

Sanki əbədi qalacaqsınız deyə qalalarmı tikirsiniz?

(Şuəra surəsi, 129)

Bir kəsi yaxaladığınız zaman qəddar hökmdar kimi yaxalayırsınızmı?

(Şuəra surəsi, 130)

Atası dedi: "Sən mənim məbudlarımdan üzmü çevirirsən, ey İbrahim!? Əgər buna son qoymasan, səni mütləq daşqalaq edəcəyəm. Uzun müddət məndən uzaq ol!"

(Məryəm surəsi, 46)

Dini və iman gətirənləri məsxərəyə qoyarlar

Hər bir qeybət edənin, tənə vuranın vay halına!

(Hüməzə surəsi, 1)

İbrahim dedi: "Orada Lut da var!" Onlar dedilər: "Biz orada kimin olduğunu yaxşı bilirik. Biz onu da, onun ailəsini də mütləq xilas edəcəyik. Yalnız arvadından başqa. O, geridə qalanlardan olacaq".

(Ənkəbut surəsi, 32)

Sən onlara təəccüb edirsən, onlar isə səni ələ salırlar.

(Saffat surəsi, 12)

Onlara xatırlatdıqda düşünüb ibrət almırlar.

(Saffat surəsi, 13)

Bir möcüzə gördükdə isə ona istehza edir

(Saffat surəsi, 14)

İman edənlərin pis vəziyyətə düşmələrini istəyərlər

Sənə bir uğur nəsib olsa, bu onları kədərləndirər. Sənə bir müsibət üz versə: "Biz ehtiyat tədbirimizi əvvəlcədən görmüşük!" – deyər və sevinə-sevinə çıxıb gedərlər.

(Tövbə surəsi, 50)

Onlar əvvəllər də fitnəkarlıq etməyə çalışmış və sənin əleyhinə hiylələr qurmuşdular. Axır ki, haqq yerini tapdı və onlar istəmədikləri halda Allahın hökmü qələbə çaldı.

(Tövbə surəsi, 48)

Nə Kitab əhlinin kafir olanları, nə də müşriklər sizə Rəbbinizdən bir xeyir nazil olmasını istəmirlər. Allah isə mərhəmətini istədiyi şəxsə məxsus edir. Allah böyük lütf sahibidir.

(Bəqərə surəsi, 105)

Ey iman gətirənlər! Sizlərdən olmayanı özünüzə sirdaş tutmayın. Onlar sizə qarşı fəsad törətməkdən əl çəkməzlər, sizin sıxıntıya düşməyinizi istəyərlər. Düşmənçilikləri onların ağızlarından çıxan sözlərdən bəllidir. Kökslərində gizlətdikləri düşmənçilik isə daha böyükdür. Əgər anlayırsınızsa, Biz ayələri artıq sizə bəyan etdik.

(Ali İmran surəsi, 118)

Sizə bir uğur nəsib olsa, bu onları kədərləndirər. Sizə bir fəlakət üz verdikdə isə, buna fərəhlənərlər. Əgər səbir etsəniz və Allahdan qorxsanız, onların qurduğu hiylə sizi ziyana sala bilməz. Həqiqətən, Allah onların nə etdiklərini əhatə edir.

(Ali İmran surəsi, 120)

İnkarlarında qərarlıdırlar

Ya da O Öz ruzisini kəssə, sizə kim ruzi verə bilər? Xeyr, onlar təkəbbür göstərməkdə və haqdan qaçmaqda davam edirlər.

(Mülk surəsi, 21)

Əgər onlara göydən bir qapı açsaydıq və onlar dayanmadan oraya qalxsaydılar,

(Hicr surəsi, 14)

yenə də inanmayıb: “Gözlərimiz dumanlanmış, daha doğrusu biz sehrlənmişik” – deyərdilər.

(Hicr surəsi, 15)

böyük günah işlətməkdə israr edirdilər

(Vaqiə surəsi, 46)

Kafirlər Allahın adı ilə möhkəm and içdilər ki, əgər onlara bir ayə gəlsə, mütləq ona inanacaqlar. De: “Ayələr ancaq Allahın yanındadır. Siz haradan biləsiniz ki, o ayələr gəldikdə onlar yenə də iman gətirməyəcəklər?”

(Ənam surəsi, 109)

Onlar dedilər: “Bizə öyüd-nəsihət versən də, verməsən də, bizim üçün birdir.

(Şuəra surəsi, 136)

Bu, yalnız və yalnız əvvəlkilərin adətidir.

(Şuəra surəsi, 137)

Biz əzaba düçar olan da deyilik".

(Şuəra surəsi, 138)

O, Allahın ona oxunan ayələrini eşidir və sonra, sanki onları eşitməmiş kimi təkəbbür göstərərək inadkarlıq edir. Beləsini ağrılı-acılı bir əzabla müjdələ.

(Casiyə surəsi, 8)

Etibarsız şəxslərdir

Onlar möminlərlə münasibətdə nə qohumluq əlaqəsinə, nə də əhdə riayət etmirlər. Onlar həddi aşanlardır.

(Tövbə surəsi, 10)

Onlar əhd bağladığın kimsələrdir ki, sonra hər dəfə öz əhdlərini pozur və heç nədən çəkinmirlər.

(Ənfal surəsi, 56)

O kəslər ki, Allahla əhd-peyman bağladıqdan sonra onu pozur, Allahın qovuşdurulmasını əmr etdiyi şeyləri (qohumluq əlaqələrini) kəsir və yer üzündə fitnə-fəsad törədirlər. Məhz onlar ziyana uğrayanlardır!

(Bəqərə surəsi, 27)

İsrail oğulları verdikləri əhdi pozduqlarına görə Biz onları lənətlədik və qəlblərini sərtləşdirdik. Onlar Kitabda olan kəlmələrin yerlərini dəyişdirirlər. Onlar özlərinə öyrədilmiş şeylərin bir hissəsini unutdular. İçərilərindən az bir qismi istisna olmaqla, sən onlardan daim xəyanət görəcəksən. Onları əfv et və təqsirlərindən keç. Şübhəsiz ki, Allah yaxşılıq edənləri sevir.

(Maidə surəsi, 13)

Onlar: "İtaət edirik!" – deyirlər. Sənin yanından çıxıb getdikdə isə onların bir qismi gecələr bir yerə yığışıb sənin dediyinin əksinə tədbir görürlər. Allah onların gecələr nə tədbir gördüklərini yazır. Onlardan üz döndər və Allaha təvəkkül et! Qoruyan olaraq Allah yetər.

(Nisa surəsi, 81)

Onların əksəriyyətini vədə xilaf çıxan gördük. Onların çoxunu günahkar gördük.

(Əraf surəsi, 102)

Onlar hər dəfə əhd bağladıqda içərilərindən bir dəstə onu pozmurmu? Həm də onların çoxu buna inanmır.

(Bəqərə surəsi, 100)

Təcavüzkar və mərhəmətsizdirlər

Həqiqətən, Firon yer üzündə təkəbbürlük göstərib onun əhalisini zümrələrə bölmüşdü. Firon onlardan bir zümrəni zəiflədir, onların oğlan uşaqlarını öldürür, qadınlarını isə sağ buraxırdı. Həqiqətən, o, fitnə-fəsad törədənlərdən idi.

(Qəsas surəsi, 4)

Firon xalqının əyanları dedilər: "Sən Musanı və onun qövmünü buraxırsan ki, yer üzündə fəsad törətsinlər, həm səni, həm də sənin məbudlarını bir kənara atsınlar". Firon dedi: "Biz hökmən onların oğlan uşaqlarını öldürəcək, qadınlarını isə sağ buraxacağıq. Şübhəsiz ki, onların üzərində sarsılmaz hökmranlığa malik olan bizik".

(Əraf surəsi, 127)

Beləliklə, müşriklərin bir çoxuna övladlarını öldürməyi öz şərikləri gözəl göstərdilər ki, həm onları məhv etsinlər, həm də dinlərinə qarmaqarışıqlıq salsınlar. Əgər Allah istəsəydi, onlar bunu etməzdilər. Elə isə onları uydurduqları ilə birlikdə tərk et.

(Ənam surəsi, 137)

Amma bunu, həddini aşan günahkardan başqa, heç kəs yalan hesab etməz.

(Mutaffifin surəsi, 12)

Azğın inanclarını əsla tərk etməzlər

Onlar yaramaz əməl etdikləri zaman: "Atalarımızı belə gördük. Allah da bizə bunu əmr etmişdir" – deyirlər. De: "Allah yaramaz əməlləri əmr etməz. Yoxsa Allaha qarşı bilmədiyinizi danışırsınız?"

(Əraf surəsi, 28)

Onlara: "Allahın nazil etdiyinə və göndərdiyi Elçiyə tərəf gəlin" – deyildikdə: "Atalarımızın tutduğu yol bizə bəsdir" – deyirlər. Əgər ataları bir şey bilməyib, doğru yola yönəlməyiblərsə onda necə olsun?

(Maidə surəsi, 104)

Allahın ayələrini təhrif etməyə çalışarlar

O kəslərə ki, insanları Allah yolundan sapdırır, onu əyri göstərməyə çalışır və Axirəti inkar edirlər.

(Hud surəsi, 19)

Ayələrimizi qüvvədən salmağa cəhd göstərənlər isə Cəhənnəm sakinləridirlər.

(Həcc surəsi, 51)

O kəslər ki, dünyanı axirətdən üstün tutur, insanları Allah yolundan sapdırır və onu əyri göstərməyə çalışırlar. Onlar dərin bir azğınlıq içindədirlər.

(İbrahim surəsi, 3)

İnsanlara üz verən bəladan sonra onlara bir mərhəmət daddırdığımız zaman ayələrimizə qarşı hiyləgərlik etməyə çalışarlar. De: "Allah daha tez hiylə qurar". Şübhəsiz ki, elçilərimiz (mələklər) qurduğunuz hiylələri yazırlar.

(Yunis surəsi, 21)

Hər yolun başında oturub Allaha iman gətirənləri hədələyib Onun yolundan sapdırmayın və onu əyri göstərməyə çalışmayın. Xatırlayın ki, siz az idiniz, O sizi çoxaltdı. Bir görün fəsad törədənlərin aqibəti necə oldu.

(Əraf surəsi, 86)

Yalandan and içərlər

Əgər kafir başçılar əhd bağladıqdan sonra andlarını pozub dininizə böhtan atsalar, onlarla vuruşun, çünki onlar anda əhəmiyyət verməzlər. Bəlkə, küfrdən əl çəkələr.

(Tövbə surəsi, 12)

Allah və din haqqında məlumatları olmadığı halda müzakirə edərlər

Onlar dedilər: "Həyat ancaq bizim dünya həyatımızdır. Kimimiz ölür, kimimiz də doğulur. Bizi öldürən ancaq zamandır". Bu haqda onların heç bir biliyi yoxdur. Onlar ancaq zənnə qapılırlar.

(Casiyə surəsi, 24)

Onlar yaramaz əməl etdikləri zaman: "Atalarımızı belə gördük, Allah da bizə bunu əmr etmişdir" – deyirlər. De: "Allah yaramaz əməlləri əmr etməz. Yoxsa Allaha qarşı bilmədiyinizi danışırsınız?"

(Əraf surəsi, 28)

Bax, siz o kəslərsiniz ki, bildiyiniz şeylər barəsində höcətləşirsiniz. Bəs nə üçün bilmədiyiniz şeylər barəsində höcətləşirsiniz? Allah bilir, siz bilmirsiniz!

(Ali İmran surəsi, 66)

Bu haqda nə onların, nə də atalarının heç bir biliyi yoxdur. Ağızlarından çıxan söz necə də ağırdır. Onlar yalandan başqa bir şey danışmırlar.

(Kəhf surəsi, 5)

Məgər Allahın göylərdə və yerdə olanları sizə ram etdiyini, Özünün aşkar və gizli nemətlərini sizə bol-bol verdiyini görmürsünüzmü? İnsanlar arasında elə də vardır ki, heç bir biliyi, doğru yol göstərəni və nur saçan bir kitabı olmadan Allah barəsində mübahisə edir.

(Loğman surəsi, 20)

İnsanlar içərisində elə də vardır ki, heç bir biliyi, doğru yol göstəricisi və nur saçan bir kitabı olmadan Allah haqqında mübahisə edir.

(Həcc surəsi, 8)

Allahın ayələrinə qarşı təkəbbür göstərərlər

Kafirlərə açıq-aydın ayələrimiz oxunduqda sən onların üzündə nifrət görərsən. Onlar az qalırlar ki, ayələrimizi onlara oxuyanların üstünə cumsunlar. De: "Sizə bundan daha pisini xəbər verimmi? Bu, Cəhənnəmdir! Allah onu kafirlərə vəd etmişdir. Ora nə pis qayıdış yeridir!"

(Həcc surəsi, 72)

Buna qəti inandıqları halda, haqsızcasına və təşəxxüslə onları inkar etdilər. Gör fəsad törədənlərin aqibəti necə oldu!

(Nəml surəsi, 14)

Onlara: "Mərhəmətli Allaha səcdə edin!" – deyildikdə: "Mərhəmətli Allah nədir? Məgər bizə əmr etdiyin şeyə səcdə etməliyik?" – deyərlər. Bu da onların nifrətini artırar.

(Furqan surəsi, 60)

Ayələrimizi yalan sayıb onlara təkəbbürlüklə yanaşanlar isə Od sakinləridirlər. Onlar orada əbədi qalacaqlar.

(Əraf surəsi, 36)

Onun qövmünün təkəbbürlü zadəganları öz aralarından iman gətirən zəiflərə dedilər: "Siz Salehin öz Rəbbi tərəfindən göndərildiyini bilirsinizmi?" Onlar dedilər: "Həqiqətən, biz onunla göndərilən hər şeyə inanırıq".

(Əraf surəsi, 75)

Təkəbbür göstərən başçılar dedilər: "Həqiqətən, biz sizin inandığınızı inkar edirik".

(Əraf surəsi, 76)

Nə İsa Məsih Allahın qulu olmağı özünə ar bilər, nə də Allaha yaxın olan mələklər. Allah Ona ibadət etməyi özlərinə ar bilənlərin və təkəbbürlük göstərənlərin hamısını Öz hüzuruna toplayacaqdır.

(Nisa surəsi, 172)

O, Allahın ona oxunan ayələrini eşidir və sonra, sanki onları eşitməmiş kimi təkəbbür göstərərək inadkarlıq edir. Beləsini ağrılı-acılı bir əzabla müjdələ.

(Casiyə surəsi, 8)

> *Ona: "Allahdan qorx!" – deyildikdə, lovğalıq onu daha da günaha sürükləyər. Ona Cəhənnəm kifayət edər. Ora nə pis yataqdır!*
>
> **(Bəqərə surəsi, 206)**

> *Bizimlə qarşılaşacaqlarını güman etməyənlər dedilər: "Nə üçün bizə mələklər göndərilmədi? Niyə biz Rəbbimizi görmürük?" Onlar özləri haqqında yüksək fikirdə oldular və böyük üsyankarlıq etdilər.*
>
> **(Furqan surəsi, 21)**

Allah yolundan azdırmağa çalışarlar

> *Onlar Allahın ayələrini ucuz qiymətə satır və insanları Onun yolundan döndərirdilər. Onların tutduqları iş necə də pisdir!*
>
> **(Tövbə surəsi, 9)**

> *İnsanlar arasında elələri də var ki, heç bir biliyi olmadan başqalarını Allah yolundan sapdırmaq və Allahın ayələrini lağa qoymaq üçün boş-boş sözləri satın alırlar. Məhz onları alçaldıcı bir əzab gözləyir.*
>
> **(Loğman surəsi, 6)**

Allah sizin tövbələrinizi qəbul etmək istədiyi halda, ehtiraslara qapılanlar sizi çox kənara meyl etməyə (haqdan uzaqlaşmağa) yönəldərlər.

(Nisa surəsi, 27)

O kəslərə ki, insanları Allah yolundan sapdırır, onu əyri göstərməyə çalışır və Axirəti inkar edirlər.

(Hud surəsi, 19)

Əgər onlar sizi ələ keçirsələr, sizə düşmən kəsilər, əlləri və dilləri ilə sizə pislik edər və sizin kafir olmanızı istəyərlər.

(Mumtəhənə surəsi, 2)

O kəslərə ki, insanları Allah yolundan sapdırır, onu əyri göstərməyə çalışır və axirəti inkar edirdilər".

(Əraf surəsi, 45)

Qoy onlar Qiyamət günü öz günahlarının hamısını və nadanlıqları üzündən azdırdıqları kəslərin günahlarının bir qismini daşısınlar. Bax gör, daşıyacaqları yük necə də pisdir!

(Nəhl surəsi, 25)

De: "Biz Allahı qoyub bizə nə bir xeyir, nə də bir zərər verə bilməyən şeylərəmi ibadət edəcəyik? Allah bizi doğru yola yönəltdikdən sonra, şeytanların yer üzündə azdırdığı, mömin dostlarının isə: "Bizə tərəf gəl!" – deyib doğru yola çağırdıqları çaşbaş qalan kimsə kimi geriyəmi döndəriləcəyik?" De: "Ancaq Allahın haqq yolu doğru yoldur! Bizə əmr edilmişdir ki, aləmlərin Rəbbinə təslim olaq.

(Ənam surəsi, 71)

Kafir olub insanları Allah yolundan sapdıranlara törətdikləri fitnə-fəsada görə əzab üstündən əzab artıracağıq.

(Nəhl surəsi, 88)

Yurdlarından təkəbbürlə, özlərini camaata göstərmək üçün çıxan və insanları Allah yolundan sapdıran kəslər kimi olmayın. Allah onların əməllərini hər tərəfdən ehtiva etmişdir.

(Ənfal surəsi, 47)

Ey iman gətirənlər! Əgər kafirlərə itaət etsəniz, onlar sizi geriyə qaytarar və siz də ziyana uğramış halda geriyə qayıdarsınız.

(Ali İmran surəsi, 149)

İman etmək üçün möcüzə görmək istəyərlər

Kafirlər dedilər: "Niyə ona Rəbbindən bir möcüzə endirilməyib?" De: "Şübhəsiz ki, Allah möcüzə endirməyə qadirdir. Lakin onların çoxu bunu bilmir".

(Ənam surəsi, 37)

Cahillər dedilər: "Bəs nə üçün Allah bizi danışdırmır, yaxud bizə bir ayə gəlmir?" Onların əcdadları da elə onlar kimi danışırdılar. Onların qəlbləri bir-birinə oxşayır. Biz, yəqinliklə inanan bir xalqa dəlillərimizi bəyan etmişik.

(Bəqərə surəsi, 118)

Nə üçün ona qızıl bilərziklər taxılmayıb və onunla birlikdə bir-birinin ardınca mələklər gəlməyib?"

(Zuxruf surəsi, 53)

Biz bu Quranda insanlar üçün hər cür məsəli müfəssəl izah etdik. Lakin insanların çoxu yalnız küfrü seçdi.

(İsra surəsi, 89)

Onlar dedilər: "Bizə yerdən bir bulaq çıxarmayınca sənə iman gətirməyəcəyik;

(İsra surəsi, 90)

və ya ortasından şırıl-şırıl çaylar axıdacağın xurma və üzüm bağın olmayınca;

(İsra surəsi, 91)

yaxud, iddia etdiyin kimi, göyü parça-parça üstümüzə yağdırmayınca; və ya Allahı və mələkləri qarşımıza gətirməyincə;

(İsra surəsi, 92)

yaxud qızıldan bir evin olmayınca; və ya göyə qalxmayınca biz sənə inanmayacağıq. Əgər bizə oxuyacağımız bir kitab endirməsən, göyə qalxmağına da inanmayacağıq". De: "Rəbbim pak və müqəddəsdir! Mən isə yalnız elçi göndərilmiş bir insanam".

(İsra surəsi, 93)

Bizimlə qarşılaşacaqlarını güman etməyənlər dedilər: "Nə üçün bizə mələklər göndərilmədi? Niyə biz Rəbbimizi görmürük?" Onlar özləri haqqında yüksək fikirdə oldular və böyük üsyankarlıq etdilər.

(Furqan surəsi, 21)

Onlar: "Nə üçün ona mələk endirilməyib?" – dedilər. Əgər biz mələk endirsəydik, iş bitmiş olardı, onlara isə möhlət verilməzdi.

(Ənam surəsi, 8)

Onlar deyirlər: "Niyə ona Rəbbindən bir möcüzə endirilməyib?" De: "Qeyb ancaq Allaha aiddir. Gözləyin, şübhəsiz ki, mən də sizinlə birlikdə gözləyənlərdənəm".

(Yunis surəsi, 20)

Kafirlər Allahın adı ilə möhkəm and içdilər ki, əgər onlara bir ayə gəlsə, mütləq ona inanacaqlar. De: "Ayələr ancaq Allahın yanındadır. Siz haradan biləsiniz ki, o ayələr gəldikdə onlar yenə də iman gətirməyəcəklər?"

(Ənam surəsi, 109)

Küfrü imandan üstün tutarlar

Ey iman gətirənlər! Əgər atalarınız və qardaşlarınız küfrü imandan üstün sayırlarsa, onları dost tutmayın. Sizlərdən onları dost tutanlar zalımlardır.

(Tövbə surəsi, 23)

Möcüzə görsələr belə iman etməzlər

Əgər sənə kağız üzərində bir yazı nazil etsəydik və onlar da əlləri ilə ona toxunsaydılar, kafir olanlar yenə də: "Bu, açıq-aydın sehrdən başqa bir şey deyildir!" – deyərdilər.

(Ənam surəsi, 7)

Əgər oxunan bir kitabla dağlar hərəkətə gətirilsəydi və ya onunla yer parçalansaydı və yaxud da onun sayəsində ölülər danışsaydılar o kitab yenə bu Quran olardı. Lakin bütün işlər Allaha məxsusdur. İman gətirənlər hələ bilmirlərmi ki, əgər Allah istəsəydi, bütün insanları doğru yola yönəldərdi? Allahın vədi gəlincəyə qədər etdikləri əməllərə görə kafir olanlara müsibət üz verməkdə davam edəcək və ya onların yurdunun yaxınlığında dayanacaqdır. Şübhəsiz ki, Allah vədinə xilaf çıxmaz.

(Rad surəsi, 31)

Allahın dininə qarşı savaş açarlar

Məgər bilmirdilərmi ki, Allaha və Onun Elçisinə qarşı çıxanlar üçün içində əbədi qalacaqları Cəhənnəm odu vardır? Bu isə böyük rüsvayçılıqdır.

(Tövbə surəsi, 63)

Kafirlərin vuruşa başladığı insanlara, o kafirlərlə vuruşmağa icazə verilmişdir. Çünki onlar zülmə məruz qalmışlar. Şübhəsiz ki, Allah onlara kömək etməyə qadirdir.

(Həcc surəsi, 39)

Qəlbləri imana qarşı laqeyddir

Nəfsinin istəyini ilahiləşdirən şəxsi gördünmü? Allah əzəli elmi sayəsində onu azğınlığa saldı, qulağını və qəlbini möhürlədi, gözünə də pərdə çəkdi. Allahdan başqa kim onu doğru yola yönəldə bilər? Məgər düşünüb anlamırsınız?

(Casiyə surəsi, 23)

Rəbbinin ayələri yadına salınarkən onlardan üz döndərən, əvvəlcə öz əlləri ilə etdikləri günahlarını unudan adamdan daha zalım kim ola bilər? Quranı anlamasınlar deyə, Biz onların qəlbinə örtüklər çəkdik, qulaqlarına da tıxac vurduq. Sən onları doğru yola çağırsan da, onlar heç vaxt doğru yola gəlməzlər.

(Kəhf surəsi, 57)

Quranı anlamasınlar deyə, Biz onların qəlbinə örtüklər çəkdik, qulaqlarına da tıxac vurduq. Sən Quranda Rəbbinin Tək Allah olduğunu yada saldığın zaman onlar bu dəvətə nifrət edərək arxalarını çevirib gedərlər.

(İsra surəsi, 46)

Qəlbləri dünya ehtirası ilə doludur

Sən də Bizim Zikrimizi rədd edib dünya həyatından başqa bir şey istəməyənlərdən üzünü yana çevir!

(Nəcm surəsi, 29)

Bu ona görədir ki, siz Allahın ayələrini məsxərəyə qoyurdunuz və dünya həyatı sizi aldatmışdı". Bu gün onlar oradan çıxarılmayacaq və onlardan tövbə etmələri tələb olunmayacaqdır.

(Casiyə surəsi, 35)

De: "Əgər atalarınız, oğullarınız, qardaşlarınız, zövcələriniz, yaxın qohumlarınız, qazandığınız mallar, iflasa uğramasından qorxduğunuz alış-verişiniz və bəyəndiyiniz məskənlər sizə Allahdan, Onun Elçisindən və Onun yolunda cihaddan daha əzizdirsə, Allah Öz əmri ilə gəlincəyə qədər gözləyin. Allah günahkarları doğru yola yönəltməz".

(Tövbə surəsi, 24)

Həcc mərasiminizi bitirdikdə vaxtilə atalarınızı yad etdiyiniz kimi, hətta bundan da artıq Allahı yad edin! İnsanlar arasında: "Ey Rəbbimiz! Bizə verəcəyini elə bu dünyada ver!" – deyənlər vardır. Belə şəxslərin axirətdə heç bir payı yoxdur.

(Bəqərə surəsi, 200)

Məni yaratdığım kimsə ilə tək burax;

(Müddəssir surəsi, 11)

Mən ona bolluca var-dövlət bağışladım,

(Müddəssir surəsi, 12)

qayğısına qalan oğullar verdim

(Müddəssir surəsi, 13)

və onu hər cür imkanlarla təmin etdim.

(Müddəssir surəsi, 14)

Bunlara baxmayaraq, o, yenə də əlavə etməyimi arzulayır.

(Müddəssir surəsi, 15)

> *O kəslərə ki, dinlərini əyləncə və oyun etmişdilər və dünya həyatı onları aldatmışdı. Onlar bu günləri ilə qarşılaşmağı unutduqları və ayələrimizi inkar etdikləri kimi, Biz də onları bu gün unudarıq.*
>
> **(Əraf surəsi, 51)**

> *O kəslər ki, dünyanı axirətdən üstün tutur, insanları Allah yolundan sapdırır və onu əyri göstərməyə çalışırlar. Onlar dərin bir azğınlıq içindədirlər.*
>
> **(İbrahim surəsi, 3)**

Batil inancları vardır

> *Allah müşriklərin bəhirə, saibə, vəsilə və ham adlandırıb bütlərə nəzir etdiyi heyvanlar barəsində heç bir göstəriş verməmişdir. Lakin kafir olanlar Allaha qarşı yalan uydururlar. Onların çoxu isə bunu anlamır.*
>
> **(Maidə surəsi, 103)**

> *Onlar Allahı qoyub özlərinə nə bir zərər, nə də bir fayda verə bilməyənlərə ibadət edir və: "Onlar Allah yanında bizim şəfaətçilərimizdir!" – deyirlər. De: "Yoxsa Allaha göylərdə və yerdə bilmədiyi bir şeyimi xəbər verirsiniz?" Allah onların qoşduqları şəriklərdən uzaqdır və ucadır.*
>
> **(Yunis surəsi, 18)**

Onlar Allahı qoyub, haqqında heç bir dəlil nazil edilməyən və üstəlik özlərinin də bilmədikləri bir şeyə ibadət edirlər. Zalımlara kömək edən olmaz.

(Həcc surəsi, 71)

O, Allahı tərk edərək özünə nə zərər, nə də xeyir verə bilməyənə yalvarır. Dərin azğınlıq da elə budur.

(Həcc surəsi, 12)

Kafirlər isə Onun əvəzinə heç nəyə fayda verməyən, həm də özləri yaradılan, özlərinə nə bir zərər, nə də bir xeyir verməyə qadir olmayan, öldürməyə, həyat verməyə və yenidən diriltməyə qüdrəti olmayanları özlərinə məbud götürdülər.

(Furqan surəsi, 3)

Allah bir adamın daxilində iki ürək yaratmamışdır. Allah anaya bənzədərək özünüzə haram etdiyiniz zövcələrinizi analarınız etməmiş, oğulluğa götürdüklərinizi də oğullarınız etməmişdir. Bunlar sizin dilinizə gətirdiyiniz yalan sözlərdir. Allah isə haqqı deyir və doğru yola yönəldir.

(Əhzab surəsi, 4)

Bu belədir. Çünki Allah Haqdır. Kafirlərin Ondan başqa ibadət etdikləri isə batil bütlərdir. Həqiqətən, Allah Ən Ucadır, Ən Böyükdür.

(Loğman surəsi, 30)

Zənn və təxminlərlə hərəkət edərlər

Onların əksəriyyəti ancaq zənnə qapılır. Şübhəsiz ki, zənn həqiqəti heç cür əvəz edə bilməz. Allah onların nə etdiklərini bilir.

(Yunis surəsi, 36)

Məhv olsun yalançılar!


(Zəriyət surəsi, 10)

Bilin ki, göylərdə və yerdə olanların hamısı Allahındır. Allahı qoyub başqa şəriklərə yalvaranlar nəyin ardınca gedirlər? Onlar yalnız zənnə uyur və ancaq yalan uydururlar.

(Yunis surəsi, 66)

Onlar dedilər: "Həyat ancaq bizim dünya həyatımızdır. Kimimiz ölür, kimimiz də doğulur. Bizi öldürən ancaq zamandır". Bu haqda onların heç bir biliyi yoxdur. Onlar ancaq zənnə qapılırlar.

(Casiyə surəsi, 24)



Keçmiş ümmətlərin aqibəti ibrətamizdir

Müşriklər deyəcəklər: "Allah istəsəydi, nə biz, nə də atalarımız Ona şərik qoşar, nə də biz bir şeyi haram edə bilərdik". Onlardan əvvəlkilər də öz peyğəmbərlərini beləcə yalançı hesab etmişdilər. Axırda əzabımızı daddılar. De: "Bizə göstərə biləcəyiniz bir bilginizmi var? Siz ancaq zənnə qapılır və ancaq yalan danışırsınız".

(Ənam surəsi, 148)

Böyük bir yanılma içindədirlər

Əgər Allah insanlara istədikləri xeyri tez verdiyi kimi, şəri də tez versəydi, əlbəttə, onların əcəli çatmış olardı. Bizimlə qarşılaşacaqlarına ümid etməyənləri isə azğınlıqları içində sərgərdan dolaşan vəziyyətdə tərk edərik.

(Yunis surəsi, 11)

Ya da Mərhəmətli Allahdan başqa sizə kömək edə biləcək qoşununuz varmı? Kafirlər ancaq aldanmaqdadırlar!

(Mülk surəsi, 20)

‘Yoxsa elə hesab edirsən ki, onların əksəriyyəti eşidəcək və ya anlayacaq? Onlar heyvan kimidirlər, hətta, haqq yoldan daha çox uzaqlaşmışlar.

(Furqan surəsi, 44)

haqq olan vədimiz yaxınlaşdıqda kafirlərin gözləri dərhal bərələcəkdir. Onlar deyəcəklər: “Vay halımıza! Biz bundan qafil idik. Üstəlik zalım da olmuşuq!”

(Ənbiya surəsi, 97)

Haqqı görə bilmirlər

Firon şəhərlərə əsgər toplayanlar göndərdi.

(Şuəra surəsi, 53)

O dedi: “Bunlar kiçik bir dəstədir.

(Şuəra surəsi, 54)

Onlar bizi qəzəbləndirmişlər.

(Şuəra surəsi, 55)

Biz hamımız ayıq-sayıq olmalıyıq".

(Şuəra surəsi, 56)

Əgər onların haqdan üz döndərməsi sənə ağır gəlirsə, onda bacarırsansa yerin içinə enə biləcəyin bir lağım və göyə çıxa biləcəyin bir nərdivan tap ki, onlara bir möcüzə gətirəsən. Əgər Allah istəsəydi onları toplayıb doğru yola yönəldərdi. Elə isə cahillərdən olma!

(Ənam surəsi, 35)

Onlara: "Bu insanlar iman gətirdiyi kimi siz də iman gətirin!" – deyildiyi zaman: "Biz də səfehlərin iman gətirdikləri kimi iman gətirək?" – deyirlər. Doğrusu, onlar özləri səfehdirlər, lakin bunu bilmirlər.

(Bəqərə surəsi, 13)

Hud dedi: "Bu haqda bilgi ancaq Allaha məxsusdur. Mən sizə yalnız mənimlə göndərilənləri təbliğ edirəm. Lakin mən sizin cahil adamlar olduğunuzu görürəm".

(Əhqaf surəsi, 23)

Ağılsızdırlar

> *Yoxsa onlar: "O bir şairdir. Biz onun ölümünü gözləyirik!" – deyirlər.*
>
> **(Tur surəsi, 30)**

> *De: "Gözləyin, mən də sizinlə birlikdə gözləyənlərdənəm!"*
>
> **(Tur surəsi, 31)**

> *Yoxsa onların ağılları bunu onlara əmr edir? Yaxud onlar azğın adamlardır?*
>
> **(Tur surəsi, 32)**

> *Cəhənnəm, qəzəbindən az qala parçalansın. Hər dəfə bir dəstə oraya atılarkən Cəhənnəmin gözətçiləri onlardan soruşacaqlar: "Məgər sizə xəbərdarlıq edən bir peyğəmbər gəlməmişdi?"*
>
> **(Mülk surəsi, 8)**

> *Onlar deyəcəklər: "Əlbəttə, bizə qorxudan bir peyğəmbər gəlmişdi. Amma biz onu yalançı sayıb: "Allah heç bir şey nazil etməyib, siz də ancaq böyük bir azğınlıq içindəsiniz" – demişdik.*
>
> **(Mülk surəsi, 9)**

Onlar deyəcəklər: “Əgər biz dinləsəydik və ya anlasaydıq alov şölələri saçan od sakinlərinin içində olmazdıq!”

(Mülk surəsi, 10)

Onlar öz günahlarını etiraf edəcəklər. Rədd olsun alovlu od sakinləri!

(Mülk surəsi, 11)

Allahın icazəsi olmadan heç kəs iman gətirə bilməz. Allah anlamayanları qəzəbə uğradar.

(Yunis surəsi, 100)

Onlardan səni dinləyənlər də vardır. Məgər karlara – əgər anlamırlarsa – sənmi eşitdirəcəksən?

(Yunis surəsi, 42)

Onlardan sənə baxanlar da vardır. Məgər korları – əgər görmürlərsə – sənmi doğru yola yönəldəcəksən?

(Yunis surəsi, 43)

Bir surə nazil edildiyi zaman onlar: "Sizi kimsə görürmü?" – deyə bir-birlərinə baxır, sonra da üz çevirib gedirlər. Anlamayan adamlar olduqlarına görə Allah onların qəlbini imandan məhrum etmişdir.

(Tövbə surəsi, 127)

Biz Cəhənnəm üçün bir çox cinlər və insanlar yaratdıq. Onların qəlbləri var, onunla anlamazlar; gözləri var, onunla görməzlər; qulaqları var, onunla eşitməzlər. Onlar heyvan kimidirlər, hətta daha çox azğınlıqdadırlar. Qafil olanlar da məhz onlardır.

(Əraf surəsi, 179)

Siz namaza çağırdığınız zaman onlar onu məsxərəyə qoyub oyun-oyuncaq sayarlar. Bu ona görədir ki, onlar düşüncəsiz bir camaatdır.

(Maidə surəsi, 58)

Şübhəsiz ki, Allah yanında canlıların ən pisi haqqı anlamayan karlar və lallardır.

(Ənfal surəsi, 22)

Özlərini ağıllı zənn edərlər

Onlara: "Bu insanlar iman gətirdiyi kimi siz də iman gətirin!" – deyildiyi zaman: "Biz də səfehlərin iman gətirdikləri kimi iman gətirək?" – deyirlər. Doğrusu, onlar özləri səfehdirlər, lakin bunu bilmirlər.

(Bəqərə surəsi, 13)

Firon şəhərlərə əsgər toplayanlar göndərdi.

(Şuəra surəsi, 53)

O dedi: "Bunlar kiçik bir dəstədir.

(Şuəra surəsi, 54)

Onlar bizi qəzəbləndirmişlər.

(Şuəra surəsi, 55)

Biz hamımız ayıq-sayıq olmalıyıq".

(Şuəra surəsi, 56)

Səthi və bəsit düşünərlər

> *Onlar dedilər: "Bu necə elçidir ki, yemək yeyir, bazarları gəzib dolaşır? Nə üçün ona özü ilə birlikdə xəbərdarlıq edən bir mələk göndərilmədi?*
>
> **(Furqan surəsi, 7)**

> *Niyə ona bir xəzinə verilmədi? Niyə meyvəsindən yeyib dolanmasından ötrü bir bağı olmadı?" Zalımlar: "Siz ancaq sehrlənmiş bir adamın ardınca gedirsiniz" – dedilər.*
>
> **(Furqan surəsi, 8)**

> *Gör sənə aid hansı məsəlləri çəkdilər! Onlar haqq yoldan azdılar və bir daha o yolu tapa bilməyəcəklər!*
>
> **(Furqan surəsi, 9)**

> *Hər kəsin qazandığını qoruyub saxlayan Allah, buna qadir olmayan bütlər kimi ola bilərmi? Müşriklər isə Allaha şəriklər qoşurlar. De: "Onların adlarını söyləyin! Yoxsa siz Ona yer üzündə bilmədiyi şeyləri yaxud boş sözlərimi xəbər verirsiniz?" Doğrusu, kafirlərə öz hiylələri gözəl göstərildi və onlar doğru yoldan çıxarıldılar. Allah kimi azdırsa, onu doğru yola yönəldən olmaz.*
>
> **(Rad surəsi, 33)**

Onlar dünya həyatının görünən tərəfini bilir, axirətdən isə büsbütün qafildirlər.

(Rum surəsi, 7)

Harada olursunuzsa olun, ölüm sizi haqlayacaq. Hətta yüksək qalalarda olsanız belə. Onlara bir yaxşılıq üz verdikdə: "Bu, Allahdandır!" – deyər, bir pislik üz verdikdə isə: "Bu, səndəndir!" – deyərlər. De: "Hamısı Allahdandır!" Bu adamlara nə olub ki, az qala söz də anlamırlar?

(Nisa surəsi, 78)

Firon dedi: "Ey əyanlar! Mən sizin üçün özümdən başqa bir məbud tanımıram. Ey Haman! Mənim üçün palçığın üzərində od qala və bir güllə düzəlt ki, Musanın məbudunun yanına qalxım. Mən, həqiqətən də, onu yalançılardan hesab edirəm.

(Qəsas surəsi, 38)

Boş və məqsədsiz şeylərə dəyər verərlər

İnsanlar arasında elələri də var ki, heç bir biliyi olmadan başqalarını Allah yolundan sapdırmaq və Allahın ayələrini lağa qoymaq üçün boş-boş sözləri satın alırlar. Məhz onları alçaldıcı bir əzab gözləyir.

(Loğman surəsi, 6)

> *Lakin onlar şəkkə qapılıb əylənirlər.*
>
> **(Duxan surəsi, 9)**

> *O gün vay halına haqqı yalan sayanların!*
>
> **(Tur surəsi, 11)**

> *O kəslər ki, yalan bataqlığında əylənirlər.*
>
> **(Tur surəsi, 12)**

> *Vədə verilmiş günə çatanadək onlarla daha işin olmasın, qoy boş-boş danışsınlar və əylənsinlər.*
>
> **(Məaric surəsi, 42)**

> *Batil sözlər danışanlarla birlikdə biz də danışardıq,*
>
> **(Müddəssir surəsi, 45)**

Nəfs və istəklərini ilah edərlər

Nəfsinin istəyini ilahiləşdirən şəxsi gördünmü? Allah əzəli elmi sayəsində onu azğınlığa saldı, qulağını və qəlbini möhürlədi, gözünə də pərdə çəkdi. Allahdan başqa kim onu doğru yola yönəldə bilər? Məgər düşünüb anlamırsınız?

(Casiyə surəsi, 23)

Şəhvətlərinə düşkündürlər

Siz, qadınları qoyub şəhvətlə kişilərin yanına gedirsiniz. Həqiqətən, siz, həddi aşmış adamlarsınız".

(Əraf surəsi, 81)

Doğrudanmı siz insanlar içində ancaq kişilərlə yaxınlıq edir

(Şuəra surəsi, 165)

Allah sizin tövbələrinizi qəbul etmək istədiyi halda, ehtiraslara qapılanlar sizi çox kənara meyl etməyə (haqdan uzaqlaşmağa) yönəldərlər.

(Nisa surəsi, 27)

> *Onların arxasınca namazı buraxıb şəhvətə uyan bir nəsil gəldi. Onlar ziyana uğrayacaqlar.*
>
> **(Məryəm surəsi, 59)**

> *Qadınların, uşaqların, yığın-yığın qızıl-gümüşün, yaxşı cins atların, mal-qaranın və əkin yerlərinin verdiyi zövqlərə olan istək insanların gözünə gözəl göstərilmişdir. Bunlar, dünya həyatının keçici zövqüdür, gözəl qayıdış yeri isə Allah yanındadır.*
>
> **(Ali İmran surəsi, 14)**

Qorxu içindədirlər

> *Haqqında heç bir dəlil nazil etmədiyi şeyi Allaha şərik qoşduqlarına görə, kafirlərin qəlblərinə qorxu salacağıq. Onların sığınacaqları yer Oddur. Zalımların məskunlaşacağı yer necə də pisdir!*
>
> **(Ali İmran surəsi, 151)**

İman edənlərdən qaçarlar

> *Sanki ürküdülmüş vəhşi uzunqulaqlardır ki,*
>
> **(Müddəssir surəsi, 50)**

ovçulardan (yaxud aslandan) qaçırlar.

(Müddəssir surəsi, 51)

Ruh halları sıxıntılıdır

ancaq tək Allaha ibadət edənlərdən və Ona şərik qoşmayanlardan olun! Kim Allaha şərik qoşsa, sanki o, göydən düşər, quşlar onu alıb aparar, yaxud külək onu sovurub uzaq bir yerə atar.

(Həcc surəsi, 31)

Allah kimi doğru yola yönəltmək istəsə, onun köksünü İslam üçün açar, kimi azdırmaq istəsə, onun köksünü, sanki o, göyə çıxırmış kimi daraldar və sıxıntılı edər. Allah iman gətirməyənləri beləcə cəzalandırar.

(Ənam surəsi, 125)

Davamlı bir şübhə və narahatlıq içindədirlər

Sizdən əvvəlkilərin – Nuh qövmünün, Ad və Səmud tayfalarının, onlardan sonrakıların xəbərləri sizə gəlib çatmadımı? Bu haqda Allahdan başqa heç kəs heç nə bilmir. Elçiləri onlara açıq-aydın dəlillər gətirdilər. Onlar isə əllərini ağızlarının üstünə qoyub dedilər: "Biz sizinlə göndərilənlərə inanmırıq və bizləri dəvət etdiyiniz tövhid barəsində şübhə doğuran şəkk içindəyik!"

(İbrahim surəsi, 9)

Sizi palçıqdan yaradan, sonra da əcəlinizi təyin edən Odur. Onun yanında Qiyamət günü üçün də bəlli bir əcəl vardır. Bunu bildikdən sonra siz yenə də şübhə edirsiniz.

(Ənam surəsi, 2)

Onlar dedilər: "Ey Saleh! Sən bundan əvvəl içərimizdə ümid edilən bir kimsə idin. Doğrudanmı atalarımızın ibadət etdiyinə ibadət etməyi bizə qadağan edirsən? Doğrusu, biz sənin bizləri dəvət etdiyin əqidə barəsində şübhə doğuran şəkk içindəyik".

(Hud surəsi, 62)

Kafir olanlar isə, o Saat qəflətən onların başlarının üstünü alanadək, yaxud səmərəsiz bir günün əzabı onlara gəlib yetişənədək, Quran barəsində şəkk-şübhə içində qalarlar.

(Həcc surəsi, 55)

Dərhal ümidsizliyə düşərlər

Əgər insana Özümüzdən bir mərhəmət daddırsaq, sonra da ondan onu geri alsaq, o, naümid və nankor olar.

(Hud surəsi, 9)

İnsana nemət verdiyimiz zaman anlamayaraq üz çevirib uzaq durar. Ona bir zərər toxunduqda isə məyus olar.

(İsra surəsi, 83)

İnsanlara mərhəmət göstərdikdə ona sevinərlər. Öz əlləri ilə etdikləri günahlara görə onlara bir bəla üz verdikdə isə dərhal ümidlərini üzərlər.

(Rum surəsi, 36)

Öz aralarında belə münaqişə edirlər

Kafirlər təkəbbür və nifaq içindədirlər.

(Sad surəsi, 2)

İnsanlar tək bir ümmət idi. Allah onlara müjdə verən və qorxudan peyğəmbərlər göndərdi, onlarla birlikdə haqq olan kitab nazil etdi ki, insanlar arasında onların ixtilafa düşdükləri şeylərə dair hökm versin. Halbuki kitab verilmiş şəxslər özlərinə açıq-aydın dəlillər gəldikdən sonra aralarındakı paxıllıq üzündən ixtilafa düşdülər. Allah isə Öz icazəsi ilə iman gətirənləri ixtilafda olduqları məsələlərdə haqqa yönəltdi. Allah istədiyini düz yola yönəldər.

(Bəqərə surəsi, 213)

Bir-birlərini cəhənnəmə sürükləyərlər

Barələrində Sözün gerçəkləşəcəyi kimsələr deyəcəklər: "Ey Rəbbimiz! Bunlar bizim azdırdığımız kimsələrdir. Özümüz azdığımız kimi onları da azdırdıq. Biz onlardan uzaqlaşıb Sənə üz tuturuq. Doğrusu, onlar bizə ibadət etmirdilər".

(Qəsas surəsi, 63)

Bələliklə, Biz hər bir peyğəmbər üçün insanlar və cinlərdən olan şeytanlarından düşmənlər müəyyən etdik. Bunlar aldatmaq məqsədilə bir-birlərinə təmtəraqlı sözlər təlqin edirlər. Əgər Rəbbin istəsəydi, onlar bunu etməzdilər. Onları uydurduqları şeylərlə birlikdə tərk et.

(Ənam surəsi, 112)

Biz onları oda çağıran rəhbərlər etdik. Qiyamət günü onlara kömək edilməyəcəkdir.

(Qəsas surəsi, 41)

Qoy onlar Qiyamət günü öz günahlarının hamısını və nadanlıqları üzündən azdırdıqları kəslərin günahlarının bir qismini daşısınlar. Bax gör, daşıyacaqları yük necə də pisdir!

(Nəhl surəsi, 25)

Tabe olanlar deyəcəklər: "Əgər bizim üçün dünyaya dönüş olsaydı, indi onlar bizdən uzaqlaşdıqları kimi biz də onlardan uzaqlaşardıq!" Beləcə, peşman olsunlar deyə Allah onlara özlərinin əməllərini göstərəcək və onlar heç vaxt Cəhənnəm odundan çıxa bilməyəcəklər.

(Bəqərə surəsi, 167)

Allah deyəcək: "Sizdən əvvəl gəlib-getmiş günahkar cin və insan tayfaları ilə birlikdə Oda girin!" Hər bir tayfa Oda girdikcə digərini lənətləyəcəkdir. Nəhayət, hamısı orada toplandığı zaman sonrakılar əvvəlkilər barəsində deyəcəklər: "Ey Rəbbimiz! Bunlardır bizi azdıran! Elə isə Odda bunlara ikiqat əzab ver!" Allah deyəcək: "Əzab hər kəs üçün ikiqatdır, lakin siz bunu bilmirsiniz!"

(Əraf surəsi, 38)

Onlar orada höcətləşərək deyərlər:

(Şuəra surəsi, 96)

"Allaha and olsun ki, biz açıq-aydın azğınlıq içində idik –

(Şuəra surəsi, 97)

o vaxt ki, biz sizi aləmlərin Rəbbinə tay tuturduq.

(Şuəra surəsi, 98)

Bizi ancaq günahkarlar azdırdı.

(Şuəra surəsi, 99)

Möminləri böhtanlarıyla ləkələməyə çalışarlar

> *Firon qövmünün əyanları dedilər: "Həqiqətən, bu, bilikli bir sehrbazdır.*
>
> **(Əraf surəsi, 109)**

> *O sizi yurdunuzdan çıxartmaq istəyir. Elə isə təklifiniz nədir?"*
>
> **(Əraf surəsi, 110)**

> *Onlar dedilər: "Bunlar qarmaqarışıq yuxulardır! Xeyr, o bunu özündən uydurmuşdur! Xeyr, o, bir şairdir! Qoy o, əvvəlki elçilərə göndərilən möcüzələr kimi bizə də bir möcüzə gətirsin".*
>
> **(Ənbiya surəsi, 5)**

> *Bu, ancaq Allaha iftira yaxan bir adamdır. Biz ona inanan deyilik".*
>
> **(Muminun surəsi, 38)**

> *Zikr aramızdan təkcə onamı verildi? Xeyr, o, yalançıdır, lovğadır!"*
>
> **(Qamər surəsi, 25)**

Kafirlər: "Bu, Məhəmmədin uydurduğu yalandan başqa bir şey deyildir. Ona bu işdə başqa adamlar da kömək etmişlər" – dedilər. Beləcə, onlar haqsızlığa və iftiraya yol verdilər.

(Furqan surəsi, 4)

Təkəbbürlü və dəlisovdurlar

"Qaçmayın! İçində olduğunuz xoş güzərana və yurdlarınıza qayıdın. Bəlkə, sizinlə məsləhətləşdilər".

(Ənbiya surəsi, 13)

Biz xoş güzəranı ilə qürrələnən neçə-neçə şəhəri məhv etdik. Budur onların yurdları. Özlərindən sonra bəzilərindən başqa orada heç kəs sakin olmadı. Onlara Biz varis olduq.

(Qəsas surəsi, 58)

Həqiqətən, Qarun Musa ilə həmtayfa idi. Amma onlara qarşı yamanlıq edirdi. Biz ona elə xəzinələr vermişdik ki, onların açarlarını daşımaq bir dəstə qüvvətli adama ağır gəlirdi. Qövmü ona dedi: "Öyünmə! Həqiqətən, Allah öyünənləri sevmir.

(Qəsas surəsi, 76)

> *Xeyr! Ayələrim sənə gəlmişdi, sən isə onları yalan saydın, təkəbbür göstərdin və kafirlərdən oldun".*
>
> **(Zumər surəsi, 59)**

Acizliklərini qəbul etməzlər

> *Ona: "Allahdan qorx!" – deyildikdə, lovğalıq onu daha da günaha sürükləyər. Ona Cəhənnəm kifayət edər. Ora nə pis yataqdır!*
>
> **(Bəqərə surəsi, 206)**

> *Dad bu əzabı! Sən ki qüdrətli və şərəfli idin.*
>
> **(Duxan surəsi, 49)**

> *Sizin şübhə etdiyiniz əzab budur!*
>
> **(Duxan surəsi, 50)**

Pisdirlər

Ey iman gətirənlər! Həqiqətən də, müşriklər murdardırlar. Odur ki, özlərinin bu ilindən sonra Məscidulharama yaxınlaşmasınlar. Əgər kasıblıqdan qorxursunuzsa, bilin ki, Allah istəsə, Öz lütfündən bəxş etməklə sizi varlandırar. Həqiqətən, Allah Biləndir, Müdrikdir.

(Tövbə surəsi, 28)

Nankordurlar

Beləliklə, Biz səni özündən əvvəl neçə-neçə ümmətlər gəlib getmiş bir ümmətə göndərdik ki, onlar Mərhəmətli Allahı inkar etdikləri halda, sənə vəhy etdiyimizi onlara oxuyasan. De: "O, mənim Rəbbimdir. Ondan başqa ibadətə layiq olan məbud yoxdur. Mən yalnız Ona təvəkkül edir və Ona üz tutub tövbə edirəm".

(Rad surəsi, 30)

İnsana bəla üz verdikdə uzananda da, oturanda da, ayaq üstə olanda da Bizi çağırar. Bu bəlanı ondan sovuşdurduqda isə sanki ona üz vermiş bəladan ötrü Bizi çağırmamış kimi keçib gedər. Həddi aşanlara etdikləri əməllər beləcə gözəl göstərildi.

(Yunis surəsi, 12)

> *İnsana bir zərər toxunduğu zaman Bizə yalvarır. Sonra Biz ona Özümüzdən bir nemət verdikdə deyir: "Bu mənə yalnız özümdə olan biliyə görə verilmişdir!" Xeyr, bu, bir imtahandır, lakin onların çoxu bunu bilmir.*
>
> **(Zumər surəsi, 49)**

> *Allah sizin üçün özünüzdən zövcələr yaratdı, zövcələrinizdən də sizin üçün övladlar və nəvələr yaratdı və sizə pak ruzilər verdi. İndi onlar batilə inanıb Allahın nemətini inkarmı edirlər?*
>
> **(Nəhl surəsi, 72)**

> *Sizə dənizdə bir fəlakət üz verdiyi zaman Ondan başqa tapındıqlarınız sizdən uzaqlaşar. O sizi xilas edib quruya çıxartdıqda isə üz döndərirsiniz. Həqiqətən, insan nankordur!*
>
> **(İsra surəsi, 67)**

> *Bəlanı sizdən sovuşdurduqdan sonra sizlərdən bəziləri Rəbbinə şərik qoşur.*
>
> **(Nəhl surəsi, 54)**

Onlar Bizim onlara verdiyimiz nemətlərə nankorluq etsinlər deyə belə edirlər. Hələlik əylənin! Tezliklə biləcəksiniz.

(Nəhl surəsi, 55)

Əgər insana Özümüzdən bir mərhəmət daddırsaq, sonra da ondan onu geri alsaq, o, naümid və nankor olar.

(Hud surəsi, 9)

Kifayətlənməyi bilməzlər

Məni yaratdığım kimsə ilə tək burax;

(Müddəssir surəsi, 11)

Mən ona bolluca var-dövlət bağışladım,

(Müddəssir surəsi, 12)

qayğısına qalan oğullar verdim

(Müddəssir surəsi, 13)

və onu hər cür imkanlarla təmin etdim.

(Müddəssir surəsi, 14)

> *Bunlara baxmayaraq, o, yenə də əlavə etməyimi arzulayır.*
>
> **(Müddəssir surəsi, 15)**

> *Həqiqətən, sənin Rəbbin nəzarət edir.*
>
> **(Fəcr surəsi, 14)**

> *İnsana gəlincə, Rəbbi onu sınayıb ehtiram göstərəndə və ona nemət verəndə: "Rəbbim mənə ehtiram göstərdi!" – deyər.*
>
> **(Fəcr surəsi, 15)**

> *Amma onu sınamaq üçün ruzisini azaldanda: "Rəbbim məni alçaltdı!" – deyər.*
>
> **(Fəcr surəsi, 16)**

Davamlı israf edərlər

> *Həqiqətən, israfçılar şeytanların qardaşlarıdır. Şeytan isə Rəbbinə qarşı nankordur.*
>
> **(İsra surəsi, 27)**

Xəsisdirlər

> *O kəslər ki, xəsislik edir və insanları da xəsisliyə sövq etdirirlər, Allahın Öz lütfündən onlara verdiyini gizlədirlər. Biz kafirlər üçün alçaldıcı bir əzab hazırlamışıq.*
>
> **(Nisa surəsi, 37)**

> *Yoxsa hökmranlıqdan onların bir payı vardır? Elə olsaydı, onlar insanlara xurma çərdəyinin bir qırıntısını belə verməzdilər.*
>
> **(Nisa surəsi, 53)**

> *De: "Əgər siz Rəbbimin rəhmət xəzinələrinə sahib olsaydınız belə, yenə də onun xərclənib tükənməsindən qorxaraq xəsislik edərdiniz. Çünki insan xəsisdir".*
>
> **(İsra surəsi, 100)**

Yoxsullara yardım etməzlər

> *və az bir şey verməkdən belə imtina edirlər.*
>
> **(Maun surəsi, 7)**

> *Onlara: "Allahın sizə verdiyi ruzidən sərf edin!" – deyildikdə, kafirlər möminlərə deyirlər: "Allahın istədiyi təqdirdə yedirdəcəyi kimsəni bizmi yedirdəcəyik? Siz ancaq açıq-aydın azğınlıq içindəsiniz".*
>
> **(Yasin surəsi, 47)**

> *Kasıbı da yedizdirməzdik.*
>
> **(Müddəssir surəsi, 44)**

> *Dini yalan sayan o kimsəni gördünmü?*
>
> **(Maun surəsi, 1)**

> *O elə adamdır ki, yetimi qovar*
>
> **(Maun surəsi, 2)**



Onlar bataqlıqdakı köpüyə bənzəyirlər

> *və heç kəsi kasıba əl tutmağa sövq etməz.*
>
> **(Maun surəsi, 3)**

İnsanların haqlarını yeyərlər

> *Çəkidə və ölçüdə aldadanların vay halına!*
>
> **(Mutaffifin surəsi, 1)**

> *O kəslərin ki, camaatdan bir şey aldıqda onu tam almaq istəyərlər,*
>
> **(Mutaffifin surəsi, 2)**

> *onlar üçün bir şey ölçdükdə və ya çəkdikdə onu ziyana salarlar.*
>
> **(Mutaffifin surəsi, 3)**

> *Üçüyə tam riayət edin və əksik ölçənlərdən olmayın.*
>
> **(Şuəra surəsi, 181)**

> *Düz tərəzi ilə çəkin.*
>
> **(Şuəra surəsi, 182)**

> *İnsanların əşyalarını əksik verməyin və yer üzündə fəsad yayaraq pis işlər görməyin.*
>
> **(Şuəra surəsi, 183)**

‘Yetimlərin mallarını özlərinə verin və yaxşını pis ilə dəyişməyin. Onların mallarını öz mallarınızla birlikdə yeməyin. Şübhəsiz ki, bu, böyük günahdır.

(Nisa surəsi, 2)

qadağan olunmasına baxmayaraq, sələm aldıqlarına və haqsız yerə insanların mallarını yediklərinə görə belə etdik. Biz onlardan olan kafirlər üçün ağrılı-acılı bir əzab hazırlamışıq.

(Nisa surəsi, 161)

Mədyən qövmünə də qardaşları Şueybi göndərdik. O dedi: “Ey qövmüm! Allaha ibadət edin. Sizin Ondan başqa məbudunuz yoxdur. Rəbbinizdən sizə açıq-aydın bir dəlil gəldi. Elə isə ölçüyə və çəkiyə tam riayət edin, insanların əşyalarını əksik verməyin və yer üzü islah olunduqdan sonra orada fəsad törətməyin. Əgər möminsinizsə, bu, sizin üçün daha xeyirlidir.

(Əraf surəsi, 85)

Göstəriş verməyə maraqlıdırlar

Yurdlarından təkəbbürlə, özlərini camaata göstərmək üçün çıxan və insanları Allah yolundan sapdıran kəslər kimi olmayın. Allah onların əməllərini hər tərəfdən ehtiva etmişdir.

(Ənfal surəsi, 47)

Ey iman gətirənlər! Sədəqələrinizi, özünü camaata göstərmək məqsədilə xərcləyən, Allaha və Axirət gününə inanmayan şəxs kimi minnət qoymaqla və əziyyət verməklə puç etməyin. Bunun məsəli üzərində torpaq olan hamar qayanın məsəlinə bənzəyir ki, şiddətli yağış yağıb onu çılpaq hala salmışdır. Onlar qazandıqlarından heç bir şeyə nail olmazlar. Allah kafir xalqı doğru yola yönəltməz.

(Bəqərə surəsi, 264)

Mal və güclə öyünərlər

Firon qövmünü çağırıb dedi: "Ey xalqım! Məgər Misir səltənəti və altımdan axan bu çaylar mənim deyilmi? Məgər görmürsünüzmü?

(Zuxruf surəsi, 51)

‘Yə da mən bu aciz və az qala sözünü belə aydın başa sala bilməyən adamdan daha üstün deyiləmmi?

(Zuxruf surəsi, 52)

Nə üçün ona qızıl bilərziklər taxılmayıb və onunla birlikdə bir-birinin ardınca mələklər gəlməyib?”

(Zuxruf surəsi, 53)

Ad xalqına gəlincə, onlar yer üzündə haqsızcasına təkəbbür göstərib: “Bizdən daha qüvvətli kim ola bilər?” – dedilər. Məgər onları yaradan Allahın onlardan daha qüvvətli olduğunu görmürdülərmi? Onlar ayələrimizi, sadəcə, inkar edirdilər.

(Fussilət surəsi, 15)

Onun başqa sərvəti də var idi. O öz mömin yoldaşı ilə söhbət edərkən ona: “Mən sərvətcə səndən daha zəngin və adamlarıma görə səndən daha qüvvətliyəm!” – dedi.

(Kəhf surəsi, 34)

Sərvətlərinin və saylarının çox olmasına güvənərlər

Allahın verdiyi hakimiyyətə görə İbrahim ilə Rəbbi barəsində höcətləşən kəsin əhvalatını bilmirsənmi? İbrahim: "Mənim Rəbbim həm dirildir, həm də öldürür!" – dedikdə padşah: "Mən də həm dirildir, həm də öldürürəm!" – demişdi. İbrahim: "Allah günəşi məşriqdən gətirir. Sən də onu məğribdən gətir!" – dedikdə, o kafir çaşıb qalmışdı. Allah zalım qövmü doğru yola yönəltməz.

(Bəqərə surəsi, 258)

Onlar: "Bizim mal-dövlətimiz də, övladlarımız da daha çoxdur və bizə əzab verilməyəcəkdir" – dedilər.

(Səba surəsi, 35)

Firon qövmünü çağırıb dedi: "Ey xalqım! Məgər Misir səltənəti və altımdan axan bu çaylar mənim deyilmi? Məgər görmürsünüzmü?

(Zuxruf surəsi, 51)

O, heç kəsin ona gücü çatmayacağınımı güman edir?

(Bələd surəsi, 5)

O deyir: "Mən çoxlu var-dövlət sərf etmişəm!"

(Bələd surəsi, 6)

Onun başqa sərvəti də var idi. O öz mömin yoldaşı ilə söhbət edərkən ona: "Mən sərvətcə səndən daha zəngin və adamlarıma görə səndən daha qüvvətliyəm!" – dedi.

(Kəhf surəsi, 34)

və elə güman edir ki, var-dövləti onu əbədi saxlayacaqdır.

(Hümәzə surəsi, 3)

De: "Qoy Mərhəmətli Allah azğınlıqda olan hər kəsə uzun müddət möhlət versin! Nəhayət, özlərinə vəd olunan ya əzabı, ya da o Saatı gördükləri zaman onlar kimin məqamının daha pis, kimin ordusunun daha zəif olduğunu biləcəklər".

(Məryəm surəsi, 75)

o adam var-dövlət və oğul-uşaq sahibi olsa belə.

(Qələm surəsi, 14)

> *Ayələrimiz ona oxunduğu zaman: "Bu, keçmişdəkilərin əsatirlərindəndir!" – deyər.*
>
> **(Qələm surəsi, 15)**

> *Çoxluğa hərisliyiniz başınızı o qədər qatdı ki,*
>
> **(Təkasur surəsi, 1)**

> *gömülməklə qəbirləri ziyarət etdiniz.*
>
> **(Təkasur surəsi, 2)**

Yalnız malı və gücü olana hörmət edərlər

> *Firon qövmünü çağırıb dedi: "Ey xalqım! Məgər Misir səltənəti və altımdan axan bu çaylar mənim deyilmi? Məgər görmürsünüzmü?*
>
> **(Zuxruf surəsi, 51)**

> *Ya da mən bu aciz və az qala sözünü belə aydın başa sala bilməyən adamdan daha üstün deyiləmmi?*
>
> **(Zuxruf surəsi, 52)**

> *Peyğəmbərləri onlara dedi: "Allah Talutu sizə hökmdar təyin etdi!" Onlar dedilər: "O necə bizə hökmdar ola bilər ki, biz hökmdarlığa ondan daha çox layiqik və ona heç böyük var-dövlət də verilməmişdir". O dedi: "Allah sizin üzərinizə onu hökmdar seçdi, elm və bədəncə onun gücünü artırdı. Allah Öz mülkünü istədiyi kəsə verir. Allah hər şeyi Əhatəedəndir, Biləndir".*
>
> **(Bəqərə surəsi, 247)**

> *Bağına girdiyin zaman: "Maşallah (Allahın istədiyidir)! Qüvvət yalnız Allaha məxsusdur!" – deməli deyildinmi? Əgər var-dövlətcə və övladca məni özündən kasıb sayırsansa,*
>
> **(Kəhf surəsi, 39)**

> *Onlar dedilər: "Nə üçün bu Quran iki şəhərdən (Məkkədən və ya Taifdən) olan böyük bir adama nazil edilmədi?"*
>
> **(Zuxruf surəsi, 31)**

Haqlının deyil, güclü gördüklərinin tərəfini tutarlar

> *Firon və onun əyanları tərəfindən özlərinə işgəncə veriləcəyindən qorxaraq Musaya öz qövmündən yalnız azsaylı bir nəsil iman gətirdi. Həqiqətən də, Firon yer üzündə qəddar hakim və həddi aşanlardan idi.*
>
> **(Yunis surəsi, 83)**

Möminləri qoyub kafirləri özlərinə dost tutanlar gücü və əzəməti onlardamı axtarırlar? Halbuki qüvvət və əzəmət tamamilə Allaha məxsusdur.

(Nisa surəsi, 139)

Bir-birlərini dost və sirdaş edərlər

Kafirlər də bir-birinə dostdurlar. Əgər siz bunu etməsəniz (bir-birinizə yardımçı olmasanız), yer üzündə fitnə və böyük bir fəsad baş verər.

(Ənfal surəsi, 73)

Eyni sözləri deyərək yollarını azarlar

Beləcə, onlardan əvvəlkilərə də elə bir elçi gəlmədi ki, onun barəsində: "Sehrbazdır, ya da dəlidir!" – deməsinlər.

(Zəriyət surəsi, 52)

Onlar bunu bir-birinə vəsiyyətmi etmişlər? Xeyr, onlar həddi aşan adamlardır.

(Zəriyət surəsi, 53)

> *Xeyr, onlar da əvvəlki ümmətlərin dedikləri kimi dedilər.*
>
> **(Muminun surəsi, 81)**

Şeytanın dostlarıdırlar

> *Möminlər Allah yolunda, kafirlər isə tağut yolunda vuruşurlar. Elə isə şeytanın dostları ilə vuruşun! Şübhəsiz ki, şeytanın hiyləsi zəifdir.*
>
> **(Nisa surəsi, 76)**

Ancaq bir-birləriylə evlənə bilərlər

> *Murdar qadınlar murdar kişilərə, murdar kişilər isə murdar qadınlara, eləcə də təmiz qadınlar təmiz kişilərə, təmiz kişilər də təmiz qadınlara layiqdirlər. Bunlar iftiraçıların söylədiklərindən uzaqdırlar. Onları bağışlanma və bolluca ruzi gözləyir.*
>
> **(Nur surəsi, 26)**

Qadınlara dəyər verməzlər

> *Onlar qızları Allaha aid edirlər. O, pak və müqəddəsdir. Özlərinə isə istədiklərini məxsus edirlər.*
>
> **(Nəhl surəsi, 57)**

> *Onlardan birinə qızı olması ilə müjdə verildikdə hikkəsindən üzü qapqara qaralır.*
>
> **(Nəhl surəsi, 58)**

> *Verilən bəd xəbər ucbatından camaatdan gizlənir. Bilmir nə etsin, körpəni rüsvayçılıq içində saxlasınmı, yoxsa onu torpağa gömsün? Onların verdikləri qərar necə də pisdir!*
>
> **(Nəhl surəsi, 59)**

> *Yoxsa Allah yaratdıqlarından qızları Özünə götürüb oğlanları sizin üçün seçmişdir?*
>
> **(Zuxruf surəsi, 16)**

> *Onlardan birinə, Mərhəmətli Allaha aid etdikləri qız uşağı ilə müjdə verilsə, hirsindən üzü qapqara qaralar.*
>
> **(Zuxruf surəsi, 17)**

> *Onlar zinət içində böyüdülən və çəkişmə zamanı aydın danışa bilməyən qızlarınımı Allaha isnad edirlər?*
>
> **(Zuxruf surəsi, 18)**

Dünyadakı bütün cəhdləri boşa gedəcəkdir

Kim dünya həyatını və onun bərbəzəyini istəyirsə, onlara əməllərinin əvəzini orada tam verərik və onlar orada zərər çəkməzlər.

(Hud surəsi, 15)

Onlar, axirətdə özləri üçün oddan başqa heç bir şeyi olmayan kimsələrdir. Onların dünyada gördükləri işlər boşa çıxar və tutduqları əməllər puç olar.

(Hud surəsi, 16)

Onların bu dünya həyatında sərf etdiklərinin məsəli, özlərinə zülm edən adamların tarlasına ziyan vurub onu məhv edən çox soyuq bir küləyin məsəlinə bənzəyir. Allah onlara zülm etmədi, lakin onlar özləri özlərinə zülm edirdilər.

(Ali İmran surəsi, 117)

De: "Sizə əməlləri baxımından ən çox ziyana uğrayanlar barəsində xəbər verimmi?

(Kəhf surəsi, 103)

> *Ey kəslər haqqında ki, onların dünya həyatındakı səyləri boşa çıxmışdır. Çünki onlar özlüyündə yaxşı işlər gördükləri gümanında idilər.*
>
> **(Kəhf surəsi, 104)**

> *Onlar Rəbbinin ayələrini və Onunla qarşılaşacaqlarını inkar edən, buna görə də bütün əməlləri boşa çıxan kimsələrdir. Odur ki, Qiyamət günü Biz onlara əhəmiyyət verməyəcəyik".*
>
> **(Kəhf surəsi, 105)**

Dünyada da, axirətdə də əzablandırılacaqlar

> *Belə olduqda, Allah da onu dünya və Axirət əzabı ilə yaxaladı.*
>
> **(Naziat surəsi, 25)**

FƏSİL

Mövzularına görə ayələr

Hər şey qədərə görə yaradılmışdır

Sonra O, bu qəm-qüssənin ardınca sizə bir təskinlik – bir qisminizi bürüyən mürgü nazil etdi. O biri qisminiz isə öz canlarının hayına qaldı. Onlar: "Bu işdə bizim üçün bir xeyir varmı?" – deyə Allah barəsində haqsız olaraq, cahiliyyə dövründəkinə bənzər düşüncələrə qapıldılar. De: "Bütün işlər Allaha aiddir!" Onlar sənə bildirmədiklərini öz içərilərində gizlədir: "Əgər bu işdə bizim üçün bir xeyir olsaydı, elə buradaca öldürülməzdik" – deyirlər. De: "Əgər siz evlərinizdə olsaydınız belə, öldürülməsi qabaqcadan müəyyən edilmiş kimsələr yenə çıxıb öləcəkləri yerlərə gedərdilər. Allah sizin köksünüzdə olanları sınamaq, qəlblərinizdə olanları təmizləmək üçün belə etdi. Allah köksünüzdə olanları bilir".

(Ali İmran surəsi, 154)

Biz, həqiqətən də, hər şeyi qədərincə yaratdıq.

(Qamər surəsi, 49)

De: "Allahın istədiyindən başqa, mən özümə nə bir zərər, nə də bir xeyir verməyə qadirəm. Hər ümmətin bir əcəli vardır. Onların əcəli gəldiyi zaman bircə saat belə nə yubanar, nə də qabağa keçə bilərlər".

(Yunis surəsi, 49)

Sən hansı bir işdə olsan, Qurandan nə oxusan, siz nə iş görsəniz, başınız ona qarışarkən Biz sizə şahid olarıq. Nə yerdə, nə də göydə zərrə qədər bir şey Rəbbindən gizli qalmaz. Bundan daha kiçiyi və daha böyüyü yoxdur ki, açıq-aydın Yazıda (Lövhi-Məhfuzda) olmasın.

(Yunis surəsi, 61)

Əgər Rəbbin tərəfindən əvvəlcədən vəd edilmiş Söz və müəyyən edilmiş bir vaxt olmasaydı, əzab onları dərhal yaxalayardı.

(Taha surəsi, 129)

Heç bir ümmət öz əcəlini nə qabaqlaya bilər, nə də yubandırar.

(Muminun surəsi, 43)

Əgər Allah sizi azdırmaq istəyirsə, mən sizə nəsihət vermək istəsəm belə nəsihətim sizə fayda verməz. O sizin Rəbbinizdir və Ona da qaytarılacaqsınız".

(Hud surəsi, 34)

Əgər Allah sənə bir zərər toxundursa, bunu Ondan başqa heç kəs aradan qaldıra bilməz. Əgər sənə bir xeyir diləsə, heç kəs Onun lütfünün qarşısını ala bilməz. O, bunu Öz qullarından istədiyinə nəsib edər. O, Bağışlayandır, Rəhmlidir.

(Yunis surəsi, 107)

O zaman bacın gedib camaata deyirdi: "Sizə onun qayğısına qalacaq birisini göstərimmi?" Beləliklə, gözü aydın olsun və qəm yeməsin deyə, səni anana qaytardıq. Sən boya-başa çatdıqda bir nəfəri öldürdün. O vaxt Biz səni qəm-qüssədən qurtardıq. Biz səni çətin sınaqlardan keçirtdik. Sən illərlə Mədyən əhli içində qaldın. Sonra da müəyyən olunmuş məqama gəlib çatdın, ey Musa!

(Taha surəsi, 40)

İnsanlar vahid bir ümmət idilər, sonra ixtilafa düşdülər. Əgər Rəbbin tərəfindən əzəldən bir Söz verilməsəydi, ixtilafa düşdükləri şey barəsində aralarında dərhal hökm verilərdi.


(Yunis surəsi, 19)

Rəbbin istədiyini yaradır və istədiyini də peyğəmbər seçir. Onların isə seçməyə haqqı yoxdur. Allah pakdır, müqəddəsdir və onların qoşduqları şəriklərdən ucadır.

(Qəsas surəsi, 68)

> *Yer üzündə baş verən və sizin başınıza gələn elə bir müsibət yoxdur ki, Biz onu yaratmamışdan əvvəl o, Yazıda müəyyən edilmiş olmasın. Şübhəsiz ki, bu, Allah üçün çox asandır.*
>
> **(Hədid surəsi, 22)**

> *Göydə və yerdə elə bir gizli şey yoxdur ki, açıq-aydın Yazıda (Lövhi-məhfuzda) olmasın.*
>
> **(Nəml surəsi, 75)**



Ayələr mövzularına görə insanlara yol göstərir

> *Heç bir ümmət öz əcəlini nə qabaqlaya bilər, nə də yubada bilər.*
>
> **(Hicr surəsi, 5)**

> *Hər ümmətin bir əcəli vardır. Onların əcəli gəldiyi zaman bircə saat belə nə yubanar, nə də qabağa keçə bilərlər.*
>
> **(Əraf surəsi, 34)**

Sizi palçıqdan yaradan, sonra da əcəlinizi təyin edən Odur. Onun yanında Qiyamət günü üçün də bəlli bir əcəl vardır. Bunu bildikdən sonra siz yenə də şübhə edirsiniz.

(Ənam surəsi, 2)

Hər bir kəs ancaq Allahın izni ilə, əzəldən müəyyən edilmiş bir vaxtda ölür. Kim dünya mükafatını istəsə, ona bundan verərik. Kim də axirət mükafatını istəsə, ona da ondan verərik. Biz şükür edənləri mütləq mükafatlandıracağıq.

(Ali İmran surəsi, 145)

De: "Allahın bizim üçün yazdığından başqa bizim başımıza heç nə gəlməz. O bizim Himayədarımızdır. Qoy möminlər yalnız Allaha təvəkkül etsinlər!"

(Tövbə surəsi, 51)

Allahın qoyduğu sərhədlərə görə yaşamaq

Allah, – məcburiyyət qarşısında yeyəcəyiniz şeylər istisna olmaqla – haram buyurulanları təfərrüatı ilə sizə bildirdiyi halda, üstündə Onun adı çəkilənlərdən nə üçün yeməyəsiniz? Şübhəsiz ki, çoxları elmsiz olduqları üçün öz istəklərinə uyub insanları doğru yoldan azdırırlar. Həqiqətən, sənin Rəbbin, həddi aşanları daha yaxşı tanıyır.

(Ənam surəsi, 119)

Boşanma iki dəfə olar. Bundan sonra qadını şəriətə müvafiq qayda üzrə saxlamaq, yaxud xoşluqla buraxmaq gərəkdir. Onlara verdiklərinizdən bir şey götürmək sizə halal olmaz. Yalnız hər ikisinin Allahın hədlərini yerinə yetirməyəcəklərindən qorxması istisnadır. Əgər siz onların Allahın hədlərini yerinə yetirməyəcəklərindən qorxsanız, qadının boşanmaq üçün bir şey əvəz verməsində ikisinə də heç bir günah yoxdur. Bunlar Allahın hüdudlarıdır, onları aşmayın! Allahın hüdudlarını aşanlar – məhz onlar zalımlardır.

(Bəqərə surəsi, 229)

Bunlar Allahın qoyduğu hüdudlarıdır. Kim Allaha və Onun Elçisinə itaət edərsə, Allah onu ağacları altından çaylar axan, içində əbədi qalacaqları Cənnət bağlarına daxil edər. Bu, böyük uğurdur.

(Nisa surəsi, 13)

Kim Allaha və Onun Elçisinə asi olub Onun hüdudlarını aşarsa, Allah onu içində əbədi qalacağı Cəhənnəm oduna vasil edər. Onun üçün alçaldıcı bir əzab vardır.

(Nisa surəsi, 14)

Kim bu əməlləri düşmənçilik və zülm etməklə yerinə yetirərsə, Biz onu odda yandıracağıq. Bu da Allah üçün asandır.

(Nisa surəsi, 30)

Ey iman gətirənlər! Allahın sizə halal buyurduğu təmiz ruziləri haram etməyin və həddi aşmayın. Həqiqətən, Allah həddi aşanları sevmir.

(Maidə surəsi, 87)

Tövbə edən, ibadət edən, həmd edən, oruc tutan, rüku və səcdə edən, yaxşı işlər görməyi buyurub pis əməlləri qadağan edən və Allahın qoyduğu hüdudlarını qoruyan o möminləri müjdələ.

(Tövbə surəsi, 112)

Bax belə! Hər kim Allahın haram buyurduqlarına hörmət etsə, bu, Rəbbi yanında onun üçün xeyirli olar. Haram olduğu sizə oxunanlardan başqa, qalan heyvanlar sizə halal edilmişdir. Elə isə murdar bütlərdən uzaq olun, yalan sözlərdən də çəkinin;

(Həcc surəsi, 30)

O kəslər ki, tənasül üzvlərini zinadan qoruyurlar –

(Məaric surəsi, 29)

zövcələrindən və sahib olduqları cariyələrdən başqa. Buna görə onlar əsla qınanmazlar.

(Məaric surəsi, 30)

Bundan artığını istəyənlər isə həddi aşanlardır.

(Məaric surəsi, 31)

Ey Peyğəmbər! Qadınları boşadığınız zaman onları gözləmə müddətlərində boşayın, gözləmə müddətini hesablayın və Rəbbiniz olan Allahdan qorxun. Onları, açıq-aşkar zinakarlıq etmələri istisna olmaqla, öz evlərinizdən qovub çıxartmayın və onlar özləri də çıxmasınlar. Bu, Allahın hüdudlarıdır. Allahın qoyduğu hüdudları aşan kimsə özünə zülm etmiş olar. Sən bilmirsən, ola bilsin ki, Allah bundan sonra başqa bir hökm versin.

(Talaq surəsi, 1)

Sonra isə, onlara verdiyimiz vədi yerinə yetirdik. Biz həm onları, həm də istədiyimiz kəsləri xilas edib, həddi aşanları məhvə uğratdıq.

(Ənbiya surəsi, 9)

De: "Ey Kitab əhli! Dininizdə haqsız yerə ifrata varmayın. Öncə azmış, bir çoxlarını da azdırmış və doğru yoldan çıxmış bir dəstənin istəklərinə tabe olmayın".

(Maidə surəsi, 77)

Biz həddi aşanı və Rəbbinin ayələrinə inanmayanı belə cəzalandırırıq. Axirət əzabı isə, daha şiddətli və daha sürəklidir.

(Taha surəsi, 127)

Rəbbinizə acizanə, həm də gizlicə dua edin! Şübhəsiz ki, O, həddi aşanları sevmir.

(Əraf surəsi, 55)

Dində çətinlik yoxdur

İnsanlara doğru yolu göstərən, bu yolun və haqqı batildən ayırd edənin açıq-aydın dəlilləri olan Quran ramazan ayında nazil edilmişdir. Sizlərdən bu aya çatan şəxslər həmin ayı oruc tutmalıdırlar. Xəstə və ya səfərdə olanlar isə başqa günlərdə eyni sayda oruc tutmalıdırlar. Allah sizin üçün çətinlik deyil, asanlıq istəyir. O, istəyir ki, siz müddəti (buraxdığınız günlərin orucunu) tamamlayasınız və sizi doğru yola yönəltdiyinə görə Onu uca tutasınız. Bəlkə şükür edəsiniz.

(Bəqərə surəsi, 185)



Hər ayə ayrı bir hidayət xəzinəsidir

Biz Quranı sənə ona görə nazil etmədik ki, əziyyətə düşəsən.

(Taha surəsi, 2)

Onu Allahdan qorxanlar üçün ancaq nəsihət kimi göndərdik.

(Taha surəsi, 3)

Biz Quranı yada salmaq üçün asanlaşdırdıq. Amma heç bir yada salan varmı?

(Qamər surəsi, 17)

Biz onu (Quranı) sənin dilinlə asanlaşdırdıq ki, onunla müttəqilərə müjdə verəsən və inadkarlara xəbərdarlıq edəsən.

(Məryəm surəsi, 97)

Heyzdən kəsilmiş yaşlı qadınlarınızın iddəsi barəsində şübhəniz varsa, onların, eləcə də hələ heyz görməmiş qızların gözləmə müddəti üç aydır. Hamilə qadınların gözləmə müddəti isə onlar hamiləlikdən azad olana qədərdir. Kim Allahdan qorxarsa, Allah onun işini asanlaşdırar.

(Talaq surəsi, 4)

Səni ən asan olana müvəffəq edərik.

(Əla surəsi, 8)

Kim haqqını verir və Allahdan qorxursa,

(Leyl surəsi, 5)

və ən gözəl olanı (lə ilahə illəllahı) təsdiq edirsə,

(Leyl surəsi, 6)

Biz onu ən asan olana nail edəcəyik.

(Leyl surəsi, 7)

Allah sizin üçün şəriət hökmlərini yüngülləşdirmək istəyir, çünki insan zəif yaradılmışdır.

(Nisa surəsi, 28)

İman gətirib yaxşı əməl edənlər isə Cənnət sakinləridir. Onlar orada əbədi qalacaqlar. Biz hər kəsi yalnız onun qüvvəsi çatdığı qədər yükləyirik.

(Əraf surəsi, 42)

Biz hər kəsi yalnız qüvvəsi çatdığı qədər yükləyirik. Yanımızda haqqı deyən bir Kitab vardır. Onlara zülm olunmaz.

(Muminun surəsi, 62)

Allah yolunda lazımınca cihad edin. O, sizi seçdi və atanız İbrahimin dinində olduğu kimi, bu dində də sizin üçün heç bir çətinlik yaratmadı. Peyğəmbər sizə, siz də insanlara şahid olasınız deyə, Allah həm əvvəl nazil etdiyi kitablarda, həm də bu Kitabda sizi müsəlman adlandırdı. Elə isə namaz qılın, zəkat verin və Allaha möhkəm sarılın. O sizin Himayədarınızdır. O nə gözəl Himayədar, nə gözəl Yardımçıdır!

(Həcc surəsi, 78)

FƏSİL 9

Quranda intizam anlayışı

Qurana görə lidersiz bir müsəlman birliyi olmaz

Səbir etdiklərinə və ayələrimizə yəqinliklə inandıqlarına görə Biz əmrimizlə onlardan doğru yolu göstərən rəhbərlər təyin etmişdik.

(Səcdə surəsi, 24)

Rəbbi İbrahimi bəzi kəlmələrlə sınadığı zaman o, bunları tamamilə yerinə yetirdi. Allah: "Mən səni insanlara imam edəcəyəm!" – dedi. İbrahim: "Nəslimdən də (imam et)!" – dedi. Allah: "Zalımlar Mənim onlarla əhd bağlamağıma nail olmazlar!" – dedi.

(Bəqərə surəsi, 124)

Biz Öz hökmümüzlə onları doğru yolu göstərən rəhbərlər etdik. Onlara xeyirli işlər görməyi, namaz qılmağı və zəkat verməyi vəhy etdik. Onlar yalnız Bizə ibadət edirdilər.

(Ənbiya surəsi, 73)

Ey Davud! Biz səni yer üzündə xəlifə təyin etdik. Elə isə insanlar arasında ədalətlə hökm ver, nəfsin istəyinə uyma, yoxsa o səni Allahın yolundan azdırar. Həqiqətən, Allahın yolundan azanları Hesablaşma gününü unutduqları üçün şiddətli bir əzab gözləyir.

(Sad surəsi, 26)

Peyğəmbər Allah tərəfindən seçilmişdir

Onlara bir ayə gəldikdə: "Allahın elçilərinə verilənin bənzəri bizə də verilməyincə iman gətirməyəcəyik" – dedilər. Allah peyğəmbərliyini kimə verəcəyini daha yaxşı bilir. Günahkarlar, qurduqları hiylələrə görə Allahın hüzurunda rəzil olacaq və şiddətli əzab çəkəcəklər.

(Ənam surəsi, 124)

Allah pisi yaxşıdan ayırmayınca möminləri sizin olduğunuz vəziyyətdə tərk edən deyildir. Allah sizə qeybi bildirən deyildir. Lakin, Allah Öz elçilərindən istədiyini seçər. Odur ki, Allaha və Onun elçilərinə iman gətirin! Əgər iman gətirib Allahdan qorxsanız, sizə böyük bir mükafat verilər.

(Ali İmran surəsi, 179)

Biz Öz hökmümüzlə onları doğru yolu göstərən rəhbərlər etdik. Onlara xeyirli işlər görməyi, namaz qılmağı və zəkat verməyi vəhy etdik. Onlar yalnız Bizə ibadət edirdilər.

(Ənbiya surəsi, 73)

Rəbbin istədiyini yaradır və istədiyini də peyğəmbər seçir. Onların isə seçməyə haqqı yoxdur. Allah pakdır, müqəddəsdir və onların qoşduqları şəriklərdən ucadır.

(Qəsas surəsi, 68)

Ey insanlar! Peyğəmbər sizə Rəbbinizdən gələn haqqı çatdırdı. Elə isə iman gətirin! Bu sizin üçün xeyirli olar. Əgər küfr etsəniz, şübhəsiz ki, göylərdə və yerdə nə varsa, Allaha məxsusdur. Allah Biləndir, Müdrikdir.

(Nisa surəsi, 170)

Peyğəmbərləri onlara dedi: "Allah Talutu sizə hökmdar təyin etdi!" Onlar dedilər: "O necə bizə hökmdar ola bilər ki, biz hökmdarlığa ondan daha çox layiqik və ona heç böyük var-dövlət də verilməmişdir". O dedi: "Allah sizin üzərinizə onu hökmdar seçdi, elm və bədəncə onun gücünü artırdı. Allah Öz mülkünü istədiyi kəsə verir. Allah hər şeyi Əhatəedəndir, Biləndir".

(Bəqərə surəsi, 247)

Qurana söykənməyən lider seçimi ancaq mal, sərvət və şöhrət üstünlüyünə görə olar

Peyğəmbərləri onlara dedi: "Allah Talutu sizə hökmdar təyin etdi!" Onlar dedilər: "O necə bizə hökmdar ola bilər ki, biz hökmdarlığa ondan daha çox layiqik və ona heç böyük var-dövlət də verilməmişdir". O dedi: "Allah sizin üzərinizə onu hökmdar seçdi, elm və bədəncə onun gücünü artırdı. Allah Öz mülkünü istədiyi kəsə verir. Allah hər şeyi Əhatəedəndir, Biləndir".

(Bəqərə surəsi, 247)

Allahın seçdiyi peyğəmbər təqvaca, bilik və ağıl ilə üstün edilmişdir

Peyğəmbərləri onlara dedi: "Allah Talutu sizə hökmdar təyin etdi!" Onlar dedilər: "O necə bizə hökmdar ola bilər ki, biz hökmdarlığa ondan daha çox layiqik və ona heç böyük var-dövlət də verilməmişdir". O dedi: "Allah sizin üzərinizə onu hökmdar seçdi, elm və bədəncə onun gücünü artırdı. Allah Öz mülkünü istədiyi kəsə verir. Allah hər şeyi Əhatəedəndir, Biləndir".

(Bəqərə surəsi, 247)

Biz Davuda və Süleymana elm verdik. Onlar dedilər: "Bizi Öz mömin qullarının çoxundan üstün tutan Allaha həmd olsun!"

(Nəml surəsi, 15)

O dedi: "Sizə veriləcək yemək gəlməmişdən əvvəl mən bunun yozumunu sizə bildirərəm. Bu, Rəbbimin mənə öyrətdiklərindəndir. Mən Allaha iman gətirməyən, özləri də axirəti inkar edən adamların dinindən uzaqlaşmışam.

(Yusif surəsi, 37)

Allah möminlərə, öz aralarından onlara Allahın ayələrini oxuyan, onları günahlardan təmizləyən, onlara Kitabı və Hikməti (Sünnəni) öyrədən bir Elçi göndərməklə mərhəmət göstərmişdir. Halbuki əvvəllər onlar açıq-aydın azğınlıqda idilər.

(Ali İmran surəsi, 164)


Biz Öz hökmümüzlə onları doğru yolu göstərən rəhbərlər etdik. Onlara xeyirli işlər görməyi, namaz qılmağı və zəkat verməyi vəhy etdik. Onlar yalnız Bizə ibadət edirdilər.

(Ənbiya surəsi, 73)

> *Onu alan misirli öz arvadına: "Ona yaxşı bax. Ola bilsin ki, bizə fayda versin və ya onu oğulluğa götürək" – dedi. Beləliklə, Yusifi yer üzündə yerləşdirdik və ona yuxuları yozmağı öyrətdik. Allah Öz işini qələbə ilə başa çatdırandır. Lakin insanların çoxu bunu bilmir.*
>
> **(Yusif surəsi, 21)**

Elm sahibidir

> *Atalarının onlara əmr etdiyi yerlərdən daxil olmalarının Allahın yanında onlar üçün heç bir faydası olmadı, lakin bu, Yaqubun nəfsindəki bir istək idi ki, onu da yerinə yetirdi. Həqiqətən də, o, elm sahibi idi, çünki onu Biz öyrətmişdik. Lakin insanların çoxu bunu bilmir.*
>
> **(Yusif surəsi, 68)**



Bal arısı Rəbbinin ona vəhy etdiyi nizamla işləyir

> *Onlar orada Öz tərəfimizdən mərhəmət bəxş etdiyimiz və elm öyrətdiyimiz (ledun elmi) qullarımızdan birinə rast gəldilər.*
>
> **(Kəhf surəsi, 65)**

Ey Rəbbim! Sən mənə hakimiyyət verdin və mənə yuxuları yozmağı öyrətdin. Ey göyləri və yeri yaradan! Sən dünyada da, axirətdə də mənim Himayədarımsan. Mənim canımı müsəlman kimi al və məni əməlisalehlərə qovuşdur".

(Yusif surəsi, 101)

Musa yetkinləşib kamillik dövrünə çatdıqda Biz ona hökmranlıq (peyğəmbərlik) və elm əta etdik. Biz xeyirxah işlər görənləri belə mükafatlandırırıq.

(Qəsas surəsi, 14)

Onlara əmin-amanlıq və ya qorxu xəbəri gəldikdə, onu yayarlar. Halbuki bunu Peyğəmbərə və özlərindən olan nüfuz sahiblərinə çatdırsaydılar, içərilərindən onun mahiyyətinə varan kəslər o xəbəri bilərdilər. Əgər sizə Allahın lütfü və rəhmi olmasaydı, əlbəttə, az bir qisminiz istisna olmaqla, hamınız şeytana uyardınız.

(Nisa surəsi, 83)

Allahın mərhəməti sayəsində sən onlarla mülayim rəftar etdin. Əgər sən kobud və daş qəlbli olsaydın, onlar hökmən sənin ətrafından dağılışardılar. Sən onların günahından keç, Allahdan onların bağışlanmalarını dilə və görəcəyin işlər barədə onlarla məsləhətləş. Qəti qərara gəldikdə isə Allaha təvəkkül et! Həqiqətən, Allah təvəkkül edənləri sevir.

(Ali İmran surəsi, 159)

Hikmət və natiqlik gücü çox yüksəkdir

Biz onun mülkünü möhkəmləndirdik, özünə də hikmət (peyğəmbərlik) və düzgün qərar çıxartmaq qabiliyyəti bəxş etdik.

(Sad surəsi, 20)

Allah istədiyi kəsə hikmət bəxş edir. Kimə hikmət verilmişsə, ona çoxlu xeyir nəsib edilmişdir. Bunu isə ancaq düşüncəli insanlar anlayarlar.

(Bəqərə surəsi, 269)

Yəhyaya da: "Ey Yəhya! Kitabdan möhkəm yapış!" – deyə vəhy etdik. Biz ona uşaq ikən hikmət bəxş etdik.

(Məryəm surəsi, 12)

Möminlər Allahın izni ilə onları darmadağın etdilər. Davud Calutu öldürdü. Allah ona hökmranlıq və hikmət verdi, ona istədiyini öyrətdi. Əgər Allah insanların bəzilərini digərləri ilə dəf etməsəydi, yer üzü fəsada uğrayardı. Lakin Allah aləmlərə qarşı lütfkardır.

(Bəqərə surəsi, 251)

Quranı çox yaxşı anlama qabiliyyətinə malikdir

Həqiqətən, Biz sənə Kitabı haqq olaraq nazil etdik ki, insanlar arasında Allahın sənə vəhy etdiyi ilə hökm verəsən. Odur ki, xainləri müdafiə edənlərdən olma.

(Nisa surəsi, 105)

Əgər sənə Allahın lütfü və rəhmi olmasaydı, əlbəttə, onların bir qismi səni doğru yoldan azdırmaq niyyətində olacaqdı. Amma onlar özlərindən başqa heç kəsi azdıra bilməz və sənə də heç bir şeylə zərər vura bilməzlər. Allah sənə Kitabı və hikməti (Quranı və Sünnəni) nazil etdi və bilmədiyin şeyləri sənə öyrətdi. Allahın sənə olan lütfü böyükdür.

(Nisa surəsi, 113)

> *Onların aralarında Allahın sənə nazil etdiyi Kitabla hökm ver və onların istəklərinə tabe olma. Onlardan ehtiyat et ki, Allahın sənə nazil etdiyi hökmlərin bəzisindən səni sapdırmasınlar. Əgər onlar üz döndərsələr, bil ki, Allah onları bəzi günahlarına görə müsibətə düçar etmək istəyir. Həqiqətən, insanların çoxu fasiqlərdir.*
>
> **(Maidə surəsi, 49)**

Allah ona hökmranlıq və şöhrət baxımından da üstünlük vermişdir

> *Yoxsa onlar Allahın Öz lütfündən insanlara verdiyi şeyə görə onlara həsəd aparırlar? Biz İbrahimin nəslinə də Kitab və hikmət bəxş etmiş və onlara böyük bir səltənət vermişdik.*
>
> **(Nisa surəsi, 54)**

> *Biz onun mülkünü möhkəmləndirdik, özünə də hikmət (peyğəmbərlik) və düzgün qərar çıxartmaq qabiliyyəti bəxş etdik.*
>
> **(Sad surəsi, 20)**

Ey Rəbbim! Sən mənə hakimiyyət verdin və mənə yuxuları yozmağı öyrətdin. Ey göyləri və yeri yaradan! Sən dünyada da, axirətdə də mənim Himayədarımsan. Mənim canımı müsəlman kimi al və məni əməlisalehlərə qovuşdur".

(Yusif surəsi, 101)

Möminlər Allahın izni ilə onları darmadağın etdilər. Davud Calutu öldürdü. Allah ona hökmranlıq və hikmət verdi, ona istədiyini öyrətdi. Əgər Allah insanların bəzilərini digərləri ilə dəf etməsəydi, yer üzü fəsada uğrayardı. Lakin Allah aləmlərə qarşı lütfkardır.

(Bəqərə surəsi, 251)

Səndən Zülqərneyn barəsində soruşurlar. De: "Onun barəsində sizə bir əhvalat danışacağam".

(Kəhf surəsi, 83)

Həqiqətən, Biz ona yer üzündə hökmranlıq verdik və hər şeyin yolunu ona öyrətdik.

(Kəhf surəsi, 84)

Quranla hökm edər

Onların aralarında Allahın sənə nazil etdiyi Kitabla hökm ver və onların istəklərinə tabe olma. Onlardan ehtiyat et ki, Allahın sənə nazil etdiyi hökmlərin bəzisindən səni sapdırmasınlar. Əgər onlar üz döndərsələr, bil ki, Allah onları bəzi günahlarına görə müsibətə düçar etmək istəyir. Həqiqətən, insanların çoxu fasiqlərdir.

(Maidə surəsi, 49)

Həqiqətən, Biz sənə Kitabı haqq olaraq nazil etdik ki, insanlar arasında Allahın sənə vəhy etdiyi ilə hökm verəsən. Odur ki, xainləri müdafiə edənlərdən olma.

(Nisa surəsi, 105)

Savadsızlara özlərindən elçi göndərən Odur. Elçi onlara Allahın ayələrini oxuyar, onları pis əməllərdən təmizləyər, onlara Kitabı və Hikməti öyrədər. Halbuki onlar əvvəllər açıq-aydın azğınlıq içində idilər.

(Cümə surəsi, 2)

Quranı, haqq ilə batilin arasındakı fərqi, hikməti öyrədər

O kəslər ki, yanlarındakı Tövrat və İncildə haqqında yazılmış olduğunu gördükləri elçinin – yazıb-oxumaq bilməyən peyğəmbərin, ardınca gedərlər. O peyğəmbər onlara yaxşı işlər görməyi buyurar, pis əməlləri isə qadağan edər, onlara pak şeyləri halal, murdar şeyləri isə haram edər. Onların ağır yüklərini yüngülləşdirər və onları buxovlardan xilas edər. Ona iman gətirən, onu dəstəkləyən, ona kömək edən və onunla göndərilmiş nurun (Quranın) ardınca gedənlər isə nicat tapanlardır".

(Əraf surəsi, 157)

Savadsızlara özlərindən elçi göndərən Odur. Elçi onlara Allahın ayələrini oxuyar, onları pis əməllərdən təmizləyər, onlara Kitabı və Hikməti öyrədər. Halbuki onlar əvvəllər açıq-aydın azğınlıq içində idilər.

(Cümə surəsi, 2)

Biz onları aydın dəlillər və kitablarla göndərdik. Sənə də Zikri nazil etdik ki, insanlara, onlara nazil olanı izah edəsən və bəlkə onlar fikirləşələr.

(Nəhl surəsi, 44)

Allah möminlərə, öz aralarından onlara Allahın ayələrini oxuyan, onları günahlardan təmizləyən, onlara Kitabı və Hikməti (Sünnəni) öyrədən bir Elçi göndərməklə mərhəmət göstərmişdir. Halbuki əvvəllər onlar açıq-aydın azğınlıqda idilər.

(Ali İmran surəsi, 164)

Həmçinin öz içərinizdən ayələrimizi sizə oxuyan, sizi günahlardan təmizləyən, Kitabı və hikməti sizə öyrədən, habelə bilmədiklərinizi də sizə öyrədən bir Elçi göndərdik.

(Bəqərə surəsi, 151)

Möminlərə, ixtilafa düşə biləcəkləri mövzuları açıqlayar

İsa aydın dəlillərlə gəldiyi zaman dedi: "Mən sizə hikmət gətirmişəm və barəsində ziddiyyətə düşdüyünüz bəzi şeyləri izah etmək üçün gəlmişəm. Allahdan qorxun və mənə itaət edin!

(Zuxruf surəsi, 63)

Allah onların keçmişini və gələcəyini bilir. Onlar yalnız Onun razı qaldığı şəxslərdən ötrü şəfaət diləyir və Onun qorxusundan tir-tir əsirlər.

(Ənbiya surəsi, 28)

və iman gətirib yaxşı işlər görənləri zülmətlərdən nura çıxartmaq üçün Allahın aydın ayələrini sizə oxuyan bir elçi göndərmişdir. Hər kəs Allaha iman gətirib saleh əməl işləsə, Allah onu içində əbədi qalacağı, ağacları altından çaylar axan Cənnət bağlarına daxil edər. Allah ona gözəl ruzi nəsib etmişdir.

(Talaq surəsi, 11)

Biz müjdə verən və qorxudan elçilər göndərdik ki, insanların elçilərdən sonra Allaha qarşı bir bəhanəsi olmasın. Allah Qüdrətlidir, Müdrikdir.

(Nisa surəsi, 165)

Allahın razılığını güdər

De: "Mənə, dini yalnız Allaha məxsus edərək, Ona ibadət etmək əmr olunmuşdur.

(Zumər surəsi, 11)

Allah buyurdu: "Səni öz qövmündən ayrılmağa tələsdirən nə idi, ey Musa?"

(Taha surəsi, 83)

> *Musa dedi: "Onlar da arxamca gəlirlər. Məndən razı qalasan deyə, Sənin yanına tələsdim, ey Rəbbim!"*
>
> **(Taha surəsi, 84)**

Çox etibarlıdır

> *Həqiqətən, mən sizin üçün etibar edilməli bir elçiyəm.*
>
> **(Şuəra surəsi, 107)**

> *Qövmünün kafir zadəganları dedilər: "Biz səni səfeh sayırıq və həqiqətən də, səni yalançılardan hesab edirik!"*
>
> **(Əraf surəsi, 66)**

> *O dedi: "Ey qövmüm! Mən heç də səfeh deyiləm. Lakin mən aləmlərin Rəbbi tərəfindən göndərilmiş bir elçiyəm.*
>
> **(Əraf surəsi, 67)**

> *Mən Rəbbimin vəhy etdiyi hökmlərini sizə təbliğ edirəm. Mən sizin etibarlı nəsihətçinizəm.*
>
> **(Əraf surəsi, 68)**



Günəş və ay hesabla hərəkət edir

Biz onlardan əvvəl Fironun xalqını da sınadıq. Onlara möhtərəm bir elçi gəldi.

(Duxan surəsi, 17)

O dedi: "Allahın qullarını mənə qaytarın. Həqiqətən, mən sizin üçün etibarlı bir elçiyəm.

(Duxan surəsi, 18)

Padşah dedi: "Onu yanıma gətirin! Onu özümə yaxın adam edəcəyəm". Onunla söhbət etdikdə: "Sən bu gün yanımızda yüksək məqam sahibi, etibarlı bir adamsan" – dedi.

(Yusif surəsi, 54)

Allah İsrail oğulları ilə əhd bağlamışdı. Biz onlardan on iki başçı təyin etdik. Allah dedi: "Mən sizinləyəm. Əgər namaz qılsanız, zəkat versəniz, Mənim elçilərimə inanıb onlara yardım etsəniz və kasıblara könüllü yardım etməklə Allaha gözəl bir borc versəniz, əlbəttə, Mən təqsirlərinizdən keçər və sizi ağacları altından çaylar axan Cənnət bağlarına daxil edərəm. Sizlərdən kimsə bundan sonra kafir olsa, bilsin ki, artıq o, doğru yoldan azmışdır".

(Maidə surəsi, 12)

O elçi ki, qüvvətlidir, Ərşin sahibi yanında böyük hörmət sahibidir,

(Təkvir surəsi, 20)

orada itaət ediləndir, etibarlıdır.

(Təkvir surəsi, 21)

Allahın qoruması altındadır

Onlar yalana həvəslə qulaq asanlar və daima haram yeyənlərdir. Əgər onlar sənin yanına gəlsələr, aralarında hökm ver və ya onlardan üz çevir. Əgər onlardan üz çevirsən, sənə heç bir şeylə zərər verə bilməzlər. Əgər onların arasında hökm verməli olsan, ədalətlə hökm ver. Şübhəsiz ki, Allah ədalətli olanları sevir.

(Maidə surəsi, 42)

Ey iman gətirənlər! Allahın sizə göstərdiyi iltifatını xatırlayın. O zaman ki, düşmən ordusu sizin üstünüzə hücuma keçmişdi, Biz də onların üstünə külək və görmədiyiniz qoşunlar göndərmişdik. Allah sizin nə etdiyinizi görür.

(Əhzab surəsi, 9)

"Həqiqətən, onlara kömək göstəriləcəkdir.

(Saffat surəsi, 172)

Bizim əsgərlərimizin mütləq qələbəsi labüddür".

(Saffat surəsi, 173)

Ey iman gətirənlər! Öz qeydinizə qalın! Siz doğru yolda olsanız, haqq yoldan azmışlar sizə zərər yetirə bilməzlər. Hamınızın dönüşü Allaha olacaq və O, etdiyiniz əməllər barədə sizə xəbər verəcəkdir.

(Maidə surəsi, 105)

Siz insanlar arasında üzə çıxarılmış ən xeyirli ümmətsiniz. Siz yaxşı işlər görməyi əmr edir, pis əməlləri qadağan edir və Allaha iman gətirirsiniz. Kitab əhli də iman gətirsəydi, əlbəttə, onlar üçün yaxşı olardı. Onların arasında iman gətirənlər də vardır. Əksəriyyəti isə haqq yolunu azmış fasiqlərdir.

(Ali İmran surəsi, 110)

Onlar sizə əziyyətdən başqa bir zərər yetirə bilməzlər. Əgər sizinlə vuruşmalı olsalar, arxa çevirib qaçarlar. Sonra isə onlara kömək də edilməz.

(Ali İmran surəsi, 111)

Onlar sizə göz qoyurlar (gözləyirlər ki sizə bir bəla gəlsin). Əgər Allahdan sizə bir qələbə gəlsə: "Məgər biz də sizinlə deyildikmi?" – deyərlər. Əgər kafirlərə bir qələbə nəsib olsa: "Məgər biz möminlərlə birlikdə sizə qalib gələ bilməzdikmi, sizi möminlərdən qorumadıqmı?" – söyləyərlər. Qiyamət günü Allah sizin aranızda hökm verəcəkdir. Allah kafirlərə möminləri məğlub etməyə yol verməyəcəkdir.

(Nisa surəsi, 141)

Etdikləri üçün kimsədən heç bir qarşılıq gözləməz

Mən bunun əvəzinə sizdən heç bir mükafat istəmirəm. Mənim mükafatım ancaq aləmlərin Rəbbinə aiddir.

(Şuəra surəsi, 164)

Mən bunun əvəzinə sizdən heç bir mükafat istəmirəm. Mənim mükafatım ancaq aləmlərin Rəbbinə aiddir.

(Şuəra surəsi, 145)

Mən bunun əvəzinə sizdən heç bir mükafat istəmirəm. Mənim mükafatım ancaq aləmlərin Rəbbinə aiddir.

(Şuəra surəsi, 127)

Ey qövmüm! Mən bunun əvəzinə sizdən heç bir mükafat istəmirəm. Mənim mükafatım ancaq məni yaradandadır. Məgər anlamırsınız?

(Hud surəsi, 51)

Mən bunun əvəzinə sizdən heç bir mükafat istəmirəm. Mənim mükafatım ancaq aləmlərin Rəbbinə aiddir.

(Şuəra surəsi, 109)

Küfrlə cihad etmə gücü daha çoxdur

Onlarla vuruşun ki, Allah sizin əllərinizlə onlara əzab versin, onları rüsvay etsin, sizə onların üzərində qələbə çaldırsın, mömin camaatın qəlbini sevindirsin

(Tövbə surəsi, 14)

Ey Peyğəmbər! Möminləri döyüşə ruhlandır. Əgər aranızda iyirmi səbirli kişi olsa, kafirlərdən iki yüzünə qalib gələr; əgər aranızda yüz səbirli kişi olsa, kafirlərdən mininə qalib gələr. Çünki onlar anlamayan adamlardır.

(Ənfal surəsi, 65)

Sən Allah yolunda vuruş! Sən ancaq özünə cavabdehsən. Möminləri də döyüşə təşviq et! Ola bilsin ki, Allah kafirlərin qüvvəsinin qarşısını alsın. Allahın qüvvəsi daha çox, cəzası daha şiddətlidir.

(Nisa surəsi, 84)

Sizə yüngül gəlsə də, ağır gəlsə də, döyüşə çıxın, malınız və canınızla Allah yolunda cihad edin! Biləsiniz ki, bu sizin üçün daha xeyirlidir.

(Tövbə surəsi, 41)

O zaman sən Uhuddakı döyüşdən ötrü möminləri mövqelərə yerləşdirmək üçün səhər tezdən ailəndən ayrılıb getdin. Allah, Eşidəndir, Biləndir!

(Ali İmran surəsi, 121)

Əgər döyüşdə onları yaxalasan, onları cəzalandırmaqla arxalarında olan kimsələri də dağıt ki, bəlkə ibrət alsınlar.

(Ənfal surəsi, 57)

Ey Peyğəmbər! Kafirlərlə və münafiqlərlə vuruş. Onlarla sərt davran. Onların sığınacaqları yer Cəhənnəmdir. Ora nə pis dönüş yeridir!

(Tövbə surəsi, 73)

Lakin Allahın Elçisi və onunla birgə iman gətirənlər malları və canları ilə cihad etdilər. Onlar üçün nemətlər hazırlanmışdır. Məhz onlar uğur qazananlardır.

(Tövbə surəsi, 88)

Rəhbərlik və idarə gücü çox yüksəkdir

Süleymanın cinlərdən, insanlardan və quşlardan ibarət qoşunu toplanıldı. Onlar müntəzəm şəkildə yerbəyer edildilər.

(Nəml surəsi, 17)

Süleyman quşları nəzərdən keçirib dedi: "Hüdhüdü nə üçün görmürəm? Yoxsa o burada yoxdur?

(Nəml surəsi, 20)

O, ya mənə aşkar bir dəlil gətirməlidir, ya da mən ona şiddətli bir əzab verməliyəm və yaxud da tutub boğazını üzməliyəm".

(Nəml surəsi, 21)

Kəşfiyyatı çox inkişaf etmişdir

Cinlərdən çox qüvvətli birisi dedi: "Sən məclisdən qalxmamış mən onu sənə gətirərəm. Mən bu işi görməyə çox qüvvətliyəm, etibarlıyam!"

(Nəml surəsi, 39)

Kitabdan xəbəri olan bir başqa kimsə isə belə dedi: "Mən onu sənə bir göz qırpımında gətirərəm!" Süleyman taxtı yanında hazır durmuş görən kimi dedi: "Bu, Rəbbimin lütfündəndir ki, məni sınağa çəksin, görək şükür edəcəyəm, yoxsa nankor olacağam! Kim şükür etsə, ancaq öz xeyrinə şükür etmiş olar, kim də nankor olsa, bilsin ki, həqiqətən, Rəbbim onun şükrünə möhtac deyildir, Səxavətlidir!"

(Nəml surəsi, 40)

Süleyman dedi: "Baxaq görək, sən doğru deyirsən, yoxsa yalançılardansan.

(Nəml surəsi, 27)

Mənim bu məktubumu apar onların yanına at. Sonra bir qədər uzaqda dur və bax gör nə cavab verəcəklər!"

(Nəml surəsi, 28)

Nəhayət, onlar qarışqa vadisinə gəlib çatdıqda bir qarışqa dedi: "Ey qarışqalar! Yuvalarınıza girin ki, Süleyman və onun qoşunu özləri də hiss etmədən sizi tapdayıb məhv etməsinlər".

(Nəml surəsi, 18)

> *Süleyman qarışqanın bu sözünə gülümsədi və dedi: "Ey Rəbbim! Mənə həm mənim özümə, həm də valideynlərimə əta etdiyin nemətə şükür etmək üçün, Sənin razı qalacağın yaxşı əməl etmək üçün ilham ver və məni Öz mərhəmətinlə əməlisaleh qullarına qovuşdur!"*
>
> **(Nəml surəsi, 19)**

> *Süleyman quşları nəzərdən keçirib dedi: "Hüdhüdü nə üçün görmürəm? Yoxsa o burada yoxdur?*
>
> **(Nəml surəsi, 20)**

> *O, ya mənə aşkar bir dəlil gətirməlidir, ya da mən ona şiddətli bir əzab verməliyəm və yaxud da tutub boğazını üzməliyəm".*
>
> **(Nəml surəsi, 21)**

Allah cin, tayfalarını da xidmətinə verə bilər

> *Süleyman quşları nəzərdən keçirib dedi: "Hüdhüdü nə üçün görmürəm? Yoxsa o burada yoxdur?*
>
> **(Nəml surəsi, 20)**

> *Ə, ya mənə aşkar bir dəlil gətirməlidir, ya da mən ona şiddətli bir əzab verməliyəm və yaxud da tutub boğazını üzməliyəm".*
>
> **(Nəml surəsi, 21)**

> *Çox keçmədən hüdhüd gəlib dedi: "Mən sənin bilmədiyin bir şeyi öyrəndim. Sənə Səbadan doğru bir xəbər gətirmişəm.*
>
> **(Nəml surəsi, 22)**



Qar dənələri — hər biri fərqli sənət əsəri

> *Süleymanın cinlərdən, insanlardan və quşlardan ibarət qoşunu toplanıldı. Onlar müntəzəm şəkildə yerbəyer edildilər.*
>
> **(Nəml surəsi, 17)**

İnkar edənlər və münafiqlər peyğəmbərə mütləq böhtan atarlar

Onlardan əvvəl Nuh qövmü elçiləri yalançı hesab etmişdi. Onlar qulumuzu yalançı sayıb: "O, dəlidir!" – dedilər və ona hədə-qorxu gəldilər.

(Qamər surəsi, 9)

Kafirlər dedilər: "Sən bizi sehrləmək üçün nə qədər möcüzə gətirsən də, biz sənə inanan deyilik!"

(Əraf surəsi, 132)

İçərilərindən bir adama: "İnsanları qorxut və iman gətirənləri müjdələ ki, özlərinin Rəbbi yanında onların etdikləri yaxşılıqların mükafatı vardır!" – deyə vəhy etməyimiz insanlara qəribəmi göründü? Kafirlər: "Sözsüz ki, bu, açıq-aşkar bir sehrbazdır!" – dedilər.

(Yunis surəsi, 2)

Kafirlər dedilər: "Ey özünə Zikr nazil edilən kəs! Doğrudan da, sən dəlisən.

(Hicr surəsi, 6)

> *Kafirlər: "Bu, Məhəmmədin uydurduğu yalandan başqa bir şey deyildir. Ona bu işdə başqa adamlar da kömək etmişlər" – dedilər. Beləcə, onlar haqsızlığa və iftiraya yol verdilər.*
>
> **(Furqan surəsi, 4)**

> *Onlar dedilər: "Bunlar qarmaqarışıq yuxulardır! Xeyr, o bunu özündən uydurmuşdur! Xeyr, o, bir şairdir! Qoy o, əvvəlki elçilərə göndərilən möcüzələr kimi bizə də bir möcüzə gətirsin".*
>
> **(Ənbiya surəsi, 5)**

> *Öz aralarından onlara xəbərdarlıq edən bir peyğəmbər gəldiyinə təəccüb edərək kafirlər dedilər: "Bu, yalançı bir sehrbazdır!*
>
> **(Sad surəsi, 4)**

> *Firon qövmünün əyanları dedilər: "Həqiqətən, bu, bilikli bir sehrbazdır.*
>
> **(Əraf surəsi, 109)**

> *O sizi yurdunuzdan çıxartmaq istəyir. Elə isə təklifiniz nədir?"*
>
> **(Əraf surəsi, 110)**

İnkar edənlər və münafiqlər onunla mübarizə edərlər

Yaxud: "O cinlidir?" – deyirlər. Xeyr, o elçi onlara haqqı gətirmişdir. Lakin onların çoxu haqqı xoşlamır.

(Muminun surəsi, 70)

Məhz onlar: "Allahın Elçisi yanında olanlara bir şey verməyin ki, dağılıb getsinlər!" – deyirlər. Halbuki göylərin və yerin xəzinələri Allahındır, lakin münafiqlər anlamırlar.

(Münafiqun surəsi, 7)

Yəhudilərdən bəziləri kəlmələrin yerini dəyişdirir, dillərini əyərək və dinə tənə vuraraq: "Eşitdik və asi olduq!", "eşidilməyəni eşit!", "bizə qayğı göstər!" – deyirlər. Əgər onlar: "Eşitdik və itaət etdik!", "eşit!", "bizə nəzər yetir!" – desəydilər, əlbəttə, onlar üçün daha xeyirli və daha doğru olardı. Lakin Allah küfrlərinə görə onları lənətlədi. Onlar olduqca az inanırlar (yaxud onların yalnız az bir hissəsi iman gətirir).

(Nisa surəsi, 46)

Onlar dedilər: "Biz sənin və sənin lə birlikdə olanların ucbatından uğursuzluğa uğradıq". Saleh dedi: "Sizin uğursuzluğunuz Allah yanındadır. Siz sınağa çəkilən bir qövmsünüz".

(Nəml surəsi, 47)

Kafirlərə və münafiqlərə itaət etmə. Onların əziyyətlərinə fikir vermə və Allaha təvəkkül et. Allahın Qoruyan olması kifayətdir.

(Əhzab surəsi, 48)

Zikr aramızdan təkcə onamı verildi? Xeyr, o, yalançıdır, lovğadır!"

(Qamər surəsi, 25)

Əgər onlar sizi ələ keçirsələr, sizə düşmən kəsilər, əlləri və dilləri ilə sizə pislik edər və sizin kafir olmanızı istəyərlər.

(Mumtəhənə surəsi, 2)

Gizli söhbət qadağan ediləndən sonra yenə də qadağan olunmuş əmələ qayıdıb günah, düşmənçilik və Peyğəmbərə qarşı çıxmaq barədə öz aralarında xısın-xısın danışanları görmədinmi? Onlar sənin yanına gəldikdə səni Allahın salamladığı kimi salamlamır və öz-özlərinə: "Bəs niyə Allah bizi dediklərimizə görə cəzalandırmır?" – deyirlər. Cəhənnəm onlara yetər. Onlar orada yanacaqlar. Ora necə də pis dönüş yeridir.

(Mücadilə surəsi, 8)

Ey Elçi! Qəlbləri iman gətirmədiyi halda ağızları ilə: "İman gətirdik!" – deyən kimsələrdən küfrə can atanlar qoy səni kədərləndirməsin. Həm yəhudilərdən yalana həvəslə qulaq asanlar, həm də sənin yanına gəlməyən başqa bir camaata həvəslə qulaq asanlar vardır. Onlar haqqı dərk etdikdən sonra kəlmələrin yerlərini dəyişdirib deyirlər: "Əgər sizə bu dəyişdirilən hökm verilsə, onu götürün. Yox əgər o verilməsə, çəkinin!" Allah kimi fitnəyə salmaq istərsə, sən ondan ötrü heç bir şeylə Allaha mane ola bilməzsən. Onlar o kəslərdir ki, Allah onların qəlbini təmizləmək istəməmişdir. Onlar dünyada rüsvay, axirətdə isə böyük bir əzaba düçar olacaqlar.

(Maidə surəsi, 41)

Onlardan elələri də var ki, Peyğəmbərə əziyyət verib: "O hər sözü eşidən bir qulaqdır!"- deyirlər. De: "O, sizin üçün ancaq xeyirli sözlər eşidir. O, Allaha iman gətirir, möminlərə də inanır. O, sizlərdən iman gətirənlər üçün bir rəhmətdir". Allahın Elçisinə əziyyət verənlər üçün isə ağrılı-acılı bir əzab vardır.

(Tövbə surəsi, 61)

Bu, ancaq Allaha iftira yaxan bir adamdır. Biz ona inanan deyilik".

(Muminun surəsi, 38)

Möminlərə qarşı çox şəfqətli, inkarçılara qarşı sərtdir

> *Sənə tabe olan möminləri qanadının altına al (onlara qarşı təvazökar ol)!*
>
> **(Şuəra surəsi, 215)**

> *Əgər onlar sənə asi olsalar, de: "Şübhəsiz ki, mən sizin etdiyiniz əməllərdən uzağam!"*
>
> **(Şuəra surəsi, 216)**

> *Sizə özünüzdən elə bir Elçi gəldi ki, sizin əziyyətə düşməyiniz ona ağır gəlir. O sizə qarşı qayğıkeş, möminlərə şəfqətli, rəhmlidir.*
>
> **(Tövbə surəsi, 128)**

Möminlər üçün Allahdan bağışlanma diləyər

Ey Peyğəmbər! Mömin qadınlar Allaha heç bir şərik qoşmayacaqlarına, oğurluq və zina etməyəcəklərinə, uşaqlarını öldürməyəcəklərinə, əlləri ilə ayaqları arasından olanı yalanla ört-basdır etməyəcəklərinə (ərlərindən olmayan uşaqlarını onlara isnad etməyəcəklərinə) və heç bir yaxşı işdə sənə qarşı çıxmayacaqlarına dair sənə beyət etmək üçün yanına gəldikləri zaman onların beyətini qəbul et və Allahdan onlar üçün bağışlanma dilə. Həqiqətən, Allah Bağışlayandır, Rəhmlidir.

(Mumtəhənə surəsi, 12)

Biz hər bir elçini, Allahın izni ilə, ona məhz itaət edilsin deyə göndərdik. Əgər onlar özlərinə zülm etdikləri zaman sənin yanına gəlib Allahdan bağışlanma diləsəydilər və Peyğəmbər də onlar üçün bağışlanma diləsəydi, əlbəttə ki, Allahın tövbələri qəbul edən və Rəhmli olduğunu görərdilər.

(Nisa surəsi, 64)

Möminlər ancaq Allaha və Onun Elçisinə iman gətirən kimsələrdir. Onlar ümumi bir işə görə Peyğəmbərlə bir yerdə olduqda ondan izn almamış heç yerə getmirlər. Səndən izin istəyənlər, sözsüz ki, Allaha və Onun Elçisinə iman gətirənlərdir. Əgər onlar bəzi işləri üçün səndən izin istəsələr, onlardan istədiyin kəsə izin ver və onlar üçün Allahdan bağışlanma dilə. Həqiqətən, Allah Bağışlayandır, Rəhmlidir.

(Nur surəsi, 62)

Allahın mərhəməti sayəsində sən onlarla mülayim rəftar etdin. Əgər sən kobud və daş qəlbli olsaydın, onlar hökmən sənin ətrafından dağılışardılar. Sən onların günahından keç, Allahdan onların bağışlanmalarını dilə və görəcəyin işlər barədə onlarla məsləhətləş. Qəti qərara gəldikdə isə Allaha təvəkkül et! Həqiqətən, Allah təvəkkül edənləri sevir.

(Ali İmran surəsi, 159)

Möminlərə təqvada ən gözəl nümunə olar

İbrahim və onunla birlikdə olanlarda sizin üçün gözəl bir nümunə vardır. Onlar öz qövmünə dedilər: "Həqiqətən, biz sizdən və sizin Allahdan başqa tapındığınız şeylərdən uzağıq. Biz sizi inkar edirik. Siz bir olan Allaha iman gətirincəyə qədər bizimlə sizin aranızda daim ədavət və nifrət olacaqdır!" Yalnız İbrahimin öz atasına: "Mən sənin üçün mütləq bağışlanma diləyəcəyəm. Fəqət Allahdan sənə gələn əzabı dəf edə bilmərəm!" – deməsi istisnadır. Onlar dedilər: "Ey Rəbbimiz! Biz yalnız Sənə təvəkkül edir və yalnız Sənə üz tuturuq. Dönüş də yalnız Sənədir.

(Mumtəhənə surəsi, 4)

Allahın Elçisi sizlərə – Allaha və Axirət gününə ümidini bağlayanlara və Allahı çox zikr edənlərə gözəl nümunədir.

(Əhzab surəsi, 21)

O, yalnız və yalnız Bizim nemət verdiyimiz və İsrail oğullarına nümunə etdiyimiz bir quldur.

(Zuxruf surəsi, 59)

Möminlər ona beyət edərlər

Ey Peyğəmbər! Mömin qadınlar Allaha heç bir şərik qoşmayacaqlarına, oğurluq və zina etməyəcəklərinə, uşaqlarını öldürməyəcəklərinə, əlləri ilə ayaqları arasından olanı yalanla ört-basdır etməyəcəklərinə (ərlərindən olmayan uşaqlarını onlara isnad etməyəcəklərinə) və heç bir yaxşı işdə sənə qarşı çıxmayacaqlarına dair sənə beyət etmək üçün yanına gəldikləri zaman onların beyətini qəbul et və Allahdan onlar üçün bağışlanma dilə. Həqiqətən, Allah Bağışlayandır, Rəhmlidir.

(Mumtəhənə surəsi, 12)

Ey iman gətirənlər! Peyğəmbər sizi, həyat verəcək şeylərə çağırdığı zaman Allahın və Peyğəmbərinin çağırışına cavab verin. Bilin ki, Allah insanla onun qəlbi arasındadır (onun istəyinə çatmasına mane ola bilər) və siz Onun hüzuruna toplanılacaqsınız.

(Ənfal surəsi, 24)

> *O kəslər ki, yanlarındakı Tövrat və İncildə haqqında yazılmış olduğunu gördükləri elçinin – yazıb-oxumaq bilməyən peyğəmbərin, ardınca gedərlər. O peyğəmbər onlara yaxşı işlər görməyi buyurar, pis əməlləri isə qadağan edər, onlara pak şeyləri halal, murdar şeyləri isə haram edər. Onların ağır yüklərini yüngülləşdirər və onları buxovlardan xilas edər. Ona iman gətirən, onu dəstəkləyən, ona kömək edən və onunla göndərilmiş nurun (Quranın) ardınca gedənlər isə nicat tapanlardır".*
>
> **(Əraf surəsi, 157)**

> *Sənə beyət edənlər Allaha beyət etmiş olurlar. Allahın Əli onların əllərinin üstündədir. Kim əhdini pozsa, ancaq öz əleyhinə pozmuş olar. Kim də Allahla bağladığı əhdinə sadiq qalsa, Allah ona böyük mükafat verər.*
>
> **(Fəth surəsi, 10)**

Möminlər üçün çox önəmlidir

> *Mədinə əhalisinə və onların ətrafındakı bədəvilərə döyüşdə Allahın Elçisindən geri qalmaq, onun canından öncə öz canlarının hayına qalmaq yaraşmaz. Çünki Allah yolunda onlara üz verən elə bir susuzluq, yorğunluq və aclıq, kafirləri qəzəbləndirən elə bir atılmış addım, düşmən üzərində qazanılan elə bir uğur yoxdur ki, bunların müqabilində onlara yaxşı bir əməl yazılmasın. Həqiqətən, Allah yaxşı iş görənlərin mükafatını puç etməz.*
>
> **(Tövbə surəsi, 120)**

> *Peyğəmbər möminlərə onların özlərindən daha yaxındır. Zövcələri isə möminlərin analarıdır. Qohumlar Allahın yazısına görə bir-birlərinə möminlərdən və mühacirlərdən daha yaxındırlar. Dostlarınıza yaxşılıq etmək isə istisnadır. Bunlar Kitabda yazılmışdır.*
>
> **(Əhzab surəsi, 6)**



Ən zəif ev sahibi olan örümək belə nizamla işləyir

Möminlər peyğəmbərə qarşı son dərəcə hörmətcil və itaətlidir

> *Biz belə etdik ki, siz Allaha və Onun Elçisinə iman gətirəsiniz, ona kömək edəsiniz, onun hörmətini saxlayasınız və gecə-gündüz Allahı tərifləyəsiniz.*
>
> **(Fəth surəsi, 9)**

> *Möminlər ancaq Allaha və Onun Elçisinə iman gətirən kimsələrdir. Onlar ümumi bir işə görə Peyğəmbərlə bir yerdə olduqda ondan izn almamış heç yerə getmirlər. Səndən izin istəyənlər, sözsüz ki, Allaha və Onun Elçisinə iman gətirənlərdir. Əgər onlar bəzi işləri üçün səndən izin istəsələr, onlardan istədiyin kəsə izin ver və onlar üçün Allahdan bağışlanma dilə. Həqiqətən, Allah Bağışlayandır, Rəhmlidir.*
>
> **(Nur surəsi, 62)**

Peyğəmbərə itaət, Allaha olan itaətdir

> *Ey iman gətirənlər! Allaha və Elçisinə itaət edin, həm də özünüzdən olan rəhbərlərə şəriətə uyğun şəkildə itaət edin. Əgər bir şey haqqında mübahisə etsəniz, Allaha və Axirət gününə inanırsınızsa, Allaha və Onun Elçisinə müraciət edin. Bu, sizin üçün daha xeyirli və nəticə etibarilə daha yaxşıdır.*
>
> **(Nisa surəsi, 59)**

Bunlar Allahın qoyduğu hüdudlarıdır. Kim Allaha və Onun Elçisinə itaət edərsə, Allah onu ağacları altından çaylar axan, içində əbədi qalacaqları Cənnət bağlarına daxil edər. Bu, böyük uğurdur.

(Nisa surəsi, 13)

O, sizin əməllərinizi islah etsin və günahlarınızı bağışlasın. Kim Allaha və Onun Elçisinə itaət etsə, böyük bir uğur qazanar.

(Əhzab surəsi, 71)

Ey iman gətirənlər! Allaha və Onun Elçisinə itaət edin, eşitdiyiniz halda ondan üz döndərməyin.

(Ənfal surəsi, 20)

Biz hər bir elçini, Allahın izni ilə, ona məhz itaət edilsin deyə göndərdik. Əgər onlar özlərinə zülm etdikləri zaman sənin yanına gəlib Allahdan bağışlanma diləsəydilər və Peyğəmbər də onlar üçün bağışlanma diləsəydi, əlbəttə ki, Allahın tövbələri qəbul edən və Rəhmli olduğunu görərdilər.

(Nisa surəsi, 64)

Allaha və Onun Elçisinə itaət edin, bir-birinizlə mübahisə etməyin, yoxsa ruhdan düşər və zəifləyərsiniz. Səbir edin, çünki Allah səbir edənlərlədir.

(Ənfal surəsi, 46)

De: "Allaha və Peyğəmbərə itaət edin". Əgər üz çevirsəniz, bilin ki, o ancaq özünə həvalə edilənə cavabdehdir, siz də ancaq özünüzə həvalə edilənə cavabdehsiniz. Əgər ona itaət etsəniz, doğru yola yönəlmiş olarsınız. Peyğəmbərin öhdəsinə düşən isə ancaq açıq-aşkar təbliğat aparmaqdır.

(Nur surəsi, 54)

Kim Peyğəmbərə itaət edərsə, Allaha itaət etmiş olar, kim üz çevirərsə, bil ki, Biz səni onlara gözətçi göndərməmişik.

(Nisa surəsi, 80)

De: "Allaha və göndərdiyi Elçiyə itaət edin!" Əgər üz döndərərlərsə, şübhəsiz ki, Allah kafirləri sevməz.

(Ali İmran surəsi, 32)

> *Allaha və Onun Elçisinə itaət edin! Əgər üz çevirsəniz, bilin ki, Elçimizin öhdəsinə düşən yalnız açıq bir təbliğdir.*
>
> **(Təğabun surəsi, 12)**

Hökm vermə bacarığı vardır

> *Xeyr! Sənin Rəbbinə and olsun ki, onlar öz aralarında baş verən çəkişmələrdə səni hakim hesab etməyincə, sonra da verdiyin hökmlərə görə özlərində bir sıxıntı duymadan tam təslim olmayınca iman gətirmiş olmazlar.*
>
> **(Nisa surəsi, 65)**

> *Süleyman dedi: "Baxaq görək, sən doğru deyirsən, yoxsa yalançılardansan.*
>
> **(Nəml surəsi, 27)**

> *Onlara əmin-amanlıq və ya qorxu xəbəri gəldikdə, onu yayarlar. Halbuki bunu Peyğəmbərə və özlərindən olan nüfuz sahiblərinə çatdırsaydılar, içərilərindən onun mahiyyətinə varan kəslər o xəbəri bilərdilər. Əgər sizə Allahın lütfü və rəhmi olmasaydı, əlbəttə, az bir qisminiz istisna olmaqla, hamınız şeytana uyardınız.*
>
> **(Nisa surəsi, 83)**

Allahın mərhəməti sayəsində sən onlarla mülayim rəftar etdin. Əgər sən kobud və daş qəlbli olsaydın, onlar hökmən sənin ətrafından dağılışardılar. Sən onların günahından keç, Allahdan onların bağışlanmalarını dilə və görəcəyin işlər barədə onlarla məsləhətləş. Qəti qərara gəldikdə isə Allaha təvəkkül et! Həqiqətən, Allah təvəkkül edənləri sevir.

(Ali İmran surəsi, 159)

Qərarlarında mütləq xeyir vardır, əməl etməyənlər mütləq ziyana uğrayar

Musa dedi: "Ey Harun! Onların azdıqlarını gördüyün zaman sənə nə mane oldu ki,

(Taha surəsi, 92)

ardımca gəlmədin? Əmrimə qarşımı çıxdın?

(Taha surəsi, 93)

Xeyr! Sənin Rəbbinə and olsun ki, onlar öz aralarında baş verən çəkişmələrdə səni hakim hesab etməyincə, sonra da verdiyin hökmlərə görə özlərində bir sıxıntı duymadan tam təslim olmayınca iman gətirmiş olmazlar.

(Nisa surəsi, 65)

“Talut qoşunla birlikdə döyüşə yola düşdükdə əsgərlərinə dedi: “Allah sizi bir çayla imtahan edəcək. Kim ondan içsə, məndən deyildir. Bir ovuc götürən istisna olmaqla, kim ondan dadmasa, o, məndəndir”. Onların az bir qismi istisna olmaqla hamısı ondan su içdilər. Talut onunla olan möminlərlə birlikdə çayı keçdikdən sonra bəziləri dedilər: “Bu gün bizim Caluta və onun qoşununa gücümüz çatmayacaq”. Allahla qarşılaşacaqlarını yəqin bilənlər isə dedilər: “Neçə-neçə az saylı dəstələr Allahın izni ilə çox saylı dəstələrə qalib gəlmişdir!” Allah səbir edənlərlədir.

(Bəqərə surəsi, 249)

İstərsə müşavirə edər, nəticə çıxarma səlahiyyət və bacarığı ona verilmişdir

Onlara əmin-amanlıq və ya qorxu xəbəri gəldikdə, onu yayarlar. Halbuki bunu Peyğəmbərə və özlərindən olan nüfuz sahiblərinə çatdırsaydılar, içərilərindən onun mahiyyətinə varan kəslər o xəbəri bilərdilər. Əgər sizə Allahın lütfü və rəhmi olmasaydı, əlbəttə, az bir qisminiz istisna olmaqla, hamınız şeytana uyardınız.

(Nisa surəsi, 83)

Allahın mərhəməti sayəsində sən onlarla mülayim rəftar etdin. Əgər sən kobud və daş qəlbli olsaydın, onlar hökmən sənin ətrafından dağılışardılar. Sən onların günahından keç, Allahdan onların bağışlanmalarını dilə və görəcəyin işlər barədə onlarla məsləhətləş. Qəti qərara gəldikdə isə Allaha təvəkkül et! Həqiqətən, Allah təvəkkül edənləri sevir.

(Ali İmran surəsi, 159)

Allah və Onun Elçisi bir işə hökm verdiyi zaman heç bir mömin kişi və mömin qadın öz işlərində istədikləri qərarı verə bilməzlər. Allaha və Onun Elçisinə asi olan kəs, əlbəttə ki, açıq-aydın azğınlığa düşmüşdür.

(Əhzab surəsi, 36)

Möminlərin onun verdiyi qərarlara qəlbən və qeyd-şərtsiz təslim olmaları lazımdır

Xeyr! Sənin Rəbbinə and olsun ki, onlar öz aralarında baş verən çəkişmələrdə səni hakim hesab etməyincə, sonra da verdiyin hökmlərə görə özlərində bir sıxıntı duymadan tam təslim olmayınca iman gətirmiş olmazlar.

(Nisa surəsi, 65)

Allahın Öz Elçisinə onlardan verdiyi qənimətlərə tərəf siz nə at, nə də dəvə sürdünüz. Lakin Allah Öz elçilərini istədiyi kəslər üzərində hakim edir. Allah hər şeyə qadirdir.

(Həşr surəsi, 6)

Allahın Öz Peyğəmbərinə kəndlərin əhalisindən verdiyi qənimətlər Allaha, Peyğəmbərə, qohum-əqrəbaya, yetimlərə, yoxsullara və müsafirlərə məxsus edilmişdir ki, o, aranızdakı zənginlərin var-dövləti olub qalmasın. Peyğəmbər sizə nə verirsə, onu götürün, nəyi də qadağan edirsə, ondan çəkinin. Allahdan qorxun. Həqiqətən, Allah şiddətli cəza verəndir.

(Həşr surəsi, 7)

Onlara əmin-amanlıq və ya qorxu xəbəri gəldikdə, onu yayarlar. Halbuki bunu Peyğəmbərə və özlərindən olan nüfuz sahiblərinə çatdırsaydılar, içərilərindən onun mahiyyətinə varan kəslər o xəbəri bilərdilər. Əgər sizə Allahın lütfü və rəhmi olmasaydı, əlbəttə, az bir qisminiz istisna olmaqla, hamınız şeytana uyardınız.

(Nisa surəsi, 83)

Ona itaət, münafiqlər və qəlbində xəstəlik olanlar üçün bir sınaq mövzusudur

> *Aralarında hökm vermək üçün Allahın və Onun Elçisinin yanına çağırıldıqları zaman onlardan bir dəstə üz çevirir.*
>
> **(Nur surəsi, 48)**

> *Onlar haqlı olsaydılar, itaət edib onun yanına gələrdilər.*
>
> **(Nur surəsi, 49)**

> *Onların qəlbində xəstəlikmi var? Yoxsa onlar şübhəyəmi düşüblər? Ya da Allahın və Onun Elçisinin onlara haqsızlıq edəcəklərindən qorxurlar? Xeyr, məhz onlar zalımdırlar.*
>
> **(Nur surəsi, 50)**

> *Hər kəs doğru yol ona bəlli olduqdan sonra Peyğəmbərə qarşı çıxsa və möminlərin yolundan başqa bir yolla getsə, onu üz tutduğu yola yönəldər və Cəhənnəmdə yandırarıq. Ora nə pis dönüş yeridir.*
>
> **(Nisa surəsi, 115)**

Siz Allahın izni ilə düşmənləri qırıb-çatdığınız zaman, Allah sizə verdiyi vədini yerinə yetirdi. Nəhayət O, sizə arzuladığınız şeyi göstərdikdən sonra ruhdan düşdünüz, Peyğəmbərin əmri barəsində bir-birinizlə mübahisə etdiniz və asi oldunuz. İçərinizdən kimisi dünyanı, kimisi də axirəti istəyirdi. Sonra Allah sizi sınamaq üçün üzünüzü onlardan döndərdi. O, artıq sizi bağışladı. Allah möminlərə qarşı lütfkardır.

(Ali İmran surəsi, 152)

Sizə Allahın ayələri oxunduğu və Onun Elçisi sizinlə olduğu bir vaxtda, siz necə küfr edirsiniz? Kim Allaha möhkəm bağlanarsa, həqiqətən də, doğru yola yönəlmiş olar.

(Ali İmran surəsi, 101)

"Allaha iman gətirin və Onun Elçisi ilə birlikdə cihad edin!" – deyə bir surə nazil edildikdə onların var-dövlətə malik olanları səndən icazə istəyib dedilər: "Bizi burax evdə oturanlarla birlikdə qalaq!"

(Tövbə surəsi, 86)

Onlara: "Allahın nazil etdiyinə və Elçisinə tərəf gəlin!" – deyildikdə, münafiqlərin səndən nifrətlə üz çevirdiklərini görürsən.

(Nisa surəsi, 61)

Allahın elçisi onlara dedi: "Allahın bu dişi dəvəsinə toxunmayın və onun su içməsinə mane olmayın!"

(Şəms surəsi, 13)

Onlar isə peyğəmbəri yalançı sayıb, dəvənin diz vətərini kəsdilər. Onların Rəbbi də bu günahlarına görə onların hamısını qırıb yerlə-yeksan etdi.

(Şəms surəsi, 14)

Səndən öncəki elçilərimiz də yemək yeyər, bazarları gəzib dolanardılar. Sizin bəzilərinizi digərlərinizlə sınaqdan keçirtdik ki, görək səbir edə biləcəksinizmi? Sənin Rəbbin Görəndir.

(Furqan surəsi, 20)

Onlar dedilər: "Bu necə elçidir ki, yemək yeyir, bazarları gəzib dolaşır? Nə üçün ona özü ilə birlikdə xəbərdarlıq edən bir mələk göndərilmədi?

(Furqan surəsi, 7)

Biz səndən əvvəl elə bir elçi, elə bir peyğəmbər göndərməmişik ki, o, ayələrimizi oxumaq istədikdə şeytan onun oxuduğuna gizlicə vəsvəsə verməsin. Lakin Allah şeytanın gizlicə təlqin etdiyini yoxa çıxarar. Sonra da Allah Öz ayələrini möhkəmlədər. Allah Biləndir, Müdrikdir.

(Həcc surəsi, 52)



Göylərdə və yerdə nizam-intizam hakimdir

Belə edər ki, şeytanın gizli təlqini qəlbində xəstəlik olanlar və qəlbi sərt olan insanlar üçün bir sınaq vasitəsinə çevrilsin. Həqiqətən, zalımlar uzaq bir ayrılıq içindədirlər.

(Həcc surəsi, 53)

Peyğəmbərə itaət edənlərin və onu dəstəkləyənlərin görəcəkləri qarşılıq

Ey Adəm oğulları! Sizə aranızdan elçilər gəlib ayələrimi bəyan edərkən Məndən qorxub öz əməllərini islah edən şəxslərin heç bir qorxusu yoxdur və onlar kədərlənməyəcəklər.

(Əraf surəsi, 35)

Mədinə əhalisinə və onların ətrafındakı bədəvilərə döyüşdə Allahın Elçisindən geri qalmaq, onun canından öncə öz canlarının hayına qalmaq yaraşmaz. Çünki Allah yolunda onlara üz verən elə bir susuzluq, yorğunluq və aclıq, kafirləri qəzəbləndirən elə bir atılmış addım, düşmən üzərində qazanılan elə bir uğur yoxdur ki, bunların müqabilində onlara yaxşı bir əməl yazılmasın. Həqiqətən, Allah yaxşı iş görənlərin mükafatını puç etməz.

(Tövbə surəsi, 120)

Həqiqətən, Allahın Elçisi yanında səsini endirənlər o şəxslərdir ki, Allah onların qəlbini təqva üçün sınağa çəkmişdir. Onları bağışlanma və böyük mükafat gözləyir.

(Hucurat surəsi, 3)

Namaz qılın, zəkat verin və Peyğəmbərə itaət edin ki, sizə rəhm edilsin.

(Nur surəsi, 56)

Aralarında hökm vermək üçün Allahın və Onun Elçisinin yanına çağırıldıqda möminlərin sözü ancaq: "Eşidirik və itaət edirik!" – demələridir. Nicat tapanlar da məhz onlardır.

(Nur surəsi, 51)

Allaha və Onun Elçisinə itaət edənlər, Allahdan qorxub çəkinənlər – məhz onlar uğur qazananlardır.

(Nur surəsi, 52)

Bunlar Allahın qoyduğu hüdudlarıdır. Kim Allaha və Onun Elçisinə itaət edərsə, Allah onu ağacları altından çaylar axan, içində əbədi qalacaqları Cənnət bağlarına daxil edər. Bu, böyük uğurdur.

(Nisa surəsi, 13)

Allah pisi yaxşıdan ayırmayınca möminləri sizin olduğunuz vəziyyətdə tərk edən deyildir. Allah sizə qeybi bildirən deyildir. Lakin, Allah Öz elçilərindən istədiyini seçər. Odur ki, Allaha və Onun elçilərinə iman gətirin! Əgər iman gətirib Allahdan qorxsanız, sizə böyük bir mükafat verilər.

(Ali İmran surəsi, 179)

və iman gətirib yaxşı işlər görənləri zülmətlərdən nura çıxartmaq üçün Allahın aydın ayələrini sizə oxuyan bir elçi göndərmişdir. Hər kəs Allaha iman gətirib saleh əməl işləsə, Allah onu içində əbədi qalacağı, ağacları altından çaylar axan Cənnət bağlarına daxil edər. Allah ona gözəl ruzi nəsib etmişdir.

(Talaq surəsi, 11)

> *O kəslər ki, yanlarındakı Tövrat və İncildə haqqında yazılmış olduğunu gördükləri elçinin – yazıb-oxumaq bilməyən peyğəmbərin, ardınca gedərlər. O peyğəmbər onlara yaxşı işlər görməyi buyurar, pis əməlləri isə qadağan edər, onlara pak şeyləri halal, murdar şeyləri isə haram edər. Onların ağır yüklərini yüngülləşdirər və onları buxovlardan xilas edər. Ona iman gətirən, onu dəstəkləyən, ona kömək edən və onunla göndərilmiş nurun (Quranın) ardınca gedənlər isə nicat tapanlardır".*
>
> **(Əraf surəsi, 157)**

> *Allaha və Peyğəmbərə itaət edin ki, bəlkə sizə rəhm olunsun.*
>
> **(Ali İmran surəsi, 132)**

> *Ey iman gətirənlər! Allahdan qorxun və Onun elçisinə iman gətirin! Onda O sizə Öz mərhəmətindən iki pay bəxş edər, sizə düz yolla getməyiniz üçün nur verər və sizi bağışlayar. Allah Bağışlayandır, Rəhmlidir.*
>
> **(Hədid surəsi, 28)**

Peyğəmbərə baş qaldıranları və ona döyüş edənlərin görəcəkləri qarşılıq

> *Neçə-neçə məmləkətlər öz Rəbbinin və Onun elçilərinin əmrinə asi oldu. Biz də onlarla sərt haqq-hesab çəkib onları dəhşətli əzablara düçar etdik.*
>
> **(Talaq surəsi, 8)**

> *Onlardan elələri də var ki, Peyğəmbərə əziyyət verib: "O hər sözü eşidən bir qulaqdır!"- deyirlər. De: "O, sizin üçün ancaq xeyirli sözlər eşidir. O, Allaha iman gətirir, möminlərə də inanır. O, sizlərdən iman gətirənlər üçün bir rəhmətdir". Allahın Elçisinə əziyyət verənlər üçün isə ağrılı-acılı bir əzab vardır.*
>
> **(Tövbə surəsi, 61)**

> *Peyğəmbəri, öz aranızda bir-birinizi çağırdığınız kimi çağırmayın. Allah sizin aranızdan daldalanaraq xəlvətcə çıxıb gedənləri bilir. Qoy onun əmrinə qarşı çıxanlar başlarına bir bəla gəlməsindən, yaxud özlərinə ağrılı-acılı bir əzab üz verməsindən qorxsunlar.*
>
> **(Nur surəsi, 63)**

Sonra bir-birinin ardınca elçilərimizi göndərdik. Hər dəfə hər hansı bir ümmətə peyğəmbər gəldikdə, onlar onu yalançı saydılar. Biz də onları bir-birinin ardınca məhv edib əfsanələrə çevirdik. Məhv olsun iman gətirməyənlər!

(Muminun surəsi, 44)

Allahın səndən əvvəlki elçiləri də məsxərəyə qoyulmuşdu. Onlara rişxənd edənləri həmin o istehza etdikləri şey məhv etdi.

(Ənbiya surəsi, 41)

Gizli söhbət qadağan ediləndən sonra yenə də qadağan olunmuş əmələ qayıdıb günah, düşmənçilik və Peyğəmbərə qarşı çıxmaq barədə öz aralarında xısın-xısın danışanları görmədinmi? Onlar sənin yanına gəldikdə səni Allahın salamladığı kimi salamlamır və öz-özlərinə: "Bəs niyə Allah bizi dediklərimizə görə cəzalandırmır?" – deyirlər. Cəhənnəm onlara yetər. Onlar orada yanacaqlar. Ora necə də pis dönüş yeridir.

(Mücadilə surəsi, 8)

Bu onların Allaha və Onun Elçisinə qarşı çıxmalarına görədir. Kim Allaha qarşı çıxsa, bilsin ki, həqiqətən, Allah şiddətli cəza verəndir.

(Həşr surəsi, 4)

Allaha və Onun Elçisinə qarşı çıxanlar, özlərindən əvvəlkilərin alçaldıqları kimi alçaldılacaqlar. Biz artıq açıq-aydın ayələr nazil etdik. Kafirləri alçaldıcı bir əzab gözləyir.

(Mücadilə surəsi, 5)

Kim Allaha və Onun Elçisinə asi olub Onun hüdudlarını aşarsa, Allah onu içində əbədi qalacağı Cəhənnəm oduna vasil edər. Onun üçün alçaldıcı bir əzab vardır.

(Nisa surəsi, 14)

FƏSİL

Dünya həyatı

Dünya boş bir məqsəd uğruna yaradılmamışdır

Xeyr! Kim yaxşı işlər görüb Allaha təslim olarsa, Rəbbi yanında onun mükafatı olar. Onlara heç bir qorxu yoxdur və onlar kədərlənməyəcəklər.

(Bəqərə surəsi, 112)

Yəhudilər: "Xaçpərəstlər heç bir şeyə əsaslanmırlar!" – deyir, xaçpərəstlər isə: "Yəhudilər heç bir şeyə əsaslanmırlar!" – deyirlər. Halbuki onlar Kitab oxuyandırlar. Cahillər də onların danışdığı kimi danışırlar. Allah ixtilafa düşdükləri şey barəsində Qiyamət günü onların arasında hökm verəcəkdir.

(Bəqərə surəsi, 113)

Allahın məscidlərində Onun adının zikr edilməsinə maneçilik törədənlərdən və onların viranə qalmasına çalışanlardan daha zalım kim ola bilər? Əslində onlar oraya qorxa-qorxa daxil olmalı idilər. Onlar üçün dünyada rüsvayçılıq, axirətdə isə böyük bir əzab vardır.

(Bəqərə surəsi, 114)

> *Məşriq də, məğrib də Allahındır! Hansı səmtə yönəlsəniz, Allahın Üzü orada olar. Həqiqətən, Allah hər şeyi Əhatəedəndir, Biləndir.*
>
> **(Bəqərə surəsi, 115)**

> *Biz göyü, yeri və onların arasında olanları əyləncə üçün yaratmamışıq.*
>
> **(Ənbiya surəsi, 16)**

> *Əgər Biz Özümüzə əyləncə düzəltmək fikrində olsaydıq, onu mütləq Öz yanımızda olanlardan hazırlayardıq. Lakin Biz bunu etmədik.*
>
> **(Ənbiya surəsi, 17)**

Dünya bir imtahan yeridir

> *İnsanı qarışdırılmış nütfədən yaradaraq onu sınaqdan keçirmək məqsədilə eşidən və görən etdik.*
>
> **(İnsan surəsi, 2)**

> *Əməl baxımından hansınızın daha yaxşı olduğunuzu sınamaq üçün ölümü və həyatı yaradan Odur. O, Qüdrətlidir, Bağışlayandır.*
>
> **(Mülk surəsi, 2)**

Hər kəs ölümü dadacaqdır. Biz sizi sınamaq üçün şər və xeyirlə imtahana çəkirik. Siz ancaq Bizə qaytarılacaqsınız!

(Ənbiya surəsi, 35)

Biz yer üzündə olan bütün şeyləri ona bəzək etdik ki, insanlardan hansının əməlcə daha gözəl olduğunu sınaqdan keçirək.

(Kəhf surəsi, 7)

Yoxsa siz elə güman edirdiniz ki, sizdən əvvəlkilərin başına gələnlər sizin başınıza gəlmədən Cənnətə daxil olacaqsınız? Onlara elə kasıblıq və xəstəlik üz vermiş, elə sarsılmışdılar ki, hətta Peyğəmbər və onunla birlikdə olan möminlər də: "Allahın köməyi nə vaxt gələcək?" – dedilər. Həqiqətən, Allahın köməyi yaxındır.

(Bəqərə surəsi, 214)

Biz sizi bir az qorxu, bir az aclıq, bir az da mal-dövlət, insan və məhsul itkisi ilə sınayarıq. Səbir edənlərə müjdə ver.

(Bəqərə surəsi, 155)

Biz aranızdakı mücahidləri və səbir edənləri ayırd edib üzə çıxarmaq üçün sizi mütləq sınayacaq və barənizdəki xəbərləri də yoxlayacağıq.

(Məhəmməd surəsi, 31)

Siz hökmən malınız və canınızla sınaqdan keçiriləcəksiniz. Sizdən əvvəl Kitab verilənlərdən və müşriklərdən bir çox əziyyətverici sözlər eşidəcəksiniz. Əgər səbir edib Allahdan qorxsanız, bilin ki, bu, əzmkarlıq tələb edən əməllərdəndir.

(Ali İmran surəsi, 186)

İnsanlar elə güman edirlər ki, təkcə: "İman gətirdik!" – demələri ilə onlardan əl çəkiləcək və onlar imtahan edilməyəcəklər?

(Ənkəbut surəsi, 2)

Biz onlardan öncəkiləri də sınaqdan keçirmişdik. Sözsüz ki, Allah doğru danışanları da, yalançıları da aşkara çıxardacaqdır.

(Ənkəbut surəsi, 3)

Dünya həyatı bir aldanışdır

Ey insanlar! Həqiqətən, Allahın vədi bir həqiqətdir. Qoy bu dünya sizi aldatmasın, tovlayan şeytan da sizi yoldan çıxartmasın.

(Fatir surəsi, 5)

> *Səhər və axşam çağı Rəbbinin Üzünü diləyərək Ona dua edənlərlə birlikdə özünü səbirli apar. Dünyanın bərbəzəyini istəyərək nəzərlərini yoxsullardan çevirmə. Qəlbini Bizi anmaqdan xəbərsiz etdiyimiz, nəfsinin istəklərinə uyan və işləri səmərəsiz olan bir kimsəyə itaət etmə!*
>
> **(Kəhf surəsi, 28)**

> *Ey insanlar! Rəbbinizdən qorxun. Valideynin övlada, övladın da valideynə heç bir fayda verə bilməyəcəyi gündən çəkinin. Həqiqətən, Allahın vədi bir həqiqətdir. Qoy bu fani dünya sizi çaşdırmasın, hiyləgər şeytan da sizi Allahın əzabından arxayınlaşdırıb tovlamasın.*
>
> **(Loğman surəsi, 33)**

Dünya həyatı qısa və keçicidir

> *Məgər onlar özlüyündə fikirləşmirlər ki, Allah göyləri, yeri və onların arasındakıları ancaq bir gerçəklik kimi və müəyyən müddətə qədər yaratmışdır? Lakin, insanların çoxu Rəbbi ilə qarşılaşacağını inkar edir.*
>
> **(Rum surəsi, 8)**

Məgər sən, özlərinə: "Müharibədən əl çəkin, namaz qılın və zəkat verin!" – deyilən kəsləri görmədinmi? Onlara vuruşmaq vacib edildikdə, içərilərindən bir dəstəsi Allahdan qorxduqları kimi və ya daha artıq qorxu ilə insanlardan qorxdular və: "Ey Rəbbimiz! Vuruşmağı nə üçün bizə vacib etdin? Nə olardı ki, bizə yaxın vaxtadək möhlət verəydin!" – dedilər. De: "Dünyanın ləzzəti azdır. Müttəqilər üçün isə axirət daha xeyirlidir. Sizə xurma çərdəyindəki lif qədər belə haqsızlıq edilməz".

(Nisa surəsi, 77)

Onlara dünya həyatını misal çək. Bu dünya həyatı göydən göndərdiyimiz yağışa oxşar. Yerdəki bitkilər onunla qarışıb yetişər, sonra isə küləyin sovurub apardığı quru çör-çöpə dönər. Allah hər şeyə qadirdir.

(Kəhf surəsi, 45)

Dünya həyatının məsəli göydən endirdiyimiz suyun məsəlinə bənzəyir ki, onun sayəsində insanların və heyvanların yediyi yer bitkiləri bir-birinə qatışır. Nəhayət, yer öz bərbəzəyinə bürünüb rövnəqləndiyi və onun sakinləri ona (onun məhsulunu yığmağa) qadir olduqlarını güman etdikləri zaman gecə yaxud gündüz əmrimiz yerə yetişər. Biz onu, elə bir biçilmiş sahəyə döndərərik ki, sanki dünən heç bol məhsulu olmamışdı. Biz ayələri düşünən adamlar üçün beləcə izah edirik.

(Yunis surəsi, 24)

Dünya həyatı bir oyun, həvəsli bir əyləncədir

Bu dünya həyatı əyləncə və oyundan başqa bir şey deyildir. Axirət yurdu isə əsl həyatdır. Kaş ki, biləydilər!

(Ənkəbut surəsi, 64)

Bilin ki, dünya həyatı oyun və əyləncə, bəzək-düzək, bir-birinizin yanında öyünmək, var-dövləti və oğul-uşağı çoxaltmaq istəyindən ibarətdir. Bu elə bir yağışa bənzəyir ki, ondan əmələ gələn bitki əkinçiləri heyran edir. Sonra o quruyur və sən onun sapsarı olduğunu görürsən. Sonra isə o çör-çöpə dönür. Kimisini axirətdə şiddətli əzab, kimisini də Allahdan bağışlanma və razılıq gözləyir. Dünya həyatı isə aldadıcı ləzzətdən başqa bir şey deyildir.

(Hədid surəsi, 20)

Dinlərini oyun və əyləncə sayanları və dünya həyatının aldatdığı şəxsləri tərk et. Bununla xatırlat ki, heç kəs qazandıqlarına görə özünü məhvə məhkum etməsin. Allahdan başqa onun nə bir hamisi, nə də bir havadarı olacaqdır. O nə cür fidyə versə də, ondan qəbul olunmayacaq. Onlar qazandıqları günahlara görə məhvə məhkum olanlardır. Kafir olduqlarına görə onlar üçün qaynar içki və ağrılı-acılı bir əzab hazırlanmışdır.

(Ənam surəsi, 70)

Həqiqətən, dünya həyatı oyun və əyləncədən başqa bir şey deyildir. Əgər iman gətirib Allahdan qorxsanız, O sizə mükafatlarınızı verər və sizdən mal-dövlətinizi istəməz.

(Məhəmməd surəsi, 36)

Qadınların, uşaqların, yığın-yığın qızıl-gümüşün, yaxşı cins atların, mal-qaranın və əkin yerlərinin verdiyi zövqlərə olan istək insanların gözünə gözəl göstərilmişdir. Bunlar, dünya həyatının keçici zövqüdür, gözəl qayıdış yeri isə Allah yanındadır.

(Ali İmran surəsi, 14)

İnkar edənlər dünyanı axirətdən üstün tutarlar

Xeyr! Əksinə, siz tez ötüb keçən fani dünyanı sevir,

(Qiyamət surəsi, 20)

Axirətdən isə uzaqlaşırsınız.

(Qiyamət surəsi, 21)

Bu ona görədir ki, onlar dünya həyatını axirətdən üstün tuturlar. Həm də Allah kafirləri doğru yola yönəltmir.

(Nəhl surəsi, 107)

Allah istədiyinin ruzisini bol edər, istədiyininkini də azaldar. Onlar dünya həyatı ilə sevinirlər. Halbuki dünya həyatı axirətlə müqayisədə keçici bir zövqdür.

(Rad surəsi, 26)

Şübhəsiz ki, Bizimlə qarşılaşacaqlarına ümid etməyənlər, dünya həyatından razı qalıb onunla rahatlıq tapanlar və ayələrimizdən xəbərsiz olanların –

(Yunis surəsi, 7)

Əsl həqiqətdə, bunlar ötəri dünyanı üstün tutaraq qarşılarındakı ağır günü görməməzliyə vururlar.

(İnsan surəsi, 27)

İnkaçılar dünya nemətlərini öyünmə vasitəsi olaraq görərlər

Çoxluğa hərisliyiniz başınızı o qədər qatdı ki,

(Təkasur surəsi, 1)

gömülməklə qəbirləri ziyarət etdiniz.

(Təkasur surəsi, 2)

İnkar edənlər mallarını və övladlarını Allaha ortaq qoşarlar

Var-dövlət və övladlar dünya həyatının bərbəzəyidir. Əbədi qalan yaxşı əməllər isə Rəbbinin yanında savab və ümid baxımından daha əfzəldir.

(Kəhf surəsi, 46)

De: "Əgər atalarınız, oğullarınız, qardaşlarınız, zövcələriniz, yaxın qohumlarınız, qazandığınız mallar, iflasa uğramasından qorxduğunuz alış-verişiniz və bəyəndiyiniz məskənlər sizə Allahdan, Onun Elçisindən və Onun yolunda cihaddan daha əzizdirsə, Allah Öz əmri ilə gəlincəyə qədər gözləyin. Allah günahkarları doğru yola yönəltməz".

(Tövbə surəsi, 24)

Bilin ki, var-dövlətiniz də, övladlarınız da ancaq bir imtahandır. Böyük mükafat isə Allah yanındadır.

(Ənfal surəsi, 28)

İnkar edənlər zənginliklərinin özlərini axirətdə qurtaracağını düşünürlər

> *Biz hansı bir məmləkətə xəbərdarlıq edən peyğəmbər göndərdiksə, onun cah-calal içində yaşayan sakinləri ona sadəcə olaraq: "Biz sizinlə göndərilənləri inkar edirik!" – dedilər.*
>
> **(Səba surəsi, 34)**

> *Onlar: "Bizim mal-dövlətimiz də, övladlarımız da daha çoxdur və bizə əzab verilməyəcəkdir" – dedilər.*
>
> **(Səba surəsi, 35)**

> *De: "Həqiqətən, Rəbbim istədiyinin ruzisini bol edər, istədiyininkini də azaldar. Lakin insanların çoxu bunu bilmir".*
>
> **(Səba surəsi, 36)**

> *Sədd əhli əlamətlərindən tanıdıqları adamları səsləyib deyəcəklər: "Sizə nə yığdıqlarınız, nə də təkəbbürlük göstərməyiniz fayda vermədi".*
>
> **(Əraf surəsi, 48)**

Axirətdə zənginliklərinin özlərini qurtarmadığını görəcəklər

> *Onlar, axirətdə özləri üçün oddan başqa heç bir şeyi olmayan kimsələrdir. Onların dünyada gördükləri işlər boşa çıxar və tutduqları əməllər puç olar.*
>
> **(Hud surəsi, 16)**

> *Kitabı sol əlinə verilən kimsə isə deyəcəkdir: "Kaş kitabım mənə verilməyəydi!*
>
> **(Haqqə surəsi, 25)**

> *Hesabımdan da xəbərim olmayaydı!*
>
> **(Haqqə surəsi, 26)**

> *Kaş ilk ölümüm həmişəlik olaydı!*
>
> **(Haqqə surəsi, 27)**

> *Var-dövlətim məni əzabdan qurtarmadı.*
>
> **(Haqqə surəsi, 28)**

Hökmranlığım da məhv olub getdi".

(Haqqə surəsi, 29)

Kim dünya həyatını və onun bərbəzəyini istəyirsə, onlara əməllərinin əvəzini orada tam verərik və onlar orada zərər çəkməzlər.

(Hud surəsi, 15)

Allah qatında zənginliyin heç bir dəyəri yoxdur

Sizi bizə yaxınlaşdıra biləcək nə var-dövlətiniz, nə də oğul-uşağınızdır. Ancaq iman gətirib yaxşı işlər görənlər istisnadır. Məhz onların mükafatları etdikləri əməllərə görə qat-qat artırılacaq və onlar Cənnətdəki mənzillərində asudə yaşayacaqlar.

(Səba surəsi, 37)

Var-dövlət və övladlar dünya həyatının bərbəzəyidir. Əbədi qalan yaxşı əməllər isə Rəbbinin yanında savab və ümid baxımından daha əfzəldir.

(Kəhf surəsi, 46)

Kafirlərdən bəzisini sınamaq üçün onlara dünya həyatının bərbəzəyi kimi verdiyimiz şeylərə gözünü dikmə. Rəbbinin ruzisi daha xeyirli və daha davamlıdır.

(Taha surəsi, 131)

Kim də xəsislik edərək Rəbbinə ehtiyacı olmadığını güman edirsə

(Leyl surəsi, 8)

və ən gözəl olanı (lə ilahə illəllahı) yalan hesab edirsə,

(Leyl surəsi, 9)

Biz onun üstünə ən çətin olanı yükləyəcəyik.

(Leyl surəsi, 10)

Cəhənnəmə düşdükdə var-dövləti ona fayda verməyəcək.

(Leyl surəsi, 11)

Allaha qarşı nə malları, nə də övladları onlara heç bir fayda verə bilməyəcək. Onlar Cəhənnəm sakinləridir və orada əbədi qalacaqlar.

(Mücadilə surəsi, 17)

Möminlərin duaları

De: "Bir deyin görək, sizin Allahdan başqa tapındıqlarınız yer üzündə nə yaratmışlar? Yoxsa onların göylərin yaradılmasında bir şərikliyi var? Əgər doğru danışanlarsınızsa, mənə bundan əvvəl nazil olmuş bir kitab və ya elmdən qalan bir əsər gətirin".

(Əhqaf surəsi, 4)

Allahı qoyub Qiyamət gününədək özünə cavab verə bilməyən əşyalara yalvaran kimsədən daha çox azmış kim ola bilər? Halbuki o bütlər onların yalvarışından xəbərsizdirlər.

(Əhqaf surəsi, 5)

Musa onların yerinə qoyunlara su verdi, sonra da kölgəyə çəkilib dedi: "Ey Rəbbim! Sənin mənə nazil edəcəyin xeyrə ehtiyacım var!"

(Qəsas surəsi, 24)

Lut dedi: "Ey Rəbbim! Fitnə-fəsad törədən qövmün əleyhinə mənə kömək et!"

(Ənkəbut surəsi, 30)

Ey Rəbbim! Məni, valideynlərimi, evimə mömin kimi daxil olanları və bütün mömin kişi və qadınları bağışla! Zülmkarların isə ancaq həlakını artır”.

(Nuh surəsi, 28)

Səhabələrdən sonra gələnlər deyirlər: “Ey Rəbbimiz! Bizi və bizdən əvvəl iman gətirmiş qardaşlarımızı bağışla. Bizim qəlbimizdə iman gətirənlərə qarşı nifrət və həsədə yer vermə. Ey Rəbbimiz! Həqiqətən də, Sən Şəfqətlisən, Rəhmlisən!”

(Həşr surəsi, 10)

O dedi: “Ey Rəbbim! Məni bağışla və mənə elə bir səltənət ver ki, məndən sonra heç kimə nəsib olmasın. Həqiqətən, Sən Bəxşedənsən.

(Sad surəsi, 35)

Biz insana ata-anasının qayğısına qalmağı tövsiyə etdik. Anası onu bətnində əziyyətlə daşımış və əziyyətlə doğmuşdur. Onun bətndə daşınma və süddən kəsilmə müddəti otuz ay çəkir. Nəhayət, o, yetkinlik çağına yetişib qırx yaşa çatdıqda deyər: "Ey Rəbbim! Mənə, mənim özümə və valideynlərimə bəxş etdiyin nemətə şükür etmək və Sənin razı qalacağın yaxşı işlər görmək üçün ilham ver, nəslimi də mənim üçün əməlisaleh et. Mən Sənə tövbə etdim. Həqiqətən, mən müsəlmanlardanam!"

(Əhqaf surəsi, 15)

Belələri, əməllərinin ən yaxşısını qəbul edəcəyimiz, günahlarından keçəcəyimiz və Cənnət əhli içərisinə daxil edəcəyimiz kimsələrdir. Bu onlara verilmiş doğru vəddir.

(Əhqaf surəsi, 16)

Allah iman gətirənlərə isə Fironun zövcəsini misal çəkdi. O zaman o: "Ey Rəbbim! Mənə Öz yanında – Cənnətdə bir ev tik. Məni Firondan və onun əməlindən xilas et. Məni zalım adamlardan qurtar!" – demişdi.

(Təhrim surəsi, 11)

O dedi: "Ey Rəbbim! Mənə əməlisalehlərdən olan övlad bəxş et!"

(Saffat surəsi, 100)

Nuh dedi: "Ey Rəbbim, kafirlərdən yer üzündə bir nəfəri belə sağ qoyma!

(Nuh surəsi, 26)

Əgər Sən onları sağ qoysan, onlar qullarını azdıracaq və yalnız günahkar, kafir övladlar doğub-törədəcəklər.

(Nuh surəsi, 27)

Ey Rəbbim! Sən mənə hakimiyyət verdin və mənə yuxuları yozmağı öyrətdin. Ey göyləri və yeri yaradan! Sən dünyada da, axirətdə də mənim Himayədarımsan. Mənim canımı müsəlman kimi al və məni əməlisalehlərə qovuşdur".

(Yusif surəsi, 101)

Musa qorxu içində ətrafa baxa-baxa oradan çıxıb: "Ey Rəbbim! Məni zalım adamların əlindən qurtar!" – dedi.

(Qəsas surəsi, 21)

Ərşi daşıyanlar və onun ətrafındakılar öz Rəbbinə həmd edərək onu tərifləyir, Ona iman gətirir və möminlər üçün də bağışlanma diləyirlər: "Ey Rəbbimiz! Sən mərhəmətin və elminlə hər şeyi əhatə edirsən. Tövbə edib Sənin yolunla gedənləri bağışla, onları Cəhənnəm əzabından xilas et!

(Mümin surəsi, 7)

Ey Rəbbimiz! Onları da, onların atalarından, zövcələrindən və nəsillərindən olan əməlisalehləri də onlara vəd etdiyin Ədn bağlarına daxil et. Həqiqətən, Sən Qüdrətlisən, Müdriksən.

(Mümin surəsi, 8)

Onları günahlarının cəzasını çəkməkdən azad et. O gün Sən kimi günahlarının cəzasını çəkməkdən azad etsən, ona rəhm etmiş olarsan. Məhz bu, böyük uğurdur".

(Mümin surəsi, 9)

Bir zaman İmranın arvadı demişdi: "Ey Rəbbim! Mən bətnimdəkini Sənə qul olmaq üçün nəzir etdim. Məndən qəbul et! Həqiqətən, Sən Eşidənsən, Bilənsən".

(Ali İmran surəsi, 35)

Musa dedi: "Ey Rəbbimiz! Sən Firona və onun əyanlarına dünya həyatında zinət və mal-dövlət bəxş etdin. Ey Rəbbimiz! Onlar insanları Sənin yolundan sapdırırlar. Ey Rəbbimiz! Onların mal-dövlətini məhv et və qəlbini sərtləşdir ki, ağrılı-acılı əzabı görməyincə iman gətirməsinlər".

(Yunis surəsi, 88)

Bir zaman İbrahim dedi: "Ey Rəbbim! Buranı təhlükəsiz bir şəhər et, onun əhalisinə, – onlardan Allaha və Axirət gününə iman gətirənlərə – hər növ məhsullardan ruzi ver!" Allah dedi: "Mən kafir olanlara bir qədər zövq almağa izin verərəm, sonra da onları Cəhənnəm əzabına giriftar edərəm. Ora necə də pis dönüş yeridir!"

(Bəqərə surəsi, 126)

Bu sənin Rəbbinin Öz qulu Zəkəriyyaya göstərdiyi mərhəmətinin yada salınmasıdır.

(Məryəm surəsi, 2)

Bir zaman Zəkəriyya Rəbbinə gizlicə dua edib

(Məryəm surəsi, 3)

aemişdi: “Ey Rəbbim! Artıq sümüklərim zəifləmiş, başım da ağappaq ağarmışdır. Ey Rəbbim! Sənə etdiyim dua sayəsində heç vaxt bədbəxt olmamışam.

(Məryəm surəsi, 4)

Mən özümdən sonra gələn qohumlarımdan dinə etinasız yanaşacaqlarından qorxuram. Zövcəm də sonsuzdur. Mənə Öz tərəfindən elə bir övlad bəxş et ki,

(Məryəm surəsi, 5)

o həm mənə, həm də Yaqub nəslinə varis olsun. Ey Rəbbim! Elə et ki, o Sənin razılığını qazanmış olsun!”

(Məryəm surəsi, 6)

Ona belə vəhy olundu: “Ey Zəkəriyya! Səni Yəhya adlı bir oğulla müjdələyirik. Biz bu adı ondan öncə kimsəyə qoymamışıq!”

(Məryəm surəsi, 7)

O dedi: “Ey Rəbbim! Zövcəm sonsuz bir qadın ikən, özüm də qocalığın son həddində olduğum halda necə mənim övladım ola bilər?”

(Məryəm surəsi, 8)

> *O dedi: "Ey Rəbbim! Onların məni yalançı saymasına qarşı mənə kömək et!"*
>
> **(Muminun surəsi, 26)**

> *Mərhəmətli və Rəhmli Allahın adı ilə!*
>
> **(Fatihə surəsi, 1)**

> *Həmd olsun aləmlərin Rəbbi Allaha,*
>
> **(Fatihə surəsi, 2)**

> *Mərhəmətli və Rəhmliyə,*
>
> **(Fatihə surəsi, 3)**

> *Haqq-hesab gününün Hökmdarına!*
>
> **(Fatihə surəsi, 4)**

> *Biz yalnız Sənə ibadət edir və yalnız Səndən kömək diləyirik.*
>
> **(Fatihə surəsi, 5)**

Bizi doğru yola yönəlt –

(Fatihə surəsi, 6)

nemət bəxş etdiyin şəxslərin yoluna, qəzəbə uğramışların və azmışların yoluna yox!

(Fatihə surəsi, 7)

Sən yanında olanlarla birlikdə gəmiyə mindiyin zaman de: "Bizi zalım adamlardan xilas edən Allaha həmd olsun!"

(Muminun surəsi, 28)

Həmçinin de: "Ey Rəbbim! Məni mübarək bir yerə çıxart. Sən yer verənlərin ən yaxşısısan!"

(Muminun surəsi, 29)

Onların hər ikisinə rəhm edərək təvazökarlıq qanadının altına al və: "Ey Rəbbim! Onlar məni körpəliyimdən tərbiyə edib böyütdükləri kimi, Sən də onlara rəhm et!" – de.

(İsra surəsi, 24)

O zaman İbrahim və İsmail evin (Kəbənin) bünövrəsini qaldırarkən belə dua etdilər: "Ey Rəbbimiz! Bunu bizdən qəbul et! Həqiqətən, Sən Eşidənsən, Bilənsən!

(Bəqərə surəsi, 127)

Ey Rəbbimiz! İkimizi də Sənə təslim olacaq, nəslimizdən də Sənə təslim olan bir ümmət et. Bizə ibadət qaydalarını göstər və bizim tövbələrimizi qəbul et! Həqiqətən, Sən tövbələri qəbul edənsən, Rəhmlisən!

(Bəqərə surəsi, 128)

Ey Rəbbimiz! Onların içərisindən özlərinə elə bir elçi göndər ki, Sənin ayələrini onlara oxusun, Kitabı və hikməti onlara öyrətsin və onları günahlardan təmizləsin! Həqiqətən, Sən Qüdrətlisən, Müdriksən!"

(Bəqərə surəsi, 129)

Onlardan: "Ey Rəbbimiz! Bizə həm bu dünyada, həm də axirətdə gözəl nemətlər ver və bizi Od əzabından qoru!" – deyənləri də vardır.

(Bəqərə surəsi, 201)

Belələri üçün qazandıqları əməllərə görə bir pay vardır. Allah tez haqq-hesab çəkəndir.

(Bəqərə surəsi, 202)

Onlar Calutun və onun qoşununun qarşısına çıxdıqda dedilər: "Ey Rəbbimiz! Bizə səbir ver, qədəmlərimizi möhkəmlət və kafir qövmə qələbə çalmaqda bizə yardım et!"

(Bəqərə surəsi, 250)

Allah hər kəsi yalnız onun qüvvəsi çatdığı qədər mükəlləf edər. Hər kəsin qazandığı xeyir yalnız onun özünə, qazandığı şər də yalnız öz əleyhinədir. "Ey Rəbbimiz, unutsaq və ya xəta etsək bizi cəzalandırma! Ey Rəbbimiz, bizdən əvvəlkilərə yüklədiyin kimi, bizə də ağır yük yükləmə! Ey Rəbbimiz, gücümüz çatmayan şeyi daşımağa bizi vadar etmə! Bizi əfv et, bizi bağışla və bizə rəhm et! Sən bizim Himayədarımızsan! Kafirləri məğlub etməkdə bizə yardım et!"

(Bəqərə surəsi, 286)

Ey Rəbbimiz! Mən nəslimdən bəzisini Sənin mühafizə olunan Evinin yaxınlığında, heç bir bitki olmayan bir vadidə sakin etdim. Ey Rəbbimiz! Onlar namaz qılsınlar deyə belə etdim. İnsanların bir qisminin qəlbini onlara meylli et və onlara növbənöv məhsullardan ruzi ver ki, bəlkə şükür etsinlər.

(İbrahim surəsi, 37)

Ey Rəbbimiz! Sən bizim nəyi gizli saxladığımızı və nəyi aşkara çıxartdığımızı bilirsən. Nə yerdə, nə də göydə heç bir şey Allahdan gizli qalmaz.

(İbrahim surəsi, 38)

Ey Rəbbimiz! Bizi hidayət yoluna yönəltdikdən sonra qəlbimizi sapdırma və bizə Öz tərəfindən mərhəmət bəxş et. Həqiqətən, Sən Bəxşedənsən.

(Ali İmran surəsi, 8)

Ey Rəbbimiz! Həqiqətən, gerçəkləşəcəyinə şübhə edilməyən bir gündə insanları bir yerə Sən yığacaqsan. Həqiqətən, Allah vədinə xilaf çıxmaz!

(Ali İmran surəsi, 9)

Ey Rəbbim! Məni də, nəslimdən olanları da namaz qılan et! Ey Rəbbimiz! Duamı qəbul elə!

(İbrahim surəsi, 40)

Ey Rəbbimiz! Haqq-hesab günü məni, valideynlərimi və möminləri bağışla!"

(İbrahim surəsi, 41)

Elə oradaca Zəkəriyyə Rəbbinə dua edərək dedi: "Ey Rəbbim! Öz tərəfindən mənə pak bir nəsil bəxş et! Şübhəsiz ki, Sən duaları Eşidənsən".

(Ali İmran surəsi, 38)

Ey Rəbbimiz! Biz sənin nazil etdiyinə iman gətirdik və göndərdiyin elçinin ardınca getdik. Bizi də şahidlərlə bir yerdə yaz!"

(Ali İmran surəsi, 53)



Dünya həyatı bir oyundan başqa bir şey deyil

Onların dedikləri ancaq: "Ey Rəbbimiz! Günahlarımızı və əməllərimizdə həddi aşmağımızı bizə bağışla; qədəmlərimizi sabit et və kafir qövmə qələbə çalmaqda bizə yardım et!" – olmuşdur.

(Ali İmran surəsi, 147)

O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı yad edir, göylərin və yerin yaradılması haqqında düşünür və deyirlər: "Ey Rəbbimiz! Sən bunları əbəs yerə xəlq etməmisən. Sən pak və müqəddəssən. Bizi Odun əzabından qoru!

(Ali İmran surəsi, 191)

Ey Rəbbimiz! Sən Oda saldığın kəsi rüsvay edərsən. Zalımların köməkçiləri olmaz.

(Ali İmran surəsi, 192)

Ey Rəbbimiz! Həqiqətən, biz: "Rəbbinizə iman gətirin!" – deyə imana çağıran bir kimsənin çağırışını eşidib iman gətirdik. Ey Rəbbimiz! Günahlarımızı bizə bağışla, təqsirlərimizdən keç və canımızı itaətkarlarla bir yerdə al!

(Ali İmran surəsi, 193)

Ey Rəbbimiz! Öz elçilərinin vasitəsi ilə bizə vəd etdiklərini ver və Qiyamət günü bizi rüsvay etmə! Şübhəsiz ki, Sən vədindən dönməzsən!"

(Ali İmran surəsi, 194)

Allahın elçisinə nazil ediləni dinlədikləri zaman haqqı bildiklərinə görə onların gözlərinin yaşla dolduğunu görərsən. Onlar deyərlər: "Ey Rəbbimiz! Biz iman gətirdik, bizi də şahidlərlə bir yerə yaz!

(Maidə surəsi, 83)

Musa dedi: "Ey Rəbbim! Mən özüm-özümə zülm etdim. Məni bağışla!" O da onu bağışladı. Həqiqətən, O, Bağışlayandır, Rəhmlidir.

(Qəsas surəsi, 16)

Musa dedi: "Ey Rəbbim! Mənə nemət bəxş etdiyin üçün mən heç vaxt günahkarlara arxa olmayacağam!"

(Qəsas surəsi, 17)

Musa dedi: "Ey Rəbbim! Məni və qardaşımı bağışla, bizi Öz mərhəmətinə qovuşdur. Sən rəhm edənlərin ən rəhmlisisən!"

(Əraf surəsi, 151)

Allah bizi sizin dininizdən xilas etdikdən sonra biz yenə də ona qayıtsaq, Allaha qarşı yalan uydurmuş olarıq. Rəbbimiz Allah istəməyincə bizim ona dönməyimiz olacaq bir şey deyildir. Rəbbimiz elmi ilə hər şeyi əhatə etmişdir. Biz Allaha təvəkkül etmişik. Ey Rəbbimiz! Bizimlə qövmümüz arasında ədalətlə hökm ver. Axı Sən hökm verənlərin ən yaxşısısan.

(Əraf surəsi, 89)

Sən sadəcə, Rəbbimizin möcüzələri bizə gəldikdə onlara iman gətirməyimizə görə bizdən intiqam alırsan. Ey Rəbbimiz! Bizə çoxlu səbir ver və bizi müsəlman olaraq öldür".

(Əraf surəsi, 126)

Hər ikisi: "Ey Rəbbimiz! Biz özümüzə zülm etdik. Əgər bizi bağışlamasan və bizə rəhm etməsən, əlbəttə, ziyana uğrayanlardan olarıq" – dedilər.

(Əraf surəsi, 23)

Musa Bizim təyin etdiyimiz vaxt üçün tayfasından yetmiş kişi seçdi. Onları zəlzələ yaxaladıqda o dedi: "Ey Rəbbim! Əgər istəsəydin, bundan əvvəl onları da, məni də məhv edərdin. Özümüzdən olan səfehlərin etdiklərinə görə bizi həlakmı edəcəksən? Bu, yalnız Sənin sınağındır. Sən onunla istədiyini azğınlığa aparır, istədiyini də doğru yola yönəldirsən. Sən bizim Himayəçimizsən! Bizi bağışla və bizə rəhm et! Axı Sən bağışlayanların ən yaxşısısan.

(Əraf surəsi, 155)

Bizim üçün bu dünyada da yaxşılıq yaz, axirətdə də. Həqiqətən, biz, Sənə üz tutduq!" Allah dedi: "İstədiyimi əzabıma düçar edirəm. Mərhəmətim isə hər şeyi əhatə edir. Mən onu Allahdan qorxan, zəkat verən və ayələrimizə iman gətirənlər üçün yazacağam.

(Əraf surəsi, 156)

Onlar dedilər: "Biz ancaq Allaha təvəkkül edirik. Ey Rəbbimiz! Bizi zalım qövmün əlində sınağa çəkmə!

(Yunis surəsi, 85)

Və bizi Öz mərhəmətinlə kafir qövmün əlindən qurtar!"

(Yunis surəsi, 86)

O kəslər ki: "Ey Rəbbimiz! Həqiqətən, biz iman gətirdik, bizim günahlarımızı bağışla və bizi Od əzabından qoru!" – deyirlər;

(Ali İmran surəsi, 16)

Musa dedi: "Ey Rəbbim! Köksümü açıb genişlət!

(Taha surəsi, 25)

İşimi yüngülləşdir!

(Taha surəsi, 26)

Dilimdəki düyünü aç ki,

(Taha surəsi, 27)

sözümü anlasınlar!

(Taha surəsi, 28)

Mənə öz ailəmdən bir köməkçi ver –

(Taha surəsi, 29)

Qardaşım Harunu!

(Taha surəsi, 30)

Onun sayəsində mənim gücümü artır!

(Taha surəsi, 31)

Onu işimə ortaq et (ona da peyğəmbərlik ver) ki,

(Taha surəsi, 32)

Sənə çoxlu təriflər deyək

(Taha surəsi, 33)

və Səni çox zikr edək.

(Taha surəsi, 34)

Şübhəsiz ki, Sən bizi görürsən!”

(Taha surəsi, 35)

Süleyman qarışqanın bu sözünə gülümsədi və dedi: "Ey Rəbbim! Mənə həm mənim özümə, həm də valideynlərimə əta etdiyin nemətə şükür etmək üçün, Sənin razı qalacağın yaxşı əməl etmək üçün ilham ver və məni Öz mərhəmətinlə əməlisaleh qullarına qovuşdur!"

(Nəml surəsi, 19)

Nuh dedi: "Ey Rəbbim! Qövmüm məni yalançı hesab etdi.

(Şuəra surəsi, 117)

Mənimlə onların arasında qəti hökm ver, məni və mənimlə birlikdə olan möminləri əzabdan qurtar!"

(Şuəra surəsi, 118)

Ey Rəbbim! Mənə hikmət ver və məni əməlisalehlərə qovuşdur!

(Şuəra surəsi, 83)

Sonra gələnlər arasında həmişə yad edilim deyə mənə yaxşı ad qismət elə!

(Şuəra surəsi, 84)

Məni Nəim bağının varislərindən et!

(Şuəra surəsi, 85)

Atamı bağışla! Çünki o, azanlardandır.

(Şuəra surəsi, 86)

Onların dirildiləcəyi gün məni rüsvay etmə!

(Şuəra surəsi, 87)

Onlar deyərlər: "Ey Rəbbimiz! Bizə gözümüzün aydınlığı olan zövcələr və övladlar bəxş et və bizi müttəqilərə imam et!"

(Furqan surəsi, 74)

De: "Ey Rəbbim! Şeytanların vəsvəsələrindən Sənə sığınıram!

(Muminun surəsi, 97)

Onların mənə yaxınlaşmalarından Sənə sığınıram, ey Rəbbim!"

(Muminun surəsi, 98)

> *O dedi: "Ey Rəbbim! Onların məni yalançı saymasına qarşı mənə kömək et!"*
>
> **(Muminun surəsi, 39)**

> *Bir zaman gənclər mağaraya sığınıb: "Ey Rəbbimiz! Bizə Öz tərəfindən mərhəmət bəxş et və işimizdə bizə düz yol göstər!" – demişdilər.*
>
> **(Kəhf surəsi, 10)**

> *De: "Ey Rəbbim, bağışla və rəhm et! Sən rəhm edənlərin ən yaxşısısan!"*
>
> **(Muminun surəsi, 118)**

> *De: "Ey Rəbbim! Əgər onlara vəd olunanı mənə göstərəcəksənsə;*
>
> **(Muminun surəsi, 93)**

> *məni zalım adamların içində qoyma, ey Rəbbim!"*
>
> **(Muminun surəsi, 94)**

> *Zəkəriyyanı da yada sal! Bir zaman o yalvarıb demişdi: "Ey Rəbbim! Məni tənha buraxma. Sən varislərin ən yaxşısısan!"*
>
> **(Ənbiya surəsi, 89)**

Zün-Nunu da yada sal! Bir zaman o qəzəbli qövmündən ayrılıb getmiş və ona gücümüz çatmayacağını güman etmişdi. Sonra da zülmətlər içində yalvarıb demişdi: "Səndən başqa ibadətə layiq olan heç bir məbud yoxdur! Sən paksan, müqəddəssən! Mən isə, həqiqətən, zalımlardan olmuşam!"

(Ənbiya surəsi, 87)

Biz onun duasını qəbul etdik və onu qəm-qüssədən qurtardıq. Biz möminləri belə xilas edirik!

(Ənbiya surəsi, 88)

De: "Ey Rəbbim! Məni daxil olacağım yerə yaxşılıqla daxil et; məni çıxacağım yerdən də yaxşılıqla çıxart. Öz tərəfindən mənə yardım edən bir dəlil ver".

(İsra surəsi, 80)

Möminlərin Allahdan istəkləri

Doğru yola çatdırılmaq, qəzəbə uğradılmışların yolundan qorunmaq.

(Fatihə surəsi, 5-6)

> *Yaşadığı yerin təhlükəsiz qılınması.*
>
> **(Bəqərə surəsi, 126)**

> *Möminlərin gözəl məhsullarla ruziləndirilməsi.*
>
> **(Bəqərə surəsi, 126)**

> *Edilən işlərin və ibadətlərin saleh əməl olaraq qəbul edilməsi.*
>
> **(Bəqərə surəsi, 127; Ali İmran surəsi, 35)**

> *Allaha tam təslim ola bilmək.*
>
> **(Bəqərə surəsi, 128)**

- Nəslinin Allaha bağlı olması. (Bəqərə surəsi, 128; İbrahim surəsi 40; Furqan surəsi, 74; Əhqaf surəsi, 15)

> *İbadət və saleh əməllərin ilham edilməsi.*
>
> **(Bəqərə surəsi, 128)**

> *Tövbələrinin qəbul edilməsi.*
>
> **(Əraf surəsi, 156)**

> *Dünyada da axirətdə də yaxşılıq.*
>
> **(Bəqərə surəsi, 201)**

-Atəşin əzabından qorunmaq. (Bəqərə surəsi, 201; Ali İmran surəsi, 16, 191)

-Çətinliklərə qarşı səbir etmək və qorxmamaq. (Bəqərə surəsi, 250; Ali İmran surəsi, 147; Əraf surəsi, 126)

> *Yanılma və unutqanlıqlardan ötəri məsul tutulmamaq.*
>
> **(Bəqərə surəsi, 286)**

> *Əvvəlki möminlərə yüklənən çətin yüklərin yüklədiməməsi.*
>
> **(Bəqərə surəsi, 286)**

> *Daşıya bilməyəcəyi imtahanla sınanılmama.*
>
> **(Bəqərə surəsi, 286)**

-Bağışlanılma, əsirgənilmə. (Bəqərə surəsi, 286; Ali mran surəsi, 16, 193; Əraf surəsi, 23, 151, 155; İbrahim surəsi, 41; Muminun surəsi, 118; Qəsəs surəsi, 16; Sad surəsi, 35; Mumtəhinə surəsi, 5)

> *İnkarçılara qarşı kömək.*
>
> **(Bəqərə surəsi, 286)**

> *Qəlblərin sürüşməməsi.*
>
> **(Ali İmran surəsi, 8)**

-Allahdan rəhmət. (Ali İmran surəsi, 8; Kəhf surəsi; 10)

-Saleh möminlərdən olmaq. (Ali İmran surəsi, 53; Maidə surəsi, 83; Şuəra surəsi, 83)

> *Edilən ifratların bağışlanması.*
>
> **(Ali İmran surəsi, 147)**

-Mömin olaraq ölmək. (Ali İmran surəsi, 193; Əraf surəsi, 126; Yusif surəsi, 101)

> *Qiyamət günü xor və alçaq qılınmamaq, hörmətdən salınmamaq.*
>
> **(Ali İmran surəsi, 194; Şuəra surəsi, 87)**

> *Elçilərə vəd edilənlər.*
>
> **(Ali İmran surəsi, 194)**

> *Edilən səhvlərin örtülməsi.*
>
> **(Ali İmran surəsi, 193)**

-Zülm edən inkarçı birliyin içindən qurtarılmaq. (Yunis surəsi, 86; Qəsəs surəsi, 21; Təhrim surəsi, 1)

> *Zülm edən qövm üçün fitnə mövzusu qılınmamaq.*
>
> **(Yunis surəsi, 85; Mumtəhinə surəsi, 5)**

> *Allahın, iman etməyənlərdən irəli gedənlərin mallarını, imkanlarını əllərindən alınması.*
>
> **(Yunis surəsi, 88)**

> *Qəlblərin iddətlə bağlanması.*
>
> **(Yunis surəsi, 88)**

> *İman etməyənlərin dinə meyl etmələri və bu məqsədlə nemətləndirilmələri.*
>
> **(İbrahim surəsi, 37)**

-Ana və atanın bağışlanması, əsirgənilməsi. (İsra surəsi, 24; İbrahim, 40)

> *Ediləcək əməlin Allah rizasına ən uyğun şəkildə reallaşması.*
>
> **(İsra surəsi, 80)**

> *Təbliğ və zikr üçün köməkçilər.*
>
> **(İsra surəsi, 80; Məryəm surəsi, 5; Taha surəsi, 29-34)**

-Allah rizası üçün başlanılan işin müvəffəqiyyətə çatması. (Kəhf surəsi; 10)

> *İbadətdə davamlı olmaq.*
>
> **(İbrahim surəsi, 41)**

> *Duanın qəbul edilməsi.*
>
> **(İbrahim surəsi, 40)**

-Bütün möminlərin bağışlanması. (İbrahim surəsi, 41; Həşr surəsi, 10; Nuh surəsi, 28)

> *Sinənin açılması -qəlbə hüzur və güvən-.*
>
> **(Taha surəsi, 25)**

> *İşlərin asanlaşdırılması.*
>
> **(Taha surəsi, 26)**

Izahat təsiri verilməsi.

(Taha surəsi, 27-28)

Çətin vəziyyətdən xilas olmaq.

(Ənbiya surəsi, 88)

Tək buraxılmamaq.

(Ənbiya surəsi, 89)

Küfrə qarşı kömək.

(Muminun surəsi, 39)

Şeytanın qışqırtmalarından qorunmaq.

(Muminun surəsi, 97)

Təqva sahiblərinə öndər qılınmaq.

(Furqan surəsi, 74)

Sonradan gələcək möminlər arasında da yaxşı xatırlanmaq.

(Şuəra surəsi, 84)

Cənnətə girmək.

(Şuəra surəsi, 85; Təhrim surəsi, 11)

Özünə verilən nemətlərə şükr etmənin ilham edilməsi.

(Nəml surəsi, 19; Əhqaf surəsi, 15)

Allahı məmnun edəcək saleh əməllərin ilham edilməsi.

(Nəml surəsi, 19; Əhqaf surəsi, 15)

Allahın xeyir endirməsi.

(Qəsəs surəsi, 24)

Qarışıqlıq, təxribatçılıq çıxaranlara qarşı kömək.

(Ənkəbut surəsi, 30)

Saleh uşaq.

(Saffat surəsi, 100)

Allahı xatırlamaq və şükür etmək üçün mülk.

(Sad surəsi, 32)

> *İman edənlərə qarşı qəlbdə kin buraxılmaması.*
>
> **(Həşr surəsi, 10)**

-İnkarçıların həlak edilməsi. (Nuh surəsi, 26, 28)

VİCDAN

Doğrunu gördüklərində qəti olaraq tətbiq edərlər

> *Kim pis bir iş görərsə və ya özü özünə zülm edərsə, sonra da Allahdan bağışlanma diləyərsə, Allahın Bağışlayan, Rəhmli olduğunu görər.*
>
> **(Nisa surəsi, 110)**

> *O kəslər ki, bir pis iş gördükdə, yaxud özlərinə zülm etdikdə Allahı xatırlayıb günahlarının bağışlanmasını diləyərlər, – günahları Allahdan başqa kim bağışlaya bilər? – onlar bilə-bilə etdiklərinə görə israr etməzlər.*
>
> **(Ali İmran surəsi, 135)**

İnkarçılardan bəziləri vicdanları qəbul etdiyi halda haqqa tabe olmazlar

> *ona günahları və Allahdan qorxmağı təlqin edənə!*
>
> **(Şəms surəsi, 8)**

> *Nəfsini günahdan təmizləyən uğur qazanmışdır.*
>
> **(Şəms surəsi, 9)**

Möminlər vicdanlarına görə hərəkət edirlər

> *Mən atalarım İbrahim, İshaq və Yaqubun dininə tabe oldum. Hər hansı bir şeyi Allaha şərik qoşmaq bizə yaraşmaz. Bu, Allahın bizə və bütün insanlara olan lütfüdür, lakin insanların çoxu şükür etmir.*
>
> **(Yusif surəsi, 38)**

> *Onlar özlərinin istədikləri şeylərdən kasıba, yetimə və əsirə də verərlər*
>
> **(İnsan surəsi, 8)**

> *Mühacirlərdən əvvəl Mədinədə yurd salmış, sonra da iman gətirmiş kimsələr öz yanlarına hicrət edənləri sevir, onlara verdiklərinə görə qəlblərində peşmançılıq hissi duymurlar. Hətta özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tuturlar. Nəfsinin tamahından qorunan kimsələr nicat tapanlardır.*
>
> **(Həşr surəsi, 9)**

Bütün insanlarda vicdan mexanizmi vardır

> *ona günahları və Allahdan qorxmağı təlqin edənə!*
>
> **(Şəms surəsi, 8)**

> *Nəfsini günahdan təmizləyən uğur qazanmışdır.*
>
> **(Şəms surəsi, 9)**

Möminlər nəfslərinə zidd olsa da vicdanlarına görə hərəkət edərlər

> *Mən atalarım İbrahim, İshaq və Yaqubun dininə tabe oldum. Hər hansı bir şeyi Allaha şərik qoşmaq bizə yaraşmaz. Bu, Allahın bizə və bütün insanlara olan lütfüdür, lakin insanların çoxu şükür etmir.*
>
> **(Yusif surəsi, 38)**

> *Onlar özlərinin istədikləri şeylərdən kasıba, yetimə və əsirə də verərlər*
>
> **(İnsan surəsi, 8)**

> *Mühacirlərdən əvvəl Mədinədə yurd salmış, sonra da iman gətirmiş kimsələr öz yanlarına hicrət edənləri sevir, onlara verdiklərinə görə qəlblərində peşmançılıq hissi duymurlar. Hətta özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tuturlar. Nəfsinin tamahından qorunan kimsələr nicat tapanlardır.*
>
> **(Həşr surəsi, 9)**

Səhv etdikləri zaman vicdanlarına uyub dərhal tövbə edərlər və səhvlərində israrlı davranmazlar

> *Geri qalmış üç nəfəri də bağışladı. Hətta yer üzü öz genişliyinə baxmayaraq onlara dar gəlmiş, ürəkləri kədərdən sıxılmış və yəqin bilmişdilər ki, Allahdan (Onun əzabından), ancaq Onun Özünə sığınmaqdan başqa çarələri yoxdur. Sonra Allah peşman olsunlar deyə onların tövbəsini qəbul etdi. Həqiqətən, Allah tövbələri qəbul Edəndir, Rəhmlidir.*
>
> **(Tövbə surəsi, 118)**

> *O kəslər ki, bir pis iş gördükdə, yaxud özlərinə zülm etdikdə Allahı xatırlayıb günahlarının bağışlanmasını diləyərlər, – günahları Allahdan başqa kim bağışlaya bilər? – onlar bilə-bilə etdiklərinə görə israr etməzlər.*
>
> **(Ali İmran surəsi, 135)**

İnkarçılar vicdanlarına görə hərəkət etmədikləri üçün qəlbləri qatılaşar

> *Məgər onlar yer üzündə gəzib dolaşmırlarmı ki, zalımların aqibətini qəlbi ilə düşünüb, qulaqları ilə eşitsinlər? Çünki əslində maddi gözlər deyil, köksələrdəki qəlb kor olur.*
>
> **(Həcc surəsi, 46)**

> *Ayələrimiz ona oxunduğu zaman: "Bu, keçmişdəkilərin uydurduğu əfsanələrdir!" – deyir.*
>
> **(Mutaffifin surəsi, 13)**

> *Xeyr! Onların qəlbini qazandıqları günahlar bürümüşdür.*
>
> **(Mutaffifin surəsi, 14)**

NƏFS

Nəfs pisliklə doludur

Mən özümə bəraət qazandırmıram. Çünki, Rəbbimin rəhm etdiyi kəs istisna olmaqla, nəfs adama pis işləri əmr edər. Həqiqətən, Rəbbim Bağışlayandır, Rəhmlidir".

(Yusif surəsi, 53)

Sən onların bir çoxunun kafirlərlə dostluq etdiyini görürsən. Nəfslərinin onlar üçün hazırladığı şey necə də pisdir! Buna görə də Allah onlara qəzəblənmişdir və onlar əzab içində əbədi qalacaqlar.

(Maidə surəsi, 80)

Sən qəlbində xəstəlik olanların: "Qorxuruq ki, başımıza bir fəlakət gələ" – deyərək onların Kitab əhli arasında vurnuxduqlarını görürsən. Ola bilsin ki, Allah qələbə bəxş etsin və ya Öz tərəfindən bir əmr versin və onlar ürəklərində gizlətdiklərindən peşman olsunlar.

(Maidə surəsi, 52)

Qısqanclığa və eqoist ehtiraslara əlverişlidir

Əgər bir qadın öz ərinin kobud rəftarından, yaxud ondan üz döndərməsindən qorxarsa, ər-arvadın öz aralarında barışığa gəlməsi onlara günah sayılmaz. Axı barışmaq daha xeyirlidir. Doğrusu, nəfslər xəsislik etməyə hazırdır. Əgər qadınlarla yaxşı davranıb Allahdan qorxsanız, bilin ki, Allah nə etdiklərinizdən xəbərdardır.

(Nisa surəsi, 128)

Əslində hər nəfs özünə bir bəsirətdir

Əslində, insan öz əleyhinə şahidlik edəcəkdir;

(Qiyamət surəsi, 14)

üzrlü olub-olmadığı bütün halları ortaya qoysa da.

(Qiyamət surəsi, 15)

İnkar edənlər nəfslərində böyüklüyə qapılarlar

Bizimlə qarşılaşacaqlarını güman etməyənlər dedilər: "Nə üçün bizə mələklər göndərilmədi? Niyə biz Rəbbimizi görmürük?" Onlar özləri haqqında yüksək fikirdə oldular və böyük üsyankarlıq etdilər.

(Furqan surəsi, 21)

Öz səhvlərini bilir, bəhanələr irəli sürür

Əslində, insan öz əleyhinə şahidlik edəcəkdir;

(Qiyamət surəsi, 14)

üzrlü olub-olmadığı bütün halları ortaya qoysa da.

(Qiyamət surəsi, 15)

Nəfslər insanlara bir girovdur

Hər bir kəs qazandığının girovuna çevrilir,

(Müddəssir surəsi, 38)

Möminlər nəfslərini günahdan təmizləyər

And olsun nəfsə və onu yaradıb kamilləşdirənə,

(Şəms surəsi, 7)

ona günahları və Allahdan qorxmağı təlqin edənə!

(Şəms surəsi, 8)

Nəfsini günahdan təmizləyən uğur qazanmışdır.

(Şəms surəsi, 9)

Möminlər nəfslərini istəklərindən və eqoist ehtiraslardan uzaq tutarlar

Nə qədər bacarırsınızsa Allahdan qorxun. Peyğəmbərə qulaq asıb itaət edin və malınızdan öz xeyriniz üçün xərcləyin. Nəfsinin tamahından qorunanlar nicat tapanlardır.

(Təğabun surəsi, 16)

Ancaq kim Rəbbinin hüzuruna gələcəyindən qorxmuş və nəfsinə ehtirası yasaq etmişsə,

(Naziat surəsi, 40)

həqiqətən, Cənnət onun məskəni olacaq.

(Naziat surəsi, 41)

Möminlər axirətə qarşılıq nəfslərini satın alırlar

> *Doğrudan da, Allah möminlərdən, Cənnət müqabilində onların canlarını və mallarını satın almışdır. Çünki onlar Allah yolunda vuruşub öldürür və öldürülürlər. Bu, Allahın Tövratda, İncildə və Quranda Öz öhdəsinə götürdüyü bir vəddir. Allahdan daha yaxşı əhdini yerinə yetirən kimdir? Elə isə sövdələşdiyiniz alış-verişə görə sevinin. Məhz bu, böyük uğurdur.*
>
> **(Tövbə surəsi, 111)**

> *İnsanların elə‌si də var ki, Allahın razılığını qazanmaq üçün canını da verər. Allah Öz qullarına qarşı Şəfqətlidir.*
>
> **(Bəqərə surəsi, 207)**

İnkar edənlər nəfslərinə zidd olan şeyləri yalanlayarlar

> *Biz İsrail oğullarından əhd-peyman aldıq və onlara elçilər göndərdik. Hər dəfə bir elçi onlara könüllərinə yatmayan bir şey gətirəndə o elçilərin bir qismini yalançı hesab edər, bir qismini də öldürərdilər.*
>
> **(Maidə surəsi, 70)**

İnkar edənlər nəfslərini örtərlər

> *And olsun nəfsə və onu yaradıb kamilləşdirənə,*
>
> **(Şəms surəsi, 7)**

> *ona günahları və Allahdan qorxmağı təlqin edənə!*
>
> **(Şəms surəsi, 8)**

> *Nəfsini günahdan təmizləyən uğur qazanmışdır.*
>
> **(Şəms surəsi, 9)**

> *Onu günaha batıran isə ziyana uğramışdır.*
>
> **(Şəms surəsi, 10)**

İnkar edənlər nəfslərinə tabe olub istək və həvəslərini üstün tutarlar

> *Nəfsinin istəyini ilahiləşdirən kimsəni gördünmü? Sən ona vəkillikmi edəcəksən?*
>
> **(Furqan surəsi, 43)**

Məgər öz Rəbbindən vəhy edilmiş aydın dəlilə istinad edən kimsə pis əməli özünə gözəl göstərilən və öz nəfslərinə uyan kimsələr kimi ola bilərmi?!

(Məhəmməd surəsi, 14)

Onların arasında səni dinləyənlər də var. Nəhayət sənin yanından çıxdıqda özlərinə elm verilmiş kimsələrə istehza ilə deyərlər: "O, bayaq nə deyirdi?" Bunlar o kəslərdir ki, Allah onların qəlbinə möhür vurmuş, özləri də nəfslərinə tabe olmuşlar.

(Məhəmməd surəsi, 16)

İnkar edən adam ancaq öz nəfsinə zərər verir

Onlar həm insanları haqdan uzaqlaşdırır, həm də özləri ondan uzaqlaşırlar. Onlar ancaq özlərini həlak edir və bunu hiss etmirlər.

(Ənam surəsi, 26)

Kitab əhlindən bir zümrə sizi azdırmaq istər. Onlar ancaq özlərini azdırırlar və bunu da hiss etmirlər.

(Ali İmran surəsi, 69)

Axirətdə nəfs hər şeyin doğrusunu öyrənəcək

Biz hər bir insanın əməlini öz boynundan asdıq. Qiyamət günü isə açıq vəziyyətdə qarşısına qoyulan kitabı ona göstərəcəyik.

(İsra surəsi, 13)

Kitabını oxu! Bu gün sənə özün-özünü hesaba çəkməyin yetər.

(İsra surəsi, 14)

qəbirlər çevriləcəyi zaman,

(İnfitar surəsi, 4)

hər kəs əvvəlcədən özü üçün nəyi tədarük edib, nəyi sonraya saxladığını biləcəkdir.

(İnfitar surəsi, 5)

Cəhənnəm alovlandırılacağı zaman

(Təkvir surəsi, 12)

və Cənnət möminlərə yaxınlaşdırılacağı zaman,

(Təkvir surəsi, 13)

nər kəs bu gün üçün özünə nə tədarük etdiyini biləcəkdir.

(Təkvir surəsi, 14)

O gün ki, hər kəs etdiyi yaxşı və pis əməllərini qarşısında hazır görəcək, özü ilə pis əməllərinin arasında çox böyük məsafə olmasını arzulayacaqdır. Allah sizi Özündən çəkindirir. Allah qullarına Şəfqətlidir".

(Ali İmran surəsi, 30)

Axirətdə nəfs bəhanə irəli sürməyəcəkdir

Orada hər bir nəfər keçmişdə törətdiklərinin acısını çəkəcəkdir. Onlar Allaha – özlərinin həqiqi Himayədarına qaytarılacaq və uydurduqları bütlər onlardan uzaqlaşıb qeyb olacaqlar.

(Yunis surəsi, 30)

Axirətdə inkarçılar, dünyada ikən öz nəfslərinə zülm etdiklərini söyləyərlər

Hər ikisi: "Ey Rəbbimiz! Biz özümüzə zülm etdik. Əgər bizi bağışlamasan və bizə rəhm etməsən, əlbəttə, ziyana uğrayanlardan olarıq" – dedilər.

(Əraf surəsi, 23)

ÖLÜM

Hər insan ölümü dadacaqdır

Hər bir kəs ancaq Allahın izni ilə, əzəldən müəyyən edilmiş bir vaxtda ölür. Kim dünya mükafatını istəsə, ona bundan verərik. Kim də axirət mükafatını istəsə, ona da ondan verərik. Biz şükür edənləri mütləq mükafatlandıracağıq.

(Ali İmran surəsi, 145)

Səndən əvvəl də heç bir bəşərə ölümsüzlük nəsib etmədik. Məgər sən öləcəksən, onlar həmişəlik qalacaqlar?!

(Ənbiya surəsi, 34)

Sizi Allah yaratmışdır. Sonra O sizi öldürəcəkdir. Sizlərdən bəziləri vaxtilə bildiyi şeyləri unutsun deyə ömrünün ən rəzil çağına çatdırılacaq. Həqiqətən, Allah Biləndir, hər şeyə Qadirdir.

(Nəhl surəsi, 70)

Şübhəsiz ki, bundan sonra siz mütləq öləcəksiniz.

(Muminun surəsi, 15)

Hər kəs ölümü dadacaqdır. Biz sizi sınamaq üçün şər və xeyirlə imtahana çəkirik. Siz ancaq Bizə qaytarılacaqsınız!

(Ənbiya surəsi, 35)

Əslində, sən də öləcəksən, onlar da öləcəklər!

(Zumər surəsi, 30)

Yaşadan və öldürən Allahdır

Öldürən də, dirildən də Odur!

(Nəcm surəsi, 44)

Şübhəsiz ki, Biz həm dirildir, həm də öldürürük və hər şeyə varis olan da Bizik.

(Hicr surəsi, 23)

Heç şübhəsiz ki, sizin məni çağırdıqlarınızın nə dünyada, nə də axirətdə çağırılmağa haqqı yoxdur. Bizim dönüşümüz Allahadır. Həddi aşanlar isə od sakinləridirlər.

(Mümin surəsi, 43)

Həqiqətən, göylərin və yerin mülkü Allaha məxsusdur. O həm dirildir, həm də öldürür. Sizin Allahdan başqa nə bir himayədarınız, nə də bir köməkçiniz vardır.

(Tövbə surəsi, 116)

Ondan başqa ibadətə layiq olan məbud yoxdur. O həm dirildir, həm də öldürür. O həm sizin Rəbbiniz, həm də əcdadlarınızın Rəbbidir.

(Duxan surəsi, 8)

Sizin aranızda ölümü Biz müəyyən etdik və heç nə Bizim qarşımızı ala bilməz.

(Vaqiə surəsi, 60)

İnsan nə qədər ölümdən qorunmağa çalışsa da heç gözləmədiyi bir anda ölüm gələ bilər

Harada olursunuzsa olun, ölüm sizi haqlayacaq. Hətta yüksək qalalarda olsanız belə. Onlara bir yaxşılıq üz verdikdə: "Bu, Allahdandır!" – deyər, bir pislik üz verdikdə isə: "Bu, səndəndir!" – deyərlər. De: "Hamısı Allahdandır!" Bu adamlara nə olub ki, az qala söz də anlamırlar?

(Nisa surəsi, 78)

Həqiqətən, o Saat haqqında elm yalnız Allahdadır. Yağışı O yağdırır və bətnlərdə olanı O bilir. Heç kəs sabah nə qazanacağını bilə bilməz; heç kəs harada öləcəyini də bilməz. Allah isə, şübhəsiz ki, Biləndir, Xəbərdardır.

(Loğman surəsi, 34)

De: "Qaçdığınız ölüm sizi mütləq haqlayacaqdır. Sonra siz qeybi və aşkarı Bilənin hüzuruna qaytarılacaqsınız. O da sizə nə etdiklərinizi xəbər verəcəkdir".

(Cümə surəsi, 8)

De: "Əgər ölməkdən və ya öldürülməkdən qaçırsınızsa, bu qaçmaq qətiyyən sizə xeyir gətirməz. Belə olduğu təqdirdə siz ancaq əcəliniz çatana qədər çox az bir müddət ərzində gün-güzəran görəcəksiniz".

(Əhzab surəsi, 16)

Ölümdən ancaq Allaha və axirət gününə inanmayanlar qorxarlar

Minlərlə adam olduqları halda ölüm qorxusundan yurdlarından çıxanları görmədinmi? Allah onlara: "Ölün!" – dedi. Sonra isə onları diriltdi. Doğrudan da, Allah insanlara qarşı lütfkardır, lakin insanların çoxu buna şükür etmir.

(Bəqərə surəsi, 243)

Siz ölümlə qarşılaşmamışdan öncə onu arzulayırdınız. İndi isə siz onu öz gözlərinizlə gördünüz.

(Ali İmran surəsi, 143)

Möminlər: "Kaş cihada dair bir surə nazil olaydı!"- deyirlər. Hökmü bəlli bir surə nazil olub orada döyüş yada salınan kimi qəlbində xəstəlik olanların sənə ölüm ayağında bayılan kimsənin baxışı ilə baxdıqlarını görərsən. Onlara daha yaxşı olardı ki,

(Məhəmməd surəsi, 20)

‘Yaxud onların məsəli zülmət içində göy gurultusu və şimşəklə yağan leysana düşənlərin məsəlinə bənzəyir ki, ildırımdan ölmək qorxusu ilə barmaqlarını qulaqlarına tıxayırlar. Şübhəsiz ki, Allah kafirləri hər tərəfdən əhatəyə almışdır.

(Bəqərə surəsi, 19)

İman edənlər müsəlman olaraq ölməyi istəyərlər

Ey Rəbbim! Sən mənə hakimiyyət verdin və mənə yuxuları yozmağı öyrətdin. Ey göyləri və yeri yaradan! Sən dünyada da, axirətdə də mənim Himayədarımsan. Mənim canımı müsəlman kimi al və məni əməlisalehlərə qovuşdur”.

(Yusif surəsi, 101)

De: “Şübhəsiz ki, mənim namazım da, qurbanım da, həyatım da, ölümüm də aləmlərin Rəbbi Allah üçündür!

(Ənam surəsi, 162)

Sən sadəcə, Rəbbimizin möcüzələri bizə gəldikdə onlara iman gətirməyimizə görə bizdən intiqam alırsan. Ey Rəbbimiz! Bizə çoxlu səbir ver və bizi müsəlman olaraq öldür”.

(Əraf surəsi, 126)

İnkarçıların öləcəklərini anladıqları zaman etdikləri tövbə qəbul olmaz

Günah işlər görməkdə davam edənlərdən birinə ölüm gəldiyi zaman: "Mən indi tövbə etdim!" – deyənlərin də, kafir kimi ölənlərin də tövbəsi qəbul deyildir. Biz onlar üçün ağrılı-acılı bir əzab hazırlamışıq.

(Nisa surəsi, 18)

Allah kafir olaraq ölənləri əzablandıracaqdır

Həqiqətən də, kafir olub kafir kimi də ölənlərin heç birindən dünya dolusu qızıl fidyə versə belə, qəbul olunmayacaqdır. Onlara ağrılı-acılı bir əzab hazırlanmışdır və onların köməkçiləri də olmayacaqdır.

(Ali İmran surəsi, 91)

Bütün insanlar yenidən dirildiləcəkdirlər

və deyirdilər: "Məgər biz ölüb torpaq və sür-sümük olduqdan sonra yenidənmi dirildiləcəyik?

(Vaqiə surəsi, 47)

Yaxud bizim əcdadlarımız dirildiləcəklərmi?"

(Vaqiə surəsi, 48)

> *De: "Şübhəsiz ki, əvvəlkilər də, sonrakılar da,*
>
> **(Vaqiə surəsi, 49)**

> *bəlli bir günün müəyyən vaxtında mütləq toplanılacaqlar.*
>
> **(Vaqiə surəsi, 50)**

> *O, ölüdən diri, diridən də ölü çıxardır; yeri ölümündən sonra dirildir. Siz də qəbirlərinizdən belə dirildilib çıxardılacaqsınız.*
>
> **(Rum surəsi, 19)**

Ölümdən sonra dirilmək üçün Allah təbiətdən nümunələr verir

> *Küləkləri Öz mərhəməti önündə yağışdan qabaq müjdəçi olaraq göndərən Odur. Nəhayət, o küləklər ağır buludları daşıyarkən, Biz o buludları ölü bir diyara tərəf qovur, onunla yağmur endirir və bunun vasitəsi ilə hər cür meyvə yetişdiririk. Biz ölüləri də belə dirildəcəyik. Bəlkə, düşünüb ibrət alasınız.*
>
> **(Əraf surəsi, 57)**

O, ölüdən diri, diridən də ölü çıxardır; yeri ölümündən sonra dirildir. Siz də qəbirlərinizdən belə dirildilib çıxardılacaqsınız.

(Rum surəsi, 19)

Buludları hərəkətə gətirən küləkləri göndərən Allahdır. Biz onları ölü bir diyara tərəf qovub, yeri ölümündən sonra onunla canlandırırıq. Diriltmə də belə olacaqdır.

(Fatir surəsi, 9)

Gecə və gündüzün bir-birini əvəz etməsində, Allahın göydən yağmur endirib onun vasitəsilə yeri ölümündən sonra diriltməsində və külәkləri istədiyi səmtə yönəltməsində düşüncəli insanlar üçün də dəlillər vardır.

(Casiyə surəsi, 5)

Şübhəsiz ki, toxumu da, çərdəyi də Allah çatladır. O, ölüdən diri çıxarır, diridən isə ölü çıxarır. Budur Allah! Siz necə də haqdan döndərilirsiniz!

(Ənam surəsi, 95)

Ölü torpaq onlar üçün bir dəlildir. Biz onu yağışla dirildir, oradan taxıl çıxardırıq, onlar da ondan yeyirlər.

(Yasin surəsi, 33)



Dünya həyatının bəzəyi aldadıcıdır

Bilin ki, Allah torpağı onun ölümündən sonra dirildir. Biz ayələri sizə izah etdik ki, bəlkə anlayasınız.

(Hədid surəsi, 17)

Ey insanlar! Yenidən diriləcəyinizə şübhə edirsinizsə, bilin ki, həqiqətən də, Biz sizi torpaqdan, sonra nütfədən, sonra laxtalanmış qandan, daha sonra tam bir şəklə salınmış və ya salınmamış bir parça ətdən yaratdıq ki, qüdrətimizi sizə bəyan edək. Bətnlərdə istədiyimizi müəyyən bir vaxt ərzində saxlayırıq. Sonra sizi oradan uşaq kimi çıxardırıq ki, yetkinlik çağına yetişəsiniz. Sizdən kimisi yetkinlik yaşına çatmamış vəfat edir, kimisi də ömrünün ən rəzalətli dövrünə çatdırılır ki, vaxtilə bildiyi şeyləri unutsun. Sən yer üzünü cansız görürsən. Biz ona yağmur endirdiyimiz zaman o, hərəkətə gəlib qabarır və cürbəcür gözəl bitkilər bitirir.

(Həcc surəsi, 5)

Allah göydən yağmur yağdırıb onunla ölmüş yeri diriltdi. Həqiqətən, bunda eşidən adamlar üçün dəlillər vardır.

(Nəhl surəsi, 65)

> *Həqiqətən də, göylərin və yerin yaradılmasında, gecə ilə gündüzün bir-birilə əvəz olunmasında, insanlara fayda verən şeylərlə yüklənmiş halda dənizdə üzən gəmilərdə, Allahın göydən endirdiyi, onunla da ölmüş torpağı diriltdiyi suda, Onun bütün heyvanatı yer üzünə yaymasında, küləklərin istiqamətinin dəyişdirilməsində və göylə yer arasında ram edilmiş buludlarda, başa düşən insanlar üçün dəlillər vardır.*
>
> **(Bəqərə surəsi, 164)**

> *Sən Allahın mərhəmətinin izlərinə bax ki, yeri öldükdən sonra necə dirildir. Şübhəsiz ki, O, ölüləri də mütləq dirildəcəkdir. O, hər şeyə qadirdir.*
>
> **(Rum surəsi, 50)**

QİYAMƏT

Qiyamət gününün nə zaman olacağını yalnız Allah bilir

> *Onlar: "Əgər doğru deyirsinizsə, bu vəd nə vaxt olacaq?" – deyirlər.*
>
> **(Səba surəsi, 29)**

> *De: "Sizə vəd edilmiş bir gün vardır ki, siz onu nə bircə saat belə yubada, nə də tezləşdirə bilərsiniz".*
>
> **(Səba surəsi, 30)**

‘Yaxınlaşan (Qiyamət günü) yaxınlaşdı.

(Nəcm surəsi, 57)

Allahdan başqa heç kəs onun qarşısını ala bilməz.

(Nəcm surəsi, 58)

Onlar deyirlər: “Əgər doğru deyirsinizsə, bu vəd nə vaxt olacaq?”

(Mülk surəsi, 25)

De: “Buna aid bilgi yalnız Allah yanındadır. Mən isə ancaq xəbərdar və bəyan edənəm!”

(Mülk surəsi, 26)

Səndən o Saat barəsində: “O nə vaxt qopacaq?” – deyə soruşurlar.

(Naziat surəsi, 42)

Axı sən onu haradan biləsən?!

(Naziat surəsi, 43)

Onu kamil bilmək sənin Rəbbinə aiddir.

(Naziat surəsi, 44)

Camaat sənə o Saat barədə sual verir. De: "Onu yalnız Allah bilir!" Nə bilirsən, bəlkə də, o Saat lap yaxınlaşmışdır.

(Əhzab surəsi, 63)

Göylərin, yerin və onların arasında olan hər şeyin sahibi olan Allah nə qədər xeyirxahdır! O Saat haqqında bilgi Ondadır və siz Onun hüzuruna qaytarılacaqsınız.

(Zuxruf surəsi, 85)

Səndən o Saat barəsində soruşurlar ki, nə vaxt qopacaq? De: "Bu haqda bilgi ancaq Rəbbimə aiddir. Qopacağı vaxtı yalnız O, aşkara çıxara bilər. Bu bilgi göylərə və yerə də ağır gəlir. O sizə qəflətən gələcəkdir". Sanki onu bilirmişsən kimi səndən soruşurlar. De: "Bu haqda bilgi ancaq Allaha aiddir. Lakin insanların çoxu bunu bilmir".

(Əraf surəsi, 187)

Həqiqətən, o Saat haqqında elm yalnız Allahdadır. Yağışı O yağdırır və bətnlərdə olanı O bilir. Heç kəs sabah nə qazanacağını bilə bilməz; heç kəs harada öləcəyini də bilməz. Allah isə, şübhəsiz ki, Biləndir, Xəbərdardır.

(Loğman surəsi, 34)

Həqiqətən, ayırd etmə günü bəlli bir vaxta təyin edilmişdir!

(Nəbə surəsi, 17)

Göylərin və yerin qeybi Allaha aiddir. O Saatın gəlməsi bir göz qırpımı kimidir və ya daha tezdir. Həqiqətən, Allah hər şeyə qadirdir.

(Nəhl surəsi, 77)

Qiyamət günü qəti bir həqiqətdir

O gün göyü yazılı səhifələrin büküldüyü kimi bükəcəyik. Məxluqatı ilk dəfə yaratdığımız kimi yenə əvvəlki halına qaytaracağıq. Biz vəd vermişik. Sözsüz ki, Biz onu yerinə yetirəcəyik.

(Ənbiya surəsi, 104)

> *De: "Allah sizə həyat verir, sonra öldürür, sonra da sizi gələcəyinə heç bir şəkk-şübhə olmayan Qiyamət günü dirildib bir yerə toplayacaqdır". Lakin insanların çoxu bunu bilmir.*
>
> **(Casiyə surəsi, 26)**

> *Sizə vəd edilmiş Qiyamət mütləq vaqe olacaqdır.*
>
> **(Mürsəlat surəsi, 7)**

> *Vaqiə qopacağı zaman*
>
> **(Vaqiə surəsi, 1)**

> *onun qopduğunu heç kəs dana bilməz.*
>
> **(Vaqiə surəsi, 2)**

Qiyamət saatından qaçış yoxdur

> *Günahkarlar atəşi görən kimi oraya düşəcəklərini yəqin edəcək və oradan qaçmağa bir yer tapa bilməyəcəklər.*
>
> **(Kəhf surəsi, 53)**

Yaxınlaşaraq gəlir

> *Kitabı və tərəzini gerçək həqiqət kimi nazil edən Allahdır. Nə bilirsən, bəlkə də o Saat yaxındır.*
>
> **(Şura surəsi, 17)**

> *İnsanların hesaba çəkiləcəkləri gün yaxınlaşdı. Amma onlar hələ də qəflət içində imandan üz çevirirlər.*
>
> **(Ənbiya surəsi, 1)**

> *Yaxınlaşan (Qiyamət günü) yaxınlaşdı.*
>
> **(Nəcm surəsi, 57)**

Qəflətən gələcəkdir

> *Onlar sadəcə olaraq, bir-birləri ilə höcətləşərkən özlərini yaxalayacaq bir tükürpədici səsi gözləyirlər.*
>
> **(Yasin surəsi, 49)**

> *Onlar nə bir vəsiyyət etməyə qadir olacaq, nə də ailələrinin yanına qayıda biləcəklər.*
>
> **(Yasin surəsi, 50)**

> *‘Yox, Qiyamət onlara gözləmədikləri bir halda gələcək və onları heyrətə salacaqdır. Onlar onun qarşısını ala bilməyəcəklər və onlara heç aman da verilməyəcəkdir.*
>
> **(Ənbiya surəsi, 40)**

> *Məgər kafirlər o Saatın qəfildən onlara gəlməsindən başqa bir şeymi gözləyirlər? Artıq onun əlamətləri gəlmişdir. O Saat onlara gəlib yetişdiyi zaman ibrət almaları nəyə yarayar?*
>
> **(Məhəmməd surəsi, 18)**

> *Onlar özləri də hiss etmədən o Saatın qəflətən onlara gəlməsindən başqa bir şeymi gözləyirlər?*
>
> **(Zuxruf surəsi, 66)**

Tək bir nidadan ibarətdir

> *Bu, təkcə dəhşətli bir səs olacaq və onlar qəfildən dirilib görməyə başlayacaqlar.*
>
> **(Saffat surəsi, 19)**

> *Siz məni Allahı inkar etməyə, bilmədiyim bir şeyi Ona şərik qoşmağa çağırırsınız, mən isə sizi Qüdrətli və Bağışlayan Allaha çağırıram.*
>
> **(Mümin surəsi, 42)**

> *Onlar sadəcə olaraq, bir-birləri ilə höcətləşərkən özlərini yaxalayacaq bir tükürpədici səsi gözləyirlər.*
>
> **(Yasin surəsi, 49)**

Daha əvvəl nə tanınmış, nə görülmüşdür

> *Sən də onları tərk et! Carçının onları xoşagəlməz bir şeyə çağıracağı gün*
>
> **(Qamər surəsi, 6)**

Qiyamət günü hər şey açıq-aşkar olaraq ortaya çıxacaqdır

> *Bu ona görə idi ki, elçiləri onlara açıq-aydın dəlillər gətirdikləri halda, onlar inkar edirdilər. Buna görə də Allah onları əzabla yaxaladı. Həqiqətən, O, Qüvvətlidir, cəzası da şiddətlidir.*
>
> **(Mümin surəsi, 22)**

Qiyamət günü insanları ayırd etmə günüdür

O, bəzilərini alçaldacaq, bəzilərini də ucaldacaqdır.

(Vaqiə surəsi, 3)

Sən ayırd etmə gününün nə olduğunu bilirsənmi?

(Mürsəlat surəsi, 14)

Qiyaməti yalan sayanların o Gün vay halına!

(Mürsəlat surəsi, 15)

Günahkarlar deyəcəklər: "Vay halımıza! Bu ki, Haqq-hesab günüdür!"

(Saffat surəsi, 20)

Onlara deyiləcək: "Bu, yalan saydığınız Fərqləndirmə günüdür!"

(Saffat surəsi, 21)

Qiyamət gününün təsviri

Yer titrəyib lərzəyə gələcəyi zaman;

(Zəlzələ surəsi, 1)

Yer öz yükünü bayıra atacağı

(Zəlzələ surəsi, 2)

və insan: "Ona nə olub?" – deyəcəyi zaman –

(Zəlzələ surəsi, 3)

həmin gün yer öz əhvalatlarını danışacaqdır.

(Zəlzələ surəsi, 4)

Çünki Rəbbin ona vəhy edəcəkdir.

(Zəlzələ surəsi, 5)

Sur bircə dəfə üfürüləcəyi,

(Haqqə surəsi, 13)

yer və dağlar qaldırılıb bircə dəfə bir-birinə çırpılacağı zaman –

(Haqqə surəsi, 14)

həmin gün Vaqiə qopacaq.

(Haqqə surəsi, 15)

Göy yarılacaq və həmin gün o, süst olacaqdır.

(Haqqə surəsi, 16)

Sur üfürüləcəyi gün siz dəstə-dəstə gələcəksiniz.

(Nəbə surəsi, 18)

O gün göyün qapıları açılacaqdır.

(Nəbə surəsi, 19)

Dağlar da hərəkətə gətirilib ilğıma çevriləcək.

(Nəbə surəsi, 20)

Dağlar parça-parça olub ovxalandığı

(Vaqiə surəsi, 5)

və ətrafa səpələnmiş toz-torpağa döndüyü zaman,

(Vaqiə surəsi, 6)

O gün göy əridilmiş metal kimi olacaqdır.

(Məaric surəsi, 8)

Dağlar da didilmiş yuna bənzəyəcəklər.

(Məaric surəsi, 9)

O gün göyü yazılı səhifələrin büküldüyü kimi bükəcəyik. Məxluqatı ilk dəfə yaratdığımız kimi yenə əvvəlki halına qaytaracağıq. Biz vəd vermişik. Sözsüz ki, Biz onu yerinə yetirəcəyik.

(Ənbiya surəsi, 104)

Səndən dağlar haqqında soruşurlar. De: "Rəbbim onları dağıdıb havaya sovuracaq,

(Taha surəsi, 105)

oranı boş düzəngaha çevirəcəkdir.

(Taha surəsi, 106)

Sən orada nə bir eniş, nə də bir yoxuş görməyəcəksən".

(Taha surəsi, 107)

Qiyamət günü insanlar qəbirlərindən çıxıb toplanarlar

O gün Yəcuc və Məcuc tayfalarını axışıb bir-birinə qarışmış halda buraxarıq. Sur üfürülən kimi məxluqatın hamısını bir yerə toplayarıq.

(Kəhf surəsi, 99)

O gün Biz dağları hərəkətə gətirəcəyik. O vaxt yerin dümdüz olduğunu görəcəksən. Biz hamını bir yerə toplayacaq, onlardan heç birini kənara buraxmayacağıq.

(Kəhf surəsi, 47)

Onlar Rəbbinin hüzurunda səf-səf duracaqlar. Biz deyəcəyik: "Hüzurumuza sizi ilk dəfə yaratdığımız kimi gəldiniz. Amma siz elə güman edirdiniz ki, Biz sizə müəyyən bir vaxt təyin etməyəcəyik".

(Kəhf surəsi, 48)

Sur üfürüləcəyi gün siz dəstə-dəstə gələcəksiniz.

(Nəbə surəsi, 18)

Ʊ gün onların hamısını bir yerə toplayacaq, sonra isə şərik qoşanlara deyəcəyik: "İddia etdiyiniz şəriklərəriniz haradadır?"

(Ənam surəsi, 22)

onlar zəlil baxışlarla gözlərini aşağı dikmiş halda ətrafa yayılan çəyirtkələr kimi qəbirlərindən çıxacaqlar.

(Qamər surəsi, 7)

Kafirlər carçıya tərəf tələsərək: "Bu nə çətin bir gündür!" – deyəcəklər.

(Qamər surəsi, 8)

Sur ikinci dəfə üfürülən kimi onlar dərhal qəbirlərdən çıxıb Rəbbinə tərəf axışacaqlar.

(Yasin surəsi, 51)

O gün onların hamısını bir yerə toplayacaq, sonra da müşriklərə: "Siz də, şəriklərəriniz də öz yerinizdə qalın!" – deyəcəyik. Biz onları ayıracağıq. Onların şərikləri deyəcəklər: "Siz bizə ibadət etmirdiniz.

(Yunis surəsi, 28)

Göylərdə və yerdə olan hər kəs qorxuya qapılmışdır

Sur üfürüləcəyi gün Allahın istədiklərindən başqa, göylərdə və yerdə olanlar dəhşətə düşəcək və hamısı Onun hüzuruna baş əyərək gələcəkdir.

(Nəml surəsi, 87)

Kafirlər simalarından tanınarlar

Günahkarlar simalarından tanınacaq, kəkillərindən və ayaqlarından yaxalanacaqlar.

(Rəhman surəsi, 41)

onların baxışları yazıq görkəm alacaq, özlərini də zillət bürüyəcəkdir. Hərçənd ki, onlar dünyada ikən sağ-salamat halda səcdə qılmağa dəvət olunurdular.

(Qələm surəsi, 43)

O gün sur üfürüləcək və o gün günahkarları gözləri göm-göy göyərmiş halda bir yerə toplayacağıq.

(Taha surəsi, 102)

Kafirlərin üzləri qapqaradır

Sən Qiyamət günü Allaha qarşı yalan uyduranların üzlərini qapqara görəcəksən. Məgər Cəhənnəmdə təkəbbürlülər üçün yer yoxdur?

(Zumər surəsi, 60)

Gözləri dəhşət içindədir

Zalımların etdikləri əməllərdən Allahın xəbərsiz olduğunu sanma. Allah sadəcə onları cəzalandırmağı gözlərin bərələ qalacağı günə saxlayır.

(İbrahim surəsi, 42)

O gün onlar başlarını yuxarı qaldıraraq carçıya doğru tələsəcəklər. Onlar özlərinə belə dönüb baxmayacaq və onların qəlbi də bomboş qalacaqdır (qorxudan bütün başqa duyğulardan xali olacaqdır).

(İbrahim surəsi, 43)

Möminlər nurlarından tanınarlar

O gün sən mömin kişilərin və mömin qadınların nurunun onların önlərindən və sağ tərəflərindən yayıldığını görəcəksən. Onlara: "Bu gün sizin müjdəniz ağacları altından çaylar axan Cənnət bağlarıdır. Siz orada əbədi qalacaqsınız!" – deyiləcək. Bu, böyük uğurdur.

(Hədid surəsi, 12)

O gün münafiq kişilər və münafiq qadınlar iman gətirənlərə: "Bir az gözləyin ki, biz də sizin işığınızdan alaq" – deyəcəklər. Onlara deyiləcəkdir: "Geriyə qayıdıb işıq axtarın!" Onların arasına içəri tərəfində mərhəmət, çöl tərəfində əzab olan qapılı bir sədd çəkiləcəkdir.

(Hədid surəsi, 13)

O gün neçə-neçə üzlər parlayacaq,

(Əbəsə surəsi, 38)

güləcək və fərəhlənəcəkdir.

(Əbəsə surəsi, 39)

Ey iman gətirənlər! Allaha səmimi olaraq tövbə edin. Ola bilsin ki, Rəbbiniz günahlarınızdan keçsin və sizi, Allah o Peyğəmbəri və onunla birlikdə iman gətirənləri utandırmayacağı gündə, ağacları altından çaylar axan Cənnət bağlarına daxil etsin. Onların nuru önlərindən və sağ tərəflərindən ətrafa yayılacaqdır. Onlar deyəcəklər: "Ey Rəbbimiz! Nurumuzu bizim üçün tamamla və bizi bağışla. Həqiqətən, Sən hər şeyə qadirsən!"

(Təhrim surəsi, 8)

Qiyamət günü Allahın izni olmadan kimsə söz deyə bilməz

Qiyamət gəldiyi gün Allahın izni olmadan heç kəs danışa bilməz. Onlardan kimi bədbəxt, kimi də xoşbəxt olacaq.

(Hud surəsi, 105)

O gün insanlar heç bir yana meyl etmədən carçının arxasınca yeriyəcəklər. Mərhəmətli Allahın qarşısında səslər kəsiləcək və sən yalnız pıçıltı eşidəcəksən.

(Taha surəsi, 108)

Allahın izni olmadan kimsə kimsəyə bir xeyir verə bilməz

> *Siz də Ondan başqa istədiyinizə ibadət edin". De: "Şübhəsiz ki, ziyan çəkənlər Qiyamət günü özlərini və ailələrini ziyana uğradanlardır. Açıq-aşkar ziyan da elə budur!"*
>
> **(Zumər surəsi, 15)**

> *O gün Mərhəmətli Allahın izin verdiyi və söz deməsinə razı olduğu şəxslərdən başqa heç kimin şəfaəti fayda verməyəcəkdir.*
>
> **(Taha surəsi, 109)**

> *O gün onlardan hər birinin yetərincə işi olacaqdır.*
>
> **(Əbəsə surəsi, 37)**

> *o gün insan qaçacaq öz qardaşından,*
>
> **(Əbəsə surəsi, 34)**

> *anasından, atasından,*
>
> **(Əbəsə surəsi, 35)**

Dost dostunun halını xəbər almayacaq.

(Məaric surəsi, 10)

Qiyamət günü sorğu-sual olunarlar və Allaha qoşduqları şəriklərindən ayrılarlar

O Saatın gələcəyi gün günahkarlar ümidlərini itirəcəklər.

(Rum surəsi, 12)

Allaha qoşduqları şəriklərindən onlar üçün şəfaətçilər olmayacaq. Şərikləri onları inkar edəcəklər.

(Rum surəsi, 13)

O gün onların hamısını bir yerə toplayacaq, sonra da müşriklərə: "Siz də, şəriklərəniz də öz yerinizdə qalın!" – deyəcəyik. Biz onları ayıracağıq. Onların şərikləri deyəcəklər: "Siz bizə ibadət etmirdiniz.

(Yunis surəsi, 28)

Bizimlə sizin aranızda Allahın şahid olması yetər. Doğrudan da biz sizin ibadətinizdən xəbərsiz idik".

(Yunis surəsi, 29)

Ümrada hər bir nəfər keçmişdə törətdiklərinin acısını çəkəcəkdir. Onlar Allaha – özlərinin həqiqi Himayədarına qaytarılacaq və uydurduqları bütlər onlardan uzaqlaşıb qeyb olacaqlar.

(Yunis surəsi, 30)

Onlara deyilər: "Hanı sizin sitayiş etdiklərиniz –

(Şuəra surəsi, 92)

Allahdan başqa pənah apardıqlarınız? Onlar sizə kömək edə bilərlərmi, yaxud özlərinə köməkləri dəyə bilərmi?"

(Şuəra surəsi, 93)

O gün Allah onları çağırıb: "İddia etdiyiniz şəriklərim haradadırlar?" – deyəcəkdir.

(Qəsas surəsi, 74)

Onları Rəbbinin qarşısında dayandırılarkən bircə görəydin! Allah deyəcəkdir: "Məgər bu dirilmə həqiqət deyilmi?" Onlar: "Əlbəttə, Rəbbimizə and olsun ki, bu həqiqətdir!" – deyəcəklər. O buyuracaqdır: "Elə isə inkar etdiyinizə görə dadın əzabı!"

(Ənam surəsi, 30)

Müşriklər Allaha qoşduqları şəriklərini gördükdə deyəcəklər: "Ey Rəbbimiz! Bunlar bizim Səndən başqa ibadət etdiyimiz şəriklərimizdir!" Bütlər isə onlara: "Şübhəsiz ki, siz yalançısınız!" – deyə cavab qaytaracaqlar.

(Nəhl surəsi, 86)

O gün müşriklər Allaha təslim olduqlarını bildirəcək və uydurduqları bütlər onlardan uzaqlaşıb qeyb olacaqlar.

(Nəhl surəsi, 87)

O gün Allah müşriklərə: "İddia etdiyiniz şəriklərimi çağırın!" – deyəcək. Müşriklər onları çağıracaq, lakin onlar cavab verməyəcəklər. Biz müşriklərlə bütlərin arasına həlak edici bir yarğan salarıq.

(Kəhf surəsi, 52)

Onları dayandırın, çünki onlar sorğu-sual olunacaqlar".

(Saffat surəsi, 24)

O gün onların hamısını bir yerə toplayacaq, sonra isə şərik qoşanlara deyəcəyik: "İddia etdiyiniz şəriklərəniz haradadır?"

(Ənam surəsi, 22)

Sonra onların: "Allaha – Rəbbimizə and olsun ki, biz müşrik olmamışdıq!" – demələrindən başqa bir bəhanələri qalmayacaq.

(Ənam surəsi, 23)

Bax gör onlar özlərinə qarşı necə yalan söyləyirlər. Uydurduqları bütlər isə onlardan uzaqlaşıb yox olacaqlar.

(Ənam surəsi, 24)

O gün Allah onları çağırıb deyəcəkdir: "İddia etdiyiniz şəriklərim haradadırlar?"

(Qəsas surəsi, 62)

Barələrində Sözün gerçəkləşəcəyi kimsələr deyəcəklər: "Ey Rəbbimiz! Bunlar bizim azdırdığımız kimsələrdir. Özümüz azdığımız kimi onları da azdırdıq. Biz onlardan uzaqlaşıb Sənə üz tuturuq. Doğrusu, onlar bizə ibadət etmirdilər".

(Qəsas surəsi, 63)

Müşriklərə: "Şəriklərinizi çağırın!" – deyiləcək. Müşriklər onları çağıracaq, lakin şərikləri onlara cavab verməyəcəklər. Onlar əzabı görəcəklər. Yaxşı olardı ki, onlar doğru yolla getmiş olaydılar.

(Qəsas surəsi, 64)

> *O gün Allah onları çağırıb: "Elçilərə nə cavab verdiniz?" – deyəcək.*
>
> **(Qəsas surəsi, 65)**

Qiyamət günü hər kəs tək başına sorğuya çəkilər

> *Onların hər biri Qiyamət günü Onun hüzuruna tək-tənha gələcək.*
>
> **(Məryəm surəsi, 95)**

Qiyamət günü Rəsullar şahidlik üçün çağrılırlar

> *Elçilərə vaxt təyin olunacağı zaman –*
>
> **(Mürsəlat surəsi, 11)**

> *deyiləcəkdir: "Bunlara verilmiş möhlət hansı günə qədərdir?"*
>
> **(Mürsəlat surəsi, 12)**

> *Deyiləcəkdir: "Ayırd etmə gününədək!"*
>
> **(Mürsəlat surəsi, 13)**

İnsanlar üç sinif olacaqdır

siz üç dəstəyə ayrılacaqsınız.

(Vaqiə surəsi, 7)

Sağ tərəf sahibləri. Nə xoşbəxtdir sağ tərəf sahibləri!

(Vaqiə surəsi, 8)

Sol tərəf sahibləri. Nə bədbəxtdir sol tərəf sahibləri!

(Vaqiə surəsi, 9)

Xeyirxah işlərdə öndə gedənlər, Cənnətdə də öndədirlər!

(Vaqiə surəsi, 10)

Onlar Allaha yaxın olanlar,

(Vaqiə surəsi, 11)

Möminlərin kitabı sağdan verilir

> *Kitabı sağ əlinə verilən deyəcəkdir: "Budur, oxuyun kitabımı!*
>
> **(Haqqə surəsi, 19)**

> *Mən bilirdim ki, etdiklərimin hesabına qovuşacağam".*
>
> **(Haqqə surəsi, 20)**

> *O, xoşbəxt həyat sürəcəkdir –*
>
> **(Haqqə surəsi, 21)**

> *uca bir Cənnətdə –*
>
> **(Haqqə surəsi, 22)**

İman etməyənlərin kitabı soldan verilir

> *Kitabı sol əlinə verilən kimsə isə deyəcəkdir: "Kaş kitabım mənə verilməyəydi!*
>
> **(Haqqə surəsi, 25)**

Hesabımdan da xəbərim olmayaydı!

(Haqqə surəsi, 26)

Kaş ilk ölümüm həmişəlik olaydı!

(Haqqə surəsi, 27)

İman etməyənlərin qiyamət gününü yalan saymalarına qarşılıq görəcəkləri əzab

Sən ayırd etmə gününün nə olduğunu bilirsənmi?

(Mürsəlat surəsi, 14)

Qiyaməti yalan sayanların o Gün vay halına!

(Mürsəlat surəsi, 15)

Yoxsa Biz ilk nəsilləri həlak etmədikmi?!

(Mürsəlat surəsi, 16)

Sonrakıları da onlara qatacağıq.

(Mürsəlat surəsi, 17)

> *Biz günah sahibləri ilə belə davranırıq.*
>
> **(Mürsəlat surəsi, 18)**

> *Qiyaməti yalan sayanların o gün vay halına!*
>
> **(Mürsəlat surəsi, 19)**

> *Qiyaməti yalan sayanların o gün vay halına!*
>
> **(Mürsəlat surəsi, 28)**

> *Onlara belə deyiləcək: "Gedin yalan hesab etdiyiniz Cəhənnəmə!*
>
> **(Mürsəlat surəsi, 29)**

> *Üç qola ayrılan kölgəliyə gedin!"*
>
> **(Mürsəlat surəsi, 30)**

İman etməyənlərin qiyamət günü duyacaqları peşmanlıq

> *Onlar deyəcəklər: "Vay halımıza! Bizi yatdığımız yerdən kim qaldırdı? Bu, Mərhəmətli Allahın vəd etdiyi qiyamətdir. Elçilər doğru deyirlərmiş".*
>
> **(Yasin surəsi, 52)**

Allah ilə qarşılaşmağı yalan sayanlar artıq ziyana uğramışlar. O Saat onları qəflətən haqladıqda onlar öz günah yüklərini bellərində daşıyaraq deyəcəklər: "Dünyada buraxdığımız əməllərə görə vay halımıza!" Onların daşıdıqları şey necə də pisdir!

(Ənam surəsi, 31)

Lakin üz döndərib küfr edəni,

(Ğaşiyə surəsi, 23)

Allah ən şiddətli əzabla cəzalandırar.

(Ğaşiyə surəsi, 24)

O gün heç kəs Allahın verdiyi əzab kimi əzab verə bilməz

(Fəcr surəsi, 25)

və heç kəs Onun buxovladığı kimi buxovlaya bilməz.

(Fəcr surəsi, 26)

Lakin onlar Qiyamət Saatını da yalan saydılar. Biz də onu yalan sayanlardan ötrü yandırıb-yaxan bir od hazırladıq.

(Furqan surəsi, 11)

> *Onlar Cəhənnəm odunu uzaq məsafədən gördükdə belə onun necə qəzəblə qaynamasını duyacaq və xışıltısını eşidəcəklər.*
>
> **(Furqan surəsi, 12)**

> *Onlar əlləri boynunda bağlı halda Cəhənnəmin dar bir yerinə atıldıqları zaman ölüm diləyərlər.*
>
> **(Furqan surəsi, 13)**

Allah, qiyamət günü Şeytanı və dostlarını toplayacaq

> *Rəbbinə and olsun ki, Biz onları şeytanlarla birlikdə bir yerə toplayacaq, sonra da onları diz üstə çökmüş halda Cəhənnəmin ətrafına yerləşdirəcəyik.*
>
> **(Məryəm surəsi, 68)**

Şeytan inkarçı dostlarıyla əməkdaşlıq edir

> *Üstündə Allahın adı çəkilməmiş – "bismillah" deyilib kəsilməmiş heyvanlardan yeməyin. Çünki bu, günahdır. Həqiqətən, şeytanlar öz dostlarına sizinlə mübahisə etmək üçün batil əqidələr təlqin edirlər. Əgər onlara itaət etsəniz, sözsüz ki, siz də müşriklərdən olarsınız.*
>
> **(Ənam surəsi, 121)**

> *Onlar möminlərlə rastlaşdıqda: "Biz iman gətirdik!" – deyirlər, öz şeytanları (azmış dostları) ilə təklikdə qaldıqda isə: "Biz sizinləyik. Biz möminlərə ancaq istehza edirik!" – deyirlər.*
>
> **(Bəqərə surəsi, 14)**

> *Ey Adəm oğulları! Şeytan, əcdadınızın ayıb yerlərini özlərinə göstərmək məqsədilə aldadaraq libaslarını soyundurub Cənnətdən çıxartdığı kimi, sizi də aldatmasın. Şübhəsiz ki, o və onun nəsli sizləri sizin onları görə bilmədiyiniz yerlərdən görürlər. Həqiqətən, Biz, şeytanları iman gətirməyənlərin dostları etdik.*
>
> **(Əraf surəsi, 27)**

> *Allah Öz bəndələrinin bir qismini doğru yola yönəltdi, digərlərinə isə haqq yoldan azmaq layiq görüldü. Çünki onlar Allahı qoyub şeytanları özlərinə dost tutdular və elə güman edirlər ki, doğru yoldadırlar.*
>
> **(Əraf surəsi, 30)**

İnkar edənləri hər yerdən əhatə etmişdir

> *Şeytan onları üstələmiş və Allahı zikr etməyi onlara unutdurmuşdur. Onlar şeytanın firqəsindəndirlər. Şübhə yoxdur ki, şeytanın firqəsindəkilər ziyana uğrayanlardır.*
>
> **(Mücadilə surəsi, 19)**

Şeytan özünə inananları Cəhənnəmə sürükləyər

Şübhəsiz ki, şeytan sizin düşmənizdir, siz də onu düşmən sayın. O öz tərəfdarlarını Od sakini olmağa çağırır.

(Fatir surəsi, 6)

Onlara: "Allahın nazil etdiyinə itaət edin!" – deyildikdə, onlar: "Yox! Biz əcdadımızın getdiyi yolu tutub gedəcəyik!" – deyərlər. Əgər şeytan onları Cəhənnəm odunun əzabına doğru sürükləyirsə, onda necə olsun?

(Loğman surəsi, 21)

Qiyamət günü ona tabe olanlar yalnız buraxılacaq

Çünki Zikr (Quran) mənə çatdıqdan sonra o məni ondan uzaqlaşdırdı". Həqiqətən, şeytan insanı tənha qoyub qaçandır.

(Furqan surəsi, 29)

Qiyamət günü həssas tərəzilər qurular

Biz qiyamət günü ədalət tərəziləri ilə haqq-hesab çəkəcəyik. Heç kimə hər hansı bir şeydə ədalətsizlik edilməyəcəkdir. Görülmüş iş bir xardal dənəsi mislində olsa belə, onu gətirib tərəziyə qoyacağıq. Biz haqqı araşdırmağa bəs edərik.

(Ənbiya surəsi, 47)

CƏNNƏT

Cənnətə yalnız möminlər girəcəkdirlər

Bunlar Allahın qoyduğu hüdudlarıdır. Kim Allaha və Onun Elçisinə itaət edərsə, Allah onu ağacları altından çaylar axan, içində əbədi qalacaqları Cənnət bağlarına daxil edər. Bu, böyük uğurdur.

(Nisa surəsi, 13)

O kəslər ki, qeybə iman gətirir, namaz qılır və Bizim onlara verdiyimiz ruzidən Allah yolunda xərcləyirlər;

(Bəqərə surəsi, 3)

Ü kəslər ki, sənə nazil olana və səndən əvvəl nazil olanlara iman gətirir, axirətə də yəqinliklə inanırlar.

(Bəqərə surəsi, 4)

Onlar öz Rəbbindən gələn doğru yoldadırlar. Məhz onlar nicat tapanlardır.

(Bəqərə surəsi, 5)

Dində hamını ötüb keçən ilk mühacirlərə və ənsarlara, həmçinin yaxşı işlər görməkdə onların ardınca gedənlərə gəlincə, Allah onlardan razıdır, onlar da Ondan razıdırlar. Allah onlar üçün ağacları altından çaylar axan, içində əbədi qalacaqları Cənnət bağları hazırlamışdır. Bu, böyük uğurdur.

(Tövbə surəsi, 100)

İman gətirib yaxşı işlər görənlər isə Cənnət sakinləridir. Onlar orada əbədi qalacaqlar!

(Bəqərə surəsi, 82)

Sözsüz ki, müttəqilər Cənnət bağlarında və çeşmələr başında olacaqlar.

(Hicr surəsi, 45)

Amma əgər o, Allaha yaxın olanlardandırsa,

(Vaqiə surəsi, 88)

onda rəhmətə, gözəl ruziyə və Nəim bağına yetişər.

(Vaqiə surəsi, 89)

Əgər o, sağ tərəf sahiblərindəndirsə,

(Vaqiə surəsi, 90)

ona: "Sağ tərəf sahiblərindən sənə salam olsun!" – deyiləcəkdir.

(Vaqiə surəsi, 91)

Allah mömin kişilərə və mömin qadınlara ağacları altından çaylar axan, içində əbədi qalacaqları Cənnət bağları və Ədn bağlarında gözəl məskənlər vəd etmişdir. Allahın razılığı isə daha böyükdür. Bu, böyük uğurdur.

(Tövbə surəsi, 72)

Cənnət müttəqilərə yaxınlaşdırılacaq, onlardan uzaqda olmayacaqdır.

(Qaf surəsi, 31)

Budur sizə vəd edilən Cənnət! O, hər bir tövbə edib Allaha üz tutan, Onun əmrinə riayət edən,

(Qaf surəsi, 32)

Mərhəmətli Allahdan Onu görmədən qorxan və Allaha yönəlmiş qəlblə gələn kimsələr üçündür.

(Qaf surəsi, 33)

Ora sağ-salamat daxil olun! Bu, Əbədiyyət günüdür.

(Qaf surəsi, 34)

Doğrudan da, Allah möminlərdən, Cənnət müqabilində onların canlarını və mallarını satın almışdır. Çünki onlar Allah yolunda vuruşub öldürür və öldürülürlər. Bu, Allahın Tövratda, İncildə və Quranda Öz öhdəsinə götürdüyü bir vəddir. Allahdan daha yaxşı əhdini yerinə yetirən kimdir? Elə isə sövdələşdiyiniz alış-verişə görə sevinin. Məhz bu, böyük uğurdur.

(Tövbə surəsi, 111)

Cənnətdə möminlərin qarşılanması

> *O kəslər ki, tər-təmiz olduqları halda, mələklər onların canını alıb deyirlər: "Sizə salam olsun! Əməllərinizə görə Cənnətə girin!"*
>
> **(Nəhl surəsi, 32)**

> *Rəbbindən qorxanlar da dəstə-dəstə Cənnətə gətiriləcəklər. Nəhayət, ora çatdıqda onun qapıları açılacaq və onun gözətçiləri onlara deyəcəklər: "Sizə salam olsun! Xoş sizin halınıza! Əbədi qalmaq üçün buraya daxil olun!"*
>
> **(Zumər surəsi, 73)**

> *Onlara deyiləcək: "Oraya sağ-salamat və xatircəmliklə daxil olun!"*
>
> **(Hicr surəsi, 46)**

> *Onlar səbir etdiklərinə görə Cənnətdə olan yüksək məqamla mükafatlandırılacaq, orada xeyir-dua ilə, salamla qarşılanacaqlar.*
>
> **(Furqan surəsi, 75)**

> *əməlisaleh ataları, zövcələri və övladları ilə birlikdə daxil olacaqları Ədn bağları hazırlanmışdır. Mələklər bütün qapılardan onların yanına daxil olub deyəcəklər:*
>
> **(Rad surəsi, 23)**

> *"Səbir etdiyinizə görə sizə salam olsun! Axirət yurdunuz necə də gözəldir!"*
>
> **(Rad surəsi, 24)**

> *İman gətirib saleh əməllər edənlər isə ağacları altından çaylar axan, Rəbbinin izni ilə içində əbədi qalacaqları Cənnət bağlarına daxil ediləcəklər. Onların orada qarşılaşarkən bir-birinə deyəcəkləri söz: "Salam!" olacaqdır.*
>
> **(İbrahim surəsi, 23)**

Orada sonsuz bir yaşayış vardır

> *Onlar orada əbədi qalacaq, oranı başqa bir yerə dəyişmək istəməyəcəklər.*
>
> **(Kəhf surəsi, 108)**

Allah onlar üçün ağacları altından çaylar axan, içində əbədi qalacaqları Cənnət bağları hazırlamışdır. Bu, böyük uğurdur.

(Tövbə surəsi, 89)

Belə dediklərinə görə də Allah onları ağacları altından çaylar axan, içində əbədi qalacaqları Cənnət bağları ilə mükafatlandırdı. Yaxşı iş görənlərin mükafatı budur.

(Maidə surəsi, 85)

İman gətirib saleh əməllər edənlərə müjdə ver ki, onlar üçün ağacları altından çaylar axan Cənnət bağları vardır. Hər dəfə onun meyvələrindən onlara ruzi verildikcə: "Bu ki, əvvəlcə bizə verilən ruzidir!" – deyəcəklər. Halbuki onlara onun oxşarı veriləcəkdir. Onlardan ötrü orada pak zövcələr var və onlar orada əbədi qalacaqlar.

(Bəqərə surəsi, 25)

O gün sən mömin kişilərin və mömin qadınların nurunun onların önlərindən və sağ tərəflərindən yayıldığını görəcəksən. Onlara: "Bu gün sizin müjdəniz ağacları altından çaylar axan Cənnət bağlarıdır. Siz orada əbədi qalacaqsınız!" – deyiləcək. Bu, böyük uğurdur.

(Hədid surəsi, 12)

Allahın rizası və məmnunluğu vardır

De: "Sizə bunlardan daha yaxşısı barədə xəbər verimmi? Allahdan qorxanlar üçün Rəbbi yanında ağacları altından çaylar axan, içində əbədi qalacaqları Cənnət bağları, pak zövcələr və Allahın rizası vardır". Allah qullarını görür.

(Ali İmran surəsi, 15)

İman gətirib hicrət edən və Allah yolunda öz malı və canı ilə cihad edənlərin Allah yanında ən yüksək dərəcələri vardır. Məhz onlar nicat tapanlardır.

(Tövbə surəsi, 20)

Onların Rəbbinin yanındakı mükafatı ağacları altından çaylar axan, içində əbədi qalacaqları Ədn bağlarıdır. Allah onlardan razıdır, onlar da Ondan razıdırlar. Bu nemətlər, Rəbbindən qorxan kimsələrdən ötrüdür!

(Beyyinə surəsi, 8)

O gün möminə deyiləcəkdir: "Ey arxayın olan kəs!

(Fəcr surəsi, 27)

Kazı qalmış və razılıq qazanmış halda öz Rəbbinə tərəf dön!

(Fəcr surəsi, 28)

Mənim qullarımın cərgəsinə keç!

(Fəcr surəsi, 29)



Mal-dövlət və oğul-uşaq dünya həyatının bəzəyidir

Cənnətimə daxil ol!

(Fəcr surəsi, 30)

Allah mömin kişilərə və mömin qadınlara ağacları altından çaylar axan, içində əbədi qalacaqları Cənnət bağları və Ədn bağlarında gözəl məskənlər vəd etmişdir. Allahın razılığı isə daha böyükdür. Bu, böyük uğurdur.

(Tövbə surəsi, 72)

Bilin ki, dünya həyatı oyun və əyləncə, bəzək-düzək, bir-birinizin yanında öyünmək, var-dövləti və oğul-uşağı çoxaltmaq istəyindən ibarətdir. Bu elə bir yağışa bənzəyir ki, ondan əmələ gələn bitki əkinçiləri heyran edir. Sonra o quruyur və sən onun sapsarı olduğunu görürsən. Sonra isə o çör-çöpə dönür. Kimisini axirətdə şiddətli əzab, kimisini də Allahdan bağışlanma və razılıq gözləyir. Dünya həyatı isə aldadıcı ləzzətdən başqa bir şey deyildir.

(Hədid surəsi, 20)

Genişliyi yer ilə göyün genişliyi qədərdir

Rəbbiniz tərəfindən bağışlanmağa və müttəqilər üçün hazırlanmış, genişliyi göylər və yer qədər olan Cənnətə tələsin.

(Ali İmran surəsi, 133)

Rəbbiniz tərəfindən bağışlanmağa və genişliyi göyün və yerin genişliyi qədər olan, Allaha və Onun elçilərinə iman gətirənlər üçün hazırlanmış Cənnətə tələsin. Bu, Allahın lütfüdür, onu istədiyinə verər. Allah böyük lütf sahibidir.

(Hədid surəsi, 21)

Böyük bir zənginlik və ehtişam vardır

> *Onlar orada astarları atlazdan olan döşəklərə dirsəklənəcəklər. Hər iki bağın meyvələri onlara yaxın olacaqdır.*
>
> **(Rəhman surəsi, 54)**

> *Cənnətdə hara baxsan nemət və əzəmətli səltənət nişanəsi görərsən.*
>
> **(İnsan surəsi, 20)**

Çaylar vardır

> *Bu təqdirdə O sizin günahlarınızı bağışlayar və sizi ağacları altından çaylar axan Cənnət bağlarına və Ədn bağlarındakı gözəl məskənlərə daxil edər. Bu, böyük müvəffəqiyyətdir.*
>
> **(Saff surəsi, 12)**

> *İstəsə, sənin üçün onların dediklərindən daha xeyirlisini, ağacları altından çaylar axan Cənnət bağlarını yaradan, sənin üçün qəsrlər inşa edə bilən Allah necə də xeyirxahdır.*
>
> **(Furqan surəsi, 10)**

> *Kim yaxşı iş görsə, xeyri özünə, kim də pislik etsə, zərəri özünə olar. Sonra siz Rəbbinizə qaytarılacaqsınız.*
>
> **(Casiyə surəsi, 15)**

> *İman gətirib saleh əməllər işləyənləri isə ağacları altından çaylar axan, içində əbədi məskunlaşacaqları Cənnət bağlarına daxil edəcəyik. Onlar üçün orada pak zövcələr vardır. Biz onları sıx kölgəliklərdə yerləşdirəcəyik.*
>
> **(Nisa surəsi, 57)**

Bulaqlar vardır

> *İkisində də iki axar bulaq vardır.*
>
> **(Rəhman surəsi, 50)**

> *Şübhəsiz ki, müttəqilər kölgəliklərdə, çeşmələr başında*
>
> **(Mürsəlat surəsi, 41)**

> *Bu elə bir bulaqdandır ki, o, Cənnətdə Səlsəbil adlanır.*
>
> **(İnsan surəsi, 18)**

Yaşıllıqlar vardır

> *İkisində də növbənöv meyvələrlə dolu budaqlar vardır.*
>
> **(Rəhman surəsi, 48)**

> *Hər ikisi tünd yaşıldır.*
>
> **(Rəhman surəsi, 64)**

Nə isti, nə soyuq, tam olaraq kölgəliklər vardır

> *uzanmış kölgəliklərdə,*
>
> **(Vaqiə surəsi, 30)**

> *İman gətirib saleh əməllər işləyənləri isə ağacları altından çaylar axan, içində əbədi məskunlaşacaqları Cənnət bağlarına daxil edəcəyik. Onlar üçün orada pak zövcələr vardır. Biz onları sıx kölgəliklərdə yerləşdirəcəyik.*
>
> **(Nisa surəsi, 57)**

> *Onlar orada taxtlar üzərində mütəkkələrə dirsəklənəcək və orada nə günəş, nə də şaxta görməyəcəklər.*
>
> **(İnsan surəsi, 13)**

Yüksək köşklər və gözəl mənzillərdə oturarlar

Lakin Rəbbindən qorxanları üst-üstə tikilmiş, altından çaylar axan otaqlar gözləyir. Bu, Allahın vədidir. Allah vədinə xilaf çıxmaz.

(Zumər surəsi, 20)

Sizi bizə yaxınlaşdıra biləcək nə var-dövlətiniz, nə də oğul-uşağınızdır. Ancaq iman gətirib yaxşı işlər görənlər istisnadır. Məhz onların mükafatları etdikləri əməllərə görə qat-qat artırılacaq və onlar Cənnətdəki mənzillərində asudə yaşayacaqlar.

(Səba surəsi, 37)

İman gətirib xeyirxah işlər görənləri ağacları altından çaylar axan Cənnətdəki otaqlarda yerləşdirəcəyik. Onlar əbədi olaraq orada qalacaqlar. Yaxşı əməl sahiblərinin mükafatı necə də gözəldir!

(Ənkəbut surəsi, 58)

İstəsə, sənin üçün onların dediklərindən daha xeyirlisini, ağacları altından çaylar axan Cənnət bağlarını yaradan, sənin üçün qəsrlər inşa edə bilən Allah necə də xeyirxahdır.

(Furqan surəsi, 10)

Yüksəklərdə qurulmuş taxtlar vardır

> *Onlar orada taxtlar üzərində mütəkkələrə dirsəklənəcək və orada nə günəş, nə də şaxta görməyəcəklər.*
>
> **(İnsan surəsi, 13)**

> *Onlar bəzənmiş taxtlar üstündə*
>
> **(Vaqiə surəsi, 15)**

> *Onlar taxtlar üstündə bir-biri ilə üzbəüz oturacaqlar.*
>
> **(Saffat surəsi, 44)**

Yastıqlar və parlaq gözəllikdə döşəklər vardır

> *və hündür döşəklər üstündə olacaqlar.*
>
> **(Vaqiə surəsi, 34)**

> *yan-yana qoyulmuş yastıqlar,*
>
> **(Ğaşiyə surəsi, 15)**

> *və döşəmələrə sərilmiş xalçalar vardır.*
>
> **(Ğaşiyə surəsi, 16)**

> *Onlar yaşıl balışlara və gözəl döşəkçələrə dirsəklənəcəklər.*
>
> **(Rəhman surəsi, 76)**

> *Onlar orada astarları atlazdan olan döşəklərə dirsəklənəcəklər. Hər iki bağın meyvələri onlara yaxın olacaqdır.*
>
> **(Rəhman surəsi, 54)**

Ən gözəl geyimlər və zinət əşyaları vardır

> *Onlar əyinlərinə taftadan və atlazdan yaşıl paltarlar geyəcəklər. Onların qoluna gümüş bilərziklər bağlanacaq. Onların Rəbbi onlara tərtəmiz şərab içirdəcəkdir.*
>
> **(İnsan surəsi, 21)**

> *Həqiqətən də, Allah iman gətirib yaxşı işlər görənləri ağacları altından çaylar axan Cənnət bağlarına daxil edəcəkdir. Onlar orada qızıl bilərziklərlə və incilərlə bəzədiləcək, libasları da ipəkdən olacaqdır.*
>
> **(Həcc surəsi, 23)**

> *onlara səbir etdiklərinə görə Cənnəti bəxş edər və orada geyəcəkləri ipəklə mükafatlandırar.*
>
> **(İnsan surəsi, 12)**

> *Onlar Ədn bağlarına daxil olacaq, orada qızıl bilərziklərlə və incilərlə bəzədiləcəklər. Libasları da ipəkdən olacaqdır.*
>
> **(Fatir surəsi, 33)**

Cənnətdəki yemək və içkilər

> *Onlara möhürlü şərabdan içirdiləcəkdir.*
>
> **(Mutaffifin surəsi, 25)**

> *Onun möhürü müşkdür. Qoy çalışanlar onun üçün səy göstərsinlər!*
>
> **(Mutaffifin surəsi, 26)**

Müttəqilərə vəd olunan Cənnətin vəsfi belədir; orada xarab olmayan sudan çaylar, dadı dəyişməyən süddən çaylar, içənlərə ləzzət verən şərabdan çaylar və süzülmüş baldan çaylar vardır. Orada onları hər cür meyvə və Rəbbi tərəfindən bağışlanma gözləyir. Məgər onlar od içində əbədi qalan və bağırsaqlarını parça-parça edən qaynar su içirdiləcək kimsələr kimi ola bilərlərmi?

(Məhəmməd surəsi, 15)

çoxlu meyvələr,

(Vaqiə surəsi, 32)

tükənməz və qadağan edilməyən meyvələr içində

(Vaqiə surəsi, 33)

Onlar tikansız sidr ağacları arasında,

(Vaqiə surəsi, 28)

meyvələri salxım-salxım asılmış banan ağacları altında,

(Vaqiə surəsi, 29)

> *çeşmə şərabı ilə dolu badələr, bardaqlar və qədəhlərlə –*
>
> **(Vaqiə surəsi, 18)**

> *ondan başları ağrımaz və məst olmazlar,*
>
> **(Vaqiə surəsi, 19)**

> *bəyənib seçdikləri meyvələr*
>
> **(Vaqiə surəsi, 20)**

> *və istədikləri quş əti ilə hərlənəcəklər.*
>
> **(Vaqiə surəsi, 21)**

> *Onlar üçün çeşmə şərabı ilə dolu piyalələr dolandırılacaqdır.*
>
> **(Saffat surəsi, 45)**

> *Əzü də ağappaq, içənlərə ləzzət verən bir şərab.*
>
> **(Saffat surəsi, 46)**

> *O şərab nə baş ağrısı verər, nə də ondan məst olarlar.*
>
> **(Saffat surəsi, 47)**

Cənnət meyvələri. Onlara ehtiram göstəriləcəkdir –

(Saffat surəsi, 42)

Sözsüz ki, itaətkarlar kafur qatılmış şərabla dolu badələrdən nuş edəcəklər.

(İnsan surəsi, 5)

Bu elə bir bulaqdır ki, Allahın qulları ondan doyunca içər və onun mənsəbini istədikləri səmtə yönəldərlər.

(İnsan surəsi, 6)

düzülmüş piyalələr,

(Ğaşiyə surəsi, 14)

Həmçinin bağlar və üzümlüklər,

(Nəbə surəsi, 32)

Onlar əyinlərinə taftadan və atlazdan yaşıl paltarlar geyəcəklər. Onların qoluna gümüş bilərziklər bağlanacaq. Onların Rəbbi onlara tərtəmiz şərab içirdəcəkdir.

(İnsan surəsi, 21)

Cənnət ağaclarının kölgələri özləri onlara yaxınlaşacaq, meyvələri də tam onların ixtiyarına veriləcək.

(İnsan surəsi, 14)

Onların ətrafına təamlarla dolu gümüşdən hazırlanmış qablar və büllur qədəhlər dolandırılacaq.

(İnsan surəsi, 15)

Gümüşdən olan elə büllur qədəhlər ki, xidmətçilər onları cənnətdəkilərin içmək istədikləri həcmdə hazırlamışlar.

(İnsan surəsi, 16)

Orada onlara zəncəfil qatılmış şərab badəsi içirdiləcək.

(İnsan surəsi, 17)

İkisində də cürbəcür meyvələr, xurma ağacları və nar vardır.

(Rəhman surəsi, 68)

və ləbələb doldurulmuş qədəhlər də vardır!

(Nəbə surəsi, 34)

Cənnətdə insanın nəfsinin istədiyi hər şey vardır

> *Özlərinə bir dəlil gəlmədən Allahın ayələri barəsində mübahisə edənlər həm Allah yanında, həm də iman gətirənlərin yanında ancaq böyük bir nifrət artırır. Allah hər bir təkəbbürlü zülmkarın qəlbini belə möhürləyir.*
>
> **(Mümin surəsi, 35)**

> *Onlar üçün qızıl sinilər və piyalələr dolandırılacaqdır. Orada nəfslərin istədiyi və gözlərə xoş gələn hər şey olacaqdır. Siz orada əbədi qalacaqsınız.*
>
> **(Zuxruf surəsi, 71)**

> *Onlar deyəcəklər: "Bizə verdiyi vədini yerinə yetirən və bizi bu yerə varis edən Allaha həmd olsun! Biz Cənnətin istədiyimiz yerində sakin oluruq. Yaxşı əməl sahiblərinin mükafatı necə də gözəldir!"*
>
> **(Zumər surəsi, 74)**

> *Zalımların qazandıqları günahlar özlərinə qarşı çevrildikdə onları bunun qorxusundan titrəyən görəcəksən. İman gətirib yaxşı işlər görənlər isə Cənnət bağçalarında məskunlaşacaqlar. Rəbbinin yanında onlar üçün istədikləri hər şey hazırlanmışdır. Böyük lütfkarlıq da elə budur.*
>
> **(Şura surəsi, 22)**

> *Onlar onun xışıltısını belə eşitməyəcəklər. Onlar ürəklərinin istədiyi şeylər arasında əbədi qalacaqlar.*
>
> **(Ənbiya surəsi, 102)**

Orada möminlərə böyük bir nemət verilər

> *Nəim bağlarında.*
>
> **(Saffat surəsi, 43)**

> *O gün neçəsinin üzündə fərəh görünəcək,*
>
> **(Ğaşiyə surəsi, 8)**

Xoşbəxtlik və hüzur dolu bir həyat vardır

Sən onların çöhrəsində səadət parlaqlığı görəcəksən.

(Mutaffifin surəsi, 24)

və sevincək öz ailəsinə qayıdacaqdır!

(İnşiqaq surəsi, 9)

Bunun əvəzində Allah da onları həmin günün şərindən qoruyar və onlara gözəllik və sevinc nəsib edər;

(İnsan surəsi, 11)

O gün neçə-neçə üzlər nurlanacaq

(Qiyamət surəsi, 22)

və öz Rəbbinə baxacaqdır.

(Qiyamət surəsi, 23)

İman gətirib yaxşı işlər görənlərə gəlincə isə, onlar Cənnət bağçalarında şadlıq içində olacaqlar.

(Rum surəsi, 15)

Ü gün neçəsinin üzündə fərəh görünəcək,

(Ğaşiyə surəsi, 8)

dünyadakı səylərindən məmnun qalacaq,

(Ğaşiyə surəsi, 9)

Ancaq Allaha tövbə edib iman gətirənlər və xeyirxahlıq edənlərdən başqa! Onlar Cənnətə daxil olacaq və heç bir haqsızlığa məruz qalmayacaqlar.

(Məryəm surəsi, 60)

Allah onları razı qalacaqları yerə daxil edəcəkdir. Həqiqətən, Allah Biləndir, Həlimdir!

(Həcc surəsi, 59)

O, xoşbəxt həyat sürəcəkdir –

(Haqqə surəsi, 21)

Təhlükəsizlik vardır

Sizi bizə yaxınlaşdıra biləcək nə var-dövlətiniz, nə də oğul-uşağınızdır. Ancaq iman gətirib yaxşı işlər görənlər istisnadır. Məhz onların mükafatları etdikləri əməllərə görə qat-qat artırılacaq və onlar Cənnətdəki mənzillərində asudə yaşayacaqlar.

(Səba surəsi, 37)

Kin və nifrət yoxdur

Biz onların köksündəki kin-küdurəti çıxarıb kənar etdik. Onlar taxtlar üzərində qarşı-qarşıya əyləşən qardaşlar olacaqlar.

(Hicr surəsi, 47)

Biz onların köksündəki kin-küdurəti çıxaracağıq. Onların ayaqları altından çaylar axacaq. Onlar deyəcəklər: "Bizi buna qovuşduran Allaha həmd olsun! Əgər Allah bizə hidayət etməsəydi, biz özümüz doğru yola yönələ bilməzdik. Əlbəttə, Rəbbimizin elçiləri haqqı gətirmişdilər". Onlara belə xitab ediləcəkdir: "Əməlləriniz sayəsində varis olduğunuz Cənnət budur!"

(Əraf surəsi, 43)

Boş danışıq və yalan yoxdur

> *Onlar orada nə boş söz, nə də günaha səbəb olan söhbət eşidəcəklər.*
>
> **(Vaqiə surəsi, 25)**

> *Ancaq: "Salam! Salam!" – sözləri eşidəcəklər.*
>
> **(Vaqiə surəsi, 26)**

> *Onlar orada nə mənasız sözlər, nə də iftira eşidəcəklər.*
>
> **(Nəbə surəsi, 35)**

> *orada faydasız söz eşitməyəcəkdir.*
>
> **(Ğaşiyə surəsi, 11)**

Yorğunluq və sıxıntı yoxdur

> *Öz lütfü ilə bizi əbədi iqamətgahda yerləşdirən Odur. Orada bizə nə bir yorğunluq üz verəcək, nə də bir üzgünlük toxunacaqdır!"*
>
> **(Fatir surəsi, 35)**

Onlara orada heç bir yorğunluq toxunmayacaq və onlar oradan çıxarılmayacaqlar.

(Hicr surəsi, 48)

Qorxu və kədər yoxdur

Ey Adəm oğulları! Sizə aranızdan elçilər gəlib ayələrimi bəyan edərkən Məndən qorxub öz əməllərini islah edən şəxslərin heç bir qorxusu yoxdur və onlar kədərlənməyəcəklər.

(Əraf surəsi, 35)

Şübhəsiz ki, möminlərin, yəhudi, nəsrani və sabiilərdən Allaha və Axirət gününə iman gətirənlərin və yaxşı iş görənlərin mükafatı öz Rəbbi yanındadır. Onlara heç bir qorxu yoxdur və onlar kədərlənməyəcəklər.

(Bəqərə surəsi, 62)

Onlar Allahın Öz lütfündən onlara verdiyi nemətlərə sevinir, arxalarınca gəlib hələ onlara çatmamış kəslərin heç bir qorxu ilə qarşılaşmayacaqlarına və onların kədərlənməyəcəklərinə fərəhlənirlər.

(Ali İmran surəsi, 170)

> *Onlar deyəcəklər: "Qəm-qüssəni bizdən uzaq edən Allaha həmd olsun! Həqiqətən, Rəbbimiz Bağışlayandır, şükürün əvəzini verəndir.*
>
> **(Fatir surəsi, 34)**

Gözəl üzlü və gözəl xasiyyətli zövcələr vardır

> *Orada xoş xasiyyətli, gözəl qızlar vardır.*
>
> **(Rəhman surəsi, 70)**

> *Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız?*
>
> **(Rəhman surəsi, 71)**

> *Çadırlarda gözlərini öz ərlərinə dikmiş hurilər vardır.*
>
> **(Rəhman surəsi, 72)**

> *İman gətirib saleh əməllər edənlərə müjdə ver ki, onlar üçün ağacları altından çaylar axan Cənnət bağları vardır. Hər dəfə onun meyvələrindən onlara ruzi verildikcə: "Bu ki, əvvəlcə bizə verilən ruzidir!" – deyəcəklər. Halbuki onlara onun oxşarı veriləcəkdir. Onlardan ötrü orada pak zövcələr var və onlar orada əbədi qalacaqlar.*
>
> **(Bəqərə surəsi, 25)**

> *Onların yanında baxışları öz ərlərinə dikilmiş iri qaragözlü hurilər olacaqdır.*
>
> **(Saffat surəsi, 48)**

> *Onları iri qaragözlü hurilər gözləyir –*
>
> **(Vaqiə surəsi, 22)**

> *sədəf içində saxlanılmış mirvariyə bənzər hurilər.*
>
> **(Vaqiə surəsi, 23)**

> *Bax belə! Üstəlik onları iri qaragözlü hurilərlə də evləndirəcəyik.*
>
> **(Duxan surəsi, 54)**

> *Biz Cənnətdəki qadınları yeni biçimdə yaradacağıq.*
>
> **(Vaqiə surəsi, 35)**

> *Onları bakirə qızlar edəcəyik –*
>
> **(Vaqiə surəsi, 36)**

> *ərlərini sevən, həmyaşıdlar.*
>
> **(Vaqiə surəsi, 37)**

Cənnət əhli gənc və yaşıddır

> *Onları bakirə qızlar edəcəyik –*
>
> **(Vaqiə surəsi, 36)**

> *ərlərini sevən, həmyaşıdlar.*
>
> **(Vaqiə surəsi, 37)**

> *Onların ətrafında həmişə gənc olan xidmətçi cavanlar dolanacaqlar. Onları gördükdə səpələnmiş mirvari dənələri olduqlarını sanarsan.*
>
> **(İnsan surəsi, 19)**

Cənnətə girənlər qurtuluşa çatmışlar

> *Hər bir kəs ölümü dadacaqdır. Lakin Qiyamət günü mükafatlarınız sizə tam veriləcəkdir. Kim Oddan uzaqlaşdırılıb, Cənnətə daxil edilərsə, o uğur qazanmış olar. Dünya həyatı isə aldadıcı ləzzətdən başqa bir şey deyildir.*
>
> **(Ali İmran surəsi, 185)**

> *Bu təqdirdə O sizin günahlarınızı bağışlayar və sizi ağacları altından çaylar axan Cənnət bağlarına və Ədn bağlarındakı gözəl məskənlərə daxil edər. Bu, böyük müvəffəqiyyətdir.*
>
> **(Saff surəsi, 12)**

> *Şübhəsiz ki, iman gətirib yaxşı işlər görənlər üçün ağacları altından çaylar axan Cənnət bağları vardır. Bu, böyük müvəffəqiyyətdir.*
>
> **(Büruc surəsi, 11)**

> *O gün sən mömin kişilərin və mömin qadınların nurunun onların önlərindən və sağ tərəflərindən yayıldığını görəcəksən. Onlara: "Bu gün sizin müjdəniz ağacları altından çaylar axan Cənnət bağlarıdır. Siz orada əbədi qalacaqsınız!" – deyiləcək. Bu, böyük uğurdur.*
>
> **(Hədid surəsi, 12)**

Quranda qadın ilə kişi bərabərdir

> *Murdar qadınlar murdar kişilərə, murdar kişilər isə murdar qadınlara, eləcə də təmiz qadınlar təmiz kişilərə, təmiz kişilər də təmiz qadınlara layiqdirlər. Bunlar iftiraçıların söylədiklərindən uzaqdırlar. Onları bağışlanma və bolluca ruzi gözləyir.*
>
> **(Nur surəsi, 26)**

Şübhəsiz ki, sədəqə verən kişi və sədəqə verən qadınlar və Allaha gözəl borc verənlər üçün əvəzi qat-qat artırılacaqdır. Onlar üçün çox dəyərli bir mükafat da vardır.

(Hədid surəsi, 18)

Mömin olaraq yaxşı iş görən kişi və qadınlara, əlbəttə, gözəl həyat bəxş edəcək və etdikləri ən yaxşı əməllərə görə onları mütləq mükafatlandıracağıq.

(Nəhl surəsi, 97)

Ey Rəbbim! Məni, valideynlərimi, evimə mömin kimi daxil olanları və bütün mömin kişi və qadınları bağışla! Zülmkarların isə ancaq həlakını artır".

(Nuh surəsi, 28)

Həqiqətən, müsəlman kişilər və müsəlman qadınlar, mömin kişilər və mömin qadınlar, müti kişilər və müti qadınlar, doğru danışan kişilər və doğru danışan qadınlar, səbirli kişilər və səbirli qadınlar, Allaha baş əyən kişilər və baş əyən qadınlar, sədəqə verən kişilər və sədəqə verən qadınlar, oruc tutan kişilər və oruc tutan qadınlar, ismətlərini qoruyan kişilər və ismətlərini qoruyan qadınlar, Allahı çox zikr edən kişilər və qadınlar üçün Allah bağışlanma və böyük mükafat hazırlamışdır.

(Əhzab surəsi, 35)

Allah və Onun Elçisi bir işə hökm verdiyi zaman heç bir mömin kişi və mömin qadın öz işlərində istədikləri qərarı verə bilməzlər. Allaha və Onun Elçisinə asi olan kəs, əlbəttə ki, açıq-aydın azğınlığa düşmüşdür.

(Əhzab surəsi, 36)

Mömin kişiləri və mömin qadınları etmədikləri bir işdən ötrü günahlandıranlar, sözsüz ki, öz üzərilərinə böhtanla bərabər açıq-aydın ağır bir yük götürmüşlər.

(Əhzab surəsi, 58)

Mömin kişilərlə mömin qadınlar bir-birinin dostlarıdır. Onlar insanlara yaxşı işlər görməyi buyurur, pis əməllərə qadağa qoyur, namaz qılır, zəkat verir, Allaha və Onun Elçisinə itaət edirlər. Allah onlara rəhm edəcəkdir. Həqiqətən, Allah Qüdrətlidir, Müdrikdir.

(Tövbə surəsi, 71)

Allah mömin kişilərə və mömin qadınlara ağacları altından çaylar axan, içində əbədi qalacaqları Cənnət bağları və Ədn bağlarında gözəl məskənlər vəd etmişdir. Allahın razılığı isə daha böyükdür. Bu, böyük uğurdur.

(Tövbə surəsi, 72)

Bil ki, Allahdan başqa ibadətə layiq olan heç bir məbud yoxdur. Sən həm öz günahlarının, həm də mömin kişilərlə mömin qadınların bağışlanmasını dilə. Allah gəzib-dolaşdığınız yeri də, gecələyəcəyiniz məskəni də bilir.

(Məhəmməd surəsi, 19)

Həm kişilərdən, həm də qadınlardan mömin olaraq yaxşı işlər görənlər Cənnətə girərlər və onlara xurma çərdəyinin qırıntısı qədər haqsızlıq edilməz.

(Nisa surəsi, 124)

Bu əmanət insana ona görə verildi ki, Allah münafiq kişiləri və münafiq qadınları, müşrik kişiləri və müşrik qadınları cəzalandırsın, mömin kişilərin və mömin qadınların tövbələrini qəbul etsin. Allah Bağışlayandır, Rəhmlidir.

(Əhzab surəsi, 73)

O gün sən mömin kişilərin və mömin qadınların nurunun onların önlərindən və sağ tərəflərindən yayıldığını görəcəksən. Onlara: "Bu gün sizin müjdəniz ağacları altından çaylar axan Cənnət bağlarıdır. Siz orada əbədi qalacaqsınız!" – deyiləcək. Bu, böyük uğurdur.

(Hədid surəsi, 12)

> *Kim pis bir iş tutsa, o ancaq işinin həddi qədər cəza alar. Mömin olmaqla bərabər, yaxşı iş görən kişilər və qadınlar Cənnətə daxil olub orada hesabsız ruziyə nail olarlar.*
>
> **(Mümin surəsi, 40)**

> *Allahın birinizi digərinizdən üstün etdiyi şeyə tamah salmayın. Kişilərin qazandıqlarından öz nəsibi, qadınların da qazandıqlarından öz nəsibi vardır. Allahdan, Onun lütfünü diləyin. Həqiqətən, Allah hər şeyi Biləndir.*
>
> **(Nisa surəsi, 32)**

CƏHƏNNƏM

Kimlər cəhənnəmə girəcəkdir

> *O kəslər ki, mömin kişi və qadınları yandırmaqla sınağa çəkmiş, sonra da tövbə etməmişlər, onlara Cəhənnəm əzabı və onları yandırıb-yaxacaq od əzabı hazırlanmışdır.*
>
> **(Büruc surəsi, 10)**

> *Onlardan kimsə: "Mən Ondan başqa bir məbudam!" – desə, ona Cəhənnəmi qismət edərik. Biz zalımları belə cəzalandırırıq.*
>
> **(Ənbiya surəsi, 29)**

Həqiqətən, Kitab əhlindən və müşriklərdən inkar edənlərin məskəni Cəhənnəm odu olacaq və orada əbədi qalacaqlar. Onlar məxluqatın ən pisləridir.

(Beyyinə surəsi, 6)

Ayələrimizi qüvvədən salmağa cəhd göstərənlər isə əzaba giriftar ediləcəklər.

(Səba surəsi, 38)

Kafir olanlara, insanları həm Allah yolundan, həm də bütün insanlar – istər yerlilər, istərsə də gəlmələr – üçün qurduğumuz Məscidulharamdan sapdıranlara və orada zülm etməklə haqdan dönmək istəyənlərə ağrılı-acılı bir əzab daddıracağıq.

(Həcc surəsi, 25)

Möminlər barəsində iyrənc şayiələrin yayılmasını istəyənlər üçün dünyada və axirətdə acılı-ağrılı bir əzab vardır. Allah bilir, siz isə bilmirsiniz.

(Nur surəsi, 19)

Ayələrimizi yalan sayıb onlara təkəbbürlüklə yanaşanlar isə Od sakinləridirlər. Onlar orada əbədi qalacaqlar.

(Əraf surəsi, 36)

Şübhəsiz ki, Aişə barəsində yalan xəbər gətirənlər özünüzdən olan bir dəstədir. Onu özünüz üçün pis bir şey hesab etməyin. Əksinə, bu sizin üçün xeyirlidir. O dəstədən olan hər bir şəxsin qazandığı günahın cəzası vardır. İçərilərindən günahın böyüyünü öz üstünə götürəni isə böyük bir əzab gözləyir.

(Nur surəsi, 11)

Kim Rəbbinin hüzuruna günahkar kimi gələrsə, cəhənnəmlik olar. O, orada nə ölər, nə də yaşayar.

(Taha surəsi, 74)

Kafirlər üçün hazırlanmış Oddan çəkinin.

(Ali İmran surəsi, 131)

İnsanlar arasında elələri də var ki, heç bir biliyi olmadan başqalarını Allah yolundan sapdırmaq və Allahın ayələrini lağa qoymaq üçün boş-boş sözləri satın alırlar. Məhz onları alçaldıcı bir əzab gözləyir.

(Loğman surəsi, 6)

Gizli söhbət qadağan ediləndən sonra yenə də qadağan olunmuş əmələ qayıdıb günah, düşmənçilik və Peyğəmbərə qarşı çıxmaq barədə öz aralarında xısın-xısın danışanları görmədinmi? Onlar sənin yanına gəldikdə səni Allahın salamladığı kimi salamlamır və öz-özlərinə: "Bəs niyə Allah bizi dediklərimizə görə cəzalandırmır?" – deyirlər. Cəhənnəm onlara yetər. Onlar orada yanacaqlar. Ora necə də pis dönüş yeridir.

(Mücadilə surəsi, 8)

Vay halına iftiraçının və günahkarın!

(Casiyə surəsi, 7)

O, Allahın ona oxunan ayələrini eşidir və sonra, sanki onları eşitməmiş kimi təkəbbür göstərərək inadkarlıq edir. Beləsini ağrılı-acılı bir əzabla müjdələ.

(Casiyə surəsi, 8)

O, ayələrimizdən bir şey öyrəndiyi zaman ona lağ edir. Məhz belələri üçün alçaldıcı bir əzab vardır.

(Casiyə surəsi, 9)

Sən Qiyamət günü Allaha qarşı yalan uyduranların üzlərini qapqara görəcəksən. Məgər Cəhənnəmdə təkəbbürlülər üçün yer yoxdur?

(Zumər surəsi, 60)

Ayələrimizi qüvvədən salmağa cəhd göstərənlər isə əzaba giriftar ediləcəklər.

(Səba surəsi, 38)

Allah buyurdu: "Oradan mənfur və qovulmuş halda çıx! Onlardan hər kəs sənin ardınca getsə, əlbəttə, Cəhənnəmi sizin hamınızla dolduracağam.

(Əraf surəsi, 18)

Sələm yeyənlər qəbirlərindən şeytan toxunub dəli eləmiş kimsənin qalxdığı kimi qalxarlar. Bu onların: "Alış-veriş də sələmçilik kimidir!" – demələrinə görədir. Halbuki, Allah alış-verişi halal, sələmçiliyi isə haram etmişdir. Hər kim özünə Rəbbindən xəbərdarlıq gəldikdən sonra sələmçiliyə son qoyarsa, olub-keçənlər ona bağışlanar və onun işi Allaha qalar. Sələmçiliyə qayıdanlar isə Od sakinləridirlər. Onlar orada əbədi qalacaqlar.

(Bəqərə surəsi, 275)

Şübhəsiz ki, Allah Məryəm oğlu Məsihdir" – deyənlər artıq kafir oldular. Məsih isə demişdir: "Ey İsrail oğulları! Rəbbim və Rəbbiniz olan Allaha ibadət edin! Həqiqətən də, Allaha şərik qoşan kimsəyə, Allah Cənnəti haram etmiş və onun sığınacağı yer Oddur. Zalımlara kömək edən olmayacaqdır".

(Maidə surəsi, 72)

Ey iman gətirənlər! Baş keşişlərdən və rahiblərdən çoxu insanların mallarını haqsız olaraq yeyir və onları Allah yolundan döndərirlər. Qızıl-gümüş yığıb onları Allah yolunda sərf etməyənləri ağrılı-acılı bir əzabla müjdələ.

(Tövbə surəsi, 34)

Mələklər özlərinə zülm edənlərin canlarını alarkən onlara: "Siz nə halda idiniz?" – deyəcəklər. Onlar: "Biz yer üzündə zəif insanlar idik!" – deyəcəklər. Mələklər də onlara: "Məgər Allahın torpağı o qədər geniş deyildimi ki, siz orada hicrət edəydiniz?" – deyəcəklər. Onların sığınacaqları yer Cəhənnəmdir. Ora nə pis dönüş yeridir.

(Nisa surəsi, 97)

Hər kəs qəsdən bir mömini öldürərsə, onun cəzası içərisində əbədi qalacağı Cəhənnəmdir. Allah ona qəzəblənər, onu lənətləyər və onun üçün böyük bir əzab hazırlayar.

(Nisa surəsi, 93)

Hər kəs doğru yol ona bəlli olduqdan sonra Peyğəmbərə qarşı çıxsa və möminlərin yolundan başqa bir yolla getsə, onu üz tutduğu yola yönəldər və Cəhənnəmdə yandırarıq. Ora nə pis dönüş yeridir.

(Nisa surəsi, 115)

Ey iman gətirənlər! Qarşılıqlı razılıqla aparılan ticarət istisna olmaqla mallarınızı öz aranızda haqsız yerə yeməyin və bir-birinizi məhv etməyin. Həqiqətən, Allah sizə qarşı Rəhmlidir.

(Nisa surəsi, 29)

Kim bu əməlləri düşmənçilik və zülm etməklə yerinə yetirərsə, Biz onu odda yandıracağıq. Bu da Allah üçün asandır.

(Nisa surəsi, 30)

> *‘Öyrətdikləri əməllərdən fərəhlənən və etmədikləri işlərə görə tərif olunmağı xoşlayan kimsələrin əzabdan qurtulacaqlarını əsla güman etmə. Onlara acılı-ağrılı bir əzab hazırlanmışdır.*
>
> **(Ali İmran surəsi, 188)**

> *Özlərinə aydın dəlillər gəldikdən sonra firqələrə ayrılıb ixtilaf edənlər kimi olmayın. Onları böyük bir əzab gözləyir.*
>
> **(Ali İmran surəsi, 105)**

> *Dinlərini oyun və əyləncə sayanları və dünya həyatının aldatdığı şəxsləri tərk et. Bununla xatırlat ki, heç kəs qazandıqlarına görə özünü məhvə məhkum etməsin. Allahdan başqa onun nə bir hamisi, nə də bir havadarı olacaqdır. O nə cür fidyə versə də, ondan qəbul olunmayacaq. Onlar qazandıqları günahlara görə məhvə məhkum olanlardır. Kafir olduqlarına görə onlar üçün qaynar içki və ağrılı-acılı bir əzab hazırlanmışdır.*
>
> **(Ənam surəsi, 70)**

> *Ona: “Allahdan qorx!” – deyildikdə, lovğalıq onu daha da günaha sürükləyər. Ona Cəhənnəm kifayət edər. Ora nə pis yataqdır!*
>
> **(Bəqərə surəsi, 206)**

Şübhəsiz ki, Allahın nazil etdiyi kitabda olanları gizli saxlayanlar və bununla cüzi miqdarda pul əldə edənlər öz qarınlarına oddan başqa bir şey doldurmurlar. Qiyamət günü Allah onları danışdırmaz və onları təmizə çıxarmaz. Onlar üçün ağrılı-acılı bir əzab vardır.

(Bəqərə surəsi, 174)

Kafir olub ayələrimizi yalan sayanlar isə Cəhənnəm sakinləridirlər.

(Maidə surəsi, 10)

Həqiqətən, yetimlərin mallarını haqsızlıqla yeyənlər öz qarınlarına ancaq od doldururlar və onlar yandırıb-yaxan oda girəcəklər.

(Nisa surəsi, 10)

Səndən haram ayında vuruşmaq barəsində soruşurlar. De: "Bu ayda vuruşmaq böyük günahdır. Lakin insanları Allah yolundan sapdırmaq, Onu inkar etmək, müsəlmanları Məscidulharama buraxmamaq və onun sakinlərini oradan çıxartmaq Allah yanında daha böyük günahdır. Fitnə isə qətldən də böyük günahdır". Kafirlər bacarsalar, sizi dininizdən döndərənə qədər sizinlə vuruşmaqdan əl çəkməyəcəklər. Sizlərdən hər kim dinindən dönüb kafir olaraq ölsə, onun əməlləri dünyada və axirətdə puça çıxar. Onlar Od sakinləridirlər və orada əbədi qalacaqlar.

(Bəqərə surəsi, 217)

İnsanlardan elələri də vardır ki, Allahdan qeyrilərini Ona tay tutur, onları da Allahı sevdikləri kimi sevirlər. İman gətirənlərin isə Allaha olan sevgisi daha güclüdür. Kaş zülm edənlər əzabı gördükləri zaman bütün qüdrət və qüvvətin Allaha məxsus olduğunu və Allahın şiddətli əzab verdiyini görəydilər.

(Bəqərə surəsi, 165)

Siz o kəslərsiniz ki, bir-birinizi öldürürsünüz, özünüzdən olan bir dəstəni öz yurdundan çıxarırsınız, onlara qarşı pislik və düşmənçilik etməkdə bir-birinizə kömək edirsiniz. Onlar əsir tutulub yanınıza gətiriləndə, fidyə verib onları azad edirsiniz. Halbuki onları yurdlarından çıxartmaq sizə haram edilmişdi. Yoxsa siz Kitabın bir qisminə inanıb, digər qismini inkarmı edirsiniz? Sizlərdən bunu edənin cəzası dünya həyatında rüsvay olmaq, Qiyamət günü isə ən şiddətli əzaba məhkum olmaqdır. Allah sizin etdiklərinizdən bixəbər deyildir.

(Bəqərə surəsi, 85)

Xeyr! Günah qazanan və xətaları özlərini bürüyən kimsələr – məhz onlar Od sakinləridir və orada əbədi qalacaqlar!

(Bəqərə surəsi, 81)

Ayələrimizi inkar edib: “Mənə hökmən var-dövlət və övlad veriləcəkdir!” – deyən adamı gördünmü?

(Məryəm surəsi, 77)

Olmaya, o, qeybdən xəbərdardır, yoxsa Mərhəmətli Allahdan vədə almışdır?

(Məryəm surəsi, 78)

Xeyr! Biz onun dediklərini yazacaq və əzabını qat-qat artıracağıq.

(Məryəm surəsi, 79)

və alovlu oda atılacaqdır!

(İnşiqaq surəsi, 12)

Sözsüz ki, o, dünyada ikən öz ailəsində sevinc içində idi

(İnşiqaq surəsi, 13)

və elə güman edirdi ki, Rəbbinin hüzuruna qayıtmayacaqdır.

(İnşiqaq surəsi, 14)

Allahın ayələrini inkar edənləri, peyğəmbərləri haqsız yerə öldürənləri və ədalətə çağıran insanları öldürənləri ağrılı-acılı bir əzabla müjdələ.

(Ali İmran surəsi, 21)

Bunlar Rəbbinin sənə vəhy etdiyi hikmətdəndir. Allahla yanaşı başqa məbuda ibadət etmə, yoxsa qınanmış və qovulmuş halda Cəhənnəmə atılarsan.

(İsra surəsi, 39)

Allahın məscidlərində Onun adının zikr edilməsinə maneçilik törədənlərdən və onların viranə qalmasına çalışanlardan daha zalım kim ola bilər? Əslində onlar oraya qorxa-qorxa daxil olmalı idilər. Onlar üçün dünyada rüsvayçılıq, axirətdə isə böyük bir əzab vardır.

(Bəqərə surəsi, 114)

Dilinizin uydurduğu yalana əsasən: "Bu halaldır, o haramdır!" – deməyin, çünki Allaha qarşı yalan uydurmuş olursunuz. Şübhəsiz ki, Allaha qarşı yalan uyduranlar nicat tapmazlar.

(Nəhl surəsi, 116)

İndi onlar az bir mənfəət əldə etmişlər, axirətdə isə onları ağrılı-acılı bir əzab gözləyir.

(Nəhl surəsi, 117)

Kim gəldi-gedər dünyanı istəsə, orada ona – dilədiyimiz kimsəyə istədiyimiz şeyləri dərhal verərik. Sonra isə onu qınanmış və Allahın rəhmətindən qovulmuş halda girəcəyi Cəhənnəmə atarıq.

(İsra surəsi, 18)

Rəbbiniz dedi: "Mənə dua edin, Mən də sizə cavab verim. Həqiqətən, Mənə ibadət etməyə təkəbbür göstərənlər Cəhənnəmə zəlil olaraq girəcəklər".

(Mümin surəsi, 60)

Qəlbi imanla sabit qaldığı halda haqqı danmağa məcbur edilən kəslər istisna olmaqla, kim iman gətirdikdən sonra Allahı inkar etsə və qəlbini küfrə açsa, Allahın qəzəbinə düçar olar. Onlar üçün böyük bir əzab vardır.

(Nəhl surəsi, 106)

Alçaq hiylələrə əl atanlar Allahın onları yerə batırmayacağına və yaxud gözləmədikləri bir yerdən əzabın onlara gəlməyəcəyinə əmindirlərmi?

(Nəhl surəsi, 45)

Heç olmasa, sizdən əvvəlki nəsillərdə yer üzündə fitnə-fəsad törətməyi qadağan edən ağıl və hikmət sahibləri olaydı. Onlardan yalnız xilas etdiyimiz az bir qismi belə idi. Zülm edənlər isə onlara verilmiş dünyanın ləzzətinə uydular və günahkar oldular.

(Hud surəsi, 116)

Ey iman gətirənlər! Kafirlərlə döyüş meydanında qarşılaşsanız, arxanızı onlara çevirməyin.

(Ənfal surəsi, 15)

Daha bir döyüş əməliyyatı keçirmək üçün bir tərəfə çəkilən və ya başqa bir dəstəyə qoşulanlar istisna olmaqla, kim belə bir gündə onlara arxa çevirərsə, Allahın qəzəbinə düçar olar. Onun sığınacağı yer Cəhənnəmdir. Ora necə də pis dönüş yeridir.

(Ənfal surəsi, 16)

Rəbbinin dəvətini qəbul edənlər üçün ən gözəl nemət (Cənnət) hazırlanmışdır. Onun dəvətini qəbul etməyənlərə gəlincə, yer üzündə olan var-dövlətin hamısı, üstəlik bir o qədəri də onların olsaydı, əzabdan qurtarmaq üçün onu mütləq fidyə verərdilər. Onlarla dəhşətli bir haqq-hesab çəkiləcəkdir. Onların sığınacaqları yer Cəhənnəmdir. Ora nə pis yataqdır!

(Rad surəsi, 18)

Allaha qarşı yalan uyduran kəsdən daha zalım kim ola bilər? Onlar Rəbbinin hüzuruna gətiriləcək və şahidlər: "Bunlar Rəbbinə iftira yaxanlardır" – deyəcəklər. Allahın lənəti olsun zalımlara!

(Hud surəsi, 18)

O kəslərə ki, insanları Allah yolundan sapdırır, onu əyri göstərməyə çalışır və Axirəti inkar edirlər.

(Hud surəsi, 19)

Onlar yer üzündə Allahdan yaxa qurtara bilməyəcəklər. Onların Allahdan başqa himayədarları da yoxdur. Onların əzabı qat-qat artırılar. Çünki onlar haqqı eşidə bilmirdilər və görmürdülər.

(Hud surəsi, 20)

Əgər təəccüblənirsənsə, onların: "Doğrudanmı biz torpaq olduqdan sonra yenidən yaradılacağıq?" sözünə təəccüblən. Onlar Rəbbini inkar edənlərdir. Onlar boyunlarında qandallar olanlardır. Onlar Od sakinləridirlər və orada əbədi qalacaqlar.

(Rad surəsi, 5)

Məgər bilmirdilərmi ki, Allaha və Onun Elçisinə qarşı çıxanlar üçün içində əbədi qalacaqları Cəhənnəm odu vardır? Bu isə böyük rüsvayçılıqdır.

(Tövbə surəsi, 63)

Allah münafiq kişilərə, münafiq qadınlara və kafirlərə içərisində əbədi qalacaqları Cəhənnəm odu vəd etmişdir. Bu onlara kifayət edər! Allah onlara lənət etmişdir. Onlar üçün daimi bir əzab vardır.

(Tövbə surəsi, 68)

Şübhəsiz ki, Bizimlə qarşılaşacaqlarına ümid etməyənlər, dünya həyatından razı qalıb onunla rahatlıq tapanlar və ayələrimizdən xəbərsiz olanların –

(Yunis surəsi, 7)

məhz onların qazandıqları günahlara görə sığınacaqları yer Oddur.

(Yunis surəsi, 8)

Kafir olduqlarına, ayələrimi və elçilərimi lağlağıya qoyduqlarına görə onların cəzası Cəhənnəmdir.

(Kəhf surəsi, 106)

Onların bağışlanması üçün dua etsən də, etməsən də, hətta onlar üçün yetmiş dəfə bağışlanma diləsən belə, Allah onları əsla bağışlamayacaqdır. Çünki onlar Allahı və Onun Elçisini inkar etdilər. Allah günahkar insanları doğru yola yönəltməz.

(Tövbə surəsi, 80)

Bax belə! Şübhəsiz ki, azğınları da çox pis qayıdış yeri gözləyir –

(Sad surəsi, 55)

içində yanacaqları Cəhənnəm. Ora nə pis yataqdır!

(Sad surəsi, 56)

Möminlərdən könüllü surətdə sədəqə verənlərə və çətinliklə tapdıqlarını verənlərə eyib tutanları, onları məsxərəyə qoyanları, Allah məsxərəyə qoyacaqdır. Onları ağrılı-acılı bir əzab gözləyir.

(Tövbə surəsi, 79)

Şübhəsiz ki, ayələrimizi yalan sayanlara və onlara təkəbbürlüklə yanaşanlara göyün qapıları açılmayacaq və dəvə iynənin gözündən keçməyincə onlar Cənnətə girməyəcəklər. Biz günahkarları belə cəzalandırırıq.

(Əraf surəsi, 40)

Onların Cəhənnəm odundan yatağı və yorğanları olacaqdır. Biz zalımları belə cəzalandırırıq.

(Əraf surəsi, 41)

Allahla əhd bağladıqdan sonra onu pozan, Allahın qovuşdurulmasını əmr etdiyi şeyləri kəsən və yer üzündə fitnə-fəsad törədənlərə gəlincə, onlar üçün lənət və pis yurd vardır.

(Rad surəsi, 25)

Cəhənnəmə necə girəcəkdirlər

> *O gün onlar amansızcasına sürüdülərək Cəhənnəm oduna atılacaqlar.*
>
> **(Tur surəsi, 13)**

> *Günahkarlar simalarından tanınacaq, kəkillərindən və ayaqlarından yaxalanacaqlar.*
>
> **(Rəhman surəsi, 41)**

> *Kim gəldi-gedər dünyanı istəsə, orada ona – dilədiyimiz kimsəyə istədiyimiz şeyləri dərhal verərik. Sonra isə onu qınanmış və Allahın rəhmətindən qovulmuş halda girəcəyi Cəhənnəmə atarıq.*
>
> **(İsra surəsi, 18)**

> *o zaman ki, boyunlarında dəmir halqalar və zəncirlər olduğu halda sürüklənəcəklər –*
>
> **(Mümin surəsi, 71)**

İnkarçılar cəhənnəmin yanacağıdırlar

Yalnız Rəbbinin rəhm etdiyi şəxslərdən başqa. Allah onları bunun üçün yaratdı. Rəbbinin: "Mən Cəhənnəmi bütün günahkar cinlər və insanlarla dolduracağam!" Sözü yerinə yetəcək.

(Hud surəsi, 119)

Ey iman gətirənlər! Özünüzü və ailənizi yanacağı insanlar və daşlar olan oddan qoruyun! Onun başı üstündə Allahın onlara verdiyi əmrlərə heç vaxt asi olmayan, özlərinə buyurulanları yerinə yetirən amansız və güclü mələklər vardır.

(Təhrim surəsi, 6)

Əgər siz bunu edə bilmirsinizsə, – heç edə də bilməzsiniz – onda yanacağı insanlardan və daşlardan olan, kafirlər üçün hazırlanmış oddan çəkinin.

(Bəqərə surəsi, 24)

Ey kafirlər! Siz və Allahdan başqa tapındıqlarınız Cəhənnəm odunusunuz. Siz mütləq ora girəcəksiniz.

(Ənbiya surəsi, 98)

Kafir olanların nə malları, nə də övladları onlara Allahın hüzurunda heç bir şeylə fayda verə bilməz. Onlar Cəhənnəmin yanacağıdırlar.

(Ali İmran surəsi, 10)

Əgər Biz istəsəydik, hər kəsi doğru yola yönəldərdik. Lakin Mənim: "Cəhənnəmi mütləq bütün günahkar cin və insanlarla dolduracağam!" Sözüm yerinə yetəcək.

(Səcdə surəsi, 13)

Kafirlər üçün son dönüş yeridir

Olmaya, kafirlər Məni qoyub qullarımı özlərinə dost tutacaqlarını güman edirdilər? Həqiqətən, Biz Cəhənnəmi kafirlər üçün mənzil hazırlamışıq.

(Kəhf surəsi, 102)

Kafirlərə açıq-aydın ayələrimiz oxunduqda sən onların üzündə nifrət görərsən. Onlar az qalırlar ki, ayələrimizi onlara oxuyanların üstünə cumsunlar. De: "Sizə bundan daha pisini xəbər verimmi? Bu, Cəhənnəmdir! Allah onu kafirlərə vəd etmişdir. Ora nə pis qayıdış yeridir!"

(Həcc surəsi, 72)

> *O, həddi aşanların qayıdacağı yerdir.*
>
> **(Nəbə surəsi, 22)**

Qalınacaq ən pis yerdir

> *Haqqında heç bir dəlil nazil etmədiyi şeyi Allaha şərik qoşduqlarına görə, kafirlərin qəlblərinə qorxu salacağıq. Onların sığınacaqları yer Oddur. Zalımların məskunlaşacağı yer necə də pisdir!*
>
> **(Ali İmran surəsi, 151)**

> *Onlar Cəhənnəmə girəcəklər. Ora necə də pis yaşayış yeridir!*
>
> **(İbrahim surəsi, 29)**



Yağışı Allah endirir, onunla yeri dirildir

> *Hər kəs doğru yol ona bəlli olduqdan sonra Peyğəmbərə qarşı çıxsa və möminlərin yolundan başqa bir yolla getsə, onu üz tutduğu yola yönəldər və Cəhənnəmdə yandırarıq. Ora nə pis dönüş yeridir.*
>
> **(Nisa surəsi, 115)**

> *Məgər Allahın razılığını qazanmaq üçün gedən kimsə, Allahın qəzəbinə gələn və sığınacaq yeri Cəhənnəm olan bir kimsə ilə bərabər tutula bilərmi? Ora nə pis qayıdış yeridir!*
>
> **(Ali İmran surəsi, 162)**

> *Allah iman gətirib yaxşı işlər görənləri ağacları altından çaylar axan Cənnət bağlarında yerləşdirər. Kafirlər isə müvəqqəti olaraq kef çəkər, heyvan kimi yeyib-içərlər. Onların yeri Oddur!*
>
> **(Məhəmməd surəsi, 12)**

Cəhənnəm kafirlərin görüşmə yeridir

> *Həqiqətən, Cəhənnəm onların hamısına vəd olunmuş yerdir.*
>
> **(Hicr surəsi, 43)**

Dar və sıxıntılıdır

> *Onlar əlləri boynunda bağlı halda Cəhənnəmin dar bir yerinə atıldıqları zaman ölüm diləyərlər.*
>
> **(Furqan surəsi, 13)**

Dumanlı və qaranlıqdır

qapqara duman kölgəsində olacaqlar.

(Vaqiə surəsi, 43)

Bu duman nə sərin, nə də xoşagələndir.

(Vaqiə surəsi, 44)

Divarlarla əhatə olunur

O gün münafiq kişilər və münafiq qadınlar iman gətirənlərə: "Bir az gözləyin ki, biz də sizin işığınızdan alaq" – deyəcəklər. Onlara deyiləcəkdir: "Geriyə qayıdıb işıq axtarın!" Onların arasına içəri tərəfində mərhəmət, çöl tərəfində əzab olan qapılı bir sədd çəkiləcəkdir.

(Hədid surəsi, 13)

Uğultusu vardır

Onlar Cəhənnəm odunu uzaq məsafədən gördükdə belə onun necə qəzəblə qaynamasını duyacaq və xışıltısını eşidəcəklər.

(Furqan surəsi, 12)

Qarışıqlığı vardır

> *Onlar oraya vasil ediləndə onun dəhşətli uğultuyla qaynadığını eşidəcəklər.*
>
> **(Mülk surəsi, 7)**

Danışır və insanları çağırır

> *dərini yandırıb-yaxar.*
>
> **(Müddəssir surəsi, 29)**

> *Mömin kişi dedi: "Ey xalqım! Mən sizə, əlbir dəstələrin başına gəlmiş dəhşətli günün bənzərinin sizin də başınıza gəlməsindən qorxuram.*
>
> **(Mümin surəsi, 30)**

Cəhənnəmdəkilərin inildəməyi eşidiləcək

> *Onlar orada xırıldayacaq və heç nə eşitməyəcəklər.*
>
> **(Ənbiya surəsi, 100)**

Sonsuz bir əzab olacaqdır

Onlar orada əsrlər boyu qalacaqlar.

(Nəbə surəsi, 23)

Əzab davamlı olacaq və yüngülləşdirilməyəcəkdir

Sonra zalımlara deyiləcəkdir: "Dadın əbədi əzabı! Məgər siz ancaq qazandığınız günahlara görə cəzalandırılmırsınızmı?"

(Yunis surəsi, 52)

Kafirlər Oddan çıxmaq istərlər, lakin onlar oradan çıxan deyillər. Onları əbədi bir əzab gözləyir.

(Maidə surəsi, 37)

Onlar bu lənətin içində həmişəlik qalacaqlar. Onların əzabı yüngülləşdirilməyəcək və onlara möhlət də verilməyəcəkdir.

(Ali İmran surəsi, 88)

Onları səhər və axşamüstü oda salırlar. O Saat gələcəyi gün isə; Firon nəslini ən şiddətli əzaba salın!

(Mümin surəsi, 46)

O zaman onlar odda bir-birilə höcətləşəcəklər. Zəiflər təkəbbür göstərənlərə: "Biz sizin ardınızca gedirdik. İndi siz odun bir hissəsindən bizi qurtara bilərsinizmi?" – deyəcəklər.

(Mümin surəsi, 47)

Kafirləri isə Cəhənnəm odu gözləyir. Orada nə öldürülməzlər ki, ölüb canları qurtarsın, nə də bu odun əzabı onlar üçün yüngülləşdirilər. Biz hər bir kafiri belə cəzalandırırıq.

(Fatir surəsi, 36)

Həqiqətən, Kitab əhlindən və müşriklərdən inkar edənlərin məskəni Cəhənnəm odu olacaq və orada əbədi qalacaqlar. Onlar məxluqatın ən pisləridir.

(Beyyinə surəsi, 6)

Qurtuluş olmayacaqdır

Onlar hər dəfə oradan çıxmaq, qəmdən qurtarmaq istədikdə yenidən oraya qaytarılacaq və onlara: "Dadın odun əzabını!" – deyiləcəkdir.

(Həcc surəsi, 22)

> *Kafirlər Oddan çıxmaq istərlər, lakin onlar oradan çıxan deyillər. Onları əbədi bir əzab gözləyir.*
>
> **(Maidə surəsi, 37)**

> *Ayələrimizi inkar edənlər isə sol tərəf sahiblərdir.*
>
> **(Bələd surəsi, 19)**

> *Od onların üzərində qapanacaqdır.*
>
> **(Bələd surəsi, 20)**

Hər yandan ölüm gələcəkdir

> *O bunu qurtum-qurtum içəcək, amma onu uda bilməyəcəkdir. Ona hər yandan ölüm gələcək, lakin o, ölməyəcəkdir. Bunun ardınca da ağır bir əzab gələcəkdir.*
>
> **(İbrahim surəsi, 17)**

Atəş əzabı olacaq

> *Onlar Haqq-hesab gününün nə vaxt olacağını soruşurlar.*
>
> **(Zəriyət surəsi, 12)**

> *O gün onlara odda əzab veriləcəkdir.*
>
> **(Zəriyət surəsi, 13)**

> *Şübhəsiz ki, ayələrimizi inkar edənləri odda yandıracağıq. Hər dəfə onların dəriləri yandıqca, əzabı daim dadsınlar deyə, Biz o dəriləri başqa dərilərlə əvəz edəcəyik. Həqiqətən, Allah Qüdrətlidir, Müdrikdir.*
>
> **(Nisa surəsi, 56)**

Cəhənnəm əhli qorxunc bir görünüş alacaq

> *Rəbbinin Kitabından sənə vəhy olunanları oxu. Onun kəlmələrini heç kəs dəyişdirə bilməz. Ondan başqa heç bir sığınacaq tapa bilməzsən.*
>
> **(Kəhf surəsi, 27)**

> *O gün neçə-neçə üzlər də tutulub qaralacaq,*
>
> **(Qiyamət surəsi, 24)**

> *O gün onların baxışları yerə dikiləcək, özlərini də zillət bürüyəcəkdir. Budur onların xəbərdar edildikləri Gün!*
>
> **(Məaric surəsi, 44)**

> *Biz onun burnuna damğa vuracağıq.*
>
> **(Qələm surəsi, 16)**

Zəncirlərlə vurulacaqlar

> *O gün günahkarları zəncirlənmiş görəcəksən.*
>
> **(İbrahim surəsi, 49)**

> *Həqiqətən, Bizdə onlar üçün qandallar və Cəhənnəm hazırlanmışdır,*
>
> **(Müzzəmmil surəsi, 12)**

Zəncirlərlə və dəmir halqalarla bağlanacaqdırlar

> *Doğrudan da, kafirlərdən ötrü zəncirlər, buxovlar və alovsaçan od hazırlamışıq.*
>
> **(İnsan surəsi, 4)**

> *Onu uzunluğu yetmiş dirsək olan zəncirə vurun!*
>
> **(Haqqə surəsi, 32)**

Dəmir qamçılarla qamçılanacaqdırlar

Onlar üçün dəmir toppuzlar da hazırlanmışdır.

(Həcc surəsi, 21)

Bədənləri atəşlə dağlanacaqdır

O gün bu yığdıqları sərvətlər Cəhənnəm odunda qızdırılacaq və bununla onların alınlarına, böyürlərinə və kürəklərinə damğa vurulacaq və onlara: "Budur özünüz üçün yığdıqlarınız. Elə isə dadın yığdıqlarınızı!" – deyiləcəkdir.

(Tövbə surəsi, 35)

Başları üstündən qaynar su töküləcəkdir

Onlar öz Rəbbi barəsində höcətləşən iki dəstədir. Kafirlər üçün oddan paltar biçiləcək, başlarına da qaynar su töküləcəkdir.

(Həcc surəsi, 19)

> *De: “Haqq Rəbbiniz tərəfindəndir. Kim istəyir inansın, kim də istəyir inanmasın”. Biz zalımlar üçün elə bir Od hazırlamışıq ki, onun divarları onları əhatə edəcəkdir. Onlar kömək dilədikdə əridilmiş metal kimi üzlərini qovuran bir su ilə kömək ediləcəkdir. Nə pis içkidir! Nə pis məskəndir!*
>
> **(Kəhf surəsi, 29)**

Qatran və oddan paltarlar geyəcəklər

> *Onların paltarları qatrandan olacaq, üzlərini də alov bürüyəcəkdir.*
>
> **(İbrahim surəsi, 50)**

> *Onlar öz Rəbbi barəsində höcətləşən iki dəstədir. Kafirlər üçün oddan paltar biçiləcək, başlarına da qaynar su töküləcəkdir.*
>
> **(Həcc surəsi, 19)**

Qaynar su, qan və irinli su içəcəkdirlər

> *üstündən də qaynar su içəcəksiniz.*
>
> **(Vaqiə surəsi, 54)**

Siz onu susamış xəstə dəvələr kimi içəcəksiniz".

(Vaqiə surəsi, 55)

Dinlərini oyun və əyləncə sayanları və dünya həyatının aldatdığı şəxsləri tərk et. Bununla xatırlat ki, heç kəs qazandıqlarına görə özünü məhvə məhkum etməsin. Allahdan başqa onun nə bir hamisi, nə də bir havadarı olacaqdır. O nə cür fidyə versə də, ondan qəbul olunmayacaq. Onlar qazandıqları günahlara görə məhvə məhkum olanlardır. Kafir olduqlarına görə onlar üçün qaynar içki və ağrılı-acılı bir əzab hazırlanmışdır.

(Ənam surəsi, 70)

qaynar çeşmədən içirdiləcəkdir.

(Ğaşiyə surəsi, 5)

Qabaqda onu Cəhənnəm gözləyir; orada ona irinli su içirdiləcək,

(İbrahim surəsi, 16)

O bunu qurtum-qurtum içəcək, amma onu uda bilməyəcəkdir. Ona hər yandan ölüm gələcək, lakin o, ölməyəcəkdir. Bunun ardınca da ağır bir əzab gələcəkdir.

(İbrahim surəsi, 17)

Onlar orada nə bir sərinlik, nə də sərinlədirici içki dadacaqlar.

(Nəbə surəsi, 24)

İçdikləri yalnız qaynar su və irin olacaq –

(Nəbə surəsi, 25)

Sonra da üstündən onları qaynar su ilə qatışdırılmış bir içki gözləyir.

(Saffat surəsi, 67)

Hamınızın dönüşü Onadır. Bu, Allahın haqq olan vədidir. O, məxluqu ilk dəfə yaradır, sonra onu Qiyamət günü yenidən dirildir ki, saleh əməllər edənləri ədalətlə mükafatlandırsın. Kafirlərə gəlincə, küfr etdiklərinə görə onlar üçün qaynar içki və ağrılı-acılı bir əzab hazırlanmışdır.

(Yunis surəsi, 4)

Qanlı irindən başqa yeməyi də yoxdur.

(Haqqə surəsi, 36)

Bu, qaynar su və irindir. Qoy onu dadsınlar!

(Sad surəsi, 57)

Zəqqum və darı tikanı yeməkləridir

Onlara daridən başqa bir yemək verilməyəcəkdir.

(Ğaşiyə surəsi, 6)

O onları nə doydurar, nə də aclıqdan xilas edər.

(Ğaşiyə surəsi, 7)

Ziyafət üçün bu yaxşıdır, yoxsa zəqqum ağacı?

(Saffat surəsi, 62)

Biz onu zalımlar üçün bir sınaq etdik.

(Saffat surəsi, 63)

O, Cəhənnəmin lap dibindən bitib çıxan bir ağacdır.

(Saffat surəsi, 64)

Onun meyvəsi şeytanların başları kimidir.

(Saffat surəsi, 65)

Siz mütləq zəqqum ağacından yeyəcəksiniz,

(Vaqiə surəsi, 52)

qarınlarınızı onunla dolduracaqsınız,

(Vaqiə surəsi, 53)

boğazda tıxanıb keçməyən yemək və ağrılı-acılı bir əzab da vardır.

(Müzzəmmil surəsi, 13)

Həqiqətən, zəqqum ağacı

(Duxan surəsi, 43)

günahkar adamın yeməyidir.

(Duxan surəsi, 44)

Əridilmiş yağın çöküntüsü kimi qarınlarda qaynayar –

(Duxan surəsi, 45)

qaynar su qaynayan kimi.

(Duxan surəsi, 46)

Allah onlarla danışmaz

Allah buyuracaq: "Orada alçalmış vəziyyətdə qalın və Mənə heç nə deməyin!

(Muminun surəsi, 108)

Həqiqətən də, Allah ilə olan əhdlərini və andlarını ucuz qiymətə satan kəslər üçün axirətdə heç bir pay yoxdur. Allah onları danışdırmayacaq, Qiyamət günü onların üzünə baxmayacaq və onları təmizə çıxarmayacaqdır. Onlar üçün ağrılı-acılı bir əzab vardır.

(Ali İmran surəsi, 77)

Rəzil və alçaq ediləcəklər

Ey Rəbbimiz! Sən Oda saldığın kəsi rüsvay edərsən. Zalımların köməkçiləri olmaz.

(Ali İmran surəsi, 192)

Orada günahlarını etiraf edəcəkdirlər

> *Cəhənnəm, qəzəbindən az qala parçalansın. Hər dəfə bir dəstə oraya atılarkən Cəhənnəmin gözətçiləri onlardan soruşacaqlar: "Məgər sizə xəbərdarlıq edən bir peyğəmbər gəlməmişdi?"*
>
> **(Mülk surəsi, 8)**

> *Onlar deyəcəklər: "Əlbəttə, bizə qorxudan bir peyğəmbər gəlmişdi. Amma biz onu yalançı sayıb: "Allah heç bir şey nazil etməyib, siz də ancaq böyük bir azğınlıq içindəsiniz" – demişdik.*
>
> **(Mülk surəsi, 9)**

> *Onlar deyəcəklər: "Əgər biz dinləsəydik və ya anlasaydıq alov şölələri saçan od sakinlərinin içində olmazdıq!"*
>
> **(Mülk surəsi, 10)**

> *Onlar öz günahlarını etiraf edəcəklər. Rədd olsun alovlu od sakinləri!*
>
> **(Mülk surəsi, 11)**

Cənnətdəkilərdən su və ruzi istəyəcəklər

Od sakinləri Cənnət əhlini səsləyib deyəcəklər: "Bizim üstümüzə bir az su və ya Allahın sizə verdiyi ruzidən tökün". Onlar isə deyəcəklər: "Allah bunları kafirlərə haram etmişdir".

(Əraf surəsi, 50)

Etmiş olduqlarından ötəri peşman olacaqlar

Üzləri odda o yan-bu yana döndəriləcəyi gün onlar deyəcəklər: "Kaş biz Allaha ibadət edəydik, Onun Elçisinə itaətkar olaydıq!"

(Əhzab surəsi, 66)

Onlar deyəcəklər: "Əlbəttə, bizə qorxudan bir peyğəmbər gəlmişdi. Amma biz onu yalançı sayıb: "Allah heç bir şey nazil etməyib, siz də ancaq böyük bir azğınlıq içindəsiniz" – demişdik.

(Mülk surəsi, 9)

Onlar deyəcəklər: "Əgər biz dinləsəydik və ya anlasaydıq alov şölələri saçan od sakinlərinin içində olmazdıq!"

(Mülk surəsi, 10)

Onlar öz günahlarını etiraf edəcəklər. Rədd olsun alovlu od sakinləri!

(Mülk surəsi, 11)

Onlar orada höcətləşərək deyərlər:

(Şuəra surəsi, 96)

"Allaha and olsun ki, biz açıq-aydın azğınlıq içində idik –

(Şuəra surəsi, 97)

o vaxt ki, biz sizi aləmlərin Rəbbinə tay tuturduq.

(Şuəra surəsi, 98)

Bizi ancaq günahkarlar azdırdı.

(Şuəra surəsi, 99)

İndi isə bizim nə şəfaətçilərimiz,

(Şuəra surəsi, 100)

nə də bizə canıyanan bir dostumuz var!

(Şuəra surəsi, 101)

Bir də dünyaya qayıda bilsəydik, möminlərdən olardıq!”

(Şuəra surəsi, 102)

Şübhəsiz ki, bunda bir ibrət vardır. Lakin onların əksəriyyəti yenə iman gətirmədi.

(Şuəra surəsi, 103)

Odun üzərində dayandırıldıqları vaxt onların: “Kaş ki, bizi dünyaya qaytaraydılar! Onda biz Rəbbimizin ayələrini yalan saymayıb möminlərdən olardıq” – dediklərini görəydin!

(Ənam surəsi, 27)

Cəhənnəmdən çıxmaq və yaxşılıq etmək üçün dünyaya geri dönmək istəyəcəklər

Onlar orada fəryad qoparıb yalvaracaqlar: “Ey Rəbbimiz! Bizi buradan çıxart ki, əvvəllər etdiyimiz əməlləri deyil, yaxşı əməllər edək”. Onlara deyiləcək: “Məgər orada sizə düşünəcək kimsənin düşünə biləcəyi qədər uzun ömür vermədikmi? Sizə qorxudub xəbərdar edən də gəlmişdi. Elə isə dadın əzabı! Zalımlara kömək edən olmaz”.

(Fatir surəsi, 37)

Cəhənnəmdən qaçış olmayacaqdır

Günahkarlar atəşi görən kimi oraya düşəcəklərini yəqin edəcək və oradan qaçmağa bir yer tapa bilməyəcəklər.

(Kəhf surəsi, 53)

Yox olmaq istəyəcəklər

Həqiqətən, Biz sizi yaxın əzab barədə xəbərdar etdik. O gün insan öz əlləri ilə nələr etdiyini görəcək, kafir isə deyəcəkdir: "Kaş mən torpaq olaydım!"

(Nəbə surəsi, 40)

Onlar əlləri boynunda bağlı halda Cəhənnəmin dar bir yerinə atıldıqları zaman ölüm diləyərlər.

(Furqan surəsi, 13)

Onlara deyilər: "Bu gün özünüzə bir ölüm deyil, çoxlu-çoxlu ölümlər istəyin!"

(Furqan surəsi, 14)

Onlar Cəhənnəm gözətçisini çağırıb deyəcəklər: "Ey Malik! Qoy Rəbbin canımızı alıb qurtarsın!" O isə: "Siz burada əbədi qalacaqsınız!" – deyəcək.

(Zuxruf surəsi, 77)

Biz sizə haqqı təqdim etdik, lakin çoxunuz haqqı xoşlamırdı.

(Zuxruf surəsi, 78)

Bir-birləriylə mübahisə edəcəklər

Şübhəsiz ki, bu, od sakinlərinin bir-biri ilə höcətləşməsi bir həqiqətdir.

(Sad surəsi, 64)

Allah deyəcək: "Sizdən əvvəl gəlib-getmiş günahkar cin və insan tayfaları ilə birlikdə Oda girin!" Hər bir tayfa Oda girdikcə digərini lənətləyəcəkdir. Nəhayət, hamısı orada toplandığı zaman sonrakılar əvvəlkilər barəsində deyəcəklər: "Ey Rəbbimiz! Bunlardır bizi azdıran! Elə isə Odda bunlara ikiqat əzab ver!" Allah deyəcək: "Əzab hər kəs üçün ikiqatdır, lakin siz bunu bilmirsiniz!"

(Əraf surəsi, 38)

> *Tabe olanlar deyəcəklər: "Xeyr, sizin özünüzə salam olmasın! Bunu bizə siz təqdim edirdiniz. Ora necə də pis qərar tutulan yerdir!"*
>
> **(Sad surəsi, 60)**

> *Onlar deyəcəklər: "Ey Rəbbimiz! Bunu bizə kim təqdim edibsə, onun əzabını odda ikiqat elə!"*
>
> **(Sad surəsi, 61)**

> *Günahkarlar deyəcəklər: "Bizə nə olub ki, dünyada ikən pis adamlar saydığımız kişiləri burada görmürük?*
>
> **(Sad surəsi, 62)**

> *Biz onları haqsızcasınamı məsxərəyə qoyurduq? Nə isə, onlar gözə dəymirlər?"*
>
> **(Sad surəsi, 63)**

Özlərini azdıranları cəzalandırmaq istəyəcəklər

> *Kafirlər deyəcəklər: "Ey Rəbbimiz! Cinlərdən və insanlardan bizi tovlayıb yoldan çıxardanları bizə göstər ki, biz onları tapdağımız altına salıb yerlə yeksan edək".*
>
> **(Fussilət surəsi, 29)**

ŞEYTANIN XÜSUSİYYƏTLƏRİ

Şeytanın vəzifəsi insanları azdırmaqdır

Onlara ayələrimizi verdiyimiz kimsənin əhvalatını oxu. O, ayələrdən kənara çıxdı, şeytanın təqibinə məruz qaldı, axırda da azanlardan oldu.

(Əraf surəsi, 175)

O, şəhərə əhalisi xəbərsiz ikən daxil oldu və orada bir-biri ilə vuruşan iki kişi gördü. Biri onun tərəfdarlarından, o biri isə düşmənlərindən idi. Tərəfdarlarından olan kəs onu düşməninə qarşı köməyə çağırdı. Musa onu vurub öldürdü və: "Bu, şeytan əməlindəndir. Həqiqətən, o, haqq yoldan azdıran açıq-aydın bir düşməndir!" – dedi.

(Qəsas surəsi, 15)

O zaman şeytan onların əməllərini özlərinə gözəl göstərib: "Bu gün insanlardan heç kəs sizə qalib gələ bilməz. Axı mən sizə yardım edən bir qonşuyam!" – demişdi, iki dəstə bir-birini gördükdə isə geri çəkilib: "Mən sizdən uzağam. Mən sizin görmədiklərinizi görürəm. Mən Allahdan qorxuram. Çünki Allah şiddətli cəza verəndir!" – demişdi.

(Ənfal surəsi, 48)

İblis dedi: "Sən məni yoldan çıxartdığına görə mən də Sənin düz yolunun üstündə oturub insanları tovlayacağam.

(Əraf surəsi, 16)

Sonra onların yanına önlərindən və arxalarından, sağlarından və sollarından gələcəyəm və Sən onların əksəriyyətini şükür edən görməyəcəksən".

(Əraf surəsi, 17)

Allah buyurdu: "Oradan mənfur və qovulmuş halda çıx! Onlardan hər kəs sənin ardınca getsə, əlbəttə, Cəhənnəmi sizin hamınızla dolduracağam.

(Əraf surəsi, 18)

Sənə nazil edilənə və səndən əvvəl nazil edilənlərə iman gətirdiklərini iddia edənləri görmədinmi? Onlar mühakimə olunmaları üçün tağuta müraciət etmək istəyirlər. Halbuki onlara tağuta inanmamaq əmr olunmuşdur. Şeytan isə onları dərin bir azğınlığa salmaq istəyir.

(Nisa surəsi, 60)

Mən onun və tayfasının Allahı qoyub günəşə səcdə etdiklərinin şahidi oldum. Şeytan onların əməllərini özlərinə gözəl göstərmiş və onları haqq yoldan çıxartdığına görə haqqın yolunu tapa bilmirlər.

(Nəml surəsi, 24)

İnsanları aldadır

Mən onları mütləq doğru yoldan azdıracaq və xülyalara salacağam; onlara mal-qaranın qulaqlarını kəsməyi buyuracaq və Allahın yaratdıqlarına dəyişiklik verməyi əmr edəcəyəm". Allahı qoyub şeytanı özünə himayədar tutan şəxs açıq-aşkar ziyana uğramışdır.

(Nisa surəsi, 119)

Şeytan onlara vədlər verir və onları xülyalara salır. Lakin şeytanın onlara verdiyi vədlər aldatmaqdan başqa bir şey deyildir.

(Nisa surəsi, 120)

O zaman şeytan onların əməllərini özlərinə gözəl göstərib: "Bu gün insanlardan heç kəs sizə qalib gələ bilməz. Axı mən sizə yardım edən bir qonşuyam!" – demişdi, iki dəstə bir-birini gördükdə isə geri çəkilib: "Mən sizdən uzağam. Mən sizin görmədiklərinizi görürəm. Mən Allahdan qorxuram. Çünki Allah şiddətli cəza verəndir!" – demişdi.

(Ənfal surəsi, 48)

De: "Biz Allahı qoyub bizə nə bir xeyir, nə də bir zərər verə bilməyən şeylərəmi ibadət edəcəyik? Allah bizi doğru yola yönəltdikdən sonra, şeytanların yer üzündə azdırdığı, mömin dostlarının isə: "Bizə tərəf gəl!" – deyib doğru yola çağırdıqları çaşbaş qalan kimsə kimi geriyəmi döndəriləcəyik?" De: "Ancaq Allahın haqq yolu doğru yoldur! Bizə əmr edilmişdir ki, aləmlərin Rəbbinə təslim olaq.

(Ənam surəsi, 71)

Onlardan gücün çatdığı kimsələri səsinlə günaha təhrik et, atlı və piyadanı onların üstünə yerit, mallarına və övladlarına şərik ol, onlara vədlər ver. Şübhəsiz ki, şeytan onlara ancaq yalan vədlər verər.

(İsra surəsi, 64)

Münafiqlər şeytana bənzəyirlər. Şeytan insana: "Kafir ol!" – deyir. İnsan kafir olan kimi: "Mən səndən uzağam. Mən aləmlərin Rəbbi olan Allahdan qorxuram!" – deyir.

(Həşr surəsi, 16)

Ey Adəm oğulları! Şeytan, əcdadınızın ayıb yerlərini özlərinə göstərmək məqsədilə aldadaraq libaslarını soyundurub Cənnətdən çıxartdığı kimi, sizi də aldatmasın. Şübhəsiz ki, o və onun nəsli sizləri sizin onları görə bilmədiyiniz yerlərdən görürlər. Həqiqətən, Biz, şeytanları iman gətirməyənlərin dostları etdik.

(Əraf surəsi, 27)

Planı inananlar üçün çox zəifdir

Möminlər Allah yolunda, kafirlər isə tağut yolunda vuruşurlar. Elə isə şeytanın dostları ilə vuruşun! Şübhəsiz ki, şeytanın hiyləsi zəifdir.

(Nisa surəsi, 76)

İş bitdikdə şeytan deyəcək: "Həqiqətən də, Allah sizə gerçək vəd vermişdi. Mən də sizə vəd vermişdim, lakin vədimə xilaf çıxdım. Mənim sizin üstünüzdə heç bir hökmranlığım yox idi. Mən sizi azğınlığa dəvət etdim, siz də dəvətimi qəbul etdiniz. Buna görə də məni yox, özünüzü qınayın. Nə mən sizin köməyinizə çata bilərəm, nə də siz mənim köməyimə çata bilərsiniz. Heç şübhəsiz ki, mən əvvəllər də sizin məni Allaha şərik qoşmağınızı rədd etmişdim". Həqiqətən, zalımlar üçün ağrılı-acılı bir əzab hazırlanmışdır.

(İbrahim surəsi, 22)

Iblisin onlar barəsindəki ehtimalı doğru çıxdı. Bir dəstə mömindən başqa, qalanları onun toruna düşdülər.

(Səba surəsi, 20)

Halbuki o, bu insanlar üzərində ixtiyar sahibi deyildi. Biz ancaq axirətə inananla ona şəkk gətirən kimsələri ayırd etmək üçün şeytana belə bir fürsət verdik. Sənin Rəbbin hər şeyi mühafizə edəndir.

(Səba surəsi, 21)

Yalnız onu dost edənləri aldada bilər

O şeytan sadəcə sizi öz dostları ilə qorxudur. Möminsinizsə, onlardan qorxmayın, Məndən qorxun!

(Ali İmran surəsi, 175)

İnkar edənlərə hücum edər

Şeytanların kimə nazil olduqlarını sizə xəbər verimmi?

(Şuəra surəsi, 221)

Onlar hər bir yalançıya və günahkara nazil olarlar.

(Şuəra surəsi, 222)

Şeytanlar vəhydən eşitdiklərini kahinlərə təlqin edirlər. Halbuki onların əksəriyyəti yalançıdır!

(Şuəra surəsi, 223)

Möminlərdən başqa hər kəs ona tabe olar

İblisin onlar barəsindəki ehtimalı doğru çıxdı. Bir dəstə mömindən başqa, qalanları onun toruna düşdülər.

(Səba surəsi, 20)

Möminlər Şeytanın vəsvəsələrindən Allaha sığınarlar

Əgər şeytandan sənə bir vəsvəsə gəlsə, Allaha sığın. Şübhəsiz ki, O, Eşidəndir, Biləndir.

(Əraf surəsi, 200)

Allahdan qorxanlara şeytandan bir vəsvəsə toxunduğu zaman Allahı xatırlayar və dərhal gerçəyi görərlər.

(Əraf surəsi, 201)

De: "Ey Rəbbim! Şeytanların vəsvəsələrindən Sənə sığınıram!

(Muminun surəsi, 97)

> *Onların mənə yaxınlaşmalarından Sənə sığınıram, ey Rəbbim!”*
>
> **(Muminun surəsi, 98)**

> *Ondan azad olduğu zaman demişdi: “Ey Rəbbim! Mənim qızım oldu” – Allah onun nə doğduğunu daha yaxşı bilirdi, – “axı oğlan qız kimi deyildir. Mən onun adını Məryəm qoydum, onu və onun nəslini lənətlənmiş şeytandan qorunmağı Sənə həvalə edirəm”.*
>
> **(Ali İmran surəsi, 36)**

İnsanların düşmənidir

> *O dedi: “Oğlum! Yuxunu qardaşlarına danışma, yoxsa sənə hiylə qurarlar. Həqiqətən, şeytan insanın açıq-aydın düşmənidir.*
>
> **(Yusif surəsi, 5)**

> *Bir zaman Biz mələklərə: “Adəmə səcdə edin!” – demişdik. İblisdən başqa hamısı səcdə etdi. İblis cinlərdən idi. O, Rəbbinin əmrinə boyun əymədi. Onlar sizin düşmənіniz olduğu halda, siz Məni qoyub onu və onun nəslini özünüzə dostmu tutursunuz? Zalımlar üçün bu necə də yarıtmaz mübadilədir!*
>
> **(Kəhf surəsi, 50)**

Üstündə yük daşınan və yük daşınmayan mal-qaranı da yaradan Odur. Allahın sizə verdiyi ruzilərdən yeyin, şeytanın izi ilə getməyin! Şübhəsiz ki, o, sizin açıq-aşkar düşmənizdir.

(Ənam surəsi, 142)

Ey insanlar! Yerdə olan halal və təmiz ruzilərdən yeyin, şeytanın addım izləri ilə getməyin! O, sizin açıq-aşkar düşmənizdir.

(Bəqərə surəsi, 168)

O sizə pis və iyrənc işlər görməyi və Allaha qarşı bilmədiyiniz şeyləri söyləməyi əmr edir.

(Bəqərə surəsi, 169)

Ey Adəm övladları! Məgər Mən sizə buyurmadımmı ki, şeytana ibadət etməyin, o sizin açıq-aydın düşmənizdir,

(Yasin surəsi, 60)

İnsanlara şübhə və vəsvəsə verər

Şeytan ona vəsvəsə edib dedi: "Ey Adəm! Sənə əbədiyyət ağacını və tükənməyəcək bir mülkü göstərimmi?"

(Taha surəsi, 120)

Şeytan onların bir-birindən gizli qalan ayıb yerlərini özlərinə göstərmək üçün onlara pıçıldayıb dedi: "Rəbbiniz sizə bu ağacı yalnız ona görə qadağan etmişdir ki, siz mələk və ya Cənnətdə əbədi qalanlardan olmayasınız".

(Əraf surəsi, 20)

Əgər sənə şeytandan bir vəsvəsə gəlsə, Allaha sığın. Çünki O, Eşidəndir, Biləndir.

(Fussilət surəsi, 36)

Mən onları mütləq doğru yoldan azdıracaq və xülyalara salacağam; onlara mal-qaranın qulaqlarını kəsməyi buyuracaq və Allahın yaratdıqlarına dəyişiklik verməyi əmr edəcəyəm". Allahı qoyub şeytanı özünə himayədar tutan şəxs açıq-aşkar ziyana uğramışdır.

(Nisa surəsi, 119)

Şeytan onlara vədlər verir və onları xülyalara salır. Lakin şeytanın onlara verdiyi vədlər aldatmaqdan başqa bir şey deyildir.

(Nisa surəsi, 120)

İsrafı təşfiq edər

Həqiqətən, israfçılar şeytanların qardaşlarıdır. Şeytan isə Rəbbinə qarşı nankordur.

(İsra surəsi, 27)

İnsanları yoxsulluqla qorxudaraq alçaq həyasızlığa və xəsisliyə sövq edər

Şeytan sizi yoxsulluqla qorxudur və yaramaz işlər görməyi əmr edir. Allah isə sizə Öz tərəfindən bağışlanma və mərhəmət olunacağını vəd edir. Allah hər şeyi Əhatəedəndir, Biləndir.

(Bəqərə surəsi, 268)

İnsanlara pisliyi əmr edər

Ey iman gətirənlər! Şeytanın izi ilə getməyin. Kim şeytanın izi ilə getsə, bilsin ki, o şeytan iyrənc və yaramaz işlər görməyi əmr edir. Əgər Allahın sizə lütfü və mərhəməti olmasaydı, sizdən heç kəs heç vaxt təmizə çıxmazdı. Lakin Allah istədiyini təmizə çıxardır. Allah Eşidəndir, Biləndir.

(Nur surəsi, 21)

Onlar Suleymanın səltənətində şeytanların oxuduqlarının ardınca getdilər. Süleyman kafir olmadı. Lakin şeytanlar sehri və Babildə Harut və Marut adlı iki mələyə nazil olanı insanlara öyrədərək kafir oldular. Mələklər: "Biz ancaq bir sınağıq, sən gəl kafir olma!" – deməmiş onu heç kəsə öyrətmirdilər. Yəhudilər ərlə arvadı bir-birindən ayıracaq işləri onlardan öyrənirdilər. Lakin onlar Allahın izni olmadan heç kəsə zərər verə bilməzlər. Onlar özlərinə zərər verən, faydası olmayan şeyləri öyrənirdilər. Onlar bilirdilər ki, onu əldə edən kimsə üçün axirətdə heç bir pay yoxdur. Nəfslərinin əvəzində satın aldıqları şey necə də pisdir! Kaş bunu biləydilər!

(Bəqərə surəsi, 102)

Mən onları mütləq doğru yoldan azdıracaq və xülyalara salacağam; onlara mal-qaranın qulaqlarını kəsməyi buyuracaq və Allahın yaratdıqlarına dəyişiklik verməyi əmr edəcəyəm". Allahı qoyub şeytanı özünə himayədar tutan şəxs açıq-aşkar ziyana uğramışdır.

(Nisa surəsi, 119)

Ey iman gətirənlər! Şübhəsiz ki, sərxoşedici içki də, qumar da, tapınmaq məqsədilə dik qoyulmuş daşlar da, fal oxları da şeytan əməlindən olan murdar şeylərdir. Bunlardan çəkinin ki, bəlkə nicat tapasınız.

(Maidə surəsi, 90)

İnsanları xainliyə sövq edər

Gizli söhbətlər iman gətirənləri kədərləndirməyə çalışan şeytandandır. Amma Allahın izni olmadıqca o, onlara heç bir zərər yetirə bilməz. Qoy möminlər Allaha təvəkkül etsinlər.

(Mücadilə surəsi, 10)

Yaxşılığa və xeyirə tərəf heç bir istiqaməti yoxdur

Onlar Allahı qoyub, yalnız qadın adlarını daşıyan bütlərə yalvarır və yalnız üsyankar şeytana sitayiş edirlər.

(Nisa surəsi, 117)

İnsanlar üzərinə bir pislikdir

O zaman Allah Öz tərəfindən bir təskinlik olsun deyə, sizə yüngül bir mürgü göndərmiş, göydən sizin üzərinizə yağmur endirmişdi ki, onunla sizi təmizləsin, şeytanın vəsvəsəsini sizdən uzaq etsin, qəlbinizi möhkəmləndirsin və onunla qədəmlərinizi sabit etsin.

(Ənfal surəsi, 11)

İnsanlara pislikləri cəlbedici göstərməyə çalışar

Mən onun və tayfasının Allahı qoyub günəşə səcdə etdiklərinin şahidi oldum. Şeytan onların əməllərini özlərinə gözəl göstərmiş və onları haqq yoldan çıxartdığına görə haqqın yolunu tapa bilmirlər.

(Nəml surəsi, 24)

Nə üçün əzabımız onlara gəldiyi zaman boyun əymədilər? Onların qəlbləri sərtləşdi, şeytan da onlara etdikləri əməlləri gözəlləşdirdi.

(Ənam surəsi, 43)

Adı da, Səmudu da məhv etdik. Bu, onların məskənlərindən sizə bəllidir. Şeytan onlara etdikləri əməlləri gözəl göstərib onları haqq yoldan çıxartdı. Halbuki onlar gözüaçıq adamlar idilər.

(Ənkəbut surəsi, 38)

O zaman şeytan onların əməllərini özlərinə gözəl göstərib: "Bu gün insanlardan heç kəs sizə qalib gələ bilməz. Axı mən sizə yardım edən bir qonşuyam!" – demişdi, iki dəstə bir-birini gördükdə isə geri çəkilib: "Mən sizdən uzağam. Mən sizin görmədiklərinizi görürəm. Mən Allahdan qorxuram. Çünki Allah şiddətli cəza verəndir!" – demişdi.

(Ənfal surəsi, 48)

Unutdurma xüsusiyyəti vardır

Yusif onlardan qurtulacağını yəqin etdiyi kimsəyə dedi: "Ağanın yanında məni yada sal!" Lakin şeytan ona Yusifi ağasının yadına salmağı unutdurdu və o, zindanda bir neçə il də qaldı.

(Yusif surəsi, 42)

Xidmətçi dedi: "Qayanın yanında gizləndiyimiz vaxt yadına gəlirmi? O zaman mən balığı unutdum. Doğrusu, onu xatırlamağı mənə yalnız şeytan unutdurdu. Balıq dirilib qəribə bir şəkildə dənizdə yol tutub getmişdir".

(Kəhf surəsi, 63)

Ayələrimizi lağlağıya qoyanları gördüyün zaman, onlar başqa söhbətə keçənə qədər onlardan üz çevir. Əgər şeytan bunu sənə unutdursa, xatırladıqdan sonra zalım tayfa ilə birgə oturma.

(Ənam surəsi, 68)

İnsanları uzun və məqsədsiz işlərlə əyləndirər

Hidayət yolunu tanıdıqdan sonra haqdan dönüb geriyə üz tutanlara şeytan günah işləri gözəl göstərdi və onlara uzun ömür vəd etdi.


(Məhəmməd surəsi, 25)

İnsanları Allaha ibadət etməkdən və Allahı xatırlamaqdan saxlamağa çalışar

> *Həqiqətən, şeytan sərxoşedici içki və qumar vasitəsilə sizin aranıza ədavət və kin salmaq, sizi Allahı yad etməkdən və namazdan ayırmaq istəyər. Siz buna son qoyacaqsınızmı?*
>
> **(Maidə surəsi, 91)**

> *Şeytan onları üstələmiş və Allahı zikr etməyi onlara unutdurmuşdur. Onlar şeytanın firqəsindəndirlər. Şübhə yoxdur ki, şeytanın firqəsindəkilər ziyana uğrayanlardır.*
>
> **(Mücadilə surəsi, 19)**

> *Çünki Zikr (Quran) mənə çatdıqdan sonra o məni ondan uzaqlaşdırdı". Həqiqətən, şeytan insanı tənha qoyub qaçandır.*
>
> **(Furqan surəsi, 29)**



Dünya həyatı keçicidir, axirət qalıcıdır

İnsanların arasına kin və düşmənçilik salmaq istəyər

Həqiqətən, şeytan sərxoşedici içki və qumar vasitəsilə sizin aranıza ədavət və kin salmaq, sizi Allahı yad etməkdən və namazdan ayırmaq istəyər. Siz buna son qoyacaqsınızmı?

(Maidə surəsi, 91)

Qullarıma de ki, ən gözəl sözləri danışsınlar. Çünki şeytan onların arasına ədavət sala bilər. Həqiqətən, şeytan insanın açıq-aydın düşmənidir.

(İsra surəsi, 53)

O, ata-anasını taxtın üstündə əyləşdirdi. Onlar hamısı onun qarşısında səcdə etdilər. O dedi: "Atacan! Bu, çoxdankı yuxumun yozumudur. Rəbbim onu gerçəkləşdirdi. O mənə lütf etdi. O məni zindandan çıxartdı və şeytan mənimlə qardaşlarımın arasına ədavət saldıqdan sonra sizi səhradan yanıma gətirdi. Şübhəsiz ki, Rəbbim istədiyinə qarşı lütfkardır. Həqiqətən, O, Biləndir, Müdrikdir.

(Yusif surəsi, 100)

Allaha qarşı itaətsiz və hörmətsizdir

> *Sizi xəlq etdik, sonra sizə surət verdik, sonra da mələklərə: "Adəmə səcdə edin!" – dedik. İblisdən başqa hamısı səcdə etdi. O, səcdə edənlərdən olmadı.*
>
> **(Əraf surəsi, 11)**

> *və onu hər bir asi şeytandan mühafizə etdik.*
>
> **(Saffat surəsi, 7)**

> *Atacan! Şeytana ibadət etmə! Həqiqətən, şeytan Mərhəmətli Allaha çox asi oldu.*
>
> **(Məryəm surəsi, 44)**

> *Bir zaman mələklərə: "Adəmə səcdə edin!" – demişdik. İblisdən başqa hamısı səcdə etdi. O, səcdədən imtina etdi.*
>
> **(Taha surəsi, 116)**

> *Yalnız İblisdən başqa. O, səcdə edənlər arasında olmaqdan imtina etdi.*
>
> **(Hicr surəsi, 31)**

Bir zaman mələklərə: "Adəmə səcdə edin!" – demişdik. İblisdən başqa hamısı səcdə etdi. O dedi: "Mən Sənin palçıqdan yaratdığınamı səcdə edəcəyəm?!"

(İsra surəsi, 61)

Allaha qarşı nankordur

Həqiqətən, israfçılar şeytanların qardaşlarıdır. Şeytan isə Rəbbinə qarşı nankordur.

(İsra surəsi, 27)

Yalan söyləyər

İş bitdikdə şeytan deyəcək: "Həqiqətən də, Allah sizə gerçək vəd vermişdi. Mən də sizə vəd vermişdim, lakin vədimə xilaf çıxdım. Mənim sizin üstünüzdə heç bir hökmranlığım yox idi. Mən sizi azğınlığa dəvət etdim, siz də dəvətimi qəbul etdiniz. Buna görə də məni yox, özünüzü qınayın. Nə mən sizin köməyinizə çata bilərəm, nə də siz mənim köməyimə çata bilərsiniz. Heç şübhəsiz ki, mən əvvəllər də sizin məni Allaha şərik qoşmağınızı rədd etmişdim". Həqiqətən, zalımlar üçün ağrılı-acılı bir əzab hazırlanmışdır.

(İbrahim surəsi, 22)

Beləliklə, Biz hər bir peyğəmbər üçün insanlar və cinlərdən olan şeytanlarından düşmənlər müəyyən etdik. Bunlar aldatmaq məqsədilə bir-birlərinə təmtəraqlı sözlər təlqin edirlər. Əgər Rəbbin istəsəydi, onlar bunu etməzdilər. Onları uydurduqları şeylərlə birlikdə tərk et.

(Ənam surəsi, 112)

Allah qatından qovulmuşdur

Ondan azad olduğu zaman demişdi: "Ey Rəbbim! Mənim qızım oldu" – Allah onun nə doğduğunu daha yaxşı bilirdi, – "axı oğlan qız kimi deyildir. Mən onun adını Məryəm qoydum, onu və onun nəslini lənətlənmiş şeytandan qorunmağı Sənə həvalə edirəm".

(Ali İmran surəsi, 36)

Bu Quran daşqalaq olunmuş şeytanın sözü də deyildir.

(Təkvir surəsi, 25)

Onları qovulmuş hər bir şeytandan qoruduq.

(Hicr surəsi, 17)

İMAN ETMƏYƏNLƏRİN MÖMİNLƏRDƏN SORUŞDUQLARI SUALLARA QURANDAN CAVABLAR

Allahla bağlı

> *Onlar: "Sən bizə haqq gətirmisən, yoxsa oyunbazlardansan?" – demişdilər.*
>
> **(Ənbiya surəsi, 55)**

> *İbrahim demişdi: "Xeyr, sizin Rəbbiniz, yaratdığı göylərin də, yerin də Rəbbidir. Mən də buna şahidlik edənlərdənəm.*
>
> **(Ənbiya surəsi, 56)**

> *O müttəqilər ki, öz Rəbbindən Onu görmədikləri halda qorxur və gələcək o Saatdan lərzəyə gəlirlər.*
>
> **(Ənbiya surəsi, 49)**

> *Bu, nazil etdiyimiz mübarək bir Zikrdir. Siz onu inkarmı edirsiniz?*
>
> **(Ənbiya surəsi, 50)**

İman gətirib yaxşı işlər görən qullarına Allahın müjdə verdiyi nemət budur. De: "Mən sizdən bunun əvəzində qohumluq sevgisindən başqa bir şey istəmirəm". Kim bir yaxşılıq etsə, onun savabını artırarıq. Həqiqətən, Allah Bağışlayandır, şükrün əvəzini verəndir.

(Şura surəsi, 23)

Yoxsa onlar sənin barəndə: "O, Allaha qarşı yalan uydurdu" – deyirlər? Əgər Allah istəsə, sənin qəlbinə möhür vurar. Allah batili silib yox edər və haqqı Öz sözləri ilə bərqərar edər. Şübhəsiz ki, O, köksələrdə olanları Biləndir.

(Şura surəsi, 24)

Həqiqətən, Allah ağcaqanadı və (istər böyüklükdə, istərsə də kiçiklikdə) ondan da üstün olanı məsəl çəkməkdən utanmaz. İman gətirənlər bilirlər ki, bu, onların Rəbbindən gələn haqdır. Küfr edənlər isə deyirlər: "Bu məsəllə Allah nə demək istədi?" Halbuki O bununla bir çoxlarını azdırır və bir çoxlarını da haqq yoluna yönəldir. Lakin O, bununla yalnız fasiqləri yoldan çıxarır.

(Bəqərə surəsi, 26)

Dinlə, Quranla və peyğəmbərlə bağlı

Kafirlər dedilər: "Niyə ona Rəbbindən bir möcüzə endirilməyib?" De: "Şübhəsiz ki, Allah möcüzə endirməyə qadirdir. Lakin onların çoxu bunu bilmir".

(Ənam surəsi, 37)

Əgər istəsəydik, yer üzündə içinizdən sizi əvəz edəcək mələklər yaradardıq.

(Zuxruf surəsi, 60)

Kafirlər möminlərə dedilər: "Əgər Quran xeyirli bir şey olsaydı, onlar bunda bizi qabaqlaya bilməzdilər!" Onlar bununla doğru yola gəlmədikləri üçün: "Bu, köhnə yalandır!" – deyəcəklər.

(Əhqaf surəsi, 11)

Ondan əvvəl Musanın rəhbər və mərhəmət olan Kitabı var idi. Bu isə zalımları qorxutmaq və yaxşı iş görənlərə müjdə vermək üçün ərəb dilində nazil edilmiş, əvvəlkiləri təsdiq edən bir Kitabdır.

(Əhqaf surəsi, 12)

Firon dedi: "Bəs əvvəlki nəsillərin halı necə olacaq?"

(Taha surəsi, 51)

Musa dedi: "Onlar haqqındakı bilgi Rəbbimin yanında olan bir Kitabdadır. Rəbbim nə xəta edir, nə də unudur!"

(Taha surəsi, 52)

Onlar isə demişdilər: "Sən bizi məbudlarımızdan döndərməyəmi gəldin? Əgər doğru danışanlardansansa, bizə vəd etdiyini gətir!"

(Əhqaf surəsi, 22)

Hud dedi: "Bu haqda bilgi ancaq Allaha məxsusdur. Mən sizə yalnız mənimlə göndərilənləri təbliğ edirəm. Lakin mən sizin cahil adamlar olduğunuzu görürəm".

(Əhqaf surəsi, 23)

Onlar dedilər: "Ey Şueyb! Atalarımızın ibadət etdikləri məbudlardan, yaxud mallarımızı istədiyimiz kimi istifadə etməkdən vaz keçməyimizi sənə namazınmı əmr edir? Doğrudan da, sən yumşaq xasiyyətlisən, ağıllısan".

(Hud surəsi, 87)

> *O dedi: "Ey qövmüm! Bir deyin görək, əgər mən Rəbbimdən açıq-aydın bir dəlilə istinad edirəmsə, O da Öz tərəfindən mənə gözəl bir ruzi veribsə, onda necə olsun? Sizə qadağan etdiyim şeyləri etməklə sizin əleyhinizə çıxmaq istəmirəm. Mən ancaq bacardığım qədər islah etmək istəyirəm. Mən ancaq Allahın sayəsində uğur qazanıram. Mən yalnız Ona təvəkkül edir və yalnız Ona üz tuturam.*
>
> **(Hud surəsi, 88)**

> *Onlar dedilər: "Bəs nə üçün Rəbbindən ona möcüzə nazil olmadı?" De: "Möcüzələr ancaq Allahdadır. Mən isə ancaq açıq-aydın xəbərdarlıq edənəm".*
>
> **(Ənkəbut surəsi, 50)**

> *Onlar: "Nə üçün ona mələk endirilməyib?" – dedilər. Əgər biz mələk endirsəydik, iş bitmiş olardı, onlara isə möhlət verilməzdi.*
>
> **(Ənam surəsi, 8)**

> *Əgər biz onu mələk etsəydik, əlbəttə, onu kişi edərdik və onları bir daha düşdükləri şübhəyə salardıq.*
>
> **(Ənam surəsi, 9)**

Yaxud: "Bunu özündən uydurmuşdur!" – deyirlər. De: "Əgər mən onu uydurmuşamsa, siz məni Allahdan gələn heç bir cəzadan xilas edə bilməzsiniz. O sizin Quran haqqındakı söz-söhbətlərinizi daha yaxşı bilir. Mənimlə sizin aranızda şahid kimi Allah yetər. O, Bağışlayandır, Rəhmlidir".

(Əhqaf surəsi, 8)

Yoxsa onlar: "Bunu özündən uydurdu!" – deyirlər. De: "Əgər mən onu özümdən uydurmuşamsa, günahım özümə aiddir. Lakin mən sizin etdiyiniz günahlardan uzağam".

(Hud surəsi, 35)

Qiyamət günü ilə bağlı

Onlar deyirlər: "Əgər doğru deyirsinizsə, bu vəd nə vaxt olacaq?"

(Mülk surəsi, 25)

De: "Buna aid bilgi yalnız Allah yanındadır. Mən isə ancaq xəbərdar və bəyan edənəm!"

(Mülk surəsi, 26)

Kafirlər əzabın yaxın olduğunu gördükdə üzləri eybəcər görkəm alacaq və onlara: "Sizin durmadan istədiyiniz əzab bax budur!" – deyiləcəkdir.

(Mülk surəsi, 27)

Onlar Haqq-hesab gününün nə vaxt olacağını soruşurlar.

(Zəriyət surəsi, 12)

O gün onlara odda əzab veriləcəkdir.

(Zəriyət surəsi, 13)

Onlara deyiləcək: "Dadın əzabınızı! Sizin tez-tələsik gəlməsini istədiyiniz şey budur!"

(Zəriyət surəsi, 14)

Camaat sənə o Saat barədə sual verir. De: "Onu yalnız Allah bilir!" Nə bilirsən, bəlkə də, o Saat lap yaxınlaşmışdır.

(Əhzab surəsi, 63)

Kafirlər deyirlər: "Əgər doğru deyirsinizsə, bu vəd nə vaxt olacaq?"

(Yunis surəsi, 48)

> *De: "Allahın istədiyindən başqa, mən özümə nə bir zərər, nə də bir xeyir verməyə qadirəm. Hər ümmətin bir əcəli vardır. Onların əcəli gəldiyi zaman bircə saat belə nə yubanar, nə də qabağa keçə bilərlər".*
>
> **(Yunis surəsi, 49)**

> *Onlar: "Əgər doğru deyirsinizsə, bu vəd nə vaxt olacaq?" – deyirlər.*
>
> **(Nəml surəsi, 71)**

> *De: "Ola bilsin ki, tələsik istədiyiniz şeyin bir qismi, artıq sizə yaxınlaşmışdır".*
>
> **(Nəml surəsi, 72)**

> *Onlar: "Əgər doğru deyirsinizsə, bu vəd nə vaxt olacaq?" – deyirlər.*
>
> **(Səba surəsi, 29)**

> *De: "Sizə vəd edilmiş bir gün vardır ki, siz onu nə bircə saat belə yubada, nə də tezləşdirə bilərsiniz".*
>
> **(Səba surəsi, 30)**

Yenidən dirilişlə bağlı

Onlar deyirlər: "Biz torpağın içində yox olandan sonra yenidənmi yaradılacağıq?" Doğrusu, onlar öz Rəbbi ilə qarşılaşacaqlarını inkar edirlər.

(Səcdə surəsi, 10)

De: "Sizə müvəkkil olan ölüm mələyi canınızı alacaq, sonra da Rəbbinizə qaytarılacaqsınız!"

(Səcdə surəsi, 11)

Bu Kitab Qüdrətli, Müdrik Allah tərəfindən nazil edilmişdir.

(Mümin surəsi, 2)

Bu, günahları Bağışlayan, tövbələri qəbul edən, cəzası şiddətli olan lütf sahibindəndir! Ondan başqa məbud yoxdur. Dönüş də Onadır.

(Mümin surəsi, 3)

Allahın ayələri barəsində yalnız kafirlər mübahisə edərlər. Onların şəhərlərdə gəzib-dolaşmaları səni aldatmasın.

(Mümin surəsi, 4)

Onlar deyirlər: “Biz sür-sümük və toz halına düşdüyümüz zaman yeni bir məxluq kimi dirildiləcəyikmi?”

(İsra surəsi, 49)

De: “İstər daş olun, istər dəmir,

(İsra surəsi, 50)

və ya sizə nəhəng görünən bir məxluq olun, yenə də Allah sizi diriltməyə qadirdir”. Onlar deyəcəklər: “Bizi həyata kim qaytaracaq?” De: “İlk dəfə sizi yaradan!” Onlar istehza ilə başlarını yırğalayıb: “Bəs bu nə vaxt olacaqdır?” – deyəcəklər. De: “Bəlkə də, yaxın zamanda oldu!”

(İsra surəsi, 51)

Bu, ayələrimizi inkar etdiklərinə və: “Məgər biz sür-sümük və ovuntu olduğumuz halda yeni bir məxluq olaraq dirildiləcəyik?” – dediklərinə görə onların cəzasıdır.

(İsra surəsi, 98)

> *Məgər onlar görmürlər ki, göyləri və yeri yaradan Allah onlar kimisini də yaratmağa qadirdir? Allah onlar üçün elə bir əcəl müəyyən etmişdir ki, ona heç bir şəkk-şübhə yoxdur. Zalımlar isə küfrdən başqa bir şey qəbul etmədilər.*
>
> **(İsra surəsi, 99)**

QURANDA TƏSVİR EDİLƏN İNKARÇI XARAKTERLƏRİNDƏN NÜMUNƏLƏR

Yaradılmış olanları ilahlaşdıranlar

> *De: "Bir deyin görək, sizin Allahdan başqa tapındıqlarınız yer üzündə nə yaratmışlar? Yoxsa onların göylərin yaradılmasında bir şərikliyi var? Əgər doğru danışanlarsınızsa, mənə bundan əvvəl nazil olmuş bir kitab və ya elmdən qalan bir əsər gətirin".*
>
> **(Əhqaf surəsi, 4)**

Əgər sən onlardan: "Göyləri və yeri kim yaratmışdır?" – deyə soruşsan, onlar mütləq: "Allah!" – deyəcəklər. De: "Bir deyin görək, əgər Allah mənə bir zərər toxundurmaq istəsə, sizin Allahdan başqa ibadət etdiklərіniz Onun zərərini aradan qaldıra bilərlərmi? Ya da O mənə bir mərhəmət göstərmək istəsə, onlar Onun mərhəmətinin qarşısını ala bilərlərmi?" De: "Mənə Allah yetər. Təvəkkül edənlər yalnız Ona təvəkkül edirlər!"

(Zumər surəsi, 38)

De: "Göylərin və yerin Rəbbi kimdir?" De: "Allahdır!" De: "Siz Onu qoyub özlərinə nə bir fayda, nə də bir zərər verməyə qadir olmayanlarımı özünüzə dost tutursunuz?" De: "Korla görən eyni ola bilərmi? Yaxud zülmətlə nur eyni ola bilərmi?" Yoxsa onlar Allaha, Onun yaratdığı kimi yaradan şəriklər tapdılar və bu yaradılış onlara bənzər göründü? De: "Hər şeyi yaradan Allahdır. O Təkdir, hər şeyə Qalib gələndir".

(Rad surəsi, 16)

Hər kəsin qazandığını qoruyub saxlayan Allah, buna qadir olmayan bütlər kimi ola bilərmi? Müşriklər isə Allaha şəriklər qoşurlar. De: "Onların adlarını söyləyin! Yoxsa siz Ona yer üzündə bilmədiyi şeyləri yaxud boş sözlərimi xəbər verirsiniz?" Doğrusu, kafirlərə öz hiylələri gözəl göstərildi və onlar doğru yoldan çıxarıldılar. Allah kimi azdırsa, onu doğru yola yönəldən olmaz.

(Rad surəsi, 33)

Sadəcə çətin anlarda Allaha dua edib, rahatlığa qovuşduğunda Allahı unudanlar

İnsana bir zərər toxunduğu zaman Bizə yalvarır. Sonra Biz ona Özümüzdən bir nemət verdikdə deyir: "Bu mənə yalnız özümdə olan biliyə görə verilmişdir!" Xeyr, bu, bir imtahandır, lakin onların çoxu bunu bilmir.

(Zumər surəsi, 49)

Sizə verilən nemətlərin hamısı Allahdandır. Sonra sizə bəla gəldiyi zaman ancaq Ona yalvarırsınız.

(Nəhl surəsi, 53)

Bəlanı sizdən sovuşdurduqdan sonra sizlərdən bəziləri Rəbbinə şərik qoşur.

(Nəhl surəsi, 54)

Onlar: "Ey Rəbbimiz! Bizi bu əzabdan qurtar, biz də iman gətirək" – deyəcəklər.

(Duxan surəsi, 12)

Onlar necə öyüd-nəsihət eşidə bilərlər ki, artıq onlara açıq-aşkar bir peyğəmbər gəlsə də,

(Duxan surəsi, 13)

onlar ondan üz çevirib: "Öyrədilmiş bir dəlidir!" – dedilər.

(Duxan surəsi, 14)

Biz əzabı bir az sizdən uzaqlaşdırarıq, amma siz yenə azğınlığa qayıdacaqsınız.

(Duxan surəsi, 15)

De: "Acizanə və gizlicə: "Əgər bizi bundan qurtarsan, əlbəttə ki, şükür edənlərdən olarıq" – deyə yalvardığınız zaman sizi qurunun və dənizin zülmətlərindən xilas edən kimdir?"

(Ənam surəsi, 63)

De: "Ondan və bütün başqa sıxıntılardan sizi Allah xilas edir. Sonra siz yenə də şərik qoşursunuz".

(Ənam surəsi, 64)

İnsana bir zərər toxunduqda Rəbbinə üz tutub təkcə Ona yalvarır. Sonra Allah Özündən insana bir nemət verəndə o, əvvəlcə kimə yalvardığını unudur və insanları Allahın yolundan çıxartmaq məqsədilə Ona şəriklər qoşur. De: "Küfrünlə bu dünyada bir az dolan. Şübhəsiz ki, sən Cəhənnəm sakinlərindənsən!"

(Zumər surəsi, 8)

İnsana nemət verdiyimiz zaman üz çevirib haqdan uzaq durar. Ona bir pislik toxunduqda isə uzun-uzadı yalvarıb-yaxarar.

(Fussilət surəsi, 51)

Əgər üzlərini çevirsələr, unutma ki, Biz səni onlara nəzarətçi təyin etməmişik. Sənin vəzifən ancaq təbliğ etməkdir. Biz insana Öz mərhəmətimizdən daddırdıqda ona sevinir. Onlara öz əlləri ilə etdikləri əməllərin ucbatından bir bədbəxtlik üz verdikdə isə insanın nankor olduğunu görərsən.

(Şura surəsi, 48)

Dağların saldığı kölgələr kimi dalğalar onları çulğadığı zaman onlar dini məhz Allaha məxsus edərək Ona yalvararlar. Allah onları xilas edib quruya çıxartdıqda isə aralarından bəziləri küfrlə iman arasında orta yol tutar. Bizim ayələrimizi yalnız nankor xainlər inkar edərlər.

(Loğman surəsi, 32)

Ona bir pislik toxunduqda özündən çıxır,

(Məaric surəsi, 20)

bir xeyir nəsib olduqda isə xəsislik edir.

(Məaric surəsi, 21)

Sadəcə dünya həyatı üçün Allaha dua edənlər

Biz axirət savabını istəyənin savabın artırar, dünya qazancını istəyənə də ondan verərik. Lakin onun axirətdə heç bir payı olmaz.

(Şura surəsi, 20)

Kim dünya həyatını və onun bərbəzəyini istəyirsə, onlara əməllərinin əvəzini orada tam verərik və onlar orada zərər çəkməzlər.

(Hud surəsi, 15)

Onlar, axirətdə özləri üçün oddan başqa heç bir şeyi olmayan kimsələrdir. Onların dünyada gördükləri işlər boşa çıxar və tutduqları əməllər puç olar.

(Hud surəsi, 16)

Kim gəldi-gedər dünyanı istəsə, orada ona – dilədiyimiz kimsəyə istədiyimiz şeyləri dərhal verərik. Sonra isə onu qınanmış və Allahın rəhmətindən qovulmuş halda girəcəyi Cəhənnəmə atarıq.

(İsra surəsi, 18)

Həcc mərasiminizi bitirdikdə vaxtilə atalarınızı yad etdiyiniz kimi, hətta bundan da artıq Allahı yad edin! İnsanlar arasında: "Ey Rəbbimiz! Bizə verəcəyini elə bu dünyada ver!" – deyənlər vardır. Belə şəxslərin axirətdə heç bir payı yoxdur.

(Bəqərə surəsi, 200)

Allah yolunda çətinliklərlə qarşılaşanda inanclarından imtina edənlər

Məgər sən, özlərinə: "Müharibədən əl çəkin, namaz qılın və zəkat verin!" – deyilən kəsləri görmədinmi? Onlara vuruşmaq vacib edildikdə, içərilərindən bir dəstəsi Allahdan qorxduqları kimi və ya daha artıq qorxu ilə insanlardan qorxdular və: "Ey Rəbbimiz! Vuruşmağı nə üçün bizə vacib etdin? Nə olardı ki, bizə yaxın vaxtadək möhlət verəydin!" – dedilər. De: "Dünyanın ləzzəti azdır. Müttəqilər üçün isə axirət daha xeyirlidir. Sizə xurma çərdəyindəki lif qədər belə haqsızlıq edilməz".

(Nisa surəsi, 77)

Münafiqlər müttəfiqlərin çıxıb getmədiklərini güman edirlər. Əgər müttəfiqlər bir də gəlmiş olsaydı, onlar bədəvilər arasında köçəri həyat sürüb barənizdəki xəbərləri soruşub öyrənmək istəyərdilər. Hərgah aranızda olsaydılar, ancaq azacıq döyüşərdilər.

(Əhzab surəsi, 20)

Kitabdan özlərinə bir pay verilmiş kəsləri görmədinmi? Onlar, aralarında hökm versin deyə, Allahın Kitabına dəvət olunurlar, sonra da onlardan bir dəstə haqdan üz çevirir.

(Ali İmran surəsi, 23)

Əgər səfəriniz gəlir gətirən və yüngül bir yürüş olsaydı, onlar mütləq sənin ardınca gedərdilər. Lakin əziyyətli yol onlara çətin gəldi. Onlar: "Əgər taqətimiz olsaydı, biz də sizinlə bərabər çıxardıq!" – deyə Allaha and içəcəklər. Onlar özlərini həlak edirlər. Çünki Allah onların yalançı olduqlarını bilir.

(Tövbə surəsi, 42)

İnsanlar arasında: "Allaha iman gətirdik!" – deyənlər də vardır. Amma Allah yolunda əziyyətə məruz qaldıqda insanların fitnəsini Allahın əzabı ilə eyni tuturlar. Əgər Rəbbindən bir zəfər gəlmiş olsa, mütləq: "Biz də sizinlə idik!" – deyərlər. Məgər Allah yaradılmışların köksələrində olanları ən yaxşı bilən deyilmi?

(Ənkəbut surəsi, 10)

O zaman onlar sizin həm yuxarı və həm də aşağı tərəfinizdən üstünüzə gəlmişdilər. O vaxt qorxudan gözlər bərəlmiş, ürəklər xirtdəyə çatmış və siz də Allah barəsində zənnə-gümana qapılmışdınız.

(Əhzab surəsi, 10)

> *Orada möminlər imtahana çəkilmiş və güclü sarsıntıya məruz qalmışdılar.*
>
> **(Əhzab surəsi, 11)**

> *O zaman münafiqlər və qəlbində xəstəlik olanlar: "Allah və Onun Elçisi bizə ancaq yalan vədə vermişdir" – deyirdilər.*
>
> **(Əhzab surəsi, 12)**

> *Baxmayaraq ki, onlar bundan əvvəl cihaddan boyun qaçırmayacaqlarına dair Allaha söz vermişdilər. Onlar Allaha verdikləri sözə görə sorğu-sual olunacaqlar.*
>
> **(Əhzab surəsi, 15)**

> *De: "Əgər ölməkdən və ya öldürülməkdən qaçırsınızsa, bu qaçmaq qətiyyən sizə xeyir gətirməz. Belə olduğu təqdirdə siz ancaq əcəliniz çatana qədər çox az bir müddət ərzində gün-güzəran görəcəksiniz".*
>
> **(Əhzab surəsi, 16)**

Allah yolunda mübarizədən qaçanlar

De: "Əgər atalarınız, oğullarınız, qardaşlarınız, zövcələriniz, yaxın qohumlarınız, qazandığınız mallar, iflasa uğramasından qorxduğunuz alış-verişiniz və bəyəndiyiniz məskənlər sizə Allahdan, Onun Elçisindən və Onun yolunda cihaddan daha əzizdirsə, Allah Öz əmri ilə gəlincəyə qədər gözləyin. Allah günahkarları doğru yola yönəltməz".

(Tövbə surəsi, 24)

Allahın varlığını bildiyi halda iman etməyənlər

De: "Sizə göydən və yerdən ruzi verən kimdir? Qulaqlara və gözlərə hakim olan kimdir? Ölüdən diri çıxaran, diridən də ölü çıxaran kimdir? İşləri yoluna qoyan kimdir?" Onlar deyəcəklər: "Allah!" De: "Bəs belə olduğu halda Allahdan qorxmursunuz?"

(Yunis surəsi, 31)

Əgər sən onlardan: "Göyləri və yeri kim yaratmışdır?" – deyə soruşsan, onlar hökmən: "Allah!" – deyəcəklər. De: "Həmd olsun Allaha!" Lakin onların çoxu bunu bilmir.

(Loğman surəsi, 25)

> *Əgər onlardan özlərini kimin yaratdığını soruşsan, əlbəttə: "Allah!" – deyərlər. Gör necə də haqdan döndərilirlər!*
>
> **(Zuxruf surəsi, 87)**

> *Siz yəhudilərin sizə inanacaqlarınamı ümid edirsiniz? Halbuki onlardan bir zümrə var idi ki, Allahın Sözünü eşidib anladıqdan sonra, bilə-bilə onu təhrif edirdilər.*
>
> **(Bəqərə surəsi, 75)**

İnkarçılardan görəcəkləri təzyiq qorxusu ilə iman etməyənlər

> *Firon və onun əyanları tərəfindən özlərinə işgəncə veriləcəyindən qorxaraq Musaya öz qövmündən yalnız azsaylı bir nəsil iman gətirdi. Həqiqətən də, Firon yer üzündə qəddar hakim və həddi aşanlardan idi.*
>
> **(Yunis surəsi, 83)**

> *Kafirlər dedilər: "Əgər biz sənin lə birlikdə doğru yolla getsək, yurdumuzdan qovularıq". Məgər Biz onları Özümüzdən bir ruzi olaraq hər cür meyvənin gətirildiyi, müqəddəs, təhlükəsiz bir yerdə yerləşdirmədikmi? Lakin onların çoxu bunu bilmir.*
>
> **(Qəsas surəsi, 57)**

Yenidən dirilişə inanmayanlar

Əgər siz özünüz kimi adi bir insana itaət etsəniz, mütləq ziyana uğrayarsınız.

(Muminun surəsi, 34)

O sizə ölüb torpağa və sür-sümüyə çevrildikdən sonra dirildilib yenidən çıxarılacağınızımı vəd edir?

(Muminun surəsi, 35)

Sizə vəd olunan şey həqiqətdən çox uzaqdır, çox uzaq!

(Muminun surəsi, 36)

Dünya həyatımızdan başqa heç bir həyat yoxdur; ölüb dirilirik (birimiz ölür, digərimiz anadan olur) və biz dirilməyəcəyik.

(Muminun surəsi, 37)

Bu, ancaq Allaha iftira yaxan bir adamdır. Biz ona inanan deyilik".

(Muminun surəsi, 38)

> *Onlar deyirlər: "Biz torpağın içində yox olandan sonra yenidənmi yaradılacağıq?" Doğrusu, onlar öz Rəbbi ilə qarşılaşacaqlarını inkar edirlər.*
>
> **(Səcdə surəsi, 10)**

> *Bu, ayələrimizi inkar etdiklərinə və: "Məgər biz sür-sümük və ovuntu olduğumuz halda yeni bir məxluq olaraq dirildiləcəyik?" – dediklərinə görə onların cəzasıdır.*
>
> **(İsra surəsi, 98)**

Allah necə olsa məni bağışlayar deyənlər

> *Onlardan sonra Kitaba varis olan xələflər gəldilər. Onlar bu fani dünya malını alıb: "Biz bağışlanacağıq!" – deyirdilər. Onlara buna bənzər mənfəətlər yenə də gəlsəydi, onu da alardılar. Məgər Allah barəsində haqdan başqa bir şey söyləməyəcəklərinə dair onlardan Kitabda yazılmış əhd alınmamışdımı? Halbuki onlar Kitabda olanları oxuyub öyrənmişdilər. Axirət yurdu müttəqilər üçün daha xeyirlidir. Məgər anlamırsınız?*
>
> **(Əraf surəsi, 169)**

Özlərini cənnətlik zənn edənlər

O kəslər haqqında ki, onların dünya həyatındakı səyləri boşa çıxmışdır. Çünki onlar özlüyündə yaxşı işlər gördükləri gümanında idilər.

(Kəhf surəsi, 104)

Başına gələn bəladan sonra Özümüzdən ona bir mərhəmət daddırsaq, mütləq deyər: "Bu mənim haqqımdır və Mən o Saatın gələcəyini güman etmirəm. Rəbbimə qaytarılsam belə, Onun yanında mənim üçün ən gözəl nemət hazırlanar!" Biz kafirlərə nə etdiklərini mütləq xəbər verəcək və onlara hökmən ağır bir əzab daddıracağıq.

(Fussilət surəsi, 50)

O özünə zülm edərək bağına daxil olub dedi: "Bunun nə vaxtsa yox ola biləcəyini düşünmürəm.

(Kəhf surəsi, 35)

O Saatın gələcəyini də zənn etmirəm. Rəbbimin yanına qaytarılmalı olsam, sözsüz ki, bundan daha firavan bir həyat qismətim olacaq!"

(Kəhf surəsi, 36)

Onlar dedilər: "Yəhudilərdən və ya xaçpərəstlərdən başqa heç kəs Cənnətə daxil olmayacaq!" Bu onların xam xəyallarıdır. De: "Əgər doğru deyirsinizsə, dəlilinizi gətirin!"

(Bəqərə surəsi, 111)

De: "Əgər Allah yanında Axirət yurdu digər insanlara deyil, yalnız sizin üçün hazırlanıbsa və doğru deyirsinizsə, onda özünüzə ölüm diləyin!"

(Bəqərə surəsi, 94)

Yəhudilər və xaçpərəstlər: "Biz Allahın oğulları və Onun sevimliləriyik" – dedilər. De: "Onda nə üçün Allah sizə günahlarınıza görə əzab verir? Xeyr, siz də Onun yaratdığı bir bəşərsiniz". O, istədiyini bağışlar, istədiyinə də əzab verər. Göylərin, yerin və onların arasında olanların səltənəti Allaha məxsusdur. Dönüş də ancaq Onadır.

(Maidə surəsi, 18)

Cəhənnəmə getsə belə orada yalnız qısa bir müddət qalacağını, sonra cənnətə girəcəyini zənn edənlər

Bu, onların: "Od bizə ancaq bir neçə gün toxunar!" – demələrinə görədir. Onları uydurduqları şeylər öz dinlərində aldadıb yoldan çıxartdı.

(Ali İmran surəsi, 24)

> *Onlar dedilər: "Od bizə ancaq bir neçə gün toxunacaq!" De: "Məgər siz Allahdan əhd almısınız? Allah verdiyi əhdə əsla xilaf çıxmaz! Yoxsa Allaha qarşı bilmədiyinizi danışırsınız?"*
>
> **(Bəqərə surəsi, 80)**

İman etmək üçün möcüzə görməyi istəyənlər

> *Kafirlər dedilər: "Niyə ona Rəbbindən bir möcüzə endirilməyib?" De: "Şübhəsiz ki, Allah möcüzə endirməyə qadirdir. Lakin onların çoxu bunu bilmir".*
>
> **(Ənam surəsi, 37)**

> *Kafirlər Allahın adı ilə möhkəm and içdilər ki, əgər onlara bir ayə gəlsə, mütləq ona inanacaqlar. De: "Ayələr ancaq Allahın yanındadır. Siz haradan biləsiniz ki, o ayələr gəldikdə onlar yenə də iman gətirməyəcəklər?"*
>
> **(Ənam surəsi, 109)**

> *Onlar deyirlər: "Niyə ona Rəbbindən bir möcüzə endirilməyib?" De: "Qeyb ancaq Allaha aiddir. Gözləyin, şübhəsiz ki, mən də sizinlə birlikdə gözləyənlərdənəm".*
>
> **(Yunis surəsi, 20)**

Onlar: "Nə üçün ona mələk endirilməyib?" – dedilər. Əgər biz mələk endirsəydik, iş bitmiş olardı, onlara isə möhlət verilməzdi.

(Ənam surəsi, 8)

Özünü doğru yolda zənn edənlər

Biz onlara fasiq yoldaşlar qoşduq və bu dostlar onlara öndəkilərini və arxadakılarını gözəl göstərdilər (dünyanı sevdirib, axirəti unutdurdular). Onlardan əvvəl gəlib-getmiş cinlərdən və insanlardan olan ümmətlər barəsindəki Söz onlar barəsində də gerçək oldu. Həqiqətən də, onlar ziyana uğradılar.

(Fussilət surəsi, 25)

Gecə və gündüz, günəş və ay Onun dəlillərindəndir. Əgər siz Ona ibadət edirsinizsə, onda günəşə və aya səcdə etməyin, onları yaradan Allaha səcdə edin.

(Fussilət surəsi, 37)

Kim Mərhəmətli Allahın zikrindən üz döndərsə, Biz şeytanı ona calayarıq və o da ona yoldaş olar.

(Zuxruf surəsi, 36)

Münafiqlər onları haraylayıb deyəcəklər: "Məgər biz sizinlə birlikdə deyildikmi?" Möminlər deyəcəklər: "Bəli, lakin siz öz-özünüzü aldadırdınız, möminlərə bəla üz verməsini gözləyirdiniz, haqqa şübhə edirdiniz və Allahın əmri gələnədək xülyalar sizi yoldan çıxartdı. Tovlayan şeytan Allah barəsində sizi yaman aldatdı.

(Hədid surəsi, 14)

Onlara: "Allahın nazil etdiyinə inanın!" – deyildikdə, onlar: "Biz özümüzə nazil edilənə inanırıq" – deyib onun ardınca gələni inkar edirlər. Halbuki Quran onların yanında olanı təsdiqləyən bir həqiqətdir. De: "Əgər siz inanan idinizsə, bəs nə üçün əvvəllər Allahın peyğəmbərlərini öldürürdünüz?"

(Bəqərə surəsi, 91)

Pis əməli özünə gözəl göstərilib onu yaxşı hesab edənlə, doğru yolla gedən kimsə eyni ola bilərmi? Həqiqətən, Allah istədiyini zəlalətə salır, istədiyini də doğru yola yönəldir. Sən onlara görə özünü üzüb əldən salma. Şübhəsiz ki, Allah onların nə törətdiklərini bilir.

(Fatir surəsi, 8)

Etdiklərindən Allahı məsul tutanlar

Müşriklər deyəcəklər: "Allah istəsəydi, nə biz, nə də atalarımız Ona şərik qoşar, nə də biz bir şeyi haram edə bilərdik". Onlardan əvvəlkilər də öz peyğəmbərlərini beləcə yalançı hesab etmişdilər. Axırda əzabımızı daddılar. De: "Bizə göstərə biləcəyiniz bir bilginizmi var? Siz ancaq zənnə qapılır və ancaq yalan danışırsınız".

(Ənam surəsi, 148)

Mən sənin günahını üzərimə götürərəm deyənlər

Kim doğru yolla getsə, xeyri onun özünə olar, kim azğınlığa düşsə, ziyanı da onun öz əleyhinə olar. Heç bir günahkar başqasının günahını daşımaz. Biz elçi göndərməmiş heç kəsə əzab vermirdik.

(İsra surəsi, 15)

Kafirlər möminlərə: "Bizim yolumuzla gedin, günahlarınızı öz üstümüzə götürək" – deyirlər. Halbuki onların heç biri heç kimin günahının altına girən deyildir. Şübhəsiz ki, onlar yalançıdırlar.

(Ənkəbut surəsi, 12)

> *Onlar həm öz günah yüklərini və həm də onlarla yanaşı, neçə-neçə yükləri də daşıyacaqlar. Qiyamət günü onlar uydurduqları şeylər barəsində mütləq sorğu-suala çəkiləcəklər.*
>
> **(Ənkəbut surəsi, 13)**

> *Heç bir günahkar başqasının günah yükünü daşımaz. Yükü ağır olan kimsə öz yükünü daşımaq üçün başqasını köməyə çağırsa və çağırdığı kimsə yaxın qohumu olsa belə, o yükdən heç nə daşınmaz. Sən ancaq Rəbbindən Onu görmədikləri halda qorxanları və namaz qılanları xəbərdar edirsən. Kim günahlardan təmizlənirsə, öz xeyrinə təmizlənmiş olur. Qayıdış də ancaq Allahadır.*
>
> **(Fatir surəsi, 18)**

Dindar yaxınlarının özlərini hesab günündə qurtaracaqlarını düşünənlər

> *Allah kafirlərə Nuhun arvadı ilə Lutun arvadını misal çəkdi. Onlar Bizim əməlisaleh qullarımızdan iki qulun nikahı altında idilər. Onlar ərlərinə xəyanət etdilər və bunlar onları Allahdan heç cür xilas edə bilmədilər. Onlara: "Girənlərlə birgə ikiniz də oda girin!" – deyildi.*
>
> **(Təhrim surəsi, 10)**

Əksəriyyətə görə hərəkət edənlər

> *Kafirlər dedilər: "Biz nə bu Qurana, nə də bundan əvvəlkilərə əsla inanmayacağıq!" Kaş sən o zalımları öz Rəbbinin hüzurunda saxlanılıb bir-birinə söz qaytardıqları anda görəydin. Zəiflər, öz şəxsiyyətləri haqda yüksək rəydə olanlara deyəcəklər: "Əgər siz olmasaydınız, biz iman gətirərdik".*
>
> **(Səba surəsi, 31)**

> *Əgər sən yer üzündə olanların əksəriyyətinə itaət etsən, onlar səni Allah yolundan azdırarlar. Onlar ancaq zənnə qapılır və ancaq yalan uydururlar.*
>
> **(Ənam surəsi, 116)**

> *Artıq onlar çoxlarını azdırmışlar. Sən də zalımlara azğınlıqdan başqa bir şey artırma".*
>
> **(Nuh surəsi, 24)**

Dini, mənfəətlərinə vasitə edənlər

Ey iman gətirənlər! Baş keşişlərdən və rahiblərdən çoxu insanların mallarını haqsız olaraq yeyir və onları Allah yolundan döndərirlər. Qızıl-gümüş yığıb onları Allah yolunda sərf etməyənləri ağrılı-acılı bir əzabla müjdələ.

(Tövbə surəsi, 34)

Vay o şəxslərin halına ki, onlar öz əlləri ilə kitab yazır, sonra da: "Bu, Allah tərəfindəndir!" – deyirlər ki, onunla cüzi miqdarda pul əldə edə bilsinlər. Öz əlləri ilə yazdıqlarına görə vay onların halına! Qazandıqları şeyə görə vay onların halına!

(Bəqərə surəsi, 79)

Şübhəsiz ki, Allahın nazil etdiyi kitabda olanları gizli saxlayanlar və bununla cüzi miqdarda pul əldə edənlər öz qarınlarına oddan başqa bir şey doldurmurlar. Qiyamət günü Allah onları danışdırmaz və onları təmizə çıxarmaz. Onlar üçün ağrılı-acılı bir əzab vardır.

(Bəqərə surəsi, 174)

Allaha qarşı yalan uydurandan və ya özünə vəhy olunmadığı halda: "Mənə də vəhy olunmuşdur" – söyləyəndən və: "Mən də Allahın nazil etdiyinin bənzərini endirəcəyəm" – deyəndən daha zalım kim ola bilər? Zalımları ölüm girdabında olduqda, mələklərin də əllərini uzadıb: "Canlarınızı çıxarın! Allaha qarşı nahaq sözlər söylədiyinizə və Onun ayələrinə təkəbbür göstərdiyinizə görə bu gün siz cəzalandırılacaqsınız!" – dediklərini bircə görəydin.

(Ənam surəsi, 93)

Ey iman gətirənlər! Sədəqələrinizi, özünü camaata göstərmək məqsədilə xərcləyən, Allaha və Axirət gününə inanmayan şəxs kimi minnət qoymaqla və əziyyət verməklə puç etməyin. Bunun məsəli üzərində torpaq olan hamar qayanın məsəlinə bənzəyir ki, şiddətli yağış yağıb onu çılpaq hala salmışdır. Onlar qazandıqlarından heç bir şeyə nail olmazlar. Allah kafir xalqı doğru yola yönəltməz.

(Bəqərə surəsi, 264)

Onlardan elə bir dəstə də vardır ki, oxuduqlarını Kitabdan hesab edəsiniz deyə Kitabı oxuyarkən dillərini əyib bükürlər. Halbuki bu, Kitabdan deyildir. Onlar: "Bu, Allah tərəfindəndir!" – deyirlər. Halbuki o, Allah tərəfindən deyildir. Onlar bilə-bilə Allaha qarşı yalan danışırlar.

(Ali İmran surəsi, 78)

İman edənləri özlərindən aşağı görənlər

Qövmünün kafir zadəganları dedilər: "Biz səni səfeh sayırıq və həqiqətən də, səni yalançılardan hesab edirik!"

(Əraf surəsi, 66)

Onlara: "Bu insanlar iman gətirdiyi kimi siz də iman gətirin!" – deyildiyi zaman: "Biz də səfehlərin iman gətirdikləri kimi iman gətirək?" – deyirlər. Doğrusu, onlar özləri səfehdirlər, lakin bunu bilmirlər.

(Bəqərə surəsi, 13)

Onlar dedilər: "Sənə ən rəzil adamlar tabe olduğu halda biz sənə inanarıqmı?"

(Şuəra surəsi, 111)

Ya da mən bu aciz və az qala sözünü belə aydın başa sala bilməyən adamdan daha üstün deyiləmmi?

(Zuxruf surəsi, 52)

Onlar: "Əgər biz Mədinəyə qayıtsaq, ən qüdrətlilər (münafiqlər) ən alçaqları (müsəlmanları) mütləq oradan çıxardacaqlar!" – deyirlər. Halbuki qüdrət yalnız Allaha, Onun Elçisinə və möminlərə məxsusdur, lakin bunu münafiqlər bilmirlər.

(Münafiqun surəsi, 8)

Onun qövmünün kafir zadəganları dedilər: "Biz səni özümüz kimi sadəcə bir insan hesab edir və içimizdən ancaq düşüncəsiz olan ən rəzil adamların sənə qoşulduğunu görürük. Həmçinin sizin bizdən üstün olduğunuzu da görmürük. Əksinə, biz sizi yalançı hesab edirik".

(Hud surəsi, 27)

Kafirlər möminlərə dedilər: "Əgər Quran xeyirli bir şey olsaydı, onlar bunda bizi qabaqlaya bilməzdilər!" Onlar bununla doğru yola gəlmədikləri üçün: "Bu, köhnə yalandır!" – deyəcəklər.

(Əhqaf surəsi, 11)

Doğrudan da, günah edənlər iman gətirənlərə gülürdülər,

(Mutaffifin surəsi, 29)

onların yanından keçdikdə bir-birinə qaş-göz edirdilər,

(Mutaffifin surəsi, 30)

Qurandakı bilik və hikməti dəyərsiz görənlər

> *Ayələrimiz onlara oxunduğu zaman deyərlər: "Artıq eşitdik. İstəsək, biz də buna bənzərini deyə bilərik. Bu, keçmişdəkilərin əfsanələrindən başqa bir şey deyildir".*
>
> **(Ənfal surəsi, 31)**

> *Ayələrimiz ona oxunduğu zaman: "Bu, keçmişdəkilərin əsatirlərindəndir!" – deyər.*
>
> **(Qələm surəsi, 15)**

> *Bu dirilmə həm bizə, həm də əvvəllər atalarımıza vəd olunmuşdu. Bu, keçmişdəkilərin əfsanələrindən başqa bir şey deyil.*
>
> **(Muminun surəsi, 83)**

Quranın bir qisminə inanıb, bir qisminə inanmayanlar

Siz o kəslərsiniz ki, bir-birinizi öldürürsünüz, özünüzdən olan bir dəstəni öz yurdundan çıxarırsınız, onlara qarşı pislik və düşmənçilik etməkdə bir-birinizə kömək edirsiniz. Onlar əsir tutulub yanınıza gətiriləndə, fidyə verib onları azad edirsiniz. Halbuki onları yurdlarından çıxartmaq sizə haram edilmişdi. Yoxsa siz Kitabın bir qisminə inanıb, digər qismini inkarmı edirsiniz? Sizlərdən bunu edənin cəzası dünya həyatında rüsvay olmaq, Qiyamət günü isə ən şiddətli əzaba məhkum olmaqdır. Allah sizin etdiklərinizdən bixəbər deyildir.

(Bəqərə surəsi, 85)

Öz ağıllarına görə halal-haramlar çıxaranlar

Əgər sən yer üzündə olanların əksəriyyətinə itaət etsən, onlar səni Allah yolundan azdırarlar. Onlar ancaq zənnə qapılır və ancaq yalan uydururlar.

(Ənam surəsi, 116)

Axmaqlıqları üzündən dərk etmədən öz övladlarını öldürən və Allahın onlara verdiyi ruzini Allaha iftira ataraq haram edənlər, əlbəttə, ziyana uğramışlar. Onlar azdılar və doğru yola yönəlmədilər.

(Ənam surəsi, 140)

Ey iman gətirənlər! Allahın sizə halal buyurduğu təmiz ruziləri haram etməyin və həddi aşmayın. Həqiqətən, Allah həddi aşanları sevmir.

(Maidə surəsi, 87)

Onlar öz batil iddialarına görə: "Bu mal-qara və əkinlər haramdır. Bunları bizim istədiklərimizdən başqa heç kəs yeyə bilməz" – deyirlər. Müşriklər mal-qaradan bəzisinə minməyi haram edir, bəzisini də kəsərkən üstündə Allahın adını çəkmirlər. Onlar bunu Allaha iftira ataraq edirlər. O da onları atdıqları iftiraya görə cəzalandıracaqdır.

(Ənam surəsi, 138)

Allah, o heyvanlardan səkkiz cift yaratdı; qoyundan ikisini və keçidən ikisini. De: "O, iki erkəyi haram buyurdu, yoxsa iki dişini, yaxud iki dişinin qarnındakı balaları? Əgər doğru danışanlarsınızsa, elmə əsaslanıb bu haqda mənə xəbər verin".

(Ənam surəsi, 143)

> *Dəvədən də ikisini, inəkdən də ikisini. De: "O, iki erkəyi haram buyurdu, yoxsa iki dişini, yaxud iki dişinin qarnındakı balaları? Yoxsa Allah bunu sizə tövsiyə etdiyi zaman şahid idiniz?" Elmsiz olaraq insanları azdırmaq üçün Allaha qarşı yalan uyduran kimsədən daha zalım kim ola bilər? Şübhəsiz ki, Allah zalım qövmü doğru yola yönəltməz.*
>
> **(Ənam surəsi, 144)**

> *De: "Şahidlərinizi gətirin şəhadət versinlər ki, bunu Allah haram buyurmuşdur". Əgər onlar şəhadət versələr, sən onlarla birlikdə şəhadət vermə. Ayələrimizi yalan sayanların və axirətə inanmayanların istəklərinə uyma. Onlar başqalarını öz Rəbbinə tay tuturlar.*
>
> **(Ənam surəsi, 150)**

Quranı peyğəmbər yazdı deyənlər

> *Yoxsa: "Məhəmməd onu özündən uydurdu!" – deyirlər. De: "Əgər doğru danışırsınızsa, ona bənzər bir surə də siz gətirin və Allahdan başqa, kimi bacarırsınızsa, köməyə çağırın!"*
>
> **(Yunis surəsi, 38)**

Yoxsa onlar: "Bunu özündən uydurdu!" – deyirlər. De: "Əgər mən onu özümdən uydurmuşamsa, günahım özümə aiddir. Lakin mən sizin etdiyiniz günahlardan uzağam".

(Hud surəsi, 35)

Yaxud: "Bunu özündən uydurmuşdur!" – deyirlər. De: "Əgər mən onu uydurmuşamsa, siz məni Allahdan gələn heç bir cəzadan xilas edə bilməzsiniz. O sizin Quran haqqındakı söz-söhbətlərinizi daha yaxşı bilir. Mənimlə sizin aranızda şahid kimi Allah yetər. O, Bağışlayandır, Rəhmlidir".

(Əhqaf surəsi, 8)

Quranı bəyənməyənlər

Açıq-aydın ayələrimiz onlara oxunduğu zaman Bizimlə qarşılaşacaqlarına ümid etməyənlər deyərlər: "Bizə bundan başqa bir Quran gətir və ya onu dəyişdir!" De: "Mən onu öz istəyimlə dəyişdirə bilmərəm. Mən yalnız mənə vəhy olunana tabe oluram. Əgər Rəbbimə asi olsam, böyük günün əzabından qorxuram".

(Yunis surəsi, 15)

Kitab verilənlərdən Allaha və Axirət gününə iman gətirməyən, Allahın və Onun Elçisinin haram buyurduğunu haram saymayan və həqiqi din olan İslama etiqad etməyənlərlə, zəlil günə qalıb öz əlləri ilə cizyə verməyə məcbur oluncaya qədər vuruşun.

(Tövbə surəsi, 29)

Həqiqi imana sahib olanlar çox azdır

Sən bir hənif kimi üzünü dinə tərəf çevir! Allahın insanlara – xəlq etdiyi şüurlu məxluq kimi verdiyi fitrət budur. Allahın yaratdığını heç cür dəyişdirmək olmaz. Doğru din budur, lakin insanların çoxu bunu bilmir.

(Rum surəsi, 30)

Həqiqətən, göylərin və yerin yaradılması insanların yaradılmasından daha böyük şeydir. Lakin insanların çoxu bunu bilmir.

(Mümin surəsi, 57)

Korla görən, iman gətirib yaxşı işlər görənlərlə pislik edənlər eyni deyildir. Necə də az düşünüb daşınırsınız!

(Mümin surəsi, 58)

∪ Saat mütləq gələcəkdir, bunda heç bir şübhə yoxdur. Lakin insanların əksəriyyəti buna inanmır.

(Mümin surəsi, 59)

Sən nə qədər çox istəsən də, insanların əksəriyyəti iman gətirən deyildir.

(Yusif surəsi, 103)

Budur Allahın vədi. Allah Öz vədinə xilaf çıxmaz. Amma insanların əksəriyyəti bunu bilmir.

(Rum surəsi, 6)

Onlar Allaha möhkəm and içdilər ki: "Allah ölən bir kəsi diriltməyəcəkdir!" Xeyr! Allahın ölüləri diriltməsi Onun doğru vədinə görə olacaq, lakin insanların çoxu bunu bilmirlər.

(Nəhl surəsi, 38)

Onların çoxu ancaq şərik qoşaraq Allaha iman gətirir.

(Yusif surəsi, 106)

Əlif. Ləm. Mim. Ra. Bunlar Kitabın ayələridir. Rəbbindən sənə nazil edilən həqiqətdir, lakin insanların çoxu buna inanmır.

(Rad surəsi, 1)

De: "Allah sizə həyat verir, sonra öldürür, sonra da sizi gələcəyinə heç bir şəkk-şübhə olmayan Qiyamət günü dirildib bir yerə toplayacaqdır". Lakin insanların çoxu bunu bilmir.

(Casiyə surəsi, 26)

Bütün peyğəmbərlər haqq dinə çağırmışlar

İbrahim də, Yaqub da bunu oğullarına vəsiyyət etdilər: "Ey oğullarım! Həqiqətən, Allah bu dini sizin üçün seçmişdir. Siz də ancaq müsəlman olaraq ölməlisiniz!"

(Bəqərə surəsi, 132)

Yoxsa siz İbrahimin, İsmailin, İshaqın, Yaqubun və onun nəslinin yəhudi və yaxud xaçpərəst olduğunu deyirsiniz? De: "Siz daha yaxşı bilirsiniz, yoxsa Allah?" Allahın onlara nazil etdiyi şəhadəti gizlədən kimsələrdən daha zalım kim ola bilər? Allah sizin etdiklərinizdən xəbərsiz deyildir.

(Bəqərə surəsi, 140)

Həqiqətən, Allah yanında qəbul olunan din, İslamdır! Kitab verilənlər ancaq özlərinə elm gəldikdən sonra aralarındakı zülm və həsəd üzündən ixtilafa düşdülər. Kim Allahın ayələrini inkar edərsə, bilsin ki, Allah tez haqq-hesab çəkəndir.

(Ali İmran surəsi, 19)

Biz hər ümmətə: "Allaha ibadət edin, tağutdan uzaq olun" – deyə, elçi göndərdik. Onlardan kimisini Allah doğru yola yönəltmiş, kimisinə də azmaq nəsib etmişdir. Yer üzündə gəzib dolaşın və görün haqqı yalan sayanların aqibəti necə oldu!

(Nəhl surəsi, 36)

İbrahim nə yəhudi, nə də nəsrani idi. O, ancaq hənif bir müsəlman idi və müşriklərdən deyildi.

(Ali İmran surəsi, 67)

Allah Nuha tövsiyə etdiyini, sənə vəhy etdiyimizi, İbrahimə, Musaya və İsaya tövsiyə etdiyimizi sizin üçün də dində qanun etdi: "Dinə doğru-düzgün etiqad edin və onda bölünüb firqə-firqə olmayın!" Sənin dəvət etdiyin tövhid müşriklərə ağır gəldi. Allah istədiyi kəsi Özü üçün seçər və Ona üz tutanı Özünə tərəf yönəldər.

(Şura surəsi, 13)

De: "Ey Kitab əhli! Bizim və sizin aranızda olan eyni bir kəlməyə gəlin ki, Allahdan başqasına ibadət etməyək, Ona heç bir şeyi şərik qoşmayaq və Allahı qoyub bir-birimizi ilahiləşdirməyək". Əgər onlar üz döndərsələr, deyin: "Şahid olun ki, biz müsəlmanlarıq!"

(Ali İmran surəsi, 64)

İslamdan başqa bir din axtaran şəxsdən, o din heç vaxt qəbul olunmaz və o, axirətdə ziyana uğrayanlardan olar.

(Ali İmran surəsi, 85)

De: "Biz Allaha, bizə nazil edilənə, İbrahimə, İsmailə, İshaqa, Yaquba və onun nəslinə nazil edilənlərə, Musaya, İsaya və peyğəmbərlərə öz Rəbbi tərəfindən verilənlərə iman gətirdik. Biz onların heç birinin arasında fərq qoymuruq. Biz təkcə Ona təslim olanlarıq!"

(Ali İmran surəsi, 84)

Allah yolunda lazımınca cihad edin. O, sizi seçdi və atanız İbrahimin dinində olduğu kimi, bu dində də sizin üçün heç bir çətinlik yaratmadı. Peyğəmbər sizə, siz də insanlara şahid olasınız deyə, Allah həm əvvəl nazil etdiyi kitablarda, həm də bu Kitabda sizi müsəlman adlandırdı. Elə isə namaz qılın, zəkat verin və Allaha möhkəm sarılın. O sizin Himayədarınızdır. O nə gözəl Himayədar, nə gözəl Yardımçıdır!

(Həcc surəsi, 78)

Allahın iman etməyənlərə sualları

Əgər sən onlardan: "Göyləri və yeri yaradan, günəşi və ayı ram edən kimdir?" – deyə soruşsan, onlar mütləq: "Allahdır!" – deyəcəklər. Onlar necə də haqdan döndərilirlər!

(Ənkəbut surəsi, 61)

Bəlkə onlar öz-özünə yaranıblar? Yaxud onlar yaradanlardır?

(Tur surəsi, 35)

Yoxsa onlar göyləri və yeri yaradıblar? Xeyr, onlar qətiyyən inanmırlar.

(Tur surəsi, 36)



Qiyamət günü haqqında soruşulan sual

Axıtdığınız nütfəni gördünüzmü?

(Vaqiə surəsi, 58)

Onu siz yaradırsınız, yoxsa Biz?

(Vaqiə surəsi, 59)

Yoxsa sən onlardan bir mükafat istəyirsən və onlar da borclu qaldıqlarına görə ağır yük altındadırlar?

(Tur surəsi, 40)

Yoxsa onlar qeybi bilir və onu yazırlar?

(Tur surəsi, 41)

Yoxsa bir hiylə qurmaq istəyirlər? Amma kafirlər özləri o hiylənin qurbanı olacaqlar.

(Tur surəsi, 42)

Yoxsa onların Allahdan başqa bir məbudu var? Allah onların qoşduqları şəriklərdən uzaqdır.

(Tur surəsi, 43)

Sizi Biz yaratdıq. Bəs nə üçün dirildiləcəyinizi təsdiq etmirsiniz?

(Vaqiə surəsi, 57)

> *Siz ilk yaradılışı bilirsiniz. Bəs nə üçün dirildiləcəyiniz barədə düşünmürsünüz?*
>
> **(Vaqiə surəsi, 62)**

> *Əkdiyinizi gördünüzmü?*
>
> **(Vaqiə surəsi, 63)**

> *Onu siz bitirirsiniz, yoxsa Biz?*
>
> **(Vaqiə surəsi, 64)**

> *Əgər Biz istəsəydik, onu bir saman çöpünə döndərər, siz də heyrətə gələrdiniz,*
>
> **(Vaqiə surəsi, 65)**

> *Yandırdığınız odu gördünüzmü?*
>
> **(Vaqiə surəsi, 71)**

> *Onun ağacını siz yaradırsınız, yoxsa Biz?*
>
> **(Vaqiə surəsi, 72)**

> *O, heç kəsin ona gücü çatmayacağınımı güman edir?*
>
> **(Bələd surəsi, 5)**

> *O deyir: "Mən çoxlu var-dövlət sərf etmişəm!"*
>
> **(Bələd surəsi, 6)**

> *O, heç kəsin onu görməyəcəyinimi zənn edir?*
>
> **(Bələd surəsi, 7)**

> *Məgər ona iki gözü Biz verməmişikmi?*
>
> **(Bələd surəsi, 8)**

> *Bir dillə iki dodaq verməmişikmi?*
>
> **(Bələd surəsi, 9)**

> *Məgər onlar Allahın hər şeyi bürüyən əzabının onları qaplamayacağına və ya özləri də hiss etmədən o Saatın onlara qəflətən gəlməyəcəyinə əmindirlərmi?*
>
> **(Yusif surəsi, 107)**

Göyləri və yeri yaradan onların eynisini yenidən xəlq etmək qüdrətinə malik olmazmı?! Şübhəsiz ki, O, Yaradandır, Biləndir.

(Yasin surəsi, 81)

Məgər onlar göylərin və yerin səltənətinə, Allahın yaratdığı hər şeyə, əcəllərinin yaxınlaşa biləcəyinə diqqət yetirmirlərmi? Bundan sonra hansı sözə inanacaqlar?

(Əraf surəsi, 185)

Onlar dedilər: "Nə üçün bu Quran iki şəhərdən (Məkkədən və ya Taifdən) olan böyük bir adama nazil edilmədi?"

(Zuxruf surəsi, 31)

Sənin Rəbbinin mərhəmətini onlarmı bölüşdürürlər? Biz dünya həyatında onların dolanışıqlarını aralarında bölüşdürdük. Biri digərini öz yanına işçi götürsün deyə, bəzilərinin dərəcələrini digərlərindən üstün etdik. Sənin Rəbbinin mərhəməti onların yığdıqlarından daha xeyirlidir.

(Zuxruf surəsi, 32)

Məgər insan ilk əvvəl onu heç bir şey deyilkən yaratdığımızı xatırlamırmı?

(Məryəm surəsi, 67)

De: "Deyin görüm, əgər suyunuz yerin dibinə çöksə, Allahdan başqa kim sizə axar su gətirə bilər?"

(Mülk surəsi, 30)

Sözsüz ki, ayələrimizdən üz döndərənlər Bizdən gizli qalmazlar. Onda deyin görək oda atılan kimsə yaxşıdır, yoxsa Qiyamət gününə əmin-amanlıq içində gələn kimsə? İstədiyinizi edin! Həqiqətən, O, nə etdiklərinizi görür.

(Fussilət surəsi, 40)

De: "Bir deyin görək, əgər Quran Allah tərəfindəndirsə, sonra da siz onu inkar edirsinizsə, bunu necə başa düşmək olar?! Elə isə haqdan uzaq bir ayrılıq içində olan kəsdən daha çox azmış kim ola bilər?

(Fussilət surəsi, 52)

Biz onu (həmin hadisəni) nəsillərə ibrət üçün saxladıq. Amma heç bir yada salan varmı?

(Qamər surəsi, 15)

Görəydin Mənim əzabım və qorxutmağım necə oldu!

(Qamər surəsi, 16)

Biz Quranı yada salmaq üçün asanlaşdırdıq. Amma heç bir yada salan varmı?

(Qamər surəsi, 17)

Biz neçə-neçə həmtaylarınızı məhv etmişik. Amma heç yada salan varmı?

(Qamər surəsi, 51)

Elə isə üzü üstə sürünərək gedən daha doğru yoldadır, yoxsa düz yolda özü şax gedən?

(Mülk surəsi, 22)

Bunlar Allahın ayələridir. Biz onları sənə bir həqiqət kimi oxuyuruq. Onlar Allaha və Onun dəlillərinə dair sözə inanmadıqdan daha sonra hansı sözə inanacaqlar?!

(Casiyə surəsi, 6)

Biz heç müsəlmanları günahkarlara tay tutarıqmı?

(Qələm surəsi, 35)

Sizə nə olub, necə hökm verirsiniz?

(Qələm surəsi, 36)

Yoxsa sizin elə bir kitabınız vardır ki, üsyankarla itaətkarın eyni olduğunu ondan oxuyursunuz?

(Qələm surəsi, 37)

Ya da onda bəyəndiyiniz hər bir şeyin sizin olacağı yazılmışdır?

(Qələm surəsi, 38)

Yaxud Bizimlə Qiyamət gününədək əhd bağlamısınız ki, istədiyiniz hər şey sizin olacaqdır?

(Qələm surəsi, 39)

Onlardan soruş ki, kim buna zamin duracaqdır?

(Qələm surəsi, 40)

> *Yoxsa onların şərikləri vardır? Əgər doğru danışırlarsa, onda qoy şəriklərini gətirsinlər.*
>
> **(Qələm surəsi, 41)**

> *Möminləri qoyub kafirləri özlərinə dost tutanlar gücü və əzəməti onlardamı axtarırlar? Halbuki qüvvət və əzəmət tamamilə Allaha məxsusdur.*
>
> **(Nisa surəsi, 139)**

> *De: "Göylərin və yerin Rəbbi kimdir?" De: "Allahdır!" De: "Siz Onu qoyub özlərinə nə bir fayda, nə də bir zərər verməyə qadir olmayanlarımı özünüzə dost tutursunuz?" De: "Korla görən eyni ola bilərmi? Yaxud zülmətlə nur eyni ola bilərmi?" Yoxsa onlar Allaha, Onun yaratdığı kimi yaradan şəriklər tapdılar və bu yaradılış onlara bənzər göründü? De: "Hər şeyi yaradan Allahdır. O Təkdir, hər şeyə Qalib gələndir".*
>
> **(Rad surəsi, 16)**

> *Ya da O Öz ruzisini kəssə, sizə kim ruzi verə bilər? Xeyr, onlar təkəbbür göstərməkdə və haqdan qaçmaqda davam edirlər.*
>
> **(Mülk surəsi, 21)**

Bəlkə insan özbaşına qoyulacağını güman edir?

(Qiyamət surəsi, 36)

Məgər o, kişi toxumundan axıdılan bir damla nütfə deyildimi?

(Qiyamət surəsi, 37)

Sonra laxtalanmış qan oldu. Allah onu yaradıb kamil bir görkəmə saldı.

(Qiyamət surəsi, 38)

Ondan da bir cüt kişi və qadın yaratdı.

(Qiyamət surəsi, 39)

Məgər O, ölüləri diriltməyə qadir deyil?

(Qiyamət surəsi, 40)

Allahı necə inkar edirsiniz ki, siz ölü idiniz, O sizi diriltdi? Sonra O sizi öldürəcək və yenə dirildəcək, daha sonra isə siz Ona qaytarılacaqsınız.

(Bəqərə surəsi, 28)

De: "Bir deyin görək, əgər Allah sizin eşitmə və görmə qabiliyyətinizi əlinizdən alsa, qəlblərinizə möhür vursa, Allahdan başqa hansı məbud onları sizə qaytara bilər?" Bax gör, Biz ayələri necə izah edirik, sonra onlar yenə üz çevirirlər.

(Ənam surəsi, 46)

De: "Allaha qoşduğunuz şəriklərdən eləsi varmı ki, hər hansı bir məxluqu ilk dəfə yaratsın, öldükdən sonra onu əvvəlki halına qaytarsın?" De: "Məxluqu ilk dəfə Allah yaradır, öldükdən sonra onu əvvəlki halına qaytarır. Siz necə də haqdan döndərilirsiniz!"

(Yunis surəsi, 34)

Məgər onlar göylərin və yerin səltənətinə, Allahın yaratdığı hər şeyə, əcəllərinin yaxınlaşa biləcəyinə diqqət yetirmirlərmi? Bundan sonra hansı sözə inanacaqlar?

(Əraf surəsi, 185)

Məgər onlar özlərindən əvvəl neçə-neçə nəsilləri məhv etdiyimizi görmədilərmi? Biz onlara yer üzündə sizə vermədiyimiz imkanları vermişdik. Onların üzərinə göydən bol-bol yağış yağdırmış və evlərinin altından çaylar axıtmışdıq. Biz onları günahlarına görə həlak etdik və onlardan sonra başqa nəsillər yaratdıq.

(Ənam surəsi, 6)

Allahın sizi quruda yerə batırmayacağına, yaxud üstünüzə daş-kəsəkli tufan göndərməyəcəyinə əminsinizmi? Sonra sizi qoruyan da tapa bilməzsiniz.

(İsra surəsi, 68)

Məgər onlar Quran barəsində düşünmürlərmi? Əgər o, Allahdan başqası tərəfindən olsaydı, əlbəttə, onda çoxlu ziddiyyət tapardılar.

(Nisa surəsi, 82)

Yoxsa hökmranlıqdan onların bir payı vardır? Elə olsaydı, onlar insanlara xurma çərdəyinin bir qırıntısını belə verməzdilər.

(Nisa surəsi, 53)

Məgər onlar Allaha və Axirət gününə iman gətirib Allahın onlara verdiyi ruzidən Onun yolunda xərcləsəydilər, nə itirərdilər? Allah onların hər bir işini bilir.

(Nisa surəsi, 39)

Ya da O Öz ruzisini kəssə, sizə kim ruzi verə bilər? Xeyr, onlar təkəbbür göstərməkdə və haqdan qaçmaqda davam edirlər.

(Mülk surəsi, 21)

‘Yoxsa onlar Allahın dinindən başqa bir din axtarırlar? Halbuki göylərdə və yerdə olan hər bir məxluq istər-istəməz Ona təslim olmuş və Ona da qaytarılacaqdır.

(Ali İmran surəsi, 83)

Onlara: “Allahın nazil etdiyinə tabe olun!” – deyildikdə, onlar: “Xeyr, biz atalarımızın tutduğu yolu tutacağıq!” – deyirlər. Bəs ataları bir şey anlamayıb doğru yola yönəlməyiblərsə necə?

(Bəqərə surəsi, 170)

Onlar dedilər: “Od bizə ancaq bir neçə gün toxunacaq!” De: “Məgər siz Allahdan əhd almısınız? Allah verdiyi əhdə əsla xilaf çıxmaz! Yoxsa Allaha qarşı bilmədiyinizi danışırsınız?”

(Bəqərə surəsi, 80)

De: “Doğru danışanlarsınızsa, deyin görüm, əgər sizə Allahın əzabı gəlsə və ya həmin Saat sizi haqlayarsa, Allahdan başqasınımı çağıracaqsınız?”

(Ənam surəsi, 40)

Onlar dedilər: “Bəs nə üçün Rəbbindən ona möcüzə nazil olmadı?” De: “Möcüzələr ancaq Allahdadır. Mən isə ancaq açıq-aydın xəbərdarlıq edənəm”.

(Ənkəbut surəsi, 50)

Onlara oxunan Kitabı sənə nazil etməyimiz onlar üçün kifayət deyilmi? Həqiqətən, bunda iman gətirən adamlar üçün mərhəmət və ibrət vardır.

(Ənkəbut surəsi, 51)

Ey insanlar! Allahın sizə verdiyi lütfünü bir xatırlayın. Allahdan başqa sizə göylərdən və yerdən ruzi verən bir xaliq varmı? Ondan başqa heç bir məbud yoxdur. Siz necə də haqdan döndərilirsiniz!

(Fatir surəsi, 3)

Onlar orada fəryad qoparıb yalvaracaqlar: “Ey Rəbbimiz! Bizi buradan çıxart ki, əvvəllər etdiyimiz əməlləri deyil, yaxşı əməllər edək”. Onlara deyiləcək: “Məgər orada sizə düşünəcək kimsənin düşünə biləcəyi qədər uzun ömür vermədikmi? Sizə qorxudub xəbərdar edən də gəlmişdi. Elə isə dadın əzabı! Zalımlara kömək edən olmaz”.

(Fatir surəsi, 37)

De: "Həmd olsun Allaha, salam olsun Onun seçdiyi qullarına! Allah yaxşıdır, yoxsa Ona şərik qoşduqlarınız?

(Nəml surəsi, 59)

Məgər onlar yer üzündə gəzib dolaşaraq özlərindən öncəkilərin aqibətini görmədilərmi? Onlar bunlardan da güclü idilər. Onlar torpağı şumlayır, yer üzünü bunlardan daha çox abadlaşdırırdılar. Elçiləri onlara açıq-aydın möcüzələr gətirirdilər. Onlara Allah zülm etmirdi. Onlar özləri özlərinə zülm etmişdilər.

(Rum surəsi, 9)

İçdiyiniz suyu gördünüzmü?

(Vaqiə surəsi, 68)

Onu buluddan siz endirirsiniz, yoxsa Biz?

(Vaqiə surəsi, 69)

Əgər istəsəydik, onu acı edərdik. Bəs nə üçün şükür etmirsiniz?

(Vaqiə surəsi, 70)

De: "Bir deyin görək, əgər Allah gündüzü üstünüzdə qiyamətə qədər uzatsa, Allahdan başqa hansı məbud dincəldiyiniz gecəni sizə gətirə bilər? Məgər siz görmürsünüz?"

(Qəsas surəsi, 72)

Yoxsa onlar ancaq ya mələklərin, ya Rəbbinin və yaxud da Rəbbinin bəzi əlamətlərinin gəlməsini gözləyirlər? Rəbbinin bəzi əlamətləri gələcəyi gün əvvəlcə iman gətirməmiş və ya imanında bir xeyir qazanmamış kimsəyə iman gətirməsi fayda verməyəcəkdir. De: "Gözləyin, şübhəsiz ki, Biz də gözləyirik".

(Ənam surəsi, 158)

Məgər kafirlər bu Söz haqqında düşünmürlərmi? Yaxud onlara ulu babalarına gəlməyən bir şey gəldi?

(Muminun surəsi, 68)

Məgər insan onu nütfədən yaratdığımızı görmür? Budur, o indi açıq-aşkar mübahisə edir.

(Yasin surəsi, 77)

Məgər onlar görmürlər ki, göyləri və yeri yaradan Allah onlar kimisini də yaratmağa qadirdir? Allah onlar üçün elə bir əcəl müəyyən etmişdir ki, ona heç bir şəkk-şübhə yoxdur. Zalımlar isə küfrdən başqa bir şey qəbul etmədilər.

(İsra surəsi, 99)

Yoxsa günahkarlar elə hesab edirlər ki, onlara var-dövlət və övlad verməklə

(Muminun surəsi, 55)

onlara yaxşılıq etməyə tələsirik? Xeyr, onlar bu işin fərqinə varmırlar.

(Muminun surəsi, 56)

Alçaq hiylələrə əl atanlar Allahın onları yerə batırmayacağına və yaxud gözləmədikləri bir yerdən əzabın onlara gəlməyəcəyinə əmindirlərmi?

(Nəhl surəsi, 45)

Yoxsa sizi bir daha dənizə qaytarıb üstünüzə qasırğa göndərməyəcəyinə və kafir olduğunuza görə dənizdə sizi batırmayacağına əminsiniz? Sonra buna görə Bizdən intiqam alan bir nəfər belə tapa bilməzsiniz.

(İsra surəsi, 69)

Məgər onlar bilmirlər ki, Allah onların gizli saxladıqlarını və aşkara çıxartdıqlarını bilir?

(Bəqərə surəsi, 77)

Yoxsa kafirlər mələklərin onların yanına gəlməsindən və yaxud Rəbbinin əmrinin gəlməsindən başqa bir şeymi gözləyirlər? Onlardan əvvəlkilər də belə etmişdilər. Allah onlara zülm etmədi, lakin onlar özləri özlərinə zülm edirdilər.

(Nəhl surəsi, 33)

De: "Sizə göydən və yerdən ruzi verən kimdir? Qulaqlara və gözlərə hakim olan kimdir? Ölüdən diri çıxaran, diridən də ölü çıxaran kimdir? İşləri yoluna qoyan kimdir?" Onlar deyəcəklər: "Allah!" De: "Bəs belə olduğu halda Allahdan qorxmursunuz?"

(Yunis surəsi, 31)

De: "Bir deyin görək, əgər Allah gecəni üstünüzdə Qiyamətə qədər uzatsa, Allahdan başqa hansı məbud sizə bir işıq gətirə bilər? Məgər siz eşitmirsiniz?"

(Qəsas surəsi, 71)

> *Sizə nə olub ki, malınızdan Allah yolunda xərcləmirsiniz? Halbuki göylərin və yerin mirası Allahındır. Sizlərdən Məkkənin fəthindən əvvəl xərcləyib döyüşənlər başqaları ilə eyni deyillər. Onların dərəcəsi mallarını fəthdən sonra xərcləyib döyüşənlərdən daha üstündür. Amma Allah onların hamısına ən gözəl olanı vəd etmişdir. Allah sizin nə etdiklərinizdən xəbərdardır.*
>
> **(Hədid surəsi, 10)**

Qurandan bəzi səbəb-nəticə əlaqələri

> *Gözləmə vaxtı bitdikdə onları şəriətə müvafiq olaraq saxlayın və yaxud onlardan müvafiq qaydada ayrılın. Aranızdan iki ədalətli şahid çağırın və Allah üçün şahidlik edin. Allaha və Axirət gününə iman gətirənlərə verilən nəsihət budur. Allahdan qorxana, Allah çıxış yolu göstərər*
>
> **(Talaq surəsi, 2)**

> *və ona təsəvvürünə gətirmədiyi bir yerdən ruzi bəxş edər. Kim Allaha təvəkkül etsə, Allah ona kifayət edər. Allah Öz əmrini yerinə yetirəndir. Allah hər şey üçün bir ölçü qoymuşdur.*
>
> **(Talaq surəsi, 3)**

> *O zaman Rəbbiniz bildirmişdi: "Əgər şükür etsəniz, sizə olan nemətimi artıraram, yox əgər nankorluq etsəniz, bilin ki, Mənim əzabım şiddətlidir".*
>
> **(İbrahim surəsi, 7)**

> *Ey Peyğəmbər! Möminləri döyüşə ruhlandır. Əgər aranızda iyirmi səbirli kişi olsa, kafirlərdən iki yüzünə qalib gələr; əgər aranızda yüz səbirli kişi olsa, kafirlərdən mininə qalib gələr. Çünki onlar anlamayan adamlardır.*
>
> **(Ənfal surəsi, 65)**

> *Allah buyurdu: "Bir-birinizə düşmən kəsilərək hamınız buradan yerə enin. Məndən sizə doğru yol göstəricisi gəldiyi zaman hər kəs Mənim doğru yol göstərən bələdçimin ardınca getsə, nə yolunu azar, nə də bədbəxt olar.*
>
> **(Taha surəsi, 123)**

> *Sizə bir uğur nəsib olsa, bu onları kədərləndirər. Sizə bir fəlakət üz verdikdə isə, buna fərəhlənərlər. Əgər səbir etsəniz və Allahdan qorxsanız, onların qurduğu hiylə sizi ziyana sala bilməz. Həqiqətən, Allah onların nə etdiklərini əhatə edir.*
>
> **(Ali İmran surəsi, 120)**

Ey iman gətirənlər! Öz qeydinizə qalın! Siz doğru yolda olsanız, haqq yoldan azmışlar sizə zərər yetirə bilməzlər. Hamınızın dönüşü Allaha olacaq və O, etdiyiniz əməllər barədə sizə xəbər verəcəkdir.

(Maidə surəsi, 105)

Kim Mənim Zikrimdən üz döndərsə, onun güzəranı sıxıntılı olacaq və Biz Qiyamət günü onu kor kimi hüzurumuza gətirdəcəyik".

(Taha surəsi, 124)

Allaha və Onun Elçisinə itaət edin, bir-birinizlə mübahisə etməyin, yoxsa ruhdan düşər və zəifləyərsiniz. Səbir edin, çünki Allah səbir edənlərlədir.

(Ənfal surəsi, 46)

Biz hansı bir ölkəyə peyğəmbər göndərdiksə, onun əhalisini sıxıntıya və bəlaya düçar etdik ki, bəlkə boyun əyələr.

(Əraf surəsi, 94)

Ey iman gətirənlər! Əgər Allahdan qorxsanız, O sizə haqla nahaqqı ayırd etmə bacarığı verər, günahlarınızdan keçər və sizi bağışlayar. Allah böyük lütf sahibidir.

(Ənfal surəsi, 29)

Əgər o ölkələrin əhalisi iman gətirib Allahdan qorxsaydı, əlbəttə, Biz onların üstünə göydən və yerdən bərəkət qapılarını açardıq. Lakin onlar peyğəmbərləri yalançı hesab etdilər. Biz də onları qazandıqları günahlara görə əzabla yaxaladıq.

(Əraf surəsi, 96)

De: "Həqiqətən, Rəbbim istədiyi qullarına ruzisini bol edər, istədiyinə də onu azaldar. Nə xərcləsəniz, Allah onun əvəzini verər. O, ruzi verənlərin ən yaxşısıdır!"

(Səba surəsi, 39)

Heyzdən kəsilmiş yaşlı qadınlarınızın iddəsi barəsində şübhəniz varsa, onların, eləcə də hələ heyz görməmiş qızların gözləmə müddəti üç aydır. Hamilə qadınların gözləmə müddəti isə onlar hamiləlikdən azad olana qədərdir. Kim Allahdan qorxarsa, Allah onun işini asanlaşdırar.

(Talaq surəsi, 4)

Bu, Allahın sizə nazil etdiyi əmridir. Kim Allahdan qorxarsa, Allah onun günahlarından keçər və onun mükafatını artırar.

(Talaq surəsi, 5)

Bu, ona görədir ki, bir camaat nəfslərində olanı dəyişməyincə, Allah da onlara verdiyi neməti dəyişən deyildir. Şübhəsiz ki, Allah Eşidəndir, Biləndir.

(Ənfal surəsi, 53)

Müsəlman olması üçün kimsə məcbur edilə bilməz

Onlara nəsihət ver! Sən yalnız nəsihətçisən.

(Ğaşiyə surəsi, 21)

Sən onların üstündə hökmdar deyilsən.

(Ğaşiyə surəsi, 22)

Biz onların nə dediklərini yaxşı bilirik. Sən onları məcbur edən deyilsən. Sən Mənim təhdidimdən qorxanlara Quranla öyüd-nəsihət ver!

(Qaf surəsi, 45)

Dində məcburiyyət yoxdur. Artıq doğru yol azğınlıqdan aydın fərqlənir. Hər kəs tağutu inkar edib Allaha iman gətirərsə, heç vaxt qırılmayan ən möhkəm dəstəkdən yapışmış olar. Allah Eşidəndir, Biləndir.

(Bəqərə surəsi, 256)

Əgər üz çevirsələr, bil ki, sənin vəzifən ancaq aşkar təbliğat aparmaqdır.

(Nəhl surəsi, 82)

De: "Ey insanlar! Rəbbinizdən sizə haqq gəlmişdir. Kim doğru yolla getsə, xeyri onun özünə dəyər, kim azğınlığa düşsə, ziyanı da onun öz əleyhinə olar. Mən sizi qoruyan deyiləm".

(Yunis surəsi, 108)

O qaşqabağını sallayıb üzünü yana çevirdi –

(Əbəsə surəsi, 1)

yanına bir korun gəlməsinə görə.

(Əbəsə surəsi, 2)

Nə bilirdin ki, bəlkə o günahlardan təmizlənəcəkdi

(Əbəsə surəsi, 3)

və yaxud nəsihət dinləyib faydalanacaqdı.

(Əbəsə surəsi, 4)

Nəsihətə ehtiyacı olmayana gəlincə isə –

(Əbəsə surəsi, 5)

sən ona diqqət yetirirsən.

(Əbəsə surəsi, 6)

Onun təmizlənməməyinin sənə bir dəxli yoxdur.

(Əbəsə surəsi, 7)

Səy göstərib sənin yanına gələn,

(Əbəsə surəsi, 8)

Allahdan qorxan kimsəyə gəlincə,

(Əbəsə surəsi, 9)

ona məhəl qoymursan!

(Əbəsə surəsi, 10)

Xeyr! Şübhəsiz ki, bu, bir nəsihətdir.

(Əbəsə surəsi, 11)

Kim istəsə, qoy onu xatırlayıb ibrət alsın.

(Əbəsə surəsi, 12)

Əgər Rəbbin istəsəydi, yer üzündə olanların hamısı iman gətirərdi. İnsanları mömin olmağa sənmi məcbur edəcəksən?

(Yunis surəsi, 99)

Quran bağışlamağı, xoşxasiyyətli olmağı əmr edir

Əgər bir xeyri aşkara çıxarsanız, yaxud onu gizlətsəniz və ya bir pisliyi bağışlasanız, bilin ki, Allah əfv edəndir, hər şeyə Qadirdir.

(Nisa surəsi, 149)

Şübhəsiz ki, şeytanlar onları haqq yoldan sapdıracaq, onlar isə özlərinin haqq yolda olduqlarını güman edəcəklər.

(Zuxruf surəsi, 37)

Sən bağışlama yolunu tut, yaxşı iş görməyi əmr et və cahillərdən üz döndər.

(Əraf surəsi, 199)

Xoş söz demək və xətaları bağışlamaq, minnətlə verilən sədəqədən daha yaxşıdır. Allah Zəngindir, Həlimdir.

(Bəqərə surəsi, 263)

Həqiqətən, Allah ədalətli olmağı, yaxşılıq etməyi və qohumlara haqqını verməyi əmr edir, iyrənc işlər görməyi, pis əməllər törətməyi və azğınlıq etməyi isə qadağan edir. O sizə öyüd-nəsihət verir ki, bəlkə düşünüb ibrət alasınız.

(Nəhl surəsi, 90)

Pisliyin cəzası özü kimi pislikdir. Amma kim bağışlasa və barışsa, onun mükafatı Allaha aid olar. Həqiqətən, O, zalımları sevmir.

(Şura surəsi, 40)

Haqsızlığa uğradıqdan sonra qisas alanlara heç bir məzəmmət olunmaz.

(Şura surəsi, 41)

Məzəmmət olunmağa ancaq insanlara zülm edənlər və yer üzündə haqsız yerə azğınlıq edənlər layiqdirlər. Məhz onlar üçün ağrılı-acılı əzab vardır.

(Şura surəsi, 42)

Hər kim səbir edib bağışlasa, şübhəsiz ki, bu məqsədə uyğun işlərdəndir.

(Şura surəsi, 43)

FƏSİL 2

Allahın əmr və tövsiyələri

ALLAHIN ƏMR VƏ TÖVSİYƏLƏRİ

Allaha şərik qoşmamaq

Bir zaman Loğman öz oğluna nəsihət edərək demişdi: "Oğlum! Allaha şərik qoşma. Həqiqətən, Allaha şərik qoşmaq böyük zülmdür!"

(Loğman surəsi, 13)

O, sizin üçün yer üzünü döşəmə, göyü isə tavan etdi. Göydən su endirib onunla sizin üçün növbənöv məhsullardan ruzi yetişdirdi. Siz də bunu bildiyiniz halda heç kəsi Allaha tay tutmayın.

(Bəqərə surəsi, 22)

Şübhəsiz ki, Allah Özünə şərik qoşulmasını bağışlamaz, bundan başqa daha kiçik günahları isə istədiyi kimsəyə bağışlayar. Allaha şərik qoşan kəs iftira atmaqla böyük bir günah etmiş olur.

(Nisa surəsi, 48)

> *Şübhəsiz ki, Allah Ona şərik qoşmağı bağışlamayacaq. Bundan başqa olan daha kiçik günahları isə istədiyi kimsəyə bağışlayacaqdır. Allaha şərik qoşan şəxs əlbəttə ki, dərin bir azğınlığa düşmüşdür.*
>
> **(Nisa surəsi, 116)**

Yalnız Allaha qulluq etmək

> *Ey mömin qullarım! Şübhəsiz ki, Mənim bu yerim genişdir. Elə isə yalnız Mənə ibadət edin.*
>
> **(Ənkəbut surəsi, 56)**

> *Allahdan başqasına ibadət etməyin! Mən sizi yaxalayacaq məşəqqət gününün əzabından qorxuram".*
>
> **(Hud surəsi, 26)**

> *Bu ona görədir ki, Allahdan başqasına ibadət etməyəsiniz. Həqiqətən, mən Onun tərəfindən sizi xəbərdar edən və müjdələyənəm. (Hud surəsi, 2)*
>
> **(Şura surəsi, 213)**

De: "Ey Kitab əhli! Bizim və sizin aranızda olan eyni bir kəlməyə gəlin ki, Allahdan başqasına ibadət etməyək, Ona heç bir şeyi şərik qoşmayaq və Allahı qoyub bir-birimizi ilahiləşdirməyək". Əgər onlar üz döndərsələr, deyin: "Şahid olun ki, biz müsəlmanlarıq!"

(Ali İmran surəsi, 64)

Kitab verdiyimiz kəslər sənə nazil edilənə sevinirlər. Firqələr arasında elə də vardır ki, onun bir qismini inkar edirlər. De: "Mənə Allaha ibadət etmək və Ona şərik qoşmamaq əmr edilmişdir. Mən sizi yalnız Ona ibadət etməyə çağırıram və qayıdışım da yalnız Onadır!"

(Rad surəsi, 36)

De: "Allahı qoyub sizə nə bir zərər, nə də bir fayda verə bilməyən şeylərəmi ibadət edirsiniz?" Allah Eşidəndir, Biləndir.

(Maidə surəsi, 76)

Allahdan başqa ilah tanımamaq

Bunlar Rəbbinin sənə vəhy etdiyi hikmətdəndir. Allahla yanaşı başqa məbuda ibadət etmə, yoxsa qınanmış və qovulmuş halda Cəhənnəmə atılarsan.

(İsra surəsi, 39)

Allahla yanaşı başqa bir məbuda yalvarma! Ondan başqa ibadətə layiq olan heç bir məbud yoxdur. Onun Üzündən başqa hər şey məhv olacaqdır. Hökm Onundur və siz Ona qaytarılacaqsınız.

(Qəsas surəsi, 88)

Allahla yanaşı başqa məbuda ibadət etmə, yoxsa zəlil və tənha qalarsan.

(İsra surəsi, 22)

Allahla yanaşı başqa bir məbud qəbul etməyin. Mən sizi Onunla açıq-aşkar qorxudub xəbərdar edənəm!"

(Zəriyət surəsi, 51)

Allahın varlığını bildiyi halda inkarçılar kimi davranmamaq

Əgər onlardan özlərini kimin yaratdığını soruşsan, əlbəttə: "Allah!" – deyərlər. Gör necə də haqdan döndərilirlər!

(Zuxruf surəsi, 87)

Yalnız Allahdan qorxmaq

Ey iman gətirənlər! Allahdan qorxun və Onun elçisinə iman gətirin! Onda O sizə Öz mərhəmətindən iki pay bəxş edər, sizə düz yolla getməyiniz üçün nur verər və sizi bağışlayar. Allah Bağışlayandır, Rəhmlidir.

(Hədid surəsi, 28)

O şeytan sadəcə sizi öz dostları ilə qorxudur. Möminsinizsə, onlardan qorxmayın, Məndən qorxun!

(Ali İmran surəsi, 175)

Sizdə olanı təsdiqləyici kimi nazil etdiyimə (Qurana) iman gətirin və onu inkar edənlərin ən birincisi olmayın! Mənim ayələrimi ucuz qiymətə satmayın və yalnız Məndən qorxun.

(Bəqərə surəsi, 41)

Ey insanlar! Sizi tək bir candan xəlq edən, onun özündən zövcəsini yaradan və onlardan da bir çox kişi və qadın törədib yer üzünə yayan Rəbbinizdən qorxun! Adı ilə bir-birinizdən cürbəcür şeylər istədiyiniz Allahdan və qohumluq əlaqələrini kəsməkdən çəkinin! Həqiqətən, Allah sizə nəzarət edir.

(Nisa surəsi, 1)

Allahın sizə göstərdiyi lütfkarlığını və siz: "Eşidirik və itaət edirik!" – dediyiniz zaman sizinlə bağladığı əhdi xatırlayın. Allahdan qorxun! Şübhəsiz ki, O, köklərdə olanları bilir.

(Maidə surəsi, 7)

Allahdan qorxa bilindiyi qədər çox qorxmaq

Nə qədər bacarırsınızsa Allahdan qorxun. Peyğəmbərə qulaq asıb itaət edin və malınızdan öz xeyriniz üçün xərcləyin. Nəfsinin tamahından qorunanlar nicat tapanlardır.

(Təğabun surəsi, 16)

Ey iman gətirənlər! Allahdan Ona layiq olan tərzdə qorxun və ancaq müsəlman olduğunuz halda ölün!

(Ali İmran surəsi, 102)

Yalnız Allaha güvənib dayanmaq

Göylərin və yerin qeybi Allaha məxsusdur. Bütün işlər də Ona qayıdacaqdır. Elə isə yalnız Ona ibadət et və yalnız Ona təvəkkül et. Rəbbin nə etdiklərinizdən xəbərsiz deyildir.

(Hud surəsi, 123)

Qüdrətli və Rəhmli olana təvəkkül et!

(Şuəra surəsi, 217)

Allaha təvəkkül et! Allahın Qoruyan olması sənə bəsdir.

(Əhzab surəsi, 3)

Ölməz, əbədi Yaşayana təvəkkül et və Onu həmd-səna ilə təriflə. Onun Öz qullarının günahlarından agah olması kifayətdir.

(Furqan surəsi, 58)

Ey iman gətirənlər! Allahın sizə olan nemətini xatırlayın. Bir zaman bir tayfa sizə əl qaldırmaq fikrinə düşdükdə Allah onları sizdən əl çəkməyə məcbur etmişdi. Allahdan qorxun! Qoy möminlər Allaha təvəkkül etsinlər!

(Maidə surəsi, 11)

Yalnız Allahı peyğəmbəri və möminləri dost və köməkçi etmək

Allah sizin düşmənlərinizi daha yaxşı tanıyır. Himayəçi olaraq Allah kifayət edər! Yardımçı olaraq Allah yetər!

(Nisa surəsi, 45)

> *Kim Allahı, Onun Elçisini və iman gətirənləri özünə dost tutarsa, bilsin ki, qələbə çalanlar da məhz Allahın firqəsidir.*
>
> **(Maidə surəsi, 56)**

> *Haqq-hesab gününün Hökmdarına!*
>
> **(Fatihə surəsi, 4)**

Allaha qarşı səmimi və dürüst olmaq

> *Bir zaman o, öz Rəbbinin yanına pak bir qəlblə gəldi.*
>
> **(Saffat surəsi, 84)**

> *O kəslər ki, bir pis iş gördükdə, yaxud özlərinə zülm etdikdə Allahı xatırlayıb günahlarının bağışlanmasını diləyərlər, – günahları Allahdan başqa kim bağışlaya bilər? – onlar bilə-bilə etdiklərinə görə israr etməzlər.*
>
> **(Ali İmran surəsi, 135)**

Sadəcə təhlükə anında deyil, hər zaman Allaha qarşı səmimi olmaq

Baxmayaraq ki, onlar bundan əvvəl cihaddan boyun qaçırmayacaqlarına dair Allaha söz vermişdilər. Onlar Allaha verdikləri sözə görə sorğu-sual olunacaqlar.

(Əhzab surəsi, 15)

Miniklə təmin edəsən deyə sənin yanına gəldikdə: "Sizin üçün minik tapa bilmirəm" – dediyin zaman cihad üçün xərcləməyə bir şey tapa bilmədiklərindən ötrü kədərlənib gözləri dolmuş halda geri dönənlərin də heç bir günahı yoxdur.

(Tövbə surəsi, 92)

Yalnız varlı olduqları halda evdə qalmaq üçün səndən icazə almağa gələnlər danlanmalıdırlar. Onlar arxada qalanlarla birgə daldalanmağa razılaşdılar. Allah onların qəlbini möhürləmişdir. Məhz bu səbəbdən onlar özlərinin aqibətini bilməzlər.

(Tövbə surəsi, 93)

itaət etsinlər və xoş söz söyləsinlər. Cihada qəti əmr verildiyi zaman Allaha sadiq qalsaydılar, əlbəttə ki, onlar üçün daha yaxşı olardı.

(Məhəmməd surəsi, 21)

Dil əyib bükməmək

Onlardan elə bir dəstə də vardır ki, oxuduqlarını Kitabdan hesab edəsiniz deyə Kitabı oxuyarkən dillərini əyib bükürlər. Halbuki bu, Kitabdan deyildir. Onlar: "Bu, Allah tərəfindəndir!" – deyirlər. Halbuki o, Allah tərəfindən deyildir. Onlar bilə-bilə Allaha qarşı yalan danışırlar.

(Ali İmran surəsi, 78)

Allahın halal-haram sərhədlərini qorumaq

Bax belə! Hər kim Allahın ayinlərinə hörmət etsə, bilsin ki, bu, qəlblərin təqvasındandır.

(Həcc surəsi, 32)

Ey Peyğəmbər! Qadınları boşadığınız zaman onları gözləmə müddətlərində boşayın, gözləmə müddətini hesablayın və Rəbbiniz olan Allahdan qorxun. Onları, açıq-aşkar zinakarlıq etmələri istisna olmaqla, öz evlərinizdən qovub çıxartmayın və onlar özləri də çıxmasınlar. Bu, Allahın hüdudlarıdır. Allahın qoyduğu hüdudları aşan kimsə özünə zülm etmiş olar. Sən bilmirsən, ola bilsin ki, Allah bundan sonra başqa bir hökm versin.

(Talaq surəsi, 1)

“

‘Tövbə edən, ibadət edən, həmd edən, oruc tutan, rüku və səcdə edən, yaxşı işlər görməyi buyurub pis əməlləri qadağan edən və Allahın qoyduğu hüdudlarını qoruyan o möminləri müjdələ.

(Tövbə surəsi, 112)

“

Bax belə! Hər kim Allahın haram buyurduqlarına hörmət etsə, bu, Rəbbi yanında onun üçün xeyirli olar. Haram olduğu sizə oxunanlardan başqa, qalan heyvanlar sizə halal edilmişdir. Elə isə murdar bütlərdən uzaq olun, yalan sözlərdən də çəkinin;

(Həcc surəsi, 30)

“

Bunlar Allahın qoyduğu hüdudlarıdır. Kim Allaha və Onun Elçisinə itaət edərsə, Allah onu ağacları altından çaylar axan, içində əbədi qalacaqları Cənnət bağlarına daxil edər. Bu, böyük uğurdur.

(Nisa surəsi, 13)

“

Kim Allaha və Onun Elçisinə asi olub Onun hüdudlarını aşarsa, Allah onu içində əbədi qalacağı Cəhənnəm oduna vasil edər. Onun üçün alçaldıcı bir əzab vardır.

(Nisa surəsi, 14)

Halalı haram etməmək

Axmaqlıqları üzündən dərk etmədən öz övladlarını öldürən və Allahın onlara verdiyi ruzini Allaha iftira ataraq haram edənlər, əlbəttə, ziyana uğramışlar. Onlar azdılar və doğru yola yönəlmədilər.

(Ənam surəsi, 140)

Ey iman gətirənlər! Allahın sizə halal buyurduğu təmiz ruziləri haram etməyin və həddi aşmayın. Həqiqətən, Allah həddi aşanları sevmir.

(Maidə surəsi, 87)

Allahın hökmlərini əksiksiz tətbiq etmək

Siz o kəslərsiniz ki, bir-birinizi öldürürsünüz, özünüzdən olan bir dəstəni öz yurdundan çıxarırsınız, onlara qarşı pislik və düşmənçilik etməkdə bir-birinizə kömək edirsiniz. Onlar əsir tutulub yanınıza gətiriləndə, fidyə verib onları azad edirsiniz. Halbuki onları yurdlarından çıxartmaq sizə haram edilmişdi. Yoxsa siz Kitabın bir qisminə inanıb, digər qismini inkarmı edirsiniz? Sizlərdən bunu edənin cəzası dünya həyatında rüsvay olmaq, Qiyamət günü isə ən şiddətli əzaba məhkum olmaqdır. Allah sizin etdiklərinizdən bixəbər deyildir.

(Bəqərə surəsi, 85)

Allahın hökmlərini tətbiq etməkdə qərarlılıq göstərmək

Bu, insanları qorxutmaq və möminlərə öyüd-nəsihət vermək üçün sənə nazil edilən Kitabdır. Ona görə qəlbin heç narahat olmasın.

(Əraf surəsi, 2)

O, göylərin, yerin və onların arasında olanların Rəbbidir! Elə isə yalnız Ona ibadət et və Ona ibadətdə səbirli ol! Heç Ona oxşarını tanıyırsanmı?!

(Məryəm surəsi, 65)

Həyatının hamısını Allah üçün yaşamaq

De: "Şübhəsiz ki, mənim namazım da, qurbanım da, həyatım da, ölümüm də aləmlərin Rəbbi Allah üçündür!

(Ənam surəsi, 162)

Səhər və axşam çağı Rəbbinin Üzünü diləyərək Ona dua edənlərlə birlikdə özünü səbirli apar. Dünyanın bərbəzəyini istəyərək nəzərlərini yoxsullardan çevirmə. Qəlbini Bizi anmaqdan xəbərsiz etdiyimiz, nəfsinin istəklərinə uyan və işləri səmərəsiz olan bir kimsəyə itaət etmə!

(Kəhf surəsi, 28)

Sadəcə Allahın razılığını gözləmək

Allah, Onun rizasını arayan şəxsləri bu Kitabla əmin-amanlıq yollarına yönəldir, onları Öz izni ilə zülmətlərdən nura çıxarır və düz yola yönəldir.

(Maidə surəsi, 16)

İnsanların var-dövləti sayəsində artırmaq məqsədilə sələmlə verdiyiniz mal Allah yanında artmaz. Allahın Üzünü diləyərək verdiyiniz zəkata gəlincə, bilin ki, bunu edənlər mallarının bərəkətini qat-qat artıranlardır.

(Rum surəsi, 39)

O kəslər ki, Rəbbinin Üzünü diləyərək səbir edir, namaz qılır, onlara verdiyimiz ruzidən gizli və aşkar xərcləyir və pisliyi yaxşılıqla dəf edirlər. Onlar üçün Axirət yurdu –

(Rad surəsi, 22)

Səhər və axşam çağı Rəbbinin Üzünü diləyərək Ona dua edənlərlə birlikdə özünü səbirli apar. Dünyanın bərbəzəyini istəyərək nəzərlərini yoxsullardan çevirmə. Qəlbini Bizi anmaqdan xəbərsiz etdiyimiz, nəfsinin istəklərinə uyan və işləri səmərəsiz olan bir kimsəyə itaət etmə!

(Kəhf surəsi, 28)

Binasını Allah qorxusu və Onun rizası üzərində quran kəs daha yaxşıdır, yoxsa binasını dağılmaqda olan uçurumun lap kənarında quran və onunla birlikdə Cəhənnəm oduna yuvarlanan kəs? Allah zalım qövmü doğru yola yönəltməz.

(Tövbə surəsi, 109)

İnsanların elə də var ki, Allahın razılığını qazanmaq üçün canını da verər. Allah Öz qullarına qarşı Şəfqətlidir.

(Bəqərə surəsi, 207)

Hər an Allahın razılığını gözləmək

İşlərini qurtaran kimi Allah yolunda çalış!

(İnşirah surəsi, 7)

> *Ancaq Rəbbinə üz tut!*
>
> **(İnşirah surəsi, 8)**

Allahın razılığı ən çox hansı rəftarla qazanmaq olarsa onu etmək

> *De: "Ey qövmüm! Əlinizdən gələni edin, mən də edəcəyəm. Siz tezliklə biləcəksiniz ki,*
>
> **(Zumər surəsi, 39)**

Allaha könüldən bağlı olmaq

> *Sizlərdən hər kim Allaha və Onun Elçisinə itaət edib yaxşı işlər görsə, ona mükafatını ikiqat verərik. Biz onun üçün bol ruzi hazırlamışıq.*
>
> **(Əhzab surəsi, 31)**

> *Tövbə edərək Ona üz tutun, Ondan qorxun, namaz qılın və şərik qoşanlardan olmayın!*
>
> **(Rum surəsi, 31)**

onlar səbir edən, doğru danışan, müti olan, malından Allah yolunda xərcləyən və sübh çağına yaxın bağışlanma diləyən kimsələrdir.

(Ali İmran surəsi, 17)

Allaha qarşı nankorluq etməmək

Dağların saldığı kölgələr kimi dalğalar onları çulğadığı zaman onlar dini məhz Allaha məxsus edərək Ona yalvararlar. Allah onları xilas edib quruya çıxartdıqda isə aralarından bəziləri küfrlə iman arasında orta yol tutar. Bizim ayələrimizi yalnız nankor xainlər inkar edərlər.

(Loğman surəsi, 32)

Allahdan heç bir şəkildə ümid kəsməmək

Ey oğullarım! Yusifdən və qardaşından xəbər tutmaq üçün yola düşün, Allahın mərhəmətindən ümidinizi üzməyin. Çünki Allahın mərhəmətindən ancaq kafir adamlar ümidlərini kəsər".

(Yusif surəsi, 87)

Qullarıma mənim bu sözümü de: "Ey Mənim özlərinə qarşı həddi aşmış qullarım! Allahın rəhmindən ümidinizi üzməyin. Şübhəsiz ki, Allah bütün günahları bağışlayır. O, həqiqətən, Bağışlayandır, Rəhmlidir!"

(Zumər surəsi, 53)

> *Məgər Allah Öz qulunu qane etmirmi? Onlar isə səni Ondan başqaları ilə qorxudurlar. Allahın zəlalətə saldığı kimsəyə isə doğru yol göstərən olmaz.*
>
> **(Zumər surəsi, 36)**

> *Onlar dedilər: "Biz sənə həqiqətlə müjdə veririk. Sən ümidini üzənlərdən olma!"*
>
> **(Hicr surəsi, 55)**

Allaha şükür etmək

> *O zaman Rəbbiniz bildirmişdi: "Əgər şükür etsəniz, sizə olan nemətimi artıraram, yox əgər nankorluq etsəniz, bilin ki, Mənim əzabım şiddətlidir".*
>
> **(İbrahim surəsi, 7)**



Allahı çox zikr edin, qurtuluş tapasınız

> *Şükür etsəniz və iman gətirsəniz, sizə əzab vermək Allahın nəyinə gərəkdir? Allah itaətkar qullarına təşəkkür edəndir, Biləndir.*
>
> **(Nisa surəsi, 147)**

> *Allah sizi analarınızın bətnindən heç nə anlamadığınız bir halda çıxartdı, sizə qulaq, göz və ürək verdi ki, bəlkə şükür edəsiniz.*
>
> **(Nəhl surəsi, 78)**

Allah yolunda çətinliklərlə qarşılaşanda üsyan etməmək

> *İnsana gəlincə, Rəbbi onu sınayıb ehtiram göstərəndə və ona nemət verəndə: "Rəbbim mənə ehtiram göstərdi!" – deyər.*
>
> **(Fəcr surəsi, 15)**

> *Amma onu sınamaq üçün ruzisini azaldanda: "Rəbbim məni alçaltdı!" – deyər.*
>
> **(Fəcr surəsi, 16)**

Allaha qarşı itaətkar olaraq təkəbbür göstərməmək

Ayələrimiz onlara oxunduğu zaman sanki onları eşitmirmiş, qulaqlarında tıxac varmış kimi təkəbbürlə üz çevirər. Sən belələrini ağrılı-acılı bir əzabla müjdələ.

(Loğman surəsi, 7)

İnsanlardan təkəbbürlə üz çevirmə, yer üzündə özünü darta-darta gəzib dolanma. Həqiqətən, Allah heç bir özündən razını, özünü öyəni sevmir.

(Loğman surəsi, 18)

Ayələrimizə ancaq o kəslər iman gətirirlər ki, ayələrimiz onlara xatırlanarkən təkəbbür göstərmədən səcdəyə qapanır, Rəbbinə həmd-səna ilə təriflər deyirlər.

(Səcdə surəsi, 15)

Ona: "Allahdan qorx!" – deyildikdə, lovğalıq onu daha da günaha sürükləyər. Ona Cəhənnəm kifayət edər. Ora nə pis yataqdır!

(Bəqərə surəsi, 206)

Allaha və Onun Peyğəmbərinə baş qaldırmamaq

> *Məhz Allaha və Onun Elçisinə qarşı çıxanlar ən zəlil kimsələr arasında olacaqlar.*
>
> **(Mücadilə surəsi, 20)**

Hər şeyin Allahın idarəsində olduğunu bilmək və bundan razı olmaq

> *De: "Allahın istədiyindən başqa, mən özümə nə bir zərər, nə də bir xeyir verməyə qadirəm. Hər ümmətin bir əcəli vardır. Onların əcəli gəldiyi zaman bircə saat belə nə yubanar, nə də qabağa keçə bilərlər".*
>
> **(Yunis surəsi, 49)**

> *De: "Allahın bizim üçün yazdığından başqa bizim başımıza heç nə gəlməz. O bizim Himayədarımızdır. Qoy möminlər yalnız Allaha təvəkkül etsinlər!"*
>
> **(Tövbə surəsi, 51)**

Allahı çox sevmək

İnsanlardan elələri də vardır ki, Allahdan qeyrilərini Ona tay tutur, onları da Allahı sevdikləri kimi sevirlər. İman gətirənlərin isə Allaha olan sevgisi daha güclüdür. Kaş zülm edənlər əzabı gördükləri zaman bütün qüdrət və qüvvətin Allaha məxsus olduğunu və Allahın şiddətli əzab verdiyini görəydilər.

(Bəqərə surəsi, 165)

Ey iman gətirənlər! Sizlərdən hər kim dinindən dönsə, Allah onun əvəzinə Özünün sevdiyi və Onu sevən, möminlərə qarşı mülayim, kafirlərə qarşı isə sərt olan, Allah yolunda cihad edən və tənə edənin tənəsindən qorxmayan bir camaat gətirər. Bu, Allahın lütfüdür, onu istədiyinə verər. Allah hər şeyi Əhatə edəndir, Biləndir.

(Maidə surəsi, 54)

Allahın qədrini haqqıyla təqdir etmək

Onlar Allahı lazımınca qiymətləndirmədilər. Şübhəsiz ki, Allah Qüvvətlidir, Qüdrətlidir!

(Həcc surəsi, 74)

Allaha yaxınlaşmaq üçün yollar axtarmaq

> *Ey iman gətirənlər! Allahdan qorxun, Ona yaxınlaşmaq üçün vasitə axtarın və Onun yolunda cihad edin ki, bəlkə nicat tapasınız.*
>
> **(Maidə surəsi, 35)**

Allahı unutmamaq

> *Siz Məni yad edin ki, Mən də sizi yad edim! Mənə şükür edin, Mənə küfr etməyin!*
>
> **(Bəqərə surəsi, 152)**

> *Münafiq kişilər və münafiq qadınlar bir-birinin tayıdırlar. Onlar insanları pis işlər görməyə vadar edir, yaxşı əməllərə qadağa qoyur və xəsislik göstərirlər. Onlar Allahı unutdular. Allah da onları unutdu. Həqiqətən, münafiqlər günahkardırlar.*
>
> **(Tövbə surəsi, 67)**

Allahı çox xatırlamaq

Kitabdan sənə vəhy olunanları oxuyub namaz qıl. Həqiqətən, namaz çirkin və yaramaz işlərdən çəkindirir. Allahı yada salmaq isə ibadətlərin ən əzəmətlisidir. Allah nə etdiklərinizi bilir.

(Ənkəbut surəsi, 45)

Ey iman gətirənlər! Allahı tez-tez yada salın!

(Əhzab surəsi, 41)

Bunlar, iman gətirənlər və qəlbləri Allahı zikr etməklə rahatlıq tapanlardır. Bilin ki, qəlblər ancaq Allahı zikr etməklə rahatlıq tapır.

(Rad surəsi, 28)

Səhər-axşam ürəyində yalvararaq və qorxaraq, səsini qaldırmadan Rəbbini yad et və qafillərdən olma.

(Əraf surəsi, 205)

> *O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı yad edir, göylərin və yerin yaradılması haqqında düşünür və deyirlər: "Ey Rəbbimiz! Sən bunları əbəs yerə xəlq etməmisən. Sən pak və müqəddəssən. Bizi Odun əzabından qoru!*
>
> **(Ali İmran surəsi, 191)**

Allahı xatırlamaqda zəiflik göstərməmək

> *Sən və qardaşın möcüzələrimlə gedin və Məni zikr etməkdə zəiflik göstərməyin.*
>
> **(Taha surəsi, 42)**

Allahı xatırlamaqda zəif olanlara tabe olmamaq

> *Sən səbirli ol! Həqiqətən də, Allahın vədi haqdır. Qoy axirətə yəqinliklə inanmayanlar səni qeyri-ciddi olmağa (dindən dönməyə) sövq etməsinlər.*
>
> **(Rum surəsi, 60)**

Allahı xatırlama mövzusunda maneə tanımamaq

> *O kişilər ki, nə ticarət, nə də alış-veriş onları Allahı zikr etməkdən, namaz qılmaqdan və zəkat verməkdən yayındırmır. Onlar qəlblərin və gözlərin çevriləcəyi bir gündən qorxurlar.*
>
> **(Nur surəsi, 37)**

Haqq-hesab gününə inanmaq

> *O kəslər ki, sənə nazil olana və səndən əvvəl nazil olanlara iman gətirir, axirətə də yəqinliklə inanırlar.*
>
> **(Bəqərə surəsi, 4)**

Hesab günündən qorxmaq

> *Rəbbinin hüzuruna toplanılacaqlarından qorxanları xəbərdar et ki, Allahdan başqa onların nə bir hamisi, nə də bir havadarı vardır. Bəlkə pis əməllərdən çəkinələr.*
>
> **(Ənam surəsi, 51)**

> *De: "Əzəmətli günün əzabından qorxduğum üçün Rəbbimə asi olmaram".*
>
> **(Ənam surəsi, 15)**

Axirətin varlığına qəti olaraq iman etmək

> *Çünki onlar öz Rəbbi ilə qarşılaşacaqlarını və Ona qayıdacaqlarını yəqin bilirlər.*
>
> **(Bəqərə surəsi, 46)**

> *O kəslər ki, sənə nazil olana və səndən əvvəl nazil olanlara iman gətirir, axirətə də yəqinliklə inanırlar.*
>
> **(Bəqərə surəsi, 4)**

Yenidən dirilişə şübhə etməmək

Ey insanlar! Yenidən diriləcəyinizə şübhə edirsinizsə, bilin ki, həqiqətən də, Biz sizi torpaqdan, sonra nütfədən, sonra laxtalanmış qandan, daha sonra tam bir şəklə salınmış və ya salınmamış bir parça ətdən yaratdıq ki, qüdrətimizi sizə bəyan edək. Bətnlərdə istədiyimizi müəyyən bir vaxt ərzində saxlayırıq. Sonra sizi oradan uşaq kimi çıxardırıq ki, yetkinlik çağına yetişəsiniz. Sizdən kimisi yetkinlik yaşına çatmamış vəfat edir, kimisi də ömrünün ən rəzalətli dövrünə çatdırılır ki, vaxtilə bildiyi şeyləri unutsun. Sən yer üzünü cansız görürsən. Biz ona yağmur endirdiyimiz zaman o, hərəkətə gəlib qabarır və cürbəcür gözəl bitkilər bitirir.

(Həcc surəsi, 5)

Axirəti xatırlamaq, axirəti istəmək

Allahın Elçisi sizlərə – Allaha və Axirət gününə ümidini bağlayanlara və Allahı çox zikr edənlərə gözəl nümunədir.

(Əhzab surəsi, 21)

Biz onları Axirət yurdunu sadiq ürəklə andıqlarına görə seçdik.

(Sad surəsi, 46)

İslamdan başqa yol axtarmamaq

İslamdan başqa bir din axtaran şəxsdən, o din heç vaxt qəbul olunmaz və o, axirətdə ziyana uğrayanlardan olar.

(Ali İmran surəsi, 85)

Ey iman gətirənlər! Allahdan Ona layiq olan tərzdə qorxun və ancaq müsəlman olduğunuz halda ölün!

(Ali İmran surəsi, 102)

Ey iman gətirənlər! İslamı bütövlüklə qəbul edin və şeytanın addım izləri ilə getməyin. Şübhəsiz ki, o sizə açıq-aydın düşməndir.

(Bəqərə surəsi, 208)

Həqiqətən, Allah yanında qəbul olunan din, İslamdır! Kitab verilənlər ancaq özlərinə elm gəldikdən sonra aralarındakı zülm və həsəd üzündən ixtilafa düşdülər. Kim Allahın ayələrini inkar edərsə, bilsin ki, Allah tez haqq-hesab çəkəndir.

(Ali İmran surəsi, 19)

Əksəriyyətə görə hərəkət etməmək

Onlar Allaha möhkəm and içdilər ki: "Allah ölən bir kəsi diriltməyəcəkdir!" Xeyr! Allahın ölüləri diriltməsi Onun doğru vədinə görə olacaq, lakin insanların çoxu bunu bilmirlər.

(Nəhl surəsi, 38)

Əlif. Ləm. Mim. Ra. Bunlar Kitabın ayələridir. Rəbbindən sənə nazil edilən həqiqətdir, lakin insanların çoxu buna inanmır.

(Rad surəsi, 1)

Onların çoxu ancaq şərik qoşaraq Allaha iman gətirir.

(Yusif surəsi, 106)

Onu alan misirli öz arvadına: "Ona yaxşı bax. Ola bilsin ki, bizə fayda versin və ya onu oğulluğa götürək" – dedi. Beləliklə, Yusifi yer üzündə yerləşdirdik və ona yuxuları yozmağı öyrətdik. Allah Öz işini qələbə ilə başa çatdırandır. Lakin insanların çoxu bunu bilmir.

(Yusif surəsi, 21)

Sən nə qədər çox istəsən də, insanların əksəriyyəti iman gətirən deyildir.

(Yusif surəsi, 103)

Sən bir hənif kimi üzünü dinə tərəf çevir! Allahın insanlara – xəlq etdiyi şüurlu məxluq kimi verdiyi fitrət budur. Allahın yaratdığını heç cür dəyişdirmək olmaz. Doğru din budur, lakin insanların çoxu bunu bilmir.

(Rum surəsi, 30)

O Saat mütləq gələcəkdir, bunda heç bir şübhə yoxdur. Lakin insanların əksəriyyəti buna inanmır.

(Mümin surəsi, 59)

Həqiqətən, göylərin və yerin yaradılması insanların yaradılmasından daha böyük şeydir. Lakin insanların çoxu bunu bilmir.

(Mümin surəsi, 57)

Qurana iman etmək

Əlif. Ləm. Ra. Bu, Müdrik, hər şeydən Xəbərdar olan Allah tərəfindən, ayələri mükəmməlləşdirilmiş, sonra da ətraflı izah edilmiş bir Kitabdır.

(Hud surəsi, 1)

> *Bu ona görədir ki, Allahdan başqasına ibadət etməyəsiniz. Həqiqətən, mən Onun tərəfindən sizi xəbərdar edən və müjdələyənəm.*
>
> **(Hud surəsi, 2)**

> *O kəslər ki, sənə nazil olana və səndən əvvəl nazil olanlara iman gətirir, axirətə də yəqinliklə inanırlar.*
>
> **(Bəqərə surəsi, 4)**

Qurana bütövlükdə iman etmək

> *Siz o kəslərsiniz ki, bir-birinizi öldürürsünüz, özünüzdən olan bir dəstəni öz yurdundan çıxarırsınız, onlara qarşı pislik və düşmənçilik etməkdə bir-birinizə kömək edirsiniz. Onlar əsir tutulub yanınıza gətiriləndə, fidyə verib onları azad edirsiniz. Halbuki onları yurdlarından çıxartmaq sizə haram edilmişdi. Yoxsa siz Kitabın bir qisminə inanıb, digər qismini inkarmı edirsiniz? Sizlərdən bunu edənin cəzası dünya həyatında rüsvay olmaq, Qiyamət günü isə ən şiddətli əzaba məhkum olmaqdır. Allah sizin etdiklərinizdən bixəbər deyildir.*
>
> **(Bəqərə surəsi, 85)**

Qurandan şübhə etməmək

Haqq sənin Rəbbindəndir! Odur ki, şübhə edənlərdən olma!

(Bəqərə surəsi, 147)

Əgər sənə nazil etdiyimizə şübhə edirsənsə, səndən əvvəl Kitab oxuyanlardan soruş. Rəbbindən sənə haqq gəlmişdir. Odur ki, şübhə edənlərdən olma.

(Yunis surəsi, 94)

Şübhə yoxdur ki, bu Kitabı aləmlərin Rəbbi olan Allah nazil etmişdir.

(Səcdə surəsi, 2)

Kitabı sənə nazil edən Odur. O Kitabın bir qismi mənası aydın ayələrdir ki, bunlar da Kitabın anasıdır. Digərləri isə mənası aydın olmayan ayələrdir. Qəlblərində əyrilik olanlar fitnə-fəsad törətmək və istədikləri kimi yozmaq məqsədilə mənası aydın olmayanın ardınca düşərlər. Onun yozumunu isə Allahdan başqa heç kəs bilməz. Elmdə qüvvətli olanlar isə deyərlər: "Biz onlara iman gətirdik, hamısı bizim Rəbbimizdəndir". Bunu isə ancaq ağıl sahibləri dərk edərlər.

(Ali İmran surəsi, 7)

Quranla hökm etmək

Onların aralarında Allahın sənə nazil etdiyi Kitabla hökm ver və onların istəklərinə tabe olma. Onlardan ehtiyat et ki, Allahın sənə nazil etdiyi hökmlərin bəzisindən səni sapdırmasınlar. Əgər onlar üz döndərsələr, bil ki, Allah onları bəzi günahlarına görə müsibətə düçar etmək istəyir. Həqiqətən, insanların çoxu fasiqlərdir.

(Maidə surəsi, 49)

De: "Allah bu Kitabı sizə təfərrüatı ilə nazil etdiyi halda, mən Ondan başqasınımı hakim qəbul etməliyəm?" Kitab verdiklərimiz bilirlər ki, o, həqiqətən, sənin Rəbbin tərəfindən nazil edilmişdir. Odur ki, şübhə edənlərdən olma.

(Ənam surəsi, 114)

Odur ki, sən özünə vəhy olunan ayələrə sarıl! Əslində, sən düz yoldasan.

(Zuxruf surəsi, 43)

Əgər doğru deyirsinizsə, kitabınızı gətirin!

(Saffat surəsi, 157)

Sizə nə olub, bu necə mühakimədir yürüdürsünüz?

(Saffat surəsi, 154)

Doğrunu görər görməz iman etmək

Ey Rəbbimiz! Həqiqətən, biz: "Rəbbinizə iman gətirin!" – deyə imana çağıran bir kimsənin çağırışını eşidib iman gətirdik. Ey Rəbbimiz! Günahlarımızı bizə bağışla, təqsirlərimizdən keç və canımızı itaətkarlarla bir yerdə al!

(Ali İmran surəsi, 193)

İman gətirdikdən sonra küfrə düşməmək

Möminlər ancaq Allaha və Onun Elçisinə iman gətirən, sonra heç bir şəkk-şübhəyə düşməyən, Allah yolunda malları və canları ilə cihad edənlərdir! İmanlarında sadiq olanlar da məhz onlardır.

(Hucurat surəsi, 15)

Üzrxahlıq etməyin! İman gətirdikdən sonra artıq kafir oldunuz". Sizlərdən bir qismini bağışlasaq da, digərlərinə günahkar olduqlarına görə əzab verərik.

(Tövbə surəsi, 66)

Quran oxuyarkən Şeytandan Allaha sığınmaq

Quran oxuduqda qovulmuş şeytandan Allaha sığın!

(Nəhl surəsi, 98)

Quran oxunarkən susub dinləmək

Quran oxunduğu zaman onu dinləyin və susun ki, bəlkə sizə rəhm olunsun.

(Əraf surəsi, 204)

Quran üzərində düşünmək

Məgər onlar Quran barəsində düşünmürlərmi? Əgər o, Allahdan başqası tərəfindən olsaydı, əlbəttə, onda çoxlu ziddiyyət tapardılar.

(Nisa surəsi, 82)

Biz Quranı yada salmaq üçün asanlaşdırdıq. Amma heç bir yada salan varmı?

(Qamər surəsi, 17)

> *O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı yad edir, göylərin və yerin yaradılması haqqında düşünür və deyirlər: "Ey Rəbbimiz! Sən bunları əbəs yerə xəlq etməmisən. Sən pak və müqəddəssən. Bizi Odun əzabından qoru!*
>
> **(Ali İmran surəsi, 191)**

Quranı xatirdə tutmaq

> *Evlərinizdə oxunan Allahın ayələrini və hikməti yada salın. Həqiqətən, Allah Lütfkardır, hər şeydən Xəbərdardır.*
>
> **(Əhzab surəsi, 34)**

Quranı nizam içində oxumaq

> *və ya ona artır. Quranı da aramla oxu!*
>
> **(Müzzəmmil surəsi, 4)**

Quranla öyüd vermək

> *Rəbbinin hüzuruna toplanılacaqlarından qorxanları xəbərdar et ki, Allahdan başqa onların nə bir hamisi, nə də bir havadarı vardır. Bəlkə pis əməllərdən çəkinələr.*
>
> **(Ənam surəsi, 51)**

Bu, insanları qorxutmaq və möminlərə öyüd-nəsihət vermək üçün sənə nazil edilən Kitabdır. Ona görə qəlbin heç narahat olmasın.

(Əraf surəsi, 2)

Sən ancaq Zikrə tabe olub Mərhəmətli Allahı görmədən Ondan çəkinən şəxsi qorxuda bilərsən. Beləsini bağışlanma və çox gözəl bir mükafatla müjdələ.

(Yasin surəsi, 11)

Quranın inkar edildiyi mühitdən ayrılmaq

Allah Kitabda sizə nazil etmişdir ki, Allahın ayələrinin inkar edildiyini və onlara istehza olunduğunu eşitdiyiniz zaman, günahkarlar başqa bir söhbətə keçməyincə onlarla bir yerdə oturmayın. Yoxsa siz də onların tayı olarsınız. Şübhəsiz ki, Allah bütün münafiqləri və kafirləri Cəhənnəmə toplayacaqdır.

(Nisa surəsi, 140)

Qeybə iman etmək

Bu, qətiyyən şübhə doğurmayan, müttəqilərə doğru yol göstərən bir Kitabdır.

(Bəqərə surəsi, 2)

> *O kəslər ki, qeybə iman gətirir, namaz qılır və Bizim onlara verdiyimiz ruzidən Allah yolunda xərcləyirlər;*
>
> **(Bəqərə surəsi, 3)**

Peyğəmbərlərə iman etmək

> *Peyğəmbər öz Rəbbindən ona nazil edilənə iman gətirdi, möminlər də iman gətirdilər. Hamısı Allaha, Onun mələklərinə, kitablarına və elçilərinə iman gətirdilər. Onlar dedilər: "Biz Onun elçiləri arasında fərq qoymuruq!" Onlar dedilər: "Eşitdik və itaət etdik! Ey Rəbbimiz! Səndən bağışlanma diləyirik, dönüş də yalnız Sənədir!"*
>
> **(Bəqərə surəsi, 285)**

> *Ey iman gətirənlər! Allaha, Onun Elçisinə və Elçisinə nazil etdiyi Kitaba və ondan əvvəl nazil etdiyi kitablara iman gətirin! Allahı, Onun mələklərini, kitablarını, elçilərini və Axirət gününü inkar edən şəxs dərin bir azğınlığa düşmüşdür.*
>
> **(Nisa surəsi, 136)**

Peyğəmbərlərə xəyanət etməmək

Ey iman gətirənlər! Allaha və Onun Elçisinə xəyanətkarlıq göstərməyin və bilə-bilə aranızdakı əmanətlərə də xəyanət etməyin.

(Ənfal surəsi, 27)

Peyğəmbərlərin aralarında fərq qoymamaq

Allahı və Onun elçilərini inkar edənlər, Allahı Onun elçilərindən ayırmaq istəyib: "Biz o elçilərin bəzisinə inanır, bəzilərinə isə inanmırıq!" – deyənlər və bunun arasında bir yol tutmaq istəyənlər –

(Nisa surəsi, 150)

məhz onlar əsl kafirlərdir. Biz kafirlər üçün alçaldıcı bir əzab hazırlamışıq.

(Nisa surəsi, 151)

Allaha və Onun elçilərinə iman gətirən və onlardan heç birinin arasında fərq qoymayanlara Allah öz mükafatlarını verəcəkdir. Allah Bağışlayandır, Rəhmlidir.

(Nisa surəsi, 152)

Peyğəmbərlərə itaət etmək

Ey iman gətirənlər! Allaha və Elçisinə itaət edin, həm də özünüzdən olan rəhbərlərə şəriətə uyğun şəkildə itaət edin. Əgər bir şey haqqında mübahisə etsəniz, Allaha və Axirət gününə inanırsınızsa, Allaha və Onun Elçisinə müraciət edin. Bu, sizin üçün daha xeyirli və nəticə etibarilə daha yaxşıdır.

(Nisa surəsi, 59)

Biz hər bir elçini, Allahın izni ilə, ona məhz itaət edilsin deyə göndərdik. Əgər onlar özlərinə zülm etdikləri zaman sənin yanına gəlib Allahdan bağışlanma diləsəydilər və Peyğəmbər də onlar üçün bağışlanma diləsəydi, əlbəttə ki, Allahın tövbələri qəbul edən və Rəhmli olduğunu görərdilər.

(Nisa surəsi, 64)

Peyğəmbərə qarşı gəlib çətinlik çıxarmamaq

Sözsüz ki, kafir olanlar, insanları Allah yolundan sapdıranlar və hidayət yolunu tanıdıqdan sonra Peyğəmbərə qarşı çıxanlar Allaha heç bir zərər vura bilməzlər. Allah onların bütün əməllərini puça çıxaracaqdır.

(Məhəmməd surəsi, 32)

Peyğəmbərləri yada salmaq, xatırlamaq

Onların dediklərinə səbir et və qüdrətli qulumuz Davudu yadına sal! O, daim Allaha üz tutardı.

(Sad surəsi, 17)

İsmaili, əl-Yəsə´i və Zül-Kifli də yada sal! Onların hamısı ən yaxşı kimsələrdəndir.

(Sad surəsi, 48)

Qüdrət və bəsirət sahibi olan qullarımız İbrahimi, İshaqı və Yəqubu da yada sal!

(Sad surəsi, 45)

Peyğəmbərlərə çox hörmətli olmaq

Ey iman gətirənlər! Heç bir şeydə Allahı və Onun Elçisini qabaqlamayın. Allahdan qorxun! Həqiqətən, Allah Eşidəndir, Biləndir.

(Hucurat surəsi, 1)

Ey iman gətirənlər! Səsinizi Peyğəmbərin səsindən yüksəyə qaldırmayın və bir-birinizə müraciət etdiyiniz kimi ona da uca səslə müraciət etməyin. Yoxsa, özünüz də hiss etmədən əməlləriniz hədər gedər.

(Hucurat surəsi, 2)

Həqiqətən, Allahın Elçisi yanında səsini endirənlər o şəxslərdir ki, Allah onların qəlbini təqva üçün sınağa çəkmişdir. Onları bağışlanma və böyük mükafat gözləyir.

(Hucurat surəsi, 3)

Şübhəsiz ki, səni otaqların arxasından səsləyənlərin əksəriyyəti nə etdiklərini anlamırlar.

(Hucurat surəsi, 4)

Sən onların qarşılarına çıxanadək səbir etsəydilər, əlbəttə, bu, onlar üçün daha yaxşı olardı. Allah Bağışlayandır, Rəhmlidir.

(Hucurat surəsi, 5)

Peyğəmbərləri müdafiə edib dəstəkləmək

O kəslər ki, yanlarındakı Tövrat və İncildə haqqında yazılmış olduğunu gördükləri elçinin – yazıb-oxumaq bilməyən peyğəmbərin, ardınca gedərlər. O peyğəmbər onlara yaxşı işlər görməyi buyurar, pis əməlləri isə qadağan edər, onlara pak şeyləri halal, murdar şeyləri isə haram edər. Onların ağır yüklərini yüngülləşdirər və onları buxovlardan xilas edər. Ona iman gətirən, onu dəstəkləyən, ona kömək edən və onunla göndərilmiş nurun (Quranın) ardınca gedənlər isə nicat tapanlardır".

(Əraf surəsi, 157)

Biz belə etdik ki, siz Allaha və Onun Elçisinə iman gətirəsiniz, ona kömək edəsiniz, onun hörmətini saxlayasınız və gecə-gündüz Allahı tərifləyəsiniz.

(Fəth surəsi, 9)

Mələklərə iman etmək

Ey iman gətirənlər! Allaha, Onun Elçisinə və Elçisinə nazil etdiyi Kitaba və ondan əvvəl nazil etdiyi kitablara iman gətirin! Allahı, Onun mələklərini, kitablarını, elçilərini və Axirət gününü inkar edən şəxs dərin bir azğınlığa düşmüşdür.

(Nisa surəsi, 136)

Bütün kitablara iman etmək

> *O kəslər ki, sənə nazil olana və səndən əvvəl nazil olanlara iman gətirir, axirətə də yəqinliklə inanırlar.*
>
> **(Bəqərə surəsi, 4)**

Günahdan çəkinmək

> *Onlar o kəslərdir ki, Allah onların qəlblərində olanı bilir. Elə isə onlardan üz döndər, onlara öyüd-nəsihət ver və özləri barədə onlara təsir göstərə biləcək söz söylə.*
>
> **(Nisa surəsi, 63)**

> *Sizə qadağan olunmuş böyük günahlardan çəkinsəniz, Biz sizin təqsirlərinizdən keçər və sizi şərəfli bir keçidə (Cənnətə) daxil edərik.*
>
> **(Nisa surəsi, 31)**

> *Günahın aşkarından da, gizlisindən də əl çəkin! Şübhəsiz ki, günah qazananlar etdikləri əməllərə görə cəzalandırılacaqlar.*
>
> **(Ənam surəsi, 120)**

De: "Rəbbim həm aşkar, həm də gizli törədilən yaramaz əməlləri, hər cür günahı, haqsızcasına zülm etməyi, Allahın, haqqında heç bir dəlil nazil etmədiyi bir şeyi Ona şərik qoşmağınızı və bilmədiyiniz şeyləri Allahın əleyhinə söyləməyinizi haram buyurmuşdur".

(Əraf surəsi, 33)

Günahın hər cürünü tərk etmək

Günahın aşkarından da, gizlisindən də əl çəkin! Şübhəsiz ki, günah qazananlar etdikləri əməllərə görə cəzalandırılacaqlar.

(Ənam surəsi, 120)

Dünya həyatına qapılmamaq

Var-dövlət və övladlar dünya həyatının bərbəzəyidir. Əbədi qalan yaxşı əməllər isə Rəbbinin yanında savab və ümid baxımından daha əfzəldir.

(Kəhf surəsi, 46)

Həqiqətən, dünya həyatı oyun və əyləncədən başqa bir şey deyildir. Əgər iman gətirib Allahdan qorxsanız, O sizə mükafatlarınızı verər və sizdən mal-dövlətinizi istəməz.

(Məhəmməd surəsi, 36)

Sizi bizə yaxınlaşdıra biləcək nə var-dövlətiniz, nə də oğul-uşağınızdır. Ancaq iman gətirib yaxşı işlər görənlər istisnadır. Məhz onların mükafatları etdikləri əməllərə görə qat-qat artırılacaq və onlar Cənnətdəki mənzillərində asudə yaşayacaqlar.

(Səba surəsi, 37)

Yoxsulluq qorxusundan uşaqları öldürməmək

Yoxsulluq qorxusundan uşaqlarınızı öldürməyin. Axı onların da, sizin də ruzinizi Biz veririk. Onları öldürmək, həqiqətən də, böyük günahdır.

(İsra surəsi, 31)

Nəfsi ilah etməmək

Nəfsinin istəyini ilahiləşdirən şəxsi gördünmü? Allah əzəli elmi sayəsində onu azğınlığa saldı, qulağını və qəlbini möhürlədi, gözünə də pərdə çəkdi. Allahdan başqa kim onu doğru yola yönəldə bilər? Məgər düşünüb anlamırsınız?

(Casiyə surəsi, 23)

Özünü yetərli görməmək

Kim də xəsislik edərək Rəbbinə ehtiyacı olmadığını güman edirsə

(Leyl surəsi, 8)

və ən gözəl olanı (lə ilahə illəllahı) yalan hesab edirsə,

(Leyl surəsi, 9)

Biz onun üstünə ən çətin olanı yükləyəcəyik.

(Leyl surəsi, 10)

Nəfsi qorumamaq, müdafiə etməmək

Onlar kiçik günahlar istisna olmaqla, böyük günahlardan və iyrənc əməllərdən çəkinirlər. Həqiqətən, sənin Rəbbin geniş məğfirət sahibidir. O, sizi torpaqdan yaradanda da, siz analarınızın bətnində rüşeym halında olanda da sizi yaxşı tanıyırdı. Özünüzü təmizə çıxartmayın! Çünki O, kimin Allahdan qorxduğunu yaxşı bilir.

(Nəcm surəsi, 32)

Nəfsi təmizləmək

Nə qədər bacarırsınızsa Allahdan qorxun. Peyğəmbərə qulaq asıb itaət edin və malınızdan öz xeyriniz üçün xərcləyin. Nəfsinin tamahından qorunanlar nicat tapanlardır.

(Təğabun surəsi, 16)

And olsun nəfsə və onu yaradıb kamilləşdirənə,

(Şəms surəsi, 7)

ona günahları və Allahdan qorxmağı təlqin edənə!

(Şəms surəsi, 8)

Nəfsini günahdan təmizləyən uğur qazanmışdır.

(Şəms surəsi, 9)

Onu günaha batıran isə ziyana uğramışdır.

(Şəms surəsi, 10)

İnsanların elə‌si də var ki, Allahın razılığını qazanmaq üçün canını da verər. Allah Öz qullarına qarşı Şəfqətlidir.

(Bəqərə surəsi, 207)

Öz nəfsinə zülm etməmək

Həqiqətən, Allah insanlara əsla zülm etməz, lakin insanlar özləri özlərinə zülm edərlər.

(Yunis surəsi, 44)

Yoxsa kafirlər mələklərin onların yanına gəlməsindən və yaxud Rəbbinin əmrinin gəlməsindən başqa bir şeymi gözləyirlər? Onlardan əvvəlkilər də belə etmişdilər. Allah onlara zülm etmədi, lakin onlar özləri özlərinə zülm edirdilər.

(Nəhl surəsi, 33)


Hər kəsin kitabı qarşısına qoyulacaq və sən günahkarların orada yazılmış olanlardan qorxduqlarını görəcəksən. Onlar deyəcəklər: "Vay halımıza! Bu necə bir kitab imiş! O nə bir kiçik, nə də bir böyük günahı buraxmadan hamısını sayıb yazmışdır!" Onlar etdikləri əməlləri öz qarşılarında görəcəklər. Rəbbin heç kəsə haqsızlıq etməz!

(Kəhf surəsi, 49)

Möminlərlə birlikdə olmaq

> *Səhər və axşam çağı Rəbbinin Üzünü diləyərək Ona dua edənlərlə birlikdə özünü səbirli apar. Dünyanın bərbəzəyini istəyərək nəzərlərini yoxsullardan çevirmə. Qəlbini Bizi anmaqdan xəbərsiz etdiyimiz, nəfsinin istəklərinə uyan və işləri səmərəsiz olan bir kimsəyə itaət etmə!*
>
> **(Kəhf surəsi, 28)**

> *Ey iman gətirənlər! Allahdan qorxun və düz danışanlarla birlikdə olun.*
>
> **(Tövbə surəsi, 119)**



Yetimə yaxşı davranın

Möminlərə qarşı şəfqətli və təvazökar olmaq

> *Mərhəmətli Allahın qulları o kəslərdir ki, onlar yer üzündə təvazökarlıqla gəzər, cahillər onlara xoşagəlməz bir söz dedikdə: "Salam!" – deyərlər.*
>
> **(Furqan surəsi, 63)**

Özünü üstün görməmək

Yer üzündə təkəbbürlə gəzmə. Çünki sən nə yeri yara bilər, nə də yüksələrək dağlara çata bilərsən.

(İsra surəsi, 37)

Həsəd etməmək

Əgər bir qadın öz ərinin kobud rəftarından, yaxud ondan üz döndərməsindən qorxarsa, ər-arvadın öz aralarında barışığa gəlməsi onlara günah sayılmaz. Axı barışmaq daha xeyirlidir. Doğrusu, nəfslər xəsislik etməyə hazırdır. Əgər qadınlarla yaxşı davranıb Allahdan qorxsanız, bilin ki, Allah nə etdiklərinizdən xəbərdardır.

(Nisa surəsi, 128)

Lağ etməmək

Ey iman gətirənlər! Bir camaat digərini məsxərəyə qoymasın. Ola bilər ki, bunlar onlardan daha yaxşı olsunlar. Qadınlar da qadınları lağa qoymasınlar. Ola bilər ki, bunlar onlardan daha yaxşı olsunlar. Bir-birinizə tənə vurmayın və bir-birinizi pis ləqəblərlə çağırmayın. İman gətirdikdən sonra fasiq adlanmaq necə də pisdir. Məhz tövbə etməyənlər zalımlardır.

(Hucurat surəsi, 11)

Dedi-qodu etməmək

Ey iman gətirənlər! Zənnə çox qapılmayın. Çünki zənn edilənlərin bir qismi günahdır. Bir-birinizi güdməyin, bir-birinizin qeybətini qırmayın. Sizdən biriniz ölmüş qardaşının ətini yemək istəyərmi? Siz ki, bundan iyrənirsiniz. Allahdan qorxun! Həqiqətən, Allah tövbələri qəbul edəndir, Rəhmlidir.

(Hucurat surəsi, 12)

Möminləri xoşlanmadıqları ləqəblərlə çağırmamaq

Ey iman gətirənlər! Bir camaat digərini məsxərəyə qoymasın. Ola bilər ki, bunlar onlardan daha yaxşı olsunlar. Qadınlar da qadınları lağa qoymasınlar. Ola bilər ki, bunlar onlardan daha yaxşı olsunlar. Bir-birinizə tənə vurmayın və bir-birinizi pis ləqəblərlə çağırmayın. İman gətirdikdən sonra fasiq adlanmaq necə də pisdir. Məhz tövbə etməyənlər zalımlardır.

(Hucurat surəsi, 11)

Möminlərə sözün ən gözəlini söyləmək

O kəslər ki, sözə qulaq asıb onun ən yaxşısına tabe olurlar, onlar Allahın doğru yola yönəltdiyi şəxslərdir. Ağıl sahibləri də məhz onlardır.

(Zumər surəsi, 18)

Qaş-göz işarələriylə lağ etməmək

Hər bir qeybət edənin, tənə vuranın vay halına!

(Hümәzə surəsi, 1)

Möminləri dost və sirdaş etmək

Ey iman gətirənlər! Möminləri qoyub kafirləri özünüzə dost tutmayın. Yoxsa Allaha öz əleyhinizə açıq-aydın bir dəlil verməkmi istəyirsiniz?

(Nisa surəsi, 144)

Yoxsa elə hesab edirsiniz ki, Allah sizlərdən cihad edənləri, Allahdan, Onun Elçisindən və möminlərdən başqasını özlərinə sirdaş tutmayanları sınamadan siz sərbəst buraxılacaqsınız? Allah nə etdiklərinizdən xəbərdardır.

(Tövbə surəsi, 16)

Möminlərin nəfslərini öz nəfsindən üstün tutmaq

Mühacirlərdən əvvəl Mədinədə yurd salmış, sonra da iman gətirmiş kimsələr öz yanlarına hicrət edənləri sevir, onlara verdiklərinə görə qəlblərində peşmançılıq hissi duymurlar. Hətta özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tuturlar. Nəfsinin tamahından qorunan kimsələr nicat tapanlardır.

(Həşr surəsi, 9)

Möminləri cənnətlə müjdələmək

Doğrudan da, Allah möminlərdən, Cənnət müqabilində onların canlarını və mallarını satın almışdır. Çünki onlar Allah yolunda vuruşub öldürür və öldürülürlər. Bu, Allahın Tövratda, İncildə və Quranda Öz öhdəsinə götürdüyü bir vəddir. Allahdan daha yaxşı əhdini yerinə yetirən kimdir? Elə isə sövdələşdiyiniz alış-verişə görə sevinin. Məhz bu, böyük uğurdur.

(Tövbə surəsi, 111)

İman gətirib hicrət edən və Allah yolunda öz malı və canı ilə cihad edənlərin Allah yanında ən yüksək dərəcələri vardır. Məhz onlar nicat tapanlardır.

(Tövbə surəsi, 20)

> *Rəbbi Öz tərəfindən onları bir mərhəmət, razılıq və içərisində onlar üçün tükənməz nemətlər olan Cənnət bağları ilə müjdələyir.*
>
> **(Tövbə surəsi, 21)**

Namaz qılmaq

> *Namaz qılın, Ondan qorxun, məhz Onun hüzuruna toplanılacaqsınız".*
>
> **(Ənam surəsi, 72)**

Namazı 5 vaxt qılmaq

> *Namazları və (günortadan sonrakı) orta namazı qoruyun və Allah qarşısında mütiliklə durun.*
>
> **(Bəqərə surəsi, 238)**

> *Allaha qarşı yalan uydurandan və ya Onun ayələrini yalan hesab edəndən daha zalım kim ola bilər? Doğrudan da, günahkarlar nicat tapmazlar.*
>
> **(Yunis surəsi, 17)**

Onlar Allahı qoyub özlərinə nə bir zərər, nə də bir fayda verə bilməyənlərə ibadət edir və: "Onlar Allah yanında bizim şəfaətçilərimizdir!" – deyirlər. De: "Yoxsa Allaha göylərdə və yerdə bilmədiyi bir şeyimi xəbər verirsiniz?" Allah onların qoşduqları şəriklərdən uzaqdır və ucadır.

(Yunis surəsi, 18)

Gün batmağa meyl edəndən gecənin qaranlığınadək bəlli vaxtlarda namaz qıl və sübh çağı Quran oxu (fəcr namazını da qıl)! Çünki sübh çağı oxunan Quranın şahidləri olur.

(İsra surəsi, 78)

Gündüzün iki başında (əvvəlində və axırında) və gecənin bəzi saatlarında namaz qıl! Həqiqətən, yaxşı işlər pis əməlləri silib aparır. Bu, yada salanlar üçün bir xatırlatmadır.

(Hud surəsi, 114)

Namazı vacib olan vaxtlarda qılmaq

Namazı bitirdikdən sonra ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı yad edin. Təhlükə sizdən sovuşduqda isə, namazı lazımi qaydada qılın. Çünki namaz möminlərə müəyyən olunmuş vaxtlarda vacib edilmişdir.

(Nisa surəsi, 103)

Namazı doğru qılmaq

Namaz qılın, zəkat verin və rüku edənlərlə birlikdə rüku edin!

(Bəqərə surəsi, 43)

Namazı huşu içində qılmaq

o kəslər ki, namazlarında mütidirlər,

(Muminun surəsi, 2)

Namazda qibləyə dönmək

Biz sənin üzünün göyə tərəf çevrildiyini gördük və Biz səni razı qalacağın qibləyə tərəf döndərəcəyik. Sən üzünü Məscidulharama tərəf çevir! Harada olursunuzsa olun, üzünüzü ona tərəf çevirin! Şübhəsiz ki, Kitab verilənlər bunun öz Rəbbi tərəfindən gerçək olduğunu bilirlər. Allah onların etdiklərindən xəbərsiz deyildir.

(Bəqərə surəsi, 144)

Hara səfərə çıxsan, namaz qıldıqda üzünü Məscidulharama tərəf çevir! Çünki bu, sənin Rəbbindən gələn haqdır! Allah sizin etdiklərinizdən xəbərsiz deyildir.

(Bəqərə surəsi, 149)

Göstəriş üçün namaz qılmamaq

Vay halına namaz qılanların –

(Maun surəsi, 4)

o şəxslərin ki, onlar namazlarında səhlənkardırlar.

(Maun surəsi, 5)

> *Onlar riyakardırlar*
>
> **(Maun surəsi, 6)**

Namazda qiraət

> *De: "İstər Allah deyib çağırın, istərsə də Mərhəmətli deyib çağırın. Necə çağırsanız da, hər halda ən gözəl adlar Ona məxsusdur". Namazını nə uca səslə, nə də pıçıltı ilə qıl. Bunların arasında orta bir yol tut.*
>
> **(İsra surəsi, 110)**

Ruku və səcdə etmək

> *Sən həmd-səna ilə Rəbbini təriflə və səcdə edənlərdən ol!*
>
> **(Hicr surəsi, 98)**

> *Namaz qılın, zəkat verin və rüku edənlərlə birlikdə rüku edin!*
>
> **(Bəqərə surəsi, 43)**

> *Ey iman gətirənlər! Rüku edin, səcdəyə qapanın, Rəbbinizə ibadət edərək yaxşı işlər görün ki, bəlkə nicat tapasınız.*
>
> **(Həcc surəsi, 77)**

> *De: "İstər ona inanın, istərsə də inanmayın. Doğrudan da, ondan əvvəl özlərinə elm verilmiş kimsələrə, ayələr oxunduğu zaman üzüstə səcdəyə qapanır*
>
> **(İsra surəsi, 107)**

Namazlara davam etmək

> *Namazları və (günortadan sonrakı) orta namazı qoruyun və Allah qarşısında mütiliklə durun.*
>
> **(Bəqərə surəsi, 238)**

> *Ailənə namaz qılmağı əmr et, özün də onu səbirlə yerinə yetir. Biz səndən ruzi istəmirik, əksinə sənə ruzi verən Bizik. Gözəl aqibət təqvaya bağlıdır.*
>
> **(Taha surəsi, 132)**

Əhlinə namaz qılmağı əmr etmək

> *Ailənə namaz qılmağı əmr et, özün də onu səbirlə yerinə yetir. Biz səndən ruzi istəmirik, əksinə sənə ruzi verən Bizik. Gözəl aqibət təqvaya bağlıdır.*
>
> **(Taha surəsi, 132)**

Sərxoş və cünub ikən namaza yaxınlaşmamaq

Ey iman gətirənlər! Sərxoş ikən nə dediyinizi anlayana qədər və cinsi əlaqədən sonra natəmiz olduğunuz halda, – yolda olan müsafirlər istisna olmaqla – qüsl edənədək namaza yaxınlaşmayın. Əgər xəstə və ya səfərdə olsanız, yaxud sizlərdən biri ayaq yolundan gəlibsə və ya qadınlarla yaxınlıq etmisinizsə, su tapmasanız, təmiz torpaqla təyəmmüm edin, üzünüzə və əllərinizə sürtün! Həqiqətən, Allah əfv edəndir, Bağışlayandır.

(Nisa surəsi, 43)

Döyüşdə namazı qısaltmaq və namazdan sonra Allahı xatırlamaq

Yer üzündə səfərə çıxdığınız zaman kafirlərin sizə zərər yetirəcəklərindən qorxarsınızsa, namazı qısaltmanıza görə sizə günah gəlməz. Şübhəsiz ki, kafirlər sizin açıq-aydın düşmənlərinizdir.

(Nisa surəsi, 101)

Sən səhabələrinin arasında olub onlara namaz qıldırdığın zaman onların bir dəstəsi sənlə birlikdə namaza dursun, silahlarını da özləri ilə götürsünlər. Bunlar səcdə etdikləri zaman (birinci rükəti tamamlayanadək o biri dəstə) arxanızda olsun. Sonra namazını qılmamış digər dəstə gəlib sənlə birlikdə namaz qılsın, ehtiyatlarını tutsunlar və silahlarını da özləri ilə götürsünlər. Kafirlər istərdilər ki, siz silahlarınızdan və əşyalarınızdan xəbərsiz olasınız və onlar da sizin üzərinizə bircə dəfə hücum etsinlər (bir həmlədə sizi məğlub etsinlər). Əgər siz yağışdan əziyyət çəksəniz və ya xəstə olsanız silahlarınızı yerə qoymaq sizə günah deyildir, lakin ehtiyatınızı əldən verməyin. Şübhəsiz ki, Allah kafirlər üçün alçaldıcı bir əzab hazırlamışdır.

(Nisa surəsi, 102)

Namazı bitirdikdən sonra ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı yad edin. Təhlükə sizdən sovuşduqda isə, namazı lazımi qaydada qılın. Çünki namaz möminlərə müəyyən olunmuş vaxtlarda vacib edilmişdir.

(Nisa surəsi, 103)

Cümə namazı qılmaq

Ey iman gətirənlər! Cümə günü namaza çağırılanda Allahı yad etməyə tələsin və ticarəti dayandırın. Bilsəniz, bu sizin üçün nə qədər xeyirlidir!

(Cümə surəsi, 9)

Cənazə namazını qılmaq

Heç vaxt onlardan ölmüş bir kəsin cənazə namazını qılma, qəbrinin başında da durma. Çünki onlar Allahı və Onun Elçisini inkar etdilər və günahkar olaraq öldülər.

(Tövbə surəsi, 84)

Dəstəmaz almaq - təyəmmüm etmək

Ey iman gətirənlər! Sərxoş ikən nə dediyinizi anlayana qədər və cinsi əlaqədən sonra natəmiz olduğunuz halda, – yolda olan müsafirlər istisna olmaqla – qüsl edənədək namaza yaxınlaşmayın. Əgər xəstə və ya səfərdə olsanız, yaxud sizlərdən biri ayaq yolundan gəlibsə və ya qadınlarla yaxınlıq etmisinizsə, su tapmasanız, təmiz torpaqla təyəmmüm edin, üzünüzə və əllərinizə sürtün! Həqiqətən, Allah əfv edəndir, Bağışlayandır.

(Nisa surəsi, 43)

Ey iman gətirənlər! Namaza durarkən üzünüzü və dirsəklərə qədər əllərinizi yuyun, başınıza məsh çəkin və topuqlara qədər ayaqlarınızı yuyun. Yaxınlıq edib natəmiz olmuşsunuzsa, qüsl edin. Əgər xəstə və ya səfərdə olsanız, yaxud sizlərdən biri ayaq yolundan gəlibsə və ya qadınlara toxunmusunuzsa (cinsi əlaqədə olmuşsunuzsa), su tapmasanız, təmiz torpaqla təyəmmüm edin və ondan üzünüzə və əllərinizə sürtün. Allah sizi çətinliyə salmaq istəməz, lakin O sizi pak etmək və sizə olan nemətini tamamlamaq istər ki, bəlkə şükür edəsiniz.

(Maidə surəsi, 6)

Səhər namazı vaxtında Quran oxumaq

Gün batmağa meyl edəndən gecənin qaranlığınadək bəlli vaxtlarda namaz qıl və sübh çağı Quran oxu (fəcr namazını da qıl)! Çünki sübh çağı oxunan Quranın şahidləri olur.

(İsra surəsi, 78)

Səhər namazı vaxtında bağışlanma diləmək

onlar səbir edən, doğru danışan, müti olan, malından Allah yolunda xərcləyən və sübh çağına yaxın bağışlanma diləyən kimsələrdir.

(Ali İmran surəsi, 17)

Sübh çağı isə bağışlanma diləyirdilər.

(Zəriyət surəsi, 18)

Dini təbliğ etmək

Mənim əlimdən gələn ancaq Allahı və Onun göndərdiklərini təbliğ etməkdir. Kim Allaha və Onun Elçisinə asi olarsa, onun üçün içərisində əbədi qalacaqları Cəhənnəm odu hazırlanmışdır".

(Cin surəsi, 23)

Allahın ayələri sənə nazil edildikdən sonra muğayat ol ki, onlar səni bu ayələrdən döndərməsinlər. Sən Rəbbinə dəvət et və müşriklərdən olma!

(Qəsas surəsi, 87)

Dinə girməsi üçün kimsəni məcbur etməmək

Dində məcburiyyət yoxdur. Artıq doğru yol azğınlıqdan aydın fərqlənir. Hər kəs tağutu inkar edib Allaha iman gətirərsə, heç vaxt qırılmayan ən möhkəm dəstəkdən yapışmış olar. Allah Eşidəndir, Biləndir.

(Bəqərə surəsi, 256)

Dini çətinləşdirməyə çalışmamaq

Allah yolunda lazımınca cihad edin. O, sizi seçdi və atanız İbrahimin dinində olduğu kimi, bu dində də sizin üçün heç bir çətinlik yaratmadı. Peyğəmbər sizə, siz də insanlara şahid olasınız deyə, Allah həm əvvəl nazil etdiyi kitablarda, həm də bu Kitabda sizi müsəlman adlandırdı. Elə isə namaz qılın, zəkat verin və Allaha möhkəm sarılın. O sizin Himayədarınızdır. O nə gözəl Himayədar, nə gözəl Yardımçıdır!

(Həcc surəsi, 78)

Dində ifrata qaçmamaq

Sənə əmr edildiyi kimi sən də, sənin lə birlikdə tövbə edənlər də doğru yolda olun. Həddi aşmayın, çünki O, sizin nə etdiklərinizi görür.

(Hud surəsi, 112)

Onların dedikləri ancaq: "Ey Rəbbimiz! Günahlarımızı və əməllərimizdə həddi aşmağımızı bizə bağışla; qədəmlərimizi sabit et və kafir qövmə qələbə çalmaqda bizə yardım et!" – olmuşdur.

(Ali İmran surəsi, 147)

Dini, mənfəətlərinə vasitə etməmək

Vay o şəxslərin halına ki, onlar öz əlləri ilə kitab yazır, sonra da: "Bu, Allah tərəfindəndir!" – deyirlər ki, onunla cüzi miqdarda pul əldə edə bilsinlər. Öz əlləri ilə yazdıqlarına görə vay onların halına! Qazandıqları şeyə görə vay onların halına!

(Bəqərə surəsi, 79)

Allaha qarşı yalan uydurandan və ya özünə vəhy olunmadığı halda: "Mənə də vəhy olunmuşdur" – söyləyəndən və: "Mən də Allahın nazil etdiyinin bənzərini endirəcəyəm" – deyəndən daha zalım kim ola bilər? Zalımları ölüm girdabında olduqda, mələklərin də əllərini uzadıb: "Canlarınızı çıxarın! Allaha qarşı nahaq sözlər söylədiyinizə və Onun ayələrinə təkəbbür göstərdiyinizə görə bu gün siz cəzalandırılacaqsınız!" – dediklərini bircə görəydin.

(Ənam surəsi, 93)

Gözəl sözlə öyüd vermək

Allahın necə məsəl çəkdiyini görmürsənmi? Gözəl söz (lə ilahə illəllah) kökü yerdə möhkəm olan, budaqları isə göyə yüksələn gözəl bir ağac kimidir.

(İbrahim surəsi, 24)

> *O ağac Rəbbinin izni ilə öz bəhrəsini hər zaman verir. Allah insanlar üçün misallar çəkir ki, bəlkə, düşünüb ibrət alsınlar.*
>
> **(İbrahim surəsi, 25)**

> *Qullarıma de ki, ən gözəl sözləri danışsınlar. Çünki şeytan onların arasına ədavət sala bilər. Həqiqətən, şeytan insanın açıq-aydın düşmənidir.*
>
> **(İsra surəsi, 53)**

Haqqı müdafiə etməkdən çəkinməmək

> *Kitabda insanlara bəyan etdiyimiz açıq-aydın dəlilləri və doğru yol göstərən ayələri nazil etdikdən sonra onları gizli saxlayanlara həm Allah lənət edir, həm də lənət edə bilənlər lənət oxuyurlar!*
>
> **(Bəqərə surəsi, 159)**

‘Yaxşı əməl üzünüzü məşriqə və məğribə tərəf çevirməyiniz deyildir. Lakin yaxşı əməl sahibləri Allaha, Axirət gününə, mələklərə, kitablara, peyğəmbərlərə iman gətirən, sevdiyi malı qohum-əqrəbaya, yetimlərə, kasıblara, müsafirlərə, dilənənlərə və kölələrin azad edilməsinə sərf edən, namaz qılıb zəkat verən, əhd bağladıqda əhdlərini yerinə yetirən, sıxıntı və xəstəlik üz verdikdə, habelə döyüşdə səbir edən şəxslərdir. Onlar imanlarında doğru olanlardır. Müttəqi olanlar da elə məhz onlardır.

(Bəqərə surəsi, 177)

Bu, insanları qorxutmaq və möminlərə öyüd-nəsihət vermək üçün sənə nazil edilən Kitabdır. Ona görə qəlbin heç narahat olmasın.

(Əraf surəsi, 2)

Xeyirə çağırmaq, pislikdən məhrum etmək

Siz insanlar arasında üzə çıxarılmış ən xeyirli ümmətsiniz. Siz yaxşı işlər görməyi əmr edir, pis əməlləri qadağan edir və Allaha iman gətirirsiniz. Kitab əhli də iman gətirsəydi, əlbəttə, onlar üçün yaxşı olardı. Onların arasında iman gətirənlər də vardır. Əksəriyyəti isə haqq yolunu azmış fasiqlərdir.

(Ali İmran surəsi, 110)

> *Bələləri Allaha, Axirət gününə iman gətirir, yaxşı işlər görməyi buyurur, pis əməlləri qadağan edir və xeyirxah işlər görməyə tələsirlər. Məhz onlar əməlisalehlərdəndirlər.*
>
> **(Ali İmran surəsi, 114)**

> *Allah Kitabda sizə nazil etmişdir ki, Allahın ayələrinin inkar edildiyini və onlara istehza olunduğunu eşitdiyiniz zaman, günahkarlar başqa bir söhbətə keçməyincə onlarla bir yerdə oturmayın. Yoxsa siz də onların tayı olarsınız. Şübhəsiz ki, Allah bütün münafiqləri və kafirləri Cəhənnəmə toplayacaqdır.*
>
> **(Nisa surəsi, 140)**

> *Qoy sizin içərinizdən xeyrə çağıran, yaxşı işlər görməyi buyuran və pis əməlləri qadağan edən bir camaat çıxsın. Məhz onlar nicata qovuşanlardır.*
>
> **(Ali İmran surəsi, 104)**

Münafiqlərlə sərt və çəkindirici rəftar etmək

> *Onlarla vuruşun ki, Allah sizin əllərinizlə onlara əzab versin, onları rüsvay etsin, sizə onların üzərində qələbə çaldırsın, mömin camaatın qəlbini sevindirsin*
>
> **(Tövbə surəsi, 14)**

> *Ey Peyğəmbər! Kafirlərlə və münafiqlərlə vuruş. Onlarla sərt davran. Onların sığınacaqları yer Cəhənnəmdir. Ora nə pis dönüş yeridir!*
>
> **(Tövbə surəsi, 73)**

> *Əgər ikiüzlülər, qəlbi xəstə olanlar və şəhərdə qarayaxma şayiələr yayanlar öz yaramaz əməllərinə son qoymasalar, səni onlara qarşı çıxmağa çağırarıq. Sonra onlar orada artıq sənin ilə ancaq qısa bir müddət ərzində qonşuluq edər və*
>
> **(Əhzab surəsi, 60)**

Münafiqlərdən üz çevirmək

> *Kafirlərə və münafiqlərə itaət etmə. Onların əziyyətlərinə fikir vermə və Allaha təvəkkül et. Allahın Qoruyan olması kifayətdir.*
>
> **(Əhzab surəsi, 48)**

Münafiqlərdən ölən birinin namazını qılmamaq

> *Heç vaxt onlardan ölmüş bir kəsin cənazə namazını qılma, qəbrinin başında da durma. Çünki onlar Allahı və Onun Elçisini inkar etdilər və günahkar olaraq öldülər.*
>
> **(Tövbə surəsi, 84)**

Allah yolunda xərcləmək, infaq etmək

Sizə nə olub ki, malınızdan Allah yolunda xərcləmirsiniz? Halbuki göylərin və yerin mirası Allahındır. Sizlərdən Məkkənin fəthindən əvvəl xərcləyib döyüşənlər başqaları ilə eyni deyillər. Onların dərəcəsi mallarını fəthdən sonra xərcləyib döyüşənlərdən daha üstündür. Amma Allah onların hamısına ən gözəl olanı vəd etmişdir. Allah sizin nə etdiklərinizdən xəbərdardır.

(Hədid surəsi, 10)

Kimdir o şəxs ki, Allaha gözəl bir borc versin (Allah yolunda malını yaxşı işlərə sərf etsin), O da onun üçün bunu qat-qat artırsın? Onun üçün çox dəyərli bir mükafat da vardır.

(Hədid surəsi, 11)

Sevilen şeylərdən infaq etmək

Sevdiyiniz şeylərdən Allah yolunda xərcləməyincə xeyrə nail olmayacaqsınız. Sizin nə xərclədiyinizi, şübhəsiz ki, Allah bilir.

(Ali İmran surəsi, 92)

İnfaq ediləcək miqdar

Səndən sərxoşedici içki və qumar barəsində soruşurlar. De: "İkisində də həm böyük günah, həm də insanlar üçün mənfəət vardır. Amma günahları mənfəətlərindən daha böyükdür". Səndən Allah yolunda nə xərcləyəcəklərini soruşurlar. De: "Ehtiyacınızdan artıq qalanını!" Allah ayələri sizə belə bəyan edir ki, bəlkə fikirləşəsiniz –

(Bəqərə surəsi, 219)

Özü üçün bəyənmədiyi bir şeyi infaq etməmək

Ey iman gətirənlər! Qazandığınız və sizin üçün torpaqdan yetişdirdiyimiz şeylərin yaxşısından Allah yolunda xərcləyin. Özünüzə verildiyi təqdirdə ancaq göz yumub alacağınız pis şeylərdən xərcləməyə çalışmayın. Bilin ki, Allah Zəngindir, Tərifəlayiqdir.

(Bəqərə surəsi, 267)

Könüldən, sevə-sevə infaq etmək

Mallarını Allahın razılığını qazanmaq və nəfslərini möhkəmləndirmək üçün xərcləyənlərin məsəli təpə üzərindəki bağın məsəlinə bənzəyir ki, ona şiddətli yağış düşdükdən sonra o öz bəhrəsini iki qat verər. Hərgah ona şiddətli yağış düşməzsə, narın yağış da bəs edər. Allah sizin nə etdiklərinizi görür.

(Bəqərə surəsi, 265)

Açıq və ya gizli infaq etmək

Sədəqələri aşkarda verirsinizsə, bu çox gözəl. Əgər onu yoxsullara gizlində versəniz, bu sizin üçün daha yaxşı olar. Allah sizin bəzi günahlarınızdan keçər. Allah nə etdiklərinizdən xəbərdardır.

(Bəqərə surəsi, 271)

Mallarını gecə və gündüz, gizli və aşkar xərcləyənlərin öz Rəbbi yanında mükafatı vardır. Onlara heç bir qorxu yoxdur və onlar kədərlənməyəcəklər.

(Bəqərə surəsi, 274)

Zəkat vermək

Namaz qılın, zəkat verin! Qabaqcadan özünüz üçün nə xeyir hazırlasanız onun əvəzini Allahın yanında tapacaqsanız. Şübhəsiz ki, Allah nə etdiklərinizi görür.

(Bəqərə surəsi, 110)

Namaz qılın, zəkat verin və rüku edənlərlə birlikdə rüku edin!

(Bəqərə surəsi, 43)

Sədəqəni başa vurmamaq

Mallarını Allah yolunda xərcləyənlərin və xərclədiklərinin ardından minnət qoymayan və əziyyət verməyənlərin, Rəbbi yanında mükafatları vardır. Onlara heç bir qorxu yoxdur və onlar kədərlənməyəcəklər.

(Bəqərə surəsi, 262)

Xoş söz demək və xətaları bağışlamaq, minnətlə verilən sədəqədən daha yaxşıdır. Allah Zəngindir, Həlimdir.

(Bəqərə surəsi, 263)

> *Ey iman gətirənlər! Sədəqələrinizi, özünü camaata göstərmək məqsədilə xərcləyən, Allaha və Axirət gününə inanmayan şəxs kimi minnət qoymaqla və əziyyət verməklə puç etməyin. Bunun məsəli üzərində torpaq olan hamar qayanın məsəlinə bənzəyir ki, şiddətli yağış yağıb onu çılpaq hala salmışdır. Onlar qazandıqlarından heç bir şeyə nail olmazlar. Allah kafir xalqı doğru yola yönəltməz.*
>
> **(Bəqərə surəsi, 264)**

Sədəqəni gizli verməyi üstün tutmaq

> *Sədəqələri aşkarda verirsinizsə, bu çox gözəl. Əgər onu yoxsullara gizlində versəniz, bu sizin üçün daha yaxşı olar. Allah sizin bəzi günahlarınızdan keçər. Allah nə etdiklərinizdən xəbərdardır.*
>
> **(Bəqərə surəsi, 271)**

Sədəqə istəyəni qovmamaq

> *Səndən kömək diləyəni qovma!*
>
> **(Duha surəsi, 10)**

Allahı təsbeh etmək, ucaltmaq

> *Ən Uca Rəbbinin adına təriflər de!*
>
> **(Əla surəsi, 1)**

Təsbeh vaxtları

> *Ey qövmüm! Bu dünya həyatı ancaq fani bir zövqdür, axirət isə qərar tutacağınız yurddur.*
>
> **(Mümin surəsi, 39)**

> *Kim pis bir iş tutsa, o ancaq işinin həddi qədər cəza alar. Mömin olmaqla bərabər, yaxşı iş görən kişilər və qadınlar Cənnətə daxil olub orada hesabsız ruziyə nail olarlar.*
>
> **(Mümin surəsi, 40)**

> *Səbir et! Həqiqətən, Allahın vədi haqdır. Günahının bağışlanmasını dilə, axşamüstü və sübh çağı Rəbbini həmd ilə təriflə.*
>
> **(Mümin surəsi, 55)**

Odur ki, siz axşama çatanda və səhərə çıxanda Allahın şərəfinə çoxlu tərif söyləyin.

(Rum surəsi, 17)

Göylərdə və yerdə həmd Ona məxsusdur. Axşam çağında da, günortaya yetişəndə də Onun şərəfinə təriflər deyin!

(Rum surəsi, 18)

Onların dediklərinə səbir et. Günəş doğmamışdan və batmamışdan əvvəl Rəbbini həmd-səna ilə tərifllə, gecənin bəzi saatlarında və gündüzün iki başında Ona təriflər de ki, bəlkə razı qalasan.

(Taha surəsi, 130)

Miniklərə, maşınlara minildiyində təsbeh etmək

onların belinə, yaxud göyərtəsinə qalxıb yerləşdiyiniz zaman Rəbbinizin nemətini yada salıb deyəsiniz: "Bunu bizə ram edən Allah pakdır, müqəddəsdir. Yoxsa bizim ona gücümüz çatmazdı.

(Zuxruf surəsi, 13)

Şübhəsiz ki, biz Rəbbimizə qayıdacağıq".

(Zuxruf surəsi, 14)

Allahın haram etdiyi şeylər

De: "Gəlin, Rəbbinizin sizə nələri haram etdiyini oxuyum". Ona heç nəyi şərik qoşmayın, valideynlərə yaxşılıq edin və yoxsulluq ucbatından uşaqlarınızı öldürməyin. Sizin də, onların da ruzisini Biz veririk. Murdar əməllərin aşkarına da, gizlisinə də yaxınlaşmayın. Allahın, öldürülməsini haram buyurduğu şəxsi haqsız yerə öldürməyin. Allah bunları sizə tövsiyə etmişdir ki, bəlkə anlayasınız.

(Ənam surəsi, 151)

Allahın haram etdiyi yeməklərdən zəruri ehtiyac halında yeyilə biləcəyi

O sizə ancaq ölü heyvanı, qanı, donuz ətini və Allahdan başqası üçün kəsilən heyvanı haram etmişdir. Hər kəs harama meyl etmədən və həddi aşmadan bunlardan yeməyə məcbur olarsa, ona günah gəlməz. Həqiqətən, Allah Bağışlayandır, Rəhmlidir!

(Nəhl surəsi, 115)

Leş, qan, donuz əti, Allahdan başqasının adı ilə kəsilmiş, boğulmuş, döyülüb öldürülmüş, hündür bir yerdən yıxılıb gəbərmiş, buynuzlanıb öldürülmüş, yırtıcı heyvan tərəfindən parçalanıb yeyilmiş, – ölməmiş kəsdiklərinizistisnadır, – dik qoyulmuş daşlar (bütlər və s.) üzərində kəsilmiş heyvanlar və fal oxları ilə qismət axtarmanız sizə haram edildi. Bunlar günahdır. Bu gün kafirlər sizi dininizdən döndərməkdən əllərini üzdülər. Onlardan qorxmayın, Məndən qorxun. Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və bir din olaraq sizin üçün İslamı bəyənib seçdim. Hər kəs günaha meyl etməyərək aclıq üzündən haram olanlardan istifadə etməyə məcbur olarsa, bilsin ki, Allah Bağışlayandır, Rəhmlidir.

(Maidə surəsi, 3)

İsraf etməmək

Talvar üzərində olan və talvarsız öz gövdəsi üzərində duran bağları, dadları müxtəlif olan xurma və dənli bitkiləri, bir-birinə bənzəyən və bənzəməyən zeytunu və narı yaradan Odur. Bar verdiyi zaman onların meyvəsindən yeyin, yığım günü zəkatını verin, lakin israf etməyin. Şübhəsiz ki, Allah israf edənləri sevmir.

(Ənam surəsi, 141)

> *Qohum-əqrəbaya da, yoxsula da, müsafirə də haqqını ver. Lakin malını lazım olmayan yerə sərf etmə.*
>
> **(İsra surəsi, 26)**

> *Həqiqətən, israfçılar şeytanların qardaşlarıdır. Şeytan isə Rəbbinə qarşı nankordur.*
>
> **(İsra surəsi, 27)**

> *Ey Adəm oğulları! Məscidlərə gedərkən gözəl geyimlərinizi geyin. Yeyin-için, lakin israf etməyin. Şübhəsiz ki, Allah israf edənləri sevmir.*
>
> **(Əraf surəsi, 31)**

Xəsis olmamaq

> *Şeytan sizi yoxsulluqla qorxudur və yaramaz işlər görməyi əmr edir. Allah isə sizə Öz tərəfindən bağışlanma və mərhəmət olunacağını vəd edir. Allah hər şeyi Əhatəedəndir, Biləndir.*
>
> **(Bəqərə surəsi, 268)**

> *Allahın Öz lütfündən bəxş etdiyini xərcləməyə xəsislik edənlər elə güman etməsinlər ki, bu, onların xeyrinədir. Əksinə, bu, onlar üçün pisdir. Onların xəsislik etdikləri şey qiyamət günü boyunlarına dolanacaqdır. Göylərin və yerin mirası Allaha məxsusdur. Allah nə etdiklərinizdən xəbərdardır.*
>
> **(Ali İmran surəsi, 180)**

Allah yolunda mübarizə etmək, cəhd etmək

> *Əgər döyüşə çıxmasanız, Allah sizi ağrılı-acılı bir əzaba düçar edər və sizi başqa bir qövmlə əvəz edər. Siz isə Ona heç bir zərər yetirə bilməzsiniz, çünki Allah hər şeyə qadirdir.*
>
> **(Tövbə surəsi, 39)**

> *Sizə yüngül gəlsə də, ağır gəlsə də, döyüşə çıxın, malınız və canınızla Allah yolunda cihad edin! Biləsiniz ki, bu sizin üçün daha xeyirlidir.*
>
> **(Tövbə surəsi, 41)**

Mallarla və canla mübarizə etmək

Lakin Allahın Elçisi və onunla birgə iman gətirənlər malları və canları ilə cihad etdilər. Onlar üçün nemətlər hazırlanmışdır. Məhz onlar uğur qazananlardır.

(Tövbə surəsi, 88)

İman gətirib hicrət edən və Allah yolunda öz malı və canı ilə cihad edənlərin Allah yanında ən yüksək dərəcələri vardır. Məhz onlar nicat tapanlardır.

(Tövbə surəsi, 20)

İnkarçıların başçıları ilə mübarizə etmək



Ana-atanaya yaxşılıq edin

Əgər kafir başçılar əhd bağladıqdan sonra andlarını pozub dininizə böhtan atsalar, onlarla vuruşun, çünki onlar anda əhəmiyyət verməzlər. Bəlkə, küfrdən əl çəkələr.

(Tövbə surəsi, 12)

Mübarizədə qərarlılıq göstərmək

Onlarla vuruşun ki, Allah sizin əllərinizlə onlara əzab versin, onları rüsvay etsin, sizə onların üzərində qələbə çaldırsın, mömin camaatın qəlbini sevindirsin

(Tövbə surəsi, 14)

Heç bir şeyi Allahdan, Elçisindən və mübarizədən üstün görməmək

De: "Əgər atalarınız, oğullarınız, qardaşlarınız, zövcələriniz, yaxın qohumlarınız, qazandığınız mallar, iflasa uğramasından qorxduğunuz alış-verişiniz və bəyəndiyiniz məskənlər sizə Allahdan, Onun Elçisindən və Onun yolunda cihaddan daha əzizdirsə, Allah Öz əmri ilə gəlincəyə qədər gözləyin. Allah günahkarları doğru yola yönəltməz".

(Tövbə surəsi, 24)

Mübarizədən geri qalmamaq

Ey iman gətirənlər! Sizə nə olub ki, "Allah yolunda döyüşə çıxın!" – deyildikdə yerinizdə qaxılıb qalırsınız? Olmaya, axirətdən daha çox dünya həyatından razısınız? Halbuki dünya həyatının keçici zövqü axirətlə müqayisədə çox dəyərsiz bir şeydir.

(Tövbə surəsi, 38)

> *Sizə yüngül gəlsə də, ağır gəlsə də, döyüşə çıxın, malınız və canınızla Allah yolunda cihad edin! Biləsiniz ki, bu sizin üçün daha xeyirlidir.*
>
> **(Tövbə surəsi, 41)**

Mübarizədən geri qalmamaq üçün bəhanələr irəli sürməmək

> *Döyüşə getməyib arxada qalanlar Allahın Elçisinin əleyhinə çıxaraq evdə qalmalarına sevindilər. Onlar Allah yolunda öz malları və canları ilə cihad etmək istəmədilər və: "Bu istidə döyüşə çıxmayın!" – dedilər. De: "Cəhənnəm odu bundan da hərarətlidir!" Kaş anlayaydılar.*
>
> **(Tövbə surəsi, 81)**

> *Əgər səfəriniz gəlir gətirən və yüngül bir yürüş olsaydı, onlar mütləq sənin ardınca gedərdilər. Lakin əziyyətli yol onlara çətin gəldi. Onlar: "Əgər taqətimiz olsaydı, biz də sizinlə bərabər çıxardıq!" – deyə Allaha and içəcəklər. Onlar özlərini həlak edirlər. Çünki Allah onların yalançı olduqlarını bilir.*
>
> **(Tövbə surəsi, 42)**

Mübarizədən geri qalmaq üçün icazə istəməmək

Allaha və Axirət gününə iman gətirənlər Allah yolunda malları və canları ilə cihad etmək üçün səndən izin istəməzlər. Allah müttəqiləri tanıyır.

(Tövbə surəsi, 44)

Zəif qalmış kişi, qadın və uşaqlar üçün mübarizə etmək

Sizə nə olub ki, Allah yolunda və: "Ey Rəbbimiz! Bizi əhalisi zalım olan bu şəhərdən çıxart, bizə Öz tərəfindən bir himayəçi təyin et, bizə Öz tərəfindən bir yardımçı təyin et!" – deyən zəif kişilər, qadınlar və uşaqlar uğrunda vuruşmursunuz?

(Nisa surəsi, 75)

Yer üzündə fitnə qalmayana qədər mübarizə etmək

Fitnə aradan qalxana qədər və din tamamilə yalnız Allaha həsr edilənədək onlarla vuruşun! Əgər şirkə son qoysalar, bilsinlər ki, Allah onların etdiklərini görür.

(Ənfal surəsi, 39)

Mübarizədə vaxtaşırı müxtəlif taktikalar tətbiq etmək

> *O zaman sən Uhuddakı döyüşdən ötrü möminləri mövqelərə yerləşdirmək üçün səhər tezdən ailəndən ayrılıb getdin. Allah, Eşidəndir, Biləndir!*
>
> **(Ali İmran surəsi, 121)**

İnkarçıların fəaliyyətlərini izləmək

> *Kafir qövmü təqib etməkdə zəiflik göstərməyin. Əgər siz döyüşdə əziyyət çəkirsinizsə, onlar da siz əziyyət çəkdiyiniz kimi əziyyət çəkirlər. Lakin siz onların ummadıqlarını Allahdan umursunuz. Allah Biləndir, Müdrikdir.*
>
> **(Nisa surəsi, 104)**

Mübarizədə ən qabaqda gedənlərdən olmağı tələb etmək

> *Onlar deyərlər: "Ey Rəbbimiz! Bizə gözümüzün aydınlığı olan zövcələr və övladlar bəxş et və bizi müttəqilərə imam et!"*
>
> **(Furqan surəsi, 74)**

Şeytandan Allaha sığınmaq

Əgər şeytandan sənə bir vəsvəsə gəlsə, Allaha sığın. Şübhəsiz ki, O, Eşidəndir, Biləndir.

(Əraf surəsi, 200)

Şeytanın arxasından getməmək

Ey insanlar! Yerdə olan halal və təmiz ruzilərdən yeyin, şeytanın addım izləri ilə getməyin! O, sizin açıq-aşkar düşmənizdir.

(Bəqərə surəsi, 168)

Üstündə yük daşınan və yük daşınmayan mal-qaranı da yaradan Odur. Allahın sizə verdiyi ruzilərdən yeyin, şeytanın izi ilə getməyin! Şübhəsiz ki, o, sizin açıq-aşkar düşmənizdir.

(Ənam surəsi, 142)

Ey iman gətirənlər! Şeytanın izi ilə getməyin. Kim şeytanın izi ilə getsə, bilsin ki, o şeytan iyrənc və yaramaz işlər görməyi əmr edir. Əgər Allahın sizə lütfü və mərhəməti olmasaydı, sizdən heç kəs heç vaxt təmizə çıxmazdı. Lakin Allah istədiyini təmizə çıxardır. Allah Eşidəndir, Biləndir.

(Nur surəsi, 21)

Şeytanı dost etməmək

Şübhəsiz ki, şeytan sizin düşmənizdir, siz də onu düşmən sayın. O öz tərəfdarlarını Od sakini olmağa çağırır.

(Fatir surəsi, 6)

Şeytandan qorxmamaq

O şeytan sadəcə sizi öz dostları ilə qorxudur. Möminsinizsə, onlardan qorxmayın, Məndən qorxun!

(Ali İmran surəsi, 175)

Şeytanın dostlarıyla mübarizə aparmaq

Möminlər Allah yolunda, kafirlər isə tağut yolunda vuruşurlar. Elə isə şeytanın dostları ilə vuruşun! Şübhəsiz ki, şeytanın hiyləsi zəifdir.

(Nisa surəsi, 76)

Ramazan ayında oruc tutmaq

Ey iman gətirənlər! Sizdən əvvəlkilərə vacib edildiyi kimi, sizə də oruc tutmaq vacib edildi ki, bəlkə pis əməllərdən çəkinəsiniz.

(Bəqərə surəsi, 183)

İnsanlara doğru yolu göstərən, bu yolun və haqqı batildən ayırd edənin açıq-aydın dəlilləri olan Quran ramazan ayında nazil edilmişdir. Sizlərdən bu aya çatan şəxslər həmin ayı oruc tutmalıdırlar. Xəstə və ya səfərdə olanlar isə başqa günlərdə eyni sayda oruc tutmalıdırlar. Allah sizin üçün çətinlik deyil, asanlıq istəyir. O, istəyir ki, siz müddəti (buraxdığınız günlərin orucunu) tamamlayasınız və sizi doğru yola yönəltdiyinə görə Onu uca tutasınız. Bəlkə şükür edəsiniz.

(Bəqərə surəsi, 185)

Xəstə olarkən və ya yolçuluqda ikən tutula bilməyən orucun kəffarəsi

İnsanlara doğru yolu göstərən, bu yolun və haqqı batildən ayırd edənin açıq-aydın dəlilləri olan Quran ramazan ayında nazil edilmişdir. Sizlərdən bu aya çatan şəxslər həmin ayı oruc tutmalıdırlar. Xəstə və ya səfərdə olanlar isə başqa günlərdə eyni sayda oruc tutmalıdırlar. Allah sizin üçün çətinlik deyil, asanlıq istəyir. O, istəyir ki, siz müddəti (buraxdığınız günlərin orucunu) tamamlayasınız və sizi doğru yola yönəltdiyinə görə Onu uca tutasınız. Bəlkə şükür edəsiniz.

(Bəqərə surəsi, 185)

Ramazan ayında qadınlara yaxınlaşmaq

Orucluq gecəsi zövcələrinizlə yaxınlıq etmək sizə halal edildi. Onlar sizin üçün bir libas, siz də onlar üçün bir libassınız. Allah bilir ki, siz özünüzə xəyanət edirsiniz (orucluq gecələrində zövcələrinizlə yaxınlıq edirsiniz). Elə buna görə də O, tövbənizi qəbul edib sizi bağışladı. Artıq bu gündən onlara yaxınlaşın və Allahın sizin üçün əzəldən müəyyən etdiyinə nail olmağa çalışın. Dan yeri sökülənə ağ sap (şəfəq) qara sapdan (gecənin qaranlığından) seçilənə qədər yeyin-için. Sonra gecəyədək orucunuzu tamamlayın. Məscidlərdə etikafda olduğunuz zaman onlarla yaxınlıq etməyin. Bunlar Allahın qoyduğu hüdudlardır, onlara yaxınlaşmayın! Allah Öz ayələrini insanlara belə bəyan edir ki, bəlkə Ondan qorxalar.

(Bəqərə surəsi, 187)

Faiz yeməmək

Ey iman gətirənlər! Allahdan qorxun və əgər möminsinizsə, sələmdən qalan faizi almayın.

(Bəqərə surəsi, 278)

> *Bunu etməsəniz, Allahın və Onun Elçisinin sizə müharibə elan etdiyini bilin. Yox, əgər tövbə etsəniz, sərmayəniz sizindir. Nə siz zülm edərsiniz, nə də sizə zülm olunar.*
>
> **(Bəqərə surəsi, 279)**

> *Sələm yeyənlər qəbirlərindən şeytan toxunub dəli eləmiş kimsənin qalxdığı kimi qalxarlar. Bu onların: "Alış-veriş də sələmçilik kimidir!" – demələrinə görədir. Halbuki, Allah alış-verişi halal, sələmçiliyi isə haram etmişdir. Hər kim özünə Rəbbindən xəbərdarlıq gəldikdən sonra sələmçiliyə son qoyarsa, olub-keçənlər ona bağışlanar və onun işi Allaha qalar. Sələmçiliyə qayıdanlar isə Od sakinləridirlər. Onlar orada əbədi qalacaqlar.*
>
> **(Bəqərə surəsi, 275)**

> *Ey iman gətirənlər! Dəfələrlə artırılmış olan sələmi yeməyin! Allahdan qorxun ki, bəlkə, nicat tapasınız.*
>
> **(Ali İmran surəsi, 130)**

Həccə getmək

Orada aydın nişanələr – İbrahimin məqamı vardır. Oraya daxil olanın təhlükəsizliyi təmin olunar. Evi (Kəbəni) ziyarət etmək insanların – yoluna gücü çatan hər kəsin – Allah qarşısında borcudur. Kim bunu inkar edərsə, bilsin ki, Allahın aləmlərə ehtiyacı yoxdur.

(Ali İmran surəsi, 97)

Həcc və ümrəni tamamlamaq

Allah üçün həcc və ümrəni tam yerinə yetirin. Əgər sizin qarşınızı kəssələr, müyəssər olan bir qurbanlıq verin. Qurbanlıq öz yerinə çatana qədər başınızı qırxmayın. Sizlərdən xəstələnən və ya başındakı xəstəlikdən əziyyət çəkən varsa, fidyə olaraq ya oruc tutmalı, ya sədəqə verməli, ya da qurban kəsməlidir. Əmin-amanlıq içində olduğunuz təqdirdə ümrəni bitirib həccə qədər qadağan olunanlardan istifadə edən kəs asan başa gələn bir qurbanlıq verməlidir. Qurbanlıq tapmayanlar isə həcc əsnasında üç gün və vətəninə qayıtdıqda isə yeddi gün oruc tutmalıdır. Bu da tam on gün edir. Bu, ailəsi Məscidulharamda yaşamayanlara aiddir. Allahdan qorxun və bilin ki, Allah şiddətli cəza verəndir.

(Bəqərə surəsi, 196)

Həccdə Allahı xatırlamaq

Sayı müəyyən olan günlərdə (zil-Hiccənin 11-i, 12-si və 13-ü) Allahı yad edin. Kim iki gün ərzində ziyarətini tamamlayıb geri qayıtsa, ona heç bir günah olmaz. Kim (13-cü günü Minada) yubanarsa, ona da heç bir günah olmaz. Bu, Allahdan qorxanlara aiddir. Allahdan qorxun və bilin ki, Onun hüzuruna toplanılacaqsınız.

(Bəqərə surəsi, 203)

Həcc əsnasında qorunacaq haramlar

Həcc ziyarəti məlum olan aylardadır. Bu aylarda həcci yerinə yetirməyi niyyət edən kəs həcc ziyarəti əsnasında qadınıyla yaxınlıq etməməli, günah işlər görməməli və mübahisələrə qoşulmamalıdır. Sizin etdiyiniz yaxşılıqları Allah bilir. Özünüzlə azuqə götürün! Ən yaxşı azuqə isə təqvadır. Məndən qorxun, ey ağıl sahibləri!

(Bəqərə surəsi, 197)

Həccdə xəstəlik vəziyyəti

Allah üçün həcc və ümrəni tam yerinə yetirin. Əgər sizin qarşınızı kəssələr, müyəssər olan bir qurbanlıq verin. Qurbanlıq öz yerinə çatana qədər başınızı qırxmayın. Sizlərdən xəstələnən və ya başındakı xəstəlikdən əziyyət çəkən varsa, fidyə olaraq ya oruc tutmalı, ya sədəqə verməli, ya da qurban kəsməlidir. Əmin-amanlıq içində olduğunuz təqdirdə ümrəni bitirib həccə qədər qadağan olunanlardan istifadə edən kəs asan başa gələn bir qurbanlıq verməlidir. Qurbanlıq tapmayanlar isə həcc əsnasında üç gün və vətəninə qayıtdıqda isə yeddi gün oruc tutmalıdır. Bu da tam on gün edir. Bu, ailəsi Məscidulharamda yaşamayanlara aiddir. Allahdan qorxun və bilin ki, Allah şiddətli cəza verəndir.

(Bəqərə surəsi, 196)

Həccdən qalmaq vəziyyətində ediləcək ibadətlər

Allah üçün həcc və ümrəni tam yerinə yetirin. Əgər sizin qarşınızı kəssələr, müyəssər olan bir qurbanlıq verin. Qurbanlıq öz yerinə çatana qədər başınızı qırxmayın. Sizlərdən xəstələnən və ya başındakı xəstəlikdən əziyyət çəkən varsa, fidyə olaraq ya oruc tutmalı, ya sədəqə verməli, ya da qurban kəsməlidir. Əmin-amanlıq içində olduğunuz təqdirdə ümrəni bitirib həccə qədər qadağan olunanlardan istifadə edən kəs asan başa gələn bir qurbanlıq verməlidir. Qurbanlıq tapmayanlar isə həcc əsnasında üç gün və vətəninə qayıtdıqda isə yeddi gün oruc tutmalıdır. Bu da tam on gün edir. Bu, ailəsi Məscidulharamda yaşamayanlara aiddir. Allahdan qorxun və bilin ki, Allah şiddətli cəza verəndir.

(Bəqərə surəsi, 196)

Həccdə tətbiq olunması lazım olan ibadətlər

Allah üçün həcc və ümrəni tam yerinə yetirin. Əgər sizin qarşınızı kəssələr, müyəssər olan bir qurbanlıq verin. Qurbanlıq öz yerinə çatana qədər başınızı qırxmayın. Sizlərdən xəstələnən və ya başındakı xəstəlikdən əziyyət çəkən varsa, fidyə olaraq ya oruc tutmalı, ya sədəqə verməli, ya da qurban kəsməlidir. Əmin-amanlıq içində olduğunuz təqdirdə ümrəni bitirib həccə qədər qadağan olunanlardan istifadə edən kəs asan başa gələn bir qurbanlıq verməlidir. Qurbanlıq tapmayanlar isə həcc əsnasında üç gün və vətəninə qayıtdıqda isə yeddi gün oruc tutmalıdır. Bu da tam on gün edir. Bu, ailəsi Məscidulharamda yaşamayanlara aiddir. Allahdan qorxun və bilin ki, Allah şiddətli cəza verəndir.

(Bəqərə surəsi, 196)

Həcc ziyarəti məlum olan aylardadır. Bu aylarda həcci yerinə yetirməyi niyyət edən kəs həcc ziyarəti əsnasında qadınıyla yaxınlıq etməməli, günah işlər görməməli və mübahisələrə qoşulmamalıdır. Sizin etdiyiniz yaxşılıqları Allah bilir. Özünüzlə azuqə götürün! Ən yaxşı azuqə isə təqvadır. Məndən qorxun, ey ağıl sahibləri!

(Bəqərə surəsi, 197)

Ərəfatdan enişdə Allahı xatırlamaq

Rəbbinizdən lütf diləmək (həcc vaxtı ticarət etmək) sizə günah deyildir. Ərəfatdan axışıb gəldikdə Məşərulharamda Allahı yada salın! Sizi doğru yola yönəltdiyinə görə Onu yad edin. Hərçənd ki, bundan əvvəl siz azmışlardan idiniz.

(Bəqərə surəsi, 198)

Sonra insanların axışıb gəldiyi yerdən siz də gəlin. Allahdan bağışlanmanızı diləyin. Şübhəsiz ki, Allah Bağışlayandır, Rəhmlidir.

(Bəqərə surəsi, 199)

Qurban

Qoy onlar öz mənfəətlərinin şahidi olsunlar və məlum günlərdə Allahın onlara verdiyi heyvanları qurban kəsərkən Allahın adını çəksinlər. Onlardan özünüz də yeyin, sıxıntı içində olan yoxsullara da yedirdin!

(Həcc surəsi, 28)

Hacılara hörmət etmək

Ey iman gətirənlər! Allahın nişanələrinə, haram aylara, qurbanlıq heyvana, boynuna nişan taxılmış qurbanlıq heyvanlara, Rəbbinin lütfünü və razılığını diləyərək Beytulharama gələnlərə qarşı hörmətsizlik etməyi halal saymayın. İhramdan çıxdığınız zaman ov edə bilərsiniz. Sizi Məscidulharama daxil olmağa qoymayan camaata qarşı olan kin-küdurət sizi təcavüz etməyə sövq etməsin. Yaxşılıq etməkdə və Allahdan qorxmaqda bir-birinizə yardım edin. Günah işlər görməkdə və düşmənçilikdə bir-birinizə köməkçi olmayın. Allahdan qorxun. Həqiqətən, Allah şiddətli cəza verəndir.

(Maidə surəsi, 2)

İhramda olarkən ovlamamaq

Ey iman gətirənlər! Əhdlərinizi yerinə yetirin. Haram edildiyi sizə bildiriləcək heyvanlar və ihramda olarkən ovladığınız ov istisna olmaqla digər heyvanlar sizə halal edildi. Həqiqətən, Allah istədiyi hökmü verir.

(Maidə surəsi, 1)

Ey iman gətirənlər! Allahın nişanələrinə, haram aylara, qurbanlıq heyvana, boynuna nişan taxılmış qurbanlıq heyvanlara, Rəbbinin lütfünü və razılığını diləyərək Beytulharama gələnlərə qarşı hörmətsizlik etməyi halal saymayın. İhramdan çıxdığınız zaman ov edə bilərsiniz. Sizi Məscidulharama daxil olmağa qoymayan camaata qarşı olan kin-küdurət sizi təcavüz etməyə sövq etməsin. Yaxşılıq etməkdə və Allahdan qorxmaqda bir-birinizə yardım edin. Günah işlər görməkdə və düşmənçilikdə bir-birinizə köməkçi olmayın. Allahdan qorxun. Həqiqətən, Allah şiddətli cəza verəndir.

(Maidə surəsi, 2)

Həm sizin, həm də səfərdə olanların faydalanması üçün dəniz ovu və onu yemək sizə halal edildi. İhramda olduğunuz müddətdə isə quruda ov etmək sizə haram edildi. Hüzuruna toplanılacağınız Allahdan qorxun!

(Maidə surəsi, 96)

İhramda olarkən ovlamanın kəffarəsi

Ey iman gətirənlər! İhramda ikən ovu öldürməyin. Sizlərdən kim onu qəsdən öldürərsə, kəffarəsi öldürdüyünə bənzər bir qurbanlıq heyvanı əvəz ödəməkdir. Buna sizlərdən iki ədalətli kişi qərar verməli, sonra da həmin qurbanlıq heyvan Kəbəyə çatdırılmalıdır. Yaxud kəffarə olaraq kasıbları yedirtməli, yaxud da buna bərabər oruc tutmalıdır ki, öz işinin zərərini dadsın. Allah olub-keçənləri bağışlamışdır. Hər kim yenə bu günaha qayıtsa, Allah ondan intiqam alar. Allah Qüdrətlidir, intiqam almağa qadirdir.

(Maidə surəsi, 95)

Müharibə haram olan ayların sayı

Həqiqətən, Allah yanında ayların sayı on ikidir. Bunu da Allah göyləri və yeri yaratdığı gündə Kitaba yazmışdır. Bunlardan dördü haram aylardır. Doğru din budur. Odur ki, bu aylarda özünüzə zülm etməyin. Müşriklər hamısı bir yerdə sizinlə vuruşduqları kimi, siz də hamınız bir yerdə onlarla vuruşun və bilin ki, Allah müttəqilərlədir.

(Tövbə surəsi, 36)

Haram aylarda hücum edənə cavab

Haram ay haram aya görədir. Haram olanları pozmağın cəzası qisas almaqdır. Kim sizə qarşı təcavüz etsə, siz də ona qarşı onun təcavüz etdiyi qədər təcavüz edin. Allahdan qorxun və bilin ki, Allah müttəqilərlədir.

(Bəqərə surəsi, 194)

Haram aylar sonundakı davranış

Haram aylar bitdikdə müşriklərə harada rast gəlsəniz, onları öldürün, əsir tutun, mühasirəyə alın və onlara hər yerdə pusqu qurun. Əgər tövbə etsələr, namaz qılıb zəkat versələr, onları sərbəst buraxın. Çünki Allah Bağışlayandır, Rəhmlidir.

(Tövbə surəsi, 5)

Allaha dua etmək

Rəbbiniz dedi: "Mənə dua edin, Mən də sizə cavab verim. Həqiqətən, Mənə ibadət etməyə təkəbbür göstərənlər Cəhənnəmə zəlil olaraq girəcəklər".

(Mümin surəsi, 60)

Qullarım səndən Mənim barəmdə soruşsalar, Mən onlara yaxınam, Mənə yalvaranın duasını yalvardığı vaxt qəbul edərəm. Qoy onlar da Mənim çağırışımı qəbul edib Mənə iman gətirsinlər ki, doğru yola yönələ bilsinlər.

(Bəqərə surəsi, 186)

Yalnız Allaha dua etmək

Kafirlərin xoşuna gəlməsə də, dini məhz Allaha aid sayıb, Ona dua edin!

(Mümin surəsi, 14)

O, əbədi Yaşayandır, Ondan başqa məbud yoxdur. Allaha, dini yalnız Ona məxsus edərək, dua edin. Aləmlərin Rəbbi olan Allaha həmd olsun!

(Mümin surəsi, 65)

Allahın adları ilə dua etmək

Ən gözəl adlar Allahındır. Ona bu adlar vasitəsi ilə dua edin və Onun adları barəsində haqdan sapanları tərk edin. Onlar etdikləri əməllərin cəzasını alacaqlar.

(Əraf surəsi, 180)

Qorxu və ümid arasında dua etmək

Onlar gecə namazını qılmaq üçün böyürlərini yataqdan qaldırır, qorxu və ümid içində öz Rəbbinə yalvarır və onlara verdiyimiz ruzilərdən Allah yolunda xərcləyirlər.

(Səcdə surəsi, 16)

Allahın bəyəndiyi dua forması

Rəbbinizə acizanə, həm də gizlicə dua edin! Şübhəsiz ki, O, həddi aşanları sevmir.

(Əraf surəsi, 55)

Yer üzü islah olunduqdan sonra, orada fəsad törətməyin. Allaha qorxu və ümidlə yalvarın. Həqiqətən, Allahın mərhəməti yaxşılıq edənlərə yaxındır.

(Əraf surəsi, 56)

Allaha yalnız dünya həyatı üçün dua etməmək

Kim dünya həyatını və onun bərbəzəyini istəyirsə, onlara əməllərinin əvəzini orada tam verərik və onlar orada zərər çəkməzlər.

(Hud surəsi, 15)

Onlar, axirətdə özləri üçün oddan başqa heç bir şeyi olmayan kimsələrdir. Onların dünyada gördükləri işlər boşa çıxar və tutduqları əməllər puç olar.

(Hud surəsi, 16)

Biz axirət savabını istəyənin savabın artırar, dünya qazancını istəyənə də ondan verərik. Lakin onun axirətdə heç bir payı olmaz.

(Şura surəsi, 20)

Həcc mərasiminizi bitirdikdə vaxtilə atalarınızı yad etdiyiniz kimi, hətta bundan da artıq Allahı yad edin! İnsanlar arasında: "Ey Rəbbimiz! Bizə verəcəyini elə bu dünyada ver!" – deyənlər vardır. Belə şəxslərin axirətdə heç bir payı yoxdur.

(Bəqərə surəsi, 200)

Onlardan: "Ey Rəbbimiz! Bizə həm bu dünyada, həm də axirətdə gözəl nemətlər ver və bizi Od əzabından qoru!" – deyənləri də vardır.

(Bəqərə surəsi, 201)

Səbir və salavat ilə Allahdan kömək istəmək

> *Ey iman gətirənlər! Səbir etmək və namaz qılmaqla Allahdan kömək diləyin. Həqiqətən, Allah səbir edənlərlədir!*
>
> **(Bəqərə surəsi, 153)**

> *Səbir etmək və namaz qılmaqla Allahdan kömək diləyin! Həqiqətən, bu, Allaha itaət edənlərdən başqa hamıya ağır gəlir.*
>
> **(Bəqərə surəsi, 45)**

Gecələri də ibadət etmək

> *Sözsüz ki, gecə qalxmaq çox çətin və Quran oxumaq daha münasibdir.*
>
> **(Müzzəmmil surəsi, 6)**

Peyğəmbərlərə salat və salam etmək

> *Doğrudan da, Allah və Onun mələkləri Peyğəmbərə xeyir-dua verirlər. Ey iman gətirənlər! Siz də ona xeyir-dua verib kamil ədəb-ərkanla salamlayın.*
>
> **(Əhzab surəsi, 56)**

Allahdan bağışlanma diləmək, tövbə etmək

> *Rəbbinizdən bağışlanma diləyin, sonra Ona tövbə edin. Həqiqətən, Rəbbim Rəhmlidir, Sevəndir (həm də Seviləndir).*
>
> **(Hud surəsi, 90)**

> *Allahdan bağışlanma dilə! Şübhəsiz ki, Allah Bağışlayandır, Rəhmlidir.*
>
> **(Nisa surəsi, 106)**

> *Həm də Rəbbinizdən bağışlanma diləyəsiniz, sonra da tövbə edəsiniz ki, O sizə müəyyən olunmuş vaxtadək gözəl gün-güzəran nəsib etsin və hər fəzilət sahibinə Öz lütfündən versin. Əgər Ondan üz çevirsəniz, bilin ki, mən sizə üz verəcək əzəmətli günün əzabından qorxuram.*
>
> **(Hud surəsi, 3)**

Möminlər üçün bağışlanma diləmək

Ey Peyğəmbər! Mömin qadınlar Allaha heç bir şərik qoşmayacaqlarına, oğurluq və zina etməyəcəklərinə, uşaqlarını öldürməyəcəklərinə, əlləri ilə ayaqları arasından olanı yalanla ört-basdır etməyəcəklərinə (ərlərindən olmayan uşaqlarını onlara isnad etməyəcəklərinə) və heç bir yaxşı işdə sənə qarşı çıxmayacaqlarına dair sənə beyət etmək üçün yanına gəldikləri zaman onların beyətini qəbul et və Allahdan onlar üçün bağışlanma dilə. Həqiqətən, Allah Bağışlayandır, Rəhmlidir.

(Mumtəhənə surəsi, 12)

Bil ki, Allahdan başqa ibadətə layiq olan heç bir məbud yoxdur. Sən həm öz günahlarının, həm də mömin kişilərlə mömin qadınların bağışlanmasını dilə. Allah gəzib-dolaşdığınız yeri də, gecələyəcəyiniz məskəni də bilir.

(Məhəmməd surəsi, 19)

Səhvdən sonra dərhal bağışlanma diləmək

O kəslər ki, bir pis iş gördükdə, yaxud özlərinə zülm etdikdə Allahı xatırlayıb günahlarının bağışlanmasını diləyərlər, – günahları Allahdan başqa kim bağışlaya bilər? – onlar bilə-bilə etdiklərinə görə israr etməzlər.

(Ali İmran surəsi, 135)

> *Allah ancaq o kəslərin tövbələrini qəbul edir ki, onlar avamlıqları üzündən pis iş gördükdən sonra tezliklə tövbə edirlər. Allah onların tövbələrini qəbul edər. Həqiqətən, Allah Biləndir, Müdrikdir.*
>
> **(Nisa surəsi, 17)**

Edilən səhvi bilərək təkrarlamamaq

> *O kəslər ki, bir pis iş gördükdə, yaxud özlərinə zülm etdikdə Allahı xatırlayıb günahlarının bağışlanmasını diləyərlər, – günahları Allahdan başqa kim bağışlaya bilər? – onlar bilə-bilə etdiklərinə görə israr etməzlər.*
>
> **(Ali İmran surəsi, 135)**

> *Şübhəsiz ki, Rəbbin, avamlıqları üzündən pis iş görən, ondan sonra tövbə edib özlərini islah edənləri, bütün bunlardan sonra, əlbəttə ki, Rəbbin bağışlayacaq və rəhm edəcək.*
>
> **(Nəhl surəsi, 119)**

Tövbə edəni bağışlamaq

Allah ancaq o kəslərin tövbələrini qəbul edir ki, onlar avamlıqları üzündən pis iş gördükdən sonra tezliklə tövbə edirlər. Allah onların tövbələrini qəbul edər. Həqiqətən, Allah Biləndir, Müdrikdir.

(Nisa surəsi, 17)

Günah işlər görməkdə davam edənlərdən birinə ölüm gəldiyi zaman: "Mən indi tövbə etdim!" – deyənlərin də, kafir kimi ölənlərin də tövbəsi qəbul deyildir. Biz onlar üçün ağrılı-acılı bir əzab hazırlamışıq.

(Nisa surəsi, 18)

Kim tövbə edib yaxşı iş görərsə, o, doğrudan da Allaha tərəf qayıtmış olar.

(Furqan surəsi, 71)

Qullarıma mənim bu sözümü de: "Ey Mənim özlərinə qarşı həddi aşmış qullarım! Allahın rəhmindən ümidinizi üzməyin. Şübhəsiz ki, Allah bütün günahları bağışlayır. O, həqiqətən, Bağışlayandır, Rəhmlidir!"

(Zumər surəsi, 53)

İnkarçılar üçün bağışlanma diləməmək

> *Onların bağışlanması üçün dua etsən də, etməsən də, hətta onlar üçün yetmiş dəfə bağışlanma diləsən belə, Allah onları əsla bağışlamayacaqdır. Çünki onlar Allahı və Onun Elçisini inkar etdilər. Allah günahkar insanları doğru yola yönəltməz.*
>
> **(Tövbə surəsi, 80)**

İnsanların dəstə-dəstə dinə daxil olduqları zaman Allahı xatırlamaq və bağışlanma diləmək

> *insanların dəstə-dəstə Allahın dininə girdiklərini gördükdə*
>
> **(Nəsr surəsi, 2)**

> *həmd ilə Rəbbini təriflə və Ondan bağışlanmağını dilə. Həqiqətən, O, tövbələri qəbul edəndir!*
>
> **(Nəsr surəsi, 3)**

Düşmən birliyi ilə qarşılaşıldığında Allahı xatırlamaq

Möminlər müttəfiqləri gördükdə: "Bu, Allahın və Onun Elçisinin bizə olan vədidir. Allah və Onun Elçisi doğru söyləmişlər!" – dedilər. Bu onların yalnız imanını və itaətini artırdı.

(Əhzab surəsi, 22)

Ey iman gətirənlər! Kafir bir dəstə ilə üz-üzə gəldikdə möhkəm durun və Allahı çox yad edin ki, bəlkə nicat tapasınız.

(Ənfal surəsi, 45)

Səbirli olmaq

Biz sizi bir az qorxu, bir az aclıq, bir az da mal-dövlət, insan və məhsul itkisi ilə sınayarıq. Səbir edənlərə müjdə ver.

(Bəqərə surəsi, 155)

İnanmayan bir birliyə qarşı səbirli olmaq

Müşriklərin dediklərinə səbir et və onlardan xoşluqla uzaqlaş.

(Müzzəmmil surəsi, 10)

Ey qövmüm! Bu dünya həyatı ancaq fani bir zövqdür, axirət isə qərar tutacağınız yurddur.

(Mümin surəsi, 39)

İnananlarla birlikdə səbir göstərmək

Səhər və axşam çağı Rəbbinin Üzünü diləyərək Ona dua edənlərlə birlikdə özünü səbirli apar. Dünyanın bərbəzəyini istəyərək nəzərlərini yoxsullardan çevirmə. Qəlbini Bizi anmaqdan xəbərsiz etdiyimiz, nəfsinin istəklərinə uyan və işləri səmərəsiz olan bir kimsəyə itaət etmə!

(Kəhf surəsi, 28)

Səbirdə yarışmaq

Elm verilmiş kəslər isə dedilər: "Vay halınıza! İman gətirib yaxşı əməl işlədən kimsə üçün Allahın mükafatı daha xeyirlidir. Buna isə yalnız səbir edənlər nail olarlar".

(Qəsas surəsi, 80)

Ey iman gətirənlər! Səbir edin, dözümlü olun, sərhəd boyu növbə ilə keşik çəkin və Allahdan qorxun ki, bəlkə nicat tapasınız!

(Ali İmran surəsi, 200)

Bilgi sahibi olunmayan şey üzərində mübahisə etməmək

> *Haqqında məlumatın olmadığı bir işin dalınca getmə. Çünki qulaq, göz və ürək – bunların hamısı sahibinin əməlləri barəsində sorğu-sual olunacaqdır.*
>
> **(İsra surəsi, 36)**

> *Bax, siz o kəslərsiniz ki, bildiyiniz şeylər barəsində höcətləşirsiniz. Bəs nə üçün bilmədiyiniz şeylər barəsində höcətləşirsiniz? Allah bilir, siz bilmirsiniz!*
>
> **(Ali İmran surəsi, 66)**

Davamlı and içməmək

> *İtaət etmə hər tez-tez and içənə, alçağa,*
>
> **(Qələm surəsi, 10)**

Andı pozmamaq

Allahla bağladığınız əhdə sadiq olun; möhkəm and içdikdən sonra andlarınızı pozmayın. Çünki siz Allahı özünüzə zamin etmisiniz. Şübhəsiz ki, Allah sizin nələr etdiyinizi bilir.

(Nəhl surəsi, 91)

Andı bəhanə edərək yaxşılıqdan uzaqlaşmamaq

Andlarınıza görə Allahın adını, yaxşılıq etmənizə, Allahdan qorxmanıza və insanlar arasında sülh yaratmanıza dair bir maneəyə çevirməyin. Allah Eşidəndir, Biləndir!

(Bəqərə surəsi, 224)

Andı fitnə ünsürü etməmək

İpliyini möhkəm əyirdikdən sonra onu açıb sökən qadın kimi olmayın. Bir camaat digər bir camaatdan sayca və malca daha çox olduğu üçün andlarınızı aranızda hiylə vasitəsinə çevirirsiniz. Allah bununla sizi sınayır. O, ixtilafda olduğunuz şeyləri Qiyamət günü sizə mütləq bildirəcəkdir.

(Nəhl surəsi, 92)

Andlarınızı aranızda hiylə vasitəsinə çevirməyin. Yoxsa ayağınız möhkəm dayanmış ikən sürüşər və insanları Allah yolundan döndərdiyinizə görə əzabı dadarsınız. Sizin üçün axirətdə də böyük bir əzab hazırlanar.

(Nəhl surəsi, 94)

Xanımından uzaq qalmaq üçün edilən and

Qadınları ilə yaxınlıq etməməyi and içənlər üçün gözləmə müddəti dörd aydır. Əgər onlar fikirlərindən dönsələr, əlbəttə ki, Allah Bağışlayandır, Rəhmlidir.

(Bəqərə surəsi, 226)

Andın kəffarəsi

Allah sizi qəsdiniz olmadan içdiyiniz andlara görə (onları pozmağa görə) cəzalandırmaz, lakin O, sizi qəsdlə içdiyiniz andlara görə cəzalandıracaqdır. Bunun kəffarəsi ailənizə yedirtdiyinizin orta hesabı dəyərində ya on kasıbı yedirtmək və ya onları geyindirmək və yaxud da bir köləni azad etməkdir. Kəffarə vermək üçün bir şey tapmayan kimsə üç gün oruc tutsun. Bu, and içib sonra pozduğunuz andlarınızın kəffarəsidir. Andlarınızı qoruyun! Allah Öz ayələrini sizə bu cür bəyan edir ki, bəlkə şükür edəsiniz.

(Maidə surəsi, 89)

Ədalətli olmaq

Həqiqətən, Allah sizə əmanətləri sahiblərinə qaytarmanızı və insanlar arasında hökm verərkən ədalətlə hökm vermənizi əmr edir. Allahın sizə verdiyi bu öyüd-nəsihət necə də gözəldir! Şübhəsiz ki, Allah Eşidəndir, Görəndir.

(Nisa surəsi, 58)

Yaxınlarının əleyhinə belə olsa ədaləti qorumaq



Yaxşılıq etməkdə yarışın

Ey iman gətirənlər! Şahidliyiniz özünüzün və ya valideynlərin, ya da yaxın qohumların əleyhinə olsa belə, Allah şahidləri olub ədaləti qoruyun. Əleyhinə şahidlik edəcəyiniz şəxslərin varlı və ya kasıb olmasından asılı olmayaraq Allah onların hər ikisinə daha yaxındır. Arzularınıza uyaraq haqdan uzaqlaşmayın! Əgər siz yalan danışsanız və ya həqiqəti deməkdən boyun qaçırsanız, bilin ki, Allah nə etdiklərinizdən xəbərdardır.

(Nisa surəsi, 135)

Şəxsi kin səbəbindən ədalətdən uzaqlaşmamaq

Ey iman gətirənlər! Allah xatirinə ədaləti qoruyan şahidlər olun. Hər hansı bir camaata qarşı olan kin-küdurət sizi ədalətsizliyə sövq etməsin. Ədalətli olun! Bu, təqvaya daha yaxındır. Allahdan qorxun! Şübhəsiz ki, Allah nə etdiklərinizdən xəbərdardır.

(Maidə surəsi, 8)

Möminlərin arasında ədalətlə şahidlik etmək

Əgər möminlərdən iki dəstə bir-biri ilə vuruşsa, onları barışdırın. Əgər onlardan biri digərinə qarşı təcavüz etsə, təcavüzkar dəstə ilə, o, Allahın əmrini yerinə yetirməyə qayıdanadək, vuruşun. Əgər o qayıtsa, hər iki dəstəni ədalətlə barışdırın və insaflı olun. Sözsüz ki, Allah insaflıları sevir.

(Hucurat surəsi, 9)

Möminlərlə dində savaşmayanlara qarşı ədalətli davranmaq

> *Allah din uğrunda sizinlə vuruşmayan və sizi öz diyarınızdan qovub çıxartmayan kimsələrə yaxşılıq etmənizi və onlarla insafla davranmanızı sizə qadağan etmir. Şübhəsiz ki, Allah insaflı olanları sevir.*
>
> **(Mumtəhənə surəsi, 8)**

Ölçü və tərəzidə ədalətli olmaq

> *Ölçdükdə ölçüyə tam riayət edin, çəkdikdə düzgün tərəzi ilə çəkin. Bu, daha xeyirli və nəticə baxımından daha yaxşıdır.*
>
> **(İsra surəsi, 35)**

> *Ölçüyə tam riayət edin və əksik ölçənlərdən olmayın.*
>
> **(Şuəra surəsi, 181)**

> *Düz tərəzi ilə çəkin.*
>
> **(Şuəra surəsi, 182)**

Xoşniyyətli və bağışlayıcı olmaq

Hər kim səbir edib bağışlasa, şübhəsiz ki, bu məqsədə uyğun işlərdəndir.

(Şura surəsi, 43)

Sən bağışlama yolunu tut, yaxşı iş görməyi əmr et və cahillərdən üz döndər.

(Əraf surəsi, 199)

Əgər bir xeyri aşkara çıxarsanız, yaxud onu gizlətsəniz və ya bir pisliyi bağışlasanız, bilin ki, Allah əfv edəndir, hər şeyə Qadirdir.

(Nisa surəsi, 149)

Mərhəmətli və mülayim xasiyyətli olmaq

Ey iman gətirənlər! Sizlərdən hər kim dinindən dönsə, Allah onun əvəzinə Özünün sevdiyi və Onu sevən, möminlərə qarşı mülayim, kafirlərə qarşı isə sərt olan, Allah yolunda cihad edən və tənə edənin tənəsindən qorxmayan bir camaat gətirər. Bu, Allahın lütfüdür, onu istədiyinə verər. Allah hər şeyi Əhatə edəndir, Biləndir.

(Maidə surəsi, 54)

Müşriklərlə müqavilə bağlanıldığında razılaşmaya sadiq qalmaq

> *Saziş bağladıqdan sonra onu pozmamış və sizin əleyhinizə heç kəsə yardım göstərməmiş müşriklər istisnadır. Onlarla olan müqavilənizi, müddəti bitənədək yerinə yetirin. Həqiqətən, Allah müttəqiləri sevir.*
>
> **(Tövbə surəsi, 4)**

Müşriklər aman istədikdə göstəriləcək rəftar

> *Əgər müşriklərdən biri səndən aman diləsə, ona aman ver ki, Allahın sözünü eşitsin. Sonra onu özünün xatircəm olduğu yerə çatdır. Çünki onlar haqqı bilməyən bir qövmdür.*
>
> **(Tövbə surəsi, 6)**

Namuslu olmaq

> *Mömin kişilərə de ki, harama baxmayıb gözlərini aşağı diksinlər və cinsiyyət üzvlərini zinadan qorusunlar. Bu onlar üçün daha təmiz olar. Şübhəsiz ki, Allah onların nə etdiklərindən xəbərdardır.*
>
> **(Nur surəsi, 30)**

Mömin qadınlara da de ki, harama baxmayıb gözlərini aşağı diksinlər və cinsiyyət üzvlərini zinadan qorusunlar. Qoy onlar – görünənlər istisna olmaqla, zinətlərini naməhrəmə göstərməsinlər; örtüklərini yaxalarının üstünə salsınlar; zinətlərini ərlərindən, yaxud atalarından, yaxud ərlərinin atalarından, yaxud öz oğullarından, yaxud ərlərinin oğullarından, yaxud qardaşlarından, yaxud qardaşlarının oğullarından, yaxud bacılarının oğullarından, yaxud öz müsəlman qadınlarından, yaxud sahib olduqları kölələrdən, yaxud ehtirasını itirən kişi xidmətçilərdən, yaxud qadınların çılpaqlığını hələ anlamayan uşaqlardan başqasına göstərməsinlər; gizlətdikləri zinət əşyaları bilinsin deyə ayaqlarını yerə vura-vura yeriməsinlər. Ey iman gətirənlər! Hamınız Allaha tövbə edin ki, bəlkə nicat tapasınız.

(Nur surəsi, 31)

o kəslər ki, öz cinsi orqanlarını həmişə qoruyurlar,

(Muminun surəsi, 5)

Mömin olanın ancaq mömin olanla evlənə biləcəyi

Murdar qadınlar murdar kişilərə, murdar kişilər isə murdar qadınlara, eləcə də təmiz qadınlar təmiz kişilərə, təmiz kişilər də təmiz qadınlara layiqdirlər. Bunlar iftiraçıların söylədiklərindən uzaqdırlar. Onları bağışlanma və bolluca ruzi gözləyir.

(Nur surəsi, 26)

> *Müşrik qadınlar iman gətirməyincə onlarla evlənməyin. Əlbəttə, iman gətirmiş bir kəniz, sizi heyran edən müşrik bir qadından daha xeyirlidir. Müşrik kişilər iman gətirməyincə mömin qadınları onlara ərə verməyin. Əlbəttə, iman gətirmiş bir kölə, sizi heyran edən müşrik bir kişidən daha xeyirlidir. Onlar Oda çağırırlar. Allah isə Öz izni ilə Cənnətə və bağışlanmağa dəvət edir. O, Öz ayələrini insanlara bəyan edir ki, bəlkə, düşünüb ibrət alsınlar.*
>
> **(Bəqərə surəsi, 221)**

İnkar edən qadını nikahlamamaq

> *Müşrik qadınlar iman gətirməyincə onlarla evlənməyin. Əlbəttə, iman gətirmiş bir kəniz, sizi heyran edən müşrik bir qadından daha xeyirlidir. Müşrik kişilər iman gətirməyincə mömin qadınları onlara ərə verməyin. Əlbəttə, iman gətirmiş bir kölə, sizi heyran edən müşrik bir kişidən daha xeyirlidir. Onlar Oda çağırırlar. Allah isə Öz izni ilə Cənnətə və bağışlanmağa dəvət edir. O, Öz ayələrini insanlara bəyan edir ki, bəlkə, düşünüb ibrət alsınlar.*
>
> **(Bəqərə surəsi, 221)**

Subay möminləri evləndirmək

Aranızda olan subay kişiləri və ərsiz qadınları, əməlisaleh köləvə kənizlərinizi evləndirin. Əgər onlar kasıbdırlarsa, Allah öz lütfü ilə onları varlı edər. Allah lütfü ilə Genişdir, Biləndir!

(Nur surəsi, 32)

Evli olmayanların namuslu davranmaları

Qoy evlənməyə imkanı olmayanlar, Allah Öz lütfü ilə onları varlandırana qədər, ismətlərini qorusunlar. Sahib olduğunuz kölələrdən özünün azad olmasına dair sizdən yazılı məktub istəyənlərə, – əgər onlarda bir xeyir görürsünüzsə – istədikləri məktubu yazıb verin. Allahın sizə verdiyi maldan onlara da verin. Əgər kənizləriniz ismətlərini qorumaq istəsələr, fani dünya malı əldə edəcəksiniz deyə onları zinakarlığa məcbur etməyin. Kim onları bu işə məcbur etsə, bilsin ki, onlar məcbur edildikdən sonra Allah onları bağışlayar və rəhm edər.

(Nur surəsi, 33)

Əhli Kitabdan mömin olanlarla evlənə biləcəyi

Bu gün pak nemətlər sizə halal edildi. Kitab verilənlərin yeməkləri sizə halal, sizin yeməkləriniz də onlara halaldır. İsmətli mömin qadınlar da, sizdən əvvəl Kitab verilənlərin ismətli qadınları da, namuslu olub zinakarlıq etməmək və aşna saxlamamaq şərti ilə mehrlərini verdiyiniz təqdirdə sizə halaldır. İmanı inkar edənin əməlləri boşa çıxar və o, Axirətdə ziyana uğrayanlardan olar.

(Maidə surəsi, 5)

Ər-arvadın arasının pozulması vəziyyətində bir mömini hakim etmək

Əgər ər-arvad arasında ixtilaf olacağından qorxsanız, onda kişinin ailəsindən bir hakim və qadının ailəsindən bir hakim göndərin. Əgər bunlar islah etmək istəsələr, Allah da onları barışdırar. Həqiqətən, Allah Biləndir, hər şeydən Xəbərdardır.

(Nisa surəsi, 35)

Boşanmada qadının dolanışığını təmin etmək

Boşanmış qadınlara şəriətə müvafiq qayda üzrə yaxşılıq etmək lazımdır. Bu, müttəqilər üçün bir borcdur.

(Bəqərə surəsi, 241)

Evlilikdə qadına verilən malların boşanmada geri alınmaması

Əgər bir arvadın yerinə başqa bir arvad almaq istəsəniz, onlardan birinə yığın-yığın mal vermiş olsanız belə, heç bir şey geri almayın! Məgər verdiyinizi böhtan atmaq və açıq-aşkar günah işlətməkləmi geri alacaqsınız?

(Nisa surəsi, 20)

Onu necə geri ala bilərsiniz ki, siz bir-birinizlə yaxınlıq etmişdiniz və onlar da sizdən möhkəm əhd-peyman almışdılar?

(Nisa surəsi, 21)

Boşandıqdan sonra qadının iddət gözləmə müddəti

Boşanmış qadınlar üç heyz müddəti gözləməlidirlər. Əgər Allaha və Axirət gününə iman gətirirlərsə, Allahın onların bətnində yaratdığını gizlətmək onlara halal olmaz. Əgər bu müddət ərzində onların ərləri barışmaq istəsələr, onları qaytarmağa daha çox haqlıdırlar. Kişilərin qadınlar üzərində şəriətə müvafiq haqları olduğu kimi onların da kişilər üzərində haqları vardır. Kişilərin onlar üzərində olan haqları isə bir dərəcə üstündür. Allah Qüdrətlidir, Müdrikdir.

(Bəqərə surəsi, 228)

Əlaqədə olmadısa iddət gözləməsinə ehtiyac olmaması

Ey iman gətirənlər! Əgər mömin qadınlarla evlənsəniz, sonra da onlara toxunmazdan əvvəl talaqlarını versəniz, artıq onlar üçün gözləmə müddətini saymağa (yanınızda saxlamağa) haqqınız yoxdur. Belə olduğu təqdirdə onlara talaq haqlarını verin və gözəl tərzdə sərbəst buraxın.

(Əhzab surəsi, 49)

Qadının əri ölsə gözləmə müddəti

Sizlərdən ölənlərin qoyub getdiyi zövcələr dörd ay on gün gözləməlidirlər. Onların gözləmə müddəti bitərkən şəriətə müvafiq qayda üzrə özləri barədə etdikləri işə görə sizə günah sayılmaz. Allah nə etdiklərinizdən xəbərdardır.

(Bəqərə surəsi, 234)

Qadınlara yaxınlaşma

Qadınlarınız sizin tarlanızdır. Tarlanıza nə təhər istəyirsinizsə, yaxınlaşın. Özünüz üçün qabaqcadan yaxşı işlər hazırlayın. Allahdan qorxun və bilin ki, siz Onunla qarşılaşacaqsınız. Möminləri müjdələ.

(Bəqərə surəsi, 223)

Qadın aybaşı halında ikən əlaqədə olmamaq

Səndən heyz barəsində soruşurlar. De: "Bu, əziyyətverici bir haldır. Heyz vaxtı qadınlarla yaxınlıq etməkdən uzaq olun və pak olmayınca onlarla yaxınlıq etməyin. Onlar təmizləndikdən sonra isə Allahın sizə buyurduğu yerdən onlara yaxınlaşın". Şübhəsiz ki, Allah tövbə edənləri də sevir, pak olanları da.

(Bəqərə surəsi, 222)

Qadının qorunması və qadına verilən əhəmiyyət

Allahın onlardan birini digərindən üstün etdiyinə və öz mallarından xərclədiklərinə görə kişilər qadınlar üzərində himayəçidirlər. Əməlisaleh qadınlar Allaha itaət edər və qorunması lazım gələn şeyləri Allahın himayəsi sayəsində qoruyub saxlayarlar. Özbaşınalıq etmələrindən qorxduğunuz qadınlara nəsihət edin, yataqda onları tərk edin və tənbeh edin! Əgər sizə itaət etsələr, onlara əziyyət vermək üçün başqa yol axtarmayın. Həqiqətən, Allah Ucadır, Böyükdür.

(Nisa surəsi, 34)

> *Allahın onlardan birini digərindən üstün etdiyinə və öz mallarından xərclədiklərinə görə kişilər qadınlar üzərində himayəçidirlər. Əməlisaleh qadınlar Allaha itaət edər və qorunması lazım gələn şeyləri Allahın himayəsi sayəsində qoruyub saxlayarlar. Özbaşınalıq etmələrindən qorxduğunuz qadınlara nəsihət edin, yataqda onları tərk edin və tənbeh edin! Əgər sizə itaət etsələr, onlara əziyyət vermək üçün başqa yol axtarmayın. Həqiqətən, Allah Ucadır, Böyükdür.*
>
> **(Nisa surəsi, 34)**

Zina etməmək

> *Onlar Allahla yanaşı başqa məbuda yalvarmaz, Allahın haram etdiyi cana haqsız yerə qıymaz və zina etməzlər. Bunu edən kimsə cəzalandırılar.*
>
> **(Furqan surəsi, 68)**

> *Zinaya yaxınlaşmayın. Çünki bu, iyrənc bir əməl və murdar bir yoldur!*
>
> **(İsra surəsi, 32)**

Əmin olmadan zinayla günahlandırmamaq

> *İsmətli qadınları zinada günahlandırıb, sonra dörd şahid gətirməyən kəslərə səksən çubuq vurun və onların şahidliyini heç vaxt qəbul etməyin. Onlar əsl fasiqlərdir.*
>
> **(Nur surəsi, 4)**

> *Nə üçün siz bunu eşitdiyiniz zaman mömin kişilər və qadınlar bir-biriləri haqda yaxşı fikirdə olub: "Bu, açıq-aydın bir böhtandır!" – demədilər?*
>
> **(Nur surəsi, 12)**

> *Nəyə görə onlar buna dair dörd şahid gətirmədilər? Madam ki, şahid gətirmədilər, deməli, onlar Allah yanında əsl yalançıdırlar.*
>
> **(Nur surəsi, 13)**

> *Zinakarlıq edən qadınlarınıza qarşı özünüzdən dörd şahid çağırın! Əgər onlar şahidlik etsələr, o qadınları, ölüm onların həyatına son qoyanadək və yaxud Allah onlar üçün bir yol açanadək evlərindən bayıra buraxmayın.*
>
> **(Nisa surəsi, 15)**

Qadının qapalı geyinməsi

> *Ey Peyğəmbər! Zövcələrinə, qızlarına və möminlərin qadınlarına de ki, naməhrəm yanında çarşabları ilə örtünsünlər. Bu onların tanınması və onlara əziyyət verilməməsi üçün daha münasibdir. Allah Bağışlayandır, Rəhmlidir.*
>
> **(Əhzab surəsi, 59)**

> *Evlərinizdə qərar tutun! İlk cahiliyyə dövründə olduğu kimi açıq-saçıq gəzməyin. Namaz qılın, zəkat verin, Allaha və Onun Elçisinə itaət edin. Ey ev əhli! Allah sizdən günahınızı silib aparmaq və sizi tərtəmiz etmək istəyir.*
>
> **(Əhzab surəsi, 33)**

Mömin qadınlara da de ki, harama baxmayıb gözlərini aşağı diksinlər və cinsiyyət üzvlərini zinadan qorusunlar. Qoy onlar – görünənlər istisna olmaqla, zinətlərini naməhrəmə göstərməsinlər; örtüklərini yaxalarının üstünə salsınlar; zinətlərini ərlərindən, yaxud atalarından, yaxud ərlərinin atalarından, yaxud öz oğullarından, yaxud ərlərinin oğullarından, yaxud qardaşlarından, yaxud qardaşlarının oğullarından, yaxud bacılarının oğullarından, yaxud öz müsəlman qadınlarından, yaxud sahib olduqları kölələrdən, yaxud ehtirasını itirən kişi xidmətçilərdən, yaxud qadınların çılpaqlığını hələ anlamayan uşaqlardan başqasına göstərməsinlər; gizlətdikləri zinət əşyaları bilinsin deyə ayaqlarını yerə vura-vura yeriməsinlər. Ey iman gətirənlər! Hamınız Allaha tövbə edin ki, bəlkə nicat tapasınız.

(Nur surəsi, 31)

Zihar etməmək və kəffarəsi

Qadınlarını anaya bənzədərək özlərinə haram edib, sonra sözlərini geri götürənlər onlarla yaxınlıq etməzdən əvvəl bir kölə azad etməlidirlər. Bu sizə verilən öyüd-nəsihətdir. Allah nə etdiklərinizdən xəbərdardır.

(Mücadilə surəsi, 3)

Buna imkan tapa bilməyən kəs, qadını ilə yaxınlıq etməzdən əvvəl iki ay ardıcıl oruc tutmalıdır. Buna gücü çatmayan kimsə altmış yoxsulu yedirtməlidir. Bu sizin Allaha və Onun Elçisinə iman gətirməniz üçündür. Bunlar Allahın hüdudlarıdır. Kafirləri isə ağrılı-acılı bir əzab gözləyir.

(Mücadilə surəsi, 4)

Allah bir adamın daxilində iki ürək yaratmamışdır. Allah anaya bənzədərək özünüzə haram etdiyiniz zövcələrinizi analarınız etməmiş, oğulluğa götürdüklərinizi də oğullarınız etməmişdir. Bunlar sizin dilinizə gətirdiyiniz yalan sözlərdir. Allah isə haqqı deyir və doğru yola yönəldir.

(Əhzab surəsi, 4)

Sizlərdən öz qadınlarını anaya bənzədərək özlərinə haram edənlərin zövcələri onların anaları deyillər. Anaları ancaq onları doğmuş qadınlardır. Onlar yaramaz və yalan söz danışırlar. Şübhəsiz ki, Allah əfv edəndir, Bağışlayandır.

(Mücadilə surəsi, 2)

Yetimlərin mallarını özlərinə vermək

Yetimlərin mallarını özlərinə verin və yaxşını pis ilə dəyişməyin. Onların mallarını öz mallarınızla birlikdə yeməyin. Şübhəsiz ki, bu, böyük günahdır.

(Nisa surəsi, 2)

Yetim qızlara qarşı ədalətli olmayacağınızdan qorxursunuzsa, onda xoşunuza gələn halal qadınlardan ikisi, üçü və dördü ilə evlənin. Əgər o qadınlarla ədalətlə dolanmayacağınızdan qorxursunuzsa, onda onlardan biri ilə və yaxud sahib olduğunuz cariyələrlə kifayətlənin. Bu, haqsızdıq etməməyə daha yaxındır.

(Nisa surəsi, 3)

Qohum-əqrəbaya, yoxsula və müsafirə haqqını vermək

Qohum-əqrəbaya da, yoxsula da, müsafirə də haqqını ver. Lakin malını lazım olmayan yerə sərf etmə.

(İsra surəsi, 26)

Yoxsulları qorumaq, doydurmaq və dəstək olmaq

Sizi Səqərə salan nədir?

(Müddəssir surəsi, 42)

Onlar deyəcəklər: "Biz namaz qılanlardan deyildik.

(Müddəssir surəsi, 43)

Kasıbı da yedizdirməzdik.

(Müddəssir surəsi, 44)

Çünki o, Böyük Allaha iman gətirmirdi,

(Haqqə surəsi, 33)

və heç kəsi kasıbı yedirtməyə rəğbətləndirmirdi.

(Haqqə surəsi, 34)

Bu gün burada onun üçün bir dost tapılmaz.

(Haqqə surəsi, 35)

> *Onlar özlərinin istədikləri şeylərdən kasıba, yetimə və əsirə də verərlər*
>
> **(İnsan surəsi, 8)**

Yetimləri böyütmək

> *dünya və axirət barəsində. Səndən yetimlər haqqında soruşurlar. De: "Onlara yaxşılıq etmək xeyirlidir. Əgər onları öz işinizə qatırsınızsa, bilin ki, onlar sizin qardaşlarınızdır". Allah fəsad törədəni yaxşılıq edəndən ayırd edir. Əgər Allah istəsəydi, əlbəttə, sizi çətin vəziyyətə salardı. Şübhəsiz ki, Allah Qüdrətlidir, Müdrikdir.*
>
> **(Bəqərə surəsi, 220)**

Valideynlərə xoş davranmaq

> *Rəbbin yalnız Ona ibadət etməyi və ata-ana ilə yaxşı davranmağı buyurmuşdur. Əgər onların biri və ya hər ikisi sənin yanında qocalıq yaşına dolarsa, onlara: "Uf!" belə demə, üstlərinə qışqırma və onlara xoş söz söylə!*
>
> **(İsra surəsi, 23)**

Onların hər ikisinə rəhm edərək təvazökarlıq qanadının altına al və: "Ey Rəbbim! Onlar məni körpəliyimdən tərbiyə edib böyütdükləri kimi, Sən də onlara rəhm et!" – de.

(İsra surəsi, 24)

Biz insana ata-anasının qayğısına qalmağı əmr etdik. Anası onu bətnində gündən-günə zəiflədiyinə baxmayaraq daşımışdır. Onun süddən kəsilməsi isə iki il ərzində olur. Mənə və valideynlərinə şükür et! Axır dönüş Mənədir.

(Loğman surəsi, 14)

Əgər onlar bilmədiyin bir şeyi Mənə şərik qoşmağın üçün səni məcbur etməyə cəhd göstərsələr, onlara güzəştə getmə! Dünyada onlarla gözəl davran. Mənə üz tutanların yolu ilə get! Sonra isə dönüşünüz Mənə olacaq, Mən də nə etdiklərin barədə sizə xəbər verəcəyəm.

(Loğman surəsi, 15)

Bir zaman Biz İsrail oğulları ilə: "Allahdan qeyrisinə ibadət etməyəcək, valideynlərə, qohum-əqrəbaya, yetimlərə və kasıblara xeyirxahlıq edəcək, insanlara xoş söz deyəcək, namaz qılacaq və zəkat verəcəksiniz!" – deyə əhd bağladıq. Sonra az bir qisminiz istisna olmaqla, haqdan üz çevirib döndünüz.

(Bəqərə surəsi, 83)

Övladlıqlara yaxşı davranmaq

Oğulluğa götürdüyünüz uşaqları öz atalarının adları ilə çağırın. Bu, Allah yanında daha ədalətlidir. Atalarını tanımasanız, onlar sizin din qardaşlarınız və yaxınlarınızdır. Səhvən etdiyiniz əməllərdə sizə heç bir günah yoxdur. Lakin qəlbinizin qəsdlə etdiyi işlərdən ötrü sizə günah var. Allah Bağışlayandır, Rəhmlidir.

(Əhzab surəsi, 5)

Əsirlərlə xoş davranmaq

Döyüşdə kafirlərlə qarşı-qarşıya gəldiyiniz zaman boyunlarını vurun. Nəhayət, onları qırıb zəiflətdikdə əsirlərə bağladığınız kəndirləri bərk çəkin. Sonra da onları ya rəhm edib fidyəsiz, ya da fidyə alıb azad edin. Müharibəyə son qoyulanadək kafirlərlə belə rəftar edin. Bax belə! Əgər Allah istəsəydi, onlardan döyüşsüz də intiqam alardı. Lakin O sizi biri-birinizlə sınağa çəkmək üçün belə etdi. Allah Ğ yolunda öldürülənlərin əməllərini heç vaxt boşa çıxartmaz.

(Məhəmməd surəsi, 4)

Əsirləri doydurmaq

Onlar özlərinin istədikləri şeylərdən kasıba, yetimə və əsirə də verərlər

(İnsan surəsi, 8)

Halal olan şeylərdən yemək

Allahın sizə verdiyi halal və pak ruzilərdən yeyin və əgər Allaha ibadət edirsinizsə, Onun nemətinə şükür edin.

(Nəhl surəsi, 114)

Halal olan şeylərin təmizindən yeyib-içmək

Ey iman gətirənlər! Sizə ruzi kimi verdiyimiz pak şeylərdən yeyin və əgər Allaha ibadət edirsinizsə, Ona şükür edin!

(Bəqərə surəsi, 172)

Allahın adı çəkilməmiş kəsilən ətlərdən yeməmək

Üstündə Allahın adı çəkilməmiş – "bismillah" deyilib kəsilməmiş heyvanlardan yeməyin. Çünki bu, günahdır. Həqiqətən, şeytanlar öz dostlarına sizinlə mübahisə etmək üçün batil əqidələr təlqin edirlər. Əgər onlara itaət etsəniz, sözsüz ki, siz də müşriklərdən olarsınız.

(Ənam surəsi, 121)

Əgər Allahın ayələrinə inanırsınızsa, üstündə Onun adı çəkilmiş – "bismillah" deyilib kəsilmiş heyvanlardan yeyin.

(Ənam surəsi, 118)

İstəyənə də, gözütox olana da yedirtmək

Biz qurbanlıq dəvələri də sizin üçün Allahın dininin ayinlərindən etdik. Onlarda sizin üçün xeyir vardır. Onları səf-səf düzülmüş halda kəsərkən Allahın adını çəkin. Böyrü üstə yıxıldıqları zaman onlardan özünüz də yeyin, aza qane olan kasıba və dilənçiyə də yedirdin. Beləcə, onları (qurbanlıq heyvanları) sizə tabe etdik ki, bəlkə şükür edəsiniz.

(Həcc surəsi, 36)

Lazım olduğunda hicrət etmək

Həqiqətən, iman gətirən, hicrət edən və Allah yolunda öz malı və canı ilə cihad edən mühacirlər və sığınacaq verib köməklik göstərən ənsarlar – məhz onlar bir-birinin dostlarıdır. İman gətirən, lakin hicrət etməyənlərə gəldikdə isə, onlar hicrət etməyincə siz onları himayə etməyə borclu deyilsiniz. Əgər onlar din uğrunda sizdən kömək istəsələr, sizinlə aralarında müqavilə olan bir qövm əleyhinə yardım istisna olmaqla, kömək etməyiniz gərəkdir. Allah sizin nə etdiklərinizi görür.

(Ənfal surəsi, 72)

Kim Allah üçün hicrət edərsə, yer üzündə çoxlu sığınacaq və bolluq tapar. Kim Allaha və Onun Elçisinə tərəf hicrət edərək evindən çıxdıqdan sonra da ölüm onu haqlayarsa, onun mükafatını Allah verər. Allah Bağışlayandır, Rəhmlidir.

(Nisa surəsi, 100)

Hicrət etməyənləri dost etməmək

Həqiqətən, iman gətirən, hicrət edən və Allah yolunda öz malı və canı ilə cihad edən mühacirlər və sığınacaq verib köməklik göstərən ənsarlar – məhz onlar bir-birinin dostlarıdır. İman gətirən, lakin hicrət etməyənlərə gəldikdə isə, onlar hicrət etməyincə siz onları himayə etməyə borclu deyilsiniz. Əgər onlar din uğrunda sizdən kömək istəsələr, sizinlə aralarında müqavilə olan bir qövm əleyhinə yardım istisna olmaqla, kömək etməyiniz gərəkdir. Allah sizin nə etdiklərinizi görür.

(Ənfal surəsi, 72)

Sözləri və əhdləri yerinə yetirmək

O kəslər ki, əmanəti danmır və əhdlərini pozmurlar.

(Məaric surəsi, 32)

> *O kəslər ki, Allaha verdikləri sözü yerinə yetirir və əhdi pozmurlar.*
>
> **(Rad surəsi, 20)**

> *Xeyr! Kim əhdini yerinə yetirsə və Allahdan qorxsa, şübhəsiz ki, Allah müttəqiləri sevər.*
>
> **(Ali İmran surəsi, 76)**

Allaha verilən əhdə sadiq qalmaq

> *Allahla əhd bağladıqdan sonra onu pozan, Allahın qovuşdurulmasını əmr etdiyi şeyləri kəsən və yer üzündə fitnə-fəsad törədənlərə gəlincə, onlar üçün lənət və pis yurd vardır.*
>
> **(Rad surəsi, 25)**

> *Allahla bağladığınız əhdə sadiq olun; möhkəm and içdikdən sonra andlarınızı pozmayın. Çünki siz Allahı özünüzə zamin etmisiniz. Şübhəsiz ki, Allah sizin nələr etdiyinizi bilir.*
>
> **(Nəhl surəsi, 91)**

Allaha verilən sözü mənfəət qarşılığında dəyişdirməmək

Allahla bağladığınız əhdi ucuz qiymətə satmayın. Əgər bilirsinizsə, Allah yanında olan savab sizin üçün daha xeyirlidir.

(Nəhl surəsi, 95)

Edə bilməyəcəyi şeyi söyləməmək

Siz Kitab oxuyub insanlara xeyirxahlığı əmr etdiyiniz halda, özünüzü unudursunuz? Məgər anlamırsınız?

(Bəqərə surəsi, 44)

Əmanət əhli olmaq

Biz əmanəti göylərə, yerə və dağlara təklif etdik. Onlar onu daşımaqdan qorxub imtina etdilər. Lakin insan onu boynuna götürdü. Doğrudan da, o, zalım və cahildir.

(Əhzab surəsi, 72)

Ey iman gətirənlər! Allaha və Onun Elçisinə xəyanətkarlıq göstərməyin və bilə-bilə aranızdakı əmanətlərə də xəyanət etməyin.

(Ənfal surəsi, 27)

> *O mömin kəslər ki, əmanətlərini və vədlərini qoruyurlar.*
>
> **(Muminun surəsi, 8)**

> *Kitab əhlindən eləsi var ki, ona bir yığın mal əmanət etsən, onu sənə tam qaytarar. Onlardan eləsi də var ki, ona bir dinar versən belə, başının üstündə durub tələb etməyincə onu sənə qaytarmaz. Bu, ona görədir ki, onlar: "Avamlardan ötrü bizə günah olmaz!" – deyirlər və bilə-bilə Allaha qarşı yalan söyləyirlər.*
>
> **(Ali İmran surəsi, 75)**

> *Xeyr! Kim əhdini yerinə yetirsə və Allahdan qorxsa, şübhəsiz ki, Allah müttəqiləri sevər.*
>
> **(Ali İmran surəsi, 76)**

> *O kəslər ki, əmanəti danmır və əhdlərini pozmurlar.*
>
> **(Məaric surəsi, 32)**

Əmanəti əhlinə vermək

Həqiqətən, Allah sizə əmanətləri sahiblərinə qaytarmanızı və insanlar arasında hökm verərkən ədalətlə hökm vermənizi əmr edir. Allahın sizə verdiyi bu öyüd-nəsihət necə də gözəldir! Şübhəsiz ki, Allah Eşidəndir, Görəndir.

(Nisa surəsi, 58)

Şahidliyi doğru etmək

Ey iman gətirənlər! Şahidliyiniz özünüzün və ya valideynlərin, ya da yaxın qohumların əleyhinə olsa belə, Allah şahidləri olub ədaləti qoruyun. Əleyhinə şahidlik edəcəyiniz şəxslərin varlı və ya kasıb olmasından asılı olmayaraq Allah onların hər ikisinə daha yaxındır. Arzularınıza uyaraq haqdan uzaqlaşmayın! Əgər siz yalan danışsanız və ya həqiqəti deməkdən boyun qaçırsanız, bilin ki, Allah nə etdiklərinizdən xəbərdardır.

(Nisa surəsi, 135)

Şahidliyi doğru etməyənin yerinə doğru edəni keçirmək

Ey iman gətirənlər! Sizlərdən bir kimsəyə ölüm gəldiyi zaman, vəsiyyət vaxtı içinizdən iki ədalətli kişi, bir yerə səfərə çıxdığınız zaman başınıza ölüm müsibəti gəldikdə isə özünüzdən olmayan iki kişi aranızda şahidlik etsin. Əgər özünüzdən olmayan şahidlərə şübhə etsəniz, namazdan sonra hər ikisini saxlayın və qoy onlar: "Biz bu andımızı lap yaxın qohumlara belə heç bir qiymətə satmarıq və Allahın şahidliyini gizlətmərik. Əks halda biz, şübhəsiz ki, günahkarlardan olarıq" – deyə and içsinlər.

(Maidə surəsi, 106)

Əgər hər ikisinin günah iş tutduqları aşkar edilsə, o zaman onların yerini haqsızlığa məruz qalanlardan ölən şəxsə daha yaxın olan iki kişi tutar və onlar: "Əlbəttə, bizim şahidliyimiz o iki nəfərin şahidliyindən daha doğrudur və biz həddi aşmadıq. Əks halda biz, şübhəsiz ki, zalımlardan olarıq" – deyə and içərlər.

(Maidə surəsi, 107)

Yalan danışmamaq

Bax belə! Hər kim Allahın haram buyurduqlarına hörmət etsə, bu, Rəbbi yanında onun üçün xeyirli olar. Haram olduğu sizə oxunanlardan başqa, qalan heyvanlar sizə halal edilmişdir. Elə isə murdar bütlərdən uzaq olun, yalan sözlərdən də çəkinin;

(Həcc surəsi, 30)

Ey iman gətirənlər! Nə üçün siz etməyəcəyiniz şeyləri danışırsınız?

(Saff surəsi, 2)

Etməyəcəyiniz şeylərdən danışmağınız Allah tərəfindən böyük nifrətlə qarşılanır.

(Saff surəsi, 3)

Möminlərin ayrılığa düşməmələri, birlik olmaları

Hamınız Allahın ipindən möhkəm yapışın və parçalanmayın! Allahın sizə olan nemətini xatırlayın ki, siz bir-birinizə düşmən idiniz, O, sizin qəlblərinizi birləşdirdi və Onun neməti sayəsində bir-birinizlə qardaş oldunuz. Siz odlu bir uçurumun lap kənarında idiniz. O, sizi ondan xilas etdi. Allah Öz ayələrini sizə beləcə bəyan edir ki, bəlkə doğru yola gələsiniz.

(Ali İmran surəsi, 103)

Ey Peyğəmbər! Kafirlərlə və münafiqlərlə vuruş. Onlarla sərt davran. Onların sığınacaqları yer Cəhənnəmdir. Ora nə pis dönüş yeridir!

(Tövbə surəsi, 73)

Özlərinə aydın dəlillər gəldikdən sonra firqələrə ayrılıb ixtilaf edənlər kimi olmayın. Onları böyük bir əzab gözləyir.

(Ali İmran surəsi, 105)

Xeyir gözüylə baxmaq

De: "Allahın bizim üçün yazdığından başqa bizim başımıza heç nə gəlməz. O bizim Himayədarımızdır. Qoy möminlər yalnız Allaha təvəkkül etsinlər!"

(Tövbə surəsi, 51)

Nemətlər içində ikən öyünməmək

Həqiqətən, Qarun Musa ilə həmtayfa idi. Amma onlara qarşı yamanlıq edirdi. Biz ona elə xəzinələr vermişdik ki, onların açarlarını daşımaq bir dəstə qüvvətli adama ağır gəlirdi. Qövmü ona dedi: "Öyünmə! Həqiqətən, Allah öyünənləri sevmir.

(Qəsas surəsi, 76)

Yurdlarından təkəbbürlə, özlərini camaata göstərmək üçün çıxan və insanları Allah yolundan sapdıran kəslər kimi olmayın. Allah onların əməllərini hər tərəfdən ehtiva etmişdir.

(Ənfal surəsi, 47)

Azğınlıq etməmək

Allah onları xilas etdikdə isə dərhal haqsız olaraq yer üzündə azğınlıq edərlər. Ey insanlar! Azğınlığınız yalnız sizin öz əleyhinizədir. Bunlar dünya həyatının keçici zövqləridir. Sonra isə dönüşünüz Bizə olacaq, Biz də nə etdiklərinizi barədə sizə xəbər verəcəyik.

(Yunis surəsi, 23)

Yaxşılıq etmək

Həqiqətən, Allah ədalətli olmağı, yaxşılıq etməyi və qohumlara haqqını verməyi əmr edir, iyrənc işlər görməyi, pis əməllər törətməyi və azğınlıq etməyi isə qadağan edir. O sizə öyüd-nəsihət verir ki, bəlkə düşünüb ibrət alasınız.

(Nəhl surəsi, 90)

Yaxşılığın tərifi

Yaxşı əməl üzünüzü məşriqə və məğribə tərəf çevirməyiniz deyildir. Lakin yaxşı əməl sahibləri Allaha, Axirət gününə, mələklərə, kitablara, peyğəmbərlərə iman gətirən, sevdiyi malı qohum-əqrəbaya, yetimlərə, kasıblara, müsafirlərə, dilənənlərə və kölələrin azad edilməsinə sərf edən, namaz qılıb zəkat verən, əhd bağladıqda əhdlərini yerinə yetirən, sıxıntı və xəstəlik üz verdikdə, habelə döyüşdə səbir edən şəxslərdir. Onlar imanlarında doğru olanlardır. Müttəqi olanlar da elə məhz onlardır.

(Bəqərə surəsi, 177)

Xeyirlərdə yarışmaq

Hər kəsin üz tutduğu bir qibləsi vardır. Yaxşı işlər görməkdə bir-birinizlə yarışın. Harada olursunuz olun Allah sizin hamınızı bir yerə toplayacaqdır. Şübhəsiz ki, Allah hər şeyə qadirdir.

(Bəqərə surəsi, 148)

Biz sənə, özündən əvvəlki kitabları təsdiqləyən və onları mühafizə edən Kitabı haqq olaraq nazil etdik. Elə isə onların arasında Allahın sənə nazil etdiyi Kitabla hökm ver. Sənə gələn haqdan ayrılıb onların istəklərinə tabe olma. Sizlərdən hər biriniz üçün bir şəriət və bir yol təyin etdik. Əgər Allah istəsəydi, sizi tək bir ümmət edərdi. Lakin başqa-başqa olmanız sizə verdikləri ilə sizi imtahan etməsi üçündür. Yaxşı işlər görməkdə bir-birinizlə yarışın. Hamınızın qayıdışı Allaha olacaq və O, ziddiyyətə düşəcəyiniz şeylər barəsində sizə xəbər verəcəkdir.

(Maidə surəsi, 48)

Rəbbiniz tərəfindən bağışlanmağa və müttəqilər üçün hazırlanmış, genişliyi göylər və yer qədər olan Cənnətə tələsin.

(Ali İmran surəsi, 133)


Saleh əməllər etmək

De: "Mən də sizin kimi bir insanam. Mənə vəhy olunur ki, sizin məbudunuz Tək olan İlahdır. Kim Rəbbi ilə qarşılaşacağına ümid bəsləyirsə, yaxşı işlər görsün və icra etdiyi ibadətlərində Rəbbinə heç kəsi şərik qoşmasın!"

(Kəhf surəsi, 110)

Bir işi bitirdikdə digərinə keçmək

> *İşlərini qurtaran kimi Allah yolunda çalış!*
>
> **(İnşirah surəsi, 7)**



Namazı ölünün arxasından qılın

Boş şeylərdən üz çevirmək

> *o kəslər ki, sözbazlıqdan qaçırlar,*
>
> **(Muminun surəsi, 3)**

> *Onlar lağlağı eşitdikləri zaman ondan üz çevirib: "Bizim əməllərimiz bizə, sizin əməlləriniz də sizə aiddir. Sizə salam olsun! Biz cahillərə qoşulmaq istəmirik!" – deyirlər.*
>
> **(Qəsas surəsi, 55)**

Cahillərdən üz çevirmək

> *Mərhəmətli Allahın qulları o kəslərdir ki, onlar yer üzündə təvazökarlıqla gəzər, cahillər onlara xoşagəlməz bir söz dedikdə: "Salam!" – deyərlər.*
>
> **(Furqan surəsi, 63)**

> *Ayələrimizi lağlağıya qoyanları gördüyün zaman, onlar başqa söhbətə keçənə qədər onlardan üz çevir. Əgər şeytan bunu sənə unutdursa, xatırladıqdan sonra zalım tayfa ilə birgə oturma.*
>
> **(Ənam surəsi, 68)**

> *Onlar lağlağı eşitdikləri zaman ondan üz çevirib: "Bizim əməllərimiz bizə, sizin əməlləriniz də sizə aiddir. Sizə salam olsun! Biz cahillərə qoşulmaq istəmirik!" – deyirlər.*
>
> **(Qəsas surəsi, 55)**

Gələcək haqqında qəti hökm verməmək

> *Heç bir şey barəsində: "Mən onu sabah edəcəyəm!" – demə!*
>
> **(Kəhf surəsi, 23)**

Ancaq: "Əgər Allah istəsə!" ("inşallah" – de!) Unutduğun zaman Rəbbini yada salıb: "Ola bilsin ki, Rəbbim məni haqqa bundan daha yaxın olan bir yola yönəltsin" – de.

(Kəhf surəsi, 24)

Qüvvətin Allaha məxsus olduğunu bilmək

Bağına girdiyin zaman: "Maşallah (Allahın istədiyidir)! Qüvvət yalnız Allaha məxsusdur!" – deməli deyildinmi? Əgər var-dövlətcə və övladca məni özündən kasıb sayırsansa,

(Kəhf surəsi, 39)

Mala düşkünlük göstərməmək

Xeyr! Əslində siz yetimə ehtiram göstərmirsiniz,

(Fəcr surəsi, 17)

kasıbı yedirməyə bir-birinizi təhrik etmirsiniz,

(Fəcr surəsi, 18)

mirası hərisliklə yeyirsiniz,

(Fəcr surəsi, 19)

> *var-dövləti də hərisliklə sevirsiniz.*
>
> **(Fəcr surəsi, 20)**

Mal və çoxluqla öyünməmək

> *Çoxluğa hərisliyiniz başınızı o qədər qatdı ki,*
>
> **(Təkasur surəsi, 1)**

> *gömülməklə qəbirləri ziyarət etdiniz.*
>
> **(Təkasur surəsi, 2)**

Allahın verdikləriylə həddi aşmamaq

> *Allah bunu əlinizdən çıxana kədərlənməyəsiniz və Onun sizə verdiyinə həddindən artıq sevinməyəsiniz deyə belə izah edir. Allah heç bir özündən razını, özünü öyəni sevmir.*
>
> **(Hədid surəsi, 23)**

Həqiqətən, Qarun Musa ilə həmtayfa idi. Amma onlara qarşı yamanlıq edirdi. Biz ona elə xəzinələr vermişdik ki, onların açarlarını daşımaq bir dəstə qüvvətli adama ağır gəlirdi. Qövmü ona dedi: "Öyünmə! Həqiqətən, Allah öyünənləri sevmir.

(Qəsas surəsi, 76)

Yurdlarından təkəbbürlə, özlərini camaata göstərmək üçün çıxan və insanları Allah yolundan sapdıran kəslər kimi olmayın. Allah onların əməllərini hər tərəfdən ehtiva etmişdir.

(Ənfal surəsi, 47)

İnsanları kiçik hesab etməmək

Hər bir qeybət edənin, tənə vuranın vay halına!

(Hüməzə surəsi, 1)

İnsanlardan təkəbbürlə üz çevirmə, yer üzündə özünü darta-darta gəzib dolanma. Həqiqətən, Allah heç bir özündən razını, özünü öyəni sevmir.

(Loğman surəsi, 18)

Təmkinli olmaq

Ey iman gətirənlər! Səsinizi Peyğəmbərin səsindən yüksəyə qaldırmayın və bir-birinizə müraciət etdiyiniz kimi ona da uca səslə müraciət etməyin. Yoxsa, özünüz də hiss etmədən əməlləriniz hədər gedər.

(Hucurat surəsi, 2)

Yerişində həddi gözlə, danışanda səsini alçalt. Çünki ən çirkin səs uzunqulaq səsidir".

(Loğman surəsi, 19)

Başqalarının haqqını yemək məqsədiylə rüşvət verməmək

Mallarınızı öz aranızda haqsızlıqla yeməyin və camaatın malının bir qismini bilə-bilə günah yolu ilə yeyəsiniz deyə hakimləri ələ almağa çalışmayın.

(Bəqərə surəsi, 188)

Verilən borcun yazılması

Ey iman gətirənlər! Müəyyən bir müddətədək bir-birinizə borc verdikdə onu yazın. Qoy bunu aranızda bir katib ədalətlə qeyd etsin. Katib Allahın onu öyrətdiyi kimi yazmaqdan boyun qaçırmamalıdır. Qoy o yazsın, borc alan da (götürdüyü borcun miqdarını) yazdırsın, Rəbbi olan Allahdan qorxsun və borcdan heç nə əskiltməsin. Əgər borc alan ağıldan zəif və ya acizdirsə və yaxud özü yazdırmağa qadir deyilsə, qoy onun etibarlı yaxın adamı borcu ədalətlə yazdırsın. Aranızdakı kişilərdən iki nəfəri şahid tutun. Əgər iki kişi olmazsa, razı olduğunuz şahidlərdən bir kişi və iki qadını şahid tutun ki, qadınlardan biri unutduqda, o birisi onun yadına salsın. Şahidlər şahidlik etməyə çağırıldıqda boyun qaçırmasınlar. Az da olsa, çox da olsa, həmin məbləği və onun vaxtını yazmaqdan usanmayın. Bu, Allah yanında daha ədalətli, şahidlik üçün daha düzgün və şübhəyə düşməməyiniz üçün daha münasibdir. Yalnız aranızda gedən nağd ticarət istisnadır. Bunu yazmamağınız isə sizin üçün günah deyildir. Alver etdikdə şahid tutun. Amma katibə və şahidə zərər verilməməlidir. Əgər zərər yetirsəniz, şübhəsiz ki, bu, sizin üçün günahdır. Allahdan qorxun, Allah da sizi öyrətsin. Allah hər şeyi bilir.

(Bəqərə surəsi, 282)

Çətinlik içində olanın borcunu gecikdirmək və ya borcu bağışlamaq

> *Əgər borclu olan adam ağır şərait içindədirsə, onun vəziyyəti düzələnə qədər ona möhlət verin. Bilin ki, borcu bağışlamaq sizin üçün daha xeyirlidir.*
>
> **(Bəqərə surəsi, 280)**

Hər şeyi ibrət gözü ilə qiymətləndirmək

> *Ey Rəbbimiz! Onları da, onların atalarından, zövcələrindən və nəsillərindən olan əməlisalehləri də onlara vəd etdiyin Ədn bağlarına daxil et. Həqiqətən, Sən Qüdrətlisən, Müdriksən.*
>
> **(Mümin surəsi, 8)**

Günahkarların aqibətindən ibrət almaq

> *De: "Yer üzündə gəzib dolaşın və görün günahkarların aqibəti necə olmuşdur".*
>
> **(Nəml surəsi, 69)**

Keçmişdə yaşamış qövmlərin yaşadıqlarından ibrət almaq

> *Firon dedi: "Ey Haman! Mənim üçün bir uca qala tik ki, bəlkə yollara çatım –*
>
> **(Mümin surəsi, 36)**

> *göylərin yollarına çatım və Musanın məbudunu görüm. Həqiqətən, mən onu yalançı sayıram!" Firona pis əməli beləcə gözəl göstərildi və o, yoldan çıxarıldı. Fironun hiyləsi uğursuz oldu.*
>
> **(Mümin surəsi, 37)**

> *Səba qəbiləsinin yaşadığı yerdə nişanə – biri sağda, digəri də solda olan iki bağça var idi. Onlara: "Rəbbinizin ruzisindən yeyin və Ona şükür edin. Budur gözəl diyar və Bağışlayan Rəbb!" – deyilmişdi*
>
> **(Səba surəsi, 15)**

> *Amma onlar üz döndərdilər, Biz də üstlərinə güclü sel göndərdik. Onların iki bağçasını acı meyvəli, yulğunlu və içində bir az sidr ağacı olan iki bağla əvəz etdik.*
>
> **(Səba surəsi, 16)**

Nankorluqlarına görə onları belə cəzalandırdıq. Məgər biz nankordan başqasını cəzalandırarıqmı?

(Səba surəsi, 17)

Verilən salama cavab vermək

Biri sizinlə salamlaşdığı zaman siz onun salamını daha böyük ehtiramla alın və ya verilən salamı olduğu kimi qaytarın! Həqiqətən, Allah hər şeyin haqq-hesabını çəkəndir.

(Nisa surəsi, 86)

Evlərə qapılarından girmək

Səndən yeni doğan aylar barəsində soruşurlar. De: "Bunlar insanlar və həcc üçün vaxt ölçüləridir". Evlərə arxa tərəfindən daxil olmağınız yaxşı əməl deyildir. Lakin yaxşı əməl sahibi Allahdan qorxan şəxsdir. Evlərə qapılarından daxil olun! Allahdan qorxun ki, bəlkə nicat tapasınız.

(Bəqərə surəsi, 189)

İcazəsiz olaraq başqa evlərə girməmək

Əgər orada heç kəsi tapmasanız, sizə izin verilməyincə oraya girməyin. Sizə: "Qayıdın!" – deyilsə, qayıdın. Bu sizin üçün daha təmizdir. Allah nə etdiklərinizi bilir.

(Nur surəsi, 28)

İstifadə edə biləcəyiniz və yaşayış üçün olmayan evlərə iznsiz daxil olmaq sizin üçün günah deyildir. Allah sizin aşkara çıxardığınızı da, gizlində saxladığınızı da bilir.

(Nur surəsi, 29)

Evlərə, içindəkilərə salam verərək girmək

Kora, çolağa, bir də xəstəyə günah gəlməz. Sizin özünüzə də öz evlərinizdə, yaxud atalarınızın evlərində, yaxud analarınızın evlərində, yaxud qardaşlarınızın evlərində, yaxud bacılarınızın evlərində, yaxud əmilərinizin evlərində, yaxud bibilərinizin evlərində, yaxud dayılarınızın evlərində, yaxud xalalarınızın evlərində, yaxud açarları əllərinizdə olan evlərdə, yaxud dostlarınızın evlərində yemək yeməkdə heç bir günah gəlməz. Bir yerdə, yaxud ayrı-ayrılıqda yemək yeməyinizdə də sizə heç bir günah gəlməz. Evlərə daxil olduğunuz zaman özünüzü Allah tərəfindən mübarək və çox xoş bir salamla salamlayın. Allah ayələrini sizə belə izah edir ki, başa düşəsiniz.

(Nur surəsi, 61)

Ey iman gətirənlər! Özgə evlərə icazə almadan və onların sakinlərinə salam vermədən girməyin. Bu sizin üçün daha yaxşıdır. Bəlkə, düşünüb ibrət alasınız.

(Nur surəsi, 27)

Məscidlərdə başqalarına yer açmaq

Ey iman gətirənlər! Sizə: "Məclislərdə yer verin!" – deyildikdə yer verin ki, Allah da sizə geniş yer versin. Habelə sizə: "Qalxın!" – deyildikdə qalxın ki, Allah da sizdən iman gətirənlərin və özlərinə elm verilmiş kimsələrin dərəcələrini ucaltsın. Allah nə etdiklərinizdən xəbərdardır.

(Mücadilə surəsi, 11)

Məscidləri təmiz saxlamaq, təmir etmək

Biz evi (Kəbəni) insanlar üçün ziyarət və əmin-amanlıq yeri etdik. "İbrahimin dayandığı yeri namazgah edin!" Biz İbrahimə və İsmailə: "Evimi təvaf edənlər, etikafa girənlər, rüku və səcdə edənlər üçün təmizləyin!" – dedik.

(Bəqərə surəsi, 125)

Allahın məscidlərini yalnız Allaha və Axirət gününə iman gətirən, namaz qılan, zəkat verən və Allahdan başqa heç kəsdən qorxmayanlar abadlaşdırar. Ola bilsin ki, onlar doğru yolla gedənlərdən olsunlar.

(Tövbə surəsi, 18)

Məscidlərə gələrkən zinətlər taxmaq

Ey Adəm oğulları! Məscidlərə gedərkən gözəl geyimlərinizi geyin. Yeyin-için, lakin israf etməyin. Şübhəsiz ki, Allah israf edənləri sevmir.

(Əraf surəsi, 31)

İçki içməmək, qumar oynamamaq

Səndən sərxoşedici içki və qumar barəsində soruşurlar. De: "İkisində də həm böyük günah, həm də insanlar üçün mənfəət vardır. Amma günahları mənfəətlərindən daha böyükdür". Səndən Allah yolunda nə xərcləyəcəklərini soruşurlar. De: "Ehtiyacınızdan artıq qalanını!" Allah ayələri sizə belə bəyan edir ki, bəlkə fikirləşəsiniz –

(Bəqərə surəsi, 219)

Ey iman gətirənlər! Şübhəsiz ki, sərxoşedici içki də, qumar da, tapınmaq məqsədilə dik qoyulmuş daşlar da, fal oxları da şeytan əməlindən olan murdar şeylərdir. Bunlardan çəkinin ki, bəlkə nicat tapasınız.

(Maidə surəsi, 90)

Həqiqətən, şeytan sərxoşedici içki və qumar vasitəsilə sizin aranıza ədavət və kin salmaq, sizi Allahı yad etməkdən və namazdan ayırmaq istəyər. Siz buna son qoyacaqsınızmı?

(Maidə surəsi, 91)

Təmizlənənlərdən başqası Qurana toxuna bilməz

Həqiqətən, bu, ehtirama layiq Qurandır,

(Vaqiə surəsi, 77)

qorunub saxlanılan Yazıdadır (Lövhi-məhfuzdadır).

(Vaqiə surəsi, 78)

Ona yalnız pak olanlar toxunur.

(Vaqiə surəsi, 79)

O, aləmlərin Rəbbi tərəfindən nazil edilmişdir.

(Vaqiə surəsi, 80)

Miras hüququ

Səndən fitva istəyirlər. De: "Valideyni və övladı olmayan kəsin mirası barəsində fitvanı sizə Allah verir". Əgər övladı olmayan şəxs öldükdə onun bacısı varsa, qoyub getdiyinin yarısı bacıya çatır. Əgər onun övladı yoxdursa, qardaşı ona varis olur. Əgər varislər iki bacıdırsa, ölən qardaşın qoyub getdiyinin üçdə iki hissəsi onlara çatır. Əgər varislər qardaş və bacılardırsa, kişiyə iki qadının payı qədər pay düşür. Allah bunu sizə bəyan edir ki, doğru yoldan çıxmayasınız. Allah hər şeyi bilir.

(Nisa surəsi, 176)

Əgər vəfat etmiş zövcələrinizin övladı yoxdursa, onların vəsiyyəti yerinə yetirildikdən və ya borcu ödənildikdən sonra, qoyub getdikləri malın yarısı sizindir. Yox əgər onların övladı varsa, onda qoyub getdiklərinin dörddə bir hissəsi sizindir. Əgər sizin övladınız yoxdursa, vəsiyyətiniz yerinə yetirildikdən və ya borcunuz ödənildikdən sonra, qoyub getdiyiniz malın dörddə bir hissəsi zövcələrinizə çatır. Yox əgər övladınız varsa, onda qoyub getdiyiniz malın səkkizdə bir hissəsi onlara çatır. Əgər vəfat etmiş kişinin və ya qadının valideyni və övladı yoxdursa, eyni anadan bir qardaşı və ya bir bacısı varsa, onda onların hər birinə mirasın altıda bir hissəsi düşür. Əgər onlar sayca bundan artıq olsalar, mirasın üçdə birinə şərikdirlər. Bu bölgü, vərəsələrə zərər yetirməmək şərti ilə vəsiyyətin yerinə yetirilməsindən və ya borcun ödənilməsindən sonra aparılır. Bunlar Allah tərəfindən bir tövsiyədir. Allah Biləndir, Həlimdir.

(Nisa surəsi, 12)

Zorla varis olmamaq

Ey iman gətirənlər! Qadınlara zorla varis çıxmaq sizə halal deyildir. Qadınlar açıq-aşkar yaramaz bir iş görməyincə, onlara verdiklərinizin bir hissəsini geri almaq üçün onları sıxışdırmayın. Onlarla xoş rəftar edin. Əgər onlar xoşunuza gəlmirsə, ola bilsin ki, xoşlamadığınız bir şeydə Allah sizə çoxlu xeyir nəsib etmiş olsun.

(Nisa surəsi, 19)

Vəsiyyət hüququ

Sizlərdən birinə ölüm gəldiyi zaman qoyub gedəcəyi var-dövlətdən müvafiq qaydada valideynlərə və yaxın qohumlara vəsiyyət etməsi ona vacib edilmişdir. Bu, müttəqilər üçün bir borcdur.

(Bəqərə surəsi, 180)

Kim ölənin vəsiyyətini eşitdikdən sonra onu dəyişdirsə, günahı ancaq onu dəyişdirənlərin üzərinə düşər. Şübhəsiz ki, Allah Eşidəndir, Biləndir!

(Bəqərə surəsi, 181)

Kim də vəsiyyət edənin haqsızlıq etməsindən və ya günah işlətməsindən ehtiyat edib tərəflərin arasını düzəldərsə, ona heç bir günah olmaz. Şübhəsiz ki, Allah Bağışlayandır, Rəhmlidir!

(Bəqərə surəsi, 182)

Allah övladlarınız haqqında sizə belə tövsiyə edir; kişiyə, iki qadının payı qədər pay düşür. Əgər övladların hamısı ikidən artıq sayda qadındırlarsa, vəfat edənin qoyub getdiyi malın üçdə iki hissəsi onlara çatır. Əgər təkcə bir qadındırsa, mirasın yarısı ona çatır. Əgər ölənin övladı varsa, onun valideynlərinin hər birinə qoyub getdiyi malının altıda bir hissəsi çatır. Əgər onun övladı yoxdursa, varisi də ancaq valideynləridirsə, onun anasına mirasının üçdə bir hissəsi düşür. Əgər ölənin qardaşları (və ya bacıları) varsa, onun anasına mirasının altıda bir hissəsi düşür. Bu bölgü ölənin vəsiyyəti yerinə yetirildikdən və ya borcu ödənildikdən sonra aparılır. Valideynlərinizdən və övladlarınızdan hansının fayda baxımından sizə daha yaxın olduğunu siz bilmirsiniz. Bunlar Allah tərəfindən buyurulmuş fərz əməllərdir. Həqiqətən, Allah Biləndir, Müdrikdir.

(Nisa surəsi, 11)

Əgər vəfat etmiş zövcələrinizin övladı yoxdursa, onların vəsiyyəti yerinə yetirildikdən və ya borcu ödənildikdən sonra, qoyub getdikləri malın yarısı sizindir. Yox əgər onların övladı varsa, onda qoyub getdiklərinin dörddə bir hissəsi sizindir. Əgər sizin övladınız yoxdursa, vəsiyyətiniz yerinə yetirildikdən və ya borcunuz ödənildikdən sonra, qoyub getdiyiniz malın dörddə bir hissəsi zövcələrinizə çatır. Yox əgər övladınız varsa, onda qoyub getdiyiniz malın səkkizdə bir hissəsi onlara çatır. Əgər vəfat etmiş kişinin və ya qadının valideyni və övladı yoxdursa, eyni anadan bir qardaşı və ya bir bacısı varsa, onda onların hər birinə mirasın altıda bir hissəsi düşür. Əgər onlar sayca bundan artıq olsalar, mirasın üçdə birinə şərikdirlər. Bu bölgü, vərəsələrə zərər yetirməmək şərti ilə vəsiyyətin yerinə yetirilməsindən və ya borcun ödənilməsindən sonra aparılır. Bunlar Allah tərəfindən bir tövsiyədir. Allah Biləndir, Həlimdir.

(Nisa surəsi, 12)

Vəsiyyətdə şahid olunması

Ey iman gətirənlər! Sizlərdən bir kimsəyə ölüm gəldiyi zaman, vəsiyyət vaxtı içinizdən iki ədalətli kişi, bir yerə səfərə çıxdığınız zaman başınıza ölüm müsibəti gəldikdə isə özünüzdən olmayan iki kişi aranızda şahidlik etsin. Əgər özünüzdən olmayan şahidlərə şübhə etsəniz, namazdan sonra hər ikisini saxlayın və qoy onlar: "Biz bu andımızı lap yaxın qohumlara belə heç bir qiymətə satmarıq və Allahın şahidliyini gizlətmərik. Əks halda biz, şübhəsiz ki, günahkarlardan olarıq" – deyə and içsinlər.

(Maidə surəsi, 106)

Əgər hər ikisinin günah iş tutduqları aşkar edilsə, o zaman onların yerini haqsızlığa məruz qalanlardan ölən şəxsə daha yaxın olan iki kişi tutar və onlar: "Əlbəttə, bizim şahidliyimiz o iki nəfərin şahidliyindən daha doğrudur və biz həddi aşmadıq. Əks halda biz, şübhəsiz ki, zalımlardan olarıq" – deyə and içərlər.

(Maidə surəsi, 107)

FƏSİL 5

Quran və elm

QURAN VƏ ELM HAQQINDA...

1400 il əvvəl Allah insanlar üçün bələdçi Kitab - Qurani-Kərimi göndərib. O, bütün bəşəriyyəti onun ardınca gedərək xilas olmağa çağırdı. Ayədə də bildirildiyi kibi Quran " Halbuki bu Quran aləmlər üçün öyüd-nəsihətdən başqa bir şey deyildir." (Qələm surəsi, 52) Quranın göndərildiyi gündən Qiyamət gününə qədər bu Son İlahi Vəhyin insanlar üçün yeganə bələdçi olması əmr edilib.

Quran endirildiyi gündən bu yana hər dövrdə yaşayan hər insan qrupunun anlaya biləcəyi, asan və aydın olar dilə malikdir. Allah, Quranın bu üslubunu " Biz Quranı yada salmaq üçün asanlaşdırdıq..." (Qamər surəsi, 22) ayəsi ilə xəbər verir. Quranın müqayisəyəgəlməz üslubu və ondakı Yüksək Müdriklik onun bizim qarşımızda Yaradanın Sözü olmasının aşkar və mübahisəsiz sübutudur.

Quran onu Allahın göndərdiyini təsdiq edən xeyli möcüzəvi dəyərlərə malikdir. Bu faktlardan biri odur ki, XX əsrdə texnologiyanın köməyi ilə kəşf edilən bəzi elmi həqiqətlər haqda Quranda 1400 il bundan əvvəl xəbər verilmişdir.

Əlbəttə, Quran fizika, biologiya və s. üzrə məqalələr toplusu deyil. Ancaq alimlər onun müxtəlif ayələrində son dərəcə böyük məharətlə və dəqiq heca ilə yazılmış bəzi elmi həqiqətləri yalnız yaxın zamanlarda kəşf ediblər. Quranın nazil olunduğu dövrdə elmi üsullarla əldə edilə bilməyən bu bilgilər bizim dövrün insanlarına bir daha sübut edir ki, Quran Uca və Qüdrətli Allahın sözüdür.

Quranın elmi möcüzələrinin mahiyyətini anlamaq üçün bu İlahi Kitabın nazil olunduğu dövrün təkcə bilik səviyyəsinə nəzər salmaq gərəkdir.

Quranın göndərildiyi VII əsrdə ərəblərin elm haqda çox dolaşıq və dumanlı təsəvvürləri var idi və bu təsəvvürlər xurafatların və dildən-dilə ötürülən hər cür uydurmanın mənbəyində idi. Təbiəti və Kainatı dərk etmək üçün heç bir texnologiyaya malik olmayan ərəblər nəsildən-nəslə ötürülən rəvayətlərə inanırdılar. Məsələn, belə hesab edilirdi ki, göy dağların sayəsində yuxarıda dayanır. Bu inanca görə, Yer düz səthə malik idi və onun kənarlarında hündür qayalar dururdu. Buna uyğun olaraq hesab edilirdi ki, onlar dirək kimi göy günbəzini saxlayırlar. Ancaq bütün bu yanlış fərziyyələr Qurandan sonra yox oldular.

"Göyləri, gördüyünüz kimi, dayaqsız olaraq yüksəldən, sonra ərşi yaradıb hökmü altına alan, müəyyən vaxta qədər dolanan Günəşi və Ayı ram edən, bütün işləri yoluna qoyan, ayələri müfəssəl izah edən məhz Allahdır. Rəbbinizlə qarşılaşacağınıza, bəlkə, inanasınız!" (Rəd surəsi, 2).

Bu ayə göyü dağların saxladığına dair inamı darmadağın etdi.

Bundan əlavə, o zaman insanlara əsla məlum olmayan buna bənzər xeyli həqiqətlər xəbər verilmişdi. İnsanların fizika, astronomiya, biologiya sahəsində cüzi bilgiləri olduğu zaman göndərilən Quran özündə elmin müxtəlif sahələri üzrə əsas məlumatları toplayırdı: Kainatın yaradılmasından insanın yaradılmasına qədər, atmosferin quruluşundan Yerdə olan tarazlığa qədər.

İndi isə Quranın elmi möcüzələrinin bir hissəsini ətraflı şəkildə nəzərdən keçirək.

KAİNATIN YARADILMASI

Kainatın yaranması haqda Qurani-Kərimdə belə deyilir:

> *"O, göyləri və yeri var edəndir. Allah`ın necə övladı ola bilər ki, Onun heç bir yoldaşı yoxdur. Hər şeyi O yaratmışdır. O, hər şeyi biləndir!"*
>
> **(Ənam surəsi, 101)**

Quranın bu məlumatı müasir elmin kəşflərinə tamamilə uyğundur. Astrofizikanın gəldiyi yekun nəticə ondan ibarətdir ki, Kainat özünün bütün məkan-zaman ölçüləri ilə birgə nəhəng bir partlayış nəticəsində müəyyən bir sıfır anında yaranıb. Böyük partlayış nəzəriyyəsi (ingilis dilində "Biq Banq") güman edir ki, kainat təxminən 15 milyard il əvvəl bir nöqtədəki partlayış nəticəsində heç nədən yaranıb. Bu gün bu nəzəriyyə alimlər arasında kainatın mövcudluğunun başlanğıcı və yaranması haqda yeganə ümumi qəbul edilmiş gümandır.

Böyük partlayışa qədər maddə adlı heç nə yox idi. Maddə, cərəyan və zaman nə maddənin, nə cərəyanın, nə də zamanın var olmadığı və sırf metafizik "heç nə" kimi müəyyən edilə bilən mühitdə yaradılıb. Müasir fizikanın elan etdiyi bu böyük həqiqəti Quran bizə 1400 il əvvəl xəbər verib.

KAİNATIN GENİŞLƏNMƏSİ

Qurani-Kərim kainatın genişlənməsindən 14 əsr əvvəl - astronomiyanın hələ inkişaf etmədiyi dövrdə bu sözlərlə bəhs edir:

> *"Biz göyü qüdrətimizlə yaratdıq və Biz onu genişləndirməkdəyik".*
>
> **(Zariyat surəsi, 47)**

"Göy" sözü Quranda bir çox yerdə kainat və ya kosmos mənasında işlədilir. Burada da məhz bu mənada işlədilib. Yəni Quran kainatın genişləndiyini xəbər verir. Bu gün elm də elə məhz bu nəticəyə gəlib.

XX əsrin əvvəllərinə qədər elmdə belə bir vahid baxış hökm sürürdü ki, kainat hərəkətsiz struktura malikdir və o, əbədi surətdə mövcuddur. Yalnız müasir texnologiyanın sayəsində aparılan tədqiqat, hesablama və müşahidələr göstərdi ki, kainatın başlanğıcı olub və o, daim genişlənir.

Rus fiziki Aleksandr Fridman və Belçika kosmoloqu Corc Lemetr XX əsrin əvvəlində kainatın daim hərəkətdə olduğunu və genişləndiyini nəzəri cəhətdən hesabladılar.

Bu kəşf müşahidələr yolu ilə 1929-cu ildə təsdiqləndi. Amerika astronomu Edvin Habbl göyü böyük teleskopla öyrənərək belə nəticəyə gəldi ki, ulduzlar və qalaktikalar daim bir-birlərindən uzaqlaşırlar. Hər şeyin bir-birindən uzaqlaşdığı kainatı isə daim genişlənən kainat kimi anlamaq lazımdır. Bu prosesin şübhəsizliyi sonrakı illərin müşahidələri ilə dəqiq sübut edilmişdir.

O uzaq zamanlarda bu həqiqət insanlara hələ tam məlum deyildi və Quranda xəbər verilmişdi, çünki Quran Allahın - Yaradanın və kainatın Hakiminin sözüdür.

GÖYLƏRLƏ YERİN BİR-BİRİNDƏN AYRILMASI

Quranda göylərin yaradılışı haqqında başqa bir ayədə belə bildirilir:

> *Məgər kafir olanlar göylə yer bitişik ikən Bizim onları ayırdığımızı, hər bir canlını sudan yaratdığımızı bilmirlərmi?! Yenə də iman gətirməzlər?*
>
> **(Ənbiya surəsi, 30)**

Ayədə "bir-biri ilə bitişik" şəklində tərcümə edilmiş "ratq" sözü ərəbcə lüğətlərdə "bir-biri ilə iç-içə, ayrılmaz, qaynaşmış" mənalarını verir. Yəni bir bütün halında olan iki maddəni tərif etmək üçün bu sözdən istifadə edilir. Ayədəki "ayırdıq" sözü isə ərəbcə "fatq" felidir ki, bu fel bitişik vəziyyətdə olan bir cismi yarıb, parçalayıb çölə çıxması deməkdir. Məsələn, toxumun cücərərək torpaqdan çıxması ərəb dilində bu fellə ifadə edilir.

İndi ayəyə yenidən baxaq. Ayədə göylərlə yerin bir-biri ilə bitişik, yəni "ratq" halında olduğundan bəhs edilir. Ardınca bu ikisi "fatq" feli ilə ayrılırlar. Yəni biri digərini yararaq çölə çıxır. Həqiqətən də Big Bangin ilk anını düşündükdə, kainatın bütün maddəsinin bir nöqtədə toplandığını görürük. Başqa sözlə, hər şey, hətta hələ yaradılmamış göylər və yer də bu nöqtənin içində, bir-biri ilə iç-içə, ayrılmaz haldadırlar. Daha sonra bu nöqtə çox güclü partlayışla yarılıb ayrılır.



Qara dəliklər — Quranda işarə edilən növbəti

ORBİTLƏR VƏ DÖVR EDƏN KAİNAT

Kainatdakı böyük müvazinətin ən mühüm səbəblərindən biri, şübhəsiz, göy cisimlərinin müəyyən orbitlərdə hərəkət etməsidir. Ulduzlar, planetlər və peyklər həm öz oxları ətrafında, həm də aid olduqları sistemlə birlikdə fırlanır. Kainat eynilə bir fabrikin dişli çarxları kimi incə nizam içində işləyir.

Kainatın gördüyümüz qismində 100 milyarddan çox qalaktika mövcuddur və kiçik qalaktikalarda təxminən bir milyard, böyük qalaktikalarda isə

trilyondan çox ulduz mövcuddur. 17 Bu ulduzların çoxunun planetləri, bu planetlərin də peykləri var. Bütün bu göy cisimlərinin çox incə hesablara malik orbitləri var və milyon illərlə hər biri öz orbitində digərləri ilə qüsursuz uyğunluq və nizam içində hərəkət edir. Bunlardan əlavə, bir çox quyruqlu ulduz da onlar üçün müəyyən edilmiş orbitdə üzür.

Kainatdakı orbitlər ancaq bəzi göy cisimlərinə aid deyil. Günəş sistemi, hətta digər qalaktikalar başqa mərkəzlər ətrafında da hərəkət edir. Yer və onunla birlikdə Günəş sistemi hər il əvvəlki yerindən 500 milyon km uzaqlaşır. Göy cisimlərinin orbitlərindəki ən azacıq əyrilik sistemi alt-üst edəcək qədər təhlükəlidir. Məsələn, Yerin orbitində 3 mm artıq və ya əksik əyilmənin hansı nəticələr verəcəyi bir mənbədə belə tərif edilmişdir:

Yer Günəşin ətrafında dövr edərkən elə orbit çəkir ki, hər 18 mildən bir 2.8 mm içəriyə əyilir. Yerin bu orbiti zərrə qədər dəyişmir, çünki orbitdən 3 mm-lik əyilmə belə böyük fəlakətlərə səbəb olardı: əyilmə 2.8 mm əvəzinə 2.5 mm olsaydı, orbit çox geniş olar və donardıq. Əyilmə 3.1 mm olsaydı, hamımız yanaraq ölərdik.

Göy cisimlərinin digər xüsusiyyəti də orbitlərindən əlavə, həm də öz oxları ətrafında dövr etməsidir. Quranda "And olsun qayıdan göyə!" (Tariq surəsi, 11) ayəsi isə məhz bu həqiqətə işarə edir. Əlbəttə, Quranın nazil edildiyi dövrdə bəşəriyyət dövrümüzdəki kimi kosmosu milyon kilometrlərlə uzaq məsafələri müşahidə edən teleskoplara, qabaqcıl müşahidə texnologiyalarına, müasir fizika və astronomiya biliyinə malik deyildi. Ona görə, kosmosda "yolları olan göyə and olsun ki" (Zəriyət surəsi, 7) ayəsində bildirildiyi kimi orbitlər olduğunu o dövrdə elmi cəhətdən aşkar etmək qeyri-mümkün idi. Ancaq o dövrdə nazil edilmiş Qurani-kərimdə bu həqiqət bizə açıq şəkildə xəbər verilmişdir, çünki Quran Allahın sözüdür.

GÜNƏŞİN HƏRƏKƏT İSTİQAMƏTİ

Quranda Günəş və Aydan bəhs edilərkən hər birinin öz orbiti olduğu vurğulanır:

> *Gecəni, gündüzü, günəşi və ayı da yaradan Odur. Onların hər biri öz orbitində üzür.*
>
> **(Ənbiya surəsi, 33)**

Yuxarıdakı ayədə işlədilən "üzmək" sözü ərəbcə "səbaha"dır və Günəşin kosmosdakı hərəkətini izah etmək üçün istifadə edilmişdir. Bu söz Günəşin kosmosda hərəkət edərkən nəzarətsiz olmadığını, öz oxu ətrafında dövr etdiyini və müəyyən marşrutunun olduğunu ifadə edir. Günəşin sabit olmadığı, öz orbitində hərəkət etdiyi başqa bir ayədə belə bildirilir:

> *Günəş özü üçün müəyyən olunmuş yerdə axıb gedər. Bu, yenilməz qüvvət sahibi olan, bilən Allahın təqdiridir.*
>
> **(Yasin surəsi, 38)**

Quranda bildirilən bu həqiqətlər ancaq dövrümüzdəki astronomik müşahidələrlə aşkar edilmişdir. Astronomların hesablamalarına görə, Günəş "Solar Apex" adlanan orbit boyu Veqa ulduzuna doğru saatda 720.000 km sürətlə hərəkət edir. Bu hesablama Günəşin gündə 17 milyon 280 min km yol qət etdiyini göstərir. Günəşlə birlikdə onun cazibə qüvvəsinə tabe olan bütün planetlər və onların peykləri də eyni məsafəni qət edirlər.

YERİN CAZİBƏ QÜVVƏSİ VƏ ORBİT HƏRƏKƏTLƏRİ

> *And içirəm yanıb sönən ulduzlara; Seyr edib gizlənən səyyarələrə;*
>
> **(Təkvir surəsi, 15-16)**

"Təkvir" surəsinin 15-ci ayəsində işlədilən "xunnəs" sözünün büzülmək, geriləmək, geri qayıtmaq kimi mənaları var. 16-cı ayədə "seyr edib gizlənən" kimi tərcümə edilmiş söz isə ərəbcə "kunnəs"dir. "Kənis" sözünün cəm halı olan "kunnəs" ifadəsi müəyyən marşrut, yuvaya girmə, hərəkət edən cismin yuvası, yuvasına girib gizlənənlər mənalarını verir. 16-cı ayədəki "seyr edən" sözü isə cərəyan kökündən törəyən və seyr edib gedən mənasını verən "cariyə" sözünün cəm halı olan "cəvar"dır. Bu sözlərin mənalarını nəzərə aldıqda, planetlərin cazibə qüvvələri və orbitlərindəki hərəkətlərə işarə edildiyini söyləmək olar.

Yuxarıdakı ayələrdə işlədilmiş bu sözlər cazibə qüvvələrinin səbəb olduğu orbit hərəkətlərini tam tərif edir. Bunlardan "xunnəs" sözü ilə planetlərin istər öz nüvələrinə doğru, istərsə də Günəş sisteminin mərkəzi olan Günəşə doğru cəzb edilməsinə diqqət çəkilir (ən doğrusunu Allah bilir). Cazibə qüvvəsi kainatdakı yeganə qüvvədir, ancaq bu cazibə qüvvəsini XVII-XVIII əsrlərdə yaşamış İsaak Nyuton (Isaac Newton) riyazi formullarla sübut etmişdir. Növbəti ayədə işlədilmiş "əl-cəvari" sözü də bu cazibə qüvvəsinə müqavimət göstərən mərkəzdənqaçma qüvvəsindən qaynaqlanan orbit hərəkətlərinə işarə edir. Şübhəsiz, "seyr edən" mənasını verən "əl-cəvari" sözünün "xunnəs" (mərkəzə doğru çəkilmə, büzülmə) və "kunnəs" (marşrut, yuvaya girmə, hərəkət edən cismin yuvası) sözləri ilə birlikdə işlədilməsi 1400 il əvvəl aşkarlanması qeyri-mümkün olan elmi fakta diqqət çəkir (ən doğrusunu Allah bilir). Bundan

əlavə, Quranda and içilən bu ayələr məsələnin əhəmiyyətinə diqqət çəkən başqa bir işarədir.

YERİN YUMRU FORMASI

> *O, göyləri və yeri haqq olaraq yaratmışdır. O, gecəni gündüzə bürüyür, gündüzü də gecəyə bürüyür…*
>
> **(Zumər surəsi, 5)**

Quranın kainatı tanıdan ayələrində işlədilmiş ifadələr çox diqqətçəkəndir. Yuxarıdakı ayədə "bürüyür" kimi tərcümə edilmiş ərəbcə söz "yukəvviru"dur. Bu sözün Azərbaycan dilindəki qarşılığı yuvarlaq bir şeyi başqa bir cisim ilə bürüməkdir (məsələn, ərəbcə lüğətlərdə başa sarıq sarıma kimi yuvarlaq cisimlərə aid olan hərəkətlər də bu feillə ifadə olunur). Ayədə gecənin və gündüzün bir-birinin üstünü bürüməsi (təkvir etməsi) haqqında verilən məlumat, eyni zamanda, Yerin forması haqqında da dəqiq fakta işarə edir. Yerin kürəvi formada olduğunu bu ayədəki fel ideal şəkildə ifadə edir. Yəni XVII əsrdə nazil edilmiş Quranda Yerin kürəvi formasına işarə edilmişdir.

Unutmaq olmaz ki, o dövrdə Yer haqqında fərqli fikirlər mövcud idi. Yerin müstəvi formada olduğunu düşünür və bütün elmi hesablama və açıqlamalar da buna əsasən edilirdi. Ancaq Quran Allah`ın sözü olduğu üçün kainatı tərif edərkən ən ideal sözlərdən istifadə olunmuşdur. Quran ayələrində bizə hələ yaxın keçmişdə öyrəndiyimiz bu məlumatlar 1400 il əvvəldən xəbər verilir.

YERİN DÖVR ETMƏ İSTİQAMƏTİ

> *Sən dağlara baxıb onları donmuş zənn edərsən, halbuki, onlar bulud keçdiyi kimi keçib gedərlər. (Bu,) hər şeyi kamil şəkildə edən Allahın işidir. Şübhəsiz ki, O, etdiklərinizdən xəbərdardır.*
>
> **(Nəml surəsi, 88)**

"Nəml" surəsindəki ayədə Yerin təkcə fırlanması deyil, fırlanma istiqaməti də vurğulanır. 3500-4000 metr hündürlükdə olan bulud topaları qərbdən şərqə hərəkət edir. Hava proqnozu üçün qərbdəki vəziyyətə baxılmasının səbəbi də budur.

Bulud topalarının qərbdən şərqə doğru hərəkətinin əsas səbəbi Yerin fırlanma istiqamətidir. Dövrümüzdə məlum olduğu kimi, Yer qərbdən şərqə doğru fırlanır. Elmin yaxın keçmişdə aşkar etdiyi bu elmi həqiqət Quranda əsrlər əvvəl xəbər verilmişdi ki, həmin dövrdə Yerin yastı olduğu, öküzün başı üstündə sabit dayandığı düşünülürdü.

YERİN GEOİD FORMASI

> *Bundan sonra da yeri döşədi.*
>
> **(Naziat surəsi, 30)**

Yuxarıdakı ayədə "döşədi" kimi tərcümə edilmiş "dəha" sözü yaymaq mənasını verən "dəhv" kökündəndir. "Dəhv" sözü döşəmək, düzəltmək mənalarını versə də, daşıdığı məna baxımından bəsit döşəmək feli deyil. Bu söz yuvarlaq formada düzəltmək, döşəmək mənalarını ifadə etmək üçün işlədilir. "Dəhv" sözündən törəmiş digər sözlər də yuvarlaqlıq

mənasını daşıyır. Məsələn, uşaqların topu yerdəki çuxura salması, daş atıb çuxura salma yarışları, qozla oynanan uşaq oyunları "dəhv" sözü ilə ifadə edilir. Dəvəquşunun yuva qurması, yatacağı yerdəki daşları təmizləməsi, yumurtladığı yer və yumurtası da bu kökdən törəmiş sözlərlə ifadə olunur.

Belə ki, Yerin forması da yumurtanı xatırladır. Yerin qütblərdən basıq kürəvi forması geoid adlanır. Bu baxımdan ayədə "dəha" sözünün işlədilməsi Allahın Yer haqqında verdiyi mühüm məlumata işarə edir. İnsanların əsrlər əvvəl Yerin formasının düz olduğunu düşünməsi və həqiqi formasının ancaq texnoloji imkanlar nəticəsində müəyyən edilməsi Quranın Allahın vəhyi olduğunu göstərir.

YARADILIŞDAKI CÜTLƏR

> *Yerin yetişdirdiklərindən, onların özlərindən və bilmədiklərindən cütlər yaradan Allah pakdır, müqəddəsdir!*
>
> **(Yasin surəsi, 36)**

Erkək-dişi "cüt" mənasının qarşılığı olsa da, ayədə bəhs edilən "bilmədiklərindən" ifadəsi daha dərin məna daşıyır. Belə ki, dövrümüzdə ayənin işarə etdiyi mənalardan biri artıq bizə məlumdur. Maddənin cütlər şəklində yaradıldığını aşkar edən ingilis elm adamı Pol Direk (Paul Dirac) 1933-cü ildə fizika sahəsində Nobel mükafatına layiq görülmüşdür. "Parite" adlandırılan bu kəşf maddənin antimaddə adlanan cütü olduğunu ortaya qoymuşdur. Antimaddə maddənin zidd xüsusiyyətlərini daşıyır. Bu həqiqət bir elmi mənbədə belə ifadə edilir:

... Hər zərrəciyin zidd yüklü antizərrəciyi var. Qeyri-sabitlik əlaqəsi bizə bu cütlərin hər yerdə və hər zaman eyni anda əmələ gəldiyini və məhv

olduğunu göstərir.51

Cüt yaradılmış şeylərə başqa nümunə də bitkilərdir. Botaniklər bitkilərdə cinsiyyət fərqi olduğunu 100 il əvvəl müəyyən ediblər. 52 Halbuki, bitkilərin cüt yaradıldığı Quranda 1400 il əvvəl aşağıdakı ayələrlə açıq şəkildə bildirilmişdir:

> *Allah gördüyünüz göyləri dirəksiz yaratmış, sizi yırğalamasın deyə, yerdə möhkəm durmuş dağlar bərqərar etmiş və ora cürbəcür heyvanlar səpələmişdir. Biz göydən yağış yağdırdıq və yerdə növbənöv gözəl (bitkilər) yetişdirdik.*
>
> **(Loğman surəsi, 10)**

> *O (Allah) ki, yer üzünü sizin üçün döşəmiş, orada sizin üçün yollar salmış, göydən yağmur yağdırmışdır. Biz o yağmurla növbənöv bitkilərdən cütlər yetişdirmişik.*
>
> **(Taha surəsi, 53)**

Eyni şəkildə, meyvələrin də dişicik və erkəkciyi var. Quranda bu məlumat "Rəd" surəsinin 3-cü ayəsində ifadə edilir:

> *Yeri döşəyən, orada möhkəm dağlar, çaylar yaradan və bütün meyvələrdən cüt-cüt yetişdirən də Odur. O, gündüzü gecə ilə örtüb bürüyür. Həqiqətən də, bunda dərin düşünən adamlar üçün dəlillər vardır.*
>
> **(Rad surəsi, 3)**

Ayədə "cüt-cüt" tərcümə edilmiş "zəvceyni" sözü ərəb dilində "tay, həyat yoldaşı" mənasını verən "zəvc" kökündən törəyib. Məlum olduğu kimi, yetişmiş bitkilərin son məhsulu meyvədir. Meyvədən əvvəlki mərhələ isə çiçəkdir. Çiçəklərin də erkəkcik və dişicik kimi orqanları var. Çiçəyə tozcuq daşınaraq döllənmə baş verdikdə, yəni erkəkcik və dişicik birləşdikdə meyvə əmələ gəlir. Zaman ərzində meyvə yetişir və toxum tökür. Meyvələrin müxtəlifcinsli xüsusiyyətləri olduğuna dair bu həqiqət Quranda işarə edilmiş başqa bir elmi faktdır.

DƏNİZLƏRİN BİR-BİRİNƏ QARIŞMAMASI

Dənizlərin alimlər tərəfindən yaxın keçmişdə kəşf edilən bir xüsusiyyəti haqda Quranda belə deyilir:

> *"Suları şirin və acı olan) iri dənizi O qovuşdurdu. Amma onların arasında maneə vardır, bir-birinə qatışmazlar"*
>
> **(Rəhman surəsi, 19-20)**

Dənizlərin bir-biri ilə maneəsiz şəkildə birləşdikləri halda, onların sularının bir-birinə heç bir halda qarışmaması barədə Quranda qeyd olunan xüsusiyyətini okeanoloqlar bu yaxınlarda aşkar ediblər. Aşkar edilib ki, iki qonşu dənizin suları "səthi gərilmə" adlandırılan fiziki güc sayəsində bir-birinə qarışmırlar. Suyun sıxlıq fərqlərindən yaranan bu qüvvə onların arasında dəqiq bir şəkildə görünməz divar ucaldaraq iki dənizin suyunun bir-birinə qarışmasına mane olur.

Təbii ki, olduqca maraqlıdır ki, insanlar nə səthi gərilmə, nə okeanologiya, nə də fizika haqda heç nə bilmədikləri dövrdə Quran bu həqiqəti bildirmişdi.



Ayın orbiti — hesablanmış hərəkət

ZAMANIN NİSBİLİYİ

Zaman dediyimiz hiss, əslində bir anı bir başqa anla müqayisə etmə üsuludur. Bunu bir misalla açıqlaya bilərik. Bir cismə vuranda, ondan müəyyən səs çıxar. Eyni cismə beş dəqiqə sonra vuranda, yenə başqa səs çıxar. İnsan, birinci səs ilə ikinci səs arasında müddət olduğunu düşünər və bu müddətə "zaman" deyər. Halbuki ikinci səsi eşitdiyi anda, birinci səs yalnız zehnindəki xəyaldan ibarətdir. Yalnız yaddaşında var olan məlumatdır. İnsan, yaddaşında olanı, yaşadığı anla müqayisə edərək zaman hissini əldə edir. Əgər bu müqayisə olmasa, zaman hissi də olmayacaq. Eyni şəkildə kimsə bir otağa qapısından girib sonra da otağın ortasındakı kresloya oturan başqa insanı görəndə, müqayisə edər. Gördüyü insan kresloya oturduğu anda, onun qapını açması, otağın ortasına doğru getməsi ilə əlaqədar təsvirlər, yalnız beyində yer alan məlumatdır. Zaman hissi, kresloya oturmaqda olan insan ilə bu məlumatlar arasında müqayisə edilərək ortaya çıxar.

Qısacası zaman, beyində saxlanan bəzi xəyallar arasında müqayisə aparılarkən var olmaqdadır. Əgər bir insanın yaddaşı olmasa, beyni bu cür şərhlər etməz və dolayısı ilə zaman da meydana gəlməz. Bir insanın "mən otuz yaşımdayam" deməsinin səbəbi, beynində otuz ilə aid bəzi məlumatların yığılmış olmasıdır. Əgər yaddaşı olmasa, ardında belə bir zaman hissəsi olduğunu düşünməyəcək, yalnız yaşadığı tək bir "an" ilə ünsiyyətdə olacaq.

Bu mövzuda fikir bildirən filosof və elm adamlarından nümunələr verərək mövzunu daha yaxşı izah etməyə çalışaq. Nobel mükafatlı məşhur genetika professoru və filosof François Jacob "Mümkünlərin oyunu" adlı kitabında zamanın geriyə axını ilə əlaqədar bunları izah edər:

Tərsindən göstərilən filmlər zamanın tərsinə doğru axacağı dünyanın nəyə bənzəyəcəyini tasarlamamıza imkan verir. Südün fincandakı qəhvədən ayrılacağı və süd qabına çatmaq üçün havaya atılacağı dünya; işıq dəstələrinin bir qaynaqdan fışqıracaq yerdə bir tələnin (çekim mərkəzinin) içində toplanmaq üçün divarlardan çıxacağı bir dünya; saysız damcıların heyrət verici şəkildə suyun xaricinə doğru atılan daşın bir insanın ovcuna gəlməsi üçün bir əyri boyunca tullanacağı dünya. Amma zamanın tərsinə çevrildiyi belə dünyada, beynimizin prosesləri və yaddaşımızın meydana gəlməsi da eyni şəkildə tərsinə çevrilmiş olacaq. Keçmiş və gələcək üçün də eyni şey olacaq və dünya tamamilə bizə göründüyü kimi görünəcək.

Beynimiz müəyyən sıralama üsuluna alışdığı üçün hal-hazırda dünya yuxarıda izah edildiyi kimi işləmir və zamanın həmişə irəli axdığını düşünürük. Halbuki bu, beynimizin içində verilən qərardır və dolayısilə tamamilə nisbidir. Gerçəkdə zamanın necə axdığını, ya da axıb axmadığını əsla bilmirik. Bu da zamanın mütləq həqiqət olmadığını, yalnız bir hiss forması olduğunu göstərir.

Zamanın hiss olduğu, 20-ci əsrin ən böyük fiziki sayılan Eynşteynin ortaya qoyduğu Ümumi Nisbilik Nəzəriyyəsi ilə də təsdiqlənmişdir. Lincoln Barnett, "Kainat və Eynşteyn" adlı kitabında bu mövzuda bunları yazır:

Bütün kosmosla birlikdə Eynşteyn sonsuz keçmişdən sonsuz gələcəyə axan çaşmaz və dəyişməz universal zaman anlayışını da bir kənara qoydu. Nisbilik nəzəriyyəsini əhatə edən anlaşılmazlığın böyük hissəsi

insanların zaman duyğusunun da rəng duyğusu kimi bir hiss forması olduğunu qəbul etmək istəməyişindən doğulur... Necə ki, kosmos maddi varlıqların mümkün sırası isə, zaman da hadisələrin mümkün sırasıdır. Zamanın subyektivliyini ən yaxşı Eynşteynin sözləri açıqlayır: "Fərdin həyatı bizə hadisələr silsiləsi içində təşkil edilmiş görünür. Bu silsilədən xatırladığımız hadisələr “daha əvvəl” və “daha sonra” ölçüsünə görə sıralanmış kimidir. Bu səbəblə fərd üçün bir mən-zamanı, ya da subyektiv zaman vardır. Bu zaman öz içində ölçülə bilməz. Hadisələrlə saylar arasında elə bir əlaqə qura bilərəm ki, böyük bir sayı əvvəlki hadisə deyil də, sonrakı hadisə ilə əlaqədar olar.

Eynşteyn, Barnettin ifadələri, "kosmos və zamanın da hissiyyat formaları olduğunu, rəng, forma və böyüklük anlayışları kimi bunların da şüurdan ayrıla bilməyəcəyini göstərmiş"dir. Ümumi Nisbilik nəzəriyyəsinə görə "zamanın da, onu ölçdüyümüz hadisələr silsiləsindən ayrı, müstəqil varlığı yoxdur."

Zaman bir hissdən ibarət olduğuna görə də, tamamilə qəbul edənə bağlı, yəni nisbi anlayışdır.

Zamanın axış sürəti, onu ölçərkən istifadə etdiyimiz qaynaqlara görə dəyişir. Çünki insanın bədənində zamanın axış sürətini mütləq bir düzgünlüklə göstərəcək təbii saat yoxdur. Lincoln Barnettin ifadə etdiyi kimi "rəngi ayırd edəcək bir göz yoxsa, rəng deyə bir şey olmayacağı kimi, zamanı göstərəcək bir hadisə olmadıqca bir an, bir saat ya da bir gün heç bir şey deyil."

Zamanın nisbiliyi, yuxuda çox açıq şəkildə yaşanar. Yuxuda gördüklərimizi saatlar sürmüş kimi hiss etsək də, həqiqətdə hər şey bir neçə dəqiqə hətta bir neçə saniyə davam etmişdir.

Zamanın nisbiliyi, elmi üsulla də ortaya qoyulmuş konkret həqiqətdir.

Quranda keçən bir çox ayə zamanın mütləq olmadığını, nisbi olduğunu vurğulayır. Quranda 14 əsr əvvəl vurğulanan bu həqiqət, ancaq 20-ci əsrdə elm tərəfindən isbat edilə bilmişdir. Şübhəsiz bu da, Quranın, zamanı yaradan və zamandan münəzzəh olan Allahın endirilməsinin qəti dəlildir. Mövzu ilə əlaqədar bəzi ayələr belədir:

> *Onlar səndən əzabın tez gəlməsini istəyirlər. Allah Öz vədinə əsla xilaf çıxmaz. Rəbbinin yanında olan bir gün sizin saydığınızın min ili kimidir!*
>
> **(Həcc surəsi, 47)**

> *Mələklər və Ruh (Cəbrail) Ona doğru sayı əlli min ilə bərabər bir gün ərzində qalxırlar.*
>
> **(Məaric surəsi, 4)**

> *O, göydən yerə qədər olan bütün işləri idarə edir. Sonra da bu işlər sizin saydığınız illərdən min ilə bərabər olan bir gündə Ona doğru yüksəlir.*
>
> **(Səcdə surəsi, 5)**

Yuxarıdakı ayələrdən açıq şəkildə, bizim yaşadığımız zaman anlayışının fərqli ölçülərdə, fərqli qəbul edildiyi aydın olmaqdadır. Buna görə, bizim üçün çox uzun bir zaman hissəsi olaraq qəbul edilən müddət, Allah qatında bir an kimidir. Başqa bir ifadə ilə, ömrümüz boyunca yaşadıqlarımızın və yaşayacaqlarımızın hamısını Allah bilir. Çünki, Allah bizim bağlı olduğumuz zaman anlayışına bağlı deyil, kainatı və bütün canlıları yaratdığı kimi zamanı da O yaratmışdır.

QARA DƏLİKLƏR

XX əsrdə kainatdakı göy cisimləri ilə bağlı bir çox yeni kəşflər edilmişdir. Dövrümüzdə hələ yeni aşkar edilmiş bu cisimlərdən biri də qara dəliklərdir. Qara dəliklər enerjisi tükənən ulduzun öz içinə çökməsi və nəhayət yerində sıx, sıfır həcmə malik cazibə sahəsinin əmələ gəlməsi ilə formalaşır. Qara dəliyin səthindəki cazibə qüvvəsi çox güclü olduğu və içindən işıq keçmədiyi üçün ən böyük teleskoplarla da görmək mümkün deyil. Ancaq içinə çökmüş ulduzu ətrafına olan təsiri ilə tanımaq olur. Allah "Vaqiə" surəsində ulduzların yerlərinə and içərək bu mövzuya belə diqqət çəkir:

> *Ulduzların mənzillərinə and olsun ki, kaş bunun nə qədər böyük bir and olduğunu biləydiniz.*
>
> **(Vaqiə surəsi, 75-76)**

"Qara dəlik" anlayışı ilk dəfə 1767-ci ildə ingilis elm adamı Con Miçel (John Michell) tərəfindən irəli sürülmüş və "qara dəlik" ifadəsi ilk dəfə amerikalı fizik Con Arçibald Uiler (John Archibald Wheeler) tərəfindən 1969-cu ildə işlədilmişdir. Əvvəllər bütün ulduzları gördüyümüzü düşünürdük, lakin sonrakı illərdə kosmosda işığını görə bilmədiyimiz ulduzların da olduğu məlum olmuşdur. Çünki enerjisi tükənən bu ulduzların işığı da sönür. Qara dəlik bir kütlənin işığın sızmayacağı qədər kiçik sahədə toplanmasıdır. Güclü cazibə sahəsi fotonları və ən sürətli zərrəcikləri belə bu sahədə tutub saxlayır. Günəşdən 3 dəfə böyük kütləyə malik olan bir ulduzun yanması və partlaması nəticəsində əmələ gələn qara dəliyin diametri 20 km-dir. Qara dəlikləri birbaşa müşahidə etmək mümkün deyil, onları sadəcə digər göy cisimlərinə olan təsirlərinə görə

müəyyən etmək mümkündür. Aşağıdakı ayədə də qiyamət gününün təsviri ilə yanaşı, qara dəliklərlə bağlı elmi fakta işarə edilə bilər:

> *Ulduzlar sönəcəyi zaman*
>
> **(Mürsəlat surəsi, 8)**

Böyük kütləli ulduzlar kosmosda bükülməyə səbəb olurlar. Lakin qara dəliklər sadəcə kosmosda bükülməyə səbəb olmur, eyni zamanda, kosmosu dəlib keçirlər. Bu sönmüş ulduzların qara dəlik adlandırılmalarının səbəbi də budur. "Tariq" surəsinin 3-cü ayəsində isə "dələn ulduzlar"dan bəhs edilir:

> *And olsun göyə və Tariqə! Sən nə bilirsən ki, Tariq nədir?!*
> *(Qaranlıqları) dəlib keçən ulduzdur.*
>
> **(Tariq surəsi, 1-3)**

Ayənin ərəbcəsində "dəlik" mənasını verən "saqb" kökündən "dəlik açan, dələn, dəlib keçən" mənalarını verən "əssaqibu" sözü işlədilmişdir. Qara dəlikləri tərif edən elmi mənbələrdə isə "dəlik açmaq" mənasını verən ingiliscə "puncture" sözündən istifadə edilir. Qara dəliklərin xüsusiyyətini ifadə etmək üçün Quranda işlədilmiş bu söz çox hikmətlidir. Ayədə ulduzlarla bağlı bu məlumata diqqət çəkilməsi Quranın Allah`ın sözü olduğunu sübut edir.

AYIN ORBİTİ

> *Biz ay üçün mənzillər müəyyən etdik. Nəhayət, o dönüb xurma ağacının qurumuş əyri budağı kimi olar. Nə günəş aya çatar, nə də gecə gündüzü keçə bilər. Onların hər biri (öz) orbiti (ilə) üzüb gedir.*
>
> **(Yasin surəsi, 39-40)**

Ayın orbiti digər planetlərin peykləri kimi düz deyil. Ay orbitində hərəkət edərkən bəzən Yerin önünə, bəzən də arxasına keçir. Eyni zamanda, Yer ilə birlikdə Günəşin ətrafında da dövr etdiyinə görə, kosmosda "S" hərfi şəklində orbit cızır. Ayın kosmosdakı orbitinin forması Quranda "xurma ağacının qurumuş əyri budağı kimi olar" ifadəsi ilə tərif edildiyi kimi, qurumuş əyri xurma budağına çox bənzəyir. Belə ki, ayədəki "urcun" sözünün mənası quruyub incəlmiş, bükülmüş xurma budağıdır və xurma ağacının meyvələri toplandıqdan sonra meyvəsiz budağa deyilir. Bu budağın "qurumuş" sözü ilə ifadə edilməsi də çox hikmətlidir, çünki qurumuş xurma budağı daha nazik və əyri olur.

Şübhəsiz, 1400 il əvvəl Ayın orbiti haqqında məlumat yox idi. Dövrümüzdəki texnologiya və biliklə aşkar edilmiş bu faktın Quranda bu cür qüsursuz bənzətmə ilə bildirilməsi Quranın başqa bir elmi möcüzəsidir.

QORUNMUŞ TAVAN

Quranda Allah göy üzünün çox mühüm xüsusiyyətinə belə diqqət çəkir:

> *Göyü qorunub saxlanılan bir tavan etdik. Halbuki, (kafirlər) ayələrimizdən üz döndərdilər.*
>
> **(Ənbiya surəsi, 32)**

Ayədə bildirilən göy üzünün bu xüsusiyyəti XX əsrdəki elmi tədqiqatlarla sübut edilmişdir.

Yeri hər tərəfdən əhatə edən atmosfer həyat üçün çox mühüm funksiyaları yerinə yetirir. Yerə yaxınlaşan böyük və kiçik meteoritləri parçalayaraq məhv edir və onların Yerin səthinə düşərək canlılara zərər verməsinin qarşısını alır.

Atmosfer həm də kosmosdan gələn və canlılar üçün zərərli şüaları da süzür. Maraqlısı budur ki, atmosfer təkcə zərərsiz işıqları, yəni görünən işığı, infraqırmızı şüaları və radiodalğaları yer üzünə buraxır. Bunların hamısı həyat üçün lazımlıdır. Məsələn, atmosferin müəyyən miqdarda keçirdiyi ultrabənövşəyi şüalar bitkilərin fotosintez prosesini həyata keçirməsinə kömək edir. Günəşdən yayılan güclü ultrabənövşəyi şüaların böyük hissəsi atmosferin ozon təbəqəsində süzülür və Yerin səthinə həyat üçün lazımlı olan az qismi gəlib çatır.

Atmosferin qoruyucu xüsusiyyəti bunlarla məhdudlaşmır. Yer kosmosun -270° dondurucu soyuğundan atmosfer sayəsində qorunur.

Yeri zərərli təsirlərdən qoruyan təkcə atmosfer deyil. Atmosferlə yanaşı, "Van Allen qurşaqları" adlanan və Yerin maqnetik sahəsi nəticəsində əmələ gələn təbəqə də planetimizə gələn zərərli şüalara qarşı qalxan vəzifəsini yerinə yetirir. Günəşdən və digər ulduzlardan yayılan bu şüalar insanlar üçün öldürücü təsirə malikdir. Xüsusilə Günəşdə tez-tez baş

verən və "partlayış" adlanan enerji partlayışları Van Allen qurşaqları olmasa, dünyadakı bütün həyatı yox edər.

Van Allen qurşaqlarının həyatımız üçün əhəmiyyətini dr. Hyu Ross (Hugh Ross) belə izah edir:

Yer Günəş sistemindəki planetlər arasında ən çox sıxlığa malikdir. Bu böyük nikel-dəmir nüvə, böyük maqnetik sahə əmələ gətirir. Bu maqnetik sahə Van Allen radiasiya qoruyucu təbəqəsini meydana gətirir. Bu təbəqə yer üzünü radiasiya bombardmanından qoruyur. Əgər bu qoruyucu təbəqə olmasaydı, Yerdə həyat mümkün olmazdı. Maqnetik sahəsi olan və qayalıqlardan ibarət digər planet Merkuridir. Lakin bu maqnetik sahənin gücü Yerinkindən 100 dəfə azdır. Van Allen radiasiya qoruyucu təbəqəsi ancaq Yerə məxsusdur.

Keçən illərdə aparılmış hesablamalara əsasən, bir partlayış nəticəsində əmələ gələn enerji Xirosimaya atılan 100 milyard atom bombasına bərabərdir. Partlayışdan 58 saat sonra kompasların əqrəblərində ifrat hərəkətlər müşahidə olunmuş, Yerin atmosferinin 250 km üstündə temperatur birdən-birə 2500°C-yə qalxmışdır.

Qısaca desək, Yerin üzərində onu əhatə edən və xarici təhlükələrə qarşı qoruyan mükəmməl sistem işləyir. Dünyanı əhatə edən göy üzünün bu qoruyucu qalxan xüsusiyyətini Allah bizə əsrlər əvvəl Quranda bildirmişdir.

YAĞINTININ YARANMASI

Yağıntının necə meydana gəldiyi uzun müddət insanlar üçün tam bilinməyən bir sirr idi. Ancaq hava radarlarının kəşf edilməsindən sonra, yağıntının hansı mərhələlərdən keçərək əmələ gəldiyi dəqiqləşdi.


Buna görə, yağış üç mərhələdən keçərək əmələ gəlir: Əvvəl külək yolu ilə yağışın "xammalı" havalanır. Ardından buludlar meydana gəlir və ən son olaraq da yağış damlacıqları ortaya çıxar.

Quranda yağışın əmələ gəlməsi ilə əlaqədar deyilənlər isə, tam da bu müddətdən söz edərlər. Bir ayədə bu meydana gəlmə ilə əlaqədar belə məlumat verilir:

> *Buludları qaldıran küləkləri Allahdır göndərən. Allah səmada onları istədiyi kimi yayıb topa-topa edir. Sən onlardan yağış töküldüyünü görürsən. Allah onu qullarından istədiyi kimsələrə endirən kimi onlar sevinirlər.*
>
> **(Rum surəsi, 48)**

İndi ayənin ifadə etdiyi üç mərhələni texniki olaraq araşdıraq.

1-ci mərhələ: "Buludları qaldıran külәkləri Allahdır göndərən..."



Yağışın meydana gəlməsi

Okeanlardakı köpüklənmə ilə yaranan saysız hava qabarcığı davamlı partlamaqdadır və su zərrələri davamlı olaraq səmaya fırlamaqdadır. Duzu zəngin bu zərrələr daha sonra küləklərlə daşınar və atmosferdə yuxarılara doğru yol alırlar. Aerozol adındakı bu kiçik hissəciklər "su tələsi" deyilən bir mexanizmlə yenə dənizlərdən yüksələn su buxarını öz ətraflarında kiçik damlalar halında toplayaraq buludları meydana gətirərlər.

2-ci mərhələ: "... səmada onları istədiyi kimi yayıb topa-topa edir ..."

Duz kristallarının ya da havadakı toz zərrələrinin ətrafında sıxlaşan su buxarı sayəsində buludlar əmələ gəlir. Bunların içindəki su damlacıqları çox kiçik olduqlarından (0.01 ilə 0.02 mm diametrində) havada asılı qalırlar və göyə yayılırlar. Beləcə səma buludlarla örtülər.

3-cü mərhələ: "... Sən onlardan yağış töküldüyünü görürsən..."

Duz kristallarının və toz zərrəciklərinin ətrafında bir yerə gələn su parçacıqları yaxşıca sıxlaşaraq yağış damlalarını əmələ gətirirlər. Beləcə havadan daha ağır bir mövqeyə gələn damlalar buluddan ayrılaraq yağış formasında yerə düşməyə başlayırlar.

Yuxarıdakı texniki izahdan çıxarıla biləcək dəqiq nəticə budur:

Yağıntının meydana gəlməsindəki hər mərhələ, Quran ayələrində bildirilir. Üstəlik bu mərhələlər meydana gəlmə sırasıyla açıqlanmışdır. Dünyadakı bir çox təbii hadisədə olduğu kimi, bunda da Quranda ən doğru şərh edilmiş, üstəlik bu şərh elmin kəşfindən əsrlər əvvəl insanlara bildirilmişdir.

BAL MÖCÜZƏSİ

"Rəbbin bal arısına belə vəhy etdi: "Dağlarda, ağaclarda və onların qurduğu çardaqlarda özünə evlər tik. Sonra bütün meyvələrdən ye və Rəbbinin sənə asanlaşdırdığı yollarla get! Onların qarınlarından insanlar üçün şəfa olan müxtəlif rəngli bal çıxar. Şübhəsiz ki, bunda da düşünüb dərk edənlər üçün bir ibrət vardır!"" ("Nəhl" surəsi, 16/68-69)

Bal yuxarıdakı ayələrdə vurğulandığı kimi, insanlar üçün şəfa olmaq xüsusiyyətinə malikdir. Elmdə bir addım öndə gedən ölkələr balın insan

səhhəti baxımından əhəmiyyətini nəzərə alıblar və bu ölkələrdə arıçılıq və arı məhsulları artıq ayrıca bir tədqiqat sahəsi olmuşdur. Balda olan faydanın ümumi cəhətlərini nəzərə almaqla onu belə sıralamaq olar:

Asanlıqla həzm edilir. İçindəki şəkərin bir başqa növ şəkərə (fruktozanın qlükozaya) çevrilə bilmə xüsusiyyəti sayəsində bal özündə yüksək miqdarda turşu (asit) ehtiva etsə də, o, ən həssas mədə tərəfindən də asanlıqla həzm edilir. Eyni zamanda, bağırsaqların və böyrəklərin daha yaxşı işləməsinə kömək edir.

Sürətlə qana qarışır, sürətli enerji mənbəyidir. Bal ilıq su ilə qarışdırılanda 7 dəqiqə ərzində qana qarışır. Özündə ehtiva etdiyi sərbəst şəkərlərə görə, beyinin asan işləməsini təmin edir. Bal fruktoza və qlükoza kimi sadə quruluşlu şəkərlərin təbii qarışığıdır. Aparılan son elmi-tədqiqat işlərinin nəticələrinə görə, şəkərlərin belə özünəməxsus qarışığı halsızlığın, zəifliyin, yorğunluğun aradan qaldırılmasında ən təsirli üsuldur. Bal bu baxımdan adamı gümrah edir, onun atletizmini və enerjisini artırır.

Qan yaranmasına kömək edir. Bal qan hazırlanması üçün bədənin ehtiyac hiss etdiyi enerjinin mühüm bir hissəsini təmin edir. Bundan başqa, qanın təmizlənməsinə də yardım edir. Qan dövranını nizamlamaq və asanlaşdırmaq baxımından da təsiri var. Bal damar sərtliyinə, yəni damarların kirəcləşərək öz elastikliyini itirməsinə qarşı mühüm bir qoruyucudur.

Balın antimikrob təsir xüsusiyyətləri də var. Onun antimikrob xüsusiyyəti orqanizmdə müəyyən bakteriyaların və kifin böyüməsinə mane olur. Balın bakteriyanın sığınacaq tapmasına imkan verməyən xüsusiyyəti "inhibinə təsir" adlandırılır. Balın antimikrob olmasını təmin edən çoxlu səbəblər var. Bunlardan mikroorqanizmlərin böyüməsi zəruri olan su miqdarını nizamlayan yüksək şəkərə malik olması, yüksək turşu nisbəti

(aşağı rN), bakteriyaların böyüməsi üçün əlverişli şərait yaradan azotdan məhrum edən daxili zənginliyini sadalamaq olar. Balda hidrogen-peroksidin olması və balın özündə ehtiva etdiyi antioksidanlar da bakteriyaların çoxalmasına mane olur.

Bal antioksidandır. Sağlam həyat tərzi keçirmək və sağlam yaşamaq istəyən hər bir kəsin antioksidan istehlak etməsi xüsusilə vacibdir. Antioksidanlar hüceyrələrdə adi metabolizmanın zərərli ətraf məhsullarını təmizləyən qarışıqlardır. Bunlar qida pozulmalarına və xroniki xəstəliyə səbəb olan dağıdıcı kimyəvi təsirləri azalda bilən elementlərdir. Mütəxəssislər antioksidan baxımından zəngin olan qidaların ürək xəstəlikləri və xərçəng kimi xəstəliklərin qarşısını alacağına inanırlar. Balın tərkibində də güclü antioksidanlar var: rinocembrin, rinobaxin, chrisin və galagin. Bunlardan rinocembrin ancaq balda mövcud olan antioksidandır.

Bal vitamin və mineral "anbarı"dır. Balın tərkibində fruktoza və qlükoza kimi şəkərlərlə yanaşı, maqnezium, kalium, kalsium, natrium-xlor, kükürd, dəmir və fosfor kimi minerallar da var. Nektar və çiçək tozu öz qaynaqlarının xüsusiyyətlərinə görə dəyişdiyi üçün balda B1, B2, C, B6, B5 və B3 vitaminləri də var. Bundan başqa, balda az miqdarda mis, yod, dəmir və sink də olur.

Baldan yaraların müalicəsində istifadə edilir. Yaraların müalicəsində istifadə edilən balın tərkibində havadan nəm çəkə bilmək xüsusiyyəti olduğu üçün sağalma prosesini sürətləndirərək yaranın izinin qalmasının qarşısını alır. Çünki bal yaranın üstünü örtən təzə dərini təşkil edəcək epitel hüceyrələrin böyüməsini sürətləndirir. Beləliklə, böyük yaraların müalicəsində istifadə edilən bal toxumaların köçürülməsinə ehtiyacı aradan qaldırır.

- Bal sağalma mərhələsinə daxil olan toxumaları yenidən böyümələri üçün hazırlayır. Yeni kapillyar damarların əmələ gəlməsini sürətləndirərək dərinin daha dərindəki toxuma bağlarının yerini alan fibroplastların böyüməsini təşviq edir və sağalmağın gücünü çoxaldan liflərin emalını sürətləndirir.

- Balın yaranın ətrafındakı şişi azaldan antienflamatuar təsiri də var. Bu, qan dövranını artırır, beləliklə, sağalmanı sürətləndirir və hiss edilən ağrını azaldır. - Bal yaranın altındakı toxumalara yapışmır və buna görə də toxumaların cırılması və ağrı baş vermir.

- Bal radiasiya müalicəsi tətbiq edilən xərçəngli xəstələrin bədənlərində meydana gələn yaranın və mədə xəstəliklərinin müalicəsində müvəffəqiyyətlə istifadə edilir.

- Bundan başqa, balın, əvvəl də qeyd etdiyimiz kimi, antimikrob təsiri var. Bal infeksiyanın əmələ gəlməsinin qarşısını alır, mövcud infeksiyanı isə sürətlə təmizləyir. Bal bakteriyaların antibiotik müqavimət xüsusiyyətlərinə qarşı da təsirlidir. Antiseptik və antibiotiklərin əksinə olaraq, bal yaradakı toxumaların üzərində mənfi təsirlər saxlamır.

Bu məlumatlardan da aydın olduğu kimi, bal şəfaverici təsirə malik olan çox güclü olan bir qidadır. Şübhəsiz ki, bu da sonsuz qüdrət sahibi olan Allah`ın göndərdiyi Quranın möcüzələrindən biridir.

İNSANIN DOĞUMU

Quranda insanlar imana çağırılırkən olduqca fərqli mövzulardan bəhs edilir. Kimi zaman göylər, kimi zaman yer üzü, kimi zaman da heyvanlar və bitkilər insana dəlil göstərilir. Yenə bir çox ayədə insanın şəxsən öz yaradılışına dönüb baxması məsləhət edilir. İnsanın yer üzünə necə

gəldiyi, hansı mərhələlərdən keçdiyi və təməl maddəsinin nə olduğu tez-tez xatırladılır:

> *Sizi Biz yaratdıq. Bəs nə üçün dirildiləcəyinizi təsdiq etmirsiniz?*
>
> *Axıtdığınız nütfəni gördünüzmü? Onu siz yaradırsınız, yoxsa Biz?*
>
> **(Vaqiə surəsi, 57-59)**

İnsanın yaradılışı və bu yaradılışın möcüzəvi cəhətləri daha bir çox ayədə vurğulanır. Ancaq bu vurğular arasında elə məlumatlar vardır ki, bunlar Quranın endirildiyi 7-ci əsrdə əsla bilinməyəcək detallardır. Bunlardan bəziləri belədir:

1) İnsan məni mayesinin hamısından deyil, əksinə çox kiçik bir parçasından (spermadan) yaradılır.

2) Uşağın cinsiyyətini kişinin xromosomları müəyyənləşdirir.

3) İnsan embrionu ana bətninə adətən bir zəli kimi yapışır.

4) İnsan, ana rəhmində üç qaranlıq bölgə içində inkişaf edər.

Quranın endirildiyi əsrdə də insanlar əlbəttə doğumun təməl maddəsinin cinsi əlaqə sonrasında kişidən gələn maye ilə əlaqədar olduğunu bilirdilər. Uşağın ortalama doqquz ayda doğulduğu da rahatlıqla müşahidə etmək, bilmək üçün araşdırma tələb etməyən mövzu idi. Ancaq yuxarıda sıraladığımız məlumatlar o dövrün elm səviyyəsinin çox üstündə idi. Bunlar, ancaq 20-ci əsr elmi tərəfindən kəşf edildi.

İndi, kəşf edilən bu məlumatları müvafiq olaraq araşdıraq.

1) "Bir damla su"

Spermalar yumurtaya çatana qədər ananın bədənində çətin yol keçirərlər. Bu yolda 250 milyon spermanın ancaq 1000 qədəri yumurtaya çatmağa müvəffəq olar. Beş dəqiqə sonra yarışın sonunda, yarım duz dənəsi böyüklüyündəki yumurta spermadan yalnız birini qəbul edəcək. Yəni insanın mənin hamısı deyil, ondan kiçik bir parçadır. Ancaq, bilindiyi kimi, bunlardan yalnız biri yumurtanı dölləməyi bacarar. Quranda isə bu gerçək belə açıqlanar:

> *Bəlkə insan özbaşına qoyulacağını güman edir? Məgər o, kişi toxumundan axıdılan bir damla nütfə deyildimi?*
>
> **(Qiyamət surəsi, 36-37)**

Diqqət edilsə, Quranda insanın məninin hamısından deyil, onun içindən alınan kiçik bir parçadan yaradıldığı xəbər verilməkdədir. Bu ifadədəki xüsusi vurğunun müasir elm tərəfindən kəşf edilən bir həqiqəti açıqlaması isə, ifadənin İlahi qaynaqlı məlumat olduğunun dəlilidir.

2) "Qarışdırılmış" maye

Məni olaraq adlandırılan və spermaları daşıyan bəsləyici maye sadəcə spermalardan meydana gəlməz. Əksinə, məni bir-birindən fərqli mayelərin qarışığından ibarətdir. Bu mayelərin, spermanın ehtiyac duyduğu enerjini qarşılayacağı şəkərə, bəzi xüsusiyyəti ilə ana bətni girişindəki turşuları neytrallaşdırmaq, spermanın hərəkət edəcəyi sürüşkən vəziyyəti təmin etmək kimi vəzifələri vardır.

Maraqlıdır ki, Quranda mənidən bəhs edilərkən müasir elmin ortaya çıxardığı bu gerçəyə də işarə edilməkdə və "qarışdırılmış" maye kimi

təsvir edilməkdədir:

> *İnsanı qarışdırılmış nütfədən yaradaraq onu sınaqdan keçirmək məqsədilə eşidən və görən etdik.*
>
> **(İnsan surəsi, 2)**

Bir başqa ayədə isə yenə mənənin qarışıq olduğuna işarə edilir, insanın isə bu qarışığın "əsasından" yaradıldığı vurğulanır:

> *Hansı ki, yaratdığı hər şeyi gözəl biçimdə yaratmış, insanı ilk olaraq palçıqdan xəlq etmiş, sonra onun nəslini bir damla dəyərsiz sudan əmələ gətirmiş,*
>
> **(Səcdə surəsi, 7-8)**

Burada "əsas" deyə çevrilən Ərəbcə "sulala" sözü, əsas ya da bir şeyin ən yaxşı qismi deməkdir. Hansı şəkildə alınırsa-alınsın "bir bütünün bir qismi" mənasına gəlir. Və bu vəziyyət Quranın insan yaradılışını ən incə detalına qədər bilən bir İradənin sözü olduğunu göstərməkdədir. Çünki o İradə, onsuz da insanı yaradan Allahdır.

> *Ey insan! Səni öz Səxavətli Rəbbinə qarşı qoyan nədir? O ki, səni yaradıb kamilləşdirdi və sənə gözəl bir surət verdi. Səni istədiyi şəklə saldı.*
>
> **(İnfitar surəsi, 6-8)**

3) Cinsiyyətin müəyyən edilməsi ...

Daha yaxın zamana qədər körpənin cinsiyyətini kişi və qadın hüceyrələrinin birlikdə müəyyən etdiyi sanılırdı. Halbuki genetik və mikrobiologiya elmlərinin inkişafı ilə, qadının bu təyin etmədə heç bir rolu olmadığı aydın oldu.

İnsan quruluşunu müəyyən edən 46 xromosomdan ikisi cinsiyyət xromosomu olaraq adlandırılar. Bu iki xromosom kişidə XY, qadında isə XX kimi adlandırılır. Bunun səbəbi bu xromosomların bu hərflərə bənzəməsidir. Y xromosomu kişilik, X xromosomu isə qadınlıq genləri daşıyır.


Bir insanın meydana gəlməsi, kişi və qadında cüt-cüt iştirak edən bu xromosomların bir dənəsinin birləşməsi ilə başlayır. Qadında yumurtlama zamanı iki yerə ayrılan yumurta hüceyrəsinin hər iki parçası da X xromosomunu daşıyır. Halbuki kişidə ikiyə ayrılan yumurta hüceyrəsi, X və Y xromosomları ehtiva edən iki fərqli sperma meydana gətirər. Qadında olan X xromosomu əgər kişidəki X xromosomu ehtiva edən spermatozoidlə birləşsə qadın, Y xromosomu ehtiva edən spermatozoidlə birləşsə kişi meydana gələr.

Yəni doğulacaq uşağın cinsiyyətini təyin edən faktor, kişidəki hansı xromosomun qadındakı xromosomla birləşəcəyi sualıdır.

Şübhəsiz, genetika kəşf edilənə qədər, yəni 20-ci əsrə qədər, bunların bir çoxu bilinmirdi. Əksinə, bir çox mədəniyyətdə, doğulacaq uşağın cinsiyyətinin qadın tərəfindən təyin edildiyi inancı yayılmışdı.

Halbuki Quranda, genlərin kəşfindən 13 əsr əvvəl bu batil inancı rədd edən məlumat verilmişdi insanlara. Kişilik və qadınlığın, "rəhmə tökülən nütfədən" yaradıldığı, yəni cinsiyyətin mənşəyinin qadın deyil kişi bədəni olduğu Quranda bu şəkildə ifadə edilmişdir:

> *O, insanlardan və heyvanlardan biri erkək və bir də dişi olmaqla iki cüt yaratdı axıdılan bir nütfədən.*
>
> **(Nəcm surəsi, 45-46)**



Barmaq izindəki şəxsiyyət

4) Rəhmə yapışan Ələq ...

Kişidən gələn sperma və qadındakı yumurta yuxarıda toxunduğumuz şəkildə birləşərkən doğulacaq uşağın ilk özəyi əmələ gəlmiş olur. Biologiyada "ziqot" olaraq təyin olunan bu tək hüceyrə, zaman itirmədən bölünərək çoxalacaq və getdikcə bir "ət parçası" halına gələcəkdir.

Ancaq ziqot bu böyüməsini boşluqda həyata keçirmir. Rəhim divarına yapışır, sahib olduğu çıxıntılar sayəsində torpağa yapışan köklər kimi ora yapışır. Bu bağ sayəsində də inkişafı üçün ehtiyac duyduğu maddələri ananın vücudundan ala bilər.

Maraqlıdır ki, Quranda ana qarnında böyüməyə başlayan ziqotdan söz edilərkən, o həmişə "ələq" olaraq qeyd edilməkdədir:

> *Yaradan Rəbbinin adı ilə oxu! O, insanı qan laxtasından yaratdı. Oxu! Sənin Rəbbin müqayisəsiz səxavətə malikdir.*
>
> **(Ələq surəsi, 1-3)**

> *Bəlkə insan özbaşına qoyulacağını güman edir? Məgər o, kişi toxumundan axıdılan bir damla nütfə deyildimi? Sonra laxtalanmış qan oldu. Allah onu yaradıb kamil bir görkəmə saldı. Ondan da bir cüt kişi və qadın yaratdı.*
>
> **(Qiyamət surəsi, 36-39)**

"Ələq" kəlməsinin ərəbcədəki mənası isə, "bir yerə asılıb yapışan şey"dir. Hətta söz əsl olaraq, bir bədənə yapışıb oradan qan əmən zəlilər üçün istifadə edilər. Bu sözün, bətn divarına yapışıb oradan həyatı üçün lazımlı şeyləri əmən ziqotu təsvir etmək üçün istifadə edilən ən uyğun söz olduğu isə açıqdır.

Quranda ziqot haqqında verilən məlumatlar bununla da bitmir.

Döl yatağına tam mənasıyla yapışmış olan ziqot inkişafa başlayır. Ana bətni isə, ziqotu qucaqlayan və "amnion mayesi" deyilən bir maye ilə doludur. Körpənin içində böyüdüyü amnion mayesinin diqqəti çəkən ən əhəmiyyətli xüsusiyyəti, çöldən gələcək zərbələrə qarşı körpənin təhlükəsizliyini təmin etməsidir. Quranda, bu həqiqət də bildirilir:

> *Məgər Biz sizi dəyərsiz bir sudan (nütfədən) xəlq etmədikmi? Biz onu etibarlı bir yerdə yerləşdirmədikmi –*
>
> **(Mürsəlat surəsi, 20-21)**

20-ci əsrdə hələ kəşf edilmiş olan bütün bu məlumatların, daha 7-ci əsrdən xəbər verilmiş olması Quranın Allahın nazil etdiyinin ən böyük dəlillərindəndir.

> *Məgər onlar Quran barəsində düşünmürlərmi? Əgər o, Allahdan başqası tərəfindən olsaydı, əlbəttə, onda çoxlu ziddiyyət tapardılar.*
>
> **(Nisa surəsi, 82)**

Qurandakı təsvir tam doğrudur, çünki bu kitabdakı hər ayə Allahın sözləridir. İnsanı ana bətnində yaradıb şəkilləndirən Allah, bu müddəti ən yaxşı təsvir edəcək sözləri Kitabında bildirmişdir. Hamımızı bu şəkildə yaratmış olan Allah, həyatımızın başlanğıcını bir başqa ayədə belə təsvir edir:

> *Həqiqətən, Biz insanı palçıq cövhərindən yaratdıq. Sonra nütfə halında möhkəm yerdə yerləşdirdik. Sonra nütfədən laxtalanmış qan yaratdıq, sonra o qandan bir parça ət yaratdıq, sonra o bir parça ətdən sümüklər yaratdıq, sonra da sümükləri ət ilə örtdük. Sonra da onu başqa bir məxluq olaraq xəlq etdik. Yaradanların ən yaxşısı olan Allah nə qədər xeyirxahdır!*
>
> **(Muminun surəsi, 12-14)**

İNSANIN SUDAN YARADILMASI

> *"Allah hər canlını bir sudan yaratmışdır. Onların bəzisi qarnı üstə sürünür, bəzisi iki, bəzisi isə dörd ayaq üstündə gəzir. Allah istədiyini yaradır. Həqiqətən, Allah hər şeyə qadirdir"*
>
> **(Nur surəsi, 45)**

> *"Məgər inkar edənlər göylə yer bitişik ikən bizim onları ayırdığımızı, hər bir canlını sudan yaratdığımızı bilmirlərmi?! Yenə də iman gətirməzlər?"*
>
> **(Ənbiya surəsi, 30)**

> *"İnsanları sudan yaradan, onları əsl qohum və sonradan qohum edən Odur. Rəbbin qadirdir!"*
>
> **(Furqan surəsi, 54)**

Canlıların və insanın yaradılması ilə bağlı ayələrə nəzər salanda bu cür xəlq edilmənin möcüzəli məsələ olduğunu aydın şəkildə görürük.

Bu möcüzəli yaradılışın formalarından biri canlıların sudan xəlq edilməsidir. İnsanların əksər ayələrdə qeyd edilən bu həqiqətə yetişməsi isə əsrlər sonra mikroskopun icad edilməsi ilə mümkün olub.

Bu gün əsas ensiklopediyalarda "Su canlı maddənin ən böyük xassəsidir. Canlı orqanizmlərin kütləsinin 50-90 faizi sudur" ifadələri geniş yer tutur. Bundan əlavə, haqqında bütün biologiya kitablarında bəhs edilən standart bir heyvan hüceyrəsinin sitoplazması (hüceyrənin əsas maddəsi) da 80 faizi sudan ibarətdir. Sitoplazmanın analiz olunub elmi mənbələrdə qeyd edilməsi Quranın göndərilməsindən əsrlərlə sonra baş verib. Dolayısilə, bu gün elm dünyasının qəbul etdiyi bu həqiqətin Quranın göndərildiyi dövrdə bilinməsi, əlbəttə ki, mümkün deyildi. Ancaq buna baxmayaraq, Quranda bu məsələyə insanların onu kəşf etməsindən 14 əsr əvvəl diqqət çəkilib.

PALÇIQDAN YARADILMA

Allah Quranda insanın xəlq olunmasının möcüzəli bir formada baş verdiyini xəbər verir. İlk insan Allah`ın palçığı formaya salıb insan bədəni halına gətirməsi və bundan sonra bədənə ruh üfürməsi ilə yaradılıb:

> *"Xatırla ki, o zaman sənin Rəbbin mələklərə belə demişdi: "Mən palçıqdan bir insan yaradacağam. Mən onu tamamlayıb Öz ruhumdan üfürən kimi ona səcdə edin!""*
>
> **(Sad surəsi, 71-72)**

> *"İndi soruş: onları yaratmaq çətindir, yoxsa bizim yaratdıqlarımızı? Axı biz onları yapışqan kimi bir palçıqdan yaratdıq".*
>
> **(Saffat surəsi, 11)**

Bu gün insanın toxumaları incələnəndə məlum olur ki, bu toxumalarda Yer üzündəki əksər elementlər var. Canlı orqanizmlərin toxumalarının 95 faizi karbon (C), hidrogen (H), oksigen (O), azot (N), fosfor (P) və sulfiddən (S) ibarətdir. Həmçinin qeyd olunmalıdır ki, canlıların toxumalarında cəmi 26 element var.

Quranın başqa bir ayəsində belə buyurulur:

> *"Biz, həqiqətən, insanı süzülmüş palçıqdan yaratdıq".*
>
> **(Muminun surəsi, 12)**

Ayədə "süzülmüş" olaraq tərcümə edilən "sulalə" kəlməsi "təmsili nümunə, xas, xülasə, əsas" kimi mənalara gəlir. Göründüyü kimi, 14 əsr əvvəl bildirilənlər müasir elmin bizə dediklərini - insanın yaradılışındakı "xammal"la torpağın özündə ehtiva etdiyi əsas maddələrin eyni olması həqiqətini təsdiqləyir. Aşağıda təxminən 70 kiloqram çəkisi olan bir insanın bədənindəki elementlərin yayılması sxemi yer alır.

BARMAQ İZLƏRİNDƏKİ “ŞƏXSİYYƏT VƏSİQƏSİ”

Quranda insanları ölümündən sonra diriltmənin Allah üçün çox asan olduğu bildirilir və bu zaman insanların xüsusilə barmaqlarının uclarına diqqət yetirilir:

> *"Bəli, biz onun barmaq uclarını da (yenidən) düzəltməyə qadirik".*
>
> **(Qiyamət surəsi, 4)**

Ayədə barmaq uclarının vurğulanması son dərəcə hikmətamizdir. Çünki bütün insanların barmaq izləri tamamilə bənzərsiz və təkrarsız, tamamilə özünəməxsusdur. Yer üzündə yaşayan hər bir insanın barmaq izi digər insanın barmaq izindən fərqlənir. Bundan başqa, tarix boyunca yaşamış insanların barmaq izləri də bir-birindən fərqlidir. Həmçinin eyni DNT düzülüşünə malik olan və eyni yumurtadan yaranan əkizlər də fərqli barmaq izlərinə sahibdir.

Barmaq izi doğuşdan əvvəl dölün üzərində son şəklini alır və barmaq onun dəri strukturunu deformasiyaya uğradaraq tamamilə sıradan çıxaran yara almasa, bu izlər ömür boyu sabit qalır. Buna görə də insanlar barmaq izlərini öyrənən elmdən hansısa bir şəxsi müəyyənləşdirmək məqsədilə istifadə edirlər. Bu elm həmin izləri müəyyənləşdirməkdə əsas vasitədir.

Burada ən mühüm məsələ barmaq izlərinin özünəməxsusluğunun yalnız XIX əsrin axırlarında kəşf edilməsidir. Ondan əvvəl insanlar barmaq izlərini heç bir xüsusiyyəti və mənası olmayan cizgilər kimi qəbul edirdilər. Quranda isə o dövrdə heç kimin ağlına gəlməyən barmaq izlərindən bəhs olunur və bu izlərin ancaq zamanımızda qeyd edilən əhəmiyyətinə diqqət yetirilir.

İSTİ TÜSTÜDƏN YARADILIŞ

Bu gün elm adamları ulduzların tüstüdən – isti qaz buludundan əmələ gəldiyini müşahidə edirlər. Kainat da isti qaz buludundan əmələ gəlib. Quranda da kainatın yaradılışı bu elmi kəşfləri təsdiq edir:

> *O, yer üzündə möhkəm durmuş dağlar yaratdı, onu bərəkətli etdi və istəyənlər üçün bərabər olaraq orada yer əhlinin ruzisini dörd gündə müəyyən etdi. Sonra Allah tüstü halında olan göyə üz tutdu. Ona və yerə belə buyurdu: "İstər-istəməz vücuda gəlin!" Onlar da: "İstəyərək vücuda gəldik!" – deyə cavab verdilər.*
>
> **(Fussilət surəsi, 10-11)**

Yuxarıdakı ayədə "göy" kimi tərcümə edilmiş "səma" sözü ilə bütün kainat nəzərdə tutulur. Ayədə "tüstü" kimi tərcümə edilmiş "duxanun" sözü də bu gün elm adamlarının qəbul etdiyi kimi, kainatın formalaşmasından əvvəlki maddəni – kainatın yaradılışındakı kosmik və isti tüstünü tərif edir. Bərk maddələrə bağlı uçan zərrəciklər ehtiva edən isti qaz halında kütlə olan bu tüstü ayədəki sözə uyğun gəlir. Göründüyü kimi, Quranda kainatın bu mərhələdəki görünüşünü tərif edən ən uyğun söz işlədilmişdir. Elm adamları da kainatın tüstü formasındakı isti qaz kütləsindən əmələ gəldiyini XX əsrdə kəşf ediblər.

Bundan əlavə, "Sonra Allah tüstü halında olan göyə üz tutdu" cümləsindəki "sonra" kimi tərcümə edilmiş "sümmə" sözünün "bundan başqa, üstəlik, yenə, bir də" kimi digər mənaları da var. Burada da "sümmə" sözü zamanı ifadə etmək üçün deyil, əlavə açıqlama kimi verilmişdir. 6 Kainatın yaradılışı ilə bağlı bu məlumatın Quranda bildirilməsi, şübhəsiz, Quranın elmi möcüzəsidir.

QURANDA SÖZ TƏKRARLARI

Quranın indiyə qədər incələdiyimiz möcüzəli xüsusiyyətlərindən biri də "riyazi möcüzələri"dir. Bu möcüzəyə bir nümunə olaraq Quranda bəzi kəlmələrin eyni sayda təkrarlanmasını göstərmək mümkündür. Bir-biri ilə əlaqəli olan bəzi kəlmələr Quranda heyrətamiz dərəcədə eyni sayda təkrar edilmişdir. Aşağıda bu cür kəlmələr və onların Quranda təkrarlanmış sayları verilmişdir.

"Yeddi göy" ifadəsi 7 dəfə qeyd edilib. "Göylərin yaradılması" ("xəlqu səməvat") ifadəsi də 7 dəfə təkrar edilir.

"Gün" ("yəum") sözü ismin tək halında 365 dəfə işləndiyi halda, cəm halında, yəni "günlər" ("əyyam və yəuməyn") kəlmələri 30 dəfə təkrar edilir. "Ay" kəlməsi isə 12 dəfə təkrarlanır.

"Bitki" və "ağac" kəlmələri də eyni sayda təkrar edilir: 26.

"Cəza" kəlməsi Quranda 117 dəfə qeyd olunduğu halda, Quranın əsas əxlaqi xüsusiyyətlərindən sayılan "bağışlamaq" ifadəsi bu saydan 2 dəfə çox, yəni 234 dəfə təkrar edilir.



İnsanın sudan yaradılışı

"De" kəlmələrini sayanda gəldiyimiz nəticə 332-dir. "Dedilər" kəlməsini sayanda da eyni rəqəmi əldə edirik: 332.

"Dünya" kəlməsi ilə "axirət" kəlməsinin təkrarları da eyni rəqəmi göstərir: 115.

"Şeytan" kəlməsi Quranda 88 dəfə qeyd olunmuşdur. "Mələk" kəlməsi də elə bu qədər, yəni 88 dəfə təkrar edilmişdir.

"İman" (şəkilçisiz) və "küfr" kəlmələrinin hər biri Quranda 25 dəfə təkrar edilir.

"Cənnət" və "cəhənnəm" kəlmələri də eyni saydadır: 77.

"Zəkat" kəlməsi Quranda 32 dəfə işləndiyi halda, "bərəkət" kəlməsi də eyni sayda təkrar edilmişdir: 32.

"Yaxşılar" ("əbrar") 6 dəfə təkrar edilir, "pislər" ("fuccar") kəlməsi isə bu rəqəmin yarısı qədər, yəni 3 dəfə.

"Yay-isti" kəlmələri ilə "qış-soyuq" kəlmələrinin işlənmə sayları də eynidir: 5.

"Şərab" ("xamr") və "sərxoşluq" ("səkərə") kəlmələrinə də Quranda eyni sayda rastlanır: hər birinə 6 dəfə.

"Fikirləşmək" və "nur" saylarının təkrar sayı da eynidir: 49

"Dil" və "vəəz" kəlmələri eyni sayda - hər biri 25 dəfə təkrar edilir.

"Fayda" kəlməsi 50, "pozmaq" kəlməsi də 50 dəfə təkrar olunur.

"Əcir" və "fail" ("icraçı") kəlmələrinin də işlənmə sayı eynidir: 108.

"Sevgi" və "itaət" kəlmələrinin təkrarlanma sayları da eynidir: hər biri 83 dəfə.

Quranda "dönüş" ve "sonsuz" kəlmələri bərabər sayda yer alır: 28.

"Müsibət" və "şükür" kəlmələri Quranda eyni sayda təkrar edilir: hər biri 75 dəfə.

"Günəş" ("şəms") və "işıq" ("nur") kəlmələrinin hər biri Quranda 33 dəfə təkrar edilir.

* Saymada «nur» kəlməsinin təkcə adlıq halları nəzərə alınmışdır.

«Doğru yola aparan (əl-huda)» və «rəhmət» kəlmələrinin təkrar sayı bərabərdir - 79.

Quranda «sıxıntı» kəlməsi 13 dəfə işlənərkən «rahatlıq» sözü də 13 dəfə təkrar olunur.

"Qadın" və "kişi" kəlmələri də eyni saydadır - hər biri 23 dəfə işlədilib. Qadın - kişi sözlərinin Quranda təkrar sayı olan 23, həmçinin insan embrionunun meydana gəlməsində yumurta və spermadan gələn xromosom sayıdır. İnsanın xromosom sayı da anadan və atadan gələn 23 – 23 xromosomun cəmi olaraq 46-dır.

"Xəyanət" kəlməsi 16 dəfə qeyd olunduğu halda, "xəbis" kəlməsi də 16 dəfə təkrar edilmişdir.

"İnsan" kəlməsinə Quranda 65 dəfə rast gəlinir. İnsanın yaradılış mərhələlərinin sayının cəmi də eynidir - 65.

"Salavat" kəlməsi bütün Quranda 5 dəfə təkrar edilir. Allah insanların gündə məhz 5 dəfə namaz qılmasını vacib saymışdır.

"Torpaq" kəlməsi Quranda 13 dəfə işləndiyi halda, "dəniz" kəlməsi 32 dəfə təkrar edilir. Bu rəqəmləri cəmləsək, 45 alınır. Əgər quru torpaq səthinin Quranda təkrar edilən sayı olan 13 rəqəmini 45-ə bölsək, 28,88888889 faiz əldə edirik. Dənizlərin Quranda təkrar edildiyi rəqəmi - 32-ni 45-ə bölənd

isə 71,11111111 rəqəmini əldə edirik. Bu nisbət isə planetimizin su və quru torpaq sahələrinin real nisbətidir.

QURANDA 19 MÖCÜZƏSİ

Quranın riyazi möcüzələrinin başqa biri isə 19 rəqəminin ayələrin içinə şifrlənmiş bir şəkildə yerləşdirilməsidir. Quranda "Onun üstündə on doqquz vardır" ("Muddəssir", 74/30) ayəsi ilə nəzərlərimizi cəlb edən bu rəqəm Quranın əksər yerində şifrlənmişdir. Bunun nümunələrindən bir hissəsini belə saya bilərik:

"Bismillah" kəlməsi 19 hərfdən ibarətdir.

Quranda 114 (19 x 6) surə var.

İlk vəhy olunan surə (96-cı surə) axırdan 19-cu surədir.

Quranın ilk vəhy edilən ayələri 96-cı surənin ilk 5 ayəsidir və bu ayələrdəki kəlmələrin sayı cəmi 19-dur.

Göründüyü kimi, ilk 5 ayə cəmi 19 kəlmədən ibarətdir. Arada qeyd edilən "vav" kəlmə yox, hərfdir. "Bə" hərfləri də eyni şəkildə bu saya daxil edilməyib.

Vəhy edilən ilk surə ("Ələq" surəsi) 19 ayəyə malikdir və özündə 285 hərfi (19 x 15) ehtiva edir.

Axırıncı vəhy edilən surə olan "Nəsr" cəmi 19 kəlmədən ibarətdir.

Bundan başqa, "Nəsr" surəsinin Allah`ın köməyindən bəhs edən ilk ayəsi də 19 hərfdən ibarətdir.

Quranda 114 (19 x 6) "Bismillah" sözü var. Bu say da 19-dan 6 dəfə çoxdur.

Quranda 113 surə "Bismillah"la başlayır. Başında "Bismillah" olmayan yeganə surə 9-cu surə olan "Tövbə" surəsidir. Quranda ancaq "Nəml" surəsində iki "Bismillah" var. Bunlardan biri surənin əvvəlində, digəri isə 30-cu ayədə qeyd edilmişdir. "Bismillah"la başlamayan "Tövbə" surəsindən etibarən saymağa başlayanda "Nəml" surəsinin 19-cu sırada yerləşdiyini görmək olar.

19 surə sonra gələn 27-ci surə olan "Nəml" surəsinin həm əvvəlində, həm də 30-cu ayəsində "Bismillah" var. Beləliklə, 27-ci surədə iki "Bismillah" var. "Bismillah"ların sayını 114-ə çatdıran ayə 27-ci surənin 30-cu ayəsidir. Bundan başqa, surə və ayə nömrələrini, yəni 27 və 30-u toplayanda 57 (19 x 3) sayını əldə edirik.

"Tövbə" surəsindən (9) "Nəml" surəsinə (27) qədər olan surə nömrələrinin cəmi 9+10+11+12+13+14+15+16+17+18+19+20+21+22+23+24+25+26+27=342 edir. Bu da 19 rəqəminin 18 qatıdır.

19-la 19-un bir neçə qatı olan ayələrdə qeyd edilmiş "Allah" kəlmələrinin cəmi 133-dür (19 x 7).

"Bir" mənasına gələn "vahid" ("i" hərfi bu söz oxunarkən əlavə edilir) kəlməsinin əbcəd dəyəri 19-dur. Quranda bu kəlmə "bir çeşid yemək", "bir qapı" və s. kimi müxtəlif kəlmələr üçün işlədilmişdir. "Tək Allah" olaraq işlədilməsi isə 19 dəfədir.

19 dəfə "vahd" kəlməsinin qeyd edildiyi ayələrin surə və ayə nömrələrinin cəmi 361 (19 x 19)-dur.

Başlanğıc hərflərinin olduğu birinci surə ilə başlanğıc hərflərinin olduğu axırıncı surə arasında başlanğıc hərflərinin olmadığı 38 (19 x 2) surə var.

"Rəhman" kəlməsi isə Quranda 57 (19 x 3) dəfə qeyd edilir.

Quranda 30 fərqli rəqəm qeyd edilib.



Bal möcüzəsi — insanlara şəfa

Quranda qeyd edilən bütün bu rəqəmləri (təkrarlarını nəzərə almadan) toplayanda əldə edilən say 162.146-dır. Bu da 19-la 8534-in hasilidir: 1+2+3+4+5+6+7+8+9+10+11+12+19+20+30+40+50+60+70+80+99+100+200+300+1000+2000+3000+5000+50.000+100.000=162.146 (19 x 8534).

Bu 30 fərqli rəqəmə əlavə olaraq Quranda 8 ədəd kəsirli saydan bəhs edilir. Bunlar 1/10, 1/8, 1/6, 1/5, 1/4, 1/3, 1/2, 2/3-dir. Beləliklə, Quran özündə 38 (19 x 2) fərqli sayı ehtiva edir.

Quranın əvvəlindən etibarən 19 ayəyə sahib olan ilk surəsi "İnfitar" surəsidir. Bu surənin başqa bir xüsusiyyəti də axırıncı kəlməsinin "Allah" kəlməsi olmasıdır. Bu həm də Qurandakı axırdan 19-cu "Allah" kəlməsidir.

"Qaf" hərfi ilə başlayan 50-ci surədə 57 (19 x 3) "qaf" hərfi var. Əvvəlində "qaf" hərfi olan 42-ci surədə yenə 57 (19 x 3) ədəd "qaf" hərfi var. 50-ci surənin 45 ayəsi var. Bunları toplasaq, (42+53) yenə 95 (19 x 5) edir.

"Qaf" surəsinin ilk ayəsində Quran üçün işlədilən "məcid" kəlməsinin əbcəd dəyəri 57 (19 x 3)-dir. Yuxarıda da qeyd etdiyimiz kimi, surə içindəki "qaf" surələrinin cəmi də 57-dir.

"Qaf" surəsindəki "qaf" hərflərinin qeyd edildiyi ayələrin nömrələrini toplayanda 19-un 42 qatı olan 798 sayını əldə edirik. 42 isə başlanğıc hərfləri arasında "qaf" olan başqa bir surənin nömrəsidir.

"Nun" hərfi yalnız 68-ci surənin əvvəlində qeyd edilir. Bu surədəki "nun" hərflərinin cəmi 133 (19 x 7)-dür.

Surə nömrələri 19-un qatı olan surələrin ayə saylarını ("Bismillah" da daxil olmaqla) toplayanda 266 (19 x 4) alınır.

"Ya" və "sin" hərfləri "Yasin" surəsinin əvvəlində mövcuddur. "Sin" hərfi "Yasin" surəsində 48 dəfə qeyd edildiyi halda, "ya" hərfi 237 dəfə qeyd olunub. Bu iki hərfin cəmi 285 (19 x 15)-dir.

Yalnız bir surə - 7-ci surə "əlif", "lam", "mim", "sad" başlanğıc hərfləri ilə başlayır. "Əlif" hərfi bu surədə 2529 dəfə, "lam" hərfi 1530 dəfə, "mim" hərfi 1164 dəfə və "sad" hərfi 97 dəfə qeyd edilmişdir. Bu qayda ilə 4 hərf bu surədə birlikdə 5320 dəfə qeyd edilir: 2529 + 1530 + 1164 + 97 = 5320 (19 x 280).

"Əlif", "lam", "mim" hərfləri ərəb dilində ən çox istifadə edilən hərflərdir. Bu hərflər bir yerdə 6 surənin - 2, 3, 29, 30, 31 və 32-ci surələrin əvvəlində yer almışlar. Bu 3 hərf 6 surənin hər birində cəmi 19-un qatı olaraq qeyd edilmişdir. Cərgə ilə [9899 (19 x 521), 5662 (19 x 298), 1672 (19 x 88), 1254 (19 x 66), 817 (19 x 43)]. Bu üç hərfin 6 surədə birlikdə qeyd edildiyi yerin sayı 19874 (19 x 1046)-dür.

"Əlif", "ləm", "ra" başlanğıc hərflərinin 10, 11, 12, 14 və 15-ci surələrdə birlikdə qeyd edildikləri yerlərin sayı 2489 (19 x 131), 2489 (19 x 131), 2375 (19 x 125), 1197 (19 x 63) və 912 (19 x 48)-dir.

"Əlif", "ləm", "mim", "ra" başlanğıc hərflərinin birlikdə qeyd edildiyi yer 1482 (19 x 78)-dir. "Əlif" hərfi 605 dəfə, "ləm" hərfi 480 dəfə, "mim" hərfi 260 dəfə və "ra" hərfi 137 dəfə qeyd edilmişdir.

"Kaf", "ha", "ya", "ayn", "sad" başlanğıc hərfləri ancaq bir surədə - 19-cu surədə qeyd edilmişdir. "Kaf" hərfi bu surədə 137 dəfə, "ha" hərfi 175 dəfə, "ya" 343 dəfə, "ayn" 117 dəfə və "sad" hərfi 26 dəfə qeyd edilmişdir. 5 hərfin cəm olaraq qeyd edildiyi yerlərin sayı 137 + 175 + 343 + 117 + 26 = 798 (19 x 42)-dir.

Bu mövzudakı başqa qeydlər isə belədir.

Bütün Quranda:

-"ətiu" (itaət edin) kəlməsi 19 dəfə;

-"abd" (qul, bəndə), "abid" (qulluq edən) və "ibadət" kəlmələri isə cəmi 152 (8 x 19) dəfə qeyd edilir.

Allah`ın adlarından aşağıda nümunə kimi verilən bəzilərinin sayının əbcəd dəyəri də 19-un qatlarıdır.

- "Vahid" (tək) 19 (19 x 1)

- "Cami" (toplayan) 114 (19 x 6)

Fövqəladə bir rəqəm – 19

On doqquz 9 və 10 rəqəmlərinin ilk qüvvətlərinin cəmidir. 9 və 10 rəqəmlərinin ikinci qüvvətləri arasındakı fərq də 19 edir.

Günəş, Ay və Yer hər 19 ildə bir eyni nöqtədə cərgə ilə düzülürlər.254

Halley quyruqlu ulduzu hər 76 (19 x 4) ildə bir Günəş sisteminin içindən keçir.255

İnsan bədənində 209 (19 x 11) sümük var. Əldəki sümüklərin sayı da 19-dur.

19 rəqəminin Paskal üçbucağındakı yeri

Nəticə:

İlk 19 rəqəmin cəmi 19-un qatıdır.

İlk 19 rəqəmin cəmi 19-un qatıdır.

İlk xanada yerləşən 1-lərin sayı 19-dur.

Paskal üçbucağını əsas olaraq alanda 3 bölünə bilən bütün sayların cəmi 96 edir. 96 da ilk vəhy edilən surənin nömrəsidir.

Paskal üçbucağındakı rəqəmlərin başlarında 19 ədəd 1 rəqəmi var.

Quran ayələrinin göndərilmə sırasına görə 19 şifrinin Paskal üçbucağı ilə əlaqəsi

İlk vəhy olan 96-cı surə axırdan 19-cu surədir. Bu surə 19 ayədən ibarətdir və burada cəmi 285 (19 x 15) hərf var. Vəhyin ilk 5 ayəsində isə 76 (19 x 4) kəlmə var.

İkinci olaraq vəhy edilən 68-ci surədə vəhy olunmuş ilk ayələr də 38 (19 x 2) kəlmədən ibarətdir.

Üçüncü vəhy olan 73-cü surə isə 57 (19 x 3) kəlmədən əmələ gəlir.

ƏLAVƏ HİSSƏ:

TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir. Beləliklə, Allah'ın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

Darvini məhv edən çətinliklər

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən "Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allah'ın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı "Nəzəriyyənin qarşısında duran çətinliklər" başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid

edirdi. Bunu kitabında tez-tez bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.

Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

Keçilməz ilk pillə: həyatın mənşəyi

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə

çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

Həyat həyatdan gəlir

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri "spontane generation" adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin "Növlərin mənşəyi" adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

"Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür". (Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

XX əsrdəki nəticəsiz səylər

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

"Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir". (Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.


İsti tüstüdən yaradılış

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. ("New Evidence on Evolution of Early Atmosphere and Life", Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982, səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. (Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü "Earth" jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

"Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb". (Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)

Həyatın kompleks quruluşu

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə

ehtimalını tamamilə aradan qaldırır. Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

- Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.

- Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.

- Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.

-Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki informasiya əsasında sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orcel “Scientific American” jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

“Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri

həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir". (Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, c. 271, Ekim 1994, səh. 78)

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

Təkamülün xəyali mexanizmləri

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: "Növlərin mənşəyi, təbii seleksiya yolu ilə..."

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və "Növlərin mənşəyi" adlı kitabında:

“Faydalı dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz”, - demək məcburiyyətində qalmışdı. (Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)

Lamarkın təsiri

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, “Növlərin mənşəyi” kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. (B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə “təkbaşına” və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

Neodarvinizm və mutasiyalar

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya

kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər. Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

"Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər". (Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir

şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

Fosillər: ara-keçid formalardan əsər-əlamət yoxdur

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları "ara-keçid forması" adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin "Növlərin mənşəyi"ndə bunu belə açıqlamışdır:

"Əgər nəzəriyyəm doğrudursa, növləri bir-biri ilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların

yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər". (Charles Darwin, The Origin of Species, səh. 172, 280)

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, "Növlərin mənşəyi" kitabının "Nəzəriyyənin qarşısında duran çətinliklər" (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

"Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?" (Charles Darwin, The Origin of Species, səh. 172, 280)

Darvinin puç olan ümidləri

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

"Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar

görürük". (Derek A. Ager, "The Nature of the Fossil Record", Proceedings of the British Geological Association, c. 87, 1976, səh. 133)

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə, bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

"Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar". (Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni "növlərin mənşəyi" Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

İnsanın təkamülü nağılı

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

Australopithecus

Homo habilis

Homo erectus

Homo sapiens

Təkamülçülər insanların ilk "meymunabənzər əcdadları"na "cənub meymunu" mənasını verən "australopithecus" adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki məşhur anatomun australopithecus nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. (Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, c. 258, səh. 389)

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də "homo", yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar australopithecuslardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: "Homo sapiensə uzanan zəncir halqası, əslində, itib", - deyərək bunu qəbul edir. (J. Rennie, "Darwin's Current Bulldog: Ernst Mayr", Scientific American, Aralık 1992)

Təkamülçülər "ausrtalopithecus > homo habilis > homo erectus > homo sapiens" ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri australopithecus, homo habilis və homo erectusun dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. (Alan Walker, Science,

c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, s. 221; M. D. Leakey, Olduvai Gorge, c. 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)

Habelə, homo erectus sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, homo sapiens neandertalensis və homo sapiens sapiens (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. (Time, noyabr 1996)

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

"Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər". (S. J. Gould, Natural History, c. 85, 1976, səh. 30)

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə australopithecus fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret

faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın "təkamülü" yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

"Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri belə mümkündür". (Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

Darvin formulu!

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.


Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və

təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından “Darvin formulu” adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər. Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər. Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. Maddə ancaq Allah’ın üstün yaratması ilə həyat qazanır. Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə

zidd cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.



Göylərdəki nizam — elmin kəşfləri

Göz və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl "Necə görürük?" sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir. Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz. 100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü

əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə, xarici aləm nə qədər səs-küylü olsa da,

beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır. Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir. Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

Beyinin içində görən və eşidən şüur kimə aiddir?

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox

şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allah'ın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə sm3-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allah'ı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

Materialist inanc

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır. Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün

mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda, qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

"Bizim materializmə bir inancımız var, bu "a priori" (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan "a priori" bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik". (Richard Lewontin, "The Demon-Haunted World", The New York Review of Books, 9 Ocak, 1997, səh. 28)

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allah'ın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allah'dır.

Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır. Bu səbəbdən, təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur. Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allah'ın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

> *Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir!*
>
> **(Bəqərə surəsi, 6-7)**

> *... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır!*
>
> **(Əraf surəsi, 179)**

Allah "Hicr" surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

> *Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər.*
>
> **(Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar. Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı,

həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

> *(Musa:) "Siz atın", - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər.*
>
> **(Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

> *Biz də Musaya: "Əsanı tulla!" - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər.*
>
> **(Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

"Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım. Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar". (Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar "təsadüf"lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

...Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur!

> *Həqiqətən, Sən bilənsən, müdriksən!*
>
> **(Bəqərə surəsi, 32)**

KİTAB HAQQINDA

Allah bütün insanları bu dünya həyatında Ona qulluq etsinlər deyə yaratmışdır. Qulluq etməyin yolu isə, Qurana tabe olmaqla mümkündür.

Bu mübarək Kitabı, insanların onun ayələrini düşünüb anlaması ve ağıl sahiblərinin də xatırlamaları için Allah indirmişdir. Quran yalnız haramları və halalları əhatə edən kitab deyil. İçində gözəl əxlaqı, müxtəlif mövzuları, imani həqiqətləri, keçmiş ümmətlərin tarixlərini, ölüm sonrası həyatı və qiyamət gününü əhatə edən bütün lazımlı məlumatlar vardır.

Quran bəzilərinin sandığı kimi yalnız 1400 il əvvəlki hadisələrdən bəhs edən kitab deyil. İçində yazılanlar, qiyamətə qədər gələcək bütün insanların da layiqlərini əks etdirir. Quranın, insanın həyatındakı əhəmiyyətini və lazımlılığını fərqinə varan müsəlmanın Allaha olan məhəbbəti və bağlılığı da artmaqdadır.

Əlinizdəki bu kitab, Allahı tanımanı, qulluq vəzifəsini əskiksiz yerinə yetirməyi, Qurandakı əxlaqı yaşamağı və Quranın möcüzələrini görməyi, başqa insanlara da çatdırmağı hədəfləyir.

— HARUN YƏHYA —

MÜƏLLİF HAQQINDA

Harun Yəhya imzasından istifadə edən Adnan Oktar, 1956-cı ildə Ankarada anadan olub. 1980-ci illərdən bəri imani, elmi və siyasi mövzularda bir çox əsər yazıb. Bununla yanaşı, müəllifin təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla qaranlıq əlaqələrini üzə çıxaran çox mühüm əsərləri var.

Müəllifin bütün əsərlərindəki ortaq məqsəd Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi əsas imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və batil əməllərini nümayiş etdirməkdir. Belə ki, müəllifin bu günə qədər 73 müxtəlif dilə tərcümə edilən 300-dən çox əsəri dünya səviyyəsində geniş oxucu kütləsi tərəfindən oxunur. Harun Yəhya Külliyyatı, Allahın izni ilə XXI əsrdə dünyadakı insanları Quranda bəhs edilən hüzur və sülhə, doğruluq və ədalətə, gözəllik və xoşbəxtliyə aparmağa səbəb olacaqdır.